RAFİQ BƏY İSMAYIL
NƏRGİZ AXUNDOVA

# ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİNİN ÇAĞDAŞ TARİXİ

(1945 - 2000 - Cİ İLLƏR)

I - ci KİTAB

(UZAQ, CƏNUB-ŞƏRQİ, CƏNUBİ VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ)

Çaşıoğlu
Bakı - 2001

**Elmi redaktorlar:** Tarix elmləri doktoru, prof. **İ.Musayev**
Tarix elmləri namizədi, dosent **R.Aslanov**

**Rə'yçilər:** Tarix elmləri namizədi, dos. **A.Bağırova**
Tarix elmləri namizədi, dos. **A.Məmmədov**
Tarix elmləri namizədi, dos.**H.Hüseynova**

**Rafiq bəy İsmayıl, Nərgiz Axundova.** Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər) (Uzaq,Cənub-Şərqi, Cənubi və Mərkəzi Asiya ölkələri). Bakı: Çaşıoğlu, 2001. – 400s.

Annotasiya: Kitab Uzaq, Cənub-Şərqi, Cənubi və Mərkəzi Asiya ölkələrinin ikinci dünya savaşından günümüzə qədər olan tarixindən bəhs edir. Çağımızda dəyişən dünya şərtlərinin Yaponiya, Çin, Koreya, Cənub-Şərqi Asiya, Hindistan, Pakistan və s. kimi ölkələrin tarixindən yan keçməməsi, region ölkələrinin dünya tarixində yerinin və rolunun artması, onların istər siyasi, istərsə də iqtisadi cəhətdən inkişaf etmiş Qərb ölkələri ilə inteqrasiyası və bu zəmində ayrı-ayrı ölkələrin öz inkişaf kursunu müəyyənləşdirməsi məsələlərinin tərəfsiz tarixçi baxımından araşdırılması və dəyərləndirilməsi kitabın məzmununu təşkil edir. O, Asiya ölkələrinin tarixini öyrənənlər və öyrədənlər üçün nəzərdə tutulmuşdur.

$R\frac{0503010000-385}{082-01}$

© «Çaşıoğlu» nəşriyyatı, 2001

# GİRİŞ

1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması haqqında aktın imzalanması ilə ikinci dünya müharibəsi başa çatmış oldu. Bu müharibə bütün dünya xalqlarının taleyində dərin izlər buraxdı, dünya tarixinin inkişaf istiqamətlərinə güclü təsir göstərdi. Qeyd etmək lazımdır ki, ikinci dünya müharibəsi öz nəticələri baxımından ümumi şəkildə 1914-1918-ci illərin birinci dünya müharibəsini xatırladır. Ancaq ondan fərqli olaraq II dünya müharibəsindən sonrakı dövrdə yeni dünya düzəninin formalaşmasında daha geniş və daha çox qüvvələr iştirak etməyə başladılar və bu qüvvələr arasındakı münasibətlərdə daha çox aydınlıq yarandı, dünyanın inkişaf istiqaməti daha açıq görünməyə başladı. Başqa sözlə desək, dünya tarixi daha çox bütövləşdi və bu tarixin yaranmasında iştirak edən millətlərin, irqlərin və dinlərin sayı artdı. Bir qədər irəliyə gedərək söyləyək ki, II dünya müharibəsinin ən ümumi və ən böyük nəticəsi bu gün, demək olar ki, dünyada yaşayan bütün millətlərin (təbiidir ki, bəzi istisnalar olmaqla- müəl.) öz istiqlalına qovuşması, öz dövlətini yaratması və dünya birliyinin, nisbi də olsa, tam və bərabər hüquqlu üzvünə çevrilməsidir. Ancaq dünyamızın bu günkü görünüşü heç də asan və az zaman kəsiyində yaranmamışdır. Birincisi, oradan başlayaq ki, II dünya müharibəsi tarixin gördüyü ən dağıdıcı və ən dəhşətli müharibə oldu. Müharibənin getdiyi 6 ildə ölkələr dağılmış, torpaqlar yanmış, dövlətlər çökmüş, milyonlarla insan məhv edilmişdi. Bu müharibə, sözün həqiqi mənasında bütöv bir dünya müharibəsi olmuşdur. Onun təsirini hiss etməyən heç bir ölkə və xalq olmamışdır,- söyləsək, səhv etməmiş olarıq. Müharibə başa çatdıqdan sonra da dünyanın və insanlığın sülhə qovuşması, barışa gəlməsi ağrılı-acılı, qanlı-qadalı illər və odlu-alovlu hadisələrdən, ağır iztirablardan yan ötməmişdir. Millətlərarası mübarizələr, böyük dövlətlərin rəqabəti və onların dəstək verdiyi regional müharibələr bəşəriyyəti müəyyən zamanlarda üçüncü bir dünya müharibəsinin kəndarına qədər gətirmişdir. Doğrudur, belə bir müharibə olmamışdır, ancaq sülh də olmamışdır. Dünya «soyuq müharibə» atmosferində yaşamışdır, həyacanlı illər keçirmək zorunda qalmışdır.

Müharibədən keçən dövr ərzində dünyamızın düzəni dəyişmişdir, dünyanın siyasi xəritəsi yenidən cızılmışdır. I dünya müharibəsindən sonrakı dünya XIX əsrin dünyasından çox fərqli olduğu kimi, 1945-ci ildən sonrakı dünya da 1918-ci il dünyasından çox fərqli

bir görkəm almışdır. Təbiidir ki, bunların baş verməsində də müəyyən amillər həlledici rol oynamışdır.

Bəs həmin amillər hansılardır ?

Bu amillərdən birisi odur ki, müharibədən sonra dünya siyasətində iki yeni qüvvə, super-dövlət adlandırılan Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı hakim mövqe sahibi oldu. Dünyanın taleyinin həllində bu iki dövlətin üstünlüyü uzun müddət - Sovet İttifaqının çöküşünə qədər davam etmişdir. Özünü Sovet İttifaqının varisi elan etmiş Rusiya Federasiyası hazırda sələfinin yerini tutmaq üçün var gücü ilə səylər və cəhdlər göstərməkdədir. Həm də bunu demək istərdik ki, bu iki dövlətin heç biri müharibəyə qədər dünya siyasətində həlledici rola malik deyildilər. ABŞ Monroe doktrinasına[1] görə özünü dünya siyasətinin əsas mərkəzi olan Avropadan təcrid etmişdi və onu daha çox yeni qitə ölkələrinin taleyi maraqlandırırdı. ABŞ-ın Avropa məsələlərində, eləcə də Avropa ilə üzvi surətdə bağlanmış Asiya və Afrika ölkələrinin taleyində rolu və iştirakı çox zəif idi, lakin yüksəlişə doğru idi. II dünya müharibəsində iştirak edən ABŞ zamanın şərtlərindən xeyli faydalandı, qüvvətləndi və müharibədən sonra Monroe doktrinasından imtina etdi və dünya siyasətində ön plana keçdi.

Sovet İttifaqına gəlincə, bu dövlət də II dünya müharibəsinin başlanmasına kimi ehtiyatlı bir siyasət yürüdürdü. Avropanın böyük dövlətlərindən kənarda dururdu və faktik olaraq özünü onlara qarşı qoymuşdu. Müharibədən qalib çıxan bu dövlət ilk gündən etibarən fəal və geniş miqyaslı siyasət yürütməyə, müharibənin nəticələrindən tam yararlanmağa başladı. Ərazilər tutdu və bir sıra dövlətlərdə öz rejimini qurdu, sosialist dövlətlər düşərgəsini genişləndirdi, elmi-texniki inkişafa malik oldu. Bütün bunların nəticəsində Sovet İttifaqı da ABŞ-la yanaşı dünya siyasətində həlledici söz sahibinə çevrildi.

Müharibəyə qədər dünyanın taleyinin həllini öz əllərində cəmləmiş Böyük Britaniya və Fransa ( onlar qalib dövlətlər idilər-müəl.), Almaniya, Yaponiya və İtaliya (onlar məğlub olmuşdular-müəl.) isə yenidən dirçəlmək üçün uzun zaman çalışmalı oldular, dirçələndən sonra belə artıq öz əvvəlki siyasi rollarını itirmişdilər və bir daha ön plana çıxa bilmədilər, özlərinin ikinci olmaq taleyi ilə barış-

---

[1] Monroe doktrinası 1823-cü il dekabrın 2-də ABŞ konqresində prezident C.Monroenin təklifi ilə qəbul olunmuşdu. Doktrinaya görə ABŞ əsasən Amerika qitəsi ölkələrinin qorunması ilə məşğul olmağı qərarlaşdırmışdı.

malı oldular.

Beləliklə də dünyada ABŞ başda olmaqla Qərbi Avropanın demokratik dövlətlər düşərgəsi və Sovet İttifaqı başda olmaqla Şərqi Avropa və Asiyada yaranmış kommunist dövlətlər düşərgəsi yarandı və yeni dünya düzəninin formalaşması bu iki düşərgənin arasında gedən mübarizənin gedişindən asılı vəziyyətə düşdü. Məhz bu mübarizə də müharibədən sonrakı dünya tarixinin məzmunu oldu.

Yeri gəlmişkən Sovet İttifaqının belə yüksəlişinin bir nəticəsini də qeyd etmək istərdik. O da bundan ibarət idi ki, ilk dəfə olaraq dövlətlərarası münasibətlərə, eləcə də bir sıra beynəlxalq məsələlərə yanaşmada müəyyən doktrina və ideoloji ünsürlər əsaslı rol oynamağa başlamışdır. Belə ki, dünya proletar inqilabı və kommunizmi bütün dünyada hakim sistem etmək istəyini öz fəaliyyət doktrinasına çevirən Sovet İttifaqı bütün xarici siyasət kursunu həmin zəmində qurur və aparırdı, beynəlxalq münasibətlər sisteminə öz doktrina və ideoloji maraqlarını gətirirdi.

İkinci dünya müharibəsindən sonrakı dövrdə yaranmış beynəlxalq vəziyyətə güclü təsir göstərən amillərdən birisi də müstəmləkəçiliyin bir sistem kimi ləğv olunmasıdır. Bu gün demək olar ki, rus əsarətində olan türk və müsəlman xalqları istisna edilərsə, Asiya və Afrikada uzun illər müstəmləkə rejiminin məşəqqət və iztirablarını yaşayan xalqların hamısı öz bağımsızlığına qovuşmuş, milli coğrafi hüdudlar daxilində öz dövlət süverenliyini qazanmışlar. 1956-cı ildə Afrikada cəmisi 6 bağımsız dövlət var idi. Təkcə 1960-cı ildə,- qeyd edək ki, həmin tarix « Afrika ili» adlandırılır, -Böyük Britaniya, Fransa, İtaliya və Belçika müstəmləkəsi olan 17 dövlət bağımsız oldu. 1973-1975-ci illərdə isə keçmiş Portuqaliya müstəmləkəsi olan ölkələr azad oldular. Hazırda Böyük Səhradan cənubda olan Afrikadakı bağımsız dövlətlərin sayı 50-ni keçmişdir. O ki qaldı Asiyadakı müstəmləkələrə, onlar lap elə müharibənin qurtarmasından az sonra öz istiqlalına qovuşmağa başlamış və bu proses qısa bir zaman kəsiyində başa çatmışdır. Məhz bundan sonra beynəlxalq siyasətə Üçüncü Blok, Üçüncü Dünya ölkələri və ya Bağlantısızlar Bloku (Bloklara qoşulmayan ölkələr) adlandırılan yeni bir qüvvə daxil olmuşdur.

Məhz bu prosesin nəticəsi idi ki, dünya siyasətinin formalaşma məkanı xeyli genişləndi, daha böyük miqyaslı oldu. Belə ki, 1945-ci ilə qədər beynəlxalq siyasətin və münasibətlərin ən güclü, ən fəal və əhatəli cərəyan etdiyi məkan Avropa idi, Avropa dövlətləri idi.

Dünyanın bütün taleyüklü məsələləri məhz burada həll olunurdu, bəşəriyyət üçün taleyüklü qərarlar Avropada qəbul edilirdi. Avropa siyasəti dünya siyasəti demək idi. Asiya, Afrika və Latın Amerikası dövlətləri və millətləri ən azı XX əsrin ortalarına kimi bu prosesdən kənarda qalmış, tarixin subyekti olmaqdan daha çox obyekti rolunda çıxış edirdilər. Onların taleyi və tarixi Avropada və avropalılır tərəfindən müəyyənləşdirilirdi. Ancaq indi elə deyildir. Çin Xalq Respublikası və Hindistan kimi iki böyük və əhalisi çox olan ölkənin meydana çıxması, Yaponiya kimi bir ölkənin yalnız Asiyada deyil, bütün dünyada bir iqtisadi güc olaraq özünü yenidən təsdiqi ilə Asiya qitəsi beynəlxalq siyasətin formalaşdığı bir məkana çevrilmişdir. 50-dən çox müstəqil dövləti olan Afrika qitəsi artıq əvvəlki dövrlərin başdan-başa müstəmləkələr məskəni olan Qaralar Afrikası deyil. İndi o, dünya birliyinin üzvi bir parçasıdır. Latın Amerikası ölkələri də həmçinin.

Bu qitələrdə yerləşən dövlətlər Asiya-Afrika-Latın Amerikası qrupu və ya üçüncü dünya ölkələri adı ilə tanınırlar.

Bu da maraqlıdır ki, siyasi fəallıq məkanının genişlənməsi təkcə yer kürəsinin üzəri, səthi hesabına olmamışdır. Siyasi fəallıq məkanı, əgər belə demək mümkündürsə, kosmosa doğru istiqamət almış və qısa zaman kəsiyində kosmos dünyanın taleyinin həllində böyük dövlətlərin iştirak payını müəyyənləşdirən bir meydan olmuşdur. Bəllidir ki, birinci dünya müharibəsi quruda və dənizdə aparılmışdı. İkinci dünya müharibəsinin taleyini, başqa sözlə, quruda və dənizdə aparılan hərbi əməliyyatların uğurlu olmasını, «hava», yəni aviasiya həll etmişdir. Əslində bununla da «hava»da güclü olmaq uğrunda böyük dövlətlər arasında yarışın əsası qoyulmuşdur. Lakin sonralar raket texnologiyasının sürətli inkişafı, güc mərkəzləri arasındakı mübarizənin atmosferi də aşaraq kosmosa çıxmasına gətirmişdir. Bu mübarizə ABŞ və Sovet İttifaqı arasında bütün şiddəti ilə getmişdir, sonra isə buna digər dövlətlər, o cümlədən Asiya dövlətləri də qoşulmuşlar. Bir zamanlar müstəmləkə sahibi olmaq böyük və güclü dövlət olmağın göstəricisi sayılırdısa, indi də kosmosun dərinliklərinə gedib çıxmaq, ən azı oraya əl atmaq böyük güc və böyük dövlət olmanın şərtinə çevrilibdir. Dediyimiz kimi, bu şərtə yiyələnmək uğrunda mübarizə iri Asiya dövlətlərinin əsas məqsədlərindən biri olmuşdur.

Bu günkü dünyamızın ən mühüm məsələlərindən biri də iqtisadi amilin son dərəcədə güclənməsidir. Deyilə bilər ki, tarixin elə

bir dövrü olmayıbdır ki, orada iqtisadi amilin rolu olmamış olsun. Bəli, bu belədir. Lakin ikinci dünya müharibəsindən sonrakı dövrdə beynəlxalq aləmdə müəyyən bir sistem yaradılmasında, müəyyən dövlət və ya dövlətlər birliyi arasında münasibətlər yaradılması və ya tənzim edilməsində iqtisadi amil tarixdə heç bir zaman indiki qədər mühüm rol oynamamışdır. Günümüzdə bütün dünya ölkələri siyasi güc balansı, təhlükəsizlik və sülh kimi məsələlərdən daha çox iqtisadi inkişaf, rifah, daha yüksək həyat səviyyəsi kimi məsələlərə önəm verir və məhz bu məsələlərlə daha geniş ölçüdə məşğul olurlar. Bunun nəticəsidir ki, müasir beynəlxalq münasibətlər sistemində iqtisadi amilin xüsusi çəkisi gündən günə artmaqdadır. Zəngin və yoxsul ölkələrlə, iqtisadi cəhətdən geri qalmış ölkələr və inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasındakı fərqləri iqtisadi və ticarət münasibətləri və iqtisadi yardım münasibətləri yolu ilə aradan qaldırmaq müasir dünyamızın həyatının təməl prinsiplərindən biridir və bəlkə də ən mühümü və ən geniş miqyaslısıdır.

Bir daha təkrar edirik ki, bütün bunlar müasir dünyamızın mövcudluğunun ümumi təməlləridir və dünyada baş verən elə bir hadisə yoxdur ki, haqqında danışdığımız məsələlərdən kənarda baş versin. O ki qaldı Asiya və Afrika ölkələrində baş verən dəyişikliklərə, ümumiyyətlə regionun bu günkü durumuna, bu baxımdan bir sıra mühüm hadisələrə toxunmaq istərdik.

Bunlardan ən mühümü odur ki, irəlidə də qeyd etdiyimiz kimi, regionun Avropa dövlətlərinin müstəmləkəsi olan ölkələri zaman-zaman öz istiqlalına qovuşdu, dünyanın siyasi xəritəsinə çıxan onlarla Asiya və Afrika dövlətləri müasir dünyamızın həyatında fəal iştirak etməyə başladılar. Regionda müxtəlif tipli rejimlər və dövlətlər yarandı: 1) demokratik inkişaf yolu seçən dövlətlər; 2) sosialist təmayüllü dövlətlər; 3) sosialist dövlətləri. Bu rejimlərin bə'ziləri təcrübədə özünü doğrultmadı, sıradan çıxdı, ümümdünya demokratik inkişaf xətti ilə intiqrasiyaya getdi, dəyişən dünyanın dəyişən şərtlərini həyat prinsipinə çevirdi, öz inkişafını yeniləşmədə gördü və tərəqqiyə qovuşdu. Bəziləri isə öz ideoloji doktrinalarından heç cür əl çəkmir, yoxsulluq və səfalət içində çabalayır. Bu baxımdan Şimali Koreyanı misal gətirmək istərdik.

İstiqlaliyyət illərində bütün Asiya və Afrika ölkələri müstəmləkə əsarətindən miras qalmış iqtisadi strukturu yenidən qurmaq sahəsində ciddi səy və cəhdlər göstərmişlər. Aqrar sahədə, demək

olar ki, bütün ölkələrdə torpaq islahatları keçirildi. Sənaye və ticarət sahəsində bir sıra ölkələrdə mövcud strukturların milliləşdirilməsi həyata keçirildi. Bu, ilk növbədə sosialist inkişaf yolu seçən ölkələr üçün xarakterdir. Başqa bir qrup ölkələrdə dövlət sənaye və ticarət bölmələri yaradıldı və iqtisadi həyatda onların rolu və yerinin həlledici olmasına çalışıldı. Üçüncü qrup ölkələr isə liberal dəyərlərə əsaslanan iqtisadi inkişaf yolunu seçdi və inkişafa o biri dövlətlərdən daha tez qovuşdu. Məsələn, Yaponiya kimi.

İstər aqrar, istərsə də sənaye-ticarət sahələrində kooperativlərin yaradılması təcrübəsinin genişləndirilməsi də bir sıra Asiya və Afrika dövləti üçün xarakter siyasət kursu oldu və olaraq da qalır.

Siyasi həyata gəlincə, bir sıra ölkələr, xüsusilə Asiya ölkələri demokratik rejimdə yaşamaq təcrübəsinə başladılar. Doğrudur, bu proses ağır və ağrılı keçmişdir, çoxlu çətinliklər yaratmışdır, lakin sonra möhkəmlənə bilmişdir və həmin ölkələrdə siyasi plüralizm həyatın reallığına çevrilmişdir.

Ancaq sosialist inkişaf yolu seçmiş olan Asiya və Afrika ölkələrində isə totalitar həyat tərzi siyasi normaya çevrildi və xalqların siyasətdən uzaq və itaətkar kütləyə çevrilməsinin təməlində dayandı.

Siyasi həyatla bağlı bir xarakter cəhəti xüsusilə qeyd etmək istərdik ki, bu da ordu ilə bağlıdır, siyasi həyata hərbçilərin zaman-zaman fəal qarışması ilə bağlıdır. Bu baxımdan istər Asiya, istərsə də Afrikanın bütün ölkələri müəyyən təcrübəyə malikdirlər. Tez-tez dövlət çevrilişləri, dövlətlərin başına hərbçilərin gətirilməsi, dövlət həyatının bütün sahələrinə hərbçilərin nəzarət etmək cəhdləri və sairə, demək olar ki, Asiya və Afrikanın əksər ölkələrində baş vermişdir və hətta bəzi hallarda xroniki hala çevrilmişdir.

Ümumiyyətlə, hakimiyyətə gəlməyin silahlı yolla həyata keçirilməsi bir sıra region ölkələri üçün başlıca istiqamət olmuşdur. Bu baxımdan əsasən Asiya ölkələri, daha çox isə kommunist ideyalarına xüsusi maraq göstərən Cənub-Şərqi Asiya ölkələri fərqlənirlər. Lakin ilk təcrübəni isə Çin kommunistləri göstərmişlər. Bu gün də siyasi hakimiyyəti ələ keçirmək üçün Cənub-Şərqi Asiyanın cəngəlliklərində kifayət sayda kommunist partizanlar silahlı mübarizə aparır, günahsız qanların tökülməsinə, iztirablara və sıxıntılara gətirən hərbi əməliyyatlar aparırlar. Lakin bununla yanaşı onu da qeyd etmək istərdik ki, elə məhz həmin ölkələrin özlərində demokratik dəyərlərə üstünlük verilməsi meyli get-gedə yüksəlməkdədir.

Bu da maraqlıdır ki, son dövrlərdə, xüsusilə bütün Asiya və Afrika ölkələri üçün total düşüncə tərzindən xilas olmaq uğrunda mübarizə gedir və bir sıra ölkələrdə bu mübarizə qələbə çalmışdır. Hətta liberal dəyərləri qəbul etməyən siyasi qüvvələr belə, məsələn Çində və Vyetnamda, təcrübədə həmin dəyərlərin özünü daha çox doğrultması baxımından ən azı iqtisadi həyatda onların tətbiqinə imkanlar yaradırlar.

Ümumiyyətlə, regionun çoxlu problemləri var. Bunların ən başlıcası odur ki, Asiya və Afrika ölkələri II dünya müharibəsindən keçən dövrdə bir gün də olsun silahlı toqquşmalarsız olmamışdır. Koreya, Vyetnam, Cənub-Şərqi Asiya ölkələri, Hind-Çin ölkələrində, Əfqanıstan və Yəməndə, bir sıra Afrika ölkələrində gedən vətəndaş müharibələri, Pakistan-Hindistan, Çin və qonşuları, Vyetnam və qonşuları, Ərəb dövlətləri və İsrail, İran-İraq, İraq-Kuveyt və müxtəlif Afrika ölkələri arasında müharibələr baş vermiş, bəzi ölkələrdə daxili hərbi qarşıdurmalar bugün də davam etməkdədir.

Doğu Türküstan, Tibet, Kəşmir, Fələstin və s. kimi problemlər heç cür həll oluna bilmir. Asiya və Afrika ölkələri XXI əsrə bu qəbildən olan çoxlu problemlərlə qədəm qoymalı olmuşdur.

Ümidverici hal odur ki, bütün dünyada 90-cı illərdə baş verən çox köklü dəyişikliklər prosesi Asiya və Afrika ölkələrinə də güclü təsir göstərmişdir. Regionun çox ölkələri dünya proseslərində daha yaxından iştirak edir, siyasi və iqtisadi sahələrdə istər dünya, istərsə də region miqyasında hərtərəfli əməkdaşlığa qoşulur və dünyamızın bütövləşməsində əvəzsiz xidmətlər göstərirlər. Çin, Yaponiya, İndoneziya, Hindistan, Pakistan, İran, Türkiyə, Misir və s. kimi dövlətlər dünyanın güclü dövlətlərinin etibarlı müttəfiqlərinə çevrilmişdir. Planetin taleyüklü problemlərinin həlli indi onlardan da asılıdır. Yaponiya dünyanın iqtisadi cəhətdən ən güclü yeddi dövlətindən biri kimi dünyanın ən başlıca iqtisadi problemlərinin həllində iştirak edir.

Təbiidir ki, bu cür misalları çox da söyləmək olardı. Lakin oxuculara təqdim olunan bu kitabda həmin məsələlər haqqında hər bir ölkənin timsalında lazımı qədər danışıldığından ümumi fikrimizi və mülahizələrimizi yekunlaşdırmaq istərdik.

Onu da bildirmək istərdik ki, bu kitab ali məktəblərimizdə tədris olunan Asiya və Afrika ölkələri tarixi üzrə dərslik kimi nəzərdə tutulmuşdur. Dərsliyi hazırlarkən hadisələrə münasibətdə tərəfsiz mövqe tutulmuşdur. Çalışılmışdır ki, tarixi prosesləri izlərkən ideoloji

ehkam və təlimlərdən uzaqda durulsun, elmi obyektivlik gözlənilsin və qorunsun.

Kitab Asiya və Afrika ölkələri tarixi kursunun bir hissəsini əhatə edir və burada Uzaq, Cənub-Şərqi, Cənubi və Mərkəzi Asiya dövlətlərinin tarixi öz əksini tapmışdır. Qalan dövlətlərin tarixi sonrakı kitablarda təqdim olunacaqdır.

Kitabın yazılmasında Türkiyə, Rusiya və digər ölkələrdə dərc olunan müvafiq kitablardan, əsərlərdən və dövri mətbuatın məlumatlarından istifadə olunmuşdur.

Dərslik Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında hazırlanmış və onun «Giriş», «Yaponiya», «Koreya», «Çin», «Monqolustan», «Hindistan», «Pakistan», «Banqladeş», «Şri-Lanka», «Nepal» bölmələri dosent Rafiq bəy İsmayıl, Cənub Şərqi Asiya ölkələri: «Vyetnam», «Laos», «Kamboca», «Tayland», «Myanma İttifaqı», «İndoneziya», «Malayziya», «Sinqapur», «Filippinlər», «Bruney» bölmələri isə dosent Nərgiz Axundova tərəfindən yazılmışdır.

Müəlliflər bu kitabın hazırlamasında əməyi keçən hər bir həmkarına, tələbələrinə və texniki işçilərə dərin təşəkkür və hörmətlərini bildirirlər.

# YAPONİYA

## *Amerika işğal rejimi və nəticələri*

Bəlli olduğu kimi 1945-ci ilin fevral ayında Yaltada keçirilən konfransda üç müttəfiq dövlət - Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Sovet İttifaqı arasında bağlanan sazişin şərtlərinə görə Almaniyanın təslimindən və Avropada müharibənin başa çatmasından sonra SSRİ Asiyada gedən hərbi əməliyyatlara qoşulmalı və Yaponiyaya qarşı müharibəyə girməli idi. Əvəzində ona Cənubi Saxalinin və Kuril adalarının qaytarılması vəd olunurdu. Buna görə də Sovet hökuməti aprel ayının 5-də əvvəllər Yaponiya ilə imzaladığı bitərəflik haqqında sazişin qüvvədən düşdüyünü bəyan etdi. Bəyanatda bildirilirdi ki, Yaponiya SSRİ-yə qarşı müharibədə Almaniyaya kömək göstərmiş və SSRİ-nin müttəfiqləri olan ABŞ və Böyük Britaniya ilə müharibə aparır. Bu səbəbdən iki dövlət arasında mövcud olan «bitərəflik haqqında pakt» öz əhəmiyyətini itirmişdir.

Almaniyanın təslimindən bir qədər sonra 1945-ci ilin iyulunda Potsdamda keçirilən konfransda müttəfiqlərin imzaladığı Bəyannamədə isə Yaponiyadan tələb olunurdu ki, qeydsiz-şərtsiz təslim olsun. Lakin Yaponiya bu ultimatumu rədd etdi. Yapon hökuməti mümkün olan bütün vasitələrlə müharibəni davam etdirməkdə qərarlı idi və həlledici döyüşlər üçün geniş səfərbərlik tədbirlərinə başladı. Qeyd etmək lazımdır ki, Yaponiya bu zaman kifayət qədər güclü idi. 1945-ci ilin yayında təkcə yapon quru qüvvələri 4 milyon nəfərdən çox idi. Məhz bu ordu da əsas zərbə qüvvəsi sayılırdı. Amerika hərbçilərinin hesablamasına görə Yaponiyanı yalnız 1947-ci ildə təslim etmək mümkün ola bilərdi və bu da ABŞ-a ən azı bir milyon hərbçi itirmək bahasına başa gələrdi.

Belə bir şəraitdə yapon generallarının ABŞ ordusunun haradan hücüm edə biləcəyi variantları üzərində düşündükləri və baş sındırdıqları vaxtda nəinki Yaponiyanı, bütün dünyanı lərzəyə salan müdhiş bir hadisə baş verdi: avqustun 6-da amerikalılar tərəfindən dünyanın ilk atom bombası Xirosima limanı üzərinə atıldı və bu şəhər əhalisi ilə birlikdə bir anda yox oldu. Bu müdhiş hadisə avqustun 9-da Naqasakidə təkrar edildi. Xalq və hökumət dünya hərb tarixində indiyəcən görünməyən bu dəhşətli ölüm silahının sınağının törətmiş olduğu kütləvi insan qırğını və dağıntılardan bir anda sarsıldı və özünü itirmiş oldu. Belə bir bombanın Tokio üzərinə atılması fikrinin

ölkədə yaradacağı qorxu və dəhşət hissini təsəvvür etmək çətin deyildi.

O biri tərəfdən isə avqustun 8-də Moskvadakı yapon səfirinə Sovet hökumətinin bəyanatı təqdim edildi. Orada bildirilirdi ki, Sovet İttifaqı bir müttəfiq dövlət kimi ABŞ, Böyük Britaniya və Çinin yapon hərbi qüvvələrinin danışıqsız təslim olması tələbinə qoşulur, əgər qarşı tərəf bu tələbi yerinə yetirməkdən imtina edərsə, o özünü 1945-ci il avqustun 9-dan etibarən Yaponiya ilə müharibə vəziyyətində hesab edəcək. Beləliklə, Sovet İttifaqı Yaponiyaya qarşı müharibəyə başladı, sovet ordusu Mancuriyaya girdi. Buradakı yapon silahlı qüvvələri elə bir müqavimət göstərə bilmədilər. Qısa bir arada Mancuriya və Şimali Koreya sovet orduları tərəfindən işğal edildi, Mancur dövlətinin imperatoru və bütün yapon orduları əsir alındı.

Yaponiya çıxılmaz bir vəziyyətə düşdü. Avqustun 14-də imperator radio ilə yapon xalqına müraciət etdi və Yaponiyanın tamamilə təslim olduğunu bildirdi.

1945-ci il sentyabrın 2-də isə Yaponiyanın təslim olması haqqında aktın imzalanması mərasimi oldu. Aktda bildirilirdi ki, Yaponiya Potsdam Bəyannaməsinin şərtlərini qəbul edir və yapon silahlı qüvvələrinin apardığı bütün hərbi əməliyyatların dayandırılmasını təmin edir.

Beləliklə, Yaponiyanın təslim olması haqqında aktın imzalanması ilə Uzaq Şərqdə və Sakit okean hövzəsində hərbi əməliyyatlara son qoyuldu və ikinci dünya müharibəsi başa çatdı. Bundan iki həftə sonra isə Yaponiya ərazisi heç bir müqavimət göstərmədən amerika hərbi qüvvələri tərəfindən işğal olundu. Tarixdə ilk dəfə idi ki, yapon adaları düşmən tərəfindən işğala məruz qalırdı. Beləliklə də, Yaponiya 1945-ci ildən amerika işğal rejimi altına keçdi. İşğal rejimi 1952-ci ilə qədər davam etmişdir. Bundan sonra gələcək inkişaf baxımından ölkənin həyatında yeni bir dövr başladı. Onun da əsasında yapon xalqının militarist rejimdən xilas olması və ölkədə demokratik təməllərin yenidən qurulması vəzifələrini həll etmək dururdu, sosial-iqtisadi tərəqqiyə nail olmaq, pozitiv siyasi dəyişikliklər aparmaq məqsədləri dururdu. Bütün bunlar, qeyd etmək lazımdır ki, amerika hərbi idarəsi tərəfindən istiqamətləndirilir və dəstəklənirdi. Doğrudur, Potsdam konfransının qərarlarına əsasən ölkənin gələcək ümumi siyasi xəttini müəyyənləşdirmək üçün Yaponiya ilə müharibə edən ölkələrdən ibarət Uzaq Şərq Komissiyası, eləcə də ABŞ, Böyük Britaniya,

SSRİ və Çinin iştirak etdiyi yalnız məsləhət funksiyası olan İttifaq Şurası da yaradılmışdı. Ancaq onların mövcudluğu və fəaliyyəti formal xarakter daşımaqdan o yana getmirdi. Yuxarıda deyildiyi kimi, Yaponiya yalnız amerika orduları tərəfindən işğal olunmuşdu və buna görə də ölkə ilə bağlı bütün məsələlərin həllində ABŞ hərbi idarəsi başlıca rol oynayırdı. Qeyd etmək lazımdır ki, ABŞ hərbi idarəsinə də general Mak Artur rəhbərlik edirdi. Tarixçilər onu hətta bəzən «Yaponiyanın tacsız imperatoru» da adlandırırlar.

Qeyd etmək lazımdır ki, hansı dövlətin və ya hansı beynəlxalq təşkilatın rolunun necəliyindən asılı olmayaraq Yaponiyada keçirilməsi nəzərdə tutulan hər bir tədbir Potsdam Bəyannaməsinin şərtlərinə uyğun həyata keçirilirdi.

Potsdam Bəyannaməsində isə elan edilirdi ki, 1)Yaponiyada militarizmin həmişəlik və kökündən məhv edilməsi zəruridir; 2) yapon cəmiyyətində demokratik ənənələrin yaranmasına və möhkəmlənməsinə mane olan bütün əngəllər aradan götürülməlidir; 3) söz, etiqad və düşüncə azadlığı təmin olunmalıdır və nəhayət, 4) başlıca insan haqlarına hörmət edilməlidir. Məhz bunlar ölkədə qeyri-militarist və demokratik bir cəmiyyətin yaranmasına zəmin ola bilərdi. Bu baxımdan Potsdam Bəyannaməsinin tələblərinə uyğun olaraq aşağıdakı tədbirlər həyata keçirilməyə başlandı: hərbi təsisatlar və gizli polis ləğv edildi; faşist ruhlu qanunlar aradan qaldırıldı; militarist və şovinist təşkilatlar qadağan edildi; dövlət idarəsi və siyasi təşkilatlar hərbi-faşist fəaliyyətinin iştirakçısı olan şəxslərdən təmizləndi. Əsas hərbi cinayətkarlardan olan 28 nəfər, o cümlədən keçmiş baş nazirlər Todzio, Koyso, Hirata, Hiranuma, bir sıra generallar və diplomatlar beynəlxalq tribunalın mühakiməsinə verildi. 1948-ci ilin noyabrına qədər davam edən məhkəmə prosesi nəticəsində onlardan 8 nəfəri edama məhkum edildi. Qalanları isə müxtəlif müddətli və dərəcəli cəzalar aldılar. Siyasi məhbuslar azad edildi, siyasi partiyaların fəaliyyətinə icazə verildi. Artıq 1945-ci ilin sonlarında müharibəyə qədər mövcud olan partiyalar öz fəaliyyətlərini bərpa edə bildilər. Bunlardan müharibəyə qədər Seyyukay adlanan partiya 9 noyabrda Liberal partiya, Minseyto adlanan isə 16 noyabrda Mütərəqqi-Demokrat partiyası adı ilə yenidən təşkil olundular. Buna qədər 2 noyabrda Sosialist partiyası bərpa olunmuşdu. 1 dekabrda isə kommunistlər ilk dəfə olaraq leqal şəraitdə öz IY qurultaylarını keçirtdilər. Bir qədər irəli gedərək qeyd etmək istərdik ki, Liberal və Mütərəqqi-demokrat partiyaları

bir neçə dəfə yenidən təşkil olundular, ayrıldılar və birləşdilər. Nəhayət, onların bazasında 1955-ci ildə, tərkibində bir neçə fraksiya olsa da, vahid Liberal-demokrat partiyası təşəkkül tapdı. Həmin tarixdən sonrakı bütün dövrdə hakimiyyət əsasən Liberal-demokratların əlində olmuşdur. 1955-ci ilə qədər isə liberallar üstünlüyə malik idilər. Onların lideri İosida (o, iri daş kömür mədənlərinin sahibi idi) kiçik fasilə (1947-1948-ci illər) istisna olmaqla 1946-cı ildən 1954-cü ilə qədər baş nazir vəzifəsini tuturdu.

Əmək haqqında qanunlar qəbul edildi. Bu qanunlara görə işçilər kollektiv müqavilələr bağlamaq, tətillər etmək, həmkarlar təşkilatları yaratmaq hüququ əldə edirdilər. 1946-cı ilin avqustunda ölkədə iki böyük həmkarlar ittifaqları birliyi mövcud idi. Bunlardan birisi sol təmayüllü Həmkarlar İttifaqlarının Ümumyapon Konqresi idi ki, onun sıralarında əməkçilərin yarıya qədəri birləşmişdi. İkinci təşkilat isə Yaponiya Əmək Federasiyası adlanırdı. Ölkədə mövcud olan həmkarlar təşkilatlarının 1\4-i də bu federasiyaya daxil idi. Artıq 1949-cu ildə ölkədəki işçi və qulluqçuların yarıdan çoxu bu və ya digər xarakterli həmkarlar təşkilatlarında cəmləşmişdilər. Həmkarlar təşkilatlarının belə artımı ölkədə işçi və qulluqçuların öz hüquqları uğrunda mübarizəsinə əlverişli şərait yaradırdı. Elə bunun nəticəsi idi ki, həmin dövrdə bu mübarizənin artması və genişlənməsi müşahidə olunurdu. Onun səbəbləri isə istər müharibə, istərsə də məğlubiyyətdən sonrakı dövrdə ölkə həyatının müxtəlif sahələrində yaranmış olan çətinliklər idi: 1) iqtisadi vəziyyət son dərəcə ağırlaşmışdı. 1946-cı ildə sənaye istehsalının həcmi 1936-cı ildəkinin 30%-na bərabər idi; 2) hərbi istehsal sahələrinin dayandırılması, ordudan və donanmadan milyonlarla əsgər və zabitin tərxis olunması, keçmiş müstəmləkələrdən və işğal edilmiş ərazilərdən yaponların ölkəyə qayıtması çox böyük saylı - 10 mln nəfərlik işsizlər ordusu yaratmışdı. Gündən-günə artmaqda olan tətillər zamanı işçilər təminatlı minimum əmək haqqı, 8 saatlıq iş günü, müəssisə sahibləri hesabına sosial sığorta tələblərini irəli sürürdülər. Tətilçilər hətta bəzi hallarda istehsalat üzərində işçi nəzarəti də yaradırdılar. Təbiidir ki, bütün bunlar hökuməti və işğal rejimi idarəsini narahat etməyə bilməzdi. Odur ki, hər iki tərəf yaranmaqda olan ictimai quruluşu sosial sarsıntılar təsirindən qorumaq prosesində də birgə çıxış etməli oldular. Bununla da mövcud rejimi qoru-maq sahəsində yapon-amerika əməkdaşlığının özülü qoyulurdu. Qeyd etmək lazımdır ki, məhz bu əməkdaşlıq müharibədən sonrakı bütün

dövrlərdə Yaponiya xarici siyasətini müəyyənləşdirən amil olaraq qalmışdır.

1946-cı ilin iyununda hökumət istehsalat üzərində işçi nəzarətini xüsusi mülkiyyət hüququna bir qəsd kimi qiymətləndirirdi. 1947-ci ilin 1 fevralına təyin olunan ümumi tətil isə Mak Artur tərəfindən qadağan edildi.

Belə bir ictimai fəallıq aqrar sahədə də özünü göstərdi. Ölkənin ayrı-ayrı yerlərində kəndli təşkilatları yaranırdı. Nəhayət, 1946-cı ilin fevralında 4 min yerli təşkilat birləşdi və Ümumyapon Kəndli İttifaqını yaratdılar. Kəndlilər onlara torpaq sahələri verilməsi və kənd idarə sisteminin demokratikləşdirilməsi tələbləri ilə çıxışlar edirdilər. Onlar 1945-ci ilin dekabrında parlamentin qəbul etdiyi ilk aqrar islahat qanunundan narazı idilər. Çünki, bu qanun daha çox mülkədar torpaq sahibliyini qorumaq məqsədi güdürdü. Odur ki, parlament 1946-cı ilin oktyabrında yeni bir qanun qəbul etdi. Yeni qanun mülkədar torpaq sahibliyinin ləğvini nəzərdə tuturdu. Qanuna görə torpaq sahibləri onlara məxsus olan ərazinin yalnız 3 ha-nı saxlaya bilərdilər. Bu rəqəm Xokkaydo adasında 12 ha-ya bərabər idi. Qalan torpaqlar dövlət tərəfindən qiyməti ödənilməklə kəndlilərə, əsasən də icarədarlara satmaq üçün alınırdı. İcarə haqqı xeyli aşağı salınır, natural ödəmələr pulla əvəz olunurdu. Qanunun həyata keçirilməsi imkan verdi ki, o dövrə qədər icarəyə verilən torpaqların 3\4 hissəsi kəndlilərə satılsın, xırda kəndli mülkiyyətçiləri təsərrüfatı aqrar sahadə həlledici qüvvəyə çevrilsin.

Qanunun tətbiqi üç il (945-1949-cu illər) vaxt apardı və onun iki ciddi əhəmiyyətini də xüsusi ilə qeyd etmək lazımdır: 1) ölkədə sosial gərginliyi kifayət qədər aradan qaldırdı və hakimiyyət kəndlilərin tam dəstəyinə sahib oldu; 2) kənd təsərrüfatında yarım feodal münasibətlərin qalıqları aradan qaldırıldı və aqrar sahadə kapitalist münasibətlərinin normal inkişafı üçün əlverişli şərait yaradıldı.

İşğal rejimi dövründə görülmüş ən mühüm tədbirlərdən birisi də inhisarçı konsernlərin (dzaybatsu) ləğv edilməsi idi. Belə ki, yapon iqtisadiyyatına diqtə edən Mitsui, Mitsubisi, Sumitomo və Yasuda kimi dörd böyük şirkətin səhmləri satışa qoyuldu. Alıcılar da əsasən şirkətlərin öz işçiləri oldu. 1947-ci ildə isə ümumiyyətlə inhisarların qadağan edilməsinə yönəldilən qanunlar qəbul edildi.

1946-cı ilin aprelində parlament seçkiləri keçirildi. Seçkilərdə Liberal və Mütərəqqi-Demokrat partiyaları üstünlük qazandılar.

Parlament 1947-ci il 3 mayda ölkənin yeni konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə monarxiya rejimi saxlanılırdı. Lakin imperator əvvəlki mütləq hakimiyyətindən məhrum edilir, «millətin birlik simvolu»na çevrilirdi. Ali hakimiyyət ümumi səsvermə yolu ilə seçilən iki palatlı parlamentə məxsus oldu. Parlament hökuməti formalaşdırır, hökumət onun qarşısında məsuliyyət daşıyırdı.

Konstitusiyanın 9-cu maddəsində bu da deyilirdi ki, «yapon xalqı beynəlxalq mübahisələrin həllində bir vasitə kimi millətin suveren hüququ olan müharibədən, həmçinin təhdid etməkdən və silahlı qüvvə tətbiqindən həmişəlik imtina edir».

Ümumiyyətlə, konstitusiya o vaxta qədər qəbul olunmuş qanunları əhatə etməklə ölkədə demokratik və qeyri-militarist təməllərin bərqərar olmasını bir daha təsbit etdi. Əsası 1867-1868-ci illər islahatları ilə qoyulmuş yeniləşmə («Meydzi») kursu 1945-1947-ci illərdə həyata keçirilən tədbirlər nəticəsində daha da təkmilləşdirildi və başa çatdırılmış oldu. Ölkədə demokratik rejim yarandı. 1947-ci il apreldə parlamentə yeni seçkilər keçirildi. Seçkilərdə Sosialist partiyası, az fərqlə də olsa, birinci yerə çıxdı. Onun lideri T.Katayama koalisyon hökumət təşkil etdi. Partiyalar arası ziddiyyətlər T.Katayama kabinetinin 10 aydan sonra istefaya getməsinə səbəb oldu.

Amerika hərbi işğal idarəsinin Yaponiyada bu cür geniş demokratik və qeyri-militarist tədbirlər planını həyata keçirdiyi bir vaxtda Sovet İttifaqının Uzaq Şərqdə, xüsusilə də Çində fəallaşması, zorakı yollarla «kommunizm» yaymaq cəhdləri başlamışdı. Çində gedən vətəndaş müharibəsində kommunistlərin Sovetlər tərəfindən hər cür hərbi, maddi və mənəvi dəstək alması ABŞ-ın Uzaq Şərq siyasətinə yenidən baxmasına və bu siyasətə müəyyən düzəlişlər etməsinə gətirib çıxardı. Artıq 1948-ci ildən Yaponiyanın özündə ABŞ-ın siyasətindəki dəyişikliklər müşahidə olunmağa başlayır. Əslində bu, iki super güc mərkəzinin: başda Sovet İttifaqı olmaqla sosializm düşərgəsinin və ABŞ olmaqla demokratik düşərgənin bölgədə nufuz uğrunda mübarizəsinin keyfiyyətcə yeni bir dövrəsi idi, sovet-çin yaxınlaşmasına amerika-yapon yaxınlaşması ilə cavab verilməsi idi. Onun da məğzində amerika-yapon hərbi-siyasi ittifaqı dururdu. Bu da öz ifadəsini onda tapırdı ki, 1948-ci ildən e'tibarən ABŞ bir müttəfiqi kimi Yaponiyanın hərbi potensialının dirçəldilməsi siyasətinə dəstək verir, bu məqsədlə iri yapon kapitalının öz fəaliyyətini bərpa etməsinə imkan yaradılır. Sol və kommunist yönlü təşkilat və hərəkatların

fəaliyyətinə müəyyən məhdudiyyətlər qoyulur. Dövlət dəmir yolu işçiləri həmkarlar təşkilatları Antikommunist Liqa yaratdılar. İstehsal Sahələri Həmkarlar İttifaqlarının Ümümyapon konqresində demokratik proseslərin gücləndirilməsi istiqamətində aparılan kampaniya nəticəsində bir sıra təşkilatlar oradan uzaqlaşmalı oldu. 1948-ci ilin iyulunda hökumət dövlət məmurlarının tətil etməsini yasaqladı. Noyabr ayında isə dövlət müəssilərində çalışan bütün işçilər tətil etmə hüququndan məhrum edildilər. Bütün bunlar dövlət hakimiyyətinin normal fəaliyyət göstərməsinə, eləcə də 1949-cu il üçün iqtisadi sabitləşmə planının həyata keçirilməsinə imkan verdi. Az müddət içində Yaponiya Uzaq Şərqdə mühüm rolu olan dövlətə çevrildi.

Qeyd etmək lazımdır ki, Uzaq Şərqdə Yaponiyanın istər iqtisadi, istərsə də siyasi qüdrətinin artmasına 1950-1953-cü illər Koreya müharibəsinin də çox böyük təsiri olmuşdur. Müharibə dövründə silah və hərbi ləvazimatların istehsalı, hərbi texnikanın daşınması, ona xüsusi xidmət göstərilməsi və ərzaqa ehtiyacın artması nəticəsində ölkə ABŞ-dan 2,5 mld dollar məbləğində sifariş aldı. Sifarişlərin yerinə yetirilməsi Yaponiyanın dövlət xəzinəsinə 1950-ci ilə qədərki dövr ərzində 1,6 mld dollardan çox gəlir gətirdi. Bu rəqəm həmin dövrdə ölkənin bütün xarici ticarətdən olan gəlirinin 44 %-nə yaxın idi. Böyük məbləğdə dollar axını Yaponiyaya imkan verdi ki, xarici ticarət borcunu ödəsin, valyuta fondunu artırsın, xammal idxalını genişləndirsin. İşğal rejiminin yaranmasından sonra sənaye istehsalı və xarici ticarətin genişlənməsini məhdudlaşdırmaq üçün tətbiq edilən müəyyən tədbirlərin aradan götürülməsi isə 1949-1951-ci illərdə sənaye məhsulları istehsalının 1,6 dəfə artımını və müharibəyə qədərki səviyyəni ötməsinə şərait yaratdı. Bu artımanın böyüklüyünü nəzərə çarpdırmaq üçün belə bir faktı xatırlamaq yerinə düşərdi: 1948-ci ildə sənaye istehsalının həcmi 1937-ci ildəkinin yarısına bərabər idi.

1950-1954-cü illərdə xarici ticarətin həcmi ötən beş ildəkindən (1945-1949-cu illər) 10 dəfə artıq oldu.

1950-ci ilin avqustundan etibarən hərbi qüvvələrin 75 min nəfərlik ehtiyat polis korpusu yaratmaq adı altında dirçəldilməsinə başlanıldı. Bu korpus öz strukturu və texniki təchizatı baxımdan çox yüksək səviyyəli bir qüvvə idi.

Koreya müharibəsi dövründə solların və kommunistlərin anti dövlət fəaliyyətinin də artması qeyd edilməlidir. Bunun qarşısının

alınması üçün Kommunist partiyasının və onun mətbuat orqanı «Akaxata» (»Qızıl bayraq») qəzetinin bağlanması, sol yönümlü həmkarlar təşkilatlarının buraxılması, mitinq və tətillərin qadağan edilməsi kimi tədbirlər görüldü.

Bu dövrdə Yaponiyanın müharibədən sonrakı tarixindəki ən mühüm hadisələrdən biri də 1951-ci ilin 8 sentyabrında sülh müqaviləsinin bağlanması oldu. İmzalandığı yerin adı ilə tanınan San-Fransisko sülh müqaviləsinin müzakirə və bağlanması üçün çağrılan konfransda əksəriyyəti formal olaraq Yaponiya ilə müharibə vəziyyətində olan 52 ölkə iştirak etmişdir. Müqavilənin şərtlərinə görə Yaponiya: 1) Koreyanın istiqlaliyyətini tanıyır və Mikroneziya adalarının BMT-nin himayəsinə verilməsini qəbul edirdi; 2) Kuril adalarına, Cənubi Saxalinə, həmçinin Tayvana, Penxuledao adalarına və bir sıra kiçik adalara hər cür iddialardan əl çəkirdi. Müqavilə Yaponiya və onun bu sənədi imzalayan rəqibləri arasındakı müharibə vəziyyətinə son qoyurdu. Lakin Sovet İttifaqı və onun təsiri altında olan Polşa və Çexoslovakiya müqaviləni imzalamadı. Sovetlər belə bəhanə gətirdilər ki, guya bu sənəddə yapon təcavüzündən zərər çəkən ölkələrin təhlükəsizliyinin təminatı məsələsi Yalta və Potsdam konfranslarının müvafiq qərarlarına uyğun həllini tapmamışdır. Müqavilə həm də amerika qoşunlarının Yaponiyada qalmasını daha da möhkəmləndirirdi. Sonuncu məsələnin hüququ əsası isə sülh müqaviləsinin imzalanmasından bir neçə saat sonra ABŞ və Yaponiya arasında bağlanan «Təhlükəsizlik müqaviləsi»ndə öz həllini tapdı. Qoşunların yerləşdirilməsi şərtləri 1952-ci ilin 28 fevral tarixli sazişi ilə müəyyənləşdirildi. Sülh müqaviləsi və ona əlavə edilmiş sənədlər 1952-ci il 28 apreldən qüvvəyə mindi. Bunun ardınca ABŞ Uzaq Şərq komissiyasının və İttifaq Şurasının buraxıldığını elan etdi. Beləliklə də işğal rejiminə son verildi və yapon hökuməti üzərində amerika nəzarəti götürülmüş oldu. Sülh müqaviləsinin ən böyük əhəmiyyəti məhz bu idi.

San-Fransisko sülh müqaviləsi ölkənin normal və sabit iqtisadi, siyasi və sosial təməllər yaradılması istiqamətində inkişafına yol açdı. Həqiqətən də həmin dövrdən etibarən həyatın bütün sahələrində çox ciddi tərəqqi baş vermişdir. Lakin xarici siyasət sahəsində, hələ də bir məsələ gərginlik mənbəyi olaraq qalırdı. Bu da Sovet İttifaqı ilə münasibətlərin tənzim edilməməsi idi. Belə ki, Sovet İttifaqı, yuxarıda deyildiyi kimi, sülh müqaviləsini imzalamadı. Gətirdiyi bəhanələr isə əsas səbəb kimi qiymətləndirilə bilməz. Fikrimizcə, So-

vet İttifaqının bu addımı hər şeydən əvvəl onun imperiya hikkəsindən irəli gəlirdi, Uzaq Şərqdə real vəziyyəti görmək istəmədiyindən, ən yaxşı halda bu vəziyyətlə razılaşmamaq cəhdindən irəli gəlirdi, «soyuq müharibə» dövründəki qarşıdurma düşüncəsinə «sədaqət»indən irəli gəlirdi.

Stalinin ölümündən sonra Sovet rəhbərliyi dövlətin xarici siyasəti haqqında bir qədər realist düşünmək zorunda qaldı, ən azı buna cəhd göstərmək təsəvvürü yaratmağa can atırdı. 1955-ci ilin iyununda Londonda başlanan sovet-yapon danışıqları bu sahədə atılan addımlardan sayıla bilər. Sovet İttifaqı Cənubi Kurilin işğal olunmuş iki adasını (Xaboman və Şikotan) Yaponiyaya qaytarmaq şərti ilə ərazi məsələsini birdəfəlik həll etməyə razılığını bildirdi. Yapon tərəfi onu təmin etməyən bu təkliflə razılaşmadı və sülh müqaviləsini imzalamaqdan imtina etdi. Belə olduqda, tərəflər sülh müqaviləsi məsələsini bir qədər təxirə salmaqla iki dövlət arasında diplomatik münasibətlərin bərpa edilməsinə razılaşdılar. 1956-ci ilin oktyabrında yapon nümayəndə heyəti Moskvaya gəldi. Tərəflər birgə Bəyannamə imzaladılar və elan etdilər ki, bundan sonra SSRİ ilə Yaponiya arasındakı müharibə vəziyyəti dayandırılır, diplomatik və konsul münasibətləri bərpa edilir. Tərəflər bundan sonra hər hansı mübahisəli məsələni sülh yolu ilə həll etməyə hazırdırlar, bir-birinin daxili işlərinə qarışmayacaqlar, tərəflər özünümüdafiə haqqını qarşılıqlı olaraq tanıyırlar, müharibə vəziyyətindən doğan qarşılıqlı iddialardan əl çəkirlər. SSRİ Yaponiyanın BMT-yə daxil olmaq xahişinə dəstək verdi. 1956-cı ilin dekabrında BMT-nin Baş Məclisində bu məsələ öz müsbət həllini tapdı. 1957-ci ildə isə yapon-sovet ticarət müqaviləsi bağlandı.

ABŞ ilə münasibətlər isə hərtərəfli inkişaf edirdi. Əsası hələ işğal rejimi dövründə qoyulan bu münasibətlər iki dövlətin hərbi-siyasi birliyinin daha da möhkəmlənməsinə böyük imkanlar açırdı. Bir tərəfdən ABŞ Yaponiyada öz hərbi bazalarını yaratmaqla Uzaq Şərq və Cənub-Şərqi Asiya regionunda siyasi-hərbi sabitliyin təminatçısına çevrilirdisə, o biri tərəfdən region ölkələri, ilk olaraq isə Yaponiya bu əlaqələrdən öz iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmək, dünya miqyasında həlledici qüvvəsi olan dövlətə çevrilmək məqsədində kifayət qədər yararlana bildi. Hər şeydən əvvəl Yaponiyanın iqtisadiyyatı misli görünməmiş bir inkişaf tempinə girdi. Koreyada hərbi əməliyyatların bitməsindən sonra ABŞ-ın hərbi məhsullar istehsalına olan sifarişləri qismən yapon hökumətinin sifa-

rişləri ilə əvəz olundu. 1953-1956-cı illər arasında bu əvəzləmə 53%-dən çox idi. İkinci mühüm hadisə ölkəyə xarici kapitalın axını idi. Bunun da yeganə səbəbi ölkə iqtisadiyyatına qoyulan kapitalın yüksək gəlir gətirməsi idi. Müqaisə üçün göstərmək lazımdır ki, həmin dövrdə dünyanın inkişaf etmiş kapitalist ölkələrində kapital qoyuluşu 3-4% gəlir gətirirdisə, Yaponiyada bu rəqəm 12%-ə bərabər idi. Odur ki, ölkəyə kredit və istiqrazlar şəklində kapital axını ildən-ilə artırdı və bununda çox böyük hissəsi- 77%-i ABŞ-ın payına düşürdü. Bu məsələdə iki əsas maliyə təşkilatı: ABŞ İxrac-İdxal Bankı və Beynəlxalq Bərpa və İnkişaf Bankı mühüm rol oynayırdı. Bu bankların verdiyi borclar bir qayda olaraq məqsədyönlü idi. 1953-1959-cu illərdə verilən borcların 90%-i məhz istehsal sahələrinə yönəldilmişdir. Bunlardan da elektroenergetika və qara metallurgiya sahələrini xüsusi qeyd etmək lazımdır. İqtisadiyyatın sürətli inkişafı ölkənin maliyə həyatına da müsbət təsir etdi. Artıq 1953-cü ildə inflyasiyaya son qoyuldu. Daxili bazarda məhsul bolluğu qiymətlərin xeyli aşağı düşməsinə səbəb oldu. Bu zəmində xaricə məhsul ixracı gündəmə gəldi. Xarici ticarət sürətli inkişaf tempi götürdü. 1956-cı ildə xaricə məhsul ixracı əvvəlki ilə nisbətən 24,4 % artmışdı. Yerli kapital tədricən öz əvvəlki mövqelərini bərpa etdi. Bütün bunların nəticəsində əgər Yaponiya 1951-ci ildə əsas sənaye məhsulları istehsalını müharibəyə qədərki dövrün səviyyəsinə qaldıra bilmişdisə, 1957-ci ildə isə bir sıra mühüm istehsal sahələri, məsələn, gəmiqayırma üzrə dünyada birinci yerə çıxmışdı. 60-cı illərdə yapon sənayesinin illik artımı 20%-ə yaxın idi.

Bəs bu sürətli iqtisadi yüksəlişin təməlində nə dayanırdı?

Bu baxımdan aşağıdakı bir sıra xarici və daxili amilləri sadalamaq olar. Birincisi, Yaponiyanın xaricdən yüksək texnologiya idxal etməsidir. Belə ki, o, xarici şirkətlərlə bağladığı texniki əməkdaşlıq haqqında sazişlərə uyğun olaraq onlardan hər cür lazımlı patentlər, lisenziyalar və müxtəlif elmi-texniki məlumatlar alır və istifadə edirdi. Xarici texnologiya alınması və xarici təcrübədən istifadə isə Yaponiyaya bir sıra mənfəətlər gətirdi: vaxt udulur və vəsaitlərə qənaət edilirdi ki, bunun da dünya bazarındakı rəqabət mübarizəsində rolu kifayət qədər böyükdür; xarici texnologiyanın mənimsənilməsi ölkənin ümumi elmi-texniki tərəqqisinə yardımçı oldu. İkincisi, daxili amillərdən əsas kapitalın kütləvi yeniləşdirilməsi, torpaq islahatı nəticəsində daxili bazarın genişlənməsi (sahibkar kəndlilərin kənd təsər-

rüfatı texnikasına və ximikatlara ehtiyacının artması), Qərb ölkələri ilə müqayisədə əmək məhsuldarlığının yüksək və əmək haqqının isə nisbətən aşağı olması, hərbi xərclərin nisbətən çox az olması\bu xərclər 1970-ci ildə büdcənin 1,2%-ni təşkil edirdi\ və s. göstərmək olar. Bütün bunlar imkan verdi ki, 60-cı illərin ortalarında Yaponiya sənaye məhsulları istehsalının həcminə görə nəinki İngiltərə, İtaliya, Fransa və AFR kimi ölkələrə çatdı, həm də onları ötüb keçdi və kapitalist dünyasında ABŞ-dan sonra ikinci yerə çıxdı. Əvvəllər ABŞ-dan istehsal vasitələri idxalı səbəbindən xarici ticarətdəki mənfi saldo ixracın idxal üzərində üstünlüyü ilə əvəz olundu. Qiymətinin aşağı, keyfiyyətinin isə yüksək olması sayəsində yapon mallarının rəqabət qabiliyyəti artır, bu da öz növbəsində kapital idxalının çoxalmasına gətirirdi. Nəticədə istehsalın daha da genişlənməsinə zəmin yaranırdı. Bu baxımdan avtomobilqayırma, kompyuter, robot texnikası, məişət elektronikası məhsulları istehsalını, yeni materialların və digər müasir malların hazırlanması sahələ-rini xüsusi ilə qeyd etmək lazımdır.

### *Yaponiyanın yüksəlişi*

Qısa zaman ərzində Yaponiya nəinki regionun, eləcə də dünyanın (ABŞ-dan sonra) güclü iqtisadi potensialı olan qüdrətli dövlətinə çevrildi. Bu qüdrət Yaponiyaya imkan verdi ki, regionda öz əvvəlki nufuzunu və hegemonluğunu bərpa edə bilsin. Əgər indiyə qədər bu nufuz və hegemonluq silah gücünə və hərbi təcavüz yolu ilə edilmişdisə, indi, əgər belə demək mümkündürsə, iqtisadi müdaxilə yolu ilə, ticarət əlaqələrinin genişlənməsi yolu ilə edilirdi. Yeni bazarlar əldə etmək zərurəti Yaponiyanın qonşuları ilə münasibətlərinin tənzimlənməsi və normallaşmasını tələb edirdi. Odur ki, Yaponiya diplomatiyası bu dövrdə bütün fəaliyyətini qonşu dövlətlərlə olan problemlərin çözülməsinə yönəltmiş və bir sıra uğurlar qazanmışdır. Bu baxımdan Yaponiya və Cənubi Koreya arasında olan bir sıra mübahisəli məsələlərin həllini xüsusi qeyd etmək lazımdır. Doğrudur, Yaponiya və Cənubi Koreya arasında danışıqlar hələ 1952-ci ildə başlamışdı. Lakin bir sıra məsələlərə baxışda tərəflər arasında kəskin fikir ayrılığı var idi. Bu baxımdan Koreyanın Yaponiya tabeliyi dövründə (1910-1945-ci illər) ona dəymiş zərərin ödənilməsi məsələsini qabartması daha çox mübahisə doğururdu. Tərəflər uzun müddət ortaq bir fikrə gələ bilmirdilər. Nəhayət, 1960-cı ildə Yaponiya və ABŞ

arasında yeni bir «təhlükəsizlik müqaviləsi» bağlandı və bundan sonra yapon-koreya danışıqları yeni istiqamət aldı. Bu da hər şeydən əvvəl Cənubi Koreyanın «kommunizmə qarşı mübarizədə ön xətt» kimi əhəmiyyəti və rolunun artması ilə bağlı idi.

Nəhayət, 1965-ci ildə Tokioda Yaponiya və Cənubi Koreya dövlətləri arasında əsas münasibətlər haqqında müqavilə imzalandı. İki dövlət arasında münasibətlərin tənzimlənməsi Yaponiyanın xarici siyasətində çox böyük hadisə oldu. Çünki, məhz bu siyasi nailiyyət yapon kapitalının Şərqi və Cənub-Şərqi Asiya ölkələrinə ayaq açmasında mühüm addım oldu. Cənubi Koreya iqtisadiyyatının qapıları yapon kapitalı və mallarının üzünə açıldı.

1969-cu ildə ABŞ-Yaponiya «Təhlükəsizlik müqavilə»sinin müddəti yenidən qeyri-müəyyən müddətə uzadıldı. Müqavilə regionda təhlükəsizliyin təminatçısı kimi ABŞ-a bir sıra hüquqlar verirdi. Belə ki, o, müqavilənin şərtlərinə görə Yaponiyada quru, hərbi-hava və hərbi-dəniz qüvvələri yerləşdirmək və hərbi bazalar yaratmaq hüququnu saxlayırdı. Müqavilədə nəzərdə tutulurdu ki, Yaponiya da «fövqəladə hallarda» Uzaq Şərq regionunda hərbi əməliyyatlarda iştirak edə bilər. Bundan bir bəhanə kimi istifadə edən Sovet İttifaqı bildirdi ki, iki Kuril adasının Yaponiyaya verilməsi yalnız bütün xarici qoşunların ölkədən çıxarılmasından sonra mümkün ola bilər.

Qeyd etmək istərdik ki, ölkədəki bir sıra solçu qüvvələr də ABŞ-Yaponiya müqaviləsinin təzələnməsindən hakim kursa qarşı çıxmaq məqsədləri üçün istifadə etməyə cəhd göstərdilər ki, onların da önündə Sosialist və Kommunist partiyaları gedirdi. Bütün bunlara baxmayaraq yapon-amerika əməkdaşlığı və yaxınlaşması daha da qüvvətlənirdi. 1971-ci ildə Yaponiya və ABŞ arasında Okinavaya dair bağlanmış saziş də məhz bunun nəticəsi idi. Sazişə görə Okinava ilə bağlı inzibati hüquqlar Yaponiyaya qaytarılırdı. «Təhlükəsizlik» müqaviləsinə görə Yaponiyada ABŞ-ın malik olduğu status Okinavaya da şamil edilirdi. Bir sıra xırda-para narazılıq aksiyalarına baxmayaraq saziş parlamentdə təsdiq olundu və 1972-ci il mayın 15-dən qüvvəyə mindi.

Yaponiyanın Çin Xalq Respublikası ilə münasibətlərində də yaxşılaşmağa doğru meyillər güclənirdi. Bu da, hər şeydən əvvəl, istər Yaponiya və Çinin özündə, istərsə də beynəlxalq aləmdə baş verən bir sıra dəyişikliklərlə bağlı idi. Ən ümdəsi isə, daxili siyasi və iqtisadi problemlərini yalnız öz gücü və sosialist dövlətlərinin yardımı

ilə həll edə bilməyəcəyini ÇXR hakim kommunist elitasının dərk etməsi bu sahədə mühüm rol oynamışdır. Yaponiya da bundan istifadə etdi və ÇXR ilə yaxınlaşma kursunu tutdu. 1972-ci ilin sentyabrında iki dövlət arasında diplomatik münasibətlər bərpa edildi və digər münasibətlərin inkişafına yol açılmış oldu. Dövlətlərarası münasibətlərin bərpasında Pekinin ilkin şərtlərinə üyğun olaraq Yaponiya elan etdi ki, o, Tayvan ilə (buradakı dövlət Çin Respublikası adlanır) diplomatik münasibətləri kəsir.

ÇXR da öz növbəsində elan etdi ki, yapon təcavüzü dövründə Çinə dəymiş zərərin (təq. 50 mld dollar) tələbindən imtina edir, yapon-amerika «təhlükəsizlik müqaviləsi»nə, Yaponiyanın remilitarizasiyasına və eləcə də Uzaq Şərqdə ABŞ-ın mövcud statusuna qarşı kəskin pisləmə mövqeindən əl çəkir.

1973-1978-ci illərdə Yaponiya və ÇXR ticarət, hava yolu, balıq ovu və s. haqqında bir sıra müqavilə və sazişlər bağladılar. Bununla da yapon-çin münasibətlərinin möhkəm hüquqi əsaslarını yaratdılar. ÇXR-ə hökumət səviyyəsində kreditlər və borclar verilməsi haqqında sazişlər də imzalandı.

Lakin münasibətlər bir sıra səbəblər üzündən hələ ki müəyyən hüdudlar daxilində inkişaf edir: birincisi, Çinin valyuta ehtiyatlarının və ixrac mənbələrinin məhdudluğu; ikincisi, çin-yapon ziddiyyətlərinin aradan tam qaldırılmaması. O biri tərəfdən Yaponiyanın işgüzar dairələri belə bir faktdan da yan keçə bilmirlər ki, Çinə verilən iri kreditlər hesabına müasir tipli müəssisələrin yaradılması Asiya regionu bazarında Çinin rəqabət imkanlarını artıra bilər. Yaponiyanın Tayvanla diplomatik münasibətlərini kəsməsinə baxmayaraq iki dövlət arasında sıx ticarət-iqtisadi, mədəni və s. əlaqələrin olması da ÇXR-i daimi narahat edir.

Buna baxmayaraq 1978-ci ilin oktyabrında sülh və əməkdaşlıq haqqında yapon-çin müqaviləsi bağlandı. Yaponiya bununla Çin ilə daha sıx və çox çeşidli münasibətlər yaradılmasına ümid bəsləyirdi.

Xarici siyasət sahəsində Yaponiyanın çox önəm verdiyi istiqamətlərdən birisi də Cənub-Şərqi Asiya ölkələri ilə geniş əlaqələr şəbəkəsi yaratmaqdır. Bu da ondan irəli gəlir ki, bu ölkələr yapon malları üçün böyük satış bazarıdır, bu ölkələrin zəngin xammal imkanları var və onlar çox ucuz işçi qüvvəsinə malikdir. Sadalanan şərtlər Cənub-Şərqi Asiya ölkələrinin yapon kapitalının əlverişli və fay-

dalı əlavəsinə çevrilməsinə inamlı ümidlər yaradırdı. O biri tərəfdən Cənub-Şərqi Asiya ölkələri coğrafi baxımdan Yaponiyanı Avstraliya, Yaxın və Orta Şərq ölkələri, Afrika və Latın Amerikası ölkələri ilə birləşdirən komunikasiya xətləri üzərində yerləşmişdir. Cənub-Şərqi Asiya ilə sıx əlaqələr adını çəkdiyimiz ölkələrə təkidlə can atan yapon kapitalının hərəkətini asanlaşdırır və yüngülləşdirirdi.

1977-ci ildən Filippinlər, Tayland, Malayziya, Sinqapur və İndoneziya kimi ASEAN ölkələri ilə əlaqələr yaratmağa və inkişaf etdirməyə xüsusi diqqət verilməyə başlanılmışdır. Məqsəd də ondan ibarət idi ki, bu ölkələrin vasitəsi ilə Cənub-Şərqi Asiyada Yaponiyanın sabit nufuz zonası yaradılsın. Həm də bu zaman Yaponiya münasibətlərin inkişafına əngəl törədən bir vəziyyətlə qarşılaşmalı və tədricən onun aradan qaldırılması zorunda olmuşdur. Bu da yapon kapitalının həmin ölkələrdə özünə geniş yer tapmasının yerlərdə ciddi narahatçılıq doğurması idi. Onun da kökündə II dünya müharibəsi dövründə həmin ölkələrdə Yaponiyaya qarşı yaranan inamsızlıq və ehtiyatlılıq ovqatı dayanırdı.

Bütün bu tədbirlər yapon iqtisadiyyatının misli görünməmiş inkişafına imkan yaratdı. Bir neçə faktı nəzərə çarpdırmaq istərdik. 1970-ci ildə Yaponiyanın ümumi milli məhsulunun səviyyəsi 1960-cı ildəkinin 4,5 mislinə bərabər idi. Yaponiya dünyanın ən iri sənaye dövlətlərindən biri idi. Gəmiqayırma, yarımkeçiricilər, radioqəbuledici, optik cihazlar, kino avadanlığı, fotoaparatlar istehsalı üzrə dünyada birinci yerdə gedirdi. Elektoronika, avtomaşın istehsalı, məişət elektrocihazları, sintetik liflər üzrə ikinci, polad əridilməsi üzrə isə üçüncü yerə çıxmışdı.

Ölkə iqtisadiyyatının mühüm sahələrindən olan daxili və xarici ticarətin inkişafı da kifayət qədər yüksək idi. Ümumiyyətlə, Yaponiyanın iqtisadiyyatı dünya bazarı ilə nəinki sıx bağlıdır, həm də xeyli dərəcədə ondan asılı vəziyyətdədir. Belə ki, pambıq, yun, kauçuk, nikel, baksit və s. kimi xammalları 100%, nefti 99%, dəmir filizini 90% xaricdən idxal edir. Bütünlükdə ehtiyac duyulan xammalın 80%-i və ərzaq məhsullarının 20%-i xarici bazarın hesabına əldə olunur. Yuxarıda da göstərirldiyi kimi Yaponiya 60-cı illərin ortalarına qədər daha çox idxal ölkəsi idi. Həmin dövrdən isə ixrac üstünlük qazanmağa başladı. Qısa zaman kəsiyində yapon malları ABŞ, Cənub-Şərqi Asiya, Afrika və Qərbi Avropa bazarlarında özünə yer tapdı, yüksək keyfiyyəti və ucuz qiyməti sayəsində hətta inkişaf

etmiş ölkələrdə yerli malları sıxışdırmağa başladı. İxracın sürətli artımı ölkədə böyük valyuta ehtiyatı yaratmağa imkan verdi. 1973-cü ildə Yaponiyanın valyuta ehtiyatı 19 mld dollara bərabər idi. Bu da, təbiidir ki, Yaponiyanın kapital ixracını artırmasına şərait yaradırdı. Bunun sayəsində Yaponiya nəinki inkişaf etməkdə olan ölkələrdə, həm də inkişaf etmiş sənaye ölkələrində yüksək texnoloji göstəriciləri olan müəssisələr tikirdi. Böyük dövlətlərdən ÇXR-in xarici ticarətində birinci yeri tuturdu, SSRİ ilə bağlanan 1957-ci il müqaviləsindən sonrakı 20 il ərzində iki dövlət arasındakı qarşılıqlı ticarətin həcmi 70 dəfədən çox artmışdı.

Yaponiyanın iqtisadiyyatından danışarkən aşağıdakı üç cəhəti xüsusilə qeyd etmək lazımdır. Belə ki, bunlar həm iqtisadi inkişafın göstəriciləri, həm də amilləridir :

1) iri şirkətlərin çoxsahəli struktura malik olması imkan verirdi ki, müəssisənin kapital, xammal və işçi qüvvəsi ehtiyatlarından xarici bazarın dəyişən tələbatına uyğun istifadə edilsin. Məsələn, aparıcı sənaye sahələrindən birisi olan gəmiqayırma sahəsində 1957-ci ildə böhran təzahürləri hiss olunan kimi həmin şirkətlər maşınqayırma, kimya sənayesi avadanlıqları, turbinlər və s. məhsullar istehsal etməyə başladılar. Ehtiyac yaranan kimi isə istehsal öz tə'yinatına yönəldildi. Beləliklə də gəmiqayırma şirkətlərinin fəaliyyətində nəinki boş dayanmalar oldu, heç istehsalın səviyyəsinin aşağı düşməsinə yol verilmədi.

2) Yapon iqtisadçılarının «planlaşdırma» adlandırdığı, əslində isə proqramlaşdırma və proqnozlaşdırılma sisteminin yaradılması iqtisadiyyat üzərində dövlət inhisarı ənənələrini gücləndirdi. Nazirlər kabinetinin nəzdində yaradılmış İqtisadi Planlaşdırma Komitəsi xarici və daxili bazarın ehtiyaclarını öyrənir, nəinki hökumət strukturları, həm də özəl şirkətlər üçün operativ elmi-texniki məlumatlar hazırlayır, sənayenin ən mühüm sahələrinin inkişafı üçün dövlət tərəfindən kapital qoyuluşunu tənzim edir və yeni sənaye sahələrində (atom sənayesi, raketqayırma və s.) elmi-tədqiqat işlərinin maliyyələşdirilməsini planlaşdırırdı.

3) Yaponiyada elmi-texniki fəaliyyət 60-cı illərin əvvəlinə qədər əsasən «başqalarının ideyasını rəqabətə dözümlü mala çevirmək!» prinsipinə əsaslanırdı. Lakin bu fəaliyyətin özü nəticə e'tibarilə ölkədə müstəqil elmi-texniki tədqiqatların aparılması üçün baza yaratmış oldu. 1960-cı ildən 1970-ci ilədək olan müddətdə bu məq-

sədlər üçün ayrılan məsrəflərin miqdarı 6 dəfə artmışdı. Yaponiya elmi-texniki tərəqqinin yaradıcılarından biri oldu. Ən müasir texnika ilə təchiz olunmuş kompleks-avtomatlaşdırılmış istehsalın qurulması və onun mərkəzləşdirilməsi, bir istehsalın tullantılarından başqa bir istehsal dövriyyəsinin başlanması üçün xammal kimi istifadə olunması, başqa sözlə, tullantısız istehsal üzrə sənaye komplekslərinin yaradılması (neftayırma -sintetik maddələr, qara metallurgiya-kimya, kimya-tikinti materialları, meşə məhsulları emalı-kimya və s.) Yaponiyada elmi-texniki tərəqqinin misilsiz inkişafının nəticəsi kimi qiymətləndirilməlidir.

Bununla yanaşı iqtisadi inkişaf prosesi heç də həmişə rəvan getməmişdir. 1957-ci və 1965-ci illərdə böhranlı situasiyalar yaranmış, 1971-ci ildə isə iqtisadi inkişafda müəyyən geriləmələr özünü göstərməyə başlamışdır.

1973-cü ilin sonlarında isə Yaxın Şərq böhranının törətdiyi «neft şoku» Yaponiyanın iqtisadiyyatına hiss olunacaq bir zərbə vurdu. İdxal mallarının qiyməti birdən-birə xeyli yüksəldi, ətraf mühitin qorunmasına qoyulan əsaslı xərclər artdı. Təbiidir ki, bunlar da öz növbəsində istehsal xərclərinin yüksəlməsinə və daxili bazarda qiymətlərin bahalaşmasına səbəb oldu. Elə 1974-1975-ci illərdə Yaponiyanın iqtisadiyyatını bürüyən böhran da məhz bu səbəblərdən baş vermişdi.

Böhran sənayenin bütün sahələrini əhatə etdi. Xüsusilə, aparıcı ilkin xammal emalı sahələri – metallurgiya, kimya, neftkimyası müəssisələri, həmçinin gəmiqayırma tərsanələri böhrandan daha çox zərər çəkdilər. Ümumiyyətlə, iqtisadiyyat güclü bir tənəzzülə məruz qalmışdı. Qeyd etmək lazımdır ki, bu məsələdə yapon iqtisadiyyatının inkişafındakı müəyyən struktur tənasübsüzlüyünün də rolu kiçik olmamışdır.

1974-1975-ci illər böhranı yapon iqtisadiyyatının bütün sonrakı inkişafına güclü təsir göstərdi: kapital qoyuluşunun miqyas və istiqaməti, istehsalın strukturu, əmək məşğulluğu, xarici siyasət və s. tamamilə yeni bir keyfiyyət dəyişikliyinə məruz qaldı. Böhran nəinki yüksək iqtisadi artım tempinə son qoydu, eləcə də yeni istehsalat sahələrinin yaradılmasını zəruri etdi, iqtisadi strukturun özünə ciddi dəyişikliklər gətirdi. Bu yenidən qurmanın əsas ideyası ondan ibarət idi ki, material-enerji və əmək tutumlu istehsalat aradan qaldırılmalı və o, elm tutumlu, material və əmək qənaətinə əsaslanan istehsalatla

əvəzlənməlidir. Yeni iqtisadi strukturda maşınqayırmanın texniki baxımdan daha mürəkkəb sahələri: elektron-hesablama maşınları, rabitə avadanlığı, sənaye robotları və digər avtomatlaşdırma vasitələri, proqramla idarə olunan dəzgahlar istehsalına önəm verildi. Yapon şirkətləri bu vasitələrlə öz mallarının xarici bazarlarda rəqabətə davamlığını təmin etməyə çalışırdılar. Həm də diqqət malların ucuzluğuna yox, onların yeni və yüksək keyfiyyətli olmasına yönəldilirdi. Xammalın ilkin e'malı müəssisələrinin inkişaf etməkdə olan ölkələrə, təbiidir ki, ilk növbədə böyük ucuz işçi qüvvəsi və xammal ehtiyatları bol olan ölkələrə köçürülməsi və yerləşdirilməsi təcrübəsinə başlanıldı.

70-80-ci illərdə patentlər və lisenziyalar alınması arxa plana keçdi, daha çox elmi və texniki araşdırmaların maliyyələşdirilməsinə üstünlük verildi. Dövlət bu sahəyə qoyulan məsrəflərin 35%-ni öz üzərinə götürmüşdü. Elmi-texniki tərəqqi sahəsində böyük nailiyyətlər qazanıldı. Bunun da əsasında yaponların yüksək bilik səviyyəsi dayanırdı. 80-ci illərin ortalarında Yaponiya əhalisinin 93%-nin tam orta təhsili, 25 yaşına çatmış gənclərin isə 40%-nin ali təhsili var idi. Bu rəqəm ABŞ-da 20% idi\.

İqtisadiyyatın yenidən qurulması nəticəsində Yaponiya həyatın bütün sahələrində növbəti inkişaf dövrünə girdi.

80-ci illərdə Yaponiya dinamik inkişaf edən ölkə olaraq qalır və ABŞ, Avropa İqtisadi Birliyi ilə yanaşı müasir dünyanın üç güc mərkəzindən biri sayılırdı. Yaponiya qızıl və valyuta ehtiyatına, eləcə də xarici ticarətdəki müsbət saldoya görə dünyada birinci yerə çıxdı. Əhalinin hər nəfərinə düşən gəlir xeyli artmışdı. Müqaisə üçün belə bir faktı xatırlayaq: 50-ci illərin ortalarında Yaponiyada hər nəfərə düşən gəlir ABŞ-da olduğundan 6 dəfə az idisə, o, 1987-ci ildə 18 min dolları ötmüşdü və həmin dövrdə bu rəqəm ABŞ-da 15,5 min dollara bərabər idi. 1988-ci ildə dünyadakı ən iri 12 bankından 10-u Yaponiyaya məxsus idi. Yaponiya sənaye istehsalının həcminə görə dünyada ikinci yeri tutur, xarici ticarətin həcminə görə isə üçüncü yerdədir. O, dünya ticarətində «yüksək texnologiya»ya görə ABŞ-la bir sırada dayanır. 1976-cı ildən 1985-ci ilə qədər olan 10 il müddətində ölkədə elektronika avadanlıqları və cihazları istehsalı 3 dəfə, elektron-hesablama maşınları istehsalı isə 7 dəfə artmışdır. Dünyada istehsal olunan vidiocihazların 90%-i Yaponiyanın payına düşür. 1985-ci ildə dünyadakı 3 robotun ikisi Yaponiyada idi. Hazırda «ağır,

iri, uzun və böyük» məhsullar istehsalı «yüngül, zərif, qısa və kiçik» məhsullar istehsalı ilə əvəz olunmaqdadır. Başqa sözlə, sənayeləşmiş cəmiyyətdən məlumatlaşdırılmış cəmiyyətə keçilməkdədir. Bu cəmiyyətdə bilik əsas dəyərə çevrilir.

80-ci illərin sonu 90-cı illərdə Yaponiya əmək məhsuldarlığının səviyyəsinə görə Qərbi Avropa ölkələrini ötüb keçmişdir və ABŞ-ın səviyyəsinin 90%-nə çatmışdır. Bu göstərici 1975-ci ildə 50% idi.

Yaponiya bu nailiyyətlərə müxtəlif amilləri uzlaşdıraraq vahid bir məqsədə yönəltməyə bacarmaqla yiyələnə bilmişdir.

Bu amillər hansılardır?

Bunların başında paternalizm [1]ən'ənələrinə uyğun olaraq bütün dərəcədən olan işçilərin özlərini çalışdıqları müəssisənin ayrılmaz hissəsi hesab etməsi, onlardan hər birinin rifahının müəssisənin nailiyyətindən asılı olduğunu qəbul etməsi zəmnində göstərdikləri əməksevərlik dayanır. Yeri gəlmişkən, paternalizm ənənələrinin sözün əsl mənasında doğru-düzgün tətbiqi sosial həyatın bir sıra problemlərini həll edə bilər. Yaponiyada bu aşağıdakı qaydada həyata keçirilirdi: işə götürmək ömürlükdür, iş dayandıqda kifayət qədər pensiya verilir, müəssisələrdə işçilərin çoxsaylı «keyfiyyət dərnəkləri» vardır və onlar buraxılan məhsulun keyfiyyətinin tam təminatlı olmasına nəzarət edir, sahibkarlar, qulluqçular və fəhlələr müəssisənin fə'aliyyətinin yüksək səviyyədə təşkilində ortaq marağa sahibdirlər və buna görə də hamı öz səyini ümumi vəzifələrin həllinə yönəldir və əsirgəmir. Təbiidir ki, bu da əmək məhsuldarlığının yüksəlməsinə daimi təminat yaradır.

Əmək haqqının artırılması və ya iş şəraitinin yaxşılaşdırılması tələbləri irəli sürülərkən fəhlələrin və sahibkarların nümayəndələri bir araya gəlir, vəziyyət diqqətlə araşdırılır, qiymətlərin artım tempi və perspektivləri öyrənilir və qərar verilir. Belə bir prinsipə riayət olunur ki, verilən qərar müəssisənin iqtisadi vəziyyətinin pisləşməsinə və buraxılan məhsulların rəqabətə dözümlüyünün aşağı düşməsinə gətirməsin. Başqa sözlə, önəm verilən cəhət yalnız qrup maraqları deyil, hər şeydən əvvəl, cəmiyyətin geniş təbəqələrinin maraqlarıdır. Bu prinsipin dərk edilməsi yapon cəmiyyətini bir sıra sosial sarsıntılardan xilas etmişdir. 80-ci illərdə tətillərin sayı iki dəfədən çox aşağı

---

[1] Paternalizm sahibkarın öz işçisinə atalıq qayğısı anlamını verir.

düşmüşdür. Bu ənənə 90-cı illərdə də davam etdirilir və burada etnopsixoloji momentlər mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, 1974-1975-ci illər böhranı siyasi həyatda da mühüm izlər buraxdı. Hakim Liberal-Demokrat partiyasının daxilində müəyyən qruplaşmaların yaranması və partiyadaxili mübarizənin kifayət qədər kəskinləşməsi prosesi bir qədər fəallaşdı. Bunun da səbəbi o idi ki, onlar siyasi hakimiyyət uğrunda mübarizədə yekdil olsalar da və vahid mövqedən çıxış etsələr də, xarici və daxili siyasətin konkret məsələlərində və ya iqtisadi kursun müəyyənləşməsində müəyyən fikir ayrılıqlarına malik idilər. Daha narazı qüvvələr 1976-cı ildə partiyadan çıxdılar və Yeni Liberal Klub yaratdılar. Bununla yanaşı, partiyadakı bütün qruplaşmaların əsas istiqamətlər barəsindəki fikirlərində bir ümumilik vardır ki, bu da seçkilərdə bir qayda olaraq qalib gəlməyə imkan verir.

Ümumiyyətlə Yaponiyanın siyası sistemi plüralistdir. Sağların birləşdiyi Liberal-Demokrat partiyasından başqa müxtəlif tellərlə nüfuzlu budda təşkilatı ilə bağlı olan Komeyto adlı müxalifət partiyası ölkənin siyasi-ideoloji həyatında mühüm rola malikdir, daha çox sülhsevər mövqelərdən çıxış edir.

Sosialist partiyası müxalifətin ən güclü qanadıdır və digər müxalif partiyalara nisbətən parlamentdə daha çox təmsil olunur. O, əsasən Yaponiyanın militaristləşdirilməsinə qarşıdır, silahsızlaşdırılmış neytral Yaponiya uğrunda və yapon hərbi qüvvələrinin qüvvətlənməsinə qarşı mübarizə şüarları ilə çıxış edir.

Kommunist partiyası da müəyyən mövqeyə malikdir. 1986-cı il seçkilərində parlamentin iki palatasında 42 yer ala bilmişdir. Nüvə silahı istehsalına, ölkənin militaristləşdirilməsinə və ABŞ-la hərbi ittifaqın ləğv edilməsinə çalışır. Lakin bununla yanaşı Kuril adalarının Yaponiyaya qaytarılması tələblərini də dəstəkləyir.

80-ci illərin sonu 90-cı illərdə ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdən birisi də həmkarlar ittifaqları hərəkatında solçu təşkilat kimi tanınan Soxünün özünü buraxmasıdır. Bu təşkilatın sıralarında 4 mln fəhlə və qulluqçu birləşirdi. Soxu başqa bir təşkilata-Renqoya (Ümumyapon özəl sektor həmkarlar ittifaqları federasiyası) qoşuldu. Renqonun da üzvlərinin sayı 5,6 mln nəfər idi. Bu iki təşkilat birləşərək nəhəng Yaponiya Həmkarlar İttifaqları Federasiyasını təşkil etdilər ki, o da öz sıralarında 8 mln üzvü birləşdirirdi. Bu federasiyanın tərkibinə muzdlu əməklə məşğul olan şəxs-

ləri birləşdirən həmkarlar ittifaqlarının 2\3 hissəsi daxil olmuşdur. Bu federasiya siyasi həyatda daha çox parlamentdə təmsil olunan solçu partiyalara - Sosialist partiyasına, iki kiçik təşkilata: Demokratik Sosializm partiyasına və Sosial-Demokratlar İttifaqına, eləcə də Komeyto təşkilatına meyl göstərir. Bu partiyalar Liberal-Demokrat partiyasını hakimiyyətdən uzaqlaşdırıb, koalisiya şəklində onun yerini tutmaq uğrunda mübarizə aparırlar. Doğrudur, müxalifət partiyaları hələ güclü bir qüvvə kimi siyasi həyatda özlərini göstərə bilmirlər və Liberal-Demokrat partiyası əlli ilə yaxındır hakimiyyəti özündə saxlaya bilir. Lakin siyasi meydanda qüvvələr nisbətində müəyyən dəyişikliklər müşahidə olunur. 1986-cı və 1989-cu illərdə keçirilən seçkilərdə liberal-demokratların mövqelərinin zəifləməsi özünü göstərmişdir. Sonuncu seçkilərin nəticələrinə 1989-cu ildə alınan hər bir mala və edilən pullu xidmətə 3% vergi qoyulması ciddi təsir göstərmişdir. Hökumətin bu tədbiri əhalinin narazılığına səbəb olmuşdu. Bu məsələdə hakim partiya liderlərinin maliyyə fırıldaqlarında ittiham olunması da təsirli rol oynamışdır. Siyasi müşahidəçilər artıq ölkədə birpartiyalı hakimiyyətin ikipartiyalı sistemlə əvəz olunması ehtimalı haqqında danışmağa başlamışlar. Onlar belə hesab edirlər ki, müxalifət partiyalarının birliyi və Liberal-Demokrat partiyasının yaxın vaxtlarda hakimiyyətdə birinin digərini dəyişə bilmək imkanı yarana bilər.

70-80-ci illərdə xarici siyasət sahəsində bir tərəfdən ABŞ-la əməkdaşlığın və birgə fəaliyyətin güclənməsi ənənəsi özünü göstərirsə, o biri tərəfdən Sovet İttifaqı ilə qarşıdurma yoluna keçilməsi müşahidə olunur, faktik olaraq əvvəllər əldə edilmiş ikitərəfli nailiyyətlər öz əhəmiyyətini itirməyə başlayır. Belə bir siyasət digər sosialist ölkələri ilə münasibətlərə də şamil edilirdi. Bununla yanaşı, hələ 70-ci illərdə Sibirin və Uzaq Şərqin təbii sərvətlərindən birgə istifadə etmək haqqında əvvəllər bağlanmış sazişlərə əməl olunurdu. Hətta Sovet İttifaqı 1978-ci ildə ikitərəfli münasibətləri daha da inkişaf etdirmək haqqında təkliflər də irəli sürmüşdü. Lakin 80-ci illərin əvvəllərindən, xüsusilə ABŞ-da Reyqanın hakimiyyətə gəlməsindən etibarən yapon-sovet münasibətləri hiss olunacaq dərəcədə korlanmağa başladı. Əgər əvvəllər Yaponiya ABŞ-ın Sovet İttifaqına qarşı yeritdiyi siyasətə açıq qoşulmaqdan çəkinirdisə, indi bu işə açıq və aşkar şəkildə gedilirdi. Bu barədə 1982-ci il 8 mayda baş nazir Sudzuki və ABŞ prezidenti Reyqan arasında gedən danışıqların yekunu haqqında imzalanmış bəyanatda da bir mənalı formada yazılmışdır.

Yaponiya da ABŞ kimi Sovet İttifaqına qarşı bir sıra iqtisadi sanksiyalar tətbiq etməyə başladı. Əvvəllər bağlanmış müqavilə və sazişlərin yerinə yetirilməsini ləngidir, bunun üçün ayrılacaq kreditlərin buraxılmasını dayandırırdı. «Sovet hərbi təhlükəsi» haqqında açıq danışılmağa başlanıldı. 1981-ci ilin yanvarında nazirlər kabineti hər il fevralın 7-nin «Şimal əraziləri günü» kimi qeyd edilməsinə qərar verdi. Sovet İttifaqının dağılmasına kimi bu siyasət davam etdirilmişdir.

## *Yaponiya 90-cı illərdə*

Qeyd etmək lazımdır ki, 1990-cı ildən Yaponiya Sovet İttifaqına qarşı kursunu dəyişdi. Bu məsələdə M. S. Qorbaçovun hakimiyyətə gəlməsindən sonra SSRİ-nin daxili və xarici siyasətində demokratik təmayüllərin təzahür etməsi az rol oynamamışdır. ABŞ-ın SSRİ ilə münasibətlərində yaranan pozitiv dəyişmələrin də Yaponiyanın mövqeyinə təsiri əhəmiyyətli idi. 1990-cı il yanvarın 15-də Yaponiya Liberal-Demokrat partiyasının nümayəndə heyəti M.S.Qorbaçov tərəfindən qəbul olundu. SSRİ-nin Tikinti və Arxitektura məsələləri üzrə Komitə sədri B.N Yeltsin yanvarın 14-də, SSRİ xarici işlər nazirinin müavini V.Petrovski Yaponiyaya rəsmi səfərlər etdilər və yapon rəsmiləri ilə danışıqlar apardılar. Artıq sentyabrda Yaponiyaya gələn SSRİ xarici işlər naziri E.A.Şevardnadzenin səfəri SSRİ dövlət başçısının buraya gəlişinə hazırlıq kimi qiymətləndirilə bilər. Münasibətlərdə irəliyə doğru dəyişikliklərin baş verməsinə inam artdı. Təsadüfi deyildir ki, Yaponiyanın baş naziri T.Kayfu iki dövlət arasında mövcud münasibətlərin gələcəyinə optimal baxdığını bəyan edir, digər rəsmilər mövcud problemlərin, ilk növbədə ərazi münasibətlərinin həllinin mümkünlüynü söyləyir, siyasi məqsədlərlə yanaşı iqtisadi yaxınlaşmanın zəruriyyətini qeyd edirdilər. Bu sahədə əməli addımlarda atıldı. İqtisadi əməkdaşlıq üzrə ikitərəfli komitə çərçivəsində danışıqlar aparılmağa başlandı. Yüksək səviyyəli qarşılıqlı səfərlər intensiv xarakter alır və nəhayət, 1991-ci il aprelin 16-da M.S.Qorbaçov Yaponiyaya rəsmi səfər edir. O, Yaponiya imperatoru Akaxito[1] və baş nazir T.Kayfu ilə rəsmi görüşlər keçirildi. Tərəflər

[1] Qeyd: Akaxito 1988-ci ilin yanvarında 88 yaşlı imperator Xiroxitonun (o,1926-1988-ci illərdə imperator olmuşdur) ölümündən sonra taxt-taca sahib olmuşdur.

nəzərdə tutulan 15 sənəddən 12-ni imzaladılar.1992-ci ildə T. Kayfunun SSRİ-yə gəlməsi qərarlaşdırıldı. Lakin əsas məsələlər: sülh müqaviləsi və ərazilər məsələsinin həllinə olan optimist ümidlər reallaşmadı. Bu səbəbdən tərəflər arasında müəyyən gərginliklər özünü göstərirdi. Artıq may ayında yapon bankları SSRİ-yə kredit verməkdən imtina etdilər. İyunda baş nazir T.Kayfu «yeddilərin» London zirvə görüşündə SSRİ-nin iştirakına etiraz etdi və yalnız Böyük Britaniyanın baş naziri C.Meycorun təkidli xahişindən sonra razılıq verdi. «Yeddilərin» London zirvə görüşündən sonra ərazi probleminin beynəlxalq səviyyədə həllinin vacibliyini vurğulandı və yapon-sovet münasibətlərindəki sərtlik bir qədər yumşaldı. SSRİ-yə kredit verilməsi və humanitar yardım göstərilməsi qərarlaşdırıldı. Fəqət, 1991-ci ilin dekabrında SSRİ-nin bir dövlət kimi varlığına son qoyuldu, elə də Yaponiya ilə onun arasında sülh müqaviləsi və ərazi probleminin həlli sona çatmadı. Bu problemin həlli bir miras kimi özünü SSRİ-nin varisi elan etmiş Rusiya Federasiyasının payına düşdü. Təsadüfi deyil ki, Yaponiya artıq 1992-ci ilin yanvarında ərazi probleminin həllinin RF prezidenti B.N.Yeltsinlə həll olunacağına ümid bəslədiyini bildirirdi.Çünki həmin ilin senyabr ayında Rusiya prezidentinin Yaponiyaya səfəri planlaşdırılmışdı.

Sovet İttifaqının süqutundan sonra Yaponiya yeni yaranan müstəqil dövlətlərə, ilk öncə, Mərkəzi Asiya ölkələrinə pozitiv münasibət göstərmişdir. İlk olaraq həmin ölkələrə yardım üçün 40 mln dollar ayırdı. İqtisadi inkişaf və əməkdaşlıq təşkilatının xüsusi yardım komitəsinin iclasında Yaponiya Qərb dövlətlərini yeni yaranan Mərkəzi Asiya dövlətlərinə yardım etməyə çağırdı. Bununla bərabər Rusiya ilə münasibətlərin ziqzaqlı olduğunu görürük ki, onun da məğzində ərazi probleminin dayandığını söyləmək olar. Bu barədə tərəflərin mövqeləri bir-birindən xeyli fərqli idi. Həmin səbəbdən B.N Yeltsin sentyabr ayında Yaponiyaya olacaq rəsmi səfərindən imtina etdi və yenidən tərəflər qarşılıqlı təzyiqlər və qarşılıqlı güzəştlər kursu götürdülər. Nəhayət, 1993-cü ilin oktyabrında RF prezidenti B.N.Yeltsinin Yaponiyaya rəsmi səfəri baş tutdu. Lakin yenə də ərazi ilə bağlı problemlər həll edilmədi. Hətta, B.N.Yeltsin imperator və baş nazirlə görüşlərində bu məsələdən yan keçdi.

Bununla yanaşı Yaponiya Rusiyaya bir sıra maliyyə yardımları göstərdi. 1995-ci ildə Rusiyaya yarım milyard dollar civarında kredit verildi.

Qeyd etmək lazımdır ki, həmin dövrdə Orta Asiya dövlətləri başçıları və rəsmi şəxslərinin də Yaponiyaya rəsmi səfərləri olmuşdur. Yaponiya bu ölkələrin iqtisadiyyatına kifayət qədər investisiya qoydu. Təkcə 1995-ci ildə yapon şirkətlərinin Orta Asiyada neft sahəsində 600 mln dollara yaxın investisiya qoyulması planlaşdırılmışdı.

1997-ci ildən Yaponiya-Rusiya iqtisadi əlaqələrinin inkişafında müəyyən irəliləmə olmuşdur. Fevral ayında Yaponiya Uzaq Şərqdə meşə ehtiyatlarının mənimsənilməsi üçün Rusiyaya 100 mln dollar kredit ayırmışdır. Ümumiyyətlə bağlanan müqaviləyə əsasən Yaponiya beş il ərzində 3 mln kubmetr ağac məhsulu alacaqdır. Hələ buna qədər 1996-cı ildə Yaponiya meşə məhsullarına olan ehtiyacının 25%-ni Rusiyanın hesabına təmin etmişdir. 1997-ci ildə Yaponiya Rusiyanın ona olan 2 mld dollara yaxın borcunun ödənilməsinin müddətini 1999-cu ilin ortalarına qədər uzatmışdı.

1997-ci ilin ortalarından iki dövlət arasında mövcud problemlərin tənzimlənməsi sahəsində aşağıdakı fikirlər irəli atılmışdır. Yaponiya tərəfi elan etmişdir ki, ərazi məsələsi hələlik dondurulur. Rusiya dövlət başçısı isə ölkəsinin 2000-ci ilədək sülh müqaviləsini imzalamağa hazır olduğunu söyləmişdir. Bundan sonra tərəflərin yenidən yaxınlaşdığını görürük: Saxalin neftinə 100 mln dollar məbləğində investisiya qoyulur, yapon şirkətləri Rusiyada 2,2 mld dollar dəyərində 39 layihəni maliyyələşdirməyə razılıq verdilər. İlin sonunda Rusiya, Çin, Yaponiya, Monqolustan və ABŞ enerji ehtiyatlarının mənimsənilməsi və daşınması sahəsində əməkdaşlıq haqqında danışıqlara başladılar.

1998-ci ildə sülh müqaviləsinin şərtlərinin razılaşdırılması üçün iki dövlətin rəsmi nümayəndələrinin qarşılıqlı səfərləri olmuşdur. 1998-ci ildə Azərbaycanın da dövlət başçısının rəhbərlik etdiyi nümayəndə heyəti Yaponiyaya səfər etmiş və bu zaman iki dövlət arasında qarşılıqlı münasibətlərin inkişaf perspektivləri müzakirə edilmişdir.

Ümumiyyətlə 90-cı illər Yaponiyanın həyatında istər hadisələrin dinamikası, istərsə də xarakteri baxımından zəngin olmuşdur. Bir sıra faktları sadalamaq istərdik : birincisi, uzun illərdən bəri siyasi həyatda liberal-demokratların şəriksiz liderliyinə son qoyulması ən ciddi hadisə kimi qeyd edilməlidir. İkincisi, iqtisadi inkişafın ən mühüm göstəricisi kimi isə 1990-ci ilin ortalarında Yaponiyanın Dünya Bankına o vaxta qədər olan borclarını bütünlüklə ödəməsini və rəsmi

inkişaf edən ölkə e'lan olunmasını söyləmək olar. Üçüncüsü, elmi-texniki inkişafın nəticəsi idi ki, 1990-cı ilin əvvəlində Milli Aerokosmik Agentlik Yaponiyanın 2005-ci ildə ay səthinin praktik mənimsənilməsi haqqında planını açıqladı, açıq fəzaya orbital stansiya buraxıldı. Dördüncüsü, sosial həyat şərtlərinin yüksək səviyyədə olmasıdır ki, yapon insanının orta ömürlük həddi 79 yaşdır. Bu da yüksək inkişaf etmiş dövlətlərdə mövcud olan həddə bərabərdir.

Liberal-demokratlar partiyasının daxilində gedən mübarizənin kəskinləşməsi 1992-ci ildə bir qrupun ondan ayrılması və Yeni Yaponiya partiyasının yaradılması ilə sonuclandı. Bunun ardınca, iyulda keçirilən seçkilərdə LDP qalib gəlsə də/ o, 511 yerdən 223-nü qazanmışdı\ xeyli yer itirmişdi. Elə buna görə də yeni təşkil olunmuş LDP hökuməti müxalifətin təzyiqinə davam gətirməyib istefa verdi. 1948-ci ildən bəri ilk dəfə olaraq LDP-nin hakimiyyət monopoliyasına son qoyuldu, Yeni Yaponiya partiyasının lideri Xosokavanın başçılığı ilə yeddi partiyanın koalisiyasından ibarət hökumət yaradıldı. 1994-cü ildə isə Sosialist partiyasının lideri T.Murayama ilk dəfə olarq baş nazir seçildi. Ümumiyyətlə bu ildə Yaponiyanın iqtisadi həyatında baş verən iki mühüm hadisə: 1)Tokio birjasında ienin ən aşağı kursunun qeydə alınması (1 dollar-93,3 ien); 2) Aktiv saldonun aşağı enməsi təkcə ölkə miqyasında deyil, bütün dünyada təsirli sonuclar verdi. Yaponiya bu iqtisadi depressiyanın aradan qaldırılması üçün dəyəri 140 mld dollar olan tədbirlər paketi hazırladı, sosialist T.Murayama istefa verdi. 1996-cı ilin əvvəlindən hökumətə Yeni hüdudlar partiyasının lideri İ.Odzavaya gəldi. 1996-1997-ci illərdə iqtisadiyyata qoyulan investisiyalar yenidən Yaponiyanı (6-cı dəfə) «dünyanın ən varlı ölkəsi» etdi. İenin kursunun bərpa edilməsi, 1998-ci ildə vergi sistemində aparılan pozitiv dəyişikliklər və s. iqtisadi inkişafın normal məcraya gəlməsinə zəmin yaratdı.

90-cı illərdə Yaponiyanın xarici siyasətində də keyfiyyətcə yeni meyllər baş vermişdir. O, beynəlxalq inteqrasiya prosesində həlledici qüvvəyə çevrilmək kursu götürmüş, həm də bu zaman iqtisadi təsir vasitələrindən siyasi təsirə keçmək imkanlarına önəm verməyə cəhd etmiş və etməkdədir. Yaponiya BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmaq istiqamətində səylər göstərir, üçüncü dünya ölkələrinə daha çox investisiya qoyur, beynəlxalq sülhyaratma proseslərində fəal iştirak etməyə can atır. O, ilk dəfə olaraq 1990-cı ilin aprelində Brüsseldə NATO-nun yüksək səviyyəli seminarında iştirak

etmişdir. Həmin ildən etibarən Şimali Koreya ilə münasibətlərin normallaşdırılması istiqamətində bir sıra addımlar atılmışdır. İki dövlət arasında mövcud olan mübahisəli məsələlərin həlli yolları haqqında tərəflər arasında müzakirələr aparılmağa başlanılmışdır.

Ümumiyyətlə Yaponiya region ölkələrilə münasibətlərin genişlənməsi və inkişafına yenə də xüsusi fikir verir. ÇXR ilə münasibətlərin daha da normallaşdırılması məsələsi iki dövlətin rəsmi nümayəndələrinin qarşılıqlı səfərlərinin başlıca mövzusu olmuşdur. Bu baxımdan imperator Akixitonun Çinə səfəri əhəmiyyətli rol oynamışdır. Vyetnam, Kampuçiya, Monqolustan ilə sıx əlaqələr yaradılmağa çalışılmışdır. SSRİ-nin süqutundan sonra yapon kapitalının Qərbə axını kifayət qədər məhdudlaşdırılmış və o, əsasən postsovet məkanına istiqamətləndirilmişdir. Yaponiya 1992-ci ildən «Yeni Asiya düzəni» ideyasını irəli sürmüş, bu barədə qonşu dövlətlərlə müzakirələr aparmağa başlamışdır. Həmin ildə Yaponiya parlamenti ölkənin hərbi kontingentlərinin BMT-nin sülhyaratma əməliyyatlarında iştirakı haqqında qərar qəbul etmişdir. 1993-cu ilin mayında BMT-nin «mavi dəbilqəliləri» sırasına 60 yapon əsgəri yola salınmışdır. Yaponiyanın rəsmi dövlət nümayəndələrinin Paris, London və Bonna səfərləri zamanı BMT-nin rəhbər strukturlarında yaxından iştirak üçün Qərbdən dəstək alınmasına çalışılmışdır. NATO rəhbərliyilə isə Şərqi Avropa və MDB ölkələri ilə əməkdaşlıq problemləri müzakirə edilmişdir. Bu məsələlər 1993-cü və 1994-cü illərdə Yaponiyada rəsmi səfərdə olmuş ABŞ və Çin dövlət nümayəndələri ilə görüşlərin əsas mövzularından olmuşdur. Nəhayət, 1994-cü ilin sentyabrında Yaponiya BMT Təhlükəsizlik Şurasında daimi üzv olmaq haqqında niyyətini açıqladı. Bu niyyət 41 dövlətin nümayəndəsi və BMT baş katibi B.Qali tərəfindən dəstəkləndi.

1995-ci ildə Sakit okeanda Fransanın keçirdiyi nüvə sınaqlarına qarşı çıxan Yaponiya eyni zamanda ABŞ ilə hərbi əməkdaşlığın perspektivləri haqqında danışıqlar da apardı. Nəhayət, tərəflər 1997-ci ildə bu qənaətə gəldilər ki, Yaponiya-ABŞ təhlükəsizlik müqaviləsinin təsir dairəsi Tayvan boğazınadək olan əraziləri də əhatə etsin. İki dövlətin hərbi sahədəki əməkdaşlığı zəminində 1995-ci ilin sonlarında birgə istehsal olan yeni nəsil FSX tipli qırıcı təyyarənin buraxılmasına başlanılmışdır. ABŞ ilə iqtisadi əməkdaşlıq da möhkəmləndirilir. 1995-ci ildən Yaponiya və ABŞ ticarət müharibəsinə son qoymaq qərarına gəlmişlər.

Bu dövrdə ABŞ-la yanaşı Kuba, Peru, Nikaraqua və s. kimi Latın Amerikası ölkələri ilə əməkdaşlığa da xüsusi fikir verilir. ÇXR, Şimali və Cənubi Koreya dövlətləri və Yaponiya arasında müxtəlif sahələr üzrə ikitərəfli əməkdaşlıq müqavilələri bağlanmışdır. Ərəb ölkələri ilə əməkdaşlıqda neft amilinin təsiri böyükdür. Təsadüfi deyildir ki, 1998-ci ilin fevralında Yaponiya ABŞ-ın İraqı yenidən bombardman etmək üçün BMT-nin əlavə sanksiyalarına ehtiyac olması haqqındakı fikirlərinə etirazını bildirmişdir.

Deyilənləri belə yekunlaşdırmaq olar ki, XX əsrin sonuncu on illiyi Yaponiyanın tarixində siyasi həyatda sağ və sol qüvvələr arasında mübarizədə nisbi də olsa tərəflərin bərabərliyi vəziyyəti yaranmaqdadır. İqtisadi gücün kifayət qədər yüksəlişi Yaponiyaya imkan yaratmışdır ki, dövlətlərarası problemlərin həllində o gücdən bir vasitə kimi istifadə etsin, eyni zamanda iqtisadi təsiri siyasi müstəviyə keçirsin, bu on illikdə Yaponiya II dünya müharibəsindən sonra məruz qaldığı bir sıra məhdudiyyətləri dilə gətirsin və bir super dövlət kimi öz hərbi potensialı haqqında düşündüyünü açıq elan etsin , bununla da sıxışdırıldığı «məhkum» statusu ilə razılaşmadığını dolayısı yolla bəyan etsin. Dünyanın aparıcı dövləti statusu qazanmaq cəhdləri (BMT TŞ-nın daimi üzvü olmaq və s.) Yaponiyanın bu qəbildən istəyinin ifadəsidir.

Bütün bu deyilənləri nəzərə alan tarixçilər artıq belə bir qənaəti tez-tez dilə gətirirlər ki, XXI əsrdə dünyanın güc qütbləri ABŞ və Yaponiya arasında paylanacaqdır.

# KOREYA

## *Koreyanın istiqlal qazanması, ikiyə bölünməsi və vətəndaş müharibəsi*

1945-ci il avqustun 15-də Yaponiyanın təslimi ilə Koreya öz bağımsızlığına qovuşmuş oldu. Həmin tarix ölkənin bağımsızlıq günüdür, təəssüflər ki, həm də Koreyanın ikiyə parçalanması günüdür.

Belə ki, 1945-ci ilin mayında Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı arasında əldə olunan sazişə görə Koreya müharibə bitdikdən sonra ABŞ, SSRİ, İngiltərə və Çinin himayəsi altına keçməli idi. 1945-ci ilin iyulunda Potsdam konfransında SSRİ-nin Uzaq Şərqdəki hərbi əməliyyatlarda iştirakına qərar verildikdən sonra hərbi əməliyyatların aparılması baxımından Koreya ərazisi 38-ci en dairəsi ilə ikiyə bölündü. Həm də tərəflər bu en dairəsindən şimala olan torpaqları Sovet İttifaqının, cənuba olan torpaqları isə Birləşmin Ştatların hərbi əməliyyatlar sahəsi kimi qəbul etdilər. Məhz bu qərar da Koreyanı günümüzə kimi ikiyə bölünmüş halda qalmasının təməlini qoymuş oldu.

İrəlidə Yaponiyanın qeydəsiz-şərtsiz təslim olması haqqında danışdığımızdan yenidən ona qayıtmırıq. Əlavə olaraq qeyd etmək lazımdır ki, Uzaq Şərqdə hərbi əməliyyatlar nəticəsində Sovet İttifaqı nəzərdə tutulan ərazini işğal altına aldı. Sentyabrın əvvəlində isə Cənubi Koreya ABŞ işğalı altına keçdi. Beləliklə də ölkənin şimalında sovet, cənubunda amerika hərbi-işğal rejimi yarandı və fəaliyyətə başladı.

Koreyanın gələcəyi haqqında məsələ 1945-ci ilin dekabrında Moskvada ABŞ, SSRİ və Böyük Britaniya xarici işlər nazirlərinin iştirakı ilə keçirilən konfransda müzakirəyə çıxarıldı. ABŞ nümayəndə heyəti təklif etdi ki, Koreya himayə edilən əraziyə çevrilsin və buranın idarə edilməsi şimalda sovet, cənubda isə amerika hərbi komandanlığı tərəfindən həyata keçirilsin. Bu rejimin 10 ilə qədər müddətdə mövcud olması nəzərdə tutulurdu. Sovet İttifaqı bu təklifi qəbul etmədi. Uzun müzakirələrdən sonra qərara alındı ki, Koreya müstəqil bir dövlət kimi yenidən bərpa olunsun, müvəqqəti ümumkoreya demokratik hökuməti yaradılsın, onun tərkibi hər iki hissənin-həm cənubun, həm də şimalın nümayəndələrindən ibarət olsun və bütün

bu prosesə amerika-sovet birgə komissiyası nəzarət etsin. Müvəqqəti hökumətə tapşırılırdı ki, amerika-sovet birgə komissiyasının köməyi ilə yaxın beş il üçün Koreyanın siyasi, iqtisadi və ictimai sahələrdə inkişafı haqqında tədbirlər planı hazırlasın. Təbiidir ki, bu kompromis milli hökumət yaradılması və ölkənin birləşməsinə yol aça bilərdi. Lakin az keçmədən bəlli oldu ki, Koreyanın gələcəyi məsələsində ABŞ-ın və Sovet İttifaqının plan və məqsədləri tamamilə bir biri ilə ziddiyyət təşkil edir, tərəflərdən hər biri yaranmış vəziyyətdən öz mövqeini möhkəmləndirmək üçün istifadə etməyə çalışır. Bu səbəbdən də başlanmış iş 1946-cı ilin mayından etibarən pozuldu və ölkə birdəfəlik olaraq iki yerə bölündü. Ölkənin şimalında sovet işğal rejiminin yaranmasından sonra sovet ordusunun kapitanı Kim İr Senin başçılıq etdiyi kommunistlər fəallaşdılar və Kommunist partiyasını yenidən dirçəltdilər. 1946-cı ilin avqustundan onlar Yeni Xalq partiyası ilə birləşir və Əmək Partiyasını təsis edirlər. Buna qədər Vahid Demokratik Milli Cəbhə adlı təşkilat da yaradılmışdı. Sovet İttifaqından hər cür maddi və mənəvi dəstək alan Koreya Əmək Partiyası cəmiyyətə rəhbərliyi öz əlinə keçirdi. Xalq komitələri adlanan bir sistem yaradıldı. 1947-ci ilin fevralında xalq komitələrinin I qurultayı çağrıldı və burada Xalq məclisi seçildi. Xalq məclisi Kim İr Senin başçılığı ilə ali icra hakimiyyəti formalaşdırdı. Bundan sonra şimalda sosializm cəmiyyəti qurulmasını nəzərdə tutan bir sıra tədbirlər görüldü. İlk olaraq aqrar islahat keçirildi. Bu məqsədlə yapon hökumətinə, yapon mülkədarlarına, koreyalı torpaq sahiblərinə məxsus olan 1 mln ha-ya yaxın torpaq müsadirə olundu, dini tə'sisatlara məxsus torpaqların 2 ha-dan artığı əllərindən alandı, muzdur, aztorpaqlı və torpaqsız kəndlilər arasında bölüşdürüldü. Yeni rejim bununla kənddə öz dayaqlarını möhkəmlətmək istəyirdi.

Bu məqsədlə şəhərlərdə də bir sıra tədbirlər həyata keçirildi. Yaponiya dövlətinə, yapon və koreya kapitalistlərinə məxsus olan bütün sənaye, nəqliyyat, rabitə, bank, ticarət və mədəniyyət müəssisələri əvəzi ödənilmədən milliləşdirildi. Bunun nəticəsində sənayedə dövlət bölməsinin həcmi 80%-ə çatdı. Əmək haqqında qanun verildi. Qanunda nəzərdə tutulurdu ki, işçilər 6 saat işləyə bilərlər, onlar məzuniyyət və pulsuz müalicə hüququna malikdilər. Qadınlar və kişilər eyni hüquqludurlar.

İqtisadiyyatın bərpası başlandı. Qeyd etmək lazımdır ki, Koreya yapon əsarəti altında olarkən burada kifayət qədər sənaye müəs-

sisələri yaradılmışdı. Ümumi sayı 1300-dən artıq olan metallurgiya və kimya zavodları, elektrik stansiyaları, dəmir yolları, portlar və s. müxtəlif təyinatlı müəssisələr inşa edilmişdi. Müharibə dövründə bunların çox hissəsi tamamilə və ya qismən dağıdılmış, yararsız hala düşmüşdü. O biri tərəfdən mühəndis-texniki işçilər yox idi, avadanlıq və xammal çatışmırdı. Yaranmış vəziyyətdən Sovet İttifaqı yararlanmaq üçün istifadə edir, müxtəlif yardımlar və köməklər göstərmək adı altında ölkənin iqtisadiyyatına nəzarəti öz əlinə alırdı. 1947-ci ilin sonlarında artıq 840-dan çox müəssisə işə salınmış, Şimali Koreya iqtisadiyyatının sosialist təməli üzərində inkişafının ilkin şərtləri yaradılmışdı.

Yeri gəlmişkən göstərmək lazımdır ki, belə bir siyasi və iqtisadi fəallıq ölkəninin cənubu üçün da xarakterdir. Burada da xalq komitələri yaradılır, müxtəlif yönümlü siyasi qüvvələr üzə çıxır və təşkilatlanırdılar. Şimali Koreyadan fərqli olaraq Cənubda liberal, mühafizəkar, millətçi, solçu və s. hər cür yönümlü partiyalar və təşkilatlar yaranır, siyasi həyatda demokratik ənənələrin təməli qoyulurdu. Məhz bu demokratik qüvvələr də 1919-cu ildən ABŞ-da mühacirətdə olan Li Sın Manın başçılığı ilə Cənubda yaranan siyasi hakimiyyətin əsas dayağına çevrildilər. Doğrudur, Cənubda da qısa bir zamanda kəsiyində kommunistlərin başçılığı altında sol qüvvələr fəallıq göstərməyə cəhd etdilər. Hətta, açıq şəkildə nümayişlər təşkil edir, Şimaldakı qayda-qanunların Cənuba da şamil edilməsini söyləyir, ölkədə qeyri-sabitlik yaratmaq istəyirdilər. Lakin görülmüş tədbirlər nəticəsində bu cəhdlər ciddi bir nəticə vermədi. 1946-cı ilin sonralarında Qanunverіçilik palatası tə'sis olundu. Bu palatanın üzvlərinin yarısı hakimiyyət orqanları tərəfindən təyin olunmuş, qalan yarısı isə seçkilər yolu ilə müəyyənləşmişdi. İcraedici hakimiyyət kimi Koreya Mülki İdarəsi təsisatı da yaradıldı.

Qeyd etmək lazımdır ki, həmin arada Koreyanın birləşdirilməsi məsələsində tərəflərin bir araya gəlməsinin mümkünsüzlüyü real fakta çevrildiyi səbəbindən ABŞ məsələnin həllini BMT Baş Məclisininin müzakirəsinə çıxarmışdı. BMT Baş Məclisinin 2-ci sessiyası da BMT komissiyasının nəzarəti altında ölkədə demokratik seçkilər keçirilməsinə qərar vermişdi.

1947-ci ilin mayında Cənubi Koreyanın Milli Məclisinə demokratik seçkilər keçirildi, keçid hökuməti yaradıldı. Cənubi Koreyada dövlət quruculuğu sahəsində ən mühüm tədbir 1948-ci ilin avqus-

tunda Koreya respublikası yaradılmasının elan edilməsi oldu. Liberal partiyasının lideri Li Sın Man Koreya Respublikasının ilk prezidenti seçildi. Buna cavab olaraq Şimalda da 1948-ci ilin 25 avqustunda Koreya Ali Xalq Məclisi yaradıldı. Məclis 1948-ci ilin 9 sentyabrında Koreya Xalq Demokratik Respublikasının yaradıldığını elan etdi. Nazirlər Kabinetinə başçılıq Kim İr Senə tapşırıldı. O, eyni zamanda Koreya Əmək Partiyasının sədri də seçildi. Beləliklə də Koreyanın iki yerə bölünməsi hüquqi baxımdan da təsbit olundu. Tərəflərdən hər biri özünü qanuni hesab edir, digərinin varlığı fikrini yaxına buraxmırdı. Təbiidir ki, belə bir vəziyyətin yaranması bir tərəfdən regionda iki supergücün- Sovet İttifaqı və ABŞ-ın üstünlük uğrunda mübarizəsindən irəli gəlirdisə, o biri tərəfdən qarşıdurmanın daha da kəskinləşməsinə, silahlı münaqişənin qaçılmaz olmasına zəmin olaraq qalırdı. Doğrudur, formal olaraq sovet qoşunları 1948-ci ilin sonunda, amerika qoşunları isə 1949-cu ilin əvvəlində yarımadadan çıxmışdılar. Əslində isə hər iki tərəf müəyyən adlar altında burada yetərincə hərbi qüvvələr saxlamışdı və faktik olaraq Koreyanı ikiyə bölən 38-ci en dairəsi qarşı-qarşıya dayanmış iki dünya sistemini ayıran cəbhə xətti idi. Silaha əl atılacağı ehtimalının hər gün reallaşdığını hər iki tərəf əvvəlcədən hiss edirmiş kimi öz qüvvələrini daha da möhkəmlətmək və yaxşı təşkil etmək haqqında düşünürdü. Bu baxımdan 1949-cu ilin 19 martında Moskvada SSRİ və KXDR arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında sazişin imzalanması, həmin qəbildən olan saziş və müqavilələrin ABŞ və Koreya Respublikası arasında bağlanması faktiki olaraq Şimalın Sovet İttifaqının, Cənubun isə Birləşmiş Ştatların hərbi-strateji bazasına çevrilməsi məqsədinə xidmət edirdi. Bütün bunlar da ondan irəli gəlirdi ki, Koreya yarımadası olduqca strateji əhəmiyyətli bir bölgədir. Oraya sahib olmaq Asiyada sərbəst hərəkət etmək imkanı qazanmaq deməkdi. ABŞ-ın Cənubi Koreya və Yaponiyada hərbi qüvvələrinin mövcudluğu onun strateji baxımdan qüvvətli bir durumda olduğuna dəlalət edirdi. Covet İttifaqı hələlik başı Çində kommunistlərin hakimiyyətə gətirilməsi uğrunda mübarizənin təşkilinə qatıldığından ABŞ-ın bu durumuna dözürdü. Elə ki, Çin 1949-cu ilin sonralarında kommunist rejimi idarəsi altına keçdi, bundan sonra Sovet İttifaqının Asiyada güclənməsi imkanları kifayət qədər genişləndi. Sovet rəhbərliyi belə düşünürdü ki, artıq ABŞ-ı Asiya qitəsindən atmaq zamanı çatmışdır. Bu işi Koreyada həyata keçirmək mümkün olardısa, onda ABŞ-ın Yaponiyadan da çıxa-

rılması asanlaşa bilərdi.

Elə bu səbəbdən də Sovet İttifaqının təlimatı ilə KXDR rəhbərliyi Cənubi Koreyaya qarşı hərbi təcavüzə qərar verdi. 1950-ci ilin 25 iyununda səhər tezdən KXDR silahlı qüvvələri bütün sərhəd boyunca Cənuba qarşı hərbi əməliyyatlara başladılar. Həm də bu zaman Şimal elan edirdi ki, hərbi əməliyyatların başlanmasında Cənub günahkardır. Bu baxımdan 1990-cı ildə sovet mətbuatında Koreya müharibəsi dövründə KXDR baş qərargah rəisinin müavini olmuş, 1955-1956-cı illərdə SSRİ-də səfir işləmiş, siyasi motivlərə görə vətənə qayıtmaqdan imtina etmiş Li San Çanın dərc edilmiş məlumatı çox şeyi açıqlayır. Li San Çan bildirmişdir ki, müharibəni Şimali Koreya başlamışdır, təşəbbüs Kim İr Sen tərəfindən irəli sürülmüşdür və İ.V.Stalin tərəfindən bəyənilmiş və dəstəklənmişdir. Hərbi əməliyyatların bütün sərhəd boyunca aparılması, mütəşəkkil şəkildə müəyyən edilmiş istiqamətlərdə hücumlar edilməsi və qısa bir zaman kəsiyində böyük ərazilərin ələ keçirilməsi də müharibənin əvvəlcədən yüksək səviyyədə planlaşdırıldığına dəlalət edir. Belə ki, 38-ci en dairəsi boyunca cəmləşdirilmiş Şimali Koreya silahlı qüvvələrinin qəflətən hücumu artıq üç gündən sonra Seulun işğalı ilə nəticələnmişdi. Cənubi Koreya olduqca ağır bir duruma gəlmişdi.

Belə olduqda ABŞ məsələni BMT-nin Təhlükəsizlik Şurasına çıxardı, Şimali Koreya təcavüzkar elan olundu və ona qarşı mübarizə aparmaq üçün Cənubi Koreyaya BMT silahlı qüvvələrinin göndərilməsi qərara alındı. BMT silahlı qüvvələri müxtəlif dövlətlərin əsgərlərindən ibarət idi. Ancaq əksəriyyəti ABŞ əsgərləri təşkil edirdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu silahlı qüvvələrin sırasına Türkiyə də bir diviziya göndərmişdi. Milli istiqlal savaşından keçən müddət ərzində ilk dəfə idi ki, türk əsgəri hərbi əməliyyatlarda iştirak etdi və onun Koreyada göstərdiyi qəhrəmanlıq Türkiyənin NATO-ya üzv qəbul edilməsində mühüm bir rol oynadı.

BMT hərbi qüvvələrinə başçılıq etmək general Mak Artura tapşırılmışdı. Onun əmrinə uyğun olaraq 1950-ci ilin sentyabrında 50 minlik qoşun dəstələri Şimali Koreya qüvvələrinin arxasına çıxarıldı. KXDR-in əsas qüvvələri darmadağın edildi, Seul düşməndən təmizləndi, 38-ci en dairəsi keçildi və Pxenyan tutuldu. BMT qoşunlarının Çin sərhədlərinə doğru irəlilədiyi bir zamanda 1950-ci ilin oktyabrında Çin könüllülər adı altında Koreya torpaqlarına çoxsaylı hərbi qüvvələr yeritdi. Sovet İttifaqı da Şimali Koreyaya hər cür yardım və kö-

mək göstərirdi: sovet qırıcı təyyarələri hərbi əməliyyatlarda iştirak etmiş, yuksək səviyyəli mütəxəssislər rabitə sisteminin işini təmin etmişlər, cəbhədə sovet hərbi hospitalı fəaliyyət göstərmişdir. Şimali Koreya ordusunun silaha və hərbi texnikaya olan bütün ehtiyacı da Sovet İttifaqı tərəfindən təmin edilirdi. Tərəflər ağır hərbi əməliyyatlar nəticəsində cəbhə xəttini 1951-ci ilin yazında 38-ci en dairəsi boyunca sabitləşdirə bildilər. Lakin hərbi əməliyyatlar bundan sonra iki il də davam etdirilmişdir. Bu üç illik müddət ərzində tərəflərdən heç biri qəti üstünlük göstərib qələbə qazana bilmədi. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, nə Sovet İttifaqı və Çin, no də ABŞ bu müharibənin Koreya sərhədlərindən kənara çıxarılmasında maraqlı olmamış və bu məsələyə xüsusi diqqət yetirmişlər. Çünki yanlış bir hərəkət daha böyük müharibəyə gətirə bilərdi.

Hərbi əməliyyatların getdiyi bir zamanda 1951-ci ilin iyun ayından atəşin kəsilməsi və barış danışıqlarına başlamaq haqqında razılaşma əldə edildi. Danışıqlar təklifi Şimali Koreyadan, təbiidir ki, Sovet İttifaqının təşəbbüsü və razılığı ilə gəlmişdi. Danışıqların getdiyi dövrdə hərbi əməliyyatlar hələ də davam etdirilirdi. Nəhayət, sovet lideri İ.V.Stalinin 1953-cü ilin martında ölməsi, bunun ardınca ali siyasi hakimiyyət daxilində mübarizənin güclənməsi və kəskinləşməsi səbəbindən Sovet İttifaqı təqdim olunan şərtlərə razı oldu. 1953-cü ilin iyulunda Phanmuncom kəndində (Keson şəhərinin yaxınlığında) tərəflər arasında barışıq haqqında saziş imzalandı.

Qeyd edək ki, istər danışıqlarda, istərsə də barışıq haqqında sazişin imzalanması prosesində Çin də «könüllülər» adından iştirak edirdi. Sazişin şərtlərinə görə Şimali Koreya və Cənubi Koreya arasındakı sərhəd yenə də 38-ci en dairəsindən keçirdi. İki Koreyanın durumunda heç bir dəyişiklik olmadı. Yalnız Sovet İttifaqı və ABŞ-ın Koreyadan çıxmayacaqları gercəkləşdi. Halbuki, sazişin şərtlərinə görə xarici qoşunlar 90 gün ərzində Koreyadan çıxmalı idi. Koreyanın birləşdirilməsi və bərpası üzrə BMT-nin Komissiyası ölkənin gələcəyi haqqında tədbirlər hazırlamalı və həyata keçirməli idi.

1953-cü ilin 1 oktyabrında ABŞ ilə Cənubi Koreya arasında bağlanan müqavilənin şərtləri ilə ölkədə amerika hərbi qüvvələrinin saxlanılmasına hüquqi əsas verilmiş oldu.

Bu müharibə Koreya xalqına böyük bəlalar gətirdi. Çox böyük əksəriyyəti Şimaldan olmaqla milyonlarla dinc əhali və əsgər məhv edildi və yaralandı. 1 mln-a yaxın çinli əsgər öldürüldü və şi-

kəst edildi. BMT qoşunlarının itkisi 54 min nəfər olmuş, ölkənin iqtisadiyyatına güclü zərər dəymişdir.

### *KXDR 1953-1980-ci illərdə*

Müharibə nəticəsində hər iki tərəfin iqtisadiyyatı dağılmış hala gəlmişdi. Şimali Koreyaya aid bir sıra faktları sadalayaq: 1949-cu il ilə müqaisədə 1953-cü ildə sənayenin dövlət və kooperativ bölməsi üzrə ümumi istehsal 40%-ə, kənd təsərrüfatında dənli bitkilər istehsalı 80%-ə enmiş, texniki bitkilər və heyvandarlıq məhsulları isə daha çox azalmışdı. Nəqliyyat və rabitə sahələri dağılmış, kəndlər, şəhərlər və digər yaşayış məskənləri xarabalıqlara dönmüş, əhalinin mənzil, paltar, ərzaq və s.yə olan ehtiyacları qat-qat artmışdı. Bu səbəbdən də barışıq müqaviləsinin bağlanması tərəflərin hər birinə olduqca lazımlı idi.

KXDR iqtisadiyyatın bərpasını özünün ən mühüm vəzifəsi elan etdi. Bu məqsədlə xalq təsərrüfatının bərpası və inkişafı üzrə üç illik (1954-1956-ci illər) plan işlənib hazırlandı. Planın yerinə yetirilməsi üçün lazım olan maliyyə ehtiyaclarının daxili ehtiyatlar və xarici borclar hesabına ödənilməsi nəzərdə tutulurdu. Sovet İttifaqı, ÇXR və digər sosialist dövlətləri bu məsələdə KXDR-ə müəyyən kömək və yardım göstərirdi. Üç illik planın əsas amalı isə sənayedə, ticarətdə və kənd təsərrüfatında dövlət bölməsinin mövqeyini möhkəmləndirmək idi. Demək lazımdır ki, buna da nail olundu. 1956-cı ildə kənd təsərrüfatı üzrə ümumi məhsulun 3\4 kooperativ və dövlət müəssisələrinin payına düşürdü. Sənaye məhsullarının 98%-i dövlət bölməsində istehsal olunurdu. Ümumi ticarət dövriyyəsinin yalnız 1\8-i xüsusi ticarətə aid idi.

1956-cı ilin aprelində Əmək partiyasının III qurultayında qəbul olunan beşillik planın əsas istiqamətləri sosialist sənayeləşdirilməsinin təməlini yaratmaq və kənd təsərrüfatının kooperativləşdirilməsini başa çatdırmaq idi. Koreya Əmək partiyası bununla Şimali Koreyanı aqrar-sənaye dövlətinə çevirmək vəzifəsinin yerinə yetiriləcəyini planlaşdırırdı. Əslində isə bu siyasət ölkənin ənənəvi iqtisadi strukturlarının dağıdılmasına, ayrı-ayrı istehsal sahələri arasında disproporsiya yaradılmasına və böyük çətinliklərin törəməsinə səbəb oldu. Doğrudur, 1958-ci ildə kənd təsərrüfatında kooperativləşdirmə başa çatdı, xüsusi və fərdi əməklə məşğul olanlar, eləcə də ticarətçilər müxtəlif kooperativlərdə birləşdirildilər. Artıq 1959-cu ildə bu

iqtisadi siyasətin zərərli simptomları üzə çıxır, ölkədə elektrik enerjisi, metal, daş kömür çatışmır, nəqliyyat sistemi kifayət qədər geri qalırdı. Kənd əhalisinin böyük hissəsi tikinti və sənaye sahələrində işləmək üçün şəhərlərə göndərilirdi. Nəticədə kənd təsərrüfatı işləri pozulur, əhalinin ərzaqla təchizatında, mənzillə təmin edilməsində böyük çətinliklər yaranırdı. Bunlar isə nəticə e'tibarilə əhalinin normal həyat tərzinin pozulması demək idi. Doğrudur, KXDR rəhbərliyi bu vəziyyəti dərk etdi, hətta vəziyyəti «tənzim etmək» haqqında tədbirlər hazırladı və həyata keçirməyə başladı. Lakin siyasi rejimin gündən-günə artan totalitar xarakteri iqtisadi həyatın normal məcraya gəlməsinə birdəfəlik imkan vermədi. Nəyin hesabına olursa-olsun zamanı qabaqlayaraq inkişaf etmək ideyasının acı nəticələri daha dəhşətli dərəcədə hiss olunmaqdaydı. Lakin qeyd edək ki, ölkədə sənaye sahələrinin yaradılması və möhkəmləndirilməsi, kənd təsərrüfatının kooperativləşdirilməsi və onun texniki təchizatı, dövlət ticarətinin təşkili, sosial, mədəni və təhsil sisteminin təşkili və s. sahələrdə müəyyən uğurlar olmuşdur. 60-cı illərin ortalarından hərbi quruculuq sahəsinin inkişafına xüsusi fikir verilməyə başlanıldı. Təbiidir ki, bu da çox böyük maddi və əmək ehtiyatları tələb edirdi.

KXDR-in iqtisadi həyatında SSRİ başda olmaqla digər sosialist dövlətlərinin fəal rolu olubdur. Onlar bir sıra sənaye müəssisələrinin inşasında və maliyyələşdirilməsində iştirak ediblər.

Bir qədər öncə xalq təsərrüfatının bərpa və inkişafına dair 1954-1956-cı illəri əhatə edən 3 illik plandan bəhs edilmişdi. Bunun ardınca 5 illik (1957-1961) plan qəbul olundu. 1961-ci ilin sentyabrında qəbul olunmuş yeddi illik plan (1961-1967) xalq təsərrüfatının hərtərəfli texniki rekonstruksiyası və mədəni inqilab nəticəsində KXDR-i müasir sənaye və kənd təsərrüfatına malik sosialist sənaye ölkəsinə çevirməyi nəzərdə tuturdu. Sonralar bu planın həyata keçirilmə müddəti 10 ilədək uzadıldı. Növbəti plan altı ili (1971-1976-cı illər) əhatə etmişdir və ölkədə sosializmin qələbəsinin bərqərar olmasını nəzərdə tuturdu. Bunun göstəricisi kimi 1972-ci ilin dekabrında KXDR-in yeni konstitusiyası qəbul edildi. O, sosialist konstitusiyası adlanırdı. Konstitusiya e'lan edirdi ki, KXDR süveren, sosialist dövlətidir, hakimiyyət fəhlə, kəndli, əsgər və zəhmətkeş ziyalılara məxsusdur (onların təmsil olunduğu təsisatların timsalında), ölkənin şimal hissəsində sosializmin tam qələbəsi və «vətənin demokratik təməllər əsasında dinc yolla birləşdirilməsi və bütün ölkə miqyasında tam

milli istiqlaliyyətə nail olmaq» uğrunda mübarizə başlıca vəzifə elan olunurdu. Söylənilənlərdən aydın oldu ki, planların özünün sistemi yoxdur, onların 3, 5, 7, sonra 10, 6, 5 və s. illiklər üzrə tərtib olunmasının məntiqi mənası bəlli deyildir. Zamanı qabaqlamaq və hər şeyi tez bir müddətdə həll etmək bu planların hakim ruhudur. Hələ 1956-cı ildə Koreya Əmək partiyasının plenumunda Kim İr Sen sənaye istehsalının artım sürətinin kəskin şəkildə yüksəlməsini tələb edirdi. Həmin dövrdən tarixi ədəbiyyatda «Çxollime hərəkatı» (əfsanəvi qanadlı atın adı ilə) kampaniyasının əsası qoyulmuş oldu. Onun törətdiyi neqativ cəhətlər 70-ci illərdə daha da kəskinləşmişdi və təsadüfi deyildir ki, 1977-ci il «tənzimləmə ili» elan olunmuşdur.

Bu da maraqlıdır ki, bütün iqtisadi planlar Koreya Əmək partiyasının qurultaylarında qəbul olunurdu. Ənənəvi olaraq bu planların icrasının aşağıdaki prinsiplərə əsaslandığı bildirilirdi: əmək məhsuldarlığının yüksəldilməsi, vəsait və materiallara qənaət, elmi-texniki nailiyyətlərin tətbiqi və yeni məhsul növlərinin mənimsənilməsi.

«Çxollime hərəkatı»nın ideoloji əsasında çuçxe ideyaları dayanırdı. Çuçxenin əsas prinsipi isə öz qüvvəsinə arxalanmaqdır. Misilsiz fiziki əmək sərfi bahasına böyük elektrik stansiyaları, metallurgiya və kimya kombinatları, dəzgahqayırma müəssisələri inşa edildi. Rəsmi məlumatlara görə artıq 1960-cı ildə sənaye istehsalı 1953-cü illə müqaisədə 10 dəfə artmışdı. Həmin dövrdən etibarən ölkədə Kim İr Senin şəxsiyyətinə pərəstiş geniş şəkildə təbliğ edilirdi. Rəsmi mətbuatda göstərilirdi ki, Kim İr Sen «1950-1953-cü illər müharibəsində amerika imperializminə qalib gəldi, sonra isə KXDR-də uğurlu sosializm quruculuğunu həyata keçirdi». Hakimiyyətin şəxsiyyətləşdirilməsi, rəhbərə pərəstiş, onun günahsızlığına olan hər hansı bir şübhəni yaxına buraxmamaq KXDR həyatının xarakter cəhəti oldu. Əhalinin şüuruna belə bir fikir yeridilirdi ki, «dünya tarixi yoldaş Kim İr Sen kimi ikinci bir rəhbəri tanımamışdır». O, rəsmi terminologiyada «böyük rəhbər» kimi təqdim olunurdu. Kim İr Çen isə öz atasının cəmiyyətdəki rolunu belə qiymətləndirirdi: «bizim cəmiyyətdə rəhbər, partiya və kütlə vahid ictimai-siyasi orqanizm təşkil edirlər... rəhbər partiya və onun rəhbərliyinin birliyinin mərkəzidir». Pxenyanda nəşr olunmuş «Kimirsenizm- nəzəriyyə və təcrübə» kitabının müəllifləri «dünyanın düşünən insanları»nın «milli qəhrəman, inqilab və quruculuq dahisi, dahi mütəfəkkir və nəzəriyyəçi, dünya inqilabının rəhbəri Kim İr Senin olduğu» Koreyanı görmək istədiklərini ya-

zırdılar. Nəinki «böyük rəhbər» Kim İr Sen, hətta onun oğlu «əziz rəhbər» Kim İr Çenin də şəxsiyyəti haqqında söylənilən təriflərin həddi-hüdudu yox idi. O, atasının sağlığında Koreya Əmək Partiyası Mərkəzi Komitəsinin Siyasi büro üzvü və katibi idi, faktik olaraq partiya-dövlət apparatının gündəlik fəaliyyətinə rəhbərlik edirdi. Kim İr Çen rəsmi olaraq vəliəhd elan edilmişdi.« Kim İr Çen - xalqın rəhbəridir» kitabının müəllifləri inanırdılar ki, «nə qədər ki, əziz yoldaş Kim İr Çen, böyük mütəfəkkir və nəzəriyyəçi, rəhbərliyin görkəmli dahisi, xalqın misilsiz əliaçıq müəllimi və əsrin böyük insanı Koreya Əmək partiyasının və inqilabın başında durur» Koreya xalqının xoşbəxtliyinin və yüksəlməsinin təminatı vardır. Hər iki liderin ad günləri ən mühüm milli bayramlar elan edilmişdi. Varisliyin bu qayda ilə həll olunması KXDR- də «sosializm nəzəriyyə və təcrübəsinə mühüm bir pay» kimi dəyərləndirilirdi.

Ümumiyyətlə, Kim İr Senin hakimiyyətə gətirilməsindən bu günə kimi ölkədə siyasi rejim avtoritar və totalitar bir xarakter daşımaqdadır. Təbiidir ki, bunun acı nəticələri KXDR həyatının bütün sahələrinə: xarici siyasət, iqtisadiyyat, sosial və ideoloji sahələrinə, eləcə də mərkəzçilik və demokratiya arasındakı ölçülərin müəyyənləşdirilməsinə həmişə güclü təsir etmiş və etməkdədir.

KXDR həyat tərzinin səciyyəvi cəhətlərindən birisi də yaşayışın və əməyin hərbiləşdirilməsi idi. Ölkənin hər yerində «çevik döyüş» qüvvələri fəaliyyət göstərirdi. Onun sıralarında 2 mln nəfər civarında gənc birləşmişdi. Onlar vzvod, rota və polklara bölünmüşdülər, müəyyən daimi tikililərdə və ya müvəqqəti quraşdırılmış çadırlarda yaşayırdılar, burada komissarların nəzarəti altında idilər. Komissarlar da öz növbəsində daimi olaraq bu gəncləri ideoloji baxımdan hazırlamaqla məşğuldurlar.

Bu qüvvələrin əsas təyinatı ondan ibarətdir ki, ölkənin harasında «kütləvi qəhrəmanlıq» göstərmək lazımdırsa, onlar orada olmalıdırlar və bu «qəhrəmanlığı» göstərməlidirlər.

Başqa bir qüvvə «partiyaçıların zərbə dəstəsi» adlanır. Onların əsas işi isə xüsusi əhəmiyyətli obyektləri tez bir zamanda inşa etməkdir. Mühəndislər, texniklər və kənd əməkçiləri özlərinin xüsusi bölmələrində fəaliyyət göstərirlər. Ümumiyyətlə isə əhalinin həyatını «hakimiyyətə yardım qrupları» tam nəzarət altında saxlayırlar.

1980-ci ilin sonlarında Koreya Əmək Partiyasının VI qurultayı olmuşdur. Burada 90-cı illərdə ölkənin qarşısında duran mühüm

vəzifə kimi elan edilmişdir ki, bu dövrdə «sosialist cəmiyyətinin möhkəm maddi-texniki bazasının yaradılması və xalqın mədəni səviyyəsinin yüksəldilməsinə tam nail olunmalıdır». 80-ci illərin sonlarında rəsmi mətbuatda təbliğ edilirdi ki, KXDR-də «nümunəvi sosialist cəmiyyəti» qurulmuşdur. Bu təbliğatın aparıldığı dövrdə isə hamı bilirdi ki, Şimali Koreya ilə müqaisədə əhalisi iki dəfə çox olan Cənubda \1988-ci ildə Şimalda 22 mln, Cənubda isə 43 mln nəfərə yaxın əhali yaşayırdı\ 1987-ci ildə adam başına düşən ümumi sənaye məhsulu Şimalda olduğundan 6 dəfə artıqdır.

## *Koreya Respublikası 1953-1980-ci illərdə*

Müharibəni dayandırılmasından sonra Koreya respublikası da hələ başlanğıcı istiqlaliyyətin əldə edilməsi ilə qoyulmuş iqtisadi quruculuq işlərini davam etdirməyə, hərbi əməliyyatlar nəticəsində məruz qaldığı dağıntıları bərpa etməyə başladı.

İlk olaraq əsası 1950-ci ildən qoyulan aqrar islahat tamamlandı. İri sahibkarlara məxsus torpaqların 3 ha-dan artığı satın alındı, əvəzində həmin torpaqların orta illik gəlirinin 150% dəyərində qiyməti ödənilmək şərtilə kəndlilər arasında, əsasən də icarədarlar arasında bölüşdürülürdü. Bunun nəticəsində ölkədə 1 mln-a yaxın yeni-fərdi kəndli təsərrüfatı yarandı və həmin təsərrüfatlar Cənubi Koreyanın aqrar bölməsində hakim mövqeyə yiyələnmiş oldu. İcarədarlıq sistemi ləğv edildi. Yeni hakimiyyətin kənddə sosial dayaqları kifayət qədər möhkəmləndi. Ən başlıcası isə kənddə kapitalist münasibətlərinin yaranması və inkişafına şərait yarandı. Koreya kəndi və kəndlisi yeni münasibətlər sisteminə girdi.

1953-cü ildə ABŞ-la imzalanan «qarşılıqlı təhlükəsizlik» haqqında saziş tərəflər arasında iqtisadi əməkdaşlığı da möhkəmləndirdi. Mövcud şərtlər: ölkədə kifayət qədər ixtisaslı və həm də inkişaf etmiş ölkələrə nisbətən ucuz işçi qüvvəsinin olması, koreyalıların əməksevərliyi və intizamlılığı, o biri tərəfdən, xarici maliyyə qaynaqlarının mümkünlüyü imkan yaratdı ki, az bir zaman kəsiyində ölkə iqttisadiyyatı bərpa edilsin və yenidən qurulsun.

Bu baxımdan ABŞ şirkətlərinin bir sıra texniki- və elm tutumlu istehsal sahələri yaratmasını xüsusi qeyd etmək lazımdır. Cənubi Koreya iqtisadiyyatının yüksəldilməsinə ABŞ milyardlarla sərmayə qoyurdu.

ABŞ-dan sonra ikinci yerdə Yaponiya gəlirdi. Həmin dövrdə Yaponiya da buraya böyük məbləğlərdə dövlət borc və kreditləri verir, müasir istehsal obyektlərinin inşasını maliyyələşdirirdi. Bu əməkdaşlıq həm də ona görə sərfəli idi ki, Yaponiya verilən borc və kreditlərin nəqd qaytarılmasını yox, yapon mallarını almaqla ödənilməsini istəyirdi. 1965-ci ildən sonra isə Yaponiya Koreyanı işğal etdiyi dövrdə ölkəyə dəymiş zərəri ödəməyə başladı ki, onun da ümumi həcmi 300 mln dollara bərabər idi.

Bunların nəticəsində qısa bir vaxt ərzində Cənubi Koreya iqtisadiyyatının bəlli bir infrastrukturu yarandı və inkişaf etdi, metallurgiya, kimya, maşınqayırma və s.kimi aparıcı istehsal sahələri hakim mövqe qazandılar.

60-70-ci illərdə iqtisadiyyatın bütün sahələrində böyük bir sıçrayış oldu. 1967-1976-cı illərin göstəricisi olan bir sıra rəqəmləri nəzərə çatdırmaq istərdik.

Bu dövrdə emal sənayesində istehsal indeksi 5,2 dəfə artmışdı. O cümlədən: ərzaq məhsulları 4,4 dəfə, tekstil məhsulları 8 dəfəyə yaxın, kimya sənayesi məhsulları 9,6 dəfə, metallurgiya 14,5 dəfə, metal emalı 4,4 dəfə, elektromaşınqayırma məhsulları istehsalı 24,4 dəfə yüksəlmişdi.

70-80-ci illərdə sənayenin illik artımı 8,5% olmuşdur. Bu dövrdə Cənubi Koreya bir sıra məhsul növləri istehsalı üzrə dünyada öncül mövqelərə çıxmışdır. Elektronika, avtomobil istehsalı bu qəbildəndir. Dünya bazarında Cənubi Koreya mallarının rəqabət gücü daim artmaqda idi.

Yüksək iqtisadi göstəricilərinə görə Cənubi Koreyanı «Kiçik Yaponiya» adlandırırlar. O, hazırda «dörd əjdaha» kimi tanınan yeni sənaye dövlətlərindən biridir. Bu «dörd əjdaha» Sinqapur, Tayvan, Honq Qonq və Cənubi Koreyadır.

80-ci illərin əvvəlində sənaye və kənd təsərrüfatı ümumi milli məhsulda xüsusi çəkisinə görə yerlərini dəyişməli olmuşlar. Belə ki, əgər 1960-cı ildə ümumi milli məhsulun 16%-ə yaxını sənayenin payına düşürdüsə, bu rəqəm 1981-ci ildə 35%-ə qalxmışdı. Kənd təsərrüfatı üzrə müvafiq olaraq 36% və 18% olmuşdur. 1961-1982-ci illər ərzində əhalinin iş məşğulluğu 2 dəfəyə yaxın artmışdır. Əgər 1961-ci ildə işləyənlərin sayı 8 mln nəfər idisə, bu, 1982-ci ildə 14 mln nəfərə yüksəlmişdi.

Cənubi Koreya iqtisadiyyatı üçün xarakter cəhətlərdən birisi

də kapitalın kifayət qədər təmərküzləşməsidir. Şirkətlərin böyük əksəriyyəti artıq bir neçə iri maliyyə-sənaye qruplarında birləşmişdir. Bunlardan üçü isə Cənubi Koreya iqtisadiyyatında ən üstün mövqeyə malikdir. Məsələn, nəhəng maliyyə-sənaye birliyi olan Hondə öz ətrafında 20-dən çox şirkəti cəmləşdirir. 1980-ci ildə bu birliyin müəssisələrində metallurgiya avadanlıqlarından tutmuş elektronikaya qədər çoxsaylı məhsullar buraxılırdı. Birlikdə 170 min fəhlə və qulluqçusu vardı. Onun illik dövriyyəsi 26 mld dollara bərabər idi. 1988 -ci ildə birliyin xalis gəliri 5,4 mld. dollar olmuşdur.

Xarici ticarət sahəsində on «baş ticarət şirkəti» inhisarı öz əlinə keçirmişdir. Bu şirkətlər 1975-ci ildə hökumət tərəfindən qurulmuşdur. 80-ci illərin əvvəlində xarici ticarətin yarıya qədəri onların payına düşürdü. Onu da qeyd etmək lazımdır ki, Cənubi Koreyanın xarici ticarətində iki dövlət başlıca rol oynayır: birinci yerdə ABŞ, ikinci yerdə isə Yaponiya gəlir.

Koreya respublikasında siyasi həyat Şimalın avtoritar və totalitar rejimindən fərqli olaraq demokratik prinsiplərə söykənir. 1958-ci il seçkilərində müxalifət partiyaları xeyli səs toplaya bilmişdi. Artıq 1960-cı ilin martında keçirilən prezident seçkilərində müxalifət partiyaları hakimiyyəti nəticələri saxtalaşdırmaqda ittiham etdi. Tələbələrin başladığı etiraz nümayişləri bütün ölkəni bürüdü, toqquşmalar baş verdi və qan töküldü. Prezident Li Sın Man istefaya getdi, Liberallar partiyası hökumətdən çəkildi.

1960-cı ilin ortalarında keçirilən seçkilərdə indiyə qədər müxalifətdə olan Demokrat partiyası qalib gəldi, hökumət təşkil etdi. Bu dəfə də onları seçkilərin nəticələrini saxtalaşdırmaqda ittiham etdilər. Siyasi çəkişmələr nəhayət, 1961-ci ilin 16 mayında hərbi çevriliş nəticəsində Demokrat partiyası hakimiyyətinin devrilməsi ilə sonuclandı. Hakimiyyət general Pak Çon Xi və onun ətrafında birləşən hərbçilərin əlinə keçdi. Hərbçilər 1963-cü ilin sonuna qədər hakimiyyətdə qaldılar. Həmin dövrdə Milli Məclisə seçkilər keçirildi və Pak Çon Xi tərəfindən təsis olunan Respublika demokrat partiyası 1.10 \62,8%\ yer qazandı. Qeyd etmək lazımdır ki, istər bu seçkilərdə, istərsə də sonralar 1967-ci və 1971-ci illərdə keçirilən seçkilərdə müxalifət partiyaları, o cümlədən 1967-ci ildə yaradılmış nüfuzlu müxalifətçi sayılan Yeni demokrat partiyası heç bir uğur qazana bilməmişdir. Bunun əksinə, Respublika demokrat partiyasının nüfuzu isə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, Koreya respublikasının iqtisadi

yüksəlişi bu partiyanın hakimiyyəti dövrünə düşdüyü kimi siyasi həyatın daha da canlanması həmin vaxta düşür. İlk öncə ölkədə «azad və demokratik» seçkilər keçirilməsi təmin edildi. Ölkədə «millətin dirçəlişi uğrunda hərəkat» başlandı ki, onun məqsədi xalqı «demokratiya» bayrağı altında birləşdirmək, ölkəni «sərbəstlik və özünəyardım» yoluna yönəltmək və «yeni ictimai əxlaq» yaratmaq idi. Respublika demokrat partiyası bu yol ilə milli şüur və milli özünüdərkin yüksəlməsinə nail olmaq istəyirdi. Demək lazımdır ki, bu siyasət partiyaya müəyyən dövrlərdə uğurlar gətirmişdir.

Pak Çon Xinin hakimiyyəti dövründə görülən mühüm işlərdən biri də 1965-ci ildə Yaponiya ilə münasibətlərin tənzim edilməsi oldu. İki dövlət arasında diplomatik, iqtisadi və mədəni əlaqələrin yaradılması haqqında sazişlər imzalandı və məhz bundan sonra yapon kapitalı Cənubi Koreyaya axmağa başladı. 1985-ci ildə ölkənin iqtisadiyyatına qoyulan xarici kapitalın yarıya qədəri yaponlara məxsus idi, ABŞ-ın payı isə 1\4-ə bərabər idi.

Koreya respublikasının xarici siyasətdə xüsusi önəm verdiyi istiqamətlərin başında ABŞ-la hər cür müttəfiqlik münasibətlərini möhkəmləndirmək və genişləndirmək durur. Müharibədən sonra iki dövlət arasında bir sıra müqavilələr bağlanmışdı. Bunlardan ən mühümü 1957-ci ildən qüvvəyə minən «Dostluq, ticarət və dənizçilik haqqında» müqavilədir. Bu müqavilə, eləcə də sonralar bağlanan bir sıra müqavilə və sazişlərə əsasən Koreya respublikası ABŞ-dan ildən ilə artan xətlə hər cür iqtisadi-texniki və maliyyə yardımları almışdır. Xüsusi ilə qeyd etmək lazımdır ki, iki dövlət arasında münasibətlərdə hərbi əməkdaşlıq həmişə mühüm yer tutmuşdur. Bu öz ifadəsini onda tapmışdır ki, bir tərəfdən burada müəyyən sayda ABŞ hərbi kontingenti saxlanılır, o biri tərəfdən isə Koreya respublikasının hərbi potensialının lazımı səviyyədə olmasına çalışılırdı.

Təbiidir ki, bütün bunlar, yuxarıda deyildiyi kimi, Cənubi Koreyanı bölgənin sayılan dövlətləri sırasına gətirmişdir. Bununla yanaşı daxili siyasi həyatda demokratik təməllərin genişlənməsi və inkişafı prosesində müəyyən əyintilər də saxlanılırdı. Bu da müəyyən müxalif qüvvələrin narazılığını artırırdı. Prezident Pak Çon Xi problemin həllini öz hakimiyyətinin və səlahiyyətlərinin genişləndirilməsində görür, müxalifətə qarşı təqib və təzyiqləri artırırdı. 1972-ci ildə qəbul edilmiş Konstitusiyaya görə Pak Çon Xi özünə ömürlük prezident olmaq imkanı yaratdı. Onun bu siyasətinə qarşı açıq etirazlar başladı.

Etiraz edənlər arasında gənclər, ilk növbədə tələbələr daha çox fəallıq edirdilər. Nəhayət, 1979-cu ildə Pak Çon Xiyə qarşı sui-qəsd təşkil olundu və o, öldürüldü. Bu hadisə ehtirasları daha da alovlandırdı. Ölkənin müxtəlif yerlərində xalq demokratik şüarlarla açıq etirazlara başladı. Siyasi qarşıdurma və gərginlik son həddinə çatdı. 1980-ci ilin 16 mayında Kvançju hadisələri qarşıdurmanın kuliminasiya nöqtəsi oldu, etiraz hərəkatı üsyana çevrilir və üsyançılar hətta hakimiyyəti ələ alırlar. Belə olduqda yenidən hərbçilər işə qarışır, general Çon Du Xvan\ o, mərkəzi kəşfiyyat idarəsinin rəisi idi və əvvəllər Vyetnam savaşında iştirak edən Cənubi Koreya hərbi qüvvələrinin komandanı olmuşdur\ özünü dövlətin başçısı elan etdi və ölkədə fövqəladə vəziyyət elan olundu.Üsyançılara qarşı hərbi qüvvə tətbiq edildi, ölənlər və yaralananlar oldu. Mayın 27-də Kvançjuda hakimiyyət bərpa olundu.

Bunun ardınca Çon Du Xvan prezident seçildi, hərbi rejim mülki idarəçiliklə əvəz olundu. Çon Du Xvan bütün fəaliyyətini ölkədəki narazılığı yatırmağa yönəltdi. 1980-ci ildə bir sıra siyasi partiya xadimlərinin fəaliyyəti yasaqlandı, 1984-cü ildə tələbə çıxışlarının yatırılması haqqında qanun qəbul olundu. 1985-ci ilin yanvarında əsas müxalifət qüvvəsi olan Yeni demokrat partiyasının qərargahına polis hücümu oldu, partiyanın bir sıra fəalı, o cümlədən partiyanın lideri Kim En San həbsə alındı. Tələbə şəhərcikləri və universitetlərə nəzarət gücləndirildi. Bütün bunlara baxmayaraq 1985-ci ildə ölkədə 200-ə yaxın e'tiraz çıxışları baş vermişdir.

E'tiraz dalğasının yeni yüksəlişi 1987-ci ilə düşür. Onun səbəbi prezident Çon Du Xvanın müxalifətlə danışıqlardan imtina etməsi idi. Hakimiyyətə qarşı etiraz dalğasının genişlənməsi təhlükəsi nəticəsində prezident kürsüsünə iddia edən Ro De U demokratik islahatlar keçirilməsi təklifini müdafiə edir, birbaşa prezident seçkiləri keçirilməsi ideyasını dəstəkləyirdi. 1987-ci ilin oktyabrında yeni konstitusiya qəbul olundu. Konstitusiyada vətəndaş azadlıqları və həmkarlar təşkilatlarının hüquqları haqqında bir sıra yeni maddələr var idi. Prezidentin səlahiyyətləri bir qədər məhdudlaşdırılırdı. Bu məhdudiyyət ilk növbədə ölkədə fövqəladə vəziyyət tətbiq olunması və parlamentin buraxılmasına aid idi. Eyni zamanda hərbçilərin siyasətə müdaxilə etməsi qadağan olunurdu.

1987-ci ilin dekabrında yeni konstitusiya əsasında prezident seçkiləri keçirildi, Ro De U Koreya Xalq respublikasının ilk dəfə ola-

raq birbaşa seçilən prezidenti oldu. O, hakimiyyətə gəldikdən sonra ölkənin siyasi həyatında bir sıra dəyişikliklər etdi. Siyasi plüralizmə önəm verdi. Yeni hakim partiya yaradıldı. O, Demokratik liberal partiya adlanırdı. Partiyanın lideri Ro De U, icracı sədri isə müxalifət liderlərindən olan Kim En San seçildi. Kim En San özünün hakim partiyaya gəlməsini Koreya respublikasında sabitlik yaratmaq istiqamətində atılan addım kimi qiymətləndirirdi. Onun müxalifətdəki həmkarı Kim Te Cun isə müxalifət qüvvələrinin tək lideri olaraq qaldı.

1988-ci ilin noyabrında sabiq prezident Çon Du Xvan 7 illik hakimiyyət dövründə baş verən qanunsuzluqlara görə xalqdan üzr istəməli oldu.

Siyasi mübarizə küçə və meydanlardan parlament müstəvisinə keçirildi. 1990-cı ilin iyulunda hökumət bir sıra qanun layihəsinin parlamentdə təsdiqinə nail olarkən müxalifət deputatlarının kəskin etirazı ilə qarşılaşdı. Müxalifətdən olan 80 deputat istefa verdi və hətta Milli Məclisə yeni seçkilər tələb etdi.

Ölkənin siyasi həyatındakı bu liberallaşdırma kursu ölkə daxili siyasi mübarizəni bir qədər səngitdi, iqtisadi inkişaf və ölkənin birləşdirilməsi istiqamətində yeni imkanlar yaratdı, yeni perspektivlər açdı.

## *Koreyanın birləşdirilməsi uğrunda mübarizə*

Bütün Koreya xalqının bir məqsədi vardır: ikiyə bölünmüş vətəninin bütövləşməsi. Lakin bu problem bu günə kimi həll olunmamış olaraq qalır. Səbəbi də odur ki, II dünya müharibəsindən sonra iki güc mərkəzinin- Sovet İttifaqı və ABŞ-ın arasında olan ziddiyyətlər eyni ilə onların nəzarəti altında olan Şimal və Cənub ərazilərinə keçirilmişdir. Belə ki, Şimal sosializm qurmaqla məşğuldur, Cənub demokratik inkişaf yolu seçmişdir. Şimal sosializm «ixracı» haqqında düşünür, Cənub «kommunizm təhlükəsi»nə qarşı mübarizə aparır. Şimal «planlı» təsərrüfat yaradır, Cənub azad iqtisadi inkişafdadır. Şimal «fəhlə və kəndli hakimiyyəti» ideyaları təbliğindədir, Cənub milli demokratik rejimlə idarə olunur və s.və i.a. Bütün bunlar yarımadanın iki dövləti arasında ciddi və kəskin qarşıdurma yaratmışdır. 1950-1953-cü illər müharibəsi məhz bu qarşıdurmanın törəməsi idi. Onun nəticələrini hər iki tərəf unutmur və hər biri öz marağı baxımından dəyərləndirir. İndiki halda avtoritar və totalitar siyasi rejimin və iqti-

sadi baxımdan yoxsulluğun hakim kəsildiyi bir ölkənin demokratik bir rejim və iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş bir ölkə ilə birləşməsinin verəcəyi problemlərin həllinin çətinliyi qorxusu vardır. Bunlar Koreyanın birləşdirilməsi prosesini ləngidir və tərəfləri təmin edən qərarların əldə olunmasına maneçilik yaradır. Buna baxmayaraq ölkənin birləşdirilməsi uğrunda mübarizə gedir və onun müsbət sonluqla başa çatacağına şübhələr azalır, inam artır.

Bu sahədə ilk dəfə ciddi təşəbbüs 1960-cı ildə məqsədinin və marağının necəliyindən asılı olmayaraq KXDR tərəfindən göstərilmişdir. Həmin ilin avqust ayında istiqlaliyyətin 15-ci ildönümü ərəfəsində KXDR bir keçid tədbiri kimi Şimali və Cənubi Koreya konfederasiyasının yaradılması ideyasını irəli sürdü. Bu zaman nəzərdə tutulurdu ki, hər tərəfin öz hökuməti saxlanılmaqla Konfederasiya bu iki dövlətin iqtisadi və mədəni inkişafını tənzim edə bilər. Təklif olunurdu ki, qarşılıqlı ticarət əlaqələri yaradılsın və inkişaf etdirilsin, elm, mədəniyyət, incəsənət, idman sahələrində qarşılıqlı mübadilə olsun, Şimal və Cənub əhalisinin azad yerdəyişmə imkanı təmin edilsin, tərəflərdən hər biri öz ordusunu 100 min nəfərə qədər ixtisar etsin, bir-birinə qarşı hərbi qüvvə işlətməyəcəyi haqqında təəhhüd götürsünlər. Bütün bunlardan sonra Konfederasiyanın yaradılması üçün bir şərt qoyulurdu: ABŞ hərbi qüvvələri Koreyadan çıxarılmalıdır.

Li Sın Manın devrilməsindən sonra Cənubda millətçi qüvvələrin sol qanadının təsiri ilə « Millətin birləşdirilməsi və istiqlaliyyəti məsələləri üzrə şura» və s. təşkilatlar təsis olundu. Onlar da ölkənin birləşdirilməsi üçün KXDR ilə birbaşa danışıqlara getməyi tələb edirdilər.

Hər iki tərəfin səyləri nəticəsində 70-ci illərdə tərəflər arasında birbaşa danışıqlar intensivləşdi. Nəhayət, 1972-ci ilin 4 iyulunda «Şimalın və Cənubun birgə bəyanatı» qəbul edildi. Burada sülh və qarşılıqlı anlaşma zəminində ölkənin hər iki hissəsi arasında gərginliyin yumşaldılması və onların tədrici yaxınlaşması yolu ilə gələcəkdə Koreyanın dinc və demokratik formada birləşdirilməsi prinsipləri bəyan olunurdu. Sonrakı dövrlərdə tərəflərin göstərdiyi cəhdlər artıq 80-ci illərdə öz bəhrəsini verir. 1984-cü ilin noyabrında Şimal və Cənub arasında iqtisadi məsələlərə dair birbaşa danışıqlar başladı. 1985-ci ilin oktyabrında isə Cenevrədə «Sülhün təmin edilməsi və Koreyanın birləşdirilməsi üzrə konfrans» keçirildi. Burada Qərbi Avropanın 17 ölkəsindən ictimai və siyasi xadimlər, eləcə də

Koreya Əmək partiyasının və Cənubi Koreyanın Milli demokratik cəbhəsinin nümayəndələri iştirak edirdi. Deməк lazımdır ki, 80-ci illərin ikinci yarısında da birbaşa danışıqlar davam etdirilmiş, yaxınlaşmaya doğru müəyyən dəyişikliklər olmuşdur. İki dövlətin hökumət başçılarının görüşü üçün hazırlıq işləri görülmüşdür. Həmin dövrün sonlarında Koreya Respublikasının daxilində gedən demokratik dəyişikliklər, ümumiyyətlə beynəlxalq iqlimin yaxşılaşması istiqamətində baş verən hadisələrin hər iki dövlətin xarici siyasətinə təsirsiz qalmaması yarımadanın hər iki hissəsi arasında əlaqələrin artmasına səbəb olmaqdadır. Bu baxımdan 1988-ci ildən etibarən iki dövlət arasında iqtisadi və ticarət münasibətlərinin genişlənməsini qeyd etmək lazımdır. 1988-1990-cı illərdə onların arasında ticarətin ümumi həcmi 1.037 min dollardan 25.085 min dollaradək artdı. Bu rəqəm 1994-cü ildə isə 229 mln dollar olmuşdur. Bu münasibətlərin inkişafında iki Koreya arasında 1991-ci ilin dekabrında imzalanmış «Barışıq, hücum etməmək, ikitərəfli mübadilə və əməkdaşlıq haqqında sazişi»n, həmçinin «Koreya yarımadasının qeyri-nüvə zonasına çevrilməsi haqqında birgə bəyanat»ın böyük rolu olmuşdur.

1991-ci ildə KXDR bildirdi ki, 3-cü ölkə vasitəsilə öz iqtisadiyyatına Cənubi Koreya kapitalının qoyulmasına razıdır. Yeri gəlmişkən, Şimali Koreya iqtisadiyyatının çətinliklər qarşısında qalması da həmin məsələdə az rol oynamamışdır. Belə ki, bu dövrdə dağ-mədən sənayesi və kənd təsərrüfatı məhsulları istehsalının səviyyəsi 10,2%, ticarət dövriyyəsi isə 7,5% aşağı enmişdi. 1995-ci ildə isə baş verən təbii fəlakətlər ölkəni aclıq səviyyəsinə gətirdi. Bu şəraitdə Cənubi Koreya Şimala ərzaq yardımı etmiş, ABŞ isə pul və ərzaq şəklində 8,5 mln dollar civarında köməklik göstərmişdir.

Bütün xarici yardımlara baxmayaraq Şimalın iqtisadi vəziyyəti ildən ilə pisləşməkdədir. Artıq 1998-ci ildə ərzaq ehtiyatları tükənmək həddinə çatmış, dövlət hər adam başına 100 q qarğıdalı unu müəyyən etmişdi. Baş verə biləcək narazılıqların qarşısını almaq üçün 1998-ci ildən ölkədə fövqəladə vəziyyət elan olunmuşdur.

Bunun əksinə, Cənub isə iqtisadi baxımdan inkişaf edir, yeni-yeni ticarət bazarlarına çıxır. Bu baxımdan Sovet İttifaqı ilə 1991-ci ildən etibarən əlaqələrin genişlənməsini xüsusilə qeyd etmək lazımdır. Sovet İttifaqına Koreya respublikası məhsulları ixrac olunur, iki dövlət arasında elmi-texniki əməkdaşlıq inkişaf edirdi. Rus alim və konstruktorları Cənuba dəvət edilir və onlar müxtəlif sənaye sahə-

lərində, xüsusilə hərbi sənaye sahəsində çalışırlar.

Ümumiyyətlə 90-cı illərin əvvəllərindən başlayaraq Cənubi Koreya «Şimal diplomatiyası» adı ilə tanınan bir siyasət yeritməkdədir. Bu siyasətin məğzində o zamana qədər məlum səbəblərə görə təcrid olunduğu Şərqi Avropa, Çin Xalq Respublikası, Sovet İttifaqı və onun dağılmasından sonra yaranan dövlətlər ilə əlaqələr yaratmaq və inkişaf etdirmək dayanır. 1990-cı ildə Seula və Moskvaya qarşılıqlı səfərlər olur və tərəflər konsulluqlar yaradılması haqqında razılığa gəlirlər. Sonralar da Koreya Respublikası və Sovet İttifaqının yüksək səviyyəli dövlət adamlarının görüşləri davam etdirilmişdir. Bunların nəticəsində bir tərəfdən iki dövlət arasındakı münasibətlərin tənzim edilməsi və genişləndirilməsi prosesi normal məcraya düşürdüsə, o biri tərəfdən KXDR və ABŞ arasında münasibətlərin yaranması və normallaşması istiqamətində müəyyən pozitiv dəyişikliklər baş verirdi. 1989-cu ilin dekabr və 1990-cı ilin may ayları arasında Şimali Koreya və ABŞ diplomatları Pekində 7 dəfə yüksək səviyyədə görüşlər keçirmişlər. İki tərəfli əlaqələr tədricən çoxtərəfli əlaqələrə çevrilirdi. İki Koreyanın birləşməsi yolunda müəyyən addımlar atılırdı. Bu baxımdan tərəflərin ABŞ qoşunlarının Cənubdan çıxarılması və ya sayının azadılması haqqında rəy birliyinə gəlməsini qeyd etmək lazımdır. ABŞ 1991-1993-cü illərdə buradakı qoşularının sayını 5-7 min nəfər azaltmaq niyyətini bildirdi. Həmin dövrdə Cənubun 542 min, Şimalın isə 750 min nəfərlik ordusu var idi.

Koreya respublikası, KXDR, Sovet İttifaqı və ABŞ münasibətlərinin yaranması hər iki Koreya dövlətinin 1991-ci ildə BMT üzvlüyünə daxil olmasına imkan verdi.

Cənubi Koreya bölgənin əksər dövlətləri, ilk olaraq Rusiya, Yaponiya və ÇXR ilə əlaqələrinin inkişaf etdirilməsində maraqlıdır. 1992-ci ildən bəri bu sahədə bir sıra addımlar atılmışdır. Rusiya Federasiyası ilə əməkdaşlığa önəm verilir. Yuxarıda sovet elm adamlarının Cənuba dəvət olunmasını söyləmişdik. Proses indi də davam etdirilməkdədir. Seul bildirir ki, «nə Yaponiya, nə də digər dövlətlərin vermək istəmədiyi texnologiyanı rus alimlərinin köməyi ilə özümüz yaradacağıq».

1994-cü ildə Koreya respublikasının prezidenti Kim En San Pekində səfərdə olmuş, iki dövlət arasındakı münasibətlərin perspektivləri və Şimali Koreya ilə mübahisəli məsələlərin həlli yolları müzakirə edilmişdir. Bəlli olduğu kimi, ÇXR hazırda KXDR-i ciddi mü-

dafiə edən dövlətdir. Məhz bu səbəbdəndir ki, bölgədə təhlükəsizlik və qüvvələr balansına zərər gətirən Şimali Koreyanın nüvə silahı istehsalını dayandırmaq və yaxud bu prosesə beynəlxalq səviyyədə nəzarət etmək mümkünsüz problem olmuşdur. Doğrudur, KXDR hələ 1993-cü ilin 21 iyununda Nüvə Enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE) ilə əməkdaşlığa razı olduğu bildirmişdir. Lakin hər dəfə MAQATE nümaəndəliyini öz ərazisinə buraxmır və özünün nüvə silahı istehsalı niyyətini Cənubda ABŞ nüvə silahının olması ilə əsaslandırmağa çalışırdı. Bu da KXDR-in ABŞ tərəfindən iqtisadi təcridinə səbəb oldu. Nəhayət, 1994-cü ilin oktyabrında ABŞ-la bağlanan sazişə əsasən KXDR öz ərazisində nüvə silahının yayılmaması haqqında müəyyən şərtləri qəbul etdi. Nüvə silahları istehsalı proqramından imtina əvəzində ABŞ Şimali Koreyaya iqtisadi yardımını artırırdı. 1995-1996-cı illərdə Şimali Koreyaya ABŞ tərəfindən 8,5 mln dollar civarında kömək göstərilmişdir. Bununla yanaşı KXDR qəbul etdiyi şərtlərin yerinə yetirilməsi prosesini aramsız olaraq pozmaqda davam etmişdir. Lakin iqtisadi vəziyyətin sürətlə pisləşməsi KXDR-i 1997-ci ilin ortalarında Cənubi Koreya və ABŞ ilə müzakirələr masası ətrafında oturmağa məcbur etdi. Yenidən ABŞ-dan Şimali Koreyaya 25 mln dollarlıq ərzaq yardımı göndərilməyə başlandı.

90-cı illər hər iki dövlətin siyasətində ölkənin birləşmə sahəsində müəyyən təşəbbüslər göstərilməsi və əməli addımların atılması ilə də xarakterdir. 1990-cı ilin başlanması münasibətilə xalqa müraciət edən KXDR lideri Kim İr Sen Şimali və Cənubi Koreya arasında dəmir pərdənin aradan götürülməsi, tərəflər arasında sərbəst hərəkətə tərəfdar olduğunu bildirdikdə Koreya respublikası prezidenti Ro De U bu təklifi müdafiə etdiyi cavabını vermişdi.O, eyni zamanda mart ayında iki dövlət arasında yüksək səviyyəli görüşə də razılığını bəyan etmişdir.

1991-ci ilin sentyabrında KR prezidenti aşağıdakı təklifləri irəli sürür: 1) Sülh müqaviləsinin imzalanması; 2) Silahların ixtisarı; 3)İki ölkə arasında sərbəst ticarət və hərəkətin inkişaf etdirilməsi.

1994-cü ilin 8 iyulunda 82 yaşında vəfat etmiş KXDR lideri Kim İr Sen də sağlığında ölkənin birləşdirilməsi haqqında nəzəri proqram hazırlamışdı. Beləliklə, haqqında danışılan dövrdə artıq üç plan mövcud idi: 1) Koreya Demokratik Konfederativ respublikasının təşkili haqqında KXDR-in 1994-cü ilin 11 avqust memorandumu; 2) Koreyanın birləşdirilməsi və milli ittifaqın yaradılmasının üç mərhə-

ləli formulası haqqında KR prezidenti Kim En Sanın 15 avqust 1994-cü il bəyanatı və 3) Cənubi Koreya müxalifətinin lideri Kim De Cunun alternativ planı.

Birinci plan bir millət və bir dövlət çərçivəsində iki hökumət və iki ictimai sistemin mövcud olması ideyasından ibarətdir. İkinci plan nəzərdə tutur ki, iki dövlət birləşsin və liberal demokratiya şimala da yayılsın. Deyilənlərdən bəlli olur ki, bu iki plan arasında kəskin ziddiyyət vardır. Üçüncü planın məğzi isə belədir:birləşmə üç prinsip və üç mərhələ zəminində getməlidir. Üç prinsip sülh şəraitində: 1) birgə mövcudluq, 2) mübadilə, 3) birləşmədən ibarətdir. Üç mərhələ isə aşağıdakıları nəzərdə tutur: 1) İki müstəqil Koreya dövləti konfederasiyasının yaranması; 2) Şimal və Cənub muxtar hökumətləri federasiyasının yaradılması; 3) Bir ölkə, bir millət və bir hökumət yaratmaq və birləşməni başa çatdırmaq.

1998-ci ilin fevralında Koreya Respublikasının prezidenti kimi fəaliyyətə başlayan Kim De Cunun da ilk bəyanatlarında bu məsələyə xüsusi önəm verilirdi. O, Şimalla hər cür mübadilə və əməkdaşlığı inkişaf etdirmək və genişləndirməklə problemin həllinə çalışacağını söyləyir. Məsələnin çözümü üçün siyasi və beynəlxalq amillərə də diqqət yetirilir. Kim De Cu bu baxımdan dörd əsas dövlət- ABŞ, Yaponiya, ÇXR və Rusiya ilə məsləhətləşmə və danışıqların davam etdirilməsinə xüsusi əhəmiyyət verir.

Hazırda yarımadanın birləşdirilməsi uğrunda fəaliyyət davam etdirilir və bu prosesin başa çatdırılması tarixi zərurətə çevrilməkdədir.Hər halda dünya təcrübəsi bir neçə belə faktın şahidi olmuşdur. İki Vyetnamın, iki Almaniyanın birləşməsi bu qəbildən olan hadisələrdir. 2000-ci ilin 13 iyununda iki Koreya rəhbərinin 55 ildən sonra Pxenyanda bir araya gəlməsi və ölkənin birləşdirilməsi haqqında danışıqlar aparması bu məsələnin yaxın vaxtlarda reallaşacağına inamı artırır.

# ÇİN

## *Vətəndaş müharibəsi və nəticələri*

II dünya müharibəsi və onun sonuncları Çinin tarixində misilsiz dərəcədə əhəmiyyətli rol oynamışdır. Belə ki, müharibənin sonunda Honq-Qonq adası istisna olunmaqla Çin bütün ərazilərində dövlət süverenliyinə sahib oldu. Hələ buna qədər 1943-cü ildə müttəfiq dövlətlər: ABŞ, Böyük Britaniya, Fransa və digər ölkələr keçmişdə Çin ilə bağlamış olduqları qeyri-bərabər müqavilələrin qüvvədən düşdüyünü elan etdilər. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yarandıqda isə Çin böyük dövlətlər- ABŞ, Sovet İttifaqı, Böyük Britaniya və Fransa ilə bir sırada Təhlükəsizlik Şurasının beş daimi üzvündən birisi oldu. Dünənki yarımmüstəmləkə vəziyyətində olan ölkə dünyadakı beş böyük dövlətdən birisi statusuna ucaldı, dünya problemlərinin həllində onun potensial rolu kifayət qədər artdı.

Bəs bu zaman Çinin özünün real durumu necə idi?

Müharibəyə qədərki daxili çəkişmələr, yapon işğalı və onun törətdiyi çətinliklər ölkənin sosial-iqtisadi və mədəni həyatına böyük zərbələr vurmuş, təsərrüfat həyatının normal gedişini pozmuş və onun geri qalmasına səbəb olmuşdu. Mövcud rəsmi hakimiyyət Çin ərazisinin müəyyən bir hissəsinə nəzarət edə bilirdi və faktik olaraq siyasi baxımdan ölkə parçalanmış halda idi. O, qarşı-qarşıya duran iki əsas hərbi-siyasi qüvvə arasında bölüşdürülmüşdü. Bunlardan birinə lideri Çan Kay-şi olan millətçi Homindan partiyası, o birinə isə lideri Mao Dze-dun olan Çin Kommunist partiyası başçılıq edirdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu qüvvələrdən birincisi ABŞ tərəfindən dəstəklənirdisə, ikincisi Sovet İttifaqı və Sov.İKP-nın hərtərəfli maddi və ideoloji yardımından yararlanırdı. Əslində isə ABŞ və SSRİ-nin bu qüvvələrə yardımı onları dəstəkləməkdən daha çox bu iki super gücün Çində möhkəmlənmək uğrunda mübarizəsi idi. Başqa sözlə desək, II dünya müharibəsindən sonra Çinin kifayət qədər zəif olması onun taleyinin həllini ABŞ və SSRİ arasındakı mübarizənin sonrakı nəticəsindən asılı hala salmışdı.

Siyasi həyatda üçüncü bir aralıq qüvvə də var idi. Bunlar əsasən xırda və milli burjuaziyanın müəyyən hissələrindən, ziyalı və tələbələrdən ibarət idi. Onlar həlledici gücə sahib olmasalar da həm

Homindan, həm də Kommunist partiyası tərəfindən müəyyən siyasi aksiyalara cəlb olunurdular.

Bəs qarşı-qarşıya dayanan Homindan və Kommunist partiyalarının başçılıq etdiyi hərbi-siyasi qruplaşmalar arasındakı qüvvələr nisbəti nə halda idi ?

Homindan partiyası rəsmi hakimiyyətin başında dururdu və Çini bir dövlət kimi rəsmi olaraq təmsil edirdi. Bununla yanaşı, onun hakimiyyəti bütün Çin hüdudlarını əhatə etmirdi. Belə ki,1937-1938-ci illərdə hərbi əməliyyatlar nəticəsində yapon orduları homindançıları ölkənin uzaq Cənubi-Qərb və Şimali-Qərb rayonlarına sıxışdırmışdı. Kommunist hərbi qüvvələri isə Şimali və Şərqi Çində, Pekin, Tyanszin, Şanxay, Nankin və s. kimi mühüm mərkəzlərin ətrafında fəaliyyət göstərirdi. Müharibənin sonlarında ölkə ərazisinin dörddə biri ÇKP-nın hakimiyyəti altına keçmişdi. Faktik olaraq ölkə iki yerə bölünmüşdü.

Doğrudur, hələlik homindan hakimiyyəti kifayət qədər qüvvətli idi: o, yaxşı silahlanmış və çoxsaylı orduya malik idi, ABŞ-dan böyük yardım alırdı, ABŞ ordunu silah və hərbi texnika ilə təchiz edirdi, amerikalı məsləhətçi və təlimatçılar hərbi təlimlərə rəhbərlik edirdilər, homindan orduları ölkənin müxtəlif hüdudlarına getmək üçün ABŞ hərbi gəmiləri və uçaqlarından istifadə edirdilər. ABŞ homindan hakimiyyətini siyasi və diplomatik yollarla dəstəkləyirdi. Demək lazımdır ki, ÇKP də eynilə həmin kömək və yardımları, bəlkə də artıqlaması ilə, Sovet İttifaqından alırdı. Nəzərə alsaq ki, Sovet İttifaqı bütün mümkün olan vasitələrlə ABŞ-ın bu regionda güclənməsinin qarşısını almağa çalışırdı, bu baxımdan ÇKP onun üçün əvəzolunmaz bir müttəfiq idi.

Belə bir şəraitdə tərəflərdən hər biri, yəni həm Homindan, həm də ÇKP bütöv Çin hakimiyyətinə yiyələnmək iddiasında idilər və bunun uğrunda aramsız mübarizə aparırdılar. Tərəflərdən hər ikisi də məqsədə çatmağın yeganə yolu kimi hərbi əməliyyatları seçmişdi.

Bəs homindançılar və kommunistlər müharibədən sonrakı dövrdə ölkənin birliyi və suverenliyini, onun inkişaf istiqamətlərini necə görürdülər?

Homindançılar belə hesab edirdilər ki, onlar ölkə ərazisini bütövlükdə öz hakimiyyəti altına almalı, burada partiyanın hegemonluğunu bərpa etməli, cəmiyyətə tam nəzarəti öz əllərində cəmləməlidirlər. İqtisadi sahədə bütün iri mülkiyyət sahələri dövlətə məxsus ol-

malı, xırda mülkiyyət sahələri kooperativləşdirilməlidir və ona da dövlət nəzarəti yaradılmalıdır. Siyasi sahədə-Homindan partiyası tək hakim partiya olaraq qalmalı, hər hansı bir müxalifət qüvvəsinin varlığına imkan verilməməlidir.

Ölkədə ÇKP hakimiyyəti diktaturası yaradılması iddiasında olan kommunistlərin isə platforması belə idi :Çinin «yarımmüstəmləkə» vəziyyətinə son qoyulmalı \ müharibədən sonrakı dövrdə bu şüar ABŞ-dan iqtisadi asılılığı ləğv etmək kimi başa düşülürdü - müəl.\, koalisyon hökumət yaratmaqla Homindanın iri burjua və mülkədarların mənafeinə xidmət edən hakimiyyət diktaturası (təbiidir ki, kommunistlərin təbirincə-müəl.) ləğv edilməli, ÇKP hərbi qüvvələri, eləcə də «azad olunmuş» rayonlar adlanan ərazidə kommunist hakimiyyət orqanları tanınmalıdır. ÇKP öz iddiasının reallaşması istiqamətində ciddi əməli fəaliyyət göstərirdi. Yaponlardan azad olunmuş Mancuriyada partiyanın güclü hərbi-inqilabi bazası yaradılırdı. Burada mövcud olan inkişaf etmiş sənaye və kommunikasiya imkanları, eləcə də SSRİ və MXR ilə həmsərhəd olmaq oradan alınan hər cür yardımın tez və vaxtında çatdırılmasını asanlaşdırırdı. Kvantun ordusundan müsadirə olunmuş çox böyük miqdarda silah Şimali və Şərqi Çinin «azad olunmuş» rayonlarından təlim keçmək üçün Mancuriyaya gətirilmiş ÇKP hərbi qüvvələrinin sərəncamına verildi. Həmin qüvvələr sovet hərbçilərinin rəhbərliyi altında təlimlər keçir və gələcək əməliyyatlara hazır vəziyyətə gətirilirdi. Qeyd etmək lazımdır ki, bütün bunlar sonralar baş vermiş proseslərdə ÇKP-yə yetirincə üstünlük gətirə bilmişdir.

Deməliyik ki, həmin dövrdə homindançıların vəziyyəti hələ kifayət qədər yaxşı idi. Bu səbəbdən Sovet İttifaqı 1945-ci ilin avqustunda Çan Kay- şi hökuməti ilə münasibətləri qaydaya salan bir saziş imzalamışdı. Sazişə görə Sovet İttifaqı Çan Kay-şi hökumətini Çinin rəsmi hakimiyyəti kimi tanıdığını və Çinin daxili işlərinə qarışmadığını bəyan edirdi. Çan Kay-şi hökuməti isə Monqolustanın istiqlaliyyətini tanıyır, Şərqi Çin dəmir yolu və Cənubi Mancuriya dəmir yolunun sovetlərlə ortaq olaraq işlədilməsinə, Port Artur və Dairən limanlarını 30 il müddətinə Sovet İtiifaqına icarəyə verməyə razı olduğunu bildirirdi. Sovet İttifaqı həm də vəd verirdi ki, Yaponiyanın təslimindən 3 ay sonra Mancuriyanı tamamilə boşaldacaqdır.

Qeyd etmək lazımdır ki, tərəflərdən hər biri məqsədə çatmaqda hərbi yola önəm versələr də, həmin dövrdə aramsız davam

edən döyüşlərdən cana doymuş, sülh və əmin-amanlıq istəyən xalqın ovqatı ilə də hesablaşmalı olurdular. Daha doğrusu, qarşıdurmanın çözülməsində dinc variantlardan da istifadə etməyə,- buna homindançılar xüsusi önəm verirdilər, - meyl göstərirdilər. Elə bu məqsədlə də 1945-ci il avqustun sonlarında tərəflər ABŞ-ın vasitəçiliyi ilə homindan hökumətinin müvəqqəti yerləşdiyi Çunsin şəhərində danışıqlar masası ətrafında əyləşdilər. Burada hərbi əməliyyatların dayandırılması və Çinin birləşdirilməsi prinsiplərini hazırlamaq üçün Siyasi Məsləhət Konfransı çağırılmasına razılıq əldə olunsa da, tərəflər mübarizəni davam etdirirdilər.Məsələnin gərginləşməsi maraqlı dövlətləri də rahatsız etməyə başladı. Elə buna görə də idi ki, 1945-ci ilin dekabrında Moskvada keçirilən ABŞ, SSRİ və Böyük Britaniya xarici işlər nazirlərinin müşavirəsi də «vətəndaş müharibə»sinin kəsilməsi və tərəflərin birgə hökumət təşkil etməsi təklifini verdi. Həm də ABŞ və SSRİ öz hərbi qüvvələrini Çindən çıxarmaq haqqında razılığa gəldilər. Sovet hərbi hissələrinin Mancuriyadan çıxarılması 1946-ci ilin mayınadək başa çatdı. ABŞ hərbi qüvvələrinin Çindən çıxarılması isə isə xeyli ləngidi və 1949-cu ilin mayına qədər uzandı.

1945-ci ilin dekabrında ölkənin dinc və demokratik yolla birləşdirilməsi və barış əldə edilməsi yolunda tərəflər yeni bir cəhd etdilər. Homindan və ÇKP arasında danışıqlar bərpa olundu və o, barışıq haqqında saziş imzalanması ilə başa çatdı. 1946-ci ilin yanvarında Siyasi Məsləhət Konfransı çağırıldı. Onun işində Homindan və ÇKP nümayəndə heyətləri ilə yanaşı başqa partiyaların təmsilçiləri, eləcə də bitərəf ictimai xadimlər iştirak etdi. Konfrans qərara aldı ki, müvəqqəti koalisyon hökumət- Dövlət Şurası yaradılsın. Dövlət Şurasının yarısını homindançılar, yarısını isə kommunistlər, digər partiyalar və bitərəf ictimai xadimlər təşkil etməli, qərarlar üçdə iki səs çoxluğu ilə qəbul olunmalı idi. Qərar əyalətlərdə özünüidarə sisteminin yaradılmasını da (bu imkan verirdi ki, ÇKP «azad olunmuş» rayonlarda yaratmış olduğu rejimi saxlaya bilsin) nəzərdə tuturdu. Müxtəlif siyasi partiyaların təmsilçilərinin iştirakı ilə Milli Məclisin çağırılması, xalqın demokratik hüquqlarının təmin edilməsi, kəndlilərə torpaq verilməsi, azad işgüzarlıq fəaliyyətinə imkan yaradılması, əhalinin rifah halının yaxşılaşdırılması və s. kimi tədbirlərin həyata keçirilməsi də qəbul olunan qərarda öz əksini tapırdı. Ən mühüm razılaşmalardan birisi də bu oldu ki, ümumi milli ordu yaradılmalı,onun tərkibinə 50 homindan, 10 ÇKP diviziyası girməli, qalan

hərbi hissələr isə buraxılmalı idi.

Bütün bunlar belə təsəvvür yaradırdı ki, ölkənin demokratik zəmində dinc yolla birləşdirilməsi üçün ilkin şərtlər yaradılmışdır. Əslində həm Homindan, həm də ÇKP bütün bunları taktiki məqsədlər üçün edirdi, tərəflər vaxt qazanmaq, xalqın rəğbətinə nail olmaq və sonradan öz planını həyata keçirmək istəyirdilər, başqa sözlə, onlar həlledici döyüşə hazırlaşırdılar. Bu da çox vaxt almadı. Artıq 1946-cı ilin yazında 200 diviziyalıq homindan orduları «azad olunmuş» rayonların hüdudlarında cəmləşmişdi. Təbiidir ki,ÇKP də əliboş dayanmırdı. Homindan orduları Şimal-Şərqi Çinə hücumlara başladı, bu rayonun cənub hissələrini tutdu, Çançun dəmiryolu boyunca bir sıra şəhər və yaşayış məntəqələrində möhkəmləndi. ÇKP buna öz hərbi qüvvələrini səfərbər edib əks hücumlar təşkil etməklə yanaşı, 1946-cı ilin 4 mayında mülkədar torpaqlarının müsadirə olunması haqqında qərar qəbul etməklə cavab verdi. Sonuncu tədbir yoxsul kütlələrin ÇKP-yə meylinin xeyli qüvvətlənməsinə səbəb oldu.

Vəziyyət yenidən gərginləşdi. Nəhayət, 1946-cı il iyunun sonu- iyulun əvvəllərində Homindan 4,5 mln nəfər sayı olan (ÇKP ordularında 1,2 mln nəfər var idi), maddi-texniki üstünlüyə malik öz ordu hissələrini hərəkətə gətirdi, «azad olunmuş» rayonlara qarşı hücumlarını daha da genişləndirdi. Bununla da ümumçin miqyasında vətəndaş müharibəsi başlandı. ÇKP orduları davam gətirə bilməyib geri çəkilmək zorunda qaldı, müxtəlif manevrlər edərək daha çox öz qüvvələrini qoruyub saxlamaq taktikasını seçdi. Hərbi əməliyyatların ilk dörd ayı ərzində homindançılar 100 şəhəri tutdular, 200 min kv.km ərazini kommunistlərdən təmizlədilər. 1947-ci ilin martında Şensi-Qansu-Ninsya sərhəd rayonunun mərkəzi Yanan şəhəri ələ keçirildi, ÇKP MK-nın və Milli-Azadlıq ordusu komandanlığının iqamətkahları tutuldu. Homindan qələbəni təntənə ilə qeyd edərkən belə kommunistlər mübarizədən dönmədilər. Onlar üzücü hərbi əməliyyatları davam etdirirdilər. Yeri gəlmişkən bu taktika özünü kifayət qədər doğrultdu. Üzücü müharibə Homindan ordularının 1 mln nəfər döyüşçü itirməsinə səbəb olmuş və onu istər canlı qüvvə, istərsə də texnika cəhətdən kifayət dərəcədə sarsıtmışdı. İş o yerə çatdı ki, sonrakı dövrdə homindançılar ÇKP Milli-Azadlıq ordusunun əkshücumlarına davam gətirə bilmədi. Homindan ordusunun daxili zəifliyi üzə çıxdı, hakimiyyət iqtisadi və siyasi böhran nəticəsində sarsıldı. Elə bu səbəbdən də 3 may 1946-cı ildə homindan hökuməti

ABŞ hərbi qüvvələrinin ölkədə qalmasına dair qərar qəbul etdi.

Doğrudur, bu zaman ABŞ Çinə kifayət qədər hərbi yardım göstərirdi. İki ölkə arasında geniş işbirliyi var idi. 1946-cı ilin 4 noyabrında Nankin şəhərində bağlanan Çin-ABŞ müqaviləsinin şərtlərinə görə amerikalılar Çində sərbəst şəkildə istehsal sahələri yaratmaq, ticarət aparmaq, dini və maarifçilik fəaliyyəti ilə məşğul olmaq, torpaq icarə etmək, faydalı qazıntılar axtarışına konsessiya almaq, binalar tikmək haqqına sahib olurdular. Onlar ölkədə yaşamaq, hərəkət etmək, yük daşımaq, daxili sularda üzmək azadlığı qazanırdılar. Çinlilərə də eyni və bərabər hüquqlar ABŞ-da verilirdi.

Həmin arada iki dövlət arasındakı münasibətləri daha da möhkəmləndirmək məqsədilə iki başqa müqavilə də: 1947-ci ilin 27 oktyabrında «Çinə kömək göstərilməsi haqqında» saziş və 1947-ci ilin 8 dekabrında «Hərbi-dəniz əməkdaşlığı haqqında» saziş imzalanmışdı.

ABŞ Çinə böyük məbləğdə yeni-yeni borclar verirdi. 1947-ci ildə ABŞ-dan alınan borcların ümumi məbləği 5 mld dolları keçirdi. ABŞ burada aerodromlar tikir və hərbi-dəniz bazaları yaradır, kifayət qədər möhkəmlənirdi. Onun məqsədi regionda Çinin timsalında özünə hərbi-siyasi tərəfdaş yaratmaq idi.

Qeyd edək ki, ölkənin iqtisadi və siyasi sistemində zamanın tələblərinə uyğun dəyişikliklər aparılması cəhdləri ölkə əhalisinin müxtəlif təbəqələri tərəfindən heç də həmişə rəğbətlə qarşılanmırdı. Yaranan narazılığın mayasında bu dəyişikliklərin feodal rejimindən qalmış ənənələri getdikcə daha çox dağıtması, ən azı sıxışdırması, ölkənin inkişaf istiqamətində kapitalist münasibətlərinin həlledici amilə çevrilməsi dururdu. Bu proses əski feodal qayda-qanunları tərəfdarlarının güclü mənfi reaksiyası ilə qarşılanırdı. Müxtəlif şəhərlərdə və kəndlərdə fəhlələr, qulluqçular, sənətkarlar, kəndlilər, ziyalılar, tələbələr isə iqtisadi və siyasi tələblərlə çıxış edir, bunların da başında vətəndaş müharibəsinin dayandırılması dururdu.

Narazılığın artması səbəblərindən birisi də Homindanın milli azlıqlara yönələn siyasətində xan hegemonluğu siyasətini toxunulmaz saxlaması idi. Bundan da rəqiblər çox məharətlə istifadə edirdilər, yerlərdə milli zəmində baş verən prosesləri riyakarlıqla dəstəkləyirdilər. Hələ 1944-cü ildə Sincanda (Doğu Türküstanda) uyğurlar, qazaxlar, eləcə də şimali-qərbdəki üç əyalətdə olan digər millətlər milli zülmə qarşı mübarizəyə qalxmışdılar. Burada Doğu Türküstan res-

publikası yaradılmışdı. 100 minlik Çan Kay-şi orduları bu mübarizəni yatıra bilmədi və Doğu Türküstan respublikası Çin Xalq Respublikası yarananadək mövcud oldu. ÇKP ordularının işğal etdikləri Daxili Monqolustanın bir hissəsində 1 may 1947-ci ildə muxtar rayon yaradıldı. Həmin ildə Tayvanda da çox güclü çıxış oldu. Tayvan da muxtariyyət tələb edirdi.

Yaranmış vəziyyətdən qarşı tərəf- ÇKP çox məharətlə istifadə etdi. Həm də ÇKP həmin arada, yəni 1946-1947-ci illərdə öz nəzarəti altındakı «azad olunmuş» rayonlarda irəlidə haqqında danışılan aqrar islahatları həyata keçirirdi. Nəinki mülkədar və məbəd torpaqları, həm də varlı kəndlilərin artıq torpaqları müsadirə edilir, yoxsul kəndlilərə paylanılırdı. 1947-ci ilin sentyabrında Ümumçin Aqrar Konfransı çağırıldı. Burada yoxsul kəndliləri tam müdafiə edən qərarlar qəbul edildi: mülkədarların, məbəd, monastır, məktəb, müəssisə, təşkilatların torpaq mülkiyyət hüququ, eləcə də kənd yerlərindəki borc öhdəlikləri ləğv olundu; bütün müsadirə edilən mülkədar və ictimai torpaqlar kəndlilər arasında «cinsindən və yaşından asılı olmayaraq bölünməli» idi. Təbiidir ki, bütün bunları etməkdə ÇKP bir məqsəd güdürdü; çoxsaylı yoxsul kütləni öz tərəfinə çəkmək. Buna da nail olundu.

Lakin bu islahatın mənfi tərəfləri də az olmadı: 1) təkcə iri mülkədarlar və varlı kəndlilər yox, elə ortabab kəndlilər islahat nəticəsində böyük zərər gördülər və ÇKP hakimiyyətindən olduqca narazı qaldılar; 2) ümumiyyətlə isə islahat nəticəsində kənd təsərrüfatının normal fəaliyyəti pozuldu, məhsul istehsalı xeyli aşağı düşdü. Bir sözlə, islahat iqtisadi yararlığı baxımından iflasa uğradı, elə buna görə də 1948-ci ilin əvvələrində faktik olaraq islahatın həyata keçirilməsi prosesi dayandırıldı.

Bununla yanaşı, torpaqların müsadirə edilərək yoxsullara paylanması onların arasında inqilabi əhval-ruhiyyəni kifayət qədər qaldıra bilmişdi, bunun hətta Homindan hakimiyyəti altındakı ərazilərdə yaşayan kəndlilərə də güclü təsiri olmuşdu. Təbiidir ki, bu zəmində ÇKP-nin nüfuzu artmaya bilməzdi. Eyni zamanda geriyə çəkilmiş ÇKP orduları öz sıralarını yeni qüvvələr hesabına artırır, Sovet İttifaqından birbaşa aldığı silah və hərbi ləvazimatdan əlavə sovetlərin maddi-texniki köməyi və yardımı ilə «azad olunmuş» rayonlarda tikilən hərbi zavodlar və müəssisələrin istehsalı hesabına yüksək səviyyədə silahlanırdı. ÇKP orduları kəmiyyət və keyfiyyətcə xeyli möh-

kəmlənirdi, qüvvələr nisbəti onun xeyrinə dəyişirdi.

Elə bu səbəbdən də ÇKP orduları 1947-ci ilin yazında Şimal-Şərqi Çində hücum əməliyyatlarına başladı. Əməliyyatlar payızda və qışda da davam etdirildi. İlin sonlarında isə Xalq-Azadlıq ordusu iri-miqyaslı əks hücümlara başladı, üç böyük birləşmə Şimali Çindən Yanszı çayına doğru irəlilədi. Ümumiyyətlə döyüşlər ÇKP orduları üçün uğurlu oldu, Homindan orduları çox böyük canlı və texniki itki verdi. Təkcə 1947-ci ilin iyulundan 1948-ci ilin iyununadək olan bir il müddətində bir milyon əsgər və zabit əsir alındı, yarım milyon isə məhv edildi.

Bu qələbələrdən ruhlanan ÇKP belə bir şəraitdə yeni şüarlar irəli sürdü: 1) inqilabı qələbə ilə başa çatdırmaq, 2) Çan Kay-şi hökumətini devirmək, 3) koalisyon hökumət yaratmaq. Bu şüarlar Sinxay inqilabının (1911-ci il) ildönümü günündə - 1947-ci ilin 10 oktyabrında Xalq Azadlıq Ordusunun qəbul etdiyi Bəyannamə ilə xalqa çatdırıldı.

ÇKP bir sıra taktiki gedişlər də edirdi. Əsas diqqət verdiyi məsələ burjua təbəqələrini Homindan hakimiyyəti və ABŞ-a qarşı mübarizəyə cəlb etmək idi. Deməliyik ki, milli burjuaziya və ona yaxın olan qüvvələr (xırda burjuaziyanın üst təbəqələri və burjua ziyalıları) həm Homindan diktaturasını, həm də Kommunist avto-ritarizmini rədd edir, gedən prosesləri ölkədə parlamentar, həqiqi demokratik rejim yaratmaq yoluna yönəltməyə çalışırdı. Bu inkişaf istiqaməti Çində «üçüncü yol» adı ilə tanınırdı. Təəssüf ki, həmin dövrdə milli burjuaziyanın gücü və imkanları müqabil tərəflərlə müqaisədə kifayət qədər zəif idi. O, nəinki müstəqil hərəkət etmək, heç hərəkatda aparıcı mövqe tutmaq imkanına da malik deyildi. Bu baxımdan da milli burjuaziyanın demokratik rejim yaratmaq cəhdləri-nin perspektivi görünmürdü. Ümumiyyətlə isə Çin cəmiyyəti bütöv-lükdə istər sosial-iqtisadi, istərsə sosial-kültür baxımından demokra-tiyaya hazır deyildi, xalqın böyük çoxluğu demokratik normalar haq-qında heç bir təsəvvürə belə malik deyildi. Belə bir şəraitdə Homindan rejiminə qarşı müxalifətdə duran demokratik qüvvələr koalisiyon hökumət yaratmağa çağıran ÇKP şüarlarına inandı və ÇKP-nin tərəfinə keçməyə başladı. Çan Kay-şiyə qarşı homindan-çıların öz içərisindən müxalifət gücləndi. Onlar hətta Çan Kay-şi reji-minə alternativ olaraq 1948-ci ilin 1 yanvarında Honq-Qonqda Ho-mindan İnqilabi Komitəsinin yaradıldığını elan etdilər. Komitə Çan

Kay-şi diktaturası və ABŞ ekspansiyasına qarşı çıxdığını bildirirdi. Bununla eyni vaxtda Homindan hakimiyyəti altındakı ərazidə qadağan olunmuş Çin Demokratik Liqası öz fəaliyyətini bərpa etdiyini açıqladı. Hər iki təşkilat sülhsevər, bağımsız və demokratik Çin uğrunda mübarizədə ÇKP ilə əməkdaşlığa hazır olduqlarını bəyan etdilər. Beləliklə də ÇKP-nin başçılığı altında müxtəlif təbəqələri təmsil edən qüvvələr birləşdilər və vahid demokratik cəbhə yaratdılar. Onlar Çinin ABŞ-dan asılılığına son qoymaq, yarım feodal rejimin və bürokratik kapitalın ağalığını devirmək uğrunda müxtəlif formalarda mübarizə aparırdılar. Xalq Azadlıq ordusu silahlı mübarizə edir, tələbələr vətənpərvər şüarlar söyləyir, milli burjua isə müxalifətçi tədbirlər həyata keçirirdi. Bunların da hər birinin son məqsədi ayrı idi. Ancaq şəraitin belə şəkil alması ÇKP-yə imkan verdi ki, 1948-ci ilin 1 may şüarlarında diktaturanın devrilməsi uğrunda çıxış edən müxtəlif partiya və qrupların nümayəndələrindən ibarət yeni Siyasi Məsləhət Konfransının çağrılması ideyasını səsləndirsin.

Ümumiyyətlə vahid demokratik cəhbənin yaradılması ölkənin siyasi həyatına çox güclü təsir etdi, homindan ordularının arxa cəbhəsini parçaladı, Xalq-Azadlıq Ordusunun döyüş qabiliyyətini isə artırdı. XAO 1948-ci ildə bir sıra uğurlu əməliyyatlar keçirdi. Bunlardan birincisi Cənubi Mancuriyada Lyao şen döyüşü idi. 1948-ci ilin 12 sentyabrından 2 noyabrınadək davam edən bu döyüşdə yarımmilyonluq homindan ordusu darmadağın edildi, Şimal-Şərqi Çinin azad edilməsi başa çatdırıldı. İlk dəfə olaraq XAO sayca 3 mln nəfərin 2,9 mln-a nisbətində homindan ordusundan üstün oldu.

Lyao şen döyüşünün ardınca Şərqi Çində Xuanxe çayı və Sarı dəniz arasında 1948-ci ilin noyabrından 1949-cu ilin 10 yanvarına qədər davam edən Xuayxya əməliyyatı keçirildi. Homindançılar 555 min döyüşçü itirərək tamamilə darmadağın edildi.

Üçüncü böyük əməliyyat 1948-ci ilin 5 dekabrında Şimali Çində başladı. Beypin-Tyanszin döyüşü adı ilə tanınan bu əməliyyat nəticəsində Şimali Çində homindan qüvvələri bir-birindən ayrı salındı, zəifləmiş dəstələr darmadağın edildi, 521 min əsgər və zabit itirildi. 1949-cu ilin 15 yanvarında Tyanszin tutuldu. Beypin ətrafında döyüşən 250 minlik homindan ordusu nəinki təslim oldu, həm də könüllü olaraq XAO-nun tərkibinə qatıldı. 1949-cu ilin 31 yanvarında Beypin ÇKP orduları tərəfindən tutuldu.

Bu üç əməliyyat nəticəsində Homindan ordusu sarsıldı, o,

döyüşlərdə 1,5 mln civarında əskər və zabit itirdi. Bunun əksinə, XAO sıraları isə istər yeni könüllülər, istərsə də əsir düşən və XAO tərəfinə keçən homindançılar hesabına xeyli artdı. Homindan hakimiyyəti tamamilə siyasi-hərbi iflas həddinə çatdı.

Belə bir şəraitdə mübarizə aparan tərəflərdən hər biri - həm qələbəyə çalışan ÇKP, həm də məğlubiyyət ərəfəsində olan Homindan xalqa müraciət etdi. ÇKP-nin elan etdiyi rəsmi sənəd bütün ölkə miqyasında «mürtəce homindan ağalığı»nı devirmək və «xalqın demokratik diktaturası»nı yaratmağa çağırırdı.

Homindanın lideri Çan Kay-şinin yeni il münasibətilə çıxışında isə barış haqqında ÇKP ilə danışıqlara yenidən başlamaq təklif olunurdu.

Çan Kay-şinin bu təklifinə ÇKP 1949-cu ilin 14 yanvarında aşağıdakı şərtlərlə danışıqlara hazır olduğunu bildirdi: 1) bütün hərbi caniləri (Çan Kay-şi də daxil olmaqla) cəzalandırmaq; 2) mövcud konstitusiyanın ləğvi; 3) mövcud hüquq sisteminin ləğvi; 4) bütün ordunun yeni demokratik əsaslarda yenidən təşkili; 5) torpaq sahibliyi sistemində islahat aparılması; 6)bağlanmış müqavilələrin ləğvi; 7) Siyasi Məsləhət Şurasının çağrılması (onun işində «mürtəce» qüvvələrin iştirakı olmamalıdır), orada koalisyon hökumət yaradılması və bu hökumətin bütün hakimiyyət strukturlarını homindan hökumətindən təhvil olması qərarı qəbul edilməlidir.

Çan Kay-şi bu tələblərlə tanış olandan sonra 1949-cu ilin 21 yanvarında özünün prezident səlahiyyətini müavini Li Szun-jenə verdi və Nankindən çıxıb doğulduğu Fenxuaya yollandı.O bu addımını son qərar vermək üçün fikirləşmək məqsədilə atdığını bildirirdi və təbiidir ki, Nankin hökumətini həmişə nəzarət altında saxlayırdı.

Li Szun-jen ÇKP ilə sülh danışıqlarına başladı. O, vaxt qazanmaq, qüvvələri səfərbər etmək istəyirdi. Lakin homindançıların bir araya gəlməsi hər gün çətinləşirdi. Orduda parçalanma və kommunistlərin tərəfinə keçmə halları artır, bəzi məhəlli qruplaşmalar koalisyon hökumətdə yer tutmaq üçün sülh danışıqlarına üstünlük verirdi. Şanxay və Yanszı hövzəsi əyalətlərinin burjuaziyası da ÇKP ilə əlaqələrə can atır və baş verən inqilabi porseslərə mötədillik ruhu gətirməyə səy göstərirdi. Bütün ölkə boyu müxtəlif formalı və müxtəlif miqyaslı fəhlə hərəkatı və tələbə çıxışları baş verirdi.

Bunlar ÇKP-nin mövqelərini gərəyincə qüvvətləndirirdi. Bu səbəbdən idi ki, ÇKP MK-nın 1949-cu ilin 5-13 martında Şiszyaçjuan

şəhəri yaxınlığındakı bir yerdə keçirilən plenumunda yeni Çinə rəhbərlik edəcək bir qüvvə kimi partiyanın strateji və taktiki vəzifələri müəyyənləşdirildi. Əsas mə'ruzəçi Mao Dze-dun idi. Plenumda qərara alındı ki, partiya işinin ağırlıq mərkəzi kənddən şəhərə keçirilsin, ölkədə istehsal sahələri bərpa və inkişaf etdirilsin, Çin aqrar ölkədən sənaye ölkəsinə çevrilsin, «yeni demokratik dövlətdən sosialist cəmiyyətinə»- fəhlə və kəndlilərin ittifaqına əsaslanan və aparıcı rolun fəhlə sinfinə məxsus olduğu cəmiyyətə yönələn istiqamət götürülsün. Bununla yanaşı, «irtica üzərində tam qələbəyə nail olmaq və yeni Çini qurmaqla» xırda burjuaziya, milli burjuaziya və ziyalılarla əməkdaşlığın əhəmiyyəti də qeyd olunurdu. Plenumda əməli işlər görmək baxımından çox saylı və cəmiyyətdə köklü dəyişikliklər məqsədi güdən bir sıra vəzifələr, o cümlədən Homindanın nəzarəti altında olan rayonlar azad olunduqdan sonra oradakı «mürtəce silahlı qüvvələri» ləğv etmək, həmin ərazidə partiya təşkilatları və hakimiyyət orqanları yaratmaq, həmkarlar təşkilatları, kəndli ittifaqları və s. təşkilatları qurmaq, kənddə banditizmə və mülkədarlara qarşı mübarizəni genişləndirmək, torpaq icarə haqqını və borc faizlərini azaltmaq, aqrar islahat üçün hazırlıq işləri görmək, istehsal səviyyəsinin aşağı düşməsinə imkan verməmək və s. kimi məsələlər icrası nəzərdə tutulan ilk vəzifələr e'lan olundu. Perspektiv baxımından isə belə qərar verildi ki, ölkə iqtisadiyyatı çox ukladlı olaraq saxlanılsın. Bura daxil olmalı idi: 1) fərdi kəndli və sənətkarlıq təsərrüfatları, 2) xüsusi kapitalist bölməsi, 3) bürokratik burjuaziya və homindan dövlətinə aid mülkiyyətin xalq respublikasının əlinə keçməsi zəminində yaranacaq dövlət bölməsi. Eyni zamanda qeyd olunurdu ki, ümumi istiqamət təsərrüfat sahələrinin modernləşdirilməsi və kollektivləşdirilməsinə yönəldilməli, xüsusi kapital ilə əməkdaşlıq zəminində dövlət-kapitalist bölməsi də yaradılmalıdır.

Plenum qərara aldı ki, demokratik koalisyon hökumət yaradılması üçün yeni Siyasi Məsləhət Şurası çağrılsın.

Bunlar ÇKP-nin yürütdüyü siyasəti xalq arasında daha populyar edir, partiyanın nüfuzunu qaldırır, onun tərəfdarlarının sayını daha da artırırdı. Elə buna görə idi ki, homindan nümayəndələri ÇKP ilə 1949-cu il aprelin birinci yarısında Beypində aparılan danışıqlarda faktik olaraq kommunistlərin təklif etdiyi bütün şərtləri qəbul etdilər. Yalnız birinci şərtdəki «bütün hərbi canilərin cəzalandırılması» ifadəsi «ölkədaxili problemlərin dinc yolla həllinə» yardımçı olacaq

şəxslərin həmin siyahıdan çıxarılması anlamında qəbul olundu. Bir də səkkizinci şərtə əlavə olundu ki, homindan hökumətinin nümayəndələri Siyasi Məsləhət Şurasının və koalisyon hökumətin fəaliyyətində iştirak edə bilər. Ancaq homindan hökuməti bağlanmış sazişi rədd etdi.

ÇKP homindanın bu addımına hərbi əməliyyatlara başlamaqla cavab verdi. 1949-cu ilin 21 aprelində XAO-nun hissələri Yanszını keçdi və iki gündən sonra Nankini tutdu. Buradakı homindan hakimiyyəti nümayəndələri Quançjou şəhərinə qaçmalı oldular. Mayın 27-də Şanxay tutuldu. Uxan, Cənubi və Cənub-Qərbi Çin, Xunan, Tayyuan, Sian və s. homindançılardan azad edildi.

Təbiidir ki, bu qələbələrin arxasında Sovet İttifaqının hər cür hərbi-texniki və mənəvi yardımı dururdu, həmin dövrdə Mərkəzi və Cənub-Şərqi Avropada sosialist dövlətlərinin meydana gəlməsindən yaranan övqat dururdu, ölkənin daxilində ÇKP-nin antiimperialist və antifeodal fəaliyyət və proqramının xalqın böyük çoxluğu tərəfindən dəstəklənməsi dururdu. ÇKP azad olunmuş ərazidə hakimiyyət orqanlarını yaradır və onlara rəhbərlik edirdi. Yeri gəlmişkən deməliyik ki, məhz həmin dövrdən ÇKP-nin gələcək idarəçilik ən'ənələrinin əsası qoyulurdu. Kollektiv idarəçilik prinsiplərinə etinasızlıq, yerli partiya və mülki hakimiyyət orqanlarının faktik olaraq hərbi komandanlığa tabe olması, hərbi-amirlik stili və inzibati-bürokratik iş metodları bu idarəçiliyin xarakter cəhətlərinə çevrilirdi. ÇKP lideri Mao Dze-dunun belə bir fikri tez-tez təkrarlanırdı ki, partiya komitəsinin katibi hərbi bölüyün komandiri olmağı bacarmalıdır. Bu, obrazlı bir müqayisə deyildi, düşüncə və hərəkət tərzi idi. Bu düşüncə və hərəkət tərzi həmin dövrdə uzun müddət davam edən vətəndaş müharibəsi şəraitində partiyanın hərbiləşdirilməsindən qidalanırdısa, ümumən çinli insanın tarixi etno-sosio-psixologiyasından irəli gəlirdi. Qədim və orta əsrlərdə, elə lap yeni dövrün özündə belə hər bir çinlinin hərbi və mülki funksiyaları eyni zamanda icra etməsi halı geniş yayılmışdı.

ÇKP-nin öz siyasi hakimiyyətinə doğru irəliləməsi yolunda mühüm hazırlıq işlərindən birisi də əhalinin müxtəlif təbəqələrinin təşkilatlandırılması oldu. 1949-cu ilin martında Ümumçin Tələbə İttifaqı, apreldə Ümumçin Demokratik Gənclər Federasiyası yaradıldı, iyul-avqustda Beypində həmkarlar ittifaqları işçilərinin ümumçin müşavirəsi keçirildi. Çin Demokratik Liqası, Homindan İnqilabi Ko-

mitəsi, Demokratik Kəndli-Fəhlə Partiyası, Demokratiyanın İnkişafına Yardım Cəmiyyəti və s. kimi bir sıra partiyaların fəal iş aparmasına imkan yaradıldı. ÇKP gələcək siyasi həyat haqqında öz mövqelərini açıqladı. Bunlar öz əksini ÇKP-nin 28 illiyi münasibətilə Mao Dze- dunun 1949-cu ilin 1 iyulunda çap olunmuş «Demokratik Xalq Diktaturası haqqında» adlı məqaləsində tapmışdı. Orada deyilirdi ki, çin xalqının qazandığı əsas təcrübənin mahiyyəti ölkə daxilində xalq kütlələrini səfərbər etmək, fəhlə sinfini, kəndliləri, xırda şəhər burjuaziyası və milli burjuaziyanı bir araya gətirmək, fəhlə sinfinin rəhbərliyi altında vahid cəbhə yaratmaq, bu zəmində irəliyə- demokratik xalq diktaturası dövlətini yaratmağa doğru hərəkət etməkdən ibarətdir. Sovet İttifaqı, xalq demokratiyası ölkələri, həmçinin digər ölkələrin proletariatı və geniş xalq kütlələri ilə birləşib vahid cəbhə yaradılması xarici siyasi vəzifə elan olunurdu.

Danışıqların getdiyi dövrdə XAO hissələri homindan ordularını darmadağın edir, ona sarsıdıcı zərbələr vururdu. Homindanın Cənubi və Qərbi Çində möhkəmlənmək cəhdləri uğursuzluğa uğradı. Kontinental Çin bütünlüklə kommunistlərin nəzarəti altına keçdi. Çan Kay-şi mübarizəni davam etdirmək üçün Formoza (indiki Tayvan) adasına keçdi. Beləliklə, iki Çin dövlətinin yaradılmasının əsası qoyuldu.

1949-cu ilin 21 senyabrında Beypində Xalq Siyasi Məsləhət Şurasının (XSMŞ) I sessiyası çağırıldı. Sessiyada vahid Çin xalq demokratik cəbhəsinin orqanı kimi XSMŞ-nin təşkilat statusu müəyyənləşdirildi. Çinin bütün demokratik qüvvələrini, bütün millətlərini imperializmə, feodalizmə, bürokratik kapitala qarşı mübarizədə birləşdirmək, homindan hakimiyyətini devirmək, Çin Xalq Respublikasını qurmaq və möhkəmlətmək XSMŞ-nin əsas vəzifəsi elan olunurdu. Mərkəzi Xalq Hökumətinin təşkili haqqında qanun qəbul olundu. 63 nəfərdən ibarət Mərkəzi Xalq Hökuməti şurası yaradıldı. Şuraya başçılıq etmək Mərkəzi Xalq Hökumətinin sədri Mao Dzeduna həvalə edildi. Dövlət Şurası (sədr Çjou En Lay), Xalq-İnqilabi hərbi şurası (sədr Mao Dze-dun), Ali xalq məhkəməsi, Ali xalq prokurorluğu və s. kimi dövlət strukturları təşkil olundu.

Xalq Siyasi Məsləhət Şurasının ümumi proqramı qəbul edildi. Bu proqram beş il müddətində, yeni 1954-cü ildə Ümumçin Xalq nümayəndələri məclisi seçilənə və ÇXR-in Konstitusiyası qəbul edilinədək ölkənin müvəqqəti əsas qanunu mahiyyəti daşıyırdı. Proq-

ramda ÇXR-in dövlət hakimiyyəti fəhlə sinfinin rəhbərlik etdiyi «demokratik xalq diktaturası» kimi xarakterizə olunurdu. Bu diktatura fəhlə və kəndlilərin ittifaqına əsaslanırdı, Çindəki bütün «demokratik siniflər» və bütün millətlər də bu ittifaqda birləşirdilər. Proqram qarşıya bir sıra vəzifələr də qoyurdu: müharibəni tam başa çatdırmaq, Çinin bütün ərazisini azad etmək, ölkənin birləşdirilməsi işini başa çatdırmaq. Xarici dövlətlərin Çindəki bütün xüsusi hüquq və imtiyazlarını ləğv etmək, bürokratik kapitalı milliləşdirmək, aqrar islahat keçirmək, dövlət, kooperativ, xüsusi mülkiyyətləri, fəhlə və kəndlilərin, xırda və milli burjuaziyanın iqtisadi maraqlarını qorumaq, xalq təsərrüfatını inkişaf etdirmək, Çini kənd təsərrüfatı ölkəsindən sənaye ölkəsinə çevirmək, qadınların hüquq bərabərliyini, bütün millətlərin bərabərliyini təmin etmək, bütün sülhsevər və azadlıqsevər dövlətlər və xalqlarla, ilk öncə Sovet İttifaqı, xalq demokratiyası ölkələri və məzlum xalqlarla birlikdə olmaq bu qəbildən olan vəzifələr idi. Proqramın iqtisadi siyasət hissəsində deyilirdi ki, dövlət, kooperativ, fərdi kəndli və sənətkar, xüsusi kapitalist və dövlət-kapitalist kimi müxtəlif təsərrüfat bölmələrinin fəaliyyətinə icazə verilir. Eyni zamanda qeyd olunurdu ki, ümumi təsərrüfat həyatının inkişafı naminə onların fəaliyyəti dövlət bölməsinin rəhbərliyi altında əlaqələndirilməli və tənzim olunmalıdır.

Sessiya paytaxtın Nankindən Pekinə (Baypinə) köçürülməsinə qərar verdi, dövlət bayrağı və dövlət himnini təsdiq etdi.

1949-cu ilin 1 oktyabrında Pekinin Tyananmen meydanında Mao Dze-dun Çin Xalq respublikasının yaradıldığını elan etdi. Sovet İttifaqı ÇXR-i tanıyan ilk dövlət oldu. Artıq oktyabrın 2-də iki dövlət arasında diplomatik münasibətlər yaradıldı.

Bununla da 1912-ci ildə mancur sülaləsinin və imperatorluğun yıxılması ilə başlayan proseslər Çində bir kommunist rejiminin qurulması ilə başa çatdı.

## *Çin sosialist inkişafı yolunda*

ÇKP hakimiyyətə yiyələndi və ilk olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsini öz fəaliyyət plan kimi müəyyənləşdirdi: 1) yeni dövlət aparatı yaratmaq; 2) homindanın müqavimət göstərə biləcək son qüvvələrini də darmadağın etmək; 3) aqrar islahat və digər sosial-iqtisadi dəyişikliklər aparmaq.

Çin altı iri inzibati rayona bölündü. Bunlardan Şimal-Şərqi Çin rayonunda hakimiyyət oranın xalq hökuməti tərəfindən icra olunurdu. Şimali Çinin hakimiyyəti birbaşa Dövlət Şurasına tabe idi. Qalan dörd rayonda: Şimal-Qərbi, Cənub-Qərbi, Şərqi və Mərkəz-Cənubi Çində isə hakimiyyət yerli hərbi-inzibati komitələrə məxsus idi və onlara hərbi qüvvələrin komandanları başçılıq edirdi. Hərbi hakimiyyət orqanları yerlərdə qayda-qanun yaratmalı və tədricən öz funksiyalarına xalqın müxtəlif təbəqələrinin təmsil etdiyi konfraslarda seçilmiş hökumətlərə təhvil verməli idilər.

Milli rayonlarda da yerli hakimiyyət orqanları hərbi-nəzarət və hərbi inzibati komitələrə tabe edilmişdi, burada muxtar qəzalar, dairələr və iri muxtar rayonlar yaradılmışdı. Daxili Monqolustan, Sincan-Uyğur, Quansi-Çjuan, Ninsya-Xuey və Tibet muxtar inzibati-ərazi vahidləri idilər.

İlk dövrlərdə mərkəzi və yerli hakimiyyət orqanlarında kommunistlərlə yanaşı bitərəflər və digər demokratik yönümlü partiyaların üzvləri də işə cəlb olunurdular. Lakin ölkəyə rəhbərlik şəriksiz olaraq Çin Kommunist Partiyası tərəfindən həyata keçirilirdi.

Dövlət aparatı yaratmaq prosesi ilə yanaşı ÇKP hakimiyyəti azad olunmamış ərazilər uğrunda mübarizəni də davam etdirirdi. 1949-cu ilin sonlarınadək Şimal-Qərbi və Cənub-Şərqi Çini homindançılardan təmizləyən ordu 1950-ci ilin aprelində Cənubi Çin dənizindəki Xaynan adasına, mayda Şərqi Çin dənizindəki Çjouçan adalarına çıxdı. 1951-ci ildə Tibet XAO hissələri tərəfindən tutuldu.

Siyasi və iqtisadi sahələrdə ÇXR bütünlüklə Sovet İttifaqı başda olmaqla sosializm cəbhəsi ölkələrinə üz tutmuşdu. Yuxarıda Sovet İttifaqının ÇXR-i yarandığı günün ardınca ilk tanıyan dövlət olduğunu qeyd etmişdik. 1950-ci ilin 14 fevralında isə Moskvada iki dövlət arasında dostluq, ittifaq və qarşılıqlı yardım haqqında 30 il müddəti üçün nəzərdə tutulan müqavilə imzalandı. Hər cür iqtisadi-texniki, mədəni və siyasi-hərbi əməkdaşlığı nəzərdə tutan bu müqavilənin digər şərtləri də var idi: 1) Sovet hökuməti Çançun dəmir yolunu birgə istifadə etmək hüququnu ÇXR-ə verirdi; 2) Port-Arturdan sovet hərbi qüvvələri çıxarılır və buradakı qurğular Çinə verildi; 3) ÇXR-ə uzun müddətə əlverişli şərtlərlə (ildə 1% hesabilə) 300 mln dollar həcmində borc verilirdi ki, iqtisadiyyatın bərpası və inkişafı üçün Sovet İttifaqından alınacaq avadanlıq və materialların dəyəri ödənilsin; 4) hər iki dövlət Monqolustan Xalq Respublikasının dövlət

müstəqilliyinin qorunmasına təminat verirdi.

Bu müqavilə Uzaq Şərqdə Sovet İttifaqının möhkəmlənməsi yolunda ciddi hadisə oldu. Sovet İttifaqı dəmir yolu ilə bağlı hüququnu 1952-ci ilin sonlarında Çinə verdi, 1955-ci ilin mayında isə Port-Arturla bağlı öhdəliklərini yerinə yetirdi.

İqtisadi sahədə ÇXR hökumətinin ən önəm verdiyi tədbir aqrar islahat oldu. 1950-ci ilin iyulunda verilən torpaq haqqında qanuna əsasən mülkədarların, məbədlərin, monastırların, məktəblərin, sülalələrin torpaqları, mülkləri, hər cür avadanlıqları, mal-qarası və s., eləcə də «köhnə tipli» varlı kəndlilər, yeni torpağını özü becərməyib icarəyə verənlərin artıq torpaqları və mülkləri torpaqsız və aztorpaqlı kəndlilər arasında bərabər şəkildə bölüşdürüldü. Qalan bütün qeyri-əkin sahələri isə milliləşdirildi.

Aqrar islahatın həyata keçirilməsi 1953-cü ilin yazında başa çatdırıldı. İslahat nəticəsində mülkədar torpaq sahibliyi ləğv edildi, mülkədarlar bir sosial qüvvə olaraq aradan götürülmüş oldu. Orta və varlı kəndlilərin iqtisadi mövqeləri kifayət qədər zəiflədi. Yoxsullar arasında ÇKP-nin nüfuzu son dərəcədə artmış oldu.

Deməliyik ki, islahat nəticəsində böyük sayda yoxsul kəndli mülkiyyət sahibi oldusa da, rifah sahibi olmadı. Bu da onunla əlaqədar idi ki, bir təsərrüfatda işçi qüvvəsi çatmır, o birisində lazım olan avadanlıq və texnika çatmırdı. Təsərrüfat fəaliyyətini lazımınca təşkil etmək çətinlikləri yaranırdı. ÇKP rəhbərləri bu çətinliyi aradan qaldırmağın yolunu qarşılıqlı əmək yardımı qruplarının yaradılmasında gördülər. Artıq 1953-cü ilin əvvələrində belə qruplar ölkədə mövcud olan kəndli təsərrüfatlarını əhatə edirdi.

Sosial sahədə də bir sıra tədbirlərin həyata keçirilməsinə hökumət müəyyən diqqət verirdi. Ailə-nigah münasibətlərində qadın və kişilərin bərabərliyi elan olundu. Orta və ali məktəblərin rejimin tələblərinə uyğun yenidən təşkili, savadsızlığa qarşı mübarizə, əmək qanunvericiliyi, sığorta sisteminin yaradılması, həmkarlar təşkilatlarının status və hüquqlarının müəyyən edilməsi, işsizliyə qarşı mübarizə və s. sahələrdə müəyyən tədbirlər görüldü.

Hökumətin sənayenin bərpası və inkişafına yönəli siyasəti burada dövlətin rolunun artması ilə xarakterik idi. İlk olaraq bütün qiymət və maliyyə sisteminə dövlət nəzarəti qoyuldu. Xalqın böyük ehtiyac duyduğu yüngül sənaye müəssisələrinin ehtiyatları və məhsulları dövlətin əlində cəmləşdirildi.

Deməliyik ki, həmin dövrdə ölkə iqtisadiyyatında çoxukladlıq mövcud idi. İstər əhalinin, istərsə də istehsal olunan məhsulun böyük çoxluğu xırda əmtəə ukladı ilə bağlı idi. Xüsusi kapitalist ukladı milli burjuaziyaya məxsus olan müəssisələrdən ibarət idi. Ağır sənaye, nəqliyyat, maliyyə, xarici tacarət sahələrində dövlət bölməsi tam üstünlük təşkil edirdi. Xarici kapitalın bütün imtiyazları ləğv edilmişdi və o, ölkə iqtisadiyyatındakı əvvəlki mövqelərini, demək olar ki, bütünlüklə itirmişdi.

Belə bir iqtisadi innkişaf kursu dövlət bölməsinin xüsusi çəkisini xeyli yüksəltdi. Təkcə sənayedə 1949-1952-ci illər ərzində dövlət bölməsinin payı 29%-dan 41%-ə qalxmışdı. Bununla yanaşı, milli burjuaziyaya yönəli siyasətdə hökumət hələlik mötədil mövqe tuturdu. Eyni zamanda onların fəaliyyət sahəsi tədricən daralırdı, ən azı, genişlənmə imkanı yaradılmırdı. O biri yandan xüsusi kapitalist bölməsində dövlətin tənzimedici rolu artırılırdı.

Ümumiyyətlə, Çin dövlətinin istər dövlətçilik, istərsə də iqtisadiyyat, sosial həyat və həyatın digər bütün sahələrində apardığı siyasət Sovet İttifaqının dövlət və ictimai həyat modelinin Çin şəraitinə uyğun təkrarı idi. Artıq 1952-ci ilin birinci yarısında ÇKP öz kütləvi mübarizə kampaniyasına rəvac verdi. «Üç» və «beş» sui-istifadəyə qarşı mübarizə adı altında burjua qüvvələrinə qarşı hücum başlandı. «Üç» sui-istifadə adı altında dövlət apparatı işçiləri arasında 1) korrupsiya, 2) bədxərclik və 3) bürokratizm halları, «beş» sui-istifadə dedikdə guya burjua qüvvələrinin məşğul olduğu 1) rüşvətxorluq, 2)vergi ödəməkdən yayınmaq, 3) dövlət əmlakını dağıtmaq, 4) dövlət sifarişlərini yararsız yerinə yetirmək, 5) iqtisadi informasiya sirlərini oğurlamaq və ondan möhtəkirlık məqsədləri üçün istifadə etmək nəzərdə tutulurdu. Bu ittihamla 3 milyon dövlət məmuru (bütün işçilərin 80%-i) təqsirli bilindi və ciddi cəzalara məruz qaldı. Özəl iş adamlarının dörddə üçü cəzalandırıldı. Dövlət xüsusi müəssisələrin şərikinə çevrildi. Təbiidir ki, bu cəza kampaniyası milli burjuaziyanın iqtisadi və siyasi mövqelərini sarsıtdı, özəl müəssisələrdə məhsul istehsalını xeyli azaltdı və nəticədə Çinin sənaye istehsalının səviyyəsi aşağı düşdü, əhalinin ehtiyaclarının ödənilməsində ciddi çətinliklər yarandı. ÇKP rəhbərliyi bu çətinliklərdən xilas olmağın yolunu xüsusi mülkiyyətin daha sürətlə dövlət bölməsinə keçirilməsində gördü. «Sosialist sənayeləşdirilməsi» və «sosialist yenidən təşkili» partiyanın keçid dövrü üçün proqram xətti

oldu.

1953-1954-cü illərdə Çində xalq nümayəndələri məclisinə çoxpilləli seçkilər keçirildi. 1954-cü ilin sentyabrında Ümumçin Xalq Nümayəndələri Məclisi (ÇXNM) çağrıldı. Məclis Konstitusiya qəbul etdi, ÇKP-nin keçid dövrü üçün baş xətti Konsitusiya mətnində öz əksini tapdı. Mao Dze-dun ÇXR-in sədri, Cu Den onun müavini, Lu Şao Tzen Məclisin Daimi Komitəsinin sədri, Çjou En Lay isə Dövlət Şurasının sədri seçildi.

ÇKP-nin baş xəttinə uyğun olaraq birinci beşillik plan (1953-1957-ci illər) qəbul olundu. Beşilliyin başlıca vəzifəsi ölkənin «sosialist sənayeləşdirilməsi, kənd təsərrüfatının, fərdi təsərrüfatın, özəl sənaye və ticarətin sosialistcəsinə yenidən qurulması üçün ilkin baza yaradılması» idi. Beşillik ərzində çox saylı sənaye, tikinti, nəqliyyat, rabitə və s. müəssisələrin bərpası və inşası, faydalı qazıntıların axtarılması və istismarı, yeni istehsal sahələrinin yaradılması planlaşdırılırdı.

Onların maliyyələşdirilməsi əsasən xarici borcların, ilk olaraq Sovet İttifaqının və digər «xalq-demokratik» dövlətlərin yardımları və köməyi hesabına aparılırdı. Sovet İttifaqı ÇXR-ə uzun müddətli və güzəştli şərtlərlə 2 mld-a yaxın invalyuta rublu həcmində borc verməklə yanaşı, 1950-1960-cı illərdə Çində çalışmaq üçün 10 min nəfərdən çox müxtəlif səviyyələrdən olan mütəxəssis göndərmişdi. Bundan əlavə sovet ali və orta ixtisas məktəblərində 20 min nəfərdən artıq çinli mütəxəssis hazırlanmışdı.

Qeyd etmək lazımdır ki, beşillikdə nəzərdə tutulan planların yerinə yetirilməsində Çin xalqının özünə məxsus təşəbbüskarlığı və işgüzarlığı da az rol oynamırdı. Bütün bunlar imkan verdi ki beşillik planda nəzərdə tutulan vəzifələr müəyyən mənada yerinə yetirilsin, ölkədə yeni istehsal sahələri yaradılsın, ÇXR-in bir dövlət olaraq regionda nüfuzu yüksəlsin, «üçüncü dünya» ölkələri sırasında önəmli yerlərdən birini tutsun,o, Asiya və Afrikanın, eləcə də Qərbin bir sıra kapitalist ölkələri tərəfindən tanınsın. Artıq 1954-cü ildə Cenevrədə Koreya məsələsinin tənzim olunması və Hind-Çində sülhün bərqərar olunması məsələlərini müzakirə etmək üçün çağırılan müşavirələrdə ABŞ, SSRİ, İngiltərə və Fransa kimi dövlətlərlə birlikdə ÇXR da iştirak edirdi. Yenə də 1954-cü ildə ÇXR Hindistanla birlikdə dinc yanaşı yaşamağın beş prinsipini elan etdi: 1) ərazi bütövlüyü və süverenliyinə qarşılıqlı hörmət; 2) hücum etməmək; 3) bir-birinin

daxili işlərinə qarışmamaq; 4) bərabərlik və qarşılıqlı fayda; 5) dinc yanaşı yaşamaq. 1955-ci ildə Banduqda Asiya və Afrikanın 29 dövlətinin iştirak etdiyi konfransın iştirakçılarından biri də ÇXR idi.

ÇXR-in bu uğurları ÇKP-nin «sosialist» konsepsiyalarının tətbiqinin genişlənməsi ilə müşayət olunurdu. Bu baxımdan belə bir təcrübə çox xarakterikdir: 1953-cü ilin dekabrında ÇKP MK qərar verdi ki, I beşilliyin sonuna, yəni 1957-ci ilədək kəndlilərin 20%-i yarımsosialist (torpaq xüsusi mülkiyyətdə saxlanılır, təsərrüfatın aparılması isə birgə olurdu) kooperativ təsərrüfatlarında birləşməlidir. İlyarımdan sonra 1955-ci ilin 30 iyulunda ÇXNM qərar verdi ki, bu rəqəm 33%-ə çatdırılmalıdır. Bir gün sonra Mao Dze-dun əyalət partiya komitə katiblərinin toplantısında kəndlilərin kooperativlərə girməsini beşilliyin sonunda 50%-ə çatdırmağı tövsiyə etdi. Əməldə isə hətta bu rəqəmlərin özünü belə üstələyərək artıq 1956-cı ilin sonunda kəndlilərin 96%-dən çoxu kooperativlərə cəlb olunmuşdu. Həmin kooperativlərin 88%-ə yaxını «ali tipli» idi. Yəni burada həm torpaq, həm də kənd təsərrüfat alətləri dövlətə məxsus idi. Doğrudur, ÇKP rəhbərləri bununla kənddə kapitalist münasibətlərinin birdəfəlik ləğv edilməsinə və sosializmin qalib gəlməsinə çalışırdılar. Ancaq ümumi nəticədə illərlə formalaşmış təsərrüfat tərzi pozulur, istehsalın səviyyəsi nəinki qalxmır, hətta aşağı düşürdü. Bu zorakı kooperativləşdirmə siyasəti kəndlilərin narazılığı ilə qarşılanırdı. Hətta Mao Dze-dunun öz etirafına görə kəndlilərin 40%-i kooperativlərə «həvəssiz» yanaşır, bunların da 20%-i «kooperativdən çıxmaq arzulayırdı». Təsadüfi deyildir ki, ölkənin müxtəlif yerlərində kəndlilərin açıq e'tiraz aksiyaları baş verirdi.

Kütləvi kooperativləşmənin ardınca 1956-cı ildə bütün xüsusi müəssisələrin satın alınma yolu ilə başdan-başa milliləşdirilməsi başladı. Əslində bu prosesin əsası 1953-1954-cü illərdə taxıl, yağ bitkiləri, pambıq, parça və digər məhsulların satın alınması üzərində dövlət inhisarının tətbiq edilməsi ilə qoyulmuşdu. Dövlət hər yerdə xüsusi müəssisələrin məhsullarını satın alır, onlara xammal və ya dövlətə məxsus xammalın təkrar emalı üçün sifariş verirdi. 1955-ci ildə demək olar ki, xüsusi müəssisələrin 88%-dən çoxu bu qaydada fəaliyyət göstərirdi. 1954-1955-ci illər ərzində iri xüsusi müəssisələrin (işçisi 500 nəfərdən çox olan) 90%-i qarışıq, yəni dövlət-xüsusi müəssisə formasında idi, burada da aparıcı rol dövlətin əlində cəmləşmişdi. 1955-ci ilin noyabrında ÇKP MK-nın xüsusi sənaye və

ticarətin yenidən təşkili haqqında qəbul etdiyi qərara görə bütün xüsusi müəssisələr dövlət şirkətlərinin idarəsi altına keçdi. Bunun əvəzində dövlət müəssisə sahiblərinə milliləşdirilən mülkiyyətin dəyərinin 5%-ni ödəməli idi. Ödəmə müddəti əvvəlcə 7 il müəyyənləşdirilsə də, sonralar xeyli uzadıldı. Müəssisə sahibinin yeganə imtiyazı işlə təmin olunması və aldığı maaşın nisbətən yüksək olması idi. Xüsusi mülkiyyətin bu qaydada milliləşdirilməsi iri şəhərlərdə 1956-cı ilin yanvarında, bütün Çin üzrə isə iyunda başa çatdırıldı. Həmin ildə ağır sənaye müəssisələrinin inkişafına xüsusi cəhdlər göstərildi. Bütün bunlar yenə də sənayenin inkişaf ritmini pozdu, iqtisadiyyatda güclü disproporsiya yaratdı, bir sıra müəssisələrin qurulması yarımçıq qaldı və digər neqativ hallar çoxaldı.

Bütün bunlara baxmayaraq 1956-ci ilin sentyabrında çağrılan ÇKP-nin VIII qurultayı görülən bu tədbirləri bəyəndi. Qəbul olunmuş ikinci beşillik planda hətta nəzərdə tutuldu ki, sənaye istehsalının səviyyəsi 1957-ci il planında nəzərdə tutulduğundan iki dəfə artırılsın.

### *«Böyük sıçrayış» və kəndin «kommunalaşdırılması» siyasəti*

ÇKP VIII qurultayında qəbul olunmuş II beşillik plana 1958-ci ilin yazında bəzi düzəlişlər edildi, tarixi ədəbiyyatda «böyük sıçrayış» və kəndin «kommunalaşdırılması» adı ilə tanınan yeni sosial-iqtisadi kurs müəyyənləşdirildi. Kursun mahiyyəti partiya sənədlərində aşağıdakı şəkildə ifadə olunurdu: «bütün qüvvələri toparlayaraq irəliyə cəhd etmək, daha çox, daha tez və daha qənaətcil sosializm qurmaq».

1958-ci ilin avqustunda Beydayxda ÇKP MK-nın Siyasi Bürosunun müşavirəsində Mao Dze-dun kənddə «xalq kommunaları» yaratmağa çağırdı. O, insanların lazım olarsa, zorla, belə «kommuna»larda birləşməsini elan edir və bildirirdi ki, «təkcə demokratiya ilə hərəkət etmək olmaz», «Marksın ideyalarını Tsin Şixuanın (e.ə. qədim ilk mərkəzləşdirilmiş Çin imperiyasının başçısı, despot) əməlləri ilə uyğunlaşdırmaq» lazımdır. Mao Dze-duna görə bu «kommuna»ların həyatı bütünlüklə hərbləşdirilməli və orada hər şeydə tam bərabərlik olmalıdır. Təbiidir ki, bu eqalitarist, yəni zorakı bərabərlik ideyaları ölkə əhalisinin böyük çoxluğunu təşkil edən yoxsullar və lümpenlərin ovqatına hesablanmışdı. Buna görə də ilk vaxtlar bu ideyalar rəğbətlə qarşılanırdı. Beydayx müşavirəsinin kənddə «xalq

kommunaları» yaratmaq haqqında qərar qəbul etməsi də bu qəbildən olan addım idi.

Bəs bu «xalq kommunaları» nə idi?

İdeya müəlliflərinin fikrincə «xalq kommunaları» bütün ölkə boyunca sənaye istehsalı, kənd təsərrüfatı, ticarət, maarif və hərbi özündə birləşdirməli idi. Bu işə çox böyük sürətlə və ciddiyyətlə başlanıldı. Qısa zaman ərzində 720 min kənd təsərrüfatı kooperativi 26 min «xalq kommunası»nda birləşdirildi. Eqalitarist sistem «xalq kommunası»nın fəaliyyət forması oldu, həyat və məişət hərbləşdirildi. Xalq kommunalarının idarə heyətləri yerli inzibati orqanlara çevrildi.

Eyni zamanda bütün ölkə boyunca metal istehsalı, daş kömür və filiz çıxarılması, müxtəlif sənaye məhsulları istehsalı ilə məşğul olan kustar müəssisələr yaradılırdı ki, həmin sahələr üzrə nəzərdə tutulmuş planlar tez bir zamanda və artıqlaması ilə yerinə yetirilsin. « Üç il gərgin mübarizə- on min il səadət»-həmin dövrün devizi idi. Çinlilərə vəd olunurdu ki, bir neçə ildən sonra onlar kommunizmdə yaşayacaqlar.

Bütün bunlara qədər hələ 1958-ci ilin iyulunda II beşilliyin yeni variantı hazırlanmış, bütün istehsal sahələri üzrə planlar bir neçə dəfə artırılmışdı. 1953-cü illə müqayisədə sənaye məhsullarının 6,5 dəfə, kənd təsərrüfatı məhsullarının 2,5 dəfə artıq istehsalı planlaşdırılmış, digər sahələrin də bir neçə dəfə yüksəldilməsi qərara alınmışdı. Ölkə başdan-başa kustar domna peçləri və poladəritmə müəssisələrinə bürünmüşdü. Onların da 90%-i «xalq kommunalarına» məxsus idi. Az qala hər bir çinli «polad uğrunda döyüş»ün iştirakçısına çevrilmişdi. Bu kampaniya vətəndaş müharibəsinin ən başlıca döyüşləri ilə müqayisə olunurdu. Ölkədə «böyük sıçrayış» hərəkatı başlandı və onun müəlliflərinin fikrincə, Çin bunun sayəsində bir dəfəyə dünyanın qabaqcıl sənaye ölkəsinə çevrilməli idi.

Bu proses, yəni yeni inkişaf xətti, kəndin «kommunalaşdırılması» və «böyük sıçrayış» Çin rəsmiləri tərəfindən «üç qızıl bayraq» kursu adlandırılırdı.

Ölkənin bütün fiziki və maddi imkanları «üç qızıl bayraq» kursunun həyata keçirilməsinə yönədilmişdi. İş vaxtı anlayışı, əməyə görə ödəmə, istirahət vaxtı və s.kimi anlayışlar tarixin arxivinə atılmışdı. Maraqlı bir fakt kimi göstərmək istərdik ki, ölkə üzrə çanlı əməkdən istifadə 8-10 dəfə artmışdı. «Polad uğrunda döyüş»ə xüsu-

sən daha çox və daha gərgin əmək sərf olunurdu.

İrəlicədən deyək ki, bütün bunlar normal təsərrüfat həyatını pozur, istehsalçının maddi marağını öldürür, ölkənin maddi və fiziki imkanlarından plansız və səmərəsiz istifadəyə gətirir, istehsal olunan məhsulun çox böyük hissəsinin keyfiyyətsiz və yararsız olmasına zəmin yaradırdı, ölkə iqtisadiyyatı böhranlı hala düşürdü. Ən ağır böhran özünü kənd təsərrüfatında göstərirdi ki, bunun da əsasında zorakı üsullarla kommunaların yaradılması, zorakı bərabərlik tətbiq olunması, insanların «polad uğrunda döyüş»də həddən artıq qüvvə sərf etməsi dururdu. Elə buna görə idi ki, 1958-ci ilin sonlarında çağırılan ÇKP MK Plenumunda xalq kommunalarının köklü şəkildə yenidən qurulması haqqında qərar qəbul olundu. Qərara görə kommunalarda üç pilləli mülkiyyət və idarə sistemi yaradılırdı: 1) istehsal briqadası («əməyin təşkilinin əsas vahidi»); 2) iri istehsalat briqadası («təsərrüfat hesablı vahid»); 3) kommuna. Bununla yanaşı rəsmi təbliğat xalq kommunalarını təriflməkdə davam edirdi və onu «sosializmdən kommunizmə keçid»in ən məqsədəuyğun forması adlandırırdı.

Lakin yürüdülən siyasətdən narazılıq da artır, bu və ya digər formada üzə çıxırdı. Bu faktdır ki, həmin plenumda Mao Dze-dun ÇXR sədri vəzifəsinə namizədliyini irəli sürməmək haqqında qərar qəbul etdi. 1959-cu ilin aprelində həmin vəzifəyə Lu Şao Tsi tə'yin edildi. Mao Dze-dun partiyada ali rəhbər statusunu qoruyub saxlasa da ÇKP MK-nın həmin ildə keçirilən plenumunda onun müəllifi olduğu «böyük sıçrayış» və «kommunalaşdırma» siyasətinə qarşı açıq çıxışlar oldu. Bu baxımdan Siyasi Büro üzvü, Dövlət Şurası sədrinin müavini və hərbi nazir olan Pen Dexuayın Mao Dze- duna ünvanladığı və MK-nın bir sıra üzvləri tərəfindən müdafiə olunan açıq məktubunu xüsusilə qeyd etmək lazımdır. Pen Dexuay yürüdülən siyasəti subyektiv, «xırda burjuaziya» vurğunluğu, avantürizm kimi dəyərləndirirdi. Təbiidir ki, Pen Dexuayın bu tənqidi partiya və dövlətin ali rəhbərliyi tərəfindən kəskin narazılıqla qarşılandı, o və tərəfdarları sağ opportunistlər adlandırıldı və tutduqları vəzifələrdən azad edildilər. Bununla da partiyada təmizləmə kampaniyası başladı, Mao Dze-dunun siyasətinə müxalifətdə şübhəli bilinən bütün şəxslər «yenidən tərbiyə olunmaq» üçün kəndlərə sürgünə göndərildilər. Hərbi nazir vəzifəsinə Mao Dze-dunun yaxın dostlarından Lin Byao gətirildi. O da orduda kütləvi təmizləmə əməliyyatı apardı. Növbəti

ildə ideolji fikir ayrılılığı zəmnində Sovet İttifaqı ilə əlaqələrin gərginləşməsi Çində işləyən sovet mütəxəssislərinə münasibəti də dəyişdirdi. Sovet İttifaqı da buna cavab olaraq 1960-cı ilin avqustunda onları geriyə qaytardı. Heç şübhəsiz ki, bu hadisə də Çinin iqtisadi və siyasi həyatına təsirsiz qalmadı. Çin az qala bütün uğursuzluqların səbəbini bu hadisədə görürdü.

Dövlət və partiya liderlərinin kimi və ya nəyi səbəbkar adlandırılmasından asılı olmadan «böyük sıçrayış» və «xalq kommunaları» siyasətinin iflasa uğraması labüd oldu, ölkə iqtisadiyyatının çökməsi danılmaz fakta çevrildi. 1960-cı və 1961-ci illərdə sənaye məhsulları istehsalı xeyli dərəcədə azaldı. II beşillik plan yerinə yetirilmədi. 1959, 1960 və 1961-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının səviyyəsi kəskin surətdə aşağı düşdü. Görkəmli partiya lideri və hərbi komandan Çju De açıq şəkildə bildirirdi ki, bunun səbəbini «xalq kommunaları»nda axtarmaq lazımdır. Bunu da əlavə etmək lazımdır ki, istehsalın kəskin azalması ilə yanaşı Çin əhalisi də hər il 10 milyon nəfər artırdı. Bunların nəticəsi idi ki, 1960-1961-ci illərdə ölkədə aclıq yaranmışdı.

ÇXR rəhbərliyi artıq düşünmək və vəziyyəti düzəltmək cəhdlərinə başladı. 1961-ci ilin yanvarında çağrılan partiya plenumunda kəndlilərin əmək fəallığına imkan vermək və kənd təsərrüfatını xilas etmək üçün qüvvələri cəmləşdirmək haqqında qərar verildi. Qərarda deyilirdi ki, «əsaslı tikintinin miqyasını ixtisar etmək, inkişaf sürətini tənzimləmək» lazımdır.

Beləliklə də, «böyük sıçrayış» «tənzimləmə» kursu ilə əvəz olundu. «xalq kommunaları» köklü surətdə yenidən qurulmağa başladı. İstehsal və təsərrüfat hesablı istehsalat vahidləri 10-30 həyətdən ibarət briqadalara çevrildi. Kəndlilərə həyətyanı sahələr verildi ki, bu'da bütün əkilən sahələrin 5%-ni təşkil edirdi. Kəndlilərə həyətyanı təsərrüfatla - əlavə əkinçilik və maldarlıqla məşğul olmağa icazə verildi. Kənd bazarları bərpa olundu. Kommuna və digər müəssisələrdə çalışanlara əməyə görə haqq verildi və s. və i.a.

Ciddi tədbirlərdən biri istehsalın ixtisaslaşmasına, kooperasiyaların yaradılmasına, hətta bəzi əyalətlərdə fərdi təsərrüfatlar sisteminə lazımı səviyyədə önəm verilməsi oldu.

İqtisadi siyasət kursunun dəyişdirilməsi öz müsbət nəticələrini elə birinci ildən göstərməyə başladı. «Böyük sıçrayış» və «kommunalaşdırma» siyasətinin ağır nəticələrini tədricən aradan qaldırmaq

imkanı yarandı. Artıq 1962-ci ildə ərzaq vəziyyəti yaxşılaşdı, məhsul istehsalının aşağı düşməsi dayandı.

İflasa uğramış siyasətin kütləvi tənqidlərə məruz qalacağından və partiyadaxili mübarizənin kəskinləşə biləcək ehtimalından çəkinən ÇKP liderləri növbəti plenumda «şəhər və kənd işçilərinin fəaliyyətini qaydaya salmaq» haqqında yeni qərar qəbul etdirdilər. Qərarın əsas məqsədi fərqli düşünən partiya rəhbərləri və üzvlərinin təqib edliməsini daha da gücləndirmək idi. Qeyd etmək lazımdır ki, partiyada fərqli düşünənlər də az deyildi. Hər bir halda Mao Dze-dun özü plenumdakı çıxışında Şimali Çində baş verən kəndli həyacanlarından danışarkən ümumiyyətlə ölkədə 10% «düşmən» və «yaramaz ünsür»ün olduğunu da söyləmişdi. Plenum və onun qərarı yenidən bütün ölkə boyu partiya və orduda kütləvi təmizləmə əməliyyatına başlamaq üçün siqnal oldu. Yüz minlərlə partiya və ordu kadrları tərbiyə olunmaq üçün kəndlərə sürgün edildi.

Lakin xalqın müxtəlif təbəqələri, partiyanın ən aşağı pilləsindən üzü yuxarı, hətta ÇKP MK sədrinin müavini və ÇXR-in sədri Lu Şao Tsi, MK-nın baş katibi Den Syao pin və s. kimi liderlər iflasa uğramış iqtisadi kursa öz tənqidi münasibətini bildirdilər. Mao Dze-dun və onun ətrafına qarşı güclü bir müxalifət yaranırdı. Mətbuat orqanlarında dolayısı yolla da olsa belə, tənqidi yazılar çap olunurdu. Hətta bədii ədəbiyyatda tənqidi bir ruh yaranmış, e'tiraz ruhlu əsərlər yazılmışdı.

Belə şəraitdə Mao Dze-dun və ətrafı yəqinlik etdilər ki, onların ölkə və partiyadakı nüfuz və mövqeləri üçün ciddi təhlükə yaranmaqdadır. Odur ki, ilk imkan yaranan kimi onlar hücuma başladılar. Belə bir imkan 1962-ci ilin ikinci yarısında ölkənin iqtisadi vəziyyətində yaranmış nisbi istiqrar oldu. Həmin ildə Mao Dze-dunun irəli sürdüyü sinfi mübarizənin «dalğavari» inkişafı tezisi isə hücumun ideoloji əsası oldu. ÇKP-nın bütün təşkilat pillələrində sosializmin xətasız olmasına şübhə edən kadrlara, eləcə də ziyalılara qarşı cəza və təqib kampaniyası var gücü ilə işləməyə başladı. Narazılar kütləvi sürətdə «əmək tərbiyəsinə» göndərilirdi. Kampaniyanın başında duranlardan birisi Mao Dze-dunun arvadı Tszyan Tsin idi ( o, vaxtilə Şanxayda aktrisa olmuşdu-müəl.). «Əmək tərbiyəsi» kampaniyası 1963-1965-ci illərdə davam etdirilirdi. Bu cəzayə mə'ruz qalacaq insanların sayı hətta əvvəlcədən müəyyənləşdirilmişdi. E'lan olunmuşdu ki, ÇKP sıralarına daxil olanların 5%-i «antisosialist»

ünsürlərdir. Bu da təqribən 1 milyon nəfər edirdi. «Antisosialist ünsür»lərin «əmək tərbiyəsi»nə göndərilməsi ilə yanaşı ÇKP-nın ortodoksal rəhbərliyi partiya fəaliyyətinin daha çox hərbləşdirilməsi planını da həyata keçirirdilər. Onlar daha çox orduya istinad etmək və ordunun timsalında özlərinə güclü dayaq yaratmaq istəyirdilər.

Deməliyik ki, həmin dövrdə ÇXR-in siyasi kursunda da ciddi dəyişikliklər baş verirdi. Bu, ilk növbədə özünü hərb və sülh probleminə yanaşmaq məsələsində göstərirdi. Hesab olunurdu ki, beynəlxalq gərginliyin artması inqilabi prosesin inkişafı üçün münbit şərait yaradır. Çin rəhbərliyi irəli sürdüyü bu ideya zəmnində bir sıra əməli cəhdlər göstərdi ki, bunlar da şəraitin kəskin gərginləşməsi ilə nəticələndi: 1958-ci ilin avqustunda ÇXR hərbi qüvvələri Tayvan boğazında homindançıların hakimiyyəti altında olan adaları top atəşinə tutdu. Buna cavab olaraq ABŞ 7-ci donanmasının gəmiləri Tayvan boğazına girdi. Bölgədə böhranlı vəziyyət yarandı.

İ.V. Stalinin ölümündən sonra beynəlxalq kommunist və fəhlə hərəkatı liderinin boş qalmış kürsüsünə yiyələnmək uğrunda mübarizə zəminində yaranmış sovet-çin ziddiyyətləri yeni ideoloji fikir ayrılıqları ilə bir qədər də dərinləşdi və kəskinləşdi.

Bu baxımdan bir sıra məsələlərə toxunmaq istərdik. Ümumiyyətlə XX əsrdə bir sıra mühüm hadisələr olmuşdur. Bunlardan da birisi, şübhəsiz 1917-ci ildə Rusiyada çarlığın yıxılıb, Sovet Rusiyası adı ilə böyük bir kommunist dövlətinin yaranmasıdır. Bunun kimi ikinci hadisə 1949-cu ildə Çində ikinci bir nəhəng kommunist dövlətinin ortaya çıxmasıdır. Onlardan geri qalmayan başqa bir hadisə isə əsrin altmışıncı illərindən etibarən bu iki super dövlətin arasında üzə çıxan münaqişələr, həmin münaqişələrin nəticə və təsirlərinin günümüzə qədər davam etməsi, onların təkcə iki dövlət miqyasında deyil, bütünlükdə müasir dünya nizamının yaradılmasında köklü çətinliklər meydana gətirməsidir.

Həqiqətdir ki, iki dövlət arasında münaqişələrin üzə çıxması yeni hadisə idi. Ancaq onların mövcudluğu tarixi elə Çin Xalq Respublikasının yaranması dövründən başlamışdı. Səbəbi də ondan qaynaqlanırdı ki, Sovet İttifaqı Çin kimi nəhəng dövlətə münasibətində də xırda bir Şərqi Avropa kommunist dövləti ilə olduğu kimi rəftar etmək istəyirdi. Təbiidir ki, Çin də belə «tarixi tale» ilə razılaşmaq istəyində deyildi. İlk günlərdən Sovet İttifaqının Çinə yönəli siyasəti bu ölkə üzərində nəzarətin yaradılması və gücləndirilməsi istiqa-

mətində qurulmuşdu. Edilən iqtisadi yardımların və inşası nəzərdə tutulan istehsal müəssisələrinin planlaşdırılması üzərində belə ciddi sovet nəzarəti və marağı vardı. Təbiidir ki, ÇXR-in də Sovet İttifaqı ilə münasibətlərində öz planları var idi. ÇXR rəhbərliyi, ilk növbədə Mao Dze-dun, çox yaxşı bilirdi ki, birincisi, ölkənin sosialist inkişaf yolu tutması dünyanın strateji və mövcud durumuna təsirsiz deyildir. Odur ki, əbədi olaraq Moskvanın nəzarəti altında olan bir rejim kimi yaşamaq mümkünsüz bir işdir; ikincisi, Sovet İttifaqı sosializm qurmaq yolunda kifayət qədər təcrübəsi, inkişaf etmiş iqtisadiyyatı, elm və texnikası olan bir ölkədir. Müharibənin xarabaya çevirdiyi Çini dirçəltmək, Sovetlərin 30 ildə keçdiyi yolu qısa bir zamanda adlamaq üçün güclü maddi-texniki və maliyyə yardımı gərəkdir. Qərb dövlətlərinin ÇXR-in mövcudluğunu qəbul etmədiyi bir durumda Sovetlərə ehtiyac böyük idi. Sovet İttifaqı həm də, ÇXR-in beynəlxalq münasibətlər sistemində öz yerini tutması üçün gərək idi. Odur ki, 50-ci illərin sonuna qədər iki dövlət arasındakı münasibətlər tamam normal axarda davam edirdi, zahirən hər iki dövlətin bir cəbhədə durması və birgə çıxış etməsi vəziyyəti hakim idi.

İki dövlət arasında açıq fikir ayrılığının üzə çıxması 1961-ci ilin oktyabrında Sov.İKP -nin XXII qurultayının qəbul etdiyi qərarlarla bir vaxta düşür. Əslində isə bu proses 1957-ci ilin oktyabrından gizli olaraq davam edirdi. Bəlli oluğu kimi, 1957-ci ilin 4 oktyabrında Sovet İttifaqı kosmosa ilk süni peyk göndərmişdi. Təbiidir ki, bu peykin kosmosa çıxarılması təkcə fəzanın öyrənilməsi sahəsində önəmli bir hadisə olaraq qalmırdı. Bu həm də o demək idi ki, Sovet İttifaqı peyki kosmosa çıxara biləcək raketə də malikdir. Başqa sözlə, Sovet İttifaqı bu qədər güclü və uzaqmənzilə uça bilən raketlərə nüvə silahı yerləşdirərək istənilən düşməni, o cümlədən bir nömrəli kapitalist dövləti olan ABŞ-ı bombardman edə bilərdi. Halbuki, indiyə qədər belə bir üstünlük uzunmənzilli bombardman təyyarələrinə malik olan ABŞ-a məxsus idi. Vəziyyətin dəyişməsindən sonra Çin rəhbərliyi hesab edirdi ki, Sovet İttifaqı öz hərbi üstünlüyünə dayanaraq Qərbə qarşı sərt siyasət yürütməlidir, beynəlxalq kommunist hərəkatının genişlənməsi üçün lazım olan zorakılığı etməlidi. Sovet İttifaqı isə hər iki tərəfin əlində nüvə silahı olması üzündən bu zorakı siyasətdən çəkinirdi. Bilirdi ki, yeni başlanacaq müharibə təkcə kapitalist dünyasının yox, həm də kommunist dünyasının məhvi ola bilər.

Çin rəhbərliyinin narazılığına səbəb olan ikinci məsələ ondan ibarət idi ki, Sovet İttifaqı Qərb ölkələri ilə münasibətlərdə onunla heç bir məsləhətləşmə aparmır və bu siyasəti yalnız öz mənafeləri baxımından yürüdürdü.

Bu baxımdan 1959-cu ildən başlayaraq Sovet-ABŞ münasibətlərindəki pozitiv dəyişikliklər Çin rəhbərliyi tərəfindən son dərəcə narahatlıqla qarşılanmışdı. Bəlli olduğu kimi, həmin vaxtlarda Sovet İttifaqı və ABŞ dövlət adamlarının qarşılıqlı ziyarətləri olurdu. 1959-cu ilin 15-27 sentyabrında isə sovet rəhbəri N.S. Xruşşovun ABŞ ziyarəti iki ölkə arasındakı münasibətlərin yaxşılaşmasında önəmli rol oynadı. Hər iki dövlətin başçıları bildirdilər ki, bütün dünyada sülhün qorunub saxlanmasında mə'suliyyət bu iki böyük dövlətin üzərinə düşür.

Hadisələrin belə inkişafı Çin rəhbərliyini hövsələdən çıxardı. Onlar Sovet-ABŞ yaxınlaşması naminə sovetləri ÇXR-in hesabına iki güzəştə getməkdə ittiham etdilər. Belə ki: 1) 1957-ci ilin oktyabrında bağlanan sovet-çin sazişinə görə SSRİ ÇXR-ə atom bombası və bəzi nüvə texnikası haqqında elmi məlumatlar verməli idi. N.S.Xruşşovun ABŞ-a ziyarətindən iki ay öncə SSRİ bu sazişi ləğv etdi. Çinlilərə görə bu, SSRİ-nin ÇXR-i ayaqlayaraq ABŞ-a güzəşti idi. Əslində isə Sovet rəhbərliyi belə bir elmi mə'lumatın ÇXR-ə verilməsini onun nüvə silahına sahib olması və bununla da nəzarətdən çıxması kimi düşünürdü; 2) 1959-cu ilin avqust, sentyabr və oktyabr aylarında ÇXR ilə Hindistan arasında bir sıra sərhəd toqquşmaları olmuşdur. Bu hadisələr zamanı Sovet İttifaqı ÇXR-i dəstəkləmədi və ABŞ-ın dəstəklədiyi «burjua» Hindistanına qarşı bitərəf mövqe tutdu. Bu da, çinlilərə görə, ABŞ-a edilən ikinci güzəşt idi. Sovetlər isə hesab edirdi ki, baş verən toqquşmaları çinlilər N.S.Xruşşovun ABŞ-a ziyarətini pozmaq üçün etmişlər.

1960-cı ildən ideoloji sahədə ziddiyyətlər baş verirdi. Sov.İKP-nin XX qurultayında sosialist və kapitalist sistemlərinin «dinc yanaşı yaşamaq» prinsipinin irəli sürülməsindən sonra Çin kommunistlərinin bununla nəinki razılaşmadığı, həm də qəti etirazları bildirildi. V.İ.Leninin 90 illiyi münasibətilə keçirilən toplantıda, eləcə də 1960-cı ilin 21 iyulunda hakim kommunist partiyalarının keçirdiyi müşavirədə də çinlilər həmin tezisə qarşı çıxdılar. Onlar bəyan edirdilər ki, kapitalizmin var olduğu dövrdə savaşların da var olması qaçılmazdır. İdeoloji mübarizə dövlətlərarası münasibətlər müstəvisinə keçirildi.

1960-cı ildən başlayaraq mütamadi olaraq sovet-çin dövlət sərhədlərinin pozulması, əsasən də mülki şəxslər tərəfindən, halları baş verirdi. 1961-ci ildə dövlətlərarası iqtisadi sazişlərin şərtləri bir neçə dəfə dəyişdirildi. İlin sonunda isə 1962-1963-cü ildə Sovet İttifaqından Çinə gətirilməsi nəzərdə tutulan avadanlıqlar komplektindən ümumiyyətlə imtina edildi. Elmi-texniki və mədəni əlaqələr tədricən aradan qaldırılırdı. Ticarət əlaqələrinin səviyyəsi xeyli dərəcədə aşağı düşmüş, 5%-ə enmişdi. Sincanda yaşayan türklərin Sovet İttifaqına keçməsini bəhanə edən ÇXR hökuməti ölkədəki bütün sovet konsulluqları və ticarət nümayəndəliklərini bağladı. Sərhəd münaqişələri xeyli artdı.

1962-ci ildəki Karib böhranı ilə əlaqədar olaraq Çin rəhbərliyinin söylədiyi ittiham xarakterli fikir və dəyərləndirmələr Sovet-ABŞ ziddiyyətlərini daha da gərginləşdirməyə yönəlmişdi. Hadisələrin belə gərgin dövründə Hindistanla hərbi əməliyyatlar yenidən (1959-cu ildən sonra) başlandı.

1962-ci ilin sonlarından başlayaraq 1957-ci və 1960-cı illərdə dünya kommunist və fəhlə partiyalarının Moskvada keçirilən müşavirələrinin qərar və qətnamələri yenidən dəyərləndirilir və təftiş olunurdu. Nəhayət, ÇXR Sovet İttifaqına və digər ölkələrə qarşı ərazi iddiaları irəli sürməyə başladı. Qarşılığında Sovet İttifaqının təmkin və uzaqgörənlikdən məhrum siyasəti Uzaq Şərqdə qarşıdurmanı daha da dərinləşdirmək xarakteri aldı. Təkcə bunu söyləmək kifayətdir ki, 60-70-ci illərdə bu regionda ordu və hərbi-texniki strukturların yaradılması Sovet İttifaqına 200 mld rublə başa gəlmişdi. (Həmin dövrdə 1 ABŞ dolları orta hesabla 60-65 qəpiyə bərabər idi.)

## *Mədəni inqilab*

Başlıca daxili və beynəlxalq problemlərin həllinə yanaşma sahəsində ÇXR rəhbərliyindəki fikir ayrılığı 1965-ci ilin payızında kifayət qədər kəskinləşdi. Mao Dze- dun və tərəfdarları cəmiyyətin idarə edilməsində hərbi xarakterli prinsiplərə üstünlük vermək, iqtisadiyyatda əməyin stimullaşdırılmasını inzibati-təbliğati metodlarla əvəz etmək, fərqli düşünənlərə qarşı təqib və cəza tədbirlərini gücləndirmək kursu tərəfdarı idilər. Bunun əksinə olaraq Lu Şao Tsi, Den Syao pin və digərləri isə tənzimləmə dövründə öz səmərəliliyini sübut etmiş prinsiplərin saxlanmasını, tə'qib və cəzaların yumşal-

dılmasını istəyirdilər. Vəziyyətin bu cür uzun davam edəcəyi, təbiidir ki, Mao Dze-dunun şəxsiyyətinə pərəstişin misilsiz forma aldığı şəraitdə mümkünsüz idi və «kimin kimi» məsələsi hər an aktuallaşırdı.

Nəhayət, cəbhə açıldı və ilk zərbə yaradıcı ziyalılara dəydi. Beləliklə də Çin tarixində «mədəni inqilab» adı ilə tanınan və 1966-1976-cı illər ərzində aramsız olaraq davam etmiş yeni kampaniya başladı.

Deməliyik ki, ÇKP rəhbərliyi və xüsusilə Mao Dze-dunun kursundan ilk narazılıqlar hələ əvvəllərdə dolayısı ilə cəmiyyətə çatdırılırdı. Bu baxımdan 1959-1961-ci illərdə tanınmış yazıçı və tarixçi, Pekin xalq komitəsi sədrinin müavini U Xan Min sülaləsi (1368-1644-cü illər) dövrünün cəsarətli əyanlarından Xay Juy haqqında bir neçə məqalə çap etdirmiş, sonra isə «Xay Juyun şikayəti» adlı pyes yazmış, əsər 1961-ci ilin əvvəllərində Pekində səhnəyə qoyulmuşdu. Əsərin bir yerində Xay Juy imperatora söyləyir: «Siz əvvəllər bəzi yaxşı işlər görürdünüz. İndi Sizə nə olmuşdur. Səhvlərinizi düzəldin, qoyun xalq xoşbəxt yaşasın. Siz çox xətalar etdiniz, amma düşünürsünüz ki, hər şeydə haqlısınız, buna görə də tənqidi rədd edirsiniz». Xay Juyun bu cəsarəti onun işdən qovulması ilə nəticələnir. Pyesi görənlərin çoxusu belə düşünürdü ki, bu səhnə Mao Dze-dunu tənqid etdiyinə görə Pen De xuayın vəzifəsindən uzaqlaşdırılmasına işarədir. Zamanında xüsusi əhəmiyyət verilməmiş bu hadisəyə 1965-ci ilin noyabrında «Xay Juyun şikayəti» əsərinin müəllifi U Xanın əleyhinə yazılmış bir məqalə ilə yenidən qayıdıldı və orada açıqca bildirilirdi ki, haqqında danışdığımız epizod «Pen De xuay məsələsi»nə işarədir. Həmin vaxtda ÇKP MK-nın katibi və XAO Baş qərargah rəisi Lo Juytsin tutduğu vəzifələrdən çıxarıldı və həbs edildi. Hadisənin kökündə hərbi quruculuq haqqında Mao Dze-dunun göstərişləri ilə heç də həmişə razılaşmaması dayanırdı. O, «orduda hakimiyyəti ələ keçirməkdə» ittiham edilirdi. Bunun ardınca Mao Dze-dun ÇKP MK və Pekin şəhər komitəsinin təbliğat şöbələrində təmizlik aparmağa çağırdı. 1966-cı ilin 16 mayında isə Lu Şao tsi tərəfdarlarının rəhbərlik etdiyi mədəni inqilab məsələləri üzrə qrup buraxıldı və onları Mao Dze-dunun katibi Çen Boda və müavini Tsyan Tsin-Maonun arvadı əvəz etdi. Mədəni inqilab kampaniyasının tuğyan dövrü başladı.

Qeyd etmək lazımdır ki, yeni kampaniyada Mao Dze-dun və

ətrafı yeni qüvvələrə, özəlliklə gənclərə və tələbələrə üz tutdular. Kənclik bu kampaniyanın aparıcı qüvvəsinə çevrildi, onların sırasından 1966-cı il martın sonralarında Pekində ilk xunveybin («qırmızı keşikçilər») dəstələri yaradıldı. Ali və orta məktəblər bağlandı ki, tələbə və şagirdlər «mədəni inqilab»da iştirak edə bilsinlər. Onlar öz müəllimlərinə, elm və mədəniyyət işçilərinə, partiya təşkilatları rəhbərlərinə qarşı hücuma başladılar.

1966-cı ilin avqustunda ÇKP MK-nın plnumu getdiyi günlərdə Mao Dze-dunun «qərargahlara atəş» adlı intibahnaməsi yayıldı. Orada «burjua diktaturasını həyata keçirən» və «burjua qərargahları» olan partiya orqanlarına qarşı mübarizəyə çağırılırdı. Doğrudur, hələlik «burjua qərargahları»nın rəhbərlərinin adları açıqlanmırdı, lakin bu sırada Lu Şao tsi və digər partiya liderlərinin dayandığı nəzərdə tutulduğunu dərk etmək çətin deyildi. Plenumda «Mao Dze-dunun ideyaları» partiya üçün rəhbər prinsiplər elan edilməklə yanaşı bir yerdə partiya təşkilatlarının buraxılmasına, digər yerdə rəhbərliyin dəyişdirilməsinə qərar verildi. ÇKP MK sədrinin beş müavinindən dördü-Lu Şao Tsi, Çjou En Lay, Çju De, Çen Yun azad edildi, yalnız biri - hərbi nazir Lin Byao saxlanıldı. Baş katib Den Syao pinin rəhbərliyi altında olan katiblik öz əhəmiyyətini itirdi. Partiyada bütün hakimiyyət Mao Dze-dun və onun tərəfdarlarının əlində cəmləndi.

1966-ci ilin avqust-noyabr aylarında Mao Dze-dunun iştirak etdiyi xunveybin mitinqləri keçirildi. Burada Lin Byao, Tsyan Tsin, Çjou En Layın çıxışları ilə qızışdırılan milyonlarla xunveybin şəhər, əyalət, qəza partiya və xalq komitələrinə, komsomol və həmkarlar orqanlarına hücuma keçirdilər. ÇKP MK üzvü və nazirlərdən tutmuş kiçik bir partiya məmuruna qədər bəyənilməyən hər kəs xunveybinlərin cəzasına məruz qalırdı. Mao Dze-dunun «qiyam - haqq işidir» sözləri xunveybinlərin şüarı idi.

1966-cı ilin dekabrında xunveybinlərin sırasına yeni bir qüvvə də əlavə olundu. Bunlar gənc fəhlə və işçilərdən təşkil olunan «tszaofana» («qiyamçılar») dəstələri idilər. Onların da vəzifəsi müəssisə və təşkilatlarda xunveybinlərlə birlikdə «mədəni inqilab»ın yayılmasını təşkil etmək idi. Demək lazımdır ki, bu iki qüvvənin arxasında isə ordu dayanırdı. Az keçmədi ki, bu qüvvələr tərəfindən «hakimiyyəti tutmaq» kampaniyası başladı. 1967-ci ilin yanvarında Şanxayda tszaofana dəstələri «hakimiyyəti ələ keçirmiş və kapitalist

yolu ilə gedən» dəstələri devirmək məqsədilə «inqilabi qiyam»a qalxdılar. Bunun ardınca Pekin və digər şəhərlərdə də müxtəlif hakimiyyət orqanları üzərində xunveybin və tszaofanaların nəzarəti yaradıldı.

Ordu yerlərdə xunveybin və tszaofana dəstələrini qorumaq və müdafiə etmək üçün bütün kommunikasiya və digər mühüm dövlət obyektlərini nəzarətə götürürdü. Bundan əlavə birbaşa xunveybin - tszaofana qüvvələrinə dəstək olan hərbi qruplar da yaradıldı. Müqavimət göstərmək və narazılıq bildirmək istəyənlər anındaca hərbi qüvvələr tərəfindən əzilirdi. Ölkə başdan-başa qanlı toqquşmalar meydanına çevrilmişdi. Toqquşmalar təkcə xunveybin-tszaofana dəstələri və məmurlar arasında yox, ayrı-ayrı xunveybin və tszaofana dəstələri arasında da baş verirdi. Vəziyyət belə olduqda «mədəni inqilab»ın təşkilatçıları istifadə etdikləri üç qüvvəni-1) xunveybin və tszaofana dəstələrini; 2) ordunu; 3)Çjou En layın cəhdləri sayəsində cəzalardan kənarda qalan partiya və idarə rəhbərlərini birləşdirmək qərarına gəldilər. «Üç tərəfin birləşməsi» adlanan bu kurs əslində ölkədə mövcud olan üç qüvvə arasında kompromis yaranması demək idi. Bunlar Tsyan-Tsin və Çen Bodanın başçılıq etdiyi yeni qüvvələr və Çjou En layın başçılıq etdiyi keçmiş yaşlı qüvvələr idi.

1967-ci il yanvarın sonlarından etibarən «üç tərəfin birləşməsi» zəmnində yeni yerli hakimiyyət orqanı kimi «inqilab komitələri» yaradılmağa başladı. Əvvəlcə «inqilab komitələri»nə başçılığı xunveybin və tszaofana dəstələri rəhbərləri ələ keçirdilər. Bu hərbçilərin və partiya-idarə rəhbərlərinin narazılığına səbəb oldu. 1967-ci ilin fevralında ÇKP MK Siyasi Bürosunun və Hərbi Şuranın bir sıra üzvləri «mədəni inqilab»ın belə özbaşınalıqlarını kəskin tənqid etdilər. Təbiidir ki bu, ordunun və partiyanın daxilində Mao Dze-dun və ətrafına olan reaksiyasının təzahürü idi. «Fevral əksaxınları» adlanan bu söz narazılığının ardınca mərkəzdə və yerlərdə hərbi hissələrlə xunveybin və tszaofana dəstələri arasında açıq toqquşmalar baş verdi. İş o yerə çatdı ki, iyulda Uxana gələn ictimai təhlükəsizlik naziri və ÇKP MK-nın təbliğat şöbəsinin müdiri xunveybin və tszaofana dəstələri tərəfindən girov götürüldü. Onları yalnız hərbi-hava desant qüvvələrinin köməyi ilə azad etmək mümkün olmuşdu. Quançjou və digər şəhərlərdə də qanlı toqquşmalar baş verdi. Ölkə çıxılmaz hala düşdü. Nəhayət, Mao Tsze-dun özü şəxsən vəziyyətlə tanış olmaq üçün bir sıra şəhərləri gəzdi. Bəzi hərbi dairə

komandanları işdən çıxarıldı, digərlərinin iş yerləri dəyişdirildi və s. Bunlara baxmayaraq qarşıdurmada ordu üstünlüyü ələ keçirdi və ölkədə hərbi nəzarət yaradıldı. Ordunun «mədəni inqilab» üzrə dəstələri ölkədə qayda-qanunların qorunması və xunveyvin-tszaofana dəstələrinə nəzarət edilməsi sahəsində əlahəddə salahiyyətlərə sahib oldu.

Qruplar arası mübarizə «inqilab komitələri» yaradılması prosesini ləngidir, ölkədə siyasi istiqrarı pozurdu. 1968-ci ilin yazında və yayında tərəflər arası ziddiyyətlər silahlı qarşıdurmanı yenidən kəskinləşdirdi. Yenidən ordu işə qarışdı, xüsusi qoşun bölmələri şəhərlərə yeridildi. Nəhayət, 1968-ci ilin sentyabrında «inqilab komitələri»nin formalaşması başa çatdı və orada üstünlük hərbiçilərə məxsus oldu.

Partiya sıralarını yeniləşdirmək, partiyanın fəaliyyətinə yeni bir dinamika gətirmək məqsədilə xunveybin-tszeofana dəstələri kütləvi surətdə partiya üzvlüyünə qəbul olunurdular. Qeyd edək ki, 1968-ci ilin oktyabrında çağrılan partiya plenumunda «mədəni inqilab»la bağlı bütün aksiyalar təqdir olundu, Lu Şao Tsi «birdəfəlik» olaraq partiyadan və tutduğu bütün vəzifələrdən çıxarıldı. Plenum növbəti IX qurultayın çağırılması haqqında qərar qəbul etdi.

1969-cu ilin aprelində çağırılan qurultayda plenumun «mədəni inqilab»la bağlı qərarları bəyənildi. Mao Dze-dunun ünvanına tariflər söylənildi və bəyan edildi ki, ÇKP-nin tarixi «Mao Dze-dunun həqiqi və doğru xəttinə» qarşı müxtəlif «təmayülçülərin mübarizəsindən» ibarətdir. Buna görə də partiya və dövlət təşkilatlarında təmizləmə aparılması tövsiyə olunurdu. Maraqlı qərarlardan birisi də Lin Byaonun «Mao Dze-dunun davamçısı» elan olunması idi. (Bundan iki il sonra isə Lin Byao süi-qəsdçi, əksinqilabçı və revizionistlərin agenti kimi ittiham edildi-müəl. ). Seçilən MK və Siyasi buro üzvləri arasında Lin Byaonun tərəfdarları olan hərbçilər çoxluq təşkil etdilər.

«Mədəni inqilab» da əvvəlki kampaniyalar kimi Çinə böyük zərbələr vurmuş, normal inkişaf yolunda xeyli əngəllər yaratmışdı. Cəmiyyət böyük ölçüdə militaristləşdirilmiş, şübhə, izləmə, mənəvi terror, kütləvi repressiyalar adi hal almışdı. İqtisadiyyat xeyli geriləmişdi. Təkcə 1967-ci ildə sənaye istehsalının səviyyəsi əvvəlki il ilə müqayisədə 20% aşağı düşmüşdü. Kənd təsərrüfatı 1957-ci ilin səviyyəsində qalmışdı. Halbuki, həmin dövr ərzində əhalinin sayı 125

milyon nəfər artmışdı. Sosial, elm, təhsil, mədəniyyət və s. sahələrdəki vəziyyət də acınacaqlı idi. Əhali arasında narazılıq artmışdı. Qonşu dövlətlərlə, xüsusi ilə də Sovet İttifaqı ilə münasibətlər gərginləşmişdi. Pekində və digər şəhərlərdə antisovet aksiyalar keçirilirdi. Pekində hətta xunveybinlər sovet səfirliyinə hücüm etmiş, orada güclü talançılıq törətmişlər. Çin mətbuatı «Mao Dze-dunun bayrağını Qızıl meydana sancmağı» təbliğ edirdi.

Bu ideoloji müharibə, nəhayət, sovet-çin sərhəddində silahlı münaqişələrlə sonunclandı. 1969-cu ilin mart və avqust aylarında Ussuri çayındakı Daman adasında və Qazaxstanın Semipalatinsk vilayətindəki Jalanaşkol yaşayış məntəqəsində silahlı toqquşmalar baş verdi, yaralanan və ölənlər oldu. Doğrudur, 1969-cu ilin 8 oktyabrında iki ölkənin hökumət başçıları sərhəd məsələləri üzrə danışıqlara başlamağa razılaşdılar və silahlı toqquşmalar dayandırıldı. Ancaq ölkələrarası münasibətlər gərgin olaraq qalırdı.

ABŞ-la münasibətlərdə isə yaxşılığa doğru ciddi dönüş yaranırdı. 1972-ci ildə ABŞ prezidenti R.Nikson Çini ziyarət etdi. Şanxayda prezidentin və Dövlət Şurasının sədri Çjou En layın imzaladığı kommünikedə deyilirdi ki, tərəflər öz münasibətlərini silah işlətmədən və güc tətbiq etmədən qurmaq tərəfdarıdırlar. Onlar Asiya problemləri üzrə öz mövqelərini də açıqladılar. ABŞ elan etdi ki, Tayvan boğazının hər iki tərəfində olan çinlilər Tayvanı Çinin bir hissəsi sayırlar. 1979-cu ilin 1 yanvarında iki dövlət arasında diplomatik münasibətlər yarandı, bu da ticarət-iqtisadi, elmi-texniki və hərbi sahədə ilişkilərin genişlənməsinə təkan verdi. ABŞ Tayvanla diplomatik münasibətlərini kəsdi. Ancaq bu, iki müttəfiqin arasındakı digər münasibətlərə qəti xələl gətirmədi.

Çin partiya və dövlət rəhbərliyinin istər daxili, istərsə də xarici siyasətindəki müəyyən dəyişikliklər ali hakimiyyət nümayəndələri arasında ixtilafların səngiməsinə gətirmədi. Ölkədə istiqrarın bərqərar olmasına çağıran IX partiya qurultayından bir il yarım sonra «mədəni inqilab» işləri üzrə qrupun sədri Çen Boda siyasət meydanından qeyb oldu. 1971-ci ilin sentyabrında isə «Mao işinin davamçısı» Lin Byao başda olmaqla böyük mənsəbli hərbçilər qrupu (onların altısı Siyasi Büro üzvü idi) hakimiyyətdən uzaqlaşdırıldı. Orduda yeni kütləvi təmizləmə başlandı.

ÇKP-nin X qurultayı (1973-cü il) bu kütləvi cəza və təqib kampaniyasının Mao Dze-dunun «proletar diktaturası dövründə də

inqilabın davam etməsi» və «proletariatla burjuaziya arasında sinfi mübarizənin kəskinləşməsi» tezislərinə uyğun olduğunu bir daha təkrarladı. Qurultayda Tsyan Tsinin başçılıq etdiyi yeni liderlər qrupu («Şanxay qrupu»da adlandırılır-müəl.) xüsusi fəallıq göstərirdi. Onun nəticələri isə mövcud üç qrup: Tsyan Tsinin («radikallar»), Çjou En layın(«praqmatiklər») və hərbi liderlər arasında yenə də müvəqqəti sazişin qalmasına dəlalət edirdi. Birincisi, radikalların nümayəndəsi Van Xun ven ÇKP MK sədrinin müavinlərindən biri oldu, Tsyan Tsin, Çjan Çun tsyao və Yao Ven yuan Siyasi Büroya seçildilər ( sonralar onlar «dördlər bandası» adı ilə tanınmışdılar-müəl.); ikincisi, qurultay bir tərəfdən «mədəni inqilab» xəttini «doğru» hesab etdi, o biri tərəfdən isə «mədəni inqilab» dövründə cəzalara məhkum qalmış insanların bir hissəsinə bəraət verdi. Bu baxımdan MK-nın keçmiş baş katibi Den Syao pinə münasibət xarakterdir. Qurultaya qədər o, Dövlət Şurası sədrinin müavini təyin edilmiş, qurultayda MK və Siyasi Büro üzvü seçilmişdi. 1975-ci ilin yanvarında isə partiya sədri müavinlərindən biri idi.

Qurultay «mədəni inqilab» dövründə baş verən bütün əyintilərin məsuliyyətini Lin Byao və Çe Bodanın üzərinə yıxdı. Eyni zamanda qərara alındı ki, Ümümçin Xalq Nümayəndələri Şurasının, həmkarlar və gənclər təşkilatlarının fəaliyyəti bərpa edilsin.

Lakin bunlar ölkədə siyasi istiqrara gətirə bilmədi. 1974-cü ilin əvvəlində yeni kampaniya başlandı. «Lin Byao və konfusiyaçılığın tənqidi» adı altında gedən bu kampaniyanın əsası qurultaya qədərki dövrdə konfusiyaçılığın «mürtəce» və leqizimin( qədim ideoloji cərəyandır və Tsin Şixuan dövründə hakim mövqeyə sahib idi) «mütərəqqi» mahiyyətindən bəhs edən bir sıra məqalələrin çapı ilə qoyulmuşdu. Lin Byao onda ittiham olunurdu ki, quldarlığın bərpasına cəhd göstərən qədim filosof kimi o da kapitalizmi bərpa etməyə və hakimiyyətə yiyələnməyə çalışmış və bu zaman Konfusiyanın təliminə istinad etməyə səy göstərmişdir. Kampaniyanın başında «dördlər bandası»sı dururdu. Kampaniyanın əsas hücum hədəfləri Çjou En lay və «polisentrizm» tərəfdarları olan hərbçi liderlər idi. Əslində bu kampaniya «dördlərin» öz rəqiblərinə qarşı son və qəti döyüşü olmalı və rəqiblər sıradan bir dəfəlik çıxarılmalı idi. Lakin bu dəfə də son məqsədə çatmaq «dördlərə» qismət olmadı. 1975-ci ilin yanvarında on illik fasilədən sonra Ümumçin Xalq Nümayəndələri Şurası sessiyasının nəticələri də «dördlərin» qələ-

bəyə çata bilməməsini göstərdi. Belə ki, sessiyanın qəbul etdiyi yeni konstitusiyada «sosializmin bütün dövrlərində sinfi mübarizənin saxlanılması», «hər ehtimala qarşı mübarizəyə hazırlaşmaq» tezisləri öz əksini tapdı, «xalq kommunaları» və «mədəni inqilab» dövründə xalq komitələrinin dağıdılması zəmnində yaranmış «inqilab komitələri»nin mövcudluğu bir daha təsbit olundu. O biri tərəfdən isə iqtisadi inkişafın mövcud ehtiyacları nəzərə alınır, kommuna üzvlərinə həyətyanı sahələr verilməsi, təsərrüfat hesablı istehsalat vahidlərinin üstünlüyü, «hər kəsdən qabiliyyətinə, hər kəsə əməyinə görə» və s. prinsiplər konstitusiyada yer alırdı. Halbuki haqqında danışılan prinsiplər «dördlər» tərəfindən «burjua hüquqları» kimi dəyərləndirilirdi və onların əsas istəkləri bərabərləşdirilmə kursu idi.

«Dördlər» yenidən hücuma hazırlaşmaq təşəbbüsü etdilər. İlk olaraq ideoloji dayaq kimi «fəhlələrdən ibarət nəzəri dəstələr» yaratmaq və şəhərlərdəki xalq silahlı dəstələrini öz tərəflərinə çəkməklə hərbi qüvvəyə sahib olmaq istədilər. Lakin bunlar bir nəticə vermədi. Çünki, həmin dövrdə fəhlələrin özləri sosial durumdan çox narazı idilər. Hətta Quançjou şəhərinin fəhlələri 1975-ci ilin aprelində baş verən narazılıqlar zamanı partiyanın fəaliyyət kursunu tənqid etdilər, əmək haqqının artırılması tələbinin irəli sürdülər. Şəhər partiya komitəsi fəhlələrin bu hərəkətlərini «təftişçilik» adlandırdı və onlara qarşı güc tətbiq etdi. Fəhlələr buna kütləvi tətillərlə cavab verdilər. Quançjounun yüzdən çox müəssisəsi tətilə qoşuldu. İş barrikada döyüşlərinə qədər çatdı. Hərbçilərin bir hissəsi fəhlələrin tərəfinə keçdi. Hadisələrin geniş miqyas alması zəminində 1975-ci ilin 24 iyununda ÇKP MK və Dövlət Şurası bu məsələ haqqında xüsusi qərar qəbul etdi.

Belə hadisələr başqa əyalətlərdə də oldu. Kəndlilər həyətyanı sahələrin dağıdılmasına, köməkçi istehsalın və yerli bazarların bağlanmasına açıq etirazlarla və müqavimətlə cavab verirdilər.

Qeyd etmək lazımdır ki, Çjou En lay və Den Syao pin başda olmaqla ÇXR liderlərinin bir qismi də təsərrüfatın aparılmasında iqtisadi metodlardan imtina etməyin əleyhinə çıxır, xalq təsərrüfatını böhrana aparan ideoloji göstərişlərdən çəkinməyi tövsiyə edir, bərabərləşdirmə siyasətini və volüntar-amirlik üsulunu pisləyirdilər. 1975-ci ildə Çjou En layın ağır xəstələnməsi səbəbindən onun səlahiyyətlərini Den Syao pin yerinə yetirirdi.

1975-ci ilin noyabrında başlanan növbəti kampaniya «təhsil

sahəsində böyük mübahisə» adlanırdı. Kampaniyanın əsas məqsədi «mədəni inqilab»a tənqidi münasibət bəsləyənləri çəkindirmək idi. Həmin şəxslər Mao Dze-dun ideyalarına sədaqətsizlikdə ittiham olunurdular. 1976-cı ilin yanvarından bu kampaniya artıq ümumçin miqyasında keçirilirdi. Həmin vaxt ölkədə va partiyada böyük nüfuz və söz sahibi olan Çjou En lay vəfat etdi. Bu hadisə siyasi istiqrarsızlığı daha da artırdı. Çjou En layın və bir qədər əvvəl-1975-ci ilin dekabrında vəfat etmiş MK-nın sosial şöbəsinin müdiri Kan Şenin boşalmış yerlərini tutmaq uğrunda mübarizənin nəticələri ictimai təhlükəsizlik naziri Xua Qo fenin başçılıq etdiyi qruplaşmanın xeyrinə oldu. 1976-cı ilin 7 fevralında Dövlət Şurasının sədrinin səlahiyyətlərini icra etmək Xua Qo-fenə tapşırıldı. Hələ buna qədər isə onun müavini Van Dun sin MK-nın sosial şöbəsinin müdiri təyin edilmişdi.

Təbiidir ki, bütün bu siyasi qarşıdurmalar, hakimiyyət uğrunda mübarizə və qruplararası intriqalar bir tərəfdən, o biri tərəfdən isə xoş və firavan həyat haqqında verilən vədlərin boş söz olaraq qalması xalqın səbr kasasını doldururdu. Nəhayət, kütlələr yenidən hərəkətə gəldilər, kütləvi çıxışlara başladılar. Buna bəhanə 1976-cı ilin 25 martında «radikallara» yaxın qəzetdə Çjou En layın ünvanına tənqidi bir məqalənin çap edilməsi oldu. Buna cavab olaraq Nankində xalq küçələrə töküldü. Həmin məqaləni lənətləyən şüarlar söylənildi. Sonra çoxsaylı insan dəstələri inqilabçıların dəfn edildiyi Yuyxuabay qəbristanlığına yeridi və orada Çjou En layın xatirəsinə gül dəstələri qoyuldu. (Qeyd etmək lazımdır ki, Çjou En layın cəsədi öz vəsiyyətinə görə yandırılmış və külü səpələnmişdi-müəl.) Hadisələr Pekində də böyük əks-səda doğurdu. Xalq Tyananmen meydanına yeridi, burada da qəhrəmanların şərəfinə əklillər qoyuldu. Artıq 1976-cı ilin 3 arpelində «dördlər»ə qarşı açıq çıxışlar başladı. Aprelin 4-də Tyananmen meydanına 2 milyon nəfərdən çox nümayişçi çıxmış və «dördlər» əleyhinə şüarlar söylənmişdi. Şanxay, Nankin, Quançjou, Tyantszin və s. şəhərlər də nümayişlərə qatıldı.

Nümayişçilərə qarşı zor işlədildi,çoxlu ölənlər və yaralananlar oldu, minlərlə adam həbsə atıldı. Nümayişlər eyni zamanda Den Syao pinə qarşı «dördlər»in və onlara qoşulmuş ictimai təhlükəsizlik orqanları rəhbərlərinin qəti hücuma keçməsinə işarə oldu.

1976-cı il aprelin 7-də Mao Dze-dunun təklifi ilə Den Syao pin tutduğu bütün vəzifələrdən çıxarıldı. Xua Qo fen isə ÇKP MK

sədrinin birinci müavini və Dövlət Şurasının sədri təyin edildi. Dövlət və hökumət orqanlarında, orduda Den Syao pin tərəfdarı adı altında narazılara qarşı yeni repressiyalar aparıldı.

Nəhayət, bütün bunlardan sonra mübarizə indiyə kimi birlikdə fəaliyyət göstərən qüvvələrin öz arasında getməyə başladı. 1976-cı ilin 9 sentyabrında Mao Dze-dunun ölümü ilə tərəflərarası mübarizə həlledici mərhələyə girdi. Buna qədər isə tərəflər aşağıdakı qaydada yenidən qruplaşmışdılar: 1) «praqmatiklər»-köhnə, yaşlı partiya liderlərindən ibarət qrup 1975-1976-ci illərdə Çjou En lay, Çju De, Dun Biu və s. vəfat etdiyinə və Den syao pin hakimiyyətdən uzaqlaşdırıldığına görə xeyli zəifləmişdi; 2) «radikallar»-yeni gənc liderlər «mədəni inqilab» dövründə faktik olaraq iki yerə bölünmüş və hakimiyyətdə üstünlük uğrunda öz aralarında güclü mübarizə aparırdılar. Onların bir hissəsi Tsyan Tsinin, o biri hissəsi isə Xua Qo fenin ətrafında cəmləşmişdi; 3) hərbçi liderlər də «mədəni inqilab» dövründə xeyli dərəcədə mövqelərini itirmiş və zəifləmişdi. Yaranmış vəziyyət isə elə idi ki, Tsyan Tsinin başçılıq etdiyi qüvvələrin hakimiyyətə gələcəyi şübhə doğurmurdu. Odur ki, həm praqmatiklər, həm də hərbi liderlər bir blokda birləşmək imkanı haqqında düşünməli oldular. Təhlükəsizlik orqanlarının rəhbərləri də onlara qoşuldu.

Hakimiyyətə yiyələnmək üçün ilk təşəbbüsü Tsyan Tsin qrupu göstərdi. Onlar «Mao Dze-dunun göstərişləri» adlı bir sənəd hazırlayıb yerlərə göndərdilər. Hətta Pekin universitetinin tələbə və müəllimlərinə belə bir göstəriş də verildi ki, ÇKP MK-nın sədri vəzifəsini Tsyan Tsinə verilməsi haqqında tələblərlə çıxış etsinlər. 16 sentyabrda «Mao Dze-dunun göstərişləri» mətbuat vasitəsilə yayımlandı. Həmin «göstərişlər»dən istifadə edərək Tsyan Tsin qrupu rəqiblərini «əksinqilabi silahlı çevriliş»də ittiham etdi. Onlar 6 oktyabrda gizli yığıncaq keçirib, ayın 10-dək rəqibləri darmadağın etməyə qərar verdilər.

Ancaq Xua Qo-fenin başçılıq etdiyi siyasi liderlər və E Tsyan inin başçılıq etdiyi hərbçi qüvvələr bloku daha tədbirli və çevik hərəkət etdilər. 1976-cı ilin 6 oktyabrında «dördlər»in iki üzvü Van Xun ven və Çjan Çun tsyao ÇKP MK-nın Daimi komitəsinin iclasına dəvət olundu və yerindəcə həbs edildi. Pekin radiosu, Sinxua agentliyi və qəzet redaksiyaları üzərində hərbi nəzarət qoyuldu. «Dördlər»in digər üzvü Tsyan Tsin və Yan Ven yuan ev dustağı edildilər. 7

oktyabrda Siyasi Büronun iclası çağrıldı və orada görülən bütün tədbirlər bəyənildi. Xua Qo fen ÇKP MK-nın və MK hərbi şurasının sədri təyin edildi. Oktyabrın 21-i və 24-də Pekinin Tyananmen meydanında «dördlər bandası»nın: Van Xua ven, Çjan Çun tsyao, Tsyan Tsin və Yan Ven yuanın antipartiya qruplaşmasının darmadağın edilməsi münasibətilə təntənələr keçirildi. «Dördlər»in tərəfdarlarının hər hansı bir təşəbbüsünün qarşısını almaq məqsədilə 1976-cı ilin oktyabr-dekabr aylarında əyalətlərin çoxunda hərbi nəzarət rejimi yaradıldı.

## *Yeni inkişaf kursuna keçid. Dönüş dövrü*

«Dördlər»dən narazı olan qüvvələrin bir blokda birləşməsi onların qələbəsini təmin etdi. Lakin bu birlik qələbədən sonra ÇKP rəhbərliyinin yekdilliyinə gətirmədi. Doğrudur, ilk vaxtlar, xüsusilə 1976-cı ilin son aylarında partiya və dövlət rəhbərliyinin zahiri birliyi nəzərə çarpacaq dərəcədə idi. «Dördlər»in hakimiyyəti zəbt etmək cəhdlərini pisləməkdə, onların Çjou En lay və onun tərəfdarlarına qarşı gizli hücumlar təşkil etməsini aşkarlamaqda, ordudan öz niyyətləri üçün istifadə etməyə çalışmalarının zərərli nəticələrini xalqa çatdırmaqda yeni rəhbərlik eyni mövqedən çıxış edirdi. Onlar 1966-1976-cı illərdə baş verən bütün neqativ halları «dördlər»in adı ilə baqlamaqda da yekdil idilər. Lakin yeni rəhbərliyin qarşısında daha ciddi vəzifə-ölkədə yaranmış dərin sosial-iqtisadi və siyasi çətinliklərdən çıxmaq üçün yeni inkişaf kursu müəyyən etmək, ən azı mövcud kursa müəyyən korrektələr etmək vəzifəsi dururdu. Məhz bu məsələdə də fikirlərin haçalanması və qüvvələrin yenidən qruplaşması qaçılmaz oldu.

Bu işə açıq şəkildə Xua Qo fen başladı. Bütün rəsmi partiya sənədlərində özünü «Mao Dze-dunun ləyaqətli varisi, partiyanın və bütün ölkə xalqının müdrik rəhbəri» kimi təqdim edən Xua Qo fen daha çox təhlükəsizlik orqanları rəhbərlərinə, Pekin şəhər partiya komitəsi və Pekin böyük hərbi dairəsi rəhbərlərinə və Siyasi Büronun bir neçə üzvünə arxalanırdı. Mübarizə həm də Den Syao pinə qarşı yönəldilmişdi.

Den Syao pinin gündəliyə çıxması səbəbinə gəlincə, bu onunla bağlı idi ki, hakimiyyət uğrunda mübarizədə Xua Qo-fenlə birlikdə köhnə-yaşlı partiya liderləri «mədəni inqilab» dövründə

haqsız repressiyalara mə'ruz qalmış bir sıra siyasi xadimlərə bəraət verilməsini pisləyirdilər. Şübhəsiz ki, cəzalanmış şəxslər arasında Den Syao pinin xüsusi yeri vardı. İndi tərəfdarları nəinki bəraət vermək, həm də onun siyasi rəhbərliyə qaytarılmasını istəyirdilər. Məhz bu da blok qüvvələrinin parçalanmasına gətirdi.

1977-ci ilin fevralında ÇKP MK-ya bir məktub daxil oldu. O, Quançjou böyük hərbi dairəsi və Quandun əyalətinin partiya komitələri adından göndərilmişdi. Məktubda bildirilirdi: 1) Mao Dzedunun fəaliyyətindəki çatışmazlıqlar və səhvləri etiraf və tənqid etmək (bu dövrdə Xua Qo -fen isə Maonun özünə və göstərişlərinə «mütləq sədaqət» kursunu müdafiə edirdi); 2) qurultay və ya plenum çağrılmadan Xua Qo –fenin yüksək vəzifələri tutmasının şübhəli olması; 3) Mao Dze-dunla fikir müxtəlifliyinə görə cəzalandırılmış siyasi xadimlər - Den Syao pinə, Pen De xuayaya, Lu Şao tsiyə, hətta Lin Byaoya və s. bəraət verilməsi; 4) «üç qızıl bayraq» və «mədəni inqilab» kurslarının xətalarını gizlətməmək; 5) partiya, hərbi və dövlət orqanlarını yenidən təşkil etmək lazımdır. Rəsmi mətbuat və təbliğat orqanları deyilənlərə qılıncla cavab verməyə çağırdı. Lakin sonda Xua Qo fen və ətrafı geri çəkilmək zorunda qaldılar.

İyulda keçirilən partiya plenumunda hakimiyyət iki qrup arasında bölüşdürüldü: Xua Qo fen ÇKP MK-nın və ÇKP MK-nın hərbi şurasının sədri (Dövlət Şurasının sədri vəzifəsi də saxlanılırdı), Den Syao pin isə bütün vəzifələr üzrə onun müavini və üstəlik ordu baş qərargahının rəisi oldu. Plenumda Xua Qo fen, Den Syao pin və E Tsyan in geniş çıxış etdilər. Çıxışlar mətbuata çıxarılmadı.

Plenumun qərarına əsasən avqustda partiyanın XI qurultayı çağrıldı. Burada ilk dəfə olaraq partiya həyatında baş vermiş neqativ hallar haqqında tənqidi mülahizələr söylənildi. İqtisadi sahədə hələ Çjou En layın 1975-ci ildə söylədiyi fikir - XX əsrin sonunda «dörd modernləşdirilmə»: 1) kənd təsərrüfatı; 2) sənaye; 3) müdafiə; 4) elm və texnika sahələrində) yolu ilə Çini qüdrətli sosialist dövlətinə çevirmək vəzifəsi bir daha elan olunurdu. Qurultayın gedişi və qəbul olunmuş sənədlərin ruhunda bir barışıq istəyi var idi, hakimiyyətdə müxtəlif qrupların birliyinə, onların da xalqla birliyinə yönəli bir xətt hakim idi. Bir sözlə, ÇKP-dəki əsas qruplaşmaların bir araya gəlməsini təşkil etmək qurultayın ən başlıca yekunu oldu.

Qeyd etmək lazımdır ki, bu, zahirən belə idi. Əslində tərəflərdən hər biri öz mövqlərini möhkəmlətmək və gələcək mübarizəyə

hazırlaşmaq istəyirdi. Bu baxımdan köhnə partiya-inzibati və hərbi orqanların təmsilçilərinin mövqeyinin möhkəmlənməsi üçün daha əlverişli şərait yarandığını söyləmək olar. Birincisi, onlar qurultayda seçilən MK tərkibində daha çox yer aldılar; ikincisi, 1977-ci il boyunca «partiya sıralarının və iş stilinin qaydaya salınması» adı altında keçirilən kampaniyanın gedişində, eləcə də 1978-ci ilin yazınadək mərkəz və əyalət səviyyəsində partiya rəhbərlərinin dəyişdirilməsi prosesində Xua Qo fen qruplaşması tərəfdarlarının çox böyük hissəsi vəzifələrindən uzaqlaşdırıldı. Boşaldmış yerlərə əsasən repressiyalara məruz qalmış köhnə kadrlar gətirildi. Elə buna görə idi ki, artıq Mao Dze-dun və onun sadiq davamçısı Xua Qo fen ilə yanaşı Çjou En lay, Çju De, Çen İ, Xe Lun və s. kimi digər liderlərin də ünvanına təriflər söylənilirdi.

Bütün bunlar imkan verdi ki, köhnə-yaşlı partiya liderləri öz siyasi xətlərini açıq elan edə bilsinlər. İlk olaraq 1978-ci ilin fevralında partiya plenumunda, fevral-martda keçirilən Ümumçin Xalq Nümayəndələri Şurasının sessiyasında tərəflər arasındakı fikir ayrılığı üzə çıxdı. Bu da ondan ibarət idi ki, Xua Qofen «dörd modernləşdirmə» siyasətinin həyata keçirilməsini «Mao Dze-dunun göstərişləri» əsasında mümkün sayırdı, onun rəqibləri isə bundan sonra görüləcək hər bir işin əsasında Konstitusiya müddəalarının dayanmasını zəruri sayırdılar.

«Dörd modernləşdirmə» planının həyata keçirilməsinə başlanılması ilə ziyalılara olan münasibət də yaxşılığa doğru dəyişdi. Təbiidir ki, bu da ölkənin əqli-intelektual inkişafında ziyalıların fəallığına imkan yaradırdı.

Qeyd etmək lazımdır ki, ölkənin mövcud durumu həyatın digər sahələrində də dəyişikliklər yolunun labüdlüyünü tələb edirdi. Bu da, nəinki yeni inkişaf kursunun müəyyənləşməsinə tərəflərin müxtəlif şəkildə yanaşmasını üzə çıxardı, həm də tərəflərdən hər birinin haqlı olmasını sübut etmək üçün mübarizəni kəskinləşdirdi. Əsas mübahisə Mao Dze-dunun fəaliyyətinin necə qiymətləndirilməsi, onun görüşləri və müddəalarına necə münasibət göstərilməsi ətrafında baş verdi. 1978-ci ilin əvvəllərində partiya mətbuatında Den Syao pin və onun tərəfdarlarının mövqeyini əks etdirən «Təcrübə həqiqətin yeganə meyarıdır» adlı məqalə dərc olundu. Onun mahiyyəti bundan ibarət idi ki, hər şeyə, o cümlədən Mao Dze-duna da, onun müddəalarına da təcrübədən çıxış edərək qiymət vermək

lazımdır.

Praqmatizmin əleyhdarları bu fikrə qarşı çıxdılar və bildirdilər ki, Mao Dze-dun dövründə qəbul edilmiş hər bir göstəriş və müddəa mütləq yerinə yetirilməlidir, bu göstəriş və müddəalar mütləq əldə rəhbər tutulmalıdır.

Qeyd etmək lazımdır ki, istər ideolji mübahisələrdə, istərsə də partiya daxili digər müzakirələrdə praqmatiklər tədricən üstünlüyə yiyələnirdilər. Bunun sayəsində 1) orta və aşağı pillələrdə olan partiya kadrlarının təmizlənməsi zamanı daha çox Xua Qofen tərəfdarları vəzifələrdən uzaqlaşdırıldı; 2) onların yerinə əsasən bəraət qazanmış kadrlar gətirildi; 3) cəzalara məruz qalanlara bəraət verilməsi nəticəsində yüz minlərlə köhnə kadrlar fəal həyata qaytarıldı.

Az keçmədi ki, Xua Qofeni ifşa edən vərəqələr-datszıbao-yayılmağa başlandı. 1978-ci ilin aprelində Tyananmen hadisələrinin ikinci ildönümü dövründə bu kampaniya daha geniş miqyas aldı.

ÇKP MK-nın növbəti plenumunda(1978-ci il dekabr) keçmiş dövrün hadisələrinə qiymət verilməsi, gələcək siyasi kursun müəyyən edilməsi, fəaliyyətin təşkili, iqtisadiyyatda rəhbərlik və islahatlar istiqaməti və s. kimi məsələlərdə Den Syao pin və onun tərəfdarlarının mövqeləri qəbul edildi. Bu, əslində, Den Syao pinin qələbəsi idi, ölkənin inkişafında yeni dönüşün başlanması idi. Plenumda qərara alındı ki, «Lin Byao və «dördlərin» ifşa və tənqid edilməsi» üzrə kütləvi hərəkata son vermək və bütün fəaliyyəti «dörd modernləşdirmə» proqramının hayata keçirilməsinə yönəltmək lazımdır. Qəbul olunan qərarlardan birisi də Den Syao pinin 1975-ci ildəki fəaliyyətinə yüksək qiymət verilməsi oldu. Əslində bu, Den Syao pinin Mao Dze-dun tərəfindən hakimiyyətdən uzaqlaşdırılmasının pislənilməsi demək idi, Xua Qo fenin mövqelərinə böyük zərbə idi. Plenumda Tyananmen meydanı hadisələrinin «böyük kütləvi inqilabi hərəkat» kimi dəyərləndirilməsi, dolayısı yolla da olsa Mao Dze-dunun müəyyən tənqidə məruz qalması ciddi və cəsarətli hadisə oldu. Partiyanın MK Siyasi Bürosuna və mərkəzi orqanlara seçkilərdə də Den Syao pin tərəfdarları böyük üstünlük qazandılar. Bununla yanaşı Xua Qofen ÇKP-nin sədri olaraq vəzifəsini saxladı, tərəfdarlarından biri də sədrin müavini vəzifəsinə seçildi. Yerlərdə də «mədəni inqilab» dövründə partiya və dövlət vəzifələrinə gətirilmiş kadrlar arasında Xau Qofenin müdafiəçiləri az deyildi. Bütün bunlar imkan verirdi ki, Xua Qo fen mübarizəni davam etdirsin.

1979-cu ilin fevral-mart aylarında Vyetnam Sosialist Respublikası ilə baş verən silahlı münaqişə də buna xidmət edirdi, daha doğrusu, bu münaqişə daxili ziddiyyətləri zəiflətmək məqsədilə edilmişdi. Bəlli olduğu kimi, silahlı müdaxilənin başlanmasına Vyetnam qoşunlarının Kambocyaya girməsi bəhanə olmuşdu. ÇXR də öz növbəsində Vyetnama «öz yerini göstərmək» cəhdlərində bulunmuş və ona qarşı hərbi əməliyyatlara başlamışdı. Bir ay davam edən və hər iki tərəfdən xeyli canlı qüvvənin məhvinə gətirən bu əməliyyatlar çin qoşunlarının Şimali Vyetnam ərazilərindən geri çəkilməsi ilə başa çatdı.

1979-cu ilin iyun-iyul aylarında Ümümçin Xalq Nümayəndələri Şurası yaxın üç il (1979-1981-ci illər) üçün ölkə iqtisadiyyatının tənzimlənməsinə nail olmaq haqqında qərar qəbul etdi. Bununla bərabər siyasi sahədə Xua Qofenə qarşı yönəli kurs da davam etdirilirdi. Artıq bir sıra mətbuat orqanlarında «mədəni inqilab» kursu tənqid edilməyə başlanılmışdı. 1979-cu ilin 30 sentyabrında ÇXR-in otuz illiyinə həsr olunmuş təntənəli yığıncaqda E Tszyan inin mə'ruzəsində «mədəni inqilab» «ölkəni sarsıdan bir fəlakət», «parçalanma, xaos və qanlı terror» yaradan bir aksiya kimi qiymətləndirilirdi. Qeyd etmək lazımdır ki, həmin məruzə ÇKP MK-nın Plenumunda təsdiq edilmişdi.

ÇKP-nin siyasi xəttinin müəyyən edilməsi sahəsində ən mühüm hadisələrdən birisi də 1980-ci ilin yanvar-fevral aylarında keçirilən partiya işçilərinin müşavirəsi və MK-nın növbəti plenumunla qəbul edilən qərarlar oldu. Plenum partiya nizamnaməsində dəyişikliklər aparmaq, «Mao Dze- dunun ideyaları» və «mədəni inqilab»ın qiymətləndirilməsini yekunlaşdırmaq, Konstitusiyada dəyişikliklər etmək və s. üçün növbəti XII qurultayın çağrılmasına qərar verdi. Xua Qofenin tərəfdarı olan yeni «dördlük» Siyasi Bürodan çıxarıldı, MK katibliyi bərpa olundu. Xu Yao ban baş katib seçildi. Lu Şao tsi ölümündən sonra tam bəraət qazandı və s.

Xua Qofen fraksiyasına növbəti zərbə «Lin Byao və Tsyan Tsin əksinqilabi qruplaşmalarının əsas cinayətkarları» üzərində qurulan məhkəmə prosesində vuruldu. İttiham olunanların törətdiyi əməllərin aşkarlanması zəminində Xua Qofen də dolayısı ilə ciddi tənqidlərə məruz qaldı. Elə bunun nəticəsi idi ki, 1981-ci ilin iyununda çağrılan partiya plenumunda Xua Qofen tutduğu vəzifədən azad edildi. Den Syao pinin dəstəyi ilə Xu Yao ban partiyanın sədri

seçildi. Den Syao pin özü isə ÇKP MK-nın hərbi şurasının sədri oldu. Ümumiyyətlə isə, istər təşkilati, istərsə də siyasi planda Den syao pin xəttinin qələbəsi tam başa çatdı.

Plenumda qəbul olunmuş sənədlərdə partiyanın ÇXR-in yaradılmasından keçən dövr ərzindəki fəaliyyəti saf-çürük edildi. Müxtəlif siyasi kampaniyalar dövründə buraxılmış səhvlər etiraf olundu, bu və ya digər partiya xadiminin məruz qaldığı cəza və təqiblər pislənildi, Mao Dze-dunla bağlı tənqidi mülahizələr özünə yer tapdı. Lakin sonuncu ilə bağlı xüsusi olaraq qeyd edilirdi və bir daha təsdiq olunurdu ki, ÇKP tarixində «onun xidmətləri daha başlıca yer tutur, səhvləri isə ikinci dərəcəli» əhəmiyyət kəsb edir.

Plenumda kənd təsərrüfatının sürətli inkişafına dair qəbul edilmiş qərara əsasən kəndlilərin təsərrüfat fəallığına və məsuliyyətinə önəm verildi. Onların müxtəlif şərtlər və formalarda müstəqil təsərrüfat aparmalarına imkan yaradıldı. Dövlət sifarişindən artıq qalan məhsula sərəncam vermək hüququ kəndlilərə məxsus oldu. Bununla yanaşı torpaq və irriqasiya qurğuları dövlət mülkiyyətində qalırdı. Aparılan siyasət özünü doğrultdu. Kənd təsərrüfatında məhsuldarlıq və məhsul istehsalı yüksəldi. Məs.: 1980-ci ildə 320 mln t taxıl istehsal edilmişdisə, bu rəqəm 1984-cü ildə 407 mln t oldu. 1979-1986-cı illər ərzində kəndlilərin gəliri iki dəfəyə qədər yüksəldi.

Sənaye sahəsində islahatlara isə bəzi yerlərdə 1982-ci ildən, bütün ölkə üzrə isə 1984-cü ilin oktyabrında keçirilən partiya plenumunun qərarı ilə keçildi. İslahata görə ciddi mərkəzləşdirilmiş idarə sisteminə son qoyulur, təsərrüfatların özünüidarə hüquqları genişləndirilirdi. Ən başlıcası isə direktiv planlaşdırmanın hüdudları kifayət qədər daraldılırdı. O, 1986-cı ilin sonlarında istehsalın yalnız üçdə bir hissəsini əhatə edirdi və bu istehsal əsasən də dövlət ehtiyatları hesabına fəaliyyət göstərirdi. Qalan istehsal sahələri maddi ehtiyaclarını özü təmin edirdi, dövlət məhsulun müəyyən edilmiş qiymətlərlə satışını öz üzərinə götürürdü. Çoxlu istehsal sahələri də var idi ki, yalnız bazar üçün işləyirdi. Bu müəssisələr məhsulun texniki göstəricilərinə nəzarəti özləri edir və rəqabətə dözümlü olmağı başlıca fəaliyyət prinsipinə çevirirdilər.

Dövlət müəssisələri ilə yanaşı kooperativ və özəl təsərrüfat sahələri yaranırdı, dövlət mağazaları ilə yanaşı icarəyə götürülmüş mağazalar da işləyirdi. Bunlar bir tərəfdən sənaye istehsalının

artmasına, əmək məhsuldarlığının yüksəlməsinə səbəb olurdusa, o biri tərəfdən əhalinin işlə təmin olmaq imkanlarını genişləndirirdi. Yeni işə cəlb olunanların sayı 1987-ci ildə 70 mln nəfəri keçmişdi. Şəhər əhalisinin gəliri ilbəil artırdı, bu rəqəm 1987-ci ildə iki dəfə yüksəlmişdi.

Qeyd etmək lazımdır ki, işin gedişində islahatların səmərəliliyinə mane olan amillərin də üzə çıxması onların aradan qaldırılması haqqında düşünməyə məcbur edirdi. Maneələr sırasında avadanlıq və texnologiyanın köhnəlməsini, kadrların ixtisas səviyyəsinin aşağı olmasını, əmək məhsuldarlığının çox aşağı səviyyəsini ( bu rəqəm inkişaf etmiş kapitalist ölkələri ilə müqaisədə 10 dəfə az idi), məhsulun maya dəyərinin yuxarı olmasını və s. göstərmək olar.

İqtisadiyyatın yüksəldilməsi üçün xarici kapitalın cəlb olunmasına da xüsusi önəm verilirdi. Bu məqsədlə hətta dənizsahili rayonlarda xarici iş adamlarının çalışması üçün əlverişli xüsusi iqtisadi zonalar yaradıldı. Cənubi Çində dörd belə iqtisadi zonada xarici kapitalistlərin vəsaiti hesabına sənaye müəssisələri, xüsusilə də qeyri-istehsal müəssisələri inşa olunmuşdu. Buradakı dövlət müəssisələrində Çin qayda-qanunları, xaricilərə məxsus müəssisələrdə kredit verən ölkənin qaydaları, (ancaq Çin qanunları əsas tutulmaqla-müəl.) hakim idi. Qarışıq müəssisələr isə qarışıq qayda-qanunlar əsasında fəaliyyət göstərirdi, ancaq müəssisənin başında Çin nümayəndəsi dayanırdı.

Təbiidir ki, xüsusi iqtisadi zonaların yaradılmasında əsas məqsəd istehsalın təşkilində xarici təcrübəni mənimsəmək və qabaqcıl texnika əldə etmək idi. Bunu Çində «açıq siyasət» adlandırırdılar. «Açıq siyasət»in əsasında isə «bir ölkə-iki sistem» prinsipi dayanırdı. Bu prinsip Honq-Qonq (Syanqam) və Makao (Aomenya) ərazilərinin ÇXR-ə birləşdirilməsi, Tayvanın kontinental Çinlə bütövləşməsini asanlaşdırmaq məqsədi daşıyırdı.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatlar kifayət qədər uğurlu oldu, adam başına düşən illik gəlir iki dəfə artdı , bir sıra məhsul istehsalına (polad, sement, daş gömür, neft, elektrik avadanlıqları və s.) görə Çin dünyada ilk sıralara çıxdı. Lakin iqtisadi inkişafla yanaşı bir sıra sosial bəlaların da artdığı müşahidə olunurdu. Korrupsiya, vəzifədən süi-istifadə halları, siyasi islahatların keçirilməməsi və s. cəmiyyəti getdikcə daha çox narahat edirdi. Yenə də ilk addımı gənclər və tələbələr atmağa təşəbbüs etdilər. 1986-cı ilin

dekabr ayında ölkənin müxtəlif şəhərlərində onlar «Demokratiyasız islahat yoxdur!» şüarı ilə nümayiş və mitinqlərə çıxdılar. Dekabrın 16-da Şanxayda nümayişçi tələbə və gənclərlə polis arasında toqquşma baş verdi. Bu hadisə etirazın dinc axarından çıxmasına səbəb oldu. O biri tərəfdən isə nümayişçilərin sırasını daha da artırdı. Tələbələrin təqsirkarların cəzalandırılması tələbi hökumət nümayəndələri tərəfindən rədd edildikdə dekabrın 23-24-də Pekində küçələrə 5 mindən artıq nümayişçi çıxdı.

Tələbə və kənclər hərəkatının yüksəlişi islahatçılar və mühafizəkarlar arasında partiyadaxili mübarizəni də qızışdırdı və onunla nəticələndi ki, 1987-ci ilin 17 yanvarında ÇKP MK Siyasi Bürosunun iclası oldu, orada Xu Yao ban «burjua liberalizmi»nə həyan olmaqda ittiham edildi və vəzifədən götürüldü. Dövlət Şurasının baş naziri Çjao Tsziyan baş katib, Li Pen isə baş nazir oldu. Mühafizəkarların bu qələbəsi, təbiidir ki, islahatların qarşısını saxlaya bilmədi. İslahatların müəllifi Den Syao pin söz sahibi qalmaqla yanaşı, ölkədəki obyektiv şərtlər də onu tələb edirdi.

1987-ci ilin sentyabrında ÇKP-nin XIII qurultayı çağrıldı. Qurultay ölkənin sosial-iqtisadi və siyasi durumunu dərindən müzakirə etdi və sosializmin ilkin mərhələsi konsepsiyasını irəli sürdü. Ümumiyyətlə bildirildi ki, bu mərhələ həm keçid mərhələsindənyəni sosialist iqtisadiyyatının əsaslarının qurulması dövründən, həm də sosialist modernləşdirilməsinin başa çatması dövründən fərqlidir. Bu mərhələ üç dövrü əhatə edir və onun başa çatması üçün yüz il gərəkdir. 1980-1990-cı illəri əhatə edən birinci dövrdə ümumi daxili məhsul istehsalının iki dəfə artması və əhalinin ərzaq-geyim ehtiyaclarının təmin olunması nəzərdə tutulurdu. İkinci dövr 1990-2000-ci illəri əhatə etməli və bu zaman ümumi daxili məhsul istehsalı daha iki dəfə artmalı və orta yaşayış minimumuna nail olunmalı idi. XXI əsrin birinci yarısını əhatə edən üçüncü dövrdə, adambaşına daxili məhsul istehsalının səviyyəsi orta inkişaf etmiş ölkələrdəki səviyyəyə qaldırılmalı və sosialist modernləşdirilməsi başa çatdırılmalı idi.

Qurultayda o da qeyd olunurdu ki, sosialist əmtəə təsərrüfatının inkişafı ölkədə siyasi həyatın da sosialist demokratiyası əsasında qurulmasını tələb edir. Bu baxımdan bir sıra tədbirlər görüldü. Partiya və dövlət orqanlarının funksiyaları bir qədər məhdudlaşdırılırdı, idarəçilik və qanunvericilik sistemində bir sıra islahatlar aparıldı.

İstər iqtisadi, istərsə də siyasi islahatlar, təbiidir ki, xeyli

maddi və fiziki ehtiyatlar tələb edirdi. Bu da öz növbəsində cəmiyyətin müxtəlif təbəqələri arasında çətinliklər və gərginliklər yaradırdı. Maraqlı bir fakt kimi qeyd etmək istərdik ki, xüsusi iqtisadi zonalarda inkişafın daha sürətlə getməsi ölkənin digər rayonlarında ciddi müsbət əks-səda oyadırdı. Cəmiyyətin daha da demokratikləşdirilməsi, iqtisadi və siyasi islahatların daha da dərinləşdirilməsi tələbləri səslənməyə başlayırdı.

İlk olaraq açıq etiraza yenə də tələbələr başladı. Bu etiraz reaksiyasına 1989-cu ilin 15 aprelində Xu Yao banın ölümü bir bəhanə oldu. Pekində minlərlə gənclər küçələrə çıxdılar. Onlar siyasi həyatın demokratikləşdirilməsini və korrupsiyaya son qoyulmasını tələb edirdilər. Mitinq və nümayişlər dalğası az zamanda xeyli genişləndi. Ziyalılar, müəllimlər və tələbələr etiraz aksiyalarına qoşuldular. Onların liderləri ilə hökumət nümayəndələrinin danışıqları bir nəticə vermədi. Mayın 20-də Pekində hərbi vəziyyət elan edildi. Ordu qüvvələri nümayiş və mitinq iştirakçılarına qarşı güc tətbiq etdi və yalnız iyunun 3-4-də Tyananmen meydanını qanlı toqquşmalar zəmnində nümayişçilərdən azad edə bildi. Bu zaman xeyli ölən və yaralanan oldu, yüzlərlə tələbə məhbəslərə atıldı.

Pekində vəziyyət olduqca gərginləşmişdi. İyunun 5-də ÇKP MK və Dövlət Şurası xalqa müraciət etdi. Hərəkat, çətinliklə də olsa, yatırıldı. 1989-cu ilin 23-24 iyununda ÇKP MK-nın plenumu baş verən hadisələri ciddi təhlil etdi. MK-nın baş katibi Çjao Tszyan və digər yüksək vəzifə sahibləri işdən azad edildi. Şanxay partiya komitəsinin birinci katibi Tszyan Tsze min MK-nın baş katibi seçildi.

Qeyd etmək lazımdır ki, Çində baş verən hadisələr dünyanın bir sıra ölkələrinin diqqətini çəkdi, tələbələrə tutulan divana qarşı etiraz aksiyaları keçirildi. Bu hadisələr eyni zamanda göstərdi ki, Çin cəmiyyətində demokratik ruh yüksəlməkdədir və xalq partiya-dövlət aparatının diqtəsinə daha dözmək istəmir.

Siyasi şərait yalnız 1989-cu il oktyabr ayının əvvəllərində öz normal halına gəldi. Sentyabrın 29-da ÇXR-in yaradılmasının 40 illiyi münasibətilə keçirilən təntənəli yağıncaqda çıxış edən MK-nın baş katibi Tszyan Tsze min Tyananmendə baş verən tələbə çıxışlarını pislədi, «əksinqilabi qiyamın yatırılması» üçün görülən tədbirləri bəyəndi. O qeyd etdi ki, Çini yalnız sosializm xilas edə bilər. Bununla bərabər o qeyd edirdi ki, istər iqtisadi, istərsə də siyasi sahədə islahatları dərinləşdirmək zəruridir.

Elə bu səbəbdən də, noyabr ayında çağrılan partiya plenumunun əsas müzakirə mövzusu «islahatların daha da tənzim edilməsi, qaydaya salınması və dərinləşdirilməsi» oldu. Bu kursun 1992-ci ilə qədər davam etdirilməsi qərara alındı. Nəzərdə tutulurdu ki, bu müddət ərzində infilyasiya və bahalaşmanın səviyyəsini aşağı salmaq, izafi maliyyə xərclərinin ixtisarı yolu ilə, büdcədəki defisiti ləğv etmək, sənaye istehsalı tempini ildə 5-6% artırmaq zəminində tədricən ölkə iqtisadiyyatının tənzimlənməsinin mikrosistemi yaradılmalıdır. Plenumda Den Syao pinin tutduğu vəzifədən istefa verməsi haqqındakı xahişi də yerinə yetirildi. Baş katib Tszyan Tsze min eyni zamanda Hərbi Şuranın da sədri oldu.

Qeyd etmək lazımdır ki, 1989-cu ilin qanlı hadisələri cəmiyyətə çox güclü təsir göstərmişdi, xalq arasında partiyanın nüfuzunu sarsıtmış, partiya daxilində ixtilafları artırmışdı. Bir sıra rəhbər partiya işçiləri hərəkatı nəinki dəstəkləyir, həm də istiqamətləndirirdi. Bunlara son qoymaq üçün bir sıra tədbirlər görülməyə başlanıldı ki, onların da ən mühümü 1990-cı ildə əyalət, şəhər və qəza partiya komitələrinə yenidən seçkilər keçirilməsi idi. Məqsəd «rəhbərliyin əsl marksistlərin əlinə keçməsi»* idi. 1990-cı ilin mart plenumunda partiya rəhbərliyində kök salan bürokratizm, korrupsiya və s. neqativ halların artdığı etiraf olundu, kütlələrlə əlaqələri yenidən qurmaq və möhkəmləndirmək tədbirləri müzakirə edildi.

1990-cı ilin yazında ölkədə tuğyan edən rüşvətxorluq, dövlət əmlakını dağıtmaq, vəzifədən sui-istifadə etmək və s. hallara qarşı müharibəyə başlandı. «Burjua liberalizmi»nə qarşı hücum artdı. Qərbə üz tutmaq hallarına qarşı kütləvi əks-təbliğat aparılır, Çinin müstəsna bir fenomen olması var gücü ilə elmi və nəzəri cəhətdən əsaslandırılırdı. Partiya bütün gücünü patriotizm təbliğatına yönəltmişdi. Baş katib Tszyan Tsze minin aşağıdakı sözləri dövrün ruhunu çox simvolik xarakterizə edirdi: «müasir dövrdə Çində patriotizm və sosializm mahiyyət etibarilə eyni şeyi ehtiva edir. Patriotizm başlıca olaraq sosialist modernləşdirmə və sosialist quruculuğu işinin müdafiəsi üçün təzahür edir».

Lakin bütün bunlara baxmayaraq ölkəni islahat kursundan döndərmək mümkün olmadı. 1990-cı ilin ortalarında mərkəzləşdirilmiş dövlət idarəçiliyi və nəzarətini gücləndirməyə yönəli siyasət öz əhəmiyyətini faktik olaraq itirdi. Dekabrda keçirilən Plenumda əsas diqqət mərkəzində islahatların daha da dərinləşdirilməsi məsələsi

dururdu. Qəbul olunmuş yekun sənədində qeyd olunurdu ki, Çin səciyyəli sosializm qurmaq işində başlıca vəzifə islahatları dönmədən davam etdirmək və açıq xarici iqtisadi siyasət yeritməkdir.

## *Çin 90-cı illərdə*

*Daxili siyasət.* 1991-ci ilin avqustunda Sovetlər İttifaqının dağılması Çinin kommunist rəhbərliyini xeyli narahat etdi. Doğrudur, rəsmi sənədlərdə qeyd olunurdu ki, Çin başqa dövlətlərin daxili işinə qarışmır, baş vermiş hadisə sovet xalqının seçimidir və bu seçimə hörmət edilməlidir və s. və i.a. Lakin ÇKP-nin gizli sənədlərində Sov.İKP-nin siyasəti tənqid olunur, «yeni düşüncə» siyasəti sosializmin «dinc yolla» kapitalizmə keçməsi kimi qiymətləndirilirdi. Bu zəmində yenidən ideya- siyasi iş önə çəkildi, «burjua liberalizmi»nə hücumlar başladı, proletariat diktaturasını möhkəmləndirmək haqqında daha çox danışıldı. Çin rəhbərliyinin narahatlığı təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də özünü göstərirdi. Mühafizəkarların fəallaşması nəzərə çarpacaq dərəcədə artdı. Xüsusilə 1991-ci ilin sonlarından növbəti partiya qurultayına hazırlıq dövründə bu hal daha ciddi şəkil almışdı. 1992-ci ilin yanvarında yeni il məclisində ÇKP MK-nın baş katibi Tszyan Tsze min bəyan etdi ki, Çin nə Şərqi Avropanın, nə də Sovet İttifaqının arxasınca getməyəcəkdir və iqtisadi islahatları daha da dərinləşdirmək, iqtisadiyyatın «sosialist bazar tə-sərrüfatı»na keçirilməsi kursunu davam etdirəcəkdir. Bu kursun zəruriliyi oktyabrda keçirilən ÇKP XIV qurultayının sənədlərində başlıca xətt oldu. Belə bir ideyanın irəli sürülməsinə iqtisadiyyatın tənzim edilməsinə dair üçillik planın optimist nəticələri də güclü təsir etmişdir. 1992-ci ildə Çində ümumi məhsul istehsalı 12,8% yüksəlmişdi. Bu göstərici sənaye üzrə 20,8%, kənd təsərrüfatı üzrə 24,2%, qeyri-istehsal sahələri üzrə 24,8% idi. Xarici ticarət dövriyyəsi 22% artmışdı.

Açıq xarici iqtisadi siyasətin tətbiqində fəallıq var idi. 1992-ci ildə daxili rayonlardakı bir sıra şəhərlərə «açıq şəhərlər» statusu verildi. Xeyxe, Xunçun, Sunfenxe, Mancuriya kimi əyalətlər sərhədyanı iqtisadi əməkdaşlıq rayonları elan edildi. Honq-Qonq və Tayvanın iqtisadi təcrübəsi və imkanlarından istifadə üçün onların sahil və sərhəd rayonları ilə əməkdaşlığına hərtərəfli şərait yaradılırdı.

Xarici kapitalın ölkə iqtisadiyyatına cəlb edilməsi istiqamətində yeni addımlar atıldı. 1993-cü ildə bağlanan sazişlərə görə 180 mld dollar məbləğində alınan xarici sərmayə dövlət müəssisələrinin,

qarışıq və özəl xarici şirkətlərin yaradılması və inkişafına yönəldilmişdi. Ölkə iqtisadiyyatında xarici kapitalla işləyən müəssisələrin istehsal gücü önəmli yer tuturdu. Ölkənin ixrac məhsullarının dörddə biri onların payına düşürdü.

Bu dövrdə xarici iqtisadi əlaqələr sahəsində ÇXR böyük uğurlar qazanmışdır. Birincisi, iqtisadi planların yerinə yetirilməsində Finlandiya, Belçika, İngiltərə, Hollandiya, ABŞ, Kanada, Braziliya, Yeni Zellandiya və s. kimi ölkələr kömək göstərmiş, onunla işgüzar əlaqələri genişləndirmişlər. İkincisi, xarici ticarət əlaqələri genişlənirdi. Təkcə bu faktı söyləmək kifayətdir ki, 1994-cü ilin sonlarında ÇXR dünyanın 221 ticarət təşkilatı ilə əlaqə saxlayırdısa, bu rəqəm 1995-ci ildə 227-yə çatmışdı. ÇXR-in ticarət apardığı ölkələr içərisində Yaponiya birinci yeri tuturdu. İkinci yerdə isə ABŞ gəlirdi. 1979-cu ilin yanvarında diplomatik əlaqələrin yaradılmasının ardınca iyulda iki dövlət arasında ticarət əlaqələri haqqında saziş imzalandı. 1979-cu ildə ABŞ-Çin ticarətinin ümumi həcmi təqribən 2,5 mld dollar təşkil edirdisə, 1996-cı ildə 42,8 mld dollara çatdı. 1996-cı ilin noyabrında ÇXR sədri Tszyan Tsze min və ABŞ prezidenti B.Klintonun Manilada görüşlərindən sonra bu əlaqələr daha yüksək səviyyəyə qalxdı.

Bununla yanaşı ölkənin böyük valyuta ehtiyatı yaranırdı. 1992-ci ildə Çinin 105 mld dollar ehtiyatı var idi və bu baxımdan o, dünyada ikinci yerə çıxmışdı.

İqtisadi islahatlar kursunun belə uğuru onun müəlliflərinə 1993-cü ildə Ümumçin Xalq Nümayəndələri Şurasına seçkilərdə də qələbə gətirdi. Tszyan Tsze min ÇXR-in sədri seçildi. Tərəfdarları da öz əvvəlki vəzifələrini saxladı və yeni vəzifələr tutdular. Qeyd etmək lazımdır ki, bu hal 1998-ci il seçkilərində də təkrar olundu.

İqtisadi islahatlar kursunun davam etdirilməsi 9-cu beşillik (1996-2000-ci illər) planda da nəzərdə tutulmuşdur. Beşilliyin vəzifəsi kimi göstərilir ki, sənayeni inkişaf etdirmək, onun strukturunda dəyişikliklər etmək, yeni məhsul istehsalı, istehsal edilən məhsulların keyfiyyətini daha da artırmaq, xarici və daxili bazarın tələbatlarına cavab verə biləcək məhsullar istehsalına nail olmaq lazımdır.

Qeyd edək ki, 1997-ci ildə Den Syao pinin ölümündən sonra onun müəllifi olduğu siyasi və iqtisadi islahatlar kursu davam etdirilməkdədir. Bu barədə 1997-ci ilin sentyabrında keçirilən XV partiya qurultayı da öz həlledici qərarını verdi. Qəbul olunmuş sənədlərdə deyilirdi ki, XX əsrin sonuna Çində sosialist bazar iqtisadiyyatı siste-

minin yaranması əsasən başa çatdırılacaqdır. Həmin məqsədlə ÇXR 2000-ci ilədək olan müddətdə ölkənin iqtisadi sistemini dönmədən dəyişdirmə kursunu davam etdirəcəkdir, həm də başlıca diqqət müəssisələrin islahatına yönələcəkdir. Bu yenidən- qurma aşağıdakıları tələb edir: 1) müasir müəssisələr rejimi yaratmaq, mövcud dövlət müəssisələrini yenidən təşkil və inkişaf etdirmək; 2) açıq və tənzimlənən rəqabətli vahid bazar münasibətlərini fəal şəkildə formalaşdırmaq; 3) fərdi gəlirlərin bölüşdürülməsi sistemində rasional düzəlişlər etmək, sağlam sosial təminat sistemi yaratmaq; 4) hökumətin funksiyalarını yenidən qurmaq, makrotənzimləmə və makronəzarət sahəsində dövlətin imkanlarından daha tam və daha geniş istifadə etmək; 5) xarici əlaqələrin daha yüksək səviyyədə genişləndirilməsi işini artırmaq.Nəzərdə tutulurdu ki, sosialist bazar iqtisadiyyatı sisteminin formalaşması və müxtəlif sahələrdə islahatın fəaliyyətini təmin edə biləcək qanunvericilik fəaliyyətini də sürətləndirmək olduqca zəruridir. İslahatlarla əlaqədar bir cəhətə də toxunmaq istərdik: Den Syao pin və onun ardıcılları iqtisadi islahatların siyasi islahatlarla və demokratiyanın genişləndirilməsi ilə uzlaşdırılması zərurətini dəfələrlə elan etmələrinə baxmayaraq problem bu günə kimi öz həllini tam tapa bilmir. Doğrudur, rəsmi bəyanatlara görə siyasi islahatlar gündəlikdən çıxarılmayıb və çıxarıla da bilməz. Lakin o, iki mühüm şərtə uyğun olmalıdır: birincisi, ÇKP-nin aparıcı rolunun zəifləməsinə yönəlməməlidir; ikincisi, sosial və siyasi istiqrarın əsaslarını qəti olaraq sarsıtmamalıdır. Çox partiyalı sistem, parlament demokratiyası Çin sosializminə və milli xarakterə uyğun gəlməyən hal kimi dəyərləndirilir.

Ancaq bununla yanaşı son vaxtlarda kənd rayonlarında yerli idarə orqanlarına azad seçkilər keçirilir. Bu, gələcəkdə yaxşı nəticələr verə biləcək demokratik inkişafın ilk toxumları sayıla bilər.

Ümumiyyətlə isə 20 illik islahatlar dövründə ölkə kifayət qədər yeniləşdi, cəmiyyətdə müəyyən sağlamlaşma prosesi getdi. Yeni düşüncə sahibi olan insanlar nəsli yarandı ki, onlar keçmişin doqmalarından daha çox yeni dəyərlərə meyllidirlər. Təbiidir ki, modernləşdirilmənin bütün problemlərinin həllini, ən azı yaxın gələcəkdə, asanlıqla başa çatacağını söyləmək də çətindir. Amma ölkə bütün cəhətlərdən dəyişməkdədir, baxmayaraq ki, bazar iqtisadiyyatına yol, demokratiyaya gedən yoldan asandır. Təbiidir ki, bu yollar asan və ya çətin də olsa keçilməlidir, əks halda modernləşdirmə proqramının ta-

mamilə həyata keçiriləcəyini söyləmək mümkün olmayacaqdır.

*Xarici siyasət.* 90-cı illərdə ÇXR-in xarici siyasəti üçün xarakter cəhətlər partiya və dövlət sənədlərində əsasən aşağıdakı kimi ifadə olunur: ÇXR öz istiqlaliyyəti və müstəqilliyinə heç bir xələl gətirmədən bütün cəhdlərini sülhün təmin edilməsinə yönəldir; heç bir ittifaqa və bloka qoşulmur; həmsərhəd dövlətlərlə mehriban dostluq əlaqələrinə çalışır; hər bir ölkənin və hər bir xalqın öz daxili quruluşunu azad şəkildə seçməsinin tərəfdarıdır; dinc yanaşı yaşamağın beş prinsipini rəhbər tutur; hegemonluğun bütün formalarına qarşıdır və qəti şəkildə bildirir ki, özü də heç zaman hegemonluq yolunu tutmayacaqdır.

Bütün bunlardan əlavə ÇXR güc tətbiqinə əsaslanan siyasəti rədd etdiyini bildirir, ədalətli beynəlxalq iqtisadi və siyasi qanun-qaydalar uğrunda çıxış edir, silahların azadılmsı prosesində fəallıq göstərir. İnkişaf etməkdə olan ölkələrlə birlik və əməkdaşlıq ÇXR-in xarici siyasətinin məhək daşı olaraq qalmaqdadır, «Cənub-Cənub» xəttilə əməkdaşlığın inkişafı üçün mümkün olan hər şeyi etməyə çalışır.

Uzunmüddətli beynəlxalq sülh şəraitinin, xüsusilə isə əlverişli çevrənin təmin edilməsini ÇXR özünün xarici siyasətinin baş xətti elan etmişdir. Bu baxımdan misal gətirilə biləcək nümu-nələrin ən xarakteri Cənubi-Çin dənizindəki Nanşa (Spratli) adası ətrafında yaranmış ovqatdır. ÇXR bu məsələni olduqca təhlükəli və tez alovlana biləcək bir hal kimi dəyərləndirir. Bəlli olduğu kimi, Asiya-Sakit okean rayonunun bu hissəsi enerji ehtiyatları baxımından çox zəngindir və bu ehtiyatlara sahib olmaq üçün oradakı adalar uğrunda bölgə ölkələri arasında güclü mübarizə gedir. ÇXR bu məsələdə bir-birinə zidd iki prinsipə önəm verir: birincisi, ərazi bütövlüyünün qorunması, öz cənub sərhədlərinin təhlükəsizliyinin, dəniz hüquq və maraqlarının təmin edilməsi; ikincisi, Cənub-Şərqi Asiya ölkələri ilə mehriban qonşuluq və dostluq münasibətlərinin qorunub saxlanılması. ÇXR partiya və dövlət rəhbərliyi dəfələrlə bildirmişdir ki, bu rayonda neft-qaz ehtiyatlarının axtarılması və çıxarılması məsələsində bölgə dövlətlərinin heç biri ilə münaqişəyə girməyəcəkdir.

ÇXR Cənub-Şərqi Asiya ölkələri ilə daimi dialoqlara və məsləhətləşmələrə önəm verməkdədir. Bölgədə təhlükəsizliyin təmin edilməsi üçün ASEAN-ın imkanlarından geniş istifadə edir. Qeyd etmək lazımdır ki, ASEAN-ın təhlükəsizlik üzrə regional forumunun

iki sədrindən biri ÇXR-dir (digəri isə Filippindir). Ümumiyyətlə isə ASEAN və onun müxtəlif qayəli təşkilatları bölgədə qarşılıqlı anlaşma şəraiti yaradılmasında faydalı vasitə rolunu oynayır.

ÇXR qonşu dövlətlərlə normal münasibətlərin inkişaf etdirilməsini də diqqət mərkəzində saxlamaqdadır. O, iki Koreya dövlətinin birləşdirilməsi prosesində vasitəçi rolunu öz üzərinə götürmüşdür. 1996-cı ildən hər iki Koreya dövləti ilə münasibətlərini qaydaya salmış, həmin ilin mayında KXDR ilə iqtisadi və texnoloji əm-əkdaşlıq haqqında saziş imzalanmışdır.

ÇXR-in xarici siyasətinin ən böyük uğurlarından biri kimi Hindistanla keçmişdə daimi gərginliklə müşayət olunan münsibətlərin normal qaydaya salınmasıdır. 1996-cı ilin sonlarında ÇXR sədri Tszyan Tsze min Hindistana və Pakistana səfər etmişdir. Bu zaman ÇXR və Hindistan arasında hərbi sahədə və Çin-Hindistan sərhəd rayonlarında etimad tədbirləri haqqında saziş imzalandı, münasibətlərin normal axara düşdüyünə inam yarandı. Lakin 1998-ci ilin avqustunda Hindistanda nüvə sınaqlarının keçirilməsi münasibətlərin yenidən gərginləşməsinə və pisləşməsinə səbəb oldu.

Sovetlər Birliyinin dağılmasından sonra ÇXR-in şimal qonşularının sayı artmış oldu. Qeyd etmək lazımdır ki, ÇXR Sovet İttifaqının varisi kimi Rusiya Federasiyası ilə ənənəvi əlaqələrini saxlamaqla yanaşı yeni yaranmış dövlətləri də tanıdı və onlarla siyasi-diplomatik əlaqələr qurmağa başladı. 1991-ci ilin sentyabrında Estoniya, Latviya, Litva, 1992-ci ilin yanvarında Özbəkistan, Qazaxstan, Ukrayna, Tacikistan, Qırğızıstan, Türkmənistan, Belorusiya, Moldova, apreldə isə Azərbaycan və Ermənistan tanındı.

Nəhayət, ÇXR kiçik bir sahə istisna olmaqla Rusiya Federasiyası, Qazaxıstan, Qırğızıstan və Tacikistanla sərhəd problemlərini qaydaya sala bildi. Bu məqsədlə həmin dövlətlərə ÇXR arasında sərhəd rayonlarında hərbi sahədə etimad və sərhədyanı rayonlarda hərbi qüvvələrin ixtisar edilməsi haqqında sazişlər imzalandı. 1992-ci ildən başlayaraq ÇXR və RF arasında imzalanan bir sıra sənədlər nəticəsində ikitərəfli əməkdaşlıq və mütəmadi məsləhətləşmələrin mexanizmi formalaşdırılmışdır. Keçən müddət ərzində iki dövlət başçısının çoxsaylı görüşləri olmuşdur ki, onun yeddincisi 1999-cu ilin dekabrında RF prezidenti B.N.Yeltsinin Pekinə gəlməsidir. İmzalanan bütün rusçin sənədlərində bir qayda olaraq qeyd edilir ki, hər iki dövlət çoxqütblü dünyanın formalaşmasında, XXI əsrdə qarşılıqlı fəaliyyət gös-

tərməyə yönəli və əsasında etimad dayanan bərabərhüquqlü əməkdaşlıq qurulmasında birgə hərəkət edəcəklər. 2000-ci il iyunda prezident V.V.Putinin Pekinə səfəri zamanı ÇXR partiya və dövlət rəhbərləri ilə görüşlərdə haqqında danışılan prinsiplərə tərəflərin əməl edəcəkləri bir daha təsdiq edilmişdir.

ÇXR həm də belə bir siyasi xəttə üstünlük verir ki, ölkədə yeni iqtisadi strukturun uğurla qorunub başa çatdırılması üçün: birincisi, ona dinc və sülhsevər hüdudlar çərçivəsi lazımdır. Ona görə də tarixdən miras qalmış bir sıra mübahisəli məsələlərin həllində differensial yanaşma yolunu tutur. Məsələn, RF ilə danışıqlar vasitəsilə problemləri həll etməyə üstünlük verir, Yaponiya ilə problemlərin həllinin indiki şəraitdə mümkünsüzlüyünü görür və onları sonrakı dövrlərə saxlayır, Vyetnam və başqa ASEAN ölkələri ilə enerji ehtiyatlarının birgə istifadəsi sahəsində fikir ayrılıqlarının həllini ləngidir və s. Təbiidir ki, bu da ənənəvi çin etnopsixologiyasından irəli gəlir: güc çatmayan yerdə susmaq və məsələnin həlli prosesini unutmadan onu sonraya saxlamaq;

ikincisi, iqtisadi strukturun modernləşdirilməsi üçün lazım olan hər cür maddi və texniki yardım almaq məqsədilə Qərb dövlətləri ilə, ilk növbədə ABŞ-la daimi və sabit əlaqələrə cəhd göstərir. ÇXR dövlət və partiya rəhbərləri, eləcə də siyasətçilər belə hesab edirlər ki, hər hansı ölkədə, istər keçmiş Sovet İttifaqında, istər ÇXR və ya s. də sosializm necə qurulsa və necə inkişaf etsə də, o, kamil elmi-texniki tərəqqiyə, qabaqcıl texnikaya, yüksək texnologiyaya söykənməlidir. O da yalnız Qərb dövlətləri ilə əməkdaşlıqla mümkün ola bilər. Bu ideyanın zəmanəmizdə açıq-aşkar səslənməsi təsadüfi deyildir, başqa sözlə desək, ideya öz tarixi baxımından xeyli əvvəllərə aiddir, yalnız onun bu gün açıq-aşkar səslənməsi yenidir.

Bu baxımdan bir qədər ötən tarixə nəzər salaq. Hələ 40-cı illərdə hakimiyyətə gəlmək uğrunda savaşların aparıldığı dövrdə ÇKP liderləri Mao Dze-dun və Çjou En lay Yanan mağaralarında yerləşən qərargahda onlarla görüşə gələn ABŞ nümayəndələrini inandırmağa çalışırdılar ki, yalnız ABŞ Çin problemini həll edə bilər və onlar istərdilər ki, ABŞ-la dostluq etsinlər. Lakin, bəlli olduğu kimi, ABŞ bu təklifləri qəbul etmədi və 1949-cu ildə ÇXR-in yaradılması tarixindən ona qarşı yönəli bütün təsir və təzyiq vasitələrindən istifadə etməyə başladı, Tayvanda yerləşən Homindan hökumətinə dayaq oldu, hətta 50-ci illərin əvvəllərində Böyük Britaniyanın baş naziri A. Etli

təklif edəndə ki, Çin kommunistlərini də «Titoizm» yoluna istiqamətləndirmək lazımdır,-bu ideyanı da yaxına buraxmadı. Təbiidir ki, bu məsələdə Koreya savaşı da az rol oynamamışdı. ABŞ ÇXR-ə olan münasibətində yalnız «cəzalandırmaq» prinsipinə önəm verirdi. Əslində elə bu da ÇXR-in Sovet İttifaqı ilə müttəfiqliyinin yaranması və inkişafının ən azı başlıca səbəbi idi.

ABŞ ÇXR-in yaradılmasını və onun Sovetlər Birliyi ilə yaxınlaşmasını Uzaq Şərqdə və ümumiyyətlə Asiyada qüvvələr balansında öz əleyhinə olan bir amil kimi dəyərləndirirdi. Həqiqətən, istər Çində, istərsə digər Asiya dövlətlərində sosializm sisteminin bərqərar olması nəticəsində Sovetlər bu regionda xeyli dərəcədə möhkəmlənirdilər, ümumiyyətlə isə sosializm cəbhəsi güclü təsirə malik olurdu. ABŞ bu gücün təsirini azaltmaq üçün ÇXR-i beynəlxalq həyatdan mümkün olduğu qədər təcrid etmək kursu götürdü. Birincisi, özü ÇXR-i tanımadı; ikincisi, ÇXR-i tanıyan ölkələrə həmin andan bütün yardımları dayandırdı. Şübhəsiz ki, bu siyasət ÇXR tərəfindən adekvat cavab almaya bilməzdi. O da ABŞ-a qarşı düşmən mövqedə dayanırdı, hətta onunla yaxınlaşmağa cəhd göstərən müttəfiqlərinə də sərt təpki göstərirdi. İrəlidə məhz bu zəmində sovet-çin münasibətlərinin korlanması haqqında söyləmişdik.

İki dövlət arasında bu cür sərt qarşıdurma «mədəni inqilab»ın sonlarına qədər davam etdi. Artıq həmin arada istər ABŞ-ın, istərsə də ÇXR-in vəziyyətində mühüm dəyişikliklər baş verirdi. Birincisi, ÇXR dörd tərəfdən Sovet təzyiqi əhatəsinə salınmışdı; ikincisi, ÇXR-in inqilab ixrac etmək səyləri qonşu dövlətlər tərəfindən qorxu və ehtiyatla qarşılanır, çox dövlət onunla yaxınlaşmaqdan çəkinirdi. ÇXR getdikcə daha çox təklənirdi. Məhz belə bir şərtlər içərisində mövcudluğun çətinliyi ÇXR-i məcbur edirdi ki, xarici siyasətdə bir qədər yumşaqlıq yaratsın və Sovet İttifaqına qarşı çox alternativli bir xarici siyasət kursu yürütsün. Başqa sözlə, «inqilabi» xarakterli xarici siyasətdən «təkamül» xarakterli yola keçsin, yəni inqilab ixracı kursundan imtina etsin.

ÇXR-in yumşalma kursunun bir başqa səbəbi də onun tanınması ilə bağlı idi. Qərb dövlətləri arasında ÇXR-i tanımaq meyli güclənmiş, onun BMT üzvlüyü lehinə olanların da sayı artmaqda idi. Lakin sərt siyasət kursunun bu işə xeyli əngəllər törətdiyi hər il daha aydın dərk olunurdu. Bu səbəbdən də dünya birliyi sırasında öz yerini tutmaq istəyən ÇXR öz sərt siyasətini yumşaltmaya bilməzdi.

ÇXR-i narahat edən bir amil də II dünya müharibəsindən sonra çox sürətli iqtisadi inkişafa və potensiala malik olan Yaponiya, onun Sovetlərlə yaxın əlaqələr qurması idi. ÇXR bu amilə daim təhdid mənbəyi kimi baxırdı və onu zərərsizləşdirmək üçün düşünmək zorunda qalırdı. ÇXR tədricən bu qənaətə gəlirdi ki, həmin təhdiddən xilas olmağın yolu ABŞ-la yaxınlaşmaqdır. Çünki, Yaponiya regionda ABŞ-ın ən yaxşı müttəfiqidir və o, ABŞ təsiri altındadır. O biri tərəfdən Yaponiya ilə münasibətlərə girmək ÇXR üçün iqtisadi baxımdan da sərfəli olurdu.

Bütün bu səbəblər ÇXR-in xarici siyasətində ABŞ-la yaxınlaşma istəyinin gercəkləşməsi zərurətini yaradırdı.

O biri tərəfdən ABŞ-ın özündə də ÇXR-ə yönəli siyasət kursunda müəyyən dəyişiklik edilməsi haqqında danışılmağa başlanılırdı.

Bəlli olduğu kimi bu regionda ABŞ-ın sərt siyasəti Vyetnam müharibəsi ilə bağlı idi. 1960-cı ilin sonlarında başlayan bu müharibədə ABŞ əvvəlcə Cənubi Vyetnama hər cür yardımlar verir və dəstəkləyirdisə, 1965-ci ildən isə o, Şimali Vyetnamı bombardman etməklə savaşın iştirakçısına çevrildi. ABŞ-ın bu hərəkəti istər öz daxilində, istərsə də xaricdə çox narazılıqla qarşılandı. Hətta Fransa NATO-nun hərbi inteqrasiyasından ayrıldı. Belə bir şəraitdə 1968-ci ildə ABŞ-ın prezidenti vəzifəsinə R.Nikson gəldi. Bu o zaman idi ki, artıq ÇXR-də «mədəni inqilab» nəzarət altına alınır, sovet-çin münasibətlərindəki ixtilaflar hərbi müstəviyə keçirdi. 1969-cu ilin martında Ussuri çayında sovet-çin əskərləri arasında silahlı toqquşma olanda R.Niksonun prezidentliyindən iki ay keçirdi. Ümumiyyətlə, R.Nikson ÇXR-ə münasibətdə sələflərindən fərqli mövqe tuturdu. O, hələ 1967-ci ildə bildirirdi ki, «ABŞ siyasəti ÇXR-lə bağlı həqiqətləri tezliklə dərk etməlidir». Eyni zamanda onu da qeyd edirdi ki, Çin xalqının «böyük və inkişaf etmiş» bir millət olması üçün Çinin də «dəyişməsi» lazımdır.

ABŞ-ÇXR yaxınlaşması yolunda ilk addım olaraq ABŞ Vyentnamdakı canlı hərbi qüvvələrini çıxarmağa başladı. İkinci addım isə 1969-cu ilin ortalarında Sakit okean hövzəsi ölkələrini gəzərkən R.Niksonun burada ABŞ-ın yeni siyasətini bəyan etməsi oldu. Nikson doktrinası adlanan bu kursa görə, bundan sonra ABŞ regionda məhəlli münaqişələrə bilavasitə müdaxilə etməyəcək, Asiyadakı hərbi təəhhüdlərini azaldacaq, lakin baş verə biləcək hadisələrin inkişafını yaxından izləyəcək və mövcud müqavilələrdən irəli gələn təəh-

hüdlərinə sadiq qalacaqdır. Təbiidir ki, bütün bunlar ABŞ-ın bu regionda baş verən hadisələrdən bir qədər aralı durması demək idi, başqa sözlə ÇXR-ə dolayısı yolla da olsa fəaliyyət məkanı verilməsi idi.

Bunlardan əlavə, R.Nikson hökuməti bir sıra real tədbirlər də gördü. ABŞ vətəndaşlarına ÇXR-də turist səfərləri zamanı qeyri-ticarət əşyalarını almağa razılıq verildi. 1969-cu ilin dekabrında isə xaricdə fəaliyyət göstərən ABŞ şirkətlərinə ÇXR-lə ticarət aparmaq imkanı yaradıldı. ÇXR-ə rəsmi səyahətlər üçün pasport verilməsi, qeyri-strateji malların buraya idxalına icazə verilməsi və s. kimi tədbirlər iki dövlət arasındakı siyasətdə yumşalmanı kifayət həddə çatdırdı.

Artıq 1970-ci ilin fevralında R.Nikson konqresdə söyləyirdi ki, «çinlilər millətlərarası sistemdən kənarda qalması mümkünsüz olan bir millətdir».

ABŞ-ın bu səpkili cəhdləri ÇXR tərəfindən cavabsız qalmadı. İlk dəfə olaraq 1970-ci ilin aprelində Yaponiyada yarışlarda iştirak edən ABŞ stolüstü tennis komandası ÇXR-ə gəldi, burada bir sıra görüşlər keçirdi və ən başlıcası 14 apreldə baş nazir Çjou En lay tərəfindən qəbul edildi. Məhz həmin gün R. Nikson iyirmi ildən bəri Çinə qarşı davam edən ticarət embarqosunu aradan qaldırdı və ABŞ-a gəlmək istəyən çinlilərə icəzə verdi. Bununla da ABŞ və ÇXR arasında ilk ilişgilər quruldu.

Tarixi ədəbiyyatda «Pinq Ponq (tennis) diplomatiyası» adı ilə tanınan bu hadisələrdən sonra artıq rəsmi şəxslərin görüşləri başladı. 1971-ci ilin aprel və iyun aylarında ABŞ prezidentinin milli təhlükəsizlik işləri üzrə müşaviri H.Kissencer Pakistanın paytaxtı İslamabaddan bir neçə dəfə ÇXR-ə getmiş və baş nazir Çjou En lay ilə görüşlər keçirmişdir. Prezident R.Nikson ÇXR-ə dəvət olundu. Bu xəbər dünyada bomba kimi partladı. Çünki, illər idi ki, bu iki dövlət bir-birinin qatı düşməni kimi tanınırdı.

ABŞ-ÇXR yaxınlaşması ilk olaraq qonşuları çox narahat etdi. Buna cavab kimi avqustun 7-də Sovet İttifaqı və Hindistan müttəfiqlik mahiyyəti daşıyan bir «dostluq» müqaviləsi bağladılar.

ABŞ və ÇXR arasında münasibətlərin dinc xarakterə üz tutması öz ilk böyük bəhrəsini verdi: 1971-ci ilin 25 oktyabrında ÇXR BMT-yə üzv seçildi və Tayvan təmsilçisi oradan çıxarıldı. Doğrudur, Homindan Çininin BMT-də saxlanılmasına ABŞ cəhdlər göstərdi, ancaq nəticəsi olmadı. Əvəzində ABŞ onunla olan bütün münasibətlərini yüksək səviyyədə qoruyub saxladı.

Nəhayət, 1972-ci ilin 21-28 fevralında R.Nikson ÇXR-i ziyarət etdi. Ziyarətin sonunda Şanxayda imzalanan kommunikedə deyilirdi ki, müxtəlif fikir ayrılıqlarının mövcudluğuna baxmayaraq iki dövlət arasında yaxınlaşma və münasibətlərin normallaşdırılması arzu olunur. ÇXR tərəfi Vyetnam, Laos və Kambocanı bütünlüklə dəstəklədiyini, ABŞ tərəfi isə Cənub-Şərqi Asiya dövlətlərinin hər hansı birinin taleyini xarici müdaxilə olmadan özünün həll etməsini müdafiə etdiyini bildirdi. ÇXR tərəfi Tayvanın Çinin bir hissəsi olduğunu bildirmiş, dolayısı yolla bu ərazidən ABŞ qüvvələrinin çıxarılmasına işarə etmiş, ABŞ isə ÇXR-in bu fikrini qəbul etdiyini, lakin Tayvan məsələsinin sülh yolu ilə həll edilməsinin vacibliyini zəruri saymışdır. Hər iki tərəf bölgədə hər hansı dövlətin hegemonluq göstərməsinə qarşı olduqlarını bəyan etdilər.

Bununla bərabər iki dövlət arasında diplomatik münasibətlərin yaradılması məsələsi toxunulmaz olaraq qaldı. Həmin məsələyə bir də Mao Dze-dun və Çjou En layın ölümündən sonra Den Syao pinin liderlik uğrunda mübarizəsi dövründə qayıdıldı. 1979-cu ilin 1 yanvarında ABŞ və ÇXR arasında diplomatik münasibətlər yarandı.

ABŞ-la münasibətlərin normal məcraya girməsi ÇXR-Yaponiya münasibətlərinə təsir etdi. 1972-ci ilin 29 sentyabrında iki dövlət arasında 35 ildən bəri davam edən hərbi vəziyyətə son verən bir müqavilə imzalandı. Onun şərtlərinə görə Yaponiya ÇXR-i tanıyır, Tayvanla olan diplomatik münasibətlərini kəsir və adanı materik Çinin tərkib hissəsi sayırdı.

80-ci illərdə də ABŞ -ÇXR münasibətləri yüksələn xətt üzrə inkişaf etmiş və bu,ÇXR-in həm də Qərb dövlətləri ilə yaxın münasibətlər qurmasına güclü təkan vermişdir. ABŞ və Qərb dövlətləri ilə yaxınlaşma ÇXR-ə lazımı məbləğdə kapital gəlməsini təmin etmişdir. Doğrudur, 1984-cü il Tyananmen hadisələrindən sonra münasibətlərdə soyuqluq yaransa da 1992-ci ildən yeni bir canlanma özünü göstərməkdədir. Təkcə, 1998-ci ildə ölkəyə gələn sərmayənin həcmi 54 mld dollar olmuşdur, o vaxta qədər qoyulan sərmayə isə 200 mld dollara bərabər idi.

ÇXR-in ABŞ və Qərb dövlətləri ilə ticarət əlaqələri hər il genişlənir. 1998-ci ildə həmin ölkələrlə xarici ticarət dövriyyəsi 325 mld dollardan artıq olmuşdur.

Ümumiyyətlə, Den Syao pin dövründən başlayaraq ÇXR ABŞ-la münasibətdə belə bir prinsipə ardıcıl əməl etməyə çalışır:

«Etimad yaratmaq, mübahisələri azaltmaq, əməkdaşlıq etmək və münaqişələrdən qaçmaq».

Qeyd etmək lazımdır ki, 1999-cu ilin aprelində ÇXR-in baş naziri Çju Jun tszinin ABŞ-a ziyarəti zamanı iki ölkənin müxtəlif sahələrdəki əməkdaşlığının pesrpektivləri müzakirə edilmişdir. ABŞ tərəfi bir daha bəyan etmişdir ki, ÇXR-in dünya birliyində layiqli yer tutmasında maraqlıdır və bunun üçün lazım olan hər şeyi etməyə xüsusi önəm verir.

Bununla bərabər Tayvan məsələsi iki ölkə arasındakı münasibətlərin heç də həmişə rəvan getməsinə imkan vermir. Doğrudur, ÇXR-ABŞ münasibətləri yarandığı dövrdən bu günə kimi ÇXR hökuməti dəfələrlə bəyan etmişdir ki, o, ümummilli maraqlardan və ölkənin inkişaf perspektivindən çıxış edərək, tarixə hörmət prinsiplərini rəhbər tuturaq, reallığı, məsələyə işgüzar yanaşmağı və bütün tərəflərin maraqlarını nəzərə alaraq «sülh yolu ilə birləşmə, bir dövlət-iki quruluş» kursunu irəli sürür. Bu kursun əsas cəhətləri belədir: 1) Vahid Çin. Dünyada vahid Çin vardır, Tayvan Çinin ayrılmaz hissəsidir. Mərkəzi hökumət Pekində yerləşir; 2) İki quruluşun birgə mövcudluğu. Vahid Çin hüdudlarında ilkin şərt kimi materik Çində sosializm, Tayvanda kapitalizm eyni vaxtda mövcud olacaqdır və uzun müddət ərzində birgə inkişaf edəcəkdir; 3) Yüksək səviyyədə özünüidarə sistemi. Ölkənin birləşdirilməsindən sonra Tayvan xüsusi inzibati rayon olacaqdır və ən yüksək özünüidarəetmə hüquqlarından istifadə edəcəkdir; 4) Sülh danışıqları. Milli birləşmə dinc əsaslar və danışıqlar yolu ilə baş verəcəkdir.

ÇXR rəhbərliyi bu məqsədlə 1979-cu ilin 1 yanvarında xalqa müraciət etdi. Həmin vaxtdan iki Çin arasında şəxsi əlaqələr səviyyəsində başlayan münasibətlər 1992-ci ildən ictimai təşkilatlar və fondlar arası münasibətlər səviyyəsinə qədər yüksəldi. 1993-cü ildən ÇXR və Tayvanı təmsil edən ictimai təşkilatlar arasında rəsmi danışıqlar başlamışdır. 1995-ci ilin 30 yanvarında ÇXR-n sədri birləşmə prosesini sürətləndirmək üçün xalqa müraciət etdi və dinc yolla birləşmək üçün yeni təkliflər irəli sürdü.

Təbiidir ki, bir vətənin iki hissəsinin birləşməsi qaçılmazdır. Bu prosesin uğurla başa çatmasında, heç şübhəsiz, 1997-ci ilin 1 iyulunda Honq-Qonq, 1999-cu il dekabrın 20-də Aomenin üzərində ÇXR-in süveren hüquqlarının bərpa olunması təcrübəsi lazımi örnək ola bilər.

# MONQOLUSTAN

II dünya müharibəsi və onun nəticələri Monqolustanın tarixində iki önəmli cəhətdən böyük əhəmiyyət kəsb edir. Bunlardan birincisi mövcud dövlət status-kvosunun saxlanılması və bu dövlətin dünya birliyi tərəfindən tanınması, ikincisi isə müharibədən sonra onun yenidən qeydsiz-şərtsiz sovet nüfuz dairəsinə düşməsi və sözün həqiqi mənasında Sovet İttifaqının müstəmləkə əlavəsinə çevrilməsidir. Belə ki, Krım (Yalta) konfransında (fevral 1945-ci il) ABŞ, Böyük Britaniya və Sovet İttifaqının dövlət rəhbərləri qərara almışdılar ki, Sovetlərin Yaponiyaya qarşı hərbi əməliyyatlara başlamasının şərtləri sırasında MXR-in status-kvosunun saxlanılması da daxildir. Həm də buna Çinin razılığı da tələb olunurdu.

Qeyd etmək lazımdır ki, 1945-ci ilin avqustunda sovet ordusunun Zabaykal cəbhəsi hərbi qüvvələri çox çətinliklə Böyük Xinqan və Qobi səhrasından keçərkən onun sıralarında monqol süvari dəstələri də var idi. Onlar Şimal-Şərqi Çinin azad edilməsində sovet ordusu ilə birlikdə iştirak etdilər. 1945-ci ilin 14 avqustunda artıq Çin hökuməti də elan etdi ki, o, Xarici Monqolustanın \yəni MXR-in\ mövcud sərhədlər daxilində istiqlaliyyətini tanıyır və ilkin şərt olaraq monqol xalqı özünün istiqlala olan istəyini ümumi rəy sorğusu yolu ilə bildirməlidir. 1945-ci ilin 20 oktyabrında belə bir rəy sorğusu keçirildi və bu zaman monqol xalqı yekdilliklə mövcud dövlətin istiiqlaliyyətinə səs verdi. Rəy sorğusunun nəticələri Çin hökuməti tərəfindən tanındı. Bununla da, Monqolustan Xalq Respublikası ərazisinə Çin dövləti tərəfindən olan iddiaya son qoyuldu, monqol dövlətinin mövcudluğuna olan təhlükə aradan qaldırıldı. Qeyd etmək istərdik ki, 1950-ci ilin 14 fevralında imzalanan «Dostluq, ittifaq və qarşılıqlı yardım haqqında» Sovet-Çin müqaviləsində də tərəflər MXR-in tam müstəqilliyini bir daha qeyd edir və onunla ÇXR-in diplomatik əlaqələr qurmasının vacibliyini söyləyirdilər.

Lakin bu müstəqillik müharibədən sonra Sovet İttifaqı və MXR arasında bağlanan bir sıra müqavilə və sazişlər nəticəsində öz əhəmiyyətini itirir, formal xarakter daşıyır və MXR siyasi-ideoloji, hərbi-iqtisadi və s. baxımından tam sovet təsirinə məruz qalan bir ölkəyə çevrilirdi. 1946-cı ilin fevralında iki dövlət arasında «Dostluq və qarşılıqlı yardım haqqında» müqavilə imzalandı. Müqaviləyə görə tərəflər öhdəlik götürürdülər ki, onlardan birinə hücum olarsa o biri ona «hər cür, o, cümlədən hərbi kömək göstərəcəkdir». Əslində bu,

MXR-in sovetlərin hərbi bazasına çevrilməsini hüquqi baxımdan əsaslandırmaqdan başqa bir şey deyildi. Sonrakı dövrlərdə bir sıra müqavilə və sazişlər imzalandı. Bunlardan 1957-ci il ticarət müqaviləsini, 1966-cı il elmi-texniki əməkdaşlıq haqqında sazişi və «Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında» müqaviləni göstərmək olar. Həmin müqavilələr MXR-in həyatının bütün sahələrinə sovet nəzarətinin yaranmasını başa çatdırdı. MXR bütünlüklə Sovet İttifaqından asılı bir vəziyyətə düşdü.

Bununla yanaşı MXR-in beynəlxalq vəziyyətində müəyyən dəyişikliklər də baş verirdi. ÇXR yaranandan az sonra MXR ilə diplomatik əlaqələr qurdu. 1952-ci ildə onlar iqtisadi və mədəni əməkdaşlıq haqqında saziş bağladılar. 1960-cı ildə isə «Dostluq və əməkdaşlıq haqqında müqavilə» imzalandı. Sonuncu sənəd iki dövlət arasındakı münasibətlərin daha geniş sahələrini əhatə edirdi.

1948-1960-cı illərdə MXR Avropa və Asiyanın bütün sosialist dövlətləri və Kuba ilə diplomatik əlaqələr qurmuş, onlarla dostluq və əməkdaşlıq müqavilələri imzalamış, iqtisadi və mədəni əməkdaşlıq haqqında sazişlər bağlamışdı. 60-cı illərin mühüm hadisəsi kimi MXR-in 1961-ci ildə BMT-yə üzv qəbul olunmasını göstərmək olar. Bundan sonra böyük dövlətlərin MXR-i tanıması prosesi başlamışdır. 1963-cü ildə Böyük Britaniyanın MXR-i tanımasından 1983-cü ilədək sürən müddətdə onunla diplomatik münasibətlər quran dövlətlərin sayı xeyli artdı. Həmin ildə MXR artıq 92 dövlət ilə diplomatik əlaqələr saxlayırdı ki, onların 20-yə yaxını inkişaf etmiş dövlət idi. Nəhayət, 1987-ci ildə ABŞ da Monqolustan ilə diplomatik əlaqələr yaratdı.

Daxili vəziyyətə gəlincə, yuxarıda dediyimiz kimi, ölkə Sovet İttifaqından asılı idi. Həyatın bütün sahələrində «sovet təcrübəsi» kor-koranə tətbiq olunurdu. Həm də bunun əsası MXR-in yaranması dövründə qoyulmuşdu. Şəxsiyyətə pərəstiş, siyasi və hərbi xadimlərə, təsərrüfat rəhbərlərinə, keçmiş inqilabçılara, elm və mədəniyyət nümayəndələrinə, təbiidir ki, buna qədər məmləkətin var- dövlət və nüfuz baxımından üzdə olan bütün insanlarına, bütünlüklə öz xalqına qarşı kütləvi repressiyalar normal həyat tərzinə çevrilmişdi. 30-40-cı ilərdə məhz Stalin şəxsiyyətinə pərəstiş səviyyəsində Monqolustanda da Çoybalsan şəxsiyyətinə pərəstiş vardı. O, hakimiyyəti bütünlüklə öz əlində cəmləşdirmiş, avtoritar, totalitar və despotik bir rejim yaratmışdı. Kiçik bir narazılıq böyük qəddarlıqla və

amansızlıqla qarşılanırdı.

Bunlara baxmayaraq monqol xalqı bu despotik rejimə qarşı çıxmaq üçün həmişə özündə güc tapmışdır. 1932-ci ilin yazında baş verən etiraz hərəkatında, demək olar ki, ölkə əhalisinin çox böyük hissəsi iştirak etmişdi. Hərəkatın əsas qüvvələri aratlar idilər. Onlara din xadimləri-lamalar başçılıq edirdi. Aratlar zorakalıqla «artel»lərə və «kommuna»lara cəlb edilməyə qarşı çıxır, mal-qaranın əllərindən alınmasına müqavimət göstərirdilər. Onlar «kollektivləşmək» istəmədiyinə görə həbs edilmiş bütün aratların azad olunmasını tələb edirdilər. Üsyanı yatırmaq üçün nizami ordudan istifadə olundu, üsyançılar top və tank atəşləri ilə güllələbaran edildilər. Ələ keçənlərə ən amansız cəzalar verildi. Üsyan böyük bir qəddarlıqla yatırıldı.

1933-cü ildə MXİP MK-nın katibi J.Lhumba haqqında yalandan bir «cinayət» işi qaldırıldı. Neçə yüzlərlə insan bu «cinayət»də iştirak etməkdə təqsirli bilindi və onlara qarşı hər cür repressiv tədbirlər görüldü. 1937-ci ilin payızında (sentyabr ayında) kütləvi repressiyalar başladı. Bu dövrdə Monqolustan əhalisinin onda bir hissəsi (uşaqlar və gənclər istisna olunmaqla) edam, sürgün, katorqa, ömürlük həbs və s. kimi ən ağır cəzalara məruz qaldı. Yüz minlik din xadiminin-lamanın 70%-i məhv edildi, 700 monastır bağlandı, lama məbədləri «əks inqilab yuvaları» elan edildi və dağıdıldı. 1990-cı ildə Monqolustanda cəmisi bircə monastır fəaliyyət göstərirdi.

Sovet «təcrübəsi»nə uyğun olaraq qanlı divan və qəddarlıq hakim partiya liderlərinə qarşı da tətbiq olunurdu. Suxe-Batorun silahdaşları - baş ordu komandanı marşal Q.Demid, Kiçik Xalq Xuralının sədri D.Doqosan, baş nazir A.Amar, MXTP Mərkəzi Nəzarət Komissiyasının sədri Do Losol və onlarca digər partiya və dövlət xadimləri cismən məhv edildilər, çoxları həbslərə, katorqa və sürgünlərə atıldılar. MXİP-nin 1934-cü ildə keçirilmiş IX qurultayında seçilmiş Mərkəzi Komitə üzvlərinin üçdə ikisi, MK Rəyasət heyəti üzvlərinin beşdə dördü müxtəlif repressiv tədbirə məruz qaldı. «Xalq inqilabı» hərəkatında iştirak edən könüllü partizanların 15%-i, generalların isə 80%-i repressiya həyatını yaşamalı oldu. Orduda repressiyalar hətta Xalxın-Göldə hərbi əməliyyatlar dövründə də aparılırdı. Bunun nəticəsi idi ki, monqol ordusu yüksək səviyyəli zabitlərdən məhrum oldu, daxildən zəiflədi, yeni və naşı komandirlərin fərsizliyi ucbatından döyüşlərdə çox böyük itkilər verdi.

Elm, ədəbiyyat və mədəniyyət xadimləri də ən amansız cə-

zalara məruz qaldılar.

Zorakı idarəçilik sistemi iqtisadiyyatdan da yan keçməmişdir.Təkcə bircə faktı söyləmək kifayətdir ki, bu zorakılığın nəticələri haqqında müəyyən təsəvvür yaransın. Belə ki, 1940-cı ildə MXİP-nin X qurultayında bilavasitə Stalinin göstərişi ilə qərara alınmışdır ki, ölkədə mövcud olan mal-qaranın sayı 26 mln. başdan 1953-cü ildə 200 mln başa qaldırılsın. Bu dövrdə mal-qaranın başı nəinki artmadı, hətta 1953-cü ildə 23 mln-a endi və 1940-cı ildəkindən 3 mln baş da az oldu.

Dövlət idarəçiliyi partiya idarəçiliyi ilə əvəz olunmuşdu. Ən yaxşı halda dövlət idarəçiliyinin hər üç qanadı: idarəedici, qanunverici və məhkəmə sistemi bütünlüklə və tamamilə hakim partiyanın-MXİP-nin göstəriş və qərarlarını yerinə yetirməklə məşğul idi.

Təkpartiyalıq siyasi həyatın xarakter cəhətinə çevrilmişdi və ölkə həyatının bütün sahələri onun diqtəsi altında idi. Partiya isə faktik olaraq öz liderinin diqtəsilə, lider isə Sov.İKP-nin diqtəsi ilə idarə olunur və istiqamətləndirilirdi.

Belə bir vəziyyət 1984-cü ilin sonlarınadək davam etmişdir. Yəni volüntarizm istər Çoybalsanın (o, 1952-ci ildə ölmüşdür), istərsə də ondan sonra MXR hökumətinin başçısı və MXİP-nin baş katibi (o, bu vəzifəyə 1940-ci ildə seçilmişdir) vəzifələrini öz əlində cəmləşdirən Y.Sedenbalın idarəçilik üsulu idi. Bu da maraqlıdır ki, Y.Sedenbal MXİP MK-nın 1956-cı ilin aprelində və 1962-ci ilin yanvarında keçirilən plenumlarında Çoybalsanın şəxsiyyətinə pərəstişin tənqid və pislənməsinin təşkilatçısı olmuşdur. Nəhayət, ilk dəfə olaraq 1984-cü ilin dekabrında MXİP MK-nın V plenumunda partiya və dövlət rəhbərliyində hakim kəsilmiş bu volüntar idarəçilik üsulu açıq şəkildə tənqid olunmuşdur. Həm də bu o zaman idi ki, artıq Y.Sedenbalın partiya və hökumət rəhbərliyindən uzaqlaşdırılmasına (heç şübhəsiz ki, Moskva tərəfindən) hökm verilmişdi.

Ümumiyyətlə, Sovet İttifaqından edilən «sosializm idxalı» monqol cəmiyyətində çox səthi dəyişikliklər yarada bilmişdi, istər sosial, istər də fərdi həyatda dərin iz buraxa bilməmişdi, xalqın çox böyük hissəsinin sosial və siyasi şüuruna güclü təsir göstərmək mümkünsüz olmuşdur. Əksinə, ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında və inkişafında ziddiyyətləri daha da gücləndirmişdi. Belə ki, ölkədə bir tərəfdən sosialist istehsal formaları yaradılırdı, o biri tərəfdən əsas istehsal sahələrində, xüsusilə heyvandarlıqda arxaik

əmək alətləri və arxaik istehsal formaları qorunub saxlanılırdı, bir tərəfdən müasir elm, təhsil və tibb müəssisələri təsis edilirdi, o biri tərəfdən xalqın böyük çoxluğu öz qədim adətləri, ənənələri, düşüncələri və dini təsəvvürlərindən kənara çıxmırdı. Bir sözlə, Monqolustandakı sosializm quruculuğu cəmiyyətdə əsrlər boyunca yaranmış və formalaşmış təməlləri sarsıtdısa da, dağıda bilmədi. Bir qədər irəli gedərək qeyd etmək istərdik ki, «soyuq müharibə»nin başa çatması və Sovet nəzarətinin azacıq zəifləməsi nəticəsində monqol cəmiyyəti kommunist ideologiyası və prinsiplərindən imtina edən ilk sosialist ölkələ-rindən biri oldu. Artıq 1988-ci ilin sonlarında MXİP MK plenumunda aşağıdakı fikirlər səslənirdi: «Biz çox uzun zaman şagird olduq, öz müəllimlərimizə məhəbbətimizi izhar etməklə kifayətləndik. Köhnə qayda ilə yaşamaq olmaz! Başqasının təcrübəsini əzbərləmək isə mümkünsüzdür!» Monqolustan Rəssamlar ittifaqının sədri N.Sultemin çıxışındakı aşağıdaki sözlər sanki monqol cəmiyyətinin sosializmə olan reaksiyasının əks-sədasıdır: «Dostlar, siz bilirsiniz ki, mən Stalinin də və Çoybalsanın da, Brejnevin də və Sedenbalın da portretlərini çəkmişəm. 33 ildir ki, Rəssamlar İttifaqına başçılıq edirəm. Artıq bu kürsüyə dözə bilmirəm, həmkarlarım da mənə dözməkdə gücsüzdürlər. Mənim tövbəmi qəbul edin.. Məni azad edin!»

Bütün neqativ cəhətlərlə yanaşı ölkədə müharibədən sonra bir sıra işlərin görüldüyünü qeyd etməmək olmaz. Bu baxımdan ilk növbədə iqtisadi sahədə əldə edilmiş müyyən uğurları göstərmək lazımdır. Belə ki, müharibədən keçən sonrakı on illər ərzində heyvandarlıq məhsulları emalı sənayesində müəyyən irəliləyiş, dəri məmulatları istehsalı, ayaqqabı, yun emalı və s. üzrə sənaye sahələrinin yaradılması, tekstil fabrikaları, ərzaq məhsulları istehsal edən müəssilərin inşası bu qəbildən olan nəticələrdir. Bunların sayəsində, demək olar ki, müasir iqtisadiyyatın müəyyən təməllərini yaratmaq mümkün oldu. Obyektiv olaraq bunu da deməliyik ki, ölkədə inşası nəzərdə tutulan bütün lahiyələr bir qayda olaraq Sovet İttifaqının texniki və maliyyə yardımı ilə həyata keçirilirdi. İqtisadiyyatın qurulması da «sovet təcrübəsi» əsasında aparılırdı. MXİP qurultaylarında beşillik planlar qəbul edilir və bu beşilliklərin əsas vəzifələri müəyyənləşdirilirdi. Müharibədən sonra birinci beşillik partiyanın IX qurultayında qəbul olunmuşdu və o, 1948-1952-ci illəri əhatə edirdi. Onun əsas iqtisadi və siyasi vəzifələri daxili ehtiyat-

lardan maksimum istifadə edərək məhsuldar qüvvələri hərtərəfli inkişaf etdirmək, xalqın rifah halını yüksəltmək, zəhmətkeş kütlələrin siyasi şüurunun və əmək fəallğının artmasına nail olmaqdan ibarət idi.

II beşillik plan (1953-1957-ci illər) 1954-cü ilin dekabrında partiyanın XII qurultayında, bunun ardınca 1958-ci ildə XIII qurultayda üç illik (1958-1960-cı illər) plan qəbul edildi. Bütün planlarda sənayenin inkişaf etdirilməsi xüsusi vurğulanırdı. Təbiidir ki, bu məsələdə bir subyektivizm önəmli yer tuturdu. Bütün dünyaya «sübut» etmək ki, kapitalizmdən yan keçərək sosializm qurmaq olar və MXR bu baxımdan bir örnəkdir. Təssüflər olsun ki, sənayeləşdirmə üçün ən ilkin şərtlərin: daxili maliyyə ehtiyatlarının, sənaye fəhlə və mütəxəssislərinin olmadığı şərtlər içərisində bu vəzifəni yerinə yetirmək mümkünsüz idi. Odur ki, istər maliyyə, istərsə də texniki yardımlar Sovet İttifaqından alınır, istərsə də bütün fəhlə və mütəxəssisələr də oradan gətirilirdi. Elə buna görə idi ki, 30-cu illərdən başlayan sənayeləşdirmə kursu heç 60-cı illərin ortalarında da istənilən nəticələrə gətirə bilməmişdi. Əsas o sənaye sahələri yaradılırdı ki, o, Sovet İttifaqının iqtisadi və strateji maraqlarına uyğun gəlsin. Dağ-mədən sənayesinin genişləndirilməsi və modernləşdirilməsi, dəmir yollarının çəkilməsi, (sovet sərhədlərindən Çin sərhədlərinə qədər uzanan 1100 km-lik Trans Monqolustan dəmir yolu kimi), digər kommunikasiya sisteminin yaradılması, kənd təsərrüfatı məhsullarının ilkin və təkrar emal sənayesi sahələrinin yaradılması bu qəbildən olan tədbirlər idi. Ümumiyyətlə MXR həmin dövrdə bütöv bir sovet bazarı idi. Yeni sənaye müəssisələrinin inşasında o cəhətə xüsusi fikir verilirdi ki, onların köməyi ilə sovet iqtisadiyyatının ehtiyac duyduğu xammal və məhsullar Monqolustanın təbii və iqtisadi imkanları hesabına əldə edilsin.

Mühüm diqqət verilən sahələrdən birisi də aratların kollektivləşdirilməsi idi ki, bunun nəticələri haqqında bir qədər əvvəl bəhs edilmişdi. Sadəcə onu əlavə etmək istərdik ki, bu zorakı kollektivləşdirmə illərlə formalaşan ənənəvi təsərrüfat strukturunu dağıtdı və heyvandarlıq güclü bir reqresə məruz qaldı. 50-ci illərin sonralarında ölkədə 400 iri kənd təsərrüfatı birliyində arat təsərrüfatlarının 99,3%-i cəmləşmişdi.

Artıq 1960-cı ildə qəbul edilmiş MXR-in yeni konstitusiyası ölkəni «fəhlə sinfi ilə kooperativləşmiş aratların və zəhmətkeş

ziyalıların sosialist dövləti» adlandırırdı. 1981-ci ilin iyununda MXİP-nin XIV qurultayında qəbul edilən III beşilliyin əsas vəzifəsi isə sənayecə inkişaf etmiş sosialist ölkələrinin nailiyyətlərinə, onların təcrübə və hərtərəfli yardımına istinad edərək məhsuldar qüvvələrin inkişaf sürətini və sosializmin maddi-texniki bazasının yaradılması tempini artırmaqla MXR-in iqtisadiyyat və mədəniyyətini inkişaf etmiş sosialist ölkələrinin səviyyəsinə çatdırmaq idi.

Elan edilmiş planların və vəzifələrin yerinə yetirilməsi haqqında şişirdilirmiş məlumatlar təbliğinin yararsızlığı nəhayət ki, IV beşilliyin (1966-1970-ci illər) sonlarında dərk edilir. İlk dəfə olaraq bu barədə 1968-ci və 1970-ci illərdə keçirilmiş partiya plenumlarında qeyd edilir. İqtisadiyyatın idarə edilməsində iqtisadi metodların rolunun artmasından danışılır. Yenə də sovet «təcrübəsi»nə uyğun iqtisadi islahatlar keçirilməsinə cəhd göstərilir. 1976-1980-ci illəri əhatə edən VI beşillik planda məhz bu prinsiplər üzrə çalışmaq nəzərdə tutulurdu.

MXR 1962-ci ildə sosialist dövlətlərinin İqtisadi Əməkdaşlıq Şurasına üzv qəbul olunmuşdur. Bu da ölkə iqtisadiyyatının Sovet İttifaqı başda olmaqla digər sosialist dövlətlərinin iqtisadiyyatı ilə birtərəfli bağlanması və onun zəif bir əlavəsinə çevrilməsinin başa çatması kimi qiymətləndirilə bilər. Birgə sovet-monqol müəssisələri inşa edilməsi yolu ilə ölkə iqtisadiyyatı tamamilə sovet mütəxəssislərinin nəzarəti altına keçmiş oldu. Belə müəssisələr sırasına 1960-1975-ci illərdə 150 obyekt daxil idi. MXR-də 60 min sovet adamı çalışırdı.

Qeyd etmək lazımdır ki, bu əməkdaşlıq müsbət mənada müəyyən nəticələr vermişdi. Faydalı qazıntıların, o cümlədən Nalayxa və Darxan daş kömür, Erdenetdə mis-molibden filizi mədənlərinin istismarı inkişaf etmiş, sement, beton, kərpic, şüşə kimi inşaat materialları istehsalı yaradılmış, ağac məhsulları e'malı və evtikmə kombinatları inşa edilmişdi. 1960-cı ildən 1985-ci ilədək olan iyirmi beş il ərzində iqtisadiyyatın əsas fondları 12,5 dəfə (qeyd etmək lazımdır ki, ilkin göstəricilər olduqca kiçik idi), sənaye istehsalı 9 dəfədən çox, adambaşına düşən gəlir 1,6 dəfə artmışdır. Ölkədə ənənəvi köçəri maldarlıq təsərrüfatından çox sahəli iqtisadiyyata keçildi. Əkinçiliyə diqqət verildi, xam və istifadəsiz torpaqların yararlı hala salınması nəticəsində bir milyon hektar əkin sahəsi yaradıldı. Lakin bu, heç də həmişə düşünülmüş şəkildə aparılmamış

və Sovet «təcrübə»sinin kor-koranə təkrarı heç də hər yerdə rasional nəticələrə gətirməmişdir. Əkinçilik təsərrüfatları yaradılarkən iqlim şəraitinə fikir verilməmiş, hektarlarla otlaqlar məhv edilmiş, malqara lazım olan yem və hərəkət imkanlarından məhrum edilmişdir. Nəticədə mal-qaranın sayı ildən-ilə azalmış və əhalini ərzaqla təmin etmək çətinliyi yaranmışdı. 1985-ci ilin iyulunda MXİP MK plenumunda kənd təsərrüfatının inkişafına dair «məqsədyönlü proqram» qəbul edilsə də artıq kec idi. Bu dövrdə yuxarıda bizim qeyd etdiyimiz iqtisadi inkişaf haqqında göstəricilərin ancaq zahiri effektdən başqa bir şey olmadığı tədricən dərk edilirdi, monqol mətbuatında sovet-monqol əməkdaşlığının nöqsanlı cəhətlərindən bəhs edən fikirlər səslənirdi.

Təsərrüfatın idarə edilməsində bürokratizm və ştatların şişirdilməsi adi hala çevrilmişdi. Məsələn, təkcə 1989-cu ildə Ulan-Bator dəmir yolu birgə səhmdar müəssəsində çalışan 16 min işçidən 3 mini rəhbər vəzifədə çalışırdı. Müəssisənin fəaliyyət effekti isə çox böyük deyildi. Yük daşınmalarından əldə edilən gəlir oluqca aşağı idi. Kənd təsərrüfatı sahəsində dövlət təsərrüfat birliklərinin yaradılması prosesi heç də həmişə başa çatdırılmır və yarımçıq qalırdı. İnteqrasiya əlaqələri mexanizmi normal deyildi. Qiymət qoyma və hesablaşmalar sistemi qaydaya salınmamışdı. İdxal hər il ixrac məhsullarının dəyərinin üçdə biri qədər çox idi. Bütün bunlar iqtisadiyyatın səmərəliliyinə mənfi təsir göstərirdi.

Onu da deməliyik ki, hər hansı bir məsələnin həllində sovet mütəxəssislərinin fikrinə əsaslanılırdı. Bu da yerli kadrların inkişafını, müstəqil düşünmə və təşəbbüskarlığını boğurdu. Kadr işindəki ən böyük nöqsanlardan birisi də ali və orta ixtisas təhsilinin planlaşdırılmasına mexaniki yanaşma ilə bağlı olmuşdur. Ali və orta ixtisas müəssisələri 1971-ci ildən keçən üç beşillik ərzində 100 mindən çox kadr hazırlamışdı. Lakin onların çoxu humanitar sahələr üzrə idi. Mühəndis-texniki mütəxəssislər çatışmırdı. Ali məktəblər və orta ixtisas məktəbləri məzunları arasında nisbət, demək olar ki, bərabər idi. Halbuki, normal cəmiyyət üçün bu birin ikiyə və ya üçə nisbətində olmalıdır. Nəticədə, hər birinin hazırlanması üçün xeyli vəsait sərf edilmiş minlərlə mütəxəssis öz sahəsi üzrə çalışa bilmirdi, ya başqa bir iş tapır, ya da işsizə çevrilirdi. Ümumiyyətlə isə işsizlik Monqolustan üçün bir problemə çevrilmişdi. 1989-cu ildə əhalisi çox da böyük olmayan ölkədə 27 min işsiz var idisə, onların sayı sonrakı

iki il ərzində 60 min nəfərə çatmışdı. Artıq 1988-ci ildə MXR-in ali partiya və dövlət adamları da iqtisadi siyasətdəki buraxdığı səhv və nöqsanları etiraf etmək zorunda qaldılar. Həmin ilin sentyabrında keçirilən partiya plenumunda iqtisadiyyatdakı nöqsan və çətinliklərin başlıca səbəbindən biri kimi rəhbərliyin inzibati-amirlik metodu ilə işləməsi qeyd edilirdi.

Həm də bu o dövr idi ki, Sovet İttifaqında yenidənqurma və demokratiya kursu götürülmüşdü, Şərqi Avropa ölkələrində dərin dəyişikliklər prosesi başlamışdı. Təbiidir ki, bunlar sosialist cəbhəsinin bir həlqəsi kimi MXR-dən də yan keçə bilməzdi. 1989-cu ilin sonu-1990-cı ilin əvvəlində Monqolustanda güclü bir siyasi canlanma özünü göstərdi. İlk olaraq hakim və yeganə partiya - MXİP-yə alternativ ictimai-siyasi təşkilatlar meydana gəldi. Bunlardan Monqolustan Demokratik İttifaqı (MDİ), Sosial-demokrat hərəkatı (SDH), Yeni mütərəqqi ittifaq (YMİ), Monqol tələbələri ittifaqını (MTİ) göstərmək olar. 1989-cu ilin dekabrında Monqolustan Demokratik İttifaqı razılaşdırılmış mitinq keçirməyə nail oldu. Mitinq iştirakçıları tələb edirdilər ki, idarəetmənin inzibati-amirlik metoduna son qoyulsun, dövlət idarəsi və ictimai təşkilatlarda bürokratizmə hədd qoyulsun, rəhbər vəzifələrdə çalışanların sayı ixtisar edilsin, MXR tarixində baş vermiş neqativ hadisələr və momentlərə qiymət verilsin və s. Mitinqdə çıxış edənlər yenidənqurma prosesinin zəif getməsinə narazılıqlarını bildirdilər. Mitinqin müraciəti MXİP MK-nın plenumuna təqdim edildi. Plenum xalqın artan narazılığını səngitmək üçün bir sıra qərarlar qəbul etdi. Orada partiyanın ideoloji işinin geri qaldığı, yenidənqurmanın ləng getməsi, əhalinin vəziyyətinin yaxşılaşdırılması sahəsində aparılan işlərin lazımı səviyyədə olmaması və s.qeyd olunurdu. Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, bu nöqsanların qeyd edilməsi siyasi həyatın yeniləşməsi üçün kifayət deyildir. Artıq MDİ-nin 1990-cı ilin fevralında keçirilən qurultayında (burada 500 nəfərdən çox nümayəndə iştirak edirdi və onların da bir hissəsi MXİP və onun gənclər təşkilatlarının üzvləri idi) monqol xalqına müraciət qəbul edildi. Orada MXR Böyük Xalq Xuralının və MXİP MK-nın istefası tələb olunurdu. Qurultayda Monqolustan Demokratik Partiyası təsis edildi.

Qurultayın istefa tələbi martın əvvəlində yuxarıda adını çəkdiyimiz dörd təşkilatın hökumət evinə doğru təşkil etdiyi yürüş-mitinqdə yenə səsləndi. Dövlətin və hakim partiyanın ali rəhbərliyinə

qarşı etirazlar müxtəlif formalar aldı, daha da genişləndi və qüvvətləndi. Xalqın artan qəzəbi və tələbi qarşısında MXİP-nin rəhbərliyi geri çəkilməli oldu. 1990-cı ilin 12-15 martında MXİP MK plenumunda baş katib J.Batmunx başda olmaqla bütün Siyasi Büro üzvləri və katiblər istefaya göndərildi, MK-nın qocalmış 14 üzvü onun tərkibindən azad edildi. Uzun illər ərzində MXİP-yə və hökumətə başçılıq edən Y.Sedenbal partiya üzvlüyündən çıxarıldı və almış olduğu bütün mükafatlardan məhrum edildi. «Problemı mira i sosializma» jurnalında MXİP-i təmsil edən Q.Oçirbat MK-nın baş katibi seçildi. Ən mühüm qərarlardan biri də MXİP-nin dövlətdə rəhbər və itsiqamətverici rolundan imtina edilməsi idi. Həmin plenumda və sonrakı plenumlarda uzun illər ərzində aparılmış siyasət təhlil edildi, buraxılmış səhvlər tənqid olundu. Nəticədə Monqolustan o vaxta qədər mövcud olmuş ideoloji ehkamlardan, idarəetmənin inzibati-amirlik metodundan imtina etmək zorunda qaldı, dövlət tərəfindən tənzim olunan bazar münasibətlərinə keçməyin zəruriliyini qəbul etdi. İndiyə qədər ölkədə mövcud olan rejim avtoritarizmin Stalin metodunun kopiyası kimi dəyərləndirildi. Demokratik müxalifətin artan gücü qarşısında öz acizliyini dərk etmək istəməyən hakimiyyətin demokratik qüvvələrin koalisiyası ilə danışıqlar aparması üçün Böyük Xalq Xuralı nəzdində Məsləhətləşmə Şurası yaradıldı. 1990-cı ilin iyulunda seçkilər keçirildi. Doğrudur, seçkilərdə MXİP səslərin 80%-ni ala bildi və qalib gəldi. Lakin ilk dəfə idi ki, Demokratik, Sosial-demokrat, Milli tərəqqi, «Yaşıllar» və «Azad əmək» partiyaları Böyük Xalq Xuralında təmsil olunmaq haqqı qazandılar.

90-cı illərin əvvəllərindən Monqolustan həyatının bütün sahələrində yeni inkişaf kursu müəyyənləşdirildi. Bir tərəfli şəkildə sosializm cəbhəsinə meyl siyasətindən əl çəkildi. Ümumiyyətlə, bu dövrdə Monqolustanda baş verən hadisələr öz mahiyyətinə görə bir demokratik inqilab kimi xarakterizə edilə bilər və bu hərəkat Monqolustan tarixində keyfiyyətcə yeni bir mərhələnin əsasını qoydu.

Siyasi sahədə MXİP-in dövlət hakimiyyəti üzərində hegemonluğuna son qoyuldu, çoxpartiyalı sistemin formalaşması üçün hüquqi və təşkilati təməllər yarandı. Hakimiyyətin gələcəkdə bir partiyanın, kiçik bir qrupun və ya bir adamın əlində cəmlənməsinə imkan verən zəmin dağıdıldı, müxalifət partiyalarının fəaliyyətinə

normal şərait təmin edildi, senzura ləğv edildi.

Mərkəzi və yerli hakimiyyət sistemində aparılan islahatlar nəticəsində qanunverici, icra və məhkəmə orqanlarının ayrılmasına və müstəqil fəaliyyət göstərilməsinə keçildi. Prezidentlik təsis olundu və parlamentin hüquqları artırıldı, Monqolustan parlamentli prezident respublikası oldu.

MXİP kommunizm ideyalarına sədaqətdən əl çəkdi, özünü milli-demokratik partiya elan etdi. Bazar iqtisadiyyatına əsaslanan sosial-demokratik cəmiyyət qurulmasını özünün başlıca məqsədi saydı. Yeri gəlmişkən demək lazımdır ki, bu partiya 1996-cı ilədək öz hakim mövqeyini qoruyub saxladı.

Xarici siyasət sahəsində Monqolustan böyük dövlətlərlə, ilk növbədə qonşu dövlətlərlə çoxsahəli əlaqələr yaratdı. Rusiya Federasiyası və Çin Xalq Respublikası ilə bərabər səviyyədə dostluq münasibətlərini saxlamaq niyyətində olduğunu bəyan edən Monqolustan Yaponiya, İngiltərə, ABŞ, Avstraliya, Almaniya Federativ Respublikası, Türkiyə, İsveçrə və s. kimi ölkələrlə münasibətlərini xeyli dərəcədə fəallaşdırdı. Cənubi Koreya ilə diplomatik münasibətlər quruldu. Avropa İqtisadi Birliyi ilə rəsmi əlaqələrə girdi. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankı və s. ilə yaradılan əlaqələr Monqolustanın mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidini təmin etdi.

1992-ci ilin 13 yanvarında Monqolustan Böyük Xalq Xuralında ölkənin yeni Konstitusiyası qəbul edildi, yeni dövlət gerbi təsdiq olundu. Dövlətin rəsmi adı Monqolustan oldu.

Konstitusiyaya görə ölkədə bütün mülkiyyət formaları, o cümlədən xüsusi mülkiyyət normal hüquqi status aldı. Hələ buna qədər 1991-ci ildə özəlləşdirmə haqqında qanun qəbul edilmişdi. Yenə 1991-ci ilin yanvarından qiymətlərin liberallaşdırılması kursuna keçildi və o, 1993-cü ilin sonlarına qədər olan müddətdə başa çatdırıldı.

Monqolustan demokratik islahatları həyata keçirmək məqsədilə 1991-1995-ci illər ərzində xarici dövlətlərdən və beynəlxalq maliyə təşkilatlarından 1,2 mld dollar məbləğində güzəştli kredit və əvəzsiz kömək almışdır.

Qeyd etmək lazımdır ki, yeni iqtisadi sistemə keçid dövründə ölkə iqtisadiyyatı çox ciddi çətinliklərlə üzləşməli oldu. Lakin bütün bunlara baxmayaraq iqtisadiyyatın yenidən qurulmasında müəyyən

uğurlar qazanıldı.

İqtisadiyyatın başlıca sahəsi olan kənd təsərrüfatında (maddi nemətlər istehsalı sahəsində çalışanların 40%-i aqrar sahənin payına düşür, kənd təsərrüfatı üzrə ümumi məhsulun 70%-ni heyvandarlıq, 30%-ni taxılçılıq verir) 1991-1992-ci illərdə keçmiş dövlət kənd təsərrüfat birliklərinin yerində səhmdar şirkətlər yarandı. Onların sayı 400-ə yaxın idi. Ölkədə mal-qaranın özəlləşdirilməsi əsasən başa çatdırıldı. Həmin dövrdə kiçik və böyük sənaye müəssisələrinin də özəlləşdirilməsi genişləndirildi. Artıq 1992-ci ilin sonralarında ölkədə ümumi sənaye məhsulunun 43%-i, tikinti-montaj işlərinin 46%-i özəl bölmənin payına düşürdü. Özəl bölmə mal dövriyyəsinin 70%-ni təmin edirdi.

1990-cı illərin əvvəlindən Monqolustan «açıq qapılar» siyasəti yürüdür, mümkün olan bütün ölkələrlə ticarət əlaqələri yaradır və onu inkişaf etdirir. Yaponiya, Türkiyə, ABŞ, Almaniya, Koreya respublikası, Sinqapur, Honq-Qonq və s. kimi ölkələr Monqolustanın ticarət tərəfdaşlarıdır. Təkcə ABŞ-la olan xarici ticarət dövriyyəsi 1992-ci ildə 400 mln dollar həcmində olmuşdur. Bunun müqabilində Rusiya ilə ticarət əlaqələrinin səviyyəsi aşağı düşmüşdü.

Təhsil sistemində köklü dəyişikliklər aparılmışdır. İlk özəl tədris müəssisələri yaradılmış, universitet sistemi yenidən qurulmuşdur.

Bank və maliyə işinin tənzim edilməsi üçün 1991-ci ildə Banklar haqqında qanun, 1994-cü ildə isə Valyuta haqqında qanun, 1995-ci ildə Qiymətli kağızlar haqqında qanun qəbul edilmişdir. 1996-ci ildə dövlətə məxsus olan kommersiya bankları ləğv edilmiş, əvəzində dövlətə məxsus Əmanət bankı və Bərpa bankı təsis olunmuşdur.

İqtisadi sahədə daxili ümumi məhsulun artımına xüsusi diqqət verilirdi. Planda artım hər il üçün 5% həcmində nəzərdə tutulsa da, 1996-ci ildə bu rəqəm 3% olmuşdur.

1996-cı ildə xarici ticarət dövriyyəsi 861,2 mln dollar məbləğində olmuşdur. Həmin ildə Monqolustanın ticarət əlaqəsi saxladığı ölkələrin sayı 70-ə çatmışdı. Monqolustan 1996-ci ildən Dünya Ticarət Təşkilatının üzvüdür.

Ümumiyyətlə 1996-cı il monqol xalqının siyasi seçim ili oldu. Həmin ildə Monqolustan Milli-Demokrat partiyasının və Monqolustan Sosial-Demokrat partiyasının təşkil etdiyi Demokratik İttifaqların

koalisiyası parlament seçkilərini uddu. Bu koalisiyanın hakimiyyətdə olduğu 1996-2000-ci illərdə demokratiya və islahatlar kursu daha da dərinləşdi. Monqolustan regionun bir sıra problemlərinin həlli istiqamətində pozitiv mövqe tutmağa və fəal xarici siyasət yeritməyə başladı. Ölkənin istiqlaliyyəti və suverenliyinin qorunması və möhkəmləndirilməsi, bütün dövlətlərlə dostluq münasibətlərini qoruyub saxlamaq, dünya birliyində öz mövqeyini möhkəmlətmək və bütün bunların siyasi, iqtisadi və s. maraqların qarşılıqlı nəzərə alınması zəminində aparılması Monqolustan xarici siyasətinin təməl prinsipləri oldu.

2000-ci ilin iyununda keçirilən parlament seçkilərini yenidən MXİP uddu və Böyük Dövlət Xuralındakı 76 yerdən 72-nə sahib oldu. MXİP hökuməti də demokratların kursunu davam etdirir. Ümumiyyətlə bu partiya keyfiyyətcə yeniləşmiş və öz sələfindən köklü şəkildə fərqlənir.

Monqolustan dünya birliyinin üzvü kimi regionda və beynəlxalq problemlərin həllində fəal və pozitiv rol oynamağa çalışır. Onun xarici siyasətində üç başlıca istiqaməti qeyd etmək olar. Bunlardan birincisi, Rusiya Federasiyası, Çin Xalq Respublikası ilə dostluq münasibətlərini daha da möhkəmləndirmək, əvvəlki dövrlərdən fərqli olaraq bu ölkələrlə münasibətdə onlardan heç birinə üstünlük verməmək, onlarla balanslaşdırılmış əməkdaşlığa söykənərək dostluq münasibətlərini inkişaf etdirməkdir. 2000-ci il noyabrın ortalarında RF prezidenti V.Putinin Monqolustana səfəri zamanı prezident N.Baqabandi və digər dövlət adamları ilə görüşlərdə iki ölkə arasında münasibətlərin perspektivləri müzakirə edilmiş, iki tərəfli iqtisadi əməkdaşlığa önəm verilməsi imzalanan Ulan-Bator Bəyannaməsində xüsusi qeyd edilmişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, Monqolustan ilə bu ölkə arasında ciddi problemlər saxlanılmaqdadır. Rusiya Federasiyasında buryat və monqolların yaşaması və yaşadığı ərazi problemi, ÇXR-də isə İç Monqolustan problemi tərəflərdən hər birinə digərinə qarşı iddia qaldırmaq şansı verir. Bu baxımdan 60-cı illərdə, xüsusilə Çində «mədəni inqilab» dövründə bir sıra çinli dövlət və siyasət adamlarının Monqolustanın suverenliyi və ərazi bütövlüyünü təhdid edən bəyanatlarını, Monqolustan ərazilərində sovet qoşunlarının yerləşdirilməsi, bu ordu birləşmələrinin 1987-ci ildən başlayaraq oradan çıxarılması və prosesin 1992-ci ildə başa çatması və s.kimi faktları xatırlatmaq istərdik.

İkinci istiqamət Qərbin və Şərqin yüksək inkişaf etmiş ölkələrilə əlaqələri genişləndirmək, onların siyasi və maliyyə dəstəyinə nail olmaqdır. Bu ölkələrdən ABŞ, Yaponiya, AFR, Koreya respublikası, Türkiyə, Avstriya və s.kimi ölkələr ön sırada gəlirlər.

Üçüncü istiqamət Asiyada öz mövqeyini möhkəmlətmək, regiondakı siyasi və iqtisadi inteqrasiya prosesində konstruktiv iştiraka cəhd göstərməkdir.

Dördüncü istiqamət BMT və onun ayrı-ayrı təşkilatları, Dünya bankı, Beynəlxalq pul-kredit fondu, Asiya İnkişaf Bankı və s.kimi beynəlxalq maliyyə və iqtisadi təşkilatlar ilə əməkdaşlığı genişləndirməkdir.

Siyasətin uğurlu nəticəsi kimi söyləmək lazımdır ki, Monqolustan məhz həmin dövlətlərin köməyi ilə ölkənin vəziyyətinin yaxşılaşdırılması haqqında ümumi milli proqram hazırlamışdır və bu planın həyata keçirilməsi 2000-ci ilə qədər olan müddəti nəzərdə tutur.

# CƏNUB-ŞƏRQİ ASİYA ÖLKƏLƏRİ

Cənub-Şərqi Asiya ölkələrinin müharibədən sonrakı dövr tarixi regionun bütün ölkələri üçün xarakter olan şərtlər: 1) müstəmləkə sisteminin dağılması prosesi və 2) milli istiqlaliyyət uğrunda mübarizənin yüksəlişi zəminində inkişaf etmişdir. Lakin bununla yanaşı region dövlətlərinin inkişaf yolları müxtəlif olmuşdur.

Bunlardan birisi Şərqi Hind-Çin dövlətlərinin tutduğu yol olmuşdur.

Bəlli olduğu kimi ikinci dünya müharibəsindən sonra böyük və qalib dövlətlərdən Böyük Britaniya Orta Şərqdə, Fransa isə Hind-Çində yenidən öz mövqelərini bərpa etmək, müstəmləkə sistemini davam etdirmək istəyirdilər. Amma həmin dövrdə istər Orta Şərqdə, istərsə Hind-Çində və ümumiyyətlə bütün Cənub-Şərqi Asiyada mövcud şərtlər çox dəyişmişdi. Birincisi, müharibə ərəfəsi və dövründə region ölkələri Yaponiyanın işğalına məruz qalmışdılar. Yaponiya regionda Fransa ağalığına son qoymaq üçün sarı irqçiliyə önəm vermiş və onu qızışdırmışdı. Bu zəmində region xalqlarında müstəmləkə zülmünə qarşı bir mübarizə ruhu yaranmış və onların milli istiqlaliyyət istəkləri xeyli güclənmişdi. İkincisi, müttəfiq dövlətlər özləri də müharibə dövründə dəfələrlə bəyanatlar vermiş və bildirmişdilər ki, müharibə başa çatdıqdan sonra müstəmləkələrə istiqlaliyyət veriləcəkdir. Ən azı bu vədi dəfələrlə söyləmişdilər. Hətta ABŞ prezidenti Ruzvelt və Böyük Britaniyanın baş naziri Çörçill arasında olmuş görüşdən sonra 1941-ci ilin 14 avqustunda imzalanan «Atlantik Bəyannaməsi» adlı sənəddə bir daha bildirilirdi ki, bütün millətlərin özləri seçdikləri üsuli-idarə altında yaşama haqları vardır.

Bunlara görə də Fransa müharibədən sonra Hind-Çindəki keçmiş müstəmləkələrində - Vyetnam, Laos, Tayland və Kambocada yenidən möhkəmlənmək və əvvəlki müstəmləkə rejimini bərpa etməyə təşəbbüslər göstərmək istərkən bölgədə Fransaya qarşı istiqlal savaşı başlandı. Qeyd etmək istərdik ki, həmin ərəfədə regionun özündə də kifayət qədər istiqlal ovqatı və bunun uğrunda savaşa nəinki hazır, hətta başlayan qüvvələr var idi. Bu baxımdan ayrı-ayrı ölkələrin tarixinə müraciət edək.

# VYETNAM

## *İstiqlaliyyətin e'lan edilməsi*

İkinci dünya müharibəsi bitər-bitməz Vyetnam xalqının istiqlaliyyət uğrunda mübarizəsi kifayət qədər gücləndi və genişləndi. Mübarizəyə Xo Şi-minin rəhbərliyi altında Hind-Çin kommunist partiyası və onun 1941-ci ildə yaratmış olduğu Vyet-min cəmiyyəti (Vyetnam istiqlaliyyət cəmiyyəti-o, Vahid Milli Azadlıq Cəbhəsi kimi tanınırdı-müəl.) başçılıq edirdi. İstiqlal mübarizəsinin fəal silahlı müqavimət hərəkatı forması alması isə Yaponiyanın məğlubiyyətinin labüdlüyü bəlli olması dövrünə təsədüf edir. Vyet-minin başçılıq etdiyi qüvvələr yapon işğal rejiminə və fransız müstəmləkə zülmünə qarşı apardığı silahlı əməliyyatlar nəticəsində müəyyən əraziləri ələ keçirmişdilər. Artıq 1945-ci ilin avqustunda həmin ərazidə bir milyon nəfərdən çox əhali yaşayırdı, Mərkəzi və Cənubi Vyetnamda partizan dəstələrinə məxsus güclü və böyük bazalar var idi. Avqustun 16-da Vyet-min milli konqresi çağrıldı və müvəqqəti hökumət - Xo Şi min başda olmaqla Vyetnam Milli Azadlıq Komitəsinin yaradılması elan edildi. Mübarizəyə qalxmış xalq, avqustun 19-da Xanoyda, 23-də Xüedə, 25-də Sayqonda hakimiyyəti ələ keçirdi. Ölkənin çox böyük ərazisində hakimiyyətin dinc yolla üsyançı qüvvələrin əlinə keçməsi mümkün oldu. Bu uğurlardan ruhlanan Xo Şi min 1945-ci il sentyabrın 2-də Xanoyda Vyetnam Milli Azadlıq Komitəsi adından İstiqlal Bəyannaməsini və Demokratik Vyetnam Respublikasının yaradıldığını elan etdi. Avqust inqilabı adı almış bu hadisələr nəticəsində Vyetnam öz istiqlalına qovuşdu və müstəqil inkişaf etmək imkanına malik oldu.

Lakin baş verən hadisələr regionda marağı olan dövlətlər tərəfindən normal qarşılanmadı. Birinci olaraq Fransa Vyetnam Demokratik Respublikası yaradılması faktını qəbul etmədi. Fransızlar Vyetnam, Laos və Kambocanı birləşdirən Hind-Çin federasiyası planını irəli sürürdü. Təbiidir ki, bu planın baş tutmasına mövcud şərtlər imkan verə bilməzdi. İkinci tərəfdən Postdam konfransının qərarlarına görə Vyetnamda təslim olan yapon qüvvələrinin tərk-silah edilməsi və təhvil alınması üçün ölkənin şimal hissəsinə Çin (homindan), cənub hissəsinə isə ingilis hərbi qüvvələri yeridilməli idi.

Yaranmış vəziyyətdə homindançılar Vyetnamda hakimiyyətə çinpərəst qüvvələrin gətirilməsinə çalışırdı. İngilislər isə Fransanın Vyetnama yönəli iddialarını dəstəkləyirdilər və ölkədə müstəmləkə rejiminin bərpa edilməsinə tərəfdar idilər.

Belə şərtlər içərisində VDR öz varlığını qorumaq üçün mümkün olan bütün diplomatik və silahlı yollarla mübarizə aparmaq zorunda qalmışdı. Fransanın açıq silahlı müdaxiləsi vəziyyəti daha da ağırlaşdırmışdı. Belə ki, 1945-ci ilin 22-23 sentybrında fransız hərbi hissələri ingilislərin köməyi ilə Sayqonu tutdular , sonra isə ölkənin cənubundakı bir sıra şəhərlər və kommunikasiya vasitələri də ələ keçirildi. Bununla da Xo Şi Minin başçılıq etdiyi qüvvələrlə Fransa arasında çətin bir mübarizə başlamış oldu.

Fransanın hərəkətinə VDR hökuməti ölkənin cənubunda partizan hərəkatını gücləndirmək və genişləndirmək taktikası ilə cavab verdi. O biri tərəfdən isə bir sıra sosial və siyasi xarakteri tədbirlər də gördü. 1945-ci ilin noyabrında Hind-Çin Kommunist partiyası özünü rəsmən buraxılmış elan etdi və gizli iş şəraitinə keçdi. Ölkənin bütün qüvvələrini birləşdirən yeni bir təşkilat- Lyen Vyet cəmiyyəti yaradıldı. Buraya Vyet- minlə yanaşı digər mötədil təşkilatlar da daxil oldu. Şimali Vyetnamın tanınmış demokratik liderləri Milli Məclisin və VDR hökumətinin fəaliyyətində iştirak etməyə cəlb olundular. Mühüm siyasi tədbirlər sırasında yerli hakimiyyət orqanlarının-xalq sovetlərinin təşkili və 1946-cı ilin yanvarında Milli Məclisə seçkilərin keçirilməsini də qeyd etmək lazımdır. Yeni Milli Məclis noyabrda VDR-in konstitusiyasını qəbul etdi.

İqtisadi sahədə də bir sıra islahatlar keçirildi: can vergisi ləğv edildi, az imkanlı təsərrüfatçılar torpaq vergisindən azad olundu, mülkədarlardan icarəyə götürülmüş torpaqlar üçün ödənclər 25% azaldıldı, icma torpaqlarının yenidən bölüşdürüləcəyi bildirilirdi və s. Təbiidir ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd yoxsul təbəqələrin timsalında yeni yaranmış hakimiyyətin sosial bazasını genişləndirmək və möhkəmləndirmək idi.

Fransa ilə münasibətlərdə VDR hökuməti sazişçilik kursuna üstünlük verdi. Çünki, həmin dövrdə fransız qoşunları ölkənin həm şimalında, həm cənubunda üstün mövqelərə malik idi. Bununla yanaşı Fransanın da hələlik hərbi əməliyyatlardan qaçmaq taktikasını qeyd etmək lazımdır. Bunlar onunla nəticələndi ki, 1946-cı ilin martında

Fransa «VDR-i öz hökuməti, parlamenti, ordusu və maliyyəsi olan azad bir dövlət kimi» tanıdığını bildirdi. Bunun müqabilində VDR də Fransız İttifaqına girməyə və beş il müddətinə 15 minlik fransız əskərinin ölkədə qalmasına razı olduğunu bildirdi. 1946-cı ilin sentyabrında bağlanan sazişə görə isə Cənubi Vyetnamda hərbi əməliyyatların kəsilməsinə qərar verildi. Qeyd etmək lazımdır ki, həmin dövrdə orada millətçi qüvvələr «Koxinxin muxtar respublikası»nın yaradılmasını və dağlı xalqların «muxtariyyəti»ni e'lan etmişdilər. Bununla da ölkənin iki yerə bölünməsinin başlanğıcı qoyulmuşdu. Şübhəsiz ki, bunun da arxasında Fransa dayanırdı. Hər halda imzalanan yeni müqaviləyə görə Vyetnam-Fransa münasibətlərinin gələcəyi haqqında danışıqlar yenidən başlamalı və davam etdirilməli idi. Ancaq danışıqlar uğurlu bir nəticəyə gətirmədi və pozuldu. 19 dekabr 1946-cı ildə isə hərbi əməliyyatlar başlandı. Fransız hərbi birləşmələrinin hərbi-texniki üstünlüyü az vaxtda özünü göstərdi, 1947-1948-ci illərdə Xanoy və digər mühüm şəhər və əyalətlər tutuldu, bütün düzən əyalətlər fransızların nəzarəti altına keçdi. VDR hərbi qüvvələri və partizan dəstələri geri çəkilməyə məcbur oldular. Onlar əsasən ölkənin dağlıq şimali-şərq rayonlarında toparlanaraq müqaviməti yenidən təşkil etməyə başladılar. Buradan VDR qüvvələri aramsız olaraq düzən rayonlara bütün cəbhə boyu hücumlar edir, fransızlara bir an olsun belə rahatlıq vermirdilər.

Qeyd etmək lazımdır ki, hadisələrin belə bir axara düşməsi fransız müstəmləkəçilərinə VDR-ə qarşı bir alternativ yaratmaq imkanını xeyli artırdı. Onlar avqust hadisələri dövrü taxt-tacdan əl çəkmiş imperator Bao Day ilə danışıqlara başladılar. 1947-ci ildən aparılan danışıqlar 1949-cu ilin martında Vyetnam dövlətinin yaradıldığının elan edilməsi ilə sona çatmış oldu. Bu dövlətin Fransız İttifaqı daxilində istiqlaliyyəti tanınırdı. Bunun müqabilində Fransa ölkədə hərbi qüvvələr saxlamaq, hərbi bazalar yaratmaq hüququna malik idi, ölkənin siyasi və iqtisadi həyatında öz üstün mövqelərini saxlayırdı. Vyetnama kapital qoyuluşunda da fransızlara üstün vəd edilirdi.

1950-ci ilin martında ABŞ və Böyük Britaniya dövlətləri də yeni yaranmış Vyetnam dövlətini tanıdılar və ona hər cür iqtisadi və hərbi yardım göstərəcəklərini bildirdilər. Həqiqətən, deyilənlər bir vəd olaraq qalmadı, sonrakı dövrdə Vyetnama güclü hərbi və iqtisadi yardım göstərildi. Təkcə bu faktı göstərmək kifayətdir ki, Vyetnam

müharibəsinin sonlarında dövlət xərclərinin 80%-i ABŞ yardımının hesabına ödənilirdi.

Ümumiyyətlə isə 1950-ci ildən başlayaraq Vyetnam hadisələri Vyetnam-Fransa müstəvəsindən çıxdı, beynəlmiləl xarakter aldı, Qərb-Sovet müstəvəsinə keçdi. Bu vəziyyətin yaranması isə 1949-cu ildə Çində kommunist rejiminin qurulması sayəsində mümkün olmuşdur. Belə ki, birincisi, kommunist Çinin öz qonşusuna olan tarixi maraqlarını reallaşdırmaq istəkləri, ikincisi sovet-kommunist rejiminin regionda üstünlük uğrunda mübarizə cəhdləri, ən başlıcası isə, ÇXR vasitəsilə VDR-ə birbaşa yardım etmək imkanının yaranması Vyetnam-Fransa münaqişəsini beynəlmilləşdirən şərtlər oldu.

Məsələyə bir qədər geniş yanaşsaq görərik ki, məhz həmin dövrdən demokratik Qərb və sosialist Şərq ölkələri arasında qüvvələr nisbətində balans yaratmaq uğrunda Avropada gedən mübarizə və münaqişələr prosesi Asiyaya da keçirilmiş oldu. Daha doğrusu, Avropanın şərqində qazandığı uğurlardan ruhlanan Sovet İttifaqı indi də Uzaq Şərqdə öz fəaliyyətini canlandırmışdı. Çində kommunistlər qalib gəlmiş, sosialist rejimi yaradılırdı. Təbiidir ki, bu da Qərbin rahatsızlığına səbəb olmaya bilməzdi. Doğrudur, Asiyada Sovet İttifaqını və kommunist Çinini da rahatsız edən şərtlər yox deyildi. Bunlardan biri ABŞ-ın Cənubi Koreyada öz mövqelərini qoruyub saxlaya bilməsi, o birisi isə Fransanın Cənub-Şərqi Asiyada, yəni Hind-Çində öz mövqelərini saxlamaq cəhdləri və ABŞ-ın Fransanı dəstəkləməsi idi. Elə bu baxımdan da Uzaq Şərqdə iki blok arasında gedən mübarizənin iki güclü toqquşma sahəsi olmuşdur: 1) irəlidə haqqında bəhs etdiyimiz Koreya müharibəsi; 2) indi haqqında danışdığımız Hind-Çin, konkret olaraq Vyetnam müharibəsi.

1950-ci ilin 30 yanvarında Sovet İttifaqı, sonra isə onun müttəfiqləri, VDR-i tanıdılar. Bunun ardından isə VDR-ə hər cür iqtisadi və hərbi yardımlar edilməyə başlanıldı. Bu istiqamətdə ilk tədbir VDR hərbi qüvvələrinin ÇXR ilə həmsərhəd olan ərazilərdən fransızları uzaqlaşdırması oldu. Təbiidir ki, bu əməliyyatın icrasında VDR-ə qonşu ÇXR-in yardımını inkar etmək olmaz. Əməliyyatın ən mühüm əhəmiyyəti isə o oldu ki, VDR-in blokadası yarıldı, ona ÇXR və Sovet İttifaqı tərəfindən birbaşa kömək göstərilməsinə yol açıldı Həmin köməyin nəticəsi idi ki, VDR nəinki hərbi əməliyyatlar aparmaq iqtidarına gətirildi, həm də o, hərbi sursat istehsal edən müəssisələr və əhalini ərzaqla tə'min edən infrastruktur yaratdı. Bu

məqsədlə xırda təsərrüfat sahələri təşkil edildi. O əsasən silah, hərbi ləvazimat, dərman məhsulları, parça, kağız və s. istehsal edən xırda zavod-fabriklərdən və müxtəlif filiz-mədən müəssisələrindən ibarət idi. Bu müəssisələrdə minlərlə işçi çalışmağa başladı. Bir sıra dövlət strukturları yaradıldı. Bunlardan biri 1951-ci ildə Milli Bankın qurulmasıdır. Yaradılan bütün müəssisələr dövlətə məxsus idi və Milli Bank tərəfindən maliyyələşdirildi. Özəl fabrik-zavodların və fərdi emalatxanaların da fəaliyyəti dövlət tərəfindən dəstəklənirdi. VDR hakimiyyətininin xalq tərəfindən, xüsusilə də yoxsul kütlələr tərəfindən daha çox müdafiə olunmasında misilsiz rol oynamış tədbirlərdən birisi kimi fransız torpaq sahiblərinin, eləcə də VDR hakimiyyətinə qarşı çıxan yerli mülkədarların mülklərinin müsadirə edilməsi və müvəqqəti olaraq kəndlilərin istifadəsinə verilməsi idi.

İstər hərbi, istərsə beynəlxalq şəraitin VDR-in xeyrinə dəyişməsi Vyetnam kommunistlərini fəallaşdırdı. 1951-ci ilin fevralında Hind-Çin kommunist partiyasının II qurultayı çağrıldı. Partiya leqal fəaliyyətə keçdi. Bundan sonra o, Vyetnam Zəhmətkeşlər Partiyası adlanırdı. Laos və Kamboca kommunistləri də ayrılıb müstəqil fəaliyyətə başladılar. Onların üçü də öz dövlətlərinin ərazisində fransız müstəmləkəçilərinə qarşı mübarizəni başlıca vəzifə elan etdilər. 1953-cü ildə VDR Milli Məclisində qəbul olunan aqrar islahat haqqında qanuna görə vyetnamlı və fransız mülkədarların müsadirə edilmiş torpaqlarının kəndlilərə verilməsi nəzərdə tutulurdu.

Ümumiyyətlə 1950-1954-cü illər ərzində fransız hərbi komandanlığı VDR qüvvələrini darmadağın etmək məqsədilə bir sıra cəhdlər göstərdi. Bu da hər şeydən əvvəl onunla bağlı idi ki, həmin dövrdə Koreya müharibəsi kifayət qədər alovlanmışdı, Sovet İttifaqı və ÇXR öz əsas diqqətlərini bu müharibəyə verirdilər. VDR hələlik ikinci plana keçmişdi. Fəqət Koreya müharibəsi 1953-cü ilin iyulunda başa çatdıqdan sonra Sovet İttifaqı və ÇXR bütün diqqətlərini VDR-ə yönəltdilər, ona olan köməklərini artırdılar. Bu səbəbdən Koreya müharibəsi dövründə bir qədər səngimiş görünən Vyetnam müharibəsi 1953-cü ilin yazından etibarən yeni qüvvə ilə şiddətləndi. Müharibənin gedişini öz xeyrinə dəyişməyə çalışan fransızlar yenidən VDR hərbi qüvvələrinin güclü müqaviməti ilə qarşılaşırdı. Bu baxımdan ən böyük hadisə 1954-cü ilin 7 mayında baş verən döyüşlər oldu. Belə ki, fransız hərbi qüvvələrinin böyük bir qruplaşması Vyetnamın şimalında Dyenbyenfu adlı rayonda cəmləşərək Vyetnam

hərbi qüvvələrinə sarsıdıcı zərbə vurmaq istərkən olduqca acınacaqlı bir vəziyyətə düşdü: onlar mühasirəyə alındı və təslim olmaq zorunda qaldılar. Dyenbyenfu Vyetnam qüvvələri tərəfindən tutuldu.

### *Cenevrə müşavirəsi və nəticələri*

Dyenbyenfuda acınacaqlı məğlubiyyət Fransanın sülh danışıqlarına razılıq verməsi ilə sonunclandı. Çünki həmin dövrdə Hind-Çin məsələsi Qərb və Şərq blokları arasında böhranlı vəziyyət yaratmışdı.

1954-cü ilin aprel-may-iyun aylarında Cenevrədə beş böyük dövlətin: ABŞ, Sovet İttifaqı, Böyük Britaniya, ÇXR və Fransa xarici işlər nazirlərinin iştirakı ilə Hind-Çin regionunda sülhün bərpa edilməsi üzrə müşavirə çağrıldı. Müşavirənin sonunda, nəhayət ki, 8 ildən bəri davam edən müharibəyə son qoyulması haqqında sənəd imzalandı. Bu sənəddə nəzərdə tutulurdu ki, Vyetnam ərazisi müvəqqəti olaraq iki yerə bölünür və ayırıcı xətt 17-ci paralelin bir qədər cənubundan keçir. Ondan şimala doğru ərazidə VDR-in, cənuba doğru isə Fransanın və Bao Day hökumətinin hərbi qüvvələri yerləşə bilərdi. Vyetnamın birləşdirilməsi məsələsi isə bütün ölkədə 1956-cı ilin iyulunda keçirilməsi nəzərdə tutulan azad və demokratik seçkilərdə həll edilməli idi. Ümumiyyətlə isə Fransa Vyetnamla yanaşı Laos və Kambocadan da çəkilməli və bu ölkələr istiqlaliyyət almalı idilər.

Lakin Cenevrə müşavirəsinin real yekunu Vyetnamın 17-ci paralel üzrə iki yerə bölünməsi oldu. Şimalda VDR, Cənubda isə başqa bir Vyetnam dövləti saxlanıldı. Almaniya və Koreyadan sonra Vyetnam da II dünya müharibəsindən sonrakı dövrdə iki yerə bölünən üçüncü ölkə oldu.

Bu hadisələr region uğrunda bloklararası mübarizəyə yeni bir qüvvə verdi.

ABŞ Koreya müharibəsindən sonra Vyetnam savaşının nəticələrindən də regionda möhkəmlənmək üçün faydanlanmaq istəyirdi. O, burada başlamış olduğu müdafiə tədbirlərini daha da qüvvətləndirməyə qərar verdi. Bu müharibələr isə göstərirdi ki, onlar regional xarakterli olmayıb, beynəlxalq mahiyyət daşıyırlar, faktik olaraq yaranmış blokların Cənub-Şərqi Asiyada möhkəmlənmək uğrunda mübarizəsidir. ABŞ və müttəfiqlərinin fikrincə regionda cərəyan

edən hadisələr Sovet İttifaqı və digər kommunist ölkələrinin lehinə doğrudur. Bu bölgə kommunist blokunun nəzarəti altına düşəcəyi təqdirdə Sovet İttifaqı və ÇXR Sinqapura və Malakka boğazına hakim ola bilərdi. Bu da ABŞ üçün strateji əhəmiyyəti olan Sakit okean adalarının təhlükəsizliyini və qorunmasını çətinləşdirərdi.

Bütün bunlara görə ABŞ soyuq müharibə dövrünün mübarizə üsullarına uyğun olaraq regionda möhkəmlənmək üçün istiqlaliyyət qazanmış Tayland, Laos, Kamboca və Cənubi Vyetnama hərbi və iqtisadi yardımlarını artırırdı.

Bu sahədə görülmüş ən mühüm tədbir isə SEATO və ya Manila paktı deyilən Cənub-Şərqi Asiya Ölkələri Müqaviləsi Təşkilatının yaradılması oldu. Kollektiv müdafiə sistemi məqsədilə 1954-cü ilin sentyabrında qurulan bu təşkilat ABŞ, Böyük Britaniya və Fransa ilə yanaşı Avstraliya, Yeni Zelandiya, Filippinlər, Tayland və Pakistanı birləşdirdi. 1977-ci ilə qədər fəaliyyət göstərən bu təşkilatın başlıca vəzifəsi ona qoşulan Asiya dövlətləri və 21-ci paralelin cənubunda qalan Cənub-Qərbi Sakit okean adaları bölgəsini müdafiə etmək idi. Bu müdafiə bölgəsi İngiltərənin Sinqapurda yaratmış olduğu dəniz müdafiə sistemi ilə birləşirdi.

SEATO-nun yaranması ilə ABŞ və müttəfiqləri Sovet İttifaqı, ÇXR və müttəfiqlərini Avropanın Atlantik sahillərindən Sakit okean adalarına qədər uzanan bir ittifaqlar dövrəsinə almış oldular. Belə ki, bu ərəfədə 1952-ci ildə Türkiyə və Yunanıstan NATO-ya girmişdi, arada bir Yuqoslaviya qalmışdı. 1954-cu ilin 9 avqustunda Türkiyə, Yunanıstan və Yuqoslaviya arasında da Balkan İttifaqının imzalanması ilə bu boşluq da doldurulmuşdu.

Bundan sonra SEATO üzvlərinin təkidilə Fransa Cənubi Vyetnama olan bütün iddia və imtiyazlarından əl çəkdi. 1956-ci ildə fransız qoşunları Cənubi Vyetnamdan çıxarıldı. Ancaq buna qədər buraya ABŞ köməyi gəlməyə başlamışdı və Cənubi Vyetnamda ABŞ-ın təsiri və fəaliyyəti yüksələn istiqamət almışdı. Hələ 1955-ci ilin oktyabrında Cənubi Vyetnamda dövlət çevrilişi təşkil edilmiş, Fransa meylli Bao Day devrilmiş, Cənubi Vyetnam Respublikasının yaradıldığı e'lan edilmiş, onun da başçılığına amerikanpərəst Nqo Din Zyem gətirilmişdi. Cənubi Vyetnam Respublikasının müdafiə gücünü artırmaq üçün ABŞ bu ölkəyə hərbi yardımlar etməyə başlamış, burada ABŞ hərbi bazaları yaradılmış və Cəynubi Vyetnam ordusu ABŞ tə'limatçılarının köməyi ilə yenidən qurulmuş və silahlan-

dırılmışdı. Cənubi Vyetnamın kifayət qədər güclənməsindən sonra,- bu proses 1956-cı ilə qədər davam etmişdir,-ölkədə birtərəfli qaydada seçkilər keçirildi, Milli Məclis fəaliyyətə başladı, konstitusiya qəbul olundu. Bununla da Vyetnamın iki yerə bölünməsi hüquqi forma almış oldu və ölkə 20 il müddətində parçalanmış vəziyyətdə qaldı. İki Vyetnamın: Vyetnam Demokratik Respublikası və Vyetnam Respublikasının dünyanın siyasi xəritəsində yer alması bir reallıq oldu. Həm də bunlardan hər biri dünyada mövcud olan iki rejimdən və iki blokdan birinin vahid Vyetnam torpağında təmsilçisi oldu. İstər iqtisadi, istərsə də siyasi inkişaf baxımından həmin rejimlərin əlavəsi oldu.

## *Vyetnam Demokratik Respublikası*

Hind-Çin yarımadasında sülhün bərqərar olması VDR-in «sosializm» rejiminə keçməsi yolunda bəzi maniələri aradan qaldıra bildi. Bəlli olduğu kimi, bu inkişaf kursu Vyetnam Zəhmətkeşlər Partiyasının həmin dövr üçün elan etmiş olduğu proqram vəzifələri çərçivəsində aparılırdı. İlk görülən tədbirlər əsasən kənd təsərrüfatı ilə bağlıdı. Bu da təsadüfi deyildi, birincisi, Vyetnam əsasən kənd təsərrüfat ölkəsi idi; ikincisi, sənaye sahəsində, irəli də danışdığımız kimi, artıq müəyyən tədbirlərin görülməsinə başlanmışdı. Ən başlıcası isə, hərbi əməliyyatlar dövründə kənd təsərrüfatı çox böyük itkilərə məruz qalmış, faktik olaraq çökmüşdü: 1,5 min ha düyü sahələri bərbad hala düşmüş, on minlərlə baş mal-qara tələf olmuş, milyon nəfərdən çox insan ac-yalavac yaşamağa məhkum olmuşdu. Şəhərlərdə də vəziyyət ürək açan deyildi. Sənaye müəssisələrinin çoxu işləmirdi, yüz minlərlə işsiz var idi. Təbiidir ki, bütün bu problemlərin aradan qaldırılması böyük maliyyə xərcləri tələb edirdi. 1955-ci ilin iyulunda Sovet İttifaqına ziyarətə gələn Xo Şi minin başçılıq etdiyi VDR nümayəndə heyəti və sovet dövlət başçıları arasında bütün bu məsələlər barədə danışıqlar aparıldı və müfaviq müqavilələr imzalandı. VDR Sovet İttifaqından lazım olan hərbi və iqtisadi yardımların alınması hesabına az vaxt ərzində dağılmış bir sıra müəssisələri bərpa etdi, 25 əlavə yeni sənaye və kommunal xidməti müəssisəsi inşa edildi. 1955-1957-ci illər ərzində kənd təsərrüfatı və sənaye məhsulları istehsalı kifayət ölçüdə - 76% artırıldı və normaya salındı. Artıq 1957-ci ildə bu sahələrdəki

göstəricələr 1939-cu ilin səviyyəsinə çatmış idi.

Aqrar islahat aparılması prosesi başa çatdırıldı. Bu «sosialist» xarakterli islahat nəticəsində mülkədarlar öz torpaq sahələrindən məhrum edildi və iqtisadi həyatdan uzaqlaşdırıldı. Kənd təsərrüfatında yaranan dövlət bölməsinin ilk fəaliyyət forması «qarşılıqlı əmək yardımı» qrupları oldu. Dövlət bölməsi başqa sahələrdə də : xarici ticarət, bank işi, dəmir yol nəqliyyatı, rabitə müəssisələri və s.də həlledici rol oynamağa başladı. Sənaye və ticarət sahələrində də dövlət bölməsi xüsusi kapitalın ümumi çəkisini çox böyük ölçüdə sıxışdırırdı.

1958-ci ili isə Şimali Vyetnamda geniş sosialist yenidən qurmasının başlanğıcı hesab etmək olar. Belə ki, həmin ildən etibarən Vyetnam Zəhmətkeşlər Partiyası və VDR hökuməti iqtisadiyyatın bütün sahələrində sosialist təsərrüfat formalarının yaradılması istiqaməti götürmüşdü. Heç şübhəsiz ki, bu xəttin həyata keçirilməsi üsulu sovet və çin sosializm qurmaq təcrübəsinə əsaslanırdı. Burada da ağır sənaye sahələrinin, ilk olaraq metallurgiya və maşınqayırma sənayesinin yaradılmasını sosializm qurmağın zəmini hesab edir və əsas diqqəti ona yönəltmişdilər. Kənd təsərrüfatının kooperativləşdirilməsi yerli şərtlər nəzərə alınmadan çox sürətlə aparılırdı. Artıq 1960-cı ilin sonlarında yaradılan kooperativlər kəndlilərin 76%-ni özündə birləşdirdi. Fərdi istehsal sahələrində gedən «yenidən qurma» prosesi də həmin qaydada idi. Fərdi istehsalçılar ağına-bozuna baxmadan kooperativlərdə birləşdirilirdi. Sənaye və ticarət sahəsində özəl kapital ya tamam sıxışdırılıb sıradan çıxarılır, ya da qarışıq dövlət-özəl müəssisələri yaradılması yolu ilə dövlət nəzarəti altına alınırdı. Əsasında zorakılıq dayanan bu tədbirlər VZP rəhbərliyi tərəfindən «sosialist» yenidənqurması kimi qiymətləndirilir, təbliğ və təşviq olunurdu. İstər VDR, istərsə də VZP rəhbərliyi heç cür yaxına buraxmırdılar ki, Vyetnam öz sosial-iqtisadi inkişaf səviyyəsinə, istehsalçının etno-sosial psixologiyasına görə kifayət qədər geridə qalmış bir ölkədir. 1960-cı ildə müasir müəssisələr ümumi məhsulun cəmi-cümlətanı 17%-ni istehsal edirdi. Ölkədə arxaik təsərrüfat tərzinin hakim olması, fəhlə sinfinin azsaylı və zəif olması, sənaye və texniki bazanın zəifliyi, ölkə əhalisinin ümumi və siyasi mədəniyyət səviyyəsinin aşağı olması və s. reallıqlar idi.

Əslinə qalsa, Vyetnam kommunistlərinin «inqilabi səbirsizliyinin» arxasında sovet və çin kommunist partiyaları liderlərinin

heç bir maddi-taxniki baza olmadan belə sürətlə sosializm qurmaq haqqındakı sadəlövh fikir və müddəaları dayanırdı, onların regionda hegemonluq hikkələri dayanırdı. Sovet və Çin kommunistləri belə hesab edirdilər ki, bu yolla ölkədə tez bir zamanda sosial-iqtisadi və siyasi sabitlik yaratmaq və bunu Cənubi Vyetnam xalqına bir təbliğat mövzusu kimi təqdim etmək olar. Təbiidir ki, ÇXR-də 1955-56-cı illərdə baş verən hadisələr, eləcə də 1958-1960-cı illərdə kəndin kommunalaşdırılmasında «böyük sıçrayış» kimi zərərli təcrübələr də VDR-in inkişafına mənfi təsir göstərdi.

Bütün bu əyintilərə və zərərli meyllərə baxmayaraq, Vyetnam Demokratik Respublikasında baş verən bu dəyişikliklər 1960-cı il ərəfəsində Milli Məclis tərəfindən təsdiq olunmuş yeni konstitusiyada xalqın böyük nailiyyətləri kimi əks etdirildi. Konstitusiyada bəyan edilirdi ki, VDR «fəhlə və kəndlilərin ittifaqına əsaslanan, tədricən sosializmə keçidi başa vurmaqda olan xalq-demokratik dövlətdir». 1959-cu ilin mayında seçilən Milli Məclisin birinci sessiyasında Xo Şi min yenidən VDR-in prezidenti seçildi.

### *Cənubi Vyetnam Respublikası*

Cenevrə müşavirəsindən sonra Cənubi Vyetnam hökumətinin də ilk tədbirləri ölkə iqtisadiyyatının bərpa və inkişaf etdirilməsi məqsədi güdürdü. Bu baxımdan 1955-1956-cı illərdə aqrar islahatlar keçirilməsi sahəsində qəbul olunmuş qanunları xüsusilə qeyd etmək lazımdır. Həmin qanunlara görə mülkədarlara 100 ha-ya qədər torpaq saxlamaq hüququ verilirdi. Artıq torpaq sahələri alınaraq kəndlilərə satıldı.

Nqo Din Zyem hökumətinin bu tədbiri kəndlilər tərəfindən rəğbətlə qarşılanmış, hökumət də öz növbəsində onların dəstəyini qazana bilmişdir. Kəndlilərlə yanaşı yaranmış şərtlər daxilində fəaliyyət azadlığı və imkanları əldə etmiş burjua təbəqəsi də Nqo Din Zyem hökumətinin sosial dayaqlarından idi. Ordu rəhbərliyi və katolik kilsəsi başçıları da yeni yaranmış dövlət hakimiyyətini dəstəkləyirdilər.

ABŞ-ın hər cür hərbi, maddi və texniki yardımı iqtisadiyyatın bərpası və inkişafında əsas rol oynayırdı. Sovet İttifaqı və onun müttəfiqlərinə qarşı mübarizə baxımından ABŞ Cənubi Vyetnama xüsusi önəm verir, onu Hind-Çində fəaliyyət dairəsinin mərkəzinə

çevirməyə cəhd göstərirdi. ABŞ belə hesab edirdi ki, nəyin bahasına olursa olsun Cənubi Vyetnamdakı hakimiyyət qorunub saxlanılmalıdır. Onun süqutu qonşu ölkələrdə də ciddi dəyişikliyə gətirə bilər və region kommunist rejiminin təsiri altına keçər. Belə bir sonluğun baş tutması üçün isə kifayət qədər şərtlər var idi. Birincisi, region xalqlarının son dərəcə yoxsulluğu və istər sosial-iqtisadi, istərsə etno-psixoloji və ümumi inkişaf geriliyi onların «sosial ədalət» və «xoşbəxt həyat» və'd edən kommunist təbliğatına uymasını asanlaşdırırdı, hər halda Şimali Vyetnam təcrübəsi bunu təsdiqləyirdi. İkincisi, region ölkələri bütün baxımlardan ənənəvi olaraq qonşu Çinin təsiri altında idi və yaranmış ilk imkandan yenidən Çinin yararlanacağı labüd idi. Heç şübhəsiz ki, haqqında danışdığımız amillərin tərəfdarları region xalqları arasında az deyildi. Elə bu baxımdan yenə də Cənubi Vyetnamın öz təcrübəsi əyani sübut idi. Belə ki, ölkədə ABŞ-ın mövqelərinin artmasına qarşı müxtəlif yerlərdə və müxtəlif zamanlarda etiraz çıxışları baş verirdi. Rəsmi dairələr bu hadisələri qonşu ölkələrin təhlükəsizliyi üçün bir təhlükə kimi dəyərləndirsə də, etiraz dalğası gündən-günə artmaqda və genişlənməkdə idi. Bu səbəbdən də ABŞ ilk olaraq Cənubi Vyetnamın hərbi qüdrətinin artmasına yönəli tədbirlər görürdü ki, yaxınlaşması hiss olunan hadisələrə təsir etmək mümkün olsun. Ordunun formalaşdırılması, silahlandırılması və təlim verilməsi sahəsində görülən işlər nəticəsində 1954-cü ildən 1961-ci ilə qədər olan müddətdə yarım hərbi birləşmələrlə birlikdə 240 min nəfərlik qoşun dəstələri yaradıldı. Bu sahədə bütün işlərə, demək olar ki, 2700 nəfərlik ABŞ hərbi müşavir və tə'limatçıları rəhbərlik edirdilər.

Qeyd etmək lazımdır ki, önəm verilən bu kurs az sonra hakim sinfin Şimali Vyetnamdan dəstək olan müxtəlif təbəqələrinin: burjua, hərbi və dini nümayəndələrinin tənqidinə məruz qalmağa başladı. 1959-cu ilin yanvarında Cənubi Vyetnamın müxalifət qüvvələri mövcud hakimiyyətə qarşı silahlı mübarizəyə keçməyi qərara aldılar. Həmin ilin mayında isə Vyetnam Zəhmətkeşlər Partiyası da bu barədə qərar qəbul etdi. Qərarda deyilirdi ki, ölkənin birləşdirilməsi gərəkdir və bunun üçün iki amil: Şimalda siyasi və iqtisadi quruculuğun, Cənubda isə hakimiyyətə qarşı silahlı mübarizənin genişləndirilməsi əsas şərtlərdir.

Bunlar öz bəhrəsini verdi. 1960-cı ilin yanvarında Cənubun müxtəlif əyalətlərində gütləvi çıxışlar başladı, hətta ilin sonlarında bir

sıra yerlərdə kommunistlərin təşəbbüsü ilə mövcud hakimiyyət strukturları ləğv edilirdi. Müəyyən ərazilər qiyamçıların əlinə keçdi və bu rayonların birində onlar Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsinin (CVMAC) yaradıldığını e'lan etdilər. Cəbhənin qəbul olunmuş proqramında Nqo Din Zyem hakimiyyətinin devrilməsi, ABŞ-ın ölkədən çıxarılması, Cənubi və Şimali Vyetnamın birləşdirilməsi başlıca fəaliyyət prinsipləri kimi qeyd olunurdu.

Sonrakı dövrlərdə CVMAC fəaliyyətini daha ciddi davam etdirirdi. 1961-ci ilin fevralında Xalq Silahlı Qüvvələri adlanan ordu birləşmələri ( bu hərbi birləşmələr 1968-ci ilin fevralına kimi Azadlıq Ordusu- AO, sonralar Cənubi Vyetnamın Xalq Silahlı Azadlıq Qüvvəsi - CVXSAQ- adlandırılırdı) yaradıldı. Bununla da Nqo Din Zyem hakimiyyətinə qarşı mütəşəkkil silahlı mübarizəsinin əsası qoyuldu. Doğrudur, ilk vaxtlar AO qüvvələri manevr döyüşləri aparır, hərbi hissə və qarnizonlara hücumlar edir, silah əldə edir və müəyyən əraziləri nəzarətə götürürdü. Bu işdə onlara ayrı-ayrı yerlərdə gizli təşkil olunmuş partizan dəstələri və özünümüdafiə qrupları kömək göstərirdi. Heç şübhəsiz, bütün bunların arxasında VDR-in hər cür göməyi və dəstəyi dayanırdı.

1961-ci ildən Cənubi Vyetnam hərbi qüvvələri artıq «xüsusi müharibə» vəziyyətinə gətirildi. Yəni CV ordusu AO və onlarla əməkdaşlıq edən hərbi qüvvələrə qarşı döyüş əməliyyatlarına başladı. 1962-ci ilin fevralında «ABŞ xüsusi hərbi komandanlığ»ı adlanan mərkəz yaradıldı. Onun əsas məqsədi CV hərbi qüvvələrinin aparacağı əməliyyatları planlaşdırmaq və əlaqələndirməkdən ibarət idi. Tədricən ABŞ hərbi hava və moto-atıcı qüvvələri və partizanlarla mübarizə üçün xüsusi hərbi dəstələrdən də döyüşlərdə istifadə etməyə başladılar. AO və partizan dəstələrinin qarşısını almaq üçün xüsusi «strateji kəndlər» qurulurdu. Burada hər şey müharibə şəraitinə uyğunlaşdırılır və rəhbərlik hərbçilərin nəzarətinə keçirdi. AO və partizan dəstələrinin nəzarəti altında olan ərazilər ətrafında müdafiə zolaqları yaradılırdı. Məqsəd AO və partizanları mühasirəyə almaq, onları həm yerli əhalidən, həm də VDR-dən gələn maddi və canlı köməkdən ayrı salmaq idi.

Təbiidir ki, bütün bunlar çoxlu xərc və qüvvə tələb edirdi. 1961-1964-cü illərdə ABŞ Cənubi Vyetnama xeyli silah və 2,4 mld dollar məbləğində kredit verdi, CV ordusu əsgər və zabitlərinin sayı 0,5 mln nəfərə çatdırıldı.

Arxasında Sovet İttifaqı, ÇXR və VDR-in dayandığı AO 1963-cü ilin yanvarından bütün Cənubi Vyetnam ərazisi boyunca hücum əməliyyatlarına başladı. Təbiidir ki, ABŞ da buna adekvat cavab verirdi. Ancaq Cənubi Vyetnamın siyasi həyatındakı narazılıqların artması, 1963-cü ildə buddistlərin üsyanı nəticəsində Nqo Din Zyemin öldürülməsi, bunun ardınca 1965-ci llədək olan müddətdə 13 dövlət çevrilişinin baş verməsi, müxtəlif siyasi partiyalar arasında mübarizələrin genişlənməsi və s. hadisələr AO-ya qarşı aparılan əməliyyatlarda uğursuzluğunun başlıca mənbəyi oldu. Doğrudur, ABŞ bir-birilə aramsız münaqişədə olan siyasi qüvvələrin ittifaqına və ya koalisiyasına kifayət qədər çalışdı. Lakin siyasi böhranı həll etmək mümkünsüz hala gəldi. Nəhayət, bütün bunlar onunla nəticələndi ki, 1965-ci ilin iyulunda Nquen Van Txieu və Nquen Kao Kinin başçılıq etdiyi «gənc generallar» hakimiyyətə gəldilər. 1966-cı ilin oktyabrında qəbul olunan Vyetnam Respublikasının yeni konstitusiyasına uyğun olaraq 1967-ci ildə prezident və parlament seçkiləri keçirildi. Txeu-Ki hakimiyyətini dəstəkləyən ABŞ artıq hərbi əməliyyatların iki Vyetnam dövləti arasında savaşdan iki dünya sistemi arasında savaşa çevrildiyinin qaçılmaz olduğunu qəbul etdi, hərbi əməliyyatlara açıq şəkildə qoşulmağa qərar verdi. Doğrudur, bu haqda qərar hələ 1964-cü ildə qəbul edilmişdi: martda ABŞ prezidenti L.Conson VDR-ə qəflətən hava basqını etmək haqqında, iyunda isə ABŞ silahlı qüvvələrinin savaşa qatılması haqqında qərarlara imza atmışdı. Ancaq bu işi reallaşdırmaq üçün bir bəhanə axtarılırdı. Nəhayət, bu bəhanə də tapıldı: bitərəf sularda iki ABŞ esminesinin VDR hərbi katerləri tərəfindən atəşə tutulması xəbəri alınandan sonra, ABŞ təyyarələri VDR-i bombalamağa başladı. ABŞ quru qoşun hissələri Vyetnam Respublikası ərazisinə daxil olmağa başladı. Artıq 1968-ci ildə orada yarım milyon nəfərədək amerikalı zabit və əsgər var idi. Vyetnam Respublikasının orduları ilə birlikdə onlar da Cənubi Vyetnamın Xalq Silahlı Azadlıq Qüvvələrinə (CVXSAQ) qarşı hərbi əməliyyatlarda fəal iştirak edirdilər. SEATO üzvü olan Koreya Respublikası, Tayland, Filippinlər, Avstraliya və Yeni Zelandiya hərbi hissələri də Vyetnam Respublikasının köməyinə gəldilər. Savaş, faktik olaraq beynəlmiləlləşdi, Sovet İttifaqı və müttəfiqləri ilə ABŞ və müttəfiqləri arasında regionda nüfuz uğrunda savaş xarakteri aldı. Beləliklə, XX əsrdə II dünya müharibəsindən sonra baş vermiş iki mənasız və biabırçı savaşdan

birincisinə- Vyetnam savaşına ABŞ açıq-aşkar şəkildə qoşulmuş oldu (Əfqanıstan savaşında Sovet İttifaqının iştirakından irəlidə bəhs edilmişdi - müəl.) Lakin ABŞ və müttəfiqləri bütün cəhdlərinə baxmayaraq savaşda heç cür dönüş yarada bilmədilər. Sovet İttifaqı və müttəfiqlərinin qurduğu hava hucumdan güclü müdafiə sistemi, CVASAQ-a verdiyi ən müasir müdafiə silahları və s. köməklər sayəsində VDR-i bombalamaq əməliyyatları nəinki öz əvvəlki səmərəliliyini itirdi, ümumiyyətlə böyük uğursuzluğa uğradı, ABŞ-ın VDR səmalarında itirdiyi hərbi təyyarələrin sayı artdı, 1964-1972-ci illər ərzində onların sayı 4 mini ötmüşdü. CVXSAQ-a 1965-1974-cü illərdə Sovet İttifaqının verdiyi ən müasir qırıcı təyyarələr, «yer-göy» tipli idarə olunan raketlər, zenit qurğuları və s. silahlar sayəsində Vyetnam kommunistləri xeyli dərəcədə qüvvətləndilər və müharibənin gedişini bütünlüklə öz xeyirlərinə dəyişə bildilər.

Vyetnamın birləşdirilməsinin hərbi-siyasi yolla mümkünlüyü qənaətində olan VDR liderləri hələ 1965-ci ilin aprelində aşağıdakı şərtlər daxilində ABŞ ilə sülh danışıqlarına hazır olduqlarını bəyan etmişdilər: «Dörd maddəli proqram» adlanan şərtlər: 1) Vyetnam xalqının sülh, istiqlaliyyət, süverenlik və ərazi bütövlüyünə olan haqlarının tanınması; 2) Cənubi Vyetnamdan bütün ABŞ qoşunlarının və hərbi heyətin çıxarılması, oradakı ABŞ hərbi bazalarının və ABŞ-Vyetnam Respublikası hərbi müttəfiqliyinin ləğvi, Vyetnam Respublikasının işlərinə ABŞ hərbçilərinin müdaxiləsinə və VDR-ə qarşı hava hücumlarına son qoymaq, Cenevrə müşavirəsinin qərarlarına əməl etmək; 3) Cənubi Vyetnam xalqının öz müqəddəratını təyin etmək hüququnu tanımaq; 4) Xarici müdaxilə olmadan Vyetnamın sülh yolu ilə birləşməsi.

1968-ci ilin mayında ABŞ da Vyetnama qarşı siyasətində bir dəyişiklik etdi. Bu onunla bağlı idi ki, Vyetnam savaşında əsaslı dönüş yaradıla bilməməsi və əksinə uğursuzluqların gündən-günə artması ABŞ-ın öz daxilində narazılıqları artırırdı. Odur ki, ABŞ özü də vəziyyətdən çıxmaq yolları aramaq zorunda qalmışdı. 1966-1967-ci illərdə prezident L.Conson müxtəlif vasitələrlə sülh danışıqlarına təşəbbüslər göstərmişdi. Bütün bunların nəticəsi olaraq Şimali Vyetnam və ABŞ arasında Parisdə sülhə kömək haqqında görüşlər başlandı. Deməliyik ki, görüşlərin gedişində müəyyən irəliləmələr görsənməyə başladıqda, cavab addımı kimi ABŞ əvvəlcə mayda hərbi əməliyyatları bir qədər səngitdi, oktyabrda isə tamamilə

dayandırdı.

1968-ci ilin noyabrında R.Nikson ABŞ prezidenti seçildikdən sonra isə ABŞ Vyetnama yönəli siyasətini tamam dəyişdi. R.Nikson 1969-cu ilin 20 yanvarında prezidentliyə başlayanda Vyetnamda 540000 nəfərlik ABŞ əsgəri var idi, 31000 nəfər isə döyüşlərdə həlak olmuşdu. Bu səbəbdən istər R.Nikson, istərsə də dövlət katibi H.Kissencer Vyetnama yönəli siyasətdə belə bir kursa önəm verdilər: oradakı orduları tədricən geriyə çəkmək lazımdır ki, Paris görüşlərini sürətləndirmək və səmərəli etmək mümkün olsun. 1969-cu ilin yanvarında dördtərəfli danışıqlara başlandı. Danışıqlar prosesində VDR, ABŞ, Vyetnam Respublikası və Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsi iştirak edirdi.

Qeyd etmək lazımdır ki, ABŞ artıq Vyetnam savaşından çıxmağa qərarlı idi. 1969-cu ilin iyulunda 25 min nəfərlik ABŞ hərbi hissələri Vyetnamdan çıxarıldı. Bu rəqəm 1971-ci ildə 200 min nəfərə çatdı. 1969-cu ilin iyulunda Sakit okean adalarını gəzən R.Nikson ayın 25-də Quam adasında verdiyi mətbuat konfransında bildirdi ki, bundan sonra ABŞ «əməkdaşlıq yolu ilə sülh» prinsipini başlıca siyasət kursu elan edir, dünyanın harasında olursa-olsun Vyetnam timsallı məsələlərdə ABŞ əsgərlərindən istifadə yox, müttəfiqlərinə iqtisadi və hərbi yardım göstərməklə onlara dəstək olacaqdır. Tarixi ədəbiyyatda bu kurs «Quam və ya Nikson doktrinası» adlanır və o, 1957-ci ilin yanvarından tətbiq edilən Eyzenhauer doktrinasının tamam əksinə idi. Sonuncunun əsasında hərbi güc tətbiqi dayanırdı.

Həqiqətən də dördtərəfli danışıqların getdiyi bir zamanda ABŞ Vyetnam Respublikasına xeyli maddi yardım göstərdi ki,həlli vacib olan bir sıra iqtisadi və siyasi islahatlar həyata keçirilsin. Bunlardan ən başlıcası yeni aqrar islahat idi. Kəndlilərin vəziyyətini dirçəltmək və onları hərbi əməliyyatlardan çəkindirmək üçün fermer təsərrüfatlarının yaradılması bu baxımdan xüsusilə qeyd edilməlidir.

Lakin bu tədbirlər kifayət qədər gecikmiş idi. 1969-cu ildə VDR prezidenti Xo Şi minin ölümü də vəziyyətə təsir etmədi. Elə həmin ildə Vyetnam Respublikası ərazisinin təqribən 2\3-si Milli Azadlıq Cəbhəsinin nəzarəti altında idi ki, burada da 10 mln nəfər civarında insan yaşayırdı. Rəsmi hakimiyyətin nəzarətindən çıxan ərazilərdə Milli Azadlıq Cəbhəsinin yerli idarə orqanları yaradılırdı. Həmin ərazilərdə 1968-ci ilin yazından Cənubi Vyetnam Milli,

Demokratik və Sülhsevər Qüvvələrinin İttifaqı deyilən təşkilat da təsis olunurdu. Bu təşkilatın 1969-cu ilin iyununda Milli Azadlıq Cəbhəsi ilə birlikdə keçirdiyi qurultayda Cənubi Vyetnam Respublikası və müvəqqəti inqilabi hökumətin yaradılması elan olundu.

1972-ci ildə yenidən prezident seçilən R.Nikson ABŞ və ÇXR arasındakı münasibətlərə bir normallıq gətirməyə nail oldu. O biri yandan isə 1972-ci ilin mayında Sovet İttifaqı ilə «SALT-1» müqaviləsi imzalanmışdı. Məhz bu iki hadisə həmin arada şiddətlənən bombardmanların 1972-ci ilin sonlarında dayandırılmasının səbəbləri oldu. Nəhayət, 1973-cü ilin 27 yanvarında dördtərəfli danışıqlar uğurla başa çatdı, müharibənin dayandırılması və Vyetnamda sülhün bərpa olunması haqqında saziş imzalandı.

Qəbul olunmuş sənəd 23 maddədən ibarət idi və o, faktik olaraq 1954-cü il Cenevrə müşavirəsinin qərarlarına dönüş kimi qiymətləndirilə bilər. Yəni 17-ci paralel üzrə ölkə Şimala və Cənuba bölünürdü. ABŞ 60 gün ərzində Vyetnamdakı bütün hərbi qüvvələrini çıxarmalı və hərbi bazalarını ləğv etməli idi. Bunun əvəzində Şimali Vyetnam da Cənubi Vyetnam xalqının öz müqəddəratını təyin etmə və seçdiyi siyasi rejimə xalqın özünün qərar verəcəyi haqqını tanımalı və bu işə müdaxilə etməməli idi. Şimali və Cənubi Vyetnamın birləşdirilməsi qüvvə və zor yolu ilə deyil, iki tərəfin arasında aparılacaq müzakirələr, qarşılıqlı anlaşma və sülh yolu ilə həyata keçirilməli idi. Bundan başqa Kamboca və Laosun bitərəfliyinə və bağımsızlığına tam hörmət edilməli idi. Nəhayət, Şimali Vyetnam ilə ABŞ arasında meydana gələn bu yeni münasibət zəminində müharibənin nəticələrinin aradan qaldırılmasında və ölkənin inkişaf etdirilməsində ABŞ VDR-ə yardım etməli idi.

ABŞ bu sülh ilə nəhayət ki, Vyetnam problemindən öz canını qurtara bildi. Lakin, problem sülh ilə həll oluna bilmədi. Sülh 22 ay davam etdi və bundan sonra Cənubi Vyetnam kommunistlərin əlinə keçdi.

### *Vyetnamın birləşdirilməsi. Vyetnam Sosialist Respublikasının elan olunması, onun daxili və xarici siyasəti*

Hərbi əməliyyatlar dayandırıldaqdan sonra VDR əsas diqqətini müharibənin yaralarını sağaltmağa, dağılmış iqtisadiyyatı bərpa

etməyə yönəltdi. 1974-cü ildə bu barədə ikiillik plan qəbul edildi. Artıq 1975-ci ildə inkişaf göstəriciləri 1964-1965-ci illər səviyyəsinə qədər qalxa bildi. Bununla yanaşı ikinci böyük vəzifə kimi ölkənin birləşdirilməsi var idi.

1973-cü ilin oktyabrından CVMAQ dəstələri və partizan qrupları yenidən hərbi əməliyyatlara başladılar. Vyetnam Respublikası hökuməti ciddi çətinliklərlə üzləşməli oldu. ABŞ hərbi qüvvələrinin Cənubi Vyetnamdan çəkildiyi dövrdə ölkənin 1 milyon nəfərlik ordusu, 1600 döyüş təyyarəsi və 600 tankı vardı. Lakin CVMAQ dəstələrinin artan təzyiqlərinə cavab verməkdə Vyetnam Respublikası aciz bir duruma düşmüşdü, ən yaxşı halda öz əvvəlki mövqelərini zorla qoruya bilirdi: Vyetnam müharibəsinin ABŞ ictimai rəyində yaratmış olduğu etirazlar səbəbindən ABŞ da etdiyi kömərkləri azaltmaqda idi. Hərbi yardım 1 mld dollardan 700 mln-a, iqtisadi yardım 750 mln-dan 450 mln-na endirilmişdi. O biri tərəfdən dünya maliyə-valyuta və enerji böhranları da ölkə iqtisadiyyatına böyük çətinliklər gətirmişdi.

İqtisadi çətinliklər ölkə əhalisinin müxtəlif təbəqələri arasında hakimiyyətə qarşı narazılıqları son həddə çatdırırdı. Hətta Milli Məclisin bir qrup üzvü Txieu hökumətinin istefasını tələb edirdi.

Yaranmış vəziyyətdə Vyetnam Zəhmətkeşlər Partiyasının MK-sı Cənuba qarşı həlledici hücumlara başlamaq qərarı verdi. «Xo Şi min əməliyyatı» adlanan plan üzrə 1974-cü ilin aprelində Şimali Vyetnam qüvvələri Kambocanın Mekonq çayı deltasından Cənubi Vyetnama qarşı hərəkətə keçdi. Bunun ardınca Şimali Vyetnamın müxtəlif tərəflərindən də hücumlar başlandı. Get-gedə güclənən əməliyyatlar 1975-ci ilin aprelində Sayqonun işğalı ilə başa çatdı. Beləliklə, Cənubi Vyetnam 30 illik müharibədən sonra bütünlüklə kommunistlərin əlinə keçdi.

1976-cı ilin aprelində Milli Məclisə seçkilər keçirildi. Milli Məclisin ilk sessiyasında birləşdirilmiş dövlətin adı Vyetnam Sosialist Respublikası (VSR) şəklində qəbul edildi. Xanoy ölkənin paytaxtı olaraq saxlanıldı. Sayqon şəhərinə isə Xo Şi minin adı verildi. 1977-ci ilin fevralına kimi ölkənin müxtəlif ictimai, siyasi, qadın, gənclər, həmkarlar və s. təşkilatlarının birləşməsi prosesi də başa çatdı. Vahid Vyetnam Vətən Cəbhəsi yaradıldı. 1976-cı ilin dekabrında Xanoyda VZP-nin IV qurultayı çağrıldı. Orada «təqribən 20 il müddətində

bütün ölkə miqyasında xalq təsərrüfatının kiçik istehsaldan iri sosialist istehsalına keçirilməsi və ölkənin sosialistcəsinə sənayeləşdirilməsi yolu ilə sosializmin maddi-texniki bazasının yaradılması» qarşıda duran vəzifə elan olundu. Qurultay partiyanın da adını dəyişdirdi və onun Vyetnam Kommunist partiyası adlandırılması haqqında qərar qəbul etdi.

Vyetnamın birləşdirilməsi Cənub- Şərqi Asiya ölkələrində mövcud olan siyasi və iqtisadi münasibətlər sistemində yeni və mühüm dəyişikliklərə rəvac verdi. Birincisi, regionda kommunist rejiminin qələbəsinin sosialist istehsal sisteminin üstünlüyündən irəli gəldiyini qonşu ölkələrə təlqin etmək üçün Sovet İttifaqı və İqtisadi Əməkdaşlıq Şurasının digər üzvləri VKP-nin qəbul etdiyi iqtisadi proqramın realiziyasına hər cür yardım etməyə başladılar. VSR-in özü də 1978-ci ildən İƏŞ -nin üzvü oldu. İƏŞ çərçivəsində VSR ilə yanaşı Kuba və Monqolustana da şamil olan xüsusi iqtisadi inkişaf proqramı fəaliyyət göstərdi. Bundan əlavə 1978-ci ilin noyabrında VSR və Sovet İttifaqı arasında Dostluq və Əməkdaşlıq haqqında bağlanan müqaviləyə uyğun olaraq Sovetlər ölkə iqtisadiyyatının bərpa və yenidən qurulmasında yaxından iştirak etməyə başladılar. Yanacaq-enerji kompleksi, maşınqayırma, inşaat sənayesi və s. sahələrdə 100 - dən çox iri obyektlərin tikintisinə xeyli miqdarda vəsait ayrıldı. Ancaq ölkə şərtlərinin nəzəri alınmaması, planlaşdırmanın düzgün aparılmaması, çox vəsait tələb edən nəhəng obyektlər yaradılmasına önəm verilməsi və s. kimi hallar nəzərdə tutulan proqramı vaxlı-vaxtında yerinə yetirməyə imkan vermirdi, edilən maddi yardımlar ya səmərəli istifadə olunmur, ya da boş yerlərə sərf olunurdu.

İkinci tərəfdən, birləşmə hərəkatının uğurla başa çatması qonşu kommunist Koreyasını həmin istiqamətdə fəallaşmağa təşviq etdi. Hətta Şimali Koreyanın kommunist lideri Kim İr Sen bu məqsədlə 1975-ci ilin aprelində Pekinə gələrək ÇXR liderlərinin dəstəyini istədi. Lakin ÇXR bu işə razılıq vermədi.

Üçüncü tərəfdən, Vyetnamın birləşməsi Cənub-Şərqi Asiya ölkələrində böyük bir təlaş və qorxuya səbəb oldu. Bunun da əsasında o dururdu ki, Şimali Vyetnam partizan döyüşləri və ölkədaxili dağıdıcı fəaliyyət sahəsində hiss olunacaq qədər qüvvətli idi. Cənubi Vyetnamın tutulmasından sonra onsuz da kifayət qədər silahı və hərbi sursatı olan Şimali Vyetnam buradakı çox miqdarda ABŞ

silah və hərbi ləvazimatlarını da ələ keçirmiş, son dərəcə qüvvətlənmişdi. Ələ keçirilən silahların ümumi dəyəri 2 mld dollara bərabər hesab olunurdu.

Doğrudur, Vyetnamın qonşu ölkələrə təcavüz halı yox idi. Ancaq bölgə ölkələri yuxarıda dediyimiz səbəblərdən qorxuya düşmüşdülər. Odur ki, ASEAN ölkələrindən Malayziya, Tayland və Filippinlər tez bir zamanda ÇXR ilə diplomatik əlaqələr yaratdılar. Əslində elə ÇXR-in özü də VSR-in belə güclənməsindən narahat olmuşdu və onu zərərsizləşdirmək imkanları haqqında düşünməkdə idi. Doğrudan da, 1975-ci ilin mayında Vyetnam Sovet İttifaqı ilə ÇXR arasında bir mübarizə obyektinə çevrildiyi zaman Vyetnam ilə əski Kamboca - o zamankı Kampuçiya arasında münasibətlər korlandı. Həmin vaxt Vyetnam Sovet İttifaqı ilə əməkdaşlığa üstünlük verdi, Kampuçiya isə ÇXR-ə sığınmalı oldu.

Digər tərəfdən Vyetnam təsirindən qorunmaq üçün Malayziya Cənub-Şərqi Asiyanın bir «bitərəf bölgə» elan olunması təklifini irəli sürdüyü bir zamanda Tayland və Filippinlər ölkələrindəki amerika əskərlərinin çıxarılmasını istədilər. Bunların nəticəsi olaraq 1975-ci ilin 24 sentyabrında SEATO dağıldı.

Bölgə ölkələri içərisində ən çox qorxuya düşəni isə qurudan Laos və Kampuçiya və dənizdən Vyetnamla həmsərhəd olan Tayland idi. Tayland hətta Cənub-Şərqi Asiyada Kampuçiya, Laos, Vyetnam və özünün də iştirakı ilə bir ittifaq yaradılması təklifini irəli sürdü. Ancaq bu zaman regionda durumun hansı qaydada tənzim olunması haqqında Vyetnamın öz planları vardı.

1975-ci ilin sonlarına doğru bölgənin vəziyyətində müəyyən bir sabitləşmə yarandı və ayrı-ayrı dövlətlərin məruz qaldığı qorxu və həyəcan aradan qalxdı. Bölgə ölkələri öz təhlükəsizliklərinin təminini yenidən ABŞ-la əlaqələrdə gördülər. İkinci tərəfdən ÇXR də bu ölkələr üçün bir istinad mənbəyi olaraq qalırdı. Vyetnamın 1978-ci ilin dekabrında Kampuçiyanı işğal etməsi ÇXR və bölgə ölkələri arasında ortaq maraqları möhkəmləndirdi.

Belə ki, hələ 1975-ci ildə Vyetnamın birləşdirilməsi ilə eyni vaxtlarda Laos və Kampuçiyada da sol qüvvələr hakimiyyətə yiyələnə bilmişdilər. Kampuçiyada Pol Potun başçılıq etdiyi «qırmızı kxmerlər» hökuməti ölkəni hərbi-terror qayda-qanunları ilə idarə edir və hərbi-kazarma təsərrüfat rejimi yaradırdılar. Kəndlilər zorla «kommuna»lara qovulurdular. Bu «kommuna»lar faktik olaraq hərbi

həbs düşərgələri idi. Burada kəndlilərlə yanaşı milyonlarla şəhərli, budda rahibləri ağır şərtlər altında çalışır və yaşayırdılar. Rahiblər dini çinlərdən məhrum edilir, pul ləğv olunur, ailələr dağıdılır, rabitə vasitələri məhv edilirdi. Ölkədə genosid rejimi hökm sürürdü və 1 mln-dan 3,3 mln nəfərə qədər insanın bu genosidin qurbanı olduğu söylənilir.

«Qırmızı kxmerlər»in Kampuçiyada hakimiyyətə gəlməsindən sonra Vyetnamla olan əlaqələrdə bir gərginlik yarandı. Bu iki səbəbdən irəli gəlirdi: 1) tarixi Vyetnam-Kamboca düşmənçiliyi; 2) həmin dövrdə Vyetnam kommunistlərinin kxmer kommunistləri üzərində hegemonluq iddiaları. Bəhanə isə o oldu ki, hələ irəlidə dediyimiz kimi, Şimali Vyetnam hərbi hissələri Cənuba olan hücumlarını Kamboca ərazisindən keçərək təşkil etmişdilər. Həmin vaxta qədər o ərazilər yenə Vyetnam qoşunlarının düşərgəsi olaraq qalır, «qırmızı kxmerlər»in oranı boşaltmaq haqqında istəklərinə cavab verilmirdi. Hətta bəzi hallarda tərəflər arasında silahlı toqquşmalar olurdu. VSR-in yürütdüyü siyasətdən narazılığı artan ÇXR-in tədricən Kampuçiyanı daha çox dəstəkləməsi 1977-ci ilin dekabrında Vyetnam-Kampuçiya silahlı toqquşmalarının şiddətlənməsinə gətirib çıxardı. İlk silahlı toqquşmalar dövründə hər iki tərəf xeyli canlı və texniki qüvvə itirdi. 1978-ci ilin fevralında Vyetnam qoşunları bir-birindən 5 km məsafədə aralamaq və münaqişəni nizama salmağı nəzərdə tutan müəyyən bir saziş bağlamağı təklif etdi. Lakin Kampuçiyanın bu təklifə etinasız yanaşması Vyetnam-Kampuçiya müharibəsinin başlanmasına, Vyetnam hərbi qüvvələrinin ölkəyə girməsinə, Pol-Pot rejiminin məğlub olmasına gətirdi.

Belə ki, 1978-ci ilin 2 dekabrında Kampuçiyada Pol-Pot rejimindən narazı olan ölkə daxilində və xaricində yaşayan bütün müxalifət qüvvələrinin iştirakı ilə bir konqres çağrıldı. Konqres Vahid Kampuçiya Milli Nicat Cəbhəsinin yaradıldığını elan etdi. Pol Pota qarşı qiyam etmiş diviziya komandiri Henq Samrin Milli Cəbhə Mərkəzi Komitəsinin rəhbəri oldu. Pol Pota müxalif qüvvələr vahid bir rəhbərlik altında birləşdi, kömək üçün VSR-ə müraciət edildi. Onsuz da VSR-in dəstəyi ilə təşəkkül tapmış bu təşkilatın hərbi qüvvələri Vyetnam «könüllüləri»nin yaxından iştirakı ilə hakim rejimə qarşı əməliyyatlara başladılar. 1979-cu ilin 7 yanvarında paytaxt Pnompen tutuldu və hakimiyyət Xalq İnqilab Şurasının əlinə keçdi.

VSR-in «qırmızı kxmerlar»la bu cür rəftarı Vyetnam-Çin münaqişəsinə, hətta silahlı toqquşmalara gətirdi. İki tərəf arasında hərbi əməliyyatlar 1979-cu ilin fevral-mart aylarında davam etdi və döyüşlər nəticəsində hər iki tərəfdən on minlərlə insan tələfatı oldu.

Ümumiyyətlə VSR hərbi qüvvələri 10 il müddətində Kampuçiyada qaldılar. Kampuçiya liderlərinin bu hərbi qüvvələrin köməyi və iştirakı ilə ölkədə əmin-amanlıq yaratmaq cəhdləri nəinki uğurla nəticələnə bilmədi, əksinə ASEAN ölkələri baş verən hadisələrə, xüsusilə VSR-in hərbi təcavüzünə kəskin etiraz bildirdilər. Beynəlxalq ictimaiyyətin qəti təzyiqi nəticəsində ən sonda VSR öz qoşunlarını geri çəkməyə məcbur oldu. 1989-cu ilin sentyabrında sonuncu Vyetnamlı əsgər Kampuçiyanı tərk etdi.

VSR-in hərbi münaqişələrə girməsi, eləcə də ÇXR ilə münasibətlərin korlanması ölkə iqtisadiyyatına güclü mənfi təsir göstərmişdi. Bu hal xüsusilə qeyri-hərbi istehsal sahələrinə aiddir. Doğrudur, 1976-1980-ci illər üçün nəzərdə tutulmuş ikinci beşillik dövründə müəyyən uğurlar oldu. Bu baxımdan elektrik enerjisi, daş kömür və sement istehsalı sahələrini qeyd etmək olar. Ancaq «əsas uğurlar» ölkədə sosializm cəmiyyətinə keçid istiqamətində olmuşdur. VSR rəhbərliyi həmin dövrdə ümumi milli istehsalın 58%-nin dövlət bölməsinin payına düşdüyünü fəxrlə qeyd edirdi.

Uğurlardan biri də 1980-ci ildə VSR-in Konstitusiyasının qəbul olunması idi..

Ancaq bütünlükdə ölkə iqtisadiyyatının ümumi səviyyəsi xeyli aşağı düşmüşdü. Bu fakt VKP-nin 1982-ci ilin martında keçirilən qurultayında da etiraf edildi. Qurultayda 1981-1985-ci illəri əhatə edən III beşillik plan qəbul olundu. Planda aşağıdakılar nəzərdə tutulurdu: 1) Cənubda aqrar islahat keçirmək və kəndliləri kooperativlərin ən aşağı forması olan istehsal briqadalarına cəlb etmək; 2) kənddə istehlak və kredit kooperativlərini inkişaf etdirmək; 3) kustar istehsal sahəsində kollektiv və fərdi istehsalı inkişaf etdirmək; 4) xırda ticarətçiləri tədricən istehsal və sosial xidmət sahələrinə keçirmək.

Qurultay hesab edirdi ki, xüsusi kapitalist sənayesindən istifadə etmək və eyni zamanda onun qarışıq dövlət-özəl təsərrüfat formasına çevrilməsini təmin etmək lazımlıdır. Etiraf olunurdu ki, iqtisadiyyatın çoxukladlılığını saxlamaq zəruridir və ölkənin şimalında: 1) dövlət; 2) kollektiv və 3) fərdi təsərrüfat bölmələri,

Cənubda isə: 1) dövlət; 2) kollektiv; 3) fərdi; 4) dövlət xüsusi və 5) xüsusi kapitalist bölmələri müəyyən dövrdə mövcud olacaqlar.

Təbiidir ki, reallığa əsaslanmayan bu proqram da lazımınca yerinə yetirilmədi. Artıq VSP-nin 1986-cı ilin dekabrında keçirilən VI qurultayında qeyd olunurdu ki, «lazımı ilkin şərtlər olmadan sənayeləşdirmənin sürətləndirilməsi» kursu təcrübədə özünü doğrultmamışdır. Sərmayə qoyuluşundan səmərəli istifadə olunmaması, kənd təsərrüfatı və yüngül sənaye məhsulları istehsalının sürətli inkişafı imkanları lazımınca nəzərə alınmamışdır. Sənayedə əməyin məhsuldarlığı və səmərəliliyi, istehsal olunan məhsulun keyfiyyəti aşağı səviyyədə qalmışdır. Bir sözlə, sosial-iqtisadi vəziyyətin və xalqın həyat səviyyəsinin sabitləşməsinə nail olunmaması e'tiraf edilirdi.

Ümumiyyətlə, yeganə «nailiyyət» o idi ki, ölkənin cənub hissəsində də sosializmin sovet-çin-vyetnam variantının tətbiqi nəticəsində bütün Vyetnamda xüsusi mülkiyyət və bazar münasibətlərinə son qoyuldu. 70-ci illərin sonu-80-ci illərin əvvələrində SSRİ başda olmaqla digər sosialist dövlətlərinin kifayət qədər köməyinə baxmayaraq, Vyetnamda iqtisadi vəziyyət gündən-günə pisləşirdi. Kampuçiya münaqişəsi zəminində ÇXR ilə münasibətlərin korlanması VSR-i daha artıq dərəcədə Sovet İttifaqı ilə yaxınlaşdırırdı. Ancaq Sovet İttifaqı nəinki Vyetnamı, heç özünü belə iqtisadi çətinliklərdən xilas etmək gücündə deyildi. Böhranlı durumdan çıxmaq haqqında VSR rəhbərliyində müxtəlif fikirlər mövcud idi. Lakin həmin ərəfədə ÇXR-də islahatlara başlanılması və SSRİ-də yenidənqurma siyasətinə keçilməsi VSR rəhbərliyi üçün bir siqnal oldu. Vyetnam iqtisadi islahatlar yoluna keçməyə üstünlük verdi.

Növbəti partiya qurultayı da 1986-1990-cı illər üçün növbəti beşillik planın vəzifələrini bu baxımdan müəyyənləşdirdi. Vyetnam tarixində siyasi və iqtisadi «yeniləşmə» prosesi kimi tanınan bu planda nəzərdə tutulurdu ki, milli gəlirin illik artımı 6-8 % olmalı və 1990-cı ildə məhsul istehsalının səviyyəsi əhalini tə'min edəcək həddə qaldırılmalıdır. İstehlak məhsulları istehsalı əsasən fərdi və kustar sahədə fəaliyyət azadlığı verilməsi hesabına təşkil olunmalı idi. Bu, faktik olaraq, iqtisadi islahatlara yönəli kursun başlanması idı. Ona cəhd idi ki, ölkə əhalisinin gəlirləri artsın, yeni sənaye və digər istehsal sahələri yaratmaqla və vyetnamlıları xaricə işləməyə göndərməklə çox saylı işsizlər ordusunun sayı azalsın və s. və i.a. Ancaq əhali artımının sürəti ilə istehsal artımının sürəti və həcmi arasında

böyük fərq qalmaqda idı. İkinci dünya müharibəsindən keçən müddətdə qanlı savaşlar səhnəsi olmuş Vyetnamda əhalinin sayı iki dəfə artmış, 30 mln-dan 60 mln nəfərə çatmışdı. Ümumiyyətlə, demoqrafik viziyyət ölkə qarşısında duran sosial-iqtisadi vəzifələrin həllini çətinləşdirən bir problemə çevrilmişdi. Bütün cəhdlərə baxmayaraq əhalinin yaşayış səviyyəsi hər il aşağı düşürdü. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1989-cu ildə hər adam başına düşən düyünün həcmi 1985-ci ildəkindən az idi.

Vəziyyət xeyli çətinləşdi və hətta iş o yerə çatdı ki, kəndlilər açıq şəkildə hakimiyyətə qarşı çıxışlara başladılar. Bir sıra yerlərdə onlar kənd idarə binalarını zəbt edir, yerli hakimiyyəti yıxıb, öz hakimiyyətlərini yaradırdılar, onlara qarşı göndərilən milis dəstələri ilə vuruşmaqdan çəkinmirdilər. Ölkənin cənub əyalətlərində kəndlilər tələb edirdilər ki, onların alınmış və kooperativlərə verilmiş torpaqları özlərinə qaytarılsın. Eyni zamanda ayrı-ayrı ailələr və icmalar arasında torpaq üstündə dava-dalaşlar çoxalırdı. Şəhərlərdə həyat şəraitinin ağırlığına dözə bilməyən və əksər hallarda işsiz olan çoxsaylı insanlar, əsasən də gənclər, dolanmaq dalınca kəndlərə axışırdılar.

Nəhayət ki, vəziyyətin ağırlığını VSR və VKP rəhbərliyi daha dərindən dərk etmək zorunda qaldı və həmin dövrdə ÇXR-də gedən islahatları xatırladan dəyişikliklər etmək kursuna daha geniş imkanlar yaratdılar.

Kənd təsərrüfatında vəziyyəti yaxşılaşdırmaq məqsədilə 1989-cu ildə VKP Siyasi Bürosunun qəbul etdiyi qərarın əsas müddəaları kəndlilərin təşəbbüskarlığının və müstəqil fəaliyyət imkanlarının genişləndirilməsinə yönəlmişdi. Qərara görə torpaq yenidən kəndlilərin arasında bölüşdürülməli idi. Həm də bu zaman kəndli ailəsinin sayı yox , onların işləmək imkanları nəzərə alınırdı. Təklif olunurdu ki, ailə, qrup və fərdi podrat sistemi inkişaf etdirilsin. İcarə müddəti 20 il, texniki bitkilər becərdikdə 60 il müəyyənləşdirildi. Kəndlilərə icazə verilirdi ki, muzdlu işçi tutsun, texnika alsın və istehsal etdiyi məhsulun artığını bazarda satsın. Kooperativlər öz torpaqlarının müəyyən hissəsini xüsusi mülkiyyətçilərə sata bilərdilər və s.

Bunlar az vaxtda öz müsbət nəticələrini verdi, kənd təsərrüfatı məhsulları istehsalı artdı, bazarda əmtəə bolluğu yarandı, inkişaf tempi yüksəldi. ÇXR-də olduğu kimi, Vyetnamda da müəyyən

qüvvələr iqtisadi islahatlarla yanaşı, siyasi həyatın da liberallaşdırılması cəhdlərində bulundular. Lakin Vyetnam kommunistləri də çinli qardaşları kimi öz inanclarında möhkəm dayanmaqdan daha çox hakimiyyəti əllərində saxlamaqda qətiyyətlidirlər. Onlar da çinlilər kimi ölkənin sosialist inkişaf kursu haqqında uzun-uzadı danışmaqla yanaşı, gerçəkdə 90-cı illərin əvvəlindən bazar münasibətləri yolunu tutmuş və bu yolda inamla irəliləməkdədirlər. Doğrudur, bu kurs yavaş gedir, bəzi hallarda çətinliklərlə, xüsusilə əvvəlki inzibati müdaxilələrin qalması ilə üzləşir. Ancaq artıq ölkə əvvəlki böhranlı vəziyyətdən çıxa bilmişdir, insanlar sosializmi təbliğ edən gündəlik şüarların əksinə olaraq bazar münasibətlərinin real üstünlüyünü dərk etmişlər.

Ölkə 90-cı illərə iqtisadiyyatda yaranmış tərəqqi ilə daxil olmuşdur, kənd təsərrüfatı, pul-kredit və xarici ticarət sahələrində uğurlar qazanılmışdır. İndiyə qədər özünün daxili ehtiyaclarını ödəyə bilməyən Vyetnam 1991-ci ildə 1,4 mln t düyü ixrac etdi. Həmin ildə inflyasiya xeyli aşağı düşdü, orta aylıq rəqəm 2,8% oldu, halbuki əvvəlki ildə 14,2% idi.

Xarici kapital qoyuluşu artdı. Həmin dövrdə ümumi dəyəri 800 mln dollar məbləğində olan 100-ə qədər layihənin həyata keçirilməsinə başlanıldı. Kontinental şelfdə neft və qaz axtarılması və çıxarılmasına, turizmin inkişafına, dəniz məhsullarının emalına, məişət texnikası, elektron avadanlıqlar və yüngül sənaye sahələrinə xeyli xarici sərmayə ayrıldı.

Xüsusi fəaliyyətə imkan yaradılması fərdi, ailə və digər formalı kustar müəssisələrin fəallaşmasına səbəb oldu. Özəl ticarət bölməsi də kifayət qədər inkişaf etdi.

1991-ci ildə ən çox inkişaf edən sahələrdən birisi xarici ticarət idi. İl ərzində ixrac 50% artmışdı. Yaponiya, Sinqapur, Fransa, Honq Qonq və s. ticarət aparılan əsas ölkələr idi.

1992-ci ilin iyulunda VKP-nin VII qurultayı keçirildi. Orada ölkədə sabitləşmə və sosial-iqtisadi inkişaf strategiyası haqqında qəbul olunmuş qərarda bir daha qeyd edilirdi ki, bazar iqtisadiyyatı dövlətin geri dönməz siyasəti olaraq qalacaqdır. Bu kursun həyata keçirilməsi sayəsində Vyetnam ərzaq problemini həll edə bildi. Təkcə bu faktı qeyd etmək istərdik ki, bütün dünyada düyü ixracı üzrə Vyetnam ABŞ və Taylanddan sonra 3-cü yerə çıxdı. 1997-ci ildən etibarən isə birinci yerdədir. Təkcə 1992-ci ildə ölkə iqtisadiy-

yatına 5,2 mld dollar məbləğində xarici kapital qoyuldu. Həmin ilin ən mühüm göstəricələrindən biri kimi idxal və ixrac arasında nisbi bir balansın yaranması qeyd edilməlidir. Bu baxımdan MDB ölkələri ilə əməkdaşlıq VSR üçün çox əlverişli olmuşdur. 1993-cü ildən başlayan əməkdaşlığın hüquqi-normativ bazasını hazırlamaq üçün 1994-1995-ci illərdə bir sıra sənədlər imzalandı. Bu işdə Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Bərpa və İnkişaf bankı və s.kimi təşkilatlar yaxından iştirak etdilər.

İqtisadi sahədəki «açıq qapılar» kursu xarici siyasətdə də VSR-nin fəallaşmasına, bir sıra yaxın-uzaq böyük dövlətlərlə və qonşuları ilə münasibətlərini normallaşdırmağa zəmin yaratdı. 1991-ci ildən ÇXR ilə əlaqələr bərpa edildi. 1991-1994-cü illərdə bir-birinin ardınca ASEAN ölkələri, Yaponiya, Avstraliya, ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya və s. ölkələrlə diplomatik münasibətlər quruldu, qarşılıqlı iqtisadi-texniki və mədəni əməkdaşlıq bərpa olundu, siyasi əlaqələr genişləndi. O, yeddinci ASEAN ölkəsi oldu. (Bu təşkilat 1967-ci ildə 5 dövlət: İndoneziya, Malayziya, Sinqapur, Tayland və Filippinlər tərəfindən yaradılmışdır, sonralar Bruney 6-cı üzv oldu).

Bunlarla yanaşı qeyd etmək lazımdır ki, istər bütün bölgə ölkələri, istərsə də konkret olaraq VSR üçün «çin amili» get-gedə hegemonluq rolu qazanmaqdadır. Təbiidir ki, bunun da kifayət qədər çoxlu daxili və xarici səbəbləri vardır. Daxili səbəb kimi «böyük qonşu»nun tarixən bu regionda təsiri, istər iqtisadi, istərsə də mədəni baxımdan böyük olmuşdur. Daxildə Çin xalqlarının nümayəndələri yaşayır və onlar iqtisadi baxımdan kifayət qədər qüvvətlidirlər, sayları da az deyildir. ÇXR tərəfindən edilən iqtisadi yardımlar da, təbiidir ki, təsirsiz qalmayacaqdır. Həm də hazırda ÇXR hərbi-siyasi baxımdan regionda rəqibi olmayan böyük dövlətdir. Bunlara görədir ki, istər ASEAN ölkələri, istərsə də Vyetnam adekvat tədbirlər görməyə cəhdlər göstərirlər. VSR-in öz ərazisində indi də rus hərbi qüvvələri və bazalarının fəaliyyət müddətini uzatması bu məqsəddən irəli gəlir. ÇXR-in qonşu, o cümlədən VSR ilə mübahisəli ərazi problemləri haqqında irəlidə danışdığımızdan bir də ona toxunmaq istəmirik. Ancaq onu qeyd etmək istərdik ki, ərazi mübahisələri təkcə ÇXR ilə deyil, həm də digər Cənub-Şərqi Asiya dövlətləri ilə də vardır.

90-cı illərdə VSR tarixi üçün maraqlı cəhətlərdən biri də

budur ki, iqtisadi sistemin liberallaşmasına önəm verən partiya və dövlət liderləri, xüsusi ilə yaşlı nəslin nümayəndələri bu kursun siyasi həyata keçirilməsinin qəti əleyhinədirlər. «Dinc təkamül»ü onlar bir nömrəli düşmən elan etmişlər. Lakin bununla yanaşı, siyasi həyata bir həlimlik gətirmək meylləri də yox deyildir. Hazırda siyasi mühafizəkarlar və iqtisadçı islahatçılar arasında gedən mübarizənin müəyyən təzahürləri özünü göstərməkdədir. Bunlardan birisi kimi 1996-cı ilin iyulunda keçirilən partiyanın VIII qurultayında hakim üçlüyün-75 yaşlı prezident Le Duk An, 79 yaşlı Baş katib Do Mı Oy və 73 yaşlı baş nazir Vo Van Kietin təqaüdə göndərilməsinə uğursuz cəhd göstərilməsini qeyd etmək lazımdır. Ümumiyyətlə, hazırda siyasi hakimiyyət uğrunda mübarizəyə mühafizəkar siyasətçilər və islahatçı iqtisadçılarla yanaşı hərbçilər də qoşulmuşlar. Elə bunun nəticəsi kimi 1997-1998-ci illərdə baş nazir və prezident öz postlarını bir qədər cavanlara tərk etdilər.

Ümumiyyətlə isə siyasi həyatda bəzi pozitiv dəyişikliklər prosesi ləng də olsa, getməkdədir. Hazırda Milli Məclisin bir dövlət orqanı kimi rolunun tədricən artması, VKP-nin hökuməti idarə etməkdən bir qədər aralanması və hökumətin bir sıra preraqotivlərinin bərpa edlimesi, hökumətin VKP MK-nın göstərişlərindən daha çox qanunlara istinad etməsi və idarəçiliyin partiya göstərişləri əsasında yox, qanunlar əsasında təşkil olunması cəhdləri, istər partiya, istərsə də dövlət idarəçiliyində aşağıların iştirakına az da olsa imkanlar yaradılması, başqa sözlə «aşağıdan yuxarıya» sisteminin cəmiyyətdə özünə yer tapması, ali təhsilin marksist ehkamlarından azad edilərək qərb standartlarına uyğunlaşdırılması meylləri, zəif də olsa azad və müstəqil mətbuat yaratmaq cəhdləri həmin prosesin tərkib hissələridir. Ancaq bunu da qeyd etmək lazımdır ki, bütün bunlar VSR və VKP liderlərinin liberal dəyərlərə meylindən yox, sadəcə təcrübədə mövcud idarə sisteminin yararsız və səmərəsiz olduğunu dərk etməsindən irəli gəlməkdədir.

# LAOS

Müharibədən sonrakı dövrdə Laos daha mürəkkəb və daha çətin yol geçmişdir. Əhalisinin sayı o qədər də çox olmayan və geri qalmış bir sosial-iqtisadi struktura malik bu ölkə də digər Hind-Çin dövlətləri kimi Fransanın müstəmləkəsi idi. II dünya müharibəsinin gedişində Fransanın məğlubiyyəti bu ölkələrin Yaponiya tərəfindən işğalını asanlaşdırdı və yaponlar, demək olar ki, heç bir hərbi əməliyyat aparmadan bütün Hind-Çini işğal etdilər. 1945-ci ilə qədər digər region ölkələri kimi Laos da formal olaraq Fransanın, həqiqətdə isə Yaponiyanın idarəsi altında idi. Ölkədə Yaponiyanın köməyi ilə fransız əsarətindən xilas olmağa böyük ümidlər yaranmışdı. Bununla bərabər elə qüvvələr də var idi ki, həm Fransaya, həm də Yaponiyaya qarşı düşmən mövqedə dururdular və ölkəni hər ikisinin əsarəti və təsirindən xilas etmək haqqında düşünürdülər. Demək lazımdır ki, bu qüvvələr bir qayda olaraq ya aşarı millətçilik, ya da kommunist təsiri altında idilər. Buna baxmayaraq yaponlar da burada sarı irq milliyyətçiliyi hisslərini, təbiidir ki, öz maraqlı baxımıdan, xeyli dərəcədə qüvvətləndirə bilmişdilər. Yaponiya müharibənin sonlarında burada bir Laos krallığı da qurmuşdu.

Müharibənin qurtarması ərəfəsində Fransa da regionda fəallaşmağa cəhdlər etməyə başladı. Fransa burada öz nəzarəti və himayəsi altında bir federativ dövlət yaradılacağını e'lan etdi. Onun bu istiqamətdə fəaliyyətinin uğursuzluğu haqqında Vyetnamla əlaqədar bəhs edildiyindən bir daha təkrara lüzum yoxdur. Qısaca demək istərdik ki, Vyetnamda uğursuzluğa düçar olan Fransa 1946-cı ildə Laos və Kamboca ilə ayrıca bir müqavilə imzaladı və ona görə hər iki ölkədə Fransanın ayrı-ayrı təmsilçisi saxlanılacaqdı. Lakin ölkələrin əsl idarəçisi, konstitusiyaya uyğun yerli hakimiyyət-hökumət və ya hökmdar olacaqdır.

Beləliklə də Fransa Hind-Çində, o cümlədən Laosda olan real şərtlərlə razılaşmaq zorunda qaldı. Ümumiyyətlə isə onun regionda əvvəlki mövqelərini bərpa etmək və güclənmək cəhdləri isə öz əleyhinə yönəlmiş oldu. Bu da əsasən iki səbəbdən irəli gəlirdi. Bunlardan biri yadelli əsarətindən xilas olmaq üçün yerli qüvvələrin fədakarlığı və hətta bu baxımdan kifayət qədər təşkilatlanması; ikincisi isə zəif düşmüş Fransanın istər öz daxilində, istərsə də müstəmləkələrdə rastlaşdığı ağır sosial-iqtisadi durumu düzəltməkdə

son dərəcə imkansızlığı idi.

Konkret halda feodal münasibətlərininin olduqca qüvvətli şəkildə saxlanıldığı Laosda yeni bir sosial-siyasi sistem yaratmaq, keçmiş ictimai sistemin yerinə yeni və daha yararlı rejim qoymaq, dağıdılmış təsərrüfatın yaralarını sağaltmaq və irəliyə doğru gedərək yeni istehsal obyektləri qurmaq, ölkənin ağır maliyə vəziyyətini dirçəltmək olduqca ağır problemlər idi. Fransa bu baxımdan Laosda heç bir tədbir görə bilmirdi. Əksinə, ölkədə keçmişdən miras qalmış adət-ənənələr daha da möhkəmlənirdi. Yerli idarəçilikdə ənənəvi strukturlar bərpa olunur, qəbilə-tayfa başçılarının hakimiyyəti qüvvətlənirdi. Hətta kral özü belə onların işinə qarışa bilmirdi. Təbiidir ki, möhkəmlənməkdə olan bu qüvvələr də heç zaman yenidən yadellilərin hakimiyyəti altına düşməyə razılaşmazdılar.

50-ci illərin əvvəllərindən e'tibarən şahzadə Sufanuvonqun başçılığı altında Laos Azadlıq Cəbhəsi fransız müstəmləkəçilərinə qarşı geniş partizan əməliyyatları aparırdı və uğurlar da az deyildi.

Regionun bir sıra ölkələrini əhatə edən istiqlal hərəkatı qarşısında geri çəkilmək artıq qaçılmaz oldu. Nəhayət, Hind-Çində hərbi əməliyyatların şiddətlənməsi Qərb və Şərq blokları arasında böhranlı vəziyyətin yaranmasına gətirdi. Belə olduqda ABŞ, Fransa, Sovet İttifaqı, ÇXR və Böyük Britaniyanın iştirakı ilə 1954-cü ilin aprelində Cenevrədə konfrans çağrıldı. Danışıqlar 1954-cü ilin 20 iyulunda bir sazişin imzalanması ilə başa çatdı. Onun şərtlərinə görə Fransa Hind-Çindən, o cümlədən Laosdan çəkilməli oldu və həmin tarixdən etibarən Laos öz tam istiqlalına qovuşdu.

Lakin həmin dövrdə artıq ÇXR və Şimali Vyetnamın kommunist liderləri Sovet İttifaqının regionda kommunist hegemonluğu planlarının icraçılarına çevrilmişdilər. Onlar bir tərəfdən Cənubi Vyetnamda hər cür pozuculuq əməlləri etmək üçün lazım olan bütün imkanlardan istifadə edir, digər tərəfdən öz fəaliyyət sahələrini qonşu ölkələr hesabına genişləndirirdilər. Belə qonşulardan birisi da Laos oldu. Cenevrə sazişindən sonra ölkənin birliyini bərpa etmək, siyasi və iqtisadi problemlərin həlli imkanları məhz qonşu kommunist dövlətlərin və onların ölkədəki tərəfdarlarının əməlləri nəticəsində nəinki reallaşa bilmədi, əksinə daxili qarşıdurma daha da şiddətləndi. 1964-cü ildən ABŞ-ın məsələyə qarışması və ölkədəki mövcud rejimi müdafiə etməsi də bir nəticə vermədi. Doğrudur, 1973-cü ilin fevralında Vyetnamda münaqişə edən tərəflər arasında

ölkədə sülhün bərpa edilməsi və milli barışıq haqqında saziş imzalandı. Lakin az sonra Vyetnamda kommunistlərinin qələbəsi və Sayqon hökumətinin çökməsi ilə Laosda da vəziyyət köklü surətdə dəyişdi. Sol qüvvələrə başçılıq edən Laos Xalq İnqilab Partiyasının (partiya 1972-ci ildə yaradılmışdı) rəhbərliyi altında mövcud hakimiyyətə qarşı güclü çıxışlar başladı. Bu mübarizə onunla nəticələndi ki, 1975-ci ilin may-avqust aylarında kommunist ovqatlı üsyançılar qalib gəldilər. Hakimiyyət Laos Xalq-İnqilab Partiyasının əlinə keçdi və 1975-ci ilin dekabrında Laos Xalq Demokratik Respublikasının yaradıldığı elan edildi.

Bundan sonra Laos da qonşu Vyetnamla bir sırada Cənub-Şərqi Asiyada sosializm düşərgəsinin dayaqlarından birinə çevrildi. Ölkədə sosializm quruculuğuna başlanıldı. İqtisadiyyatın əsas sahələri dövlət bölməsinə və ya onun nəzarəti altına keçdi. Bütün banklar və iri mülkiyyət obyektləri milliləşdirildi, kiçik özəl mülkiyyət obyektləri və fəaliyyət sahələri üzərində dövlətin ciddi nəzarəti yaradıldı. Ölkədə marksist yönümlü sosializm qurulması başlıca vəzifə e'lan olundu. Bu barədə hələ 1975-ci ilin 2 dekabrında Milli Konqresin tribunasından LXDP MK-nın baş katibi və LXDR Nazirlər Sovetinin sədri Keyson Fonvixan təntənəli şəkildə bəyan etmişdi. O bildirirdi ki, Laosda sosialist iqtisadiyyatı yaratmaqla yanaşı LDXP həm də formaca milli, məzmunca sosialist mədəniyyəti formalaşdıracaqdır. Keyson Fonvixan bütün bunları o zaman elan edirdi ki, ölkə, irəlidə dediyimiz kimi, olduqca arxaik bir sosial-iqtisadi struktura malik idi və əhalinin isə mütləq çoxluğu etno-sosial baxımdan feodal dövrünün düşüncələri hüdudlarından kənara çıxmağı xəyalına belə gətirmirdi.

Əsas istehsal sahələri və obyektləri, eləcə də təsərrüfat fəaliyyəti dövlətin tam nəzarəti altına alındıqdan sonra 1978-1980-ci illəri əhatə edən ilk üçillik sosial-iqtisadi inkişaf planı, bunun ardınca isə ilk beşillik plan qəbul edildi. Beşillik plan 1981-1985-ci illəri əhatə edirdi. Qeyd etmək lazımdır ki, rəsmi statistika həmin illərdə iqtisadiyyatın müxtəlif sahələrində, başlıca olaraq isə kənd təsərrüfatında böyük uğurların qazanıldığı haqqında məlumatlar versə də, az sonra qonşu kommunist dövlətləri kimi Laosun da «açıq qapılar» siyasətinə keçdiyinin şahidi oluruq.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Laos kommunistləri öz vətəndaşlarını siyasi yönümlü ittihamlar əsasında məhv

etməkdə də öz sələfləri və qonşularının yolu ilə getmişlər. 1975-ci ildən 80-ci ilədək olan müddətdə yarım milyon nəfərə qədər insanı qətlə yetirmişlər.

Artıq 80-ci illərin ortalarında Laos partiya və dövlət rəhbərlərinin uğurlu sosializm quruculuğu haqqında şişirdirilmiş şəkildə söylədikləri fikir və mülahizələrin reallıq olmadığını ən azı onların özləri dərk etməyə başlayırdılar. BMT-nin həmin dövrə aid məlumatlarına görə isə Laos iqtisadi cəhətdən dünyanın ən yoxsul ölkələrindən biri, əhalisi isə adam başına düşən gəlir baxımından ən kasıb insanlardan idi. Orta yaş həddi 50 ildir. Yaşlı əhalinin yalnız 40%-i yazmağı və oxumağı bilir. Əhalinin 85%-i kənddə yaşayır və s. Burada da yaranmış belə bir acınacaqlı vəziyyətin səbəbi qonşu kommunist ölkələrində olduğu kimi idi. Odur ki, Laos partiya və dövlət liderləri də marksist sosialist iqtisadiyyatından tədricən azad bazar iqtisadiyyatına üz tutmaq məcburiyyətində qaldılar. Bu məqsədlə 80-ci illərin sonlarında bir sıra islahatlar keçirildi və onlar imkan verdi ki, ölkənin iqtisadi durumu bir qədər yaxşılaşa bilsin. Artıq islahatlar yolunun, azad bazar iqtisadiyyatı yolunun qaçılmaz olduğu dərk edilirdi. 1990-cı ilin martında LXDP-nin yaradılması ildönümü münasibətilə keçirilən təntənəli toplantıda MK-nın baş katibi və Nazirlər Sovetinin sədri Keyson Fonvixan bəyan edirdi ki, ölkədə sosializm quruculuğunda müəyyən uğurlar qazanılsa da indi xalq iqtisadi baxımdan böyük çətinliklər qarşısında qalmışdır. Bundan yeganə çıxış yolu həyatın bütün sahələrində yeniləşdirmə siyasətinə keçilməsidir. İqtisadi sahədə bazar iqtisadiyyatına keçid, xarici iqtisadi əlaqələri genişləndirmək, müxtəlif ukladlı təsərrüfat fəaliyyətinə imkan yaratmaq, siyasi sahədə isə demokratiyanı və xalqın hüquqlarını, onun idarəçilikdə iştirakını artırmaq həmin yeniləşmə siyasətinin əsas vəzifələri elan olunurdu.

Vyetnam kommunistləri kimi Laos kommunistlərinin də ölkə həyatında liberal dəyərlərə yer verməsi, heç də onların kommunist düşüncə tərzinin dəyişməsindən irəli gəlmirdi. Sadəcə təcrübə onları bu yola getməyə məcbur etmişdi.

1990-cı ilin martında LXDR-in tarixində ilk dəfə olaraq ali hakimiyyət orqanı olan Ali Xalq Məclisinə çoxmandatlı sistem əsasında seçkilər keçirildi. Mayda konstitusiyası lahiyəsi ümumxalq müzakirəsinə verildi. Layihənin müzakirəsi ilə yanaşı parlament bir sıra hüquqi aktlar qəbul etdi. Əmək, ailə, mülkiyyət, vətəndaşlıq

vəziyyəti, xalq məhkəmələri, prokurorluq və s. haqqında qanunlar bu qəbildən idi.

1991-ci ilin 14 avqustunda LXDR-in ilk konstitusiyası qəbul olundu. Bununla da indiyə qədər ölkənin müvəqqəti dekretlər və sərəncamlar əsasında idarə olunmasına son qoyuldu.

Konstitusiyaya görə hakimiyyətin xalqa məxsus olduğu söylənilsə də, ancaq onun üçüncü maddəsində cəmiyyətin siyasi sisteminin rəhbəredici qüvvəsinin Laos Xalq-Demokratik Partiyasının olduğu bəyan edilirdi. LXDP ölkədə hakim partiya olaraq qalırdı. Siyasi və ideoloji sahələrdə heç bir plüralizmə yol verilmirdi.

Bununla yanaşı Konstitusiya yeniləşmə siyasəti ilə bağlı cəhdləri də özündə əks etdirirdi. Sosial-iqtisadi sistemin çoxukladlığa söykəndiyi və burada da müəyyən rolun xüsusi mülkiyyətə məxsusluğu təsbit olunurdu.

90-cı illərin ən mühüm hadisələrindən birisi kimi ölkənin beynəlxalq əlaqələrində baş verən dəyişikliklər də qeyd edilməlidir. Birincisi, xarici kapitalın nəinki ölkəyə axmasına icazə verilirdi, həm də bu kapitalın toxunmazlığına hüquqi baxımdan tam təminat yaradıldı. İkincisi, qonşu ölkələrlə münasibətlər qarşıdurmadan dostluq axarına salınırdı. Bu baxımdan Tayland və ÇXR ilə münasibətlərin təmamən dəyişdiyini qeyd etmək istərdik. Yaponiya və Fransa ilə münasibətlər çox yüksək səviyyəyə qaldırılmışdı. ABŞ-la münasibətlərdə pozitiv irəliləyiş vardı. Sovet İttifaqının dağılmasından sonra Rusiya Federasiya ilə əlaqələr davam etdirilirdi. Lakin RF Laosun xarici siyasətində Sovet İttifaqının yerini əvəz etmək gücündə deyildir.

Yeniləşmə siyasətinə keçilməsi ilə bir dövrdə ölkənin prezidentliyinə seçilən Keyson Fonvixanın 1992-ci ilin noyabrında ölümündən sonra onun yerini Nuxan Pxeymsavan tutdu. Yeni prezident də öz sələfinin kursunu davam etdirməkdədir.

90-cı illərin ortalarında istər iqtisadi, istərsə də siyasi sahədə əldə edilmiş nailiyyətlərin sonucu kimi 1995-ci ildə Laosun ASEAN-a üzvlüyü irəli sürüldü. Lakin hələ bir sıra islahatların keçirilməsi lazım bilindiyinə görə bu məsələ bir qədər ləngidi və nəhayət, 1997-ci il iyulun sonlarında ASEAN-ın Kuala-Lumpurda keçirilən sessiyasında Laos təşkilatın bərabərhüquqlu üzvü seçildi.

LXDR doxsanıncı illərdə işlənib-hazırlanmış sosial-iqtisadi və siyasi inkişaf kursunu günümüzdə də qoruyub saxlamaqdadır.

# KAMBOCA

Kamboca[1] da Vyetnam və Laos kimi ikinci dünya müharibəsi başlandığı dövrdə Fransa «himayəsi» altında, əslində isə müstəmləkə əsarəti altında olan ölkələrdən idi. Fransanın məğlubiyyətindən sonra Kamboca da yaponların nəzarəti altına keçmişdi. Yaponiya Fransanın öz əvvəlki müstəmləkələrinə ola biləcək iddialarına qarşı bir sipər olaraq müharibənin sonlarında burada bir krallıq da yaratmışdı.

Qeyd etmək lazımdır ki, Kambocanın millətçi qüvvələri hələ 40-cı illərin əvvəllərindən fransız müstəmləkəçilərinə qarşı mübarizəyə başlamışdılar. Bu mübarizəyə Kxmer Vətənpərvərlər Cəbhəsi (Kxmer İssarak) başçılıq edirdi. II dünya müharibəsi başa çatdıqdan sonra Fransanın öz əvvəlki müstəmləkələrində yenidən möhkəmlənmək cəhdləri haqqında irəlidə danışıldığından burada yalnız onu qeyd etmək istərdik ki, Kamboca xalqı bu cəhdləri narazılıqla qarşıladı. Xalq yenidən milli istiqlal savaşına qalxdı. İrəlidə deyildiyi kimi, Fransa 1946-cı ildə Kambocada öz təmsilçisinin saxlanılması şərti ilə bundan sonra ölkənin idarə edilməsindən geri çəkildiyini, ölkənin kamboca xalqının istəyinə uyğun və xalqın müəyyən etdiyi qüvvə tərəfindən idarə edilməsinə razılıq verdiyini bildirirdi. Bu barədə tərəflər arasında müqavilə də imzalandı.

Buna baxmayaraq Fransa regionda möhkəmlənmək iddialarından əl çəkmək istəmirdi. Lakin region xalqları da istiqlal uğrunda mübarizədə böyük fədakarlıq və əzmkarlıq göstərdi. İrəlidə dediyimiz kimi, yaranmış böhranlı hal 1954-cü ilin 20 iyulunda böyük və maraqlı dövlətlərin iştirakı ilə Cenevrədə keçirilən konfransda imzalanmış sazişə əsasən aradan qaldırıldı. Həmin vaxtdan e'tibarən Kamboca da öz istiqlalını qazanmış oldu. Hələ buna qədər isə Fransa 1953-cü ildə öz inzibati və hərbi qüvvələrini ölkədən çıxarmışdı.

Ölkəyə rəhbərlik kral Narodom Sianukun ətrafında birləşmiş milli-demokratik qüvvələrin Sanqkum partiyasının əlində cəmləşmiş oldu. Onlar Kambocada «kxmer budda sosializmi» qurmağı öz başlıca məqsədləri elan etdilər. Ümumiyyətlə həmin vaxtlarda dünyanın ayrı-ayrı bölgələrində konfessional zəmində sosializm qurmaq təcrübələri çox geniş şəkildə yayılmağa başlamışdı. İstər laik, istərsə də klerikal

[1] 70-80-ci illərdə ölkə Kampuçiya adlanırdı.

siyasətçilər dəfələrlə bildirirdilər ki, metafiziki baxımdan din və marksizm bir-birindən fərqlənsələr də öz son məqsədləri baxımından çox yaxındırlar. Klerikallar, lap elə din xadimləri elan edirdilər ki, dində sosializm prinsipləri kifayət qədər boldur və hər iki təlim - din və sosializm nəzəriyyəsi çoxlu ümumi və oxşar cəhətlərə malikdirlər. Konkret halda «budda sosializmi»ndən söhbət gedəndə bu ideyanın tərəfdarları bəyan edirdilər ki, «Budda özü elə sosialist olubdur. Çünki, onun özünün heç bir şeyi olmamışdır». Yaxud «Budda dünyanın inqilabçı islahatçısı» adlandırılırdı. Doğrudur, bu ifadələr günümüzün şərtləri baxımından bir qədər çox sadəlövh görsənə bilər. Ancaq, bunlar o dövrün buddist mentalitetinin düşüncə tərzini və gedişini tam real şəkildə əks etdirən ifadələrdir.

Məhz elə bu zəmində də kral Narodom Sianuk taxt-tacdan əl çəkdi, ancaq ölkənin prezidenti olaraq dövlətə rəhbərliyini davam etdirdi. Onun hakimiyyəti 1970-ci ilə qədər sürdü. Həmin ildə general Lon Nol hərbi çevriliş eldi və N. Sianuk hakimiyyətdən uzaqlaşdırıldı. Lon Nolun başçılıq etdiyi qüvvələrin hakimiyyətə yiyələnməsi gizli fəaliyyət göstərən kommunist müxalifət tərəfindən kəskin etiraz reaksiyası ilə qarşılandı. Kommunistlərin yaratmış olduğu Kamboca Xalq-İnqilab Partiyasının baş katibi Pol Pot yeni rejimə qarşı silahlı mübarizənin təşkilatçısı və rəhbəri oldu.

Müasir tarixdə «qırmızı kxmerlər»in lideri kimi tanınan Pol Pot və ölüm sözü sinonim kimi anlaşılır.

Pol Pot kimdir ?

O, 1928-ci ildə çoxuşaqlı bir kəndli ailəsində doğulmuşdur. Gənclik illərində Fransada təhsil alarkən kommunist dərnəyinin üzvü olmuş, marksizm klassiklərinin əsərlərini oxumuş və dünyagörüşü bu zəmində formalaşmışdı. 50-ci illərin əvvələrində Kambocaya qayıdan Pol Pot gizli fəaliyyət göstərən Kamboca Xalq-İnqilab Partiyasının sıralarına qatılır. (Partiya 1951-ci ildə yaradılmışdır.). O, 1969-cu ildə KXDP MK-nın baş katibi seçilmişdir. Pol Pot 60-cı illərin sonu 70-ci illərin əvvəllərində hakimiyyətə gəlmək üçün aparılan silahlı mübarizənin əsas təşkilatçılarından və rəhbərlərindən idi. Həmin dövrdə Narodom Sianuk onu və tərəfdarlarını «qırmızı kxmerlər» adlandırmış, elə sonralar da onlar bu adla tanınmışlar.

Pol Potun komandanlıq etdiyi «qırmızı kxmer» hərbi qüvvələri Vyetnam müharibəsi dövründə Cənubi Vyetnam və ABŞ-a qarşı geniş hərbi əməliyyatlar aparmışlar. Məhz elə bu hərbi təcrübə

Lon Nol rejiminə qarşı mübarizədə onların işinə çox yaradı.

Lon Nolun diktatorluq meylləri gücləndikcə ölkədəki siyasi qüvvələr, hətta ordunun içində olan narazı qüvvələr rejimə qarşı açıq mübarizəyə başladı. Bu mübarizənin silahlı forma alması və rejimə qarşı hərbi əməliyyatların aparılması daha çox «qırmızı kxmerlər»in adı ilə bağlıdır. Bu da hər şeydən əvvəl lap ilk vaxtlardan onların Şimali Vyetnam tərəfindən dəstəklənməsi nəticəsində mümkün olmuşdur.

Sonralar isə «qırmızı kxmerlər»in ən böyük dəstək verəni ÇXR oldu. ÇXR onlara hər cür silah və hərbi ləvazimatla yardım göstərirdi. «Qırmızı kxmerlər» hakimiyyət uğrunda silahlı mübarizəyə başlayanda Şimali Vyetnam da öz ordusundan 30 min nəfərlik qüvvəni onların köməyinə göndərdi.

1975-ci ilin yanvarında Şimali Vyetnamın ABŞ-la sülhə gəlməsi «qırmızı kxmerlər»in daha böyük qüvvə və əzmlə mübarizəni davam etdirməsinə imkanlar yaratdı və onlar 1975-ci ilin 17 aprelində paytaxt Pnompeni tutdular. Bununla da Kamboca kommunistlərin nəzarəti altına keçdi. Həmin vaxtdan dövlətin adı dəyişdirildi və Kampuçiya oldu. Bu da onunla bağlı idi ki, 1973-cü ildən kommunistlər öz partiyalarını Kampuçiya Kommunist partiyası adlandırırdılar. Ümumiyyətlə isə dövlət rəsmi olaraq Kampuçiya Demokratik Respublikası adlandı.

Kommunistlərin 1975-ci ildən ölkəyə hakim olmasından etibarən Kampuçiya ilə Vyetnam arasında münasibətlər pozulmağa başladı və 1977-ci ildən isə silahlı toqquşmalar və hərbi əməliyyatlar axarına keçdi. Hadisələrin bu cür inkişafında iki mühüm hadisə əsas rol oynamışdır. Bunlardan birincisi o idi ki, 1950-ci illərdən başlayaraq Vyetnam kommunistləri Kamboca kommunist partiyası üzərində güclü və həlledici nufuza malik idilər. Təbiidir ki, bu da Kamboca kommunistlərini məcbur edirdi ki, öz ölkələrinin maraqlarını bir kənara buraxaraq Vyetnam Kommunist Partiyasının öz istəklərinə uyğun cızdığı planlar və hədlər daxilində hərəkət etsinlər. Yəni iki partiya arasındakı əməkdaşlıq Kambocanın deyil, Şimali Vyetnamın maraqlarına görə formalaşmalı idi. Təbiidir ki, bu durum Kamboca kommunistlərini, xüsusilə də hakimiyyətə yiyələndikdən sonra uzun müddətə təmin edə bilməzdi.

İkinci səbəb də o idi ki, ümumiyyətlə Vyetnamın maraqlarının Kambocanın maraqlarından üstün tutulması Kamboca

kommunistlərinin narazılığına səbəb olurdu. Çünki, XVII əsrdən XIX əsrədək Kambocadakı kxmer krallığı ilə Vyetnam krallığı arasında daimi rəqabət və mübarizə mövcud olmuşdur. Bu səbəbdən da kxmerlərin vyetnamlılara nəinki xüsusi bir rəğbəti yox idi, bəlkə də düşmənçilik hissləri var idi. Kxmerlərin vyetnamlılara qarşı bu tarixi düşmənçiliyi iki ölkə kommunist partiyaları arasındakı münasibətlərə də təsir etməkdən kənarda qalmamışdır. Bunlardan əlavə, Şimali Vyetnam Cənubi Vyetnama qarşı apardığı mübarizə dövründə Kamboca torpaqlarından istifadə etmiş, bir qədər irəlidə deyildiyi kimi, buraya öz əsgərlərini göndərmiş və 1975-ci ildə «qırmızı kxmerlər»in qələbəsindən sonra bu silahlı birləşmələri Kambocadan çıxarmaq haqqında düşünmək belə istəmirdi. Məhz sonuncu məsələ iki dövlət arasında üç il davam etmiş qanlı və mənasız hərbi əməliyyatlar üçün bəhanə oldu.

Ümumiyyətlə «qırmızı kxmerlər»in hakimiyyətə yiyələnməsi ilə Kamboca uzun illər boyunca dünyanın ən qaynar nöqtəsinə çevrildi, beynəlxalq ictimaiyyət üçün narahatlıq yaradan bir region oldu. Bunun da əsasında o dururdu ki, Pol Potun rəhbərlik etdiyi kommunist dəstələri bu kiçik ölkəni (hazırda 8 mln nəfər əhalisi var) dəhşətli bir sosial eksperiment düşərgəsinə çevirdilər. Pol Pot rejiminin ölkədə tətbiq etdiyi təcrübə vaxtilə Sovet İttifaqında İ.V. Stalinin, KXDR-də Kim İr Senin, ÇXR-də Mao Dze dunun törətdiyi əməlləri tamam kölgədə qoymuş oldu. Təsadüfi deyildir ki, «qırmızı kxmerlər»in 1975-1979-cu illər hakimiyyəti «XX yüzilliyin ən qanlı diktaturası» adlandırılır. Mao Dze-dunu özlərinin idealı hesab edən «qırmızı kxmerlər» «Kamboca tipli sosializm» qurmaq planını həyata keçirmək yolunda 3 mln nəfər vətəndaşını məhv etdi. Bunlar da əsasən təhsilli və ixtisaslı adamlar idilər. Ölkə böyük bir həbs düşərgəsinə çevrildi və burada «qırmızı kxmerlər» istədikləri ağlagəlməz vəhşilikləri edə bildilər.

Pol Potun «sosializm qurmaq» planına uyğun olaraq bütün şəhərlər dağıdıldı, oradakı sənaye obyektləri və digər infrastruktura məhv edildi. Pol Pot üçün heç bir şeyin, hətta insan həyatının dəyəri yox idi. Gülləyə qənaət etmək naminə insanları yaba və bel ilə, yaxud başqa bir iş alətilə öldürürdülər, soyuqda dondururdular, hər cür işgəncələrə düçar edirdilər. Kxmer qırmızı terroru mahiyyət etibarilə digər kommunist ölkələrində baş vermiş terrorlarla qohum olsa da, forma baxımdan daha dəhşətli və daha amansız idi. Bu terror

indiyə qədər edilmiş bütün terrorlarla müqayisədə bir karikaturanı xatırladırdı. «Qırmızı kxmerlər»in bu amansızlıq və qəddarlıqla köklənmiş inamının əsasında isə marksist proletar diktaturası nəzəriyyəsi, düşmən sinifləri, ümumiyyətlə inqilaba düşmən olan hər kəsi məhv etmək ideyası dururdu.

Pol Pot və onun kommunist dəstələri ölkədə diktatorluq yaratdılar. Qəbul olunmuş yeni konstitusiyaya görə 1976-cı ildə krallıq ləğv edildi, aprel ayında N.Sianuk Xalq nümayəndələri məclisində istefaya göndərildi.

ÇXR-dən başqa yaxın və uzaq dövlətlər-ABŞ, Sovet İttifaqı, Vyetnam və s. qəddar düşmənlər elan olundu. ABŞ cəhənnəm odu hesab edilirdi. Sovet İttifaqı haqqında Pol Pot deyirdi ki, əgər o bizə hücüm edəsi olsa, biz yüz illər boyu nəsil-nəsil vuruşmağa hazırıq. O, 50 milyonluq Vyetnamı məhv etmək üçün 700 il döyüşə biləcəklərini və qalib gələcəklərini elan edirdi. Pol Pot və onun məddahları öz istəklərinə çatmaq üçün ağılasığmaz cəfəngiyat olan hər cür ifadə və sözləri işlətməkdən əsla utanmırdılar. Qarşıda maneə saydıqları hər cür canlı və cansızı məhv edirdilər. İnsanı gözlük taxdığına görə,- bir haldakı gözlük taxır, demək savadlıdır və qadağan olunmuş kitabları oxuya bilər,- deyə, evdə kitab gizlətdiyinə, əcnəbilərlə ünsiyyət saxladığına, xaricdə təhsil aldığına və s. görə edam edirdilər.

Kəndliləri zorla «kommunalara» doldururdular. Bu «kommunalar» isə faktik olaraq konslager idi. Kəndlilərlə yanaşı milyonlarla şəhərli və budda rahibləri «kommunalar»da işləməyə məcbur edildi. Budda din xadimləri hər cür rütbə və addan məhrum edildi. Pul ləğv olundu, rabitə vasitələri məhv edildi, ailələr və ailə üzvləri bir-birindən ayrılıb dağıdıldı. Ölkədə genosid tüğyan edirdi.

ÇXR-də tətbiq edilən «böyük sıçrayış», «mədəni inqilab» və s. Pol Pot rejiminin çox sevdiyi tədbirlər idi.

Qonşu dövlətlərə münasibətdə davakar bir siyasət yürüdülürdü. 1975-ci ildə Taylanda qarşı toqquşmalar törədildi. 1977-ci ildə Laosa məxsus olan bir sıra adalar tutuldu. Vyetnamla ilk gündən qarşı-qarşıya durmuş və hərbi əməliyyatlara başlanılmışdı. Bu barədə irəlidə bir qədər danışılmış və səbəblərinə toxunulmuşdur. 1977-ci ildə isə qarşıdurma daha da gücləndi, hərbi əməliyyatlar şiddətləndi və genişləndi. Bu vuruşmalar zamanı Vyetnam 8 min nəfərədək döyüşçü itirdi. Vəziyyət get-gedə gərginləşirdi. Bu səbəbdən 1978-ci ilin fevralında Vyetnam Kambocaya təklif etdi ki, hərbi əməliyyatlar

dayandırılsın, qoşunlar sərhədin hər iki tərəfindən 5 km məsafədə aralıda dayansınlar və arada bir zolaq yaradılsın, bir-birinin daxili işlərinə qarışmasınlar. Lakin bu təklif Kamboca tərəfindən rədd edildi. Görünür bu cür hərəkət etməkdə «qırmızı kxmerlər»in ölkədə onlara qarşı yaranmaqda və güclənməkdə olan etiraz reaksiyasını və müqaviməti zəiflətmək və ya onun qarşısını almaq istəkləri də az rol oynamamışdır. Həqiqətən, həmin dövrdə istər mülki əhalinin, istərsə də ordunun içində ciddi bir narazılıq var idi. Odur ki, Kamboca rəhbərləri Vyetnama qarşı hərbi əməliyyatları davam etməkdə qərarlı oldular.

Vəziyyət belə şəkil aldıqda Kambocanın arxasında duran ÇXR, belə demək mümkündürsə, üzə çıxdı. Bu da onunla bağlı idi ki, çətinliklər qarşısında qalan Vyetnam Sovet İttifaqına üz tutmuşdu və ondan hər cür: həm hərbi, həm də iqtisadi yardımlar almağı artırmışdı. Kamboca da buna müqabil olaraq ÇXR-dən eyni yardımları və həm də eyni həcmdə gözləyirdi. ÇXR isə öz növbəsində mövcud imkanlarını dəyərləndirməli idi və təbiidir ki, onun həmin dövrdəki imkanları Sovet İttifaqı ilə müqayisəyə gələ bilməzdi. Odur ki, ÇXR regionda yeni müharibə alovunun şiddətlənməsi və ətrafa yayılmasını istəmədi. O, 1978-ci ilin mayında Kambocanı məcbur etdi ki, hərbi əməliyyatların dayandırılması, Kambocanın ərazi bütövlüyünə və istiqlaliyyətinə Vyetnam tərəfinin hörmət göstərdiyini ehtiva edən bir saziş bağlanılması haqqında təklif versin. Bu dəfə edilən təklifi Vyetnam rədd etdi. Həm də o, Kambocaya qarşı narazı kambocalılardan istifadə etməyi planlaşdırdı.

Yuxarıda deyildiyi kimi ölkədə problemlər artırdı və narazı qüvvələr var idi. O biri tərəfdən «qırmızı kxmerlər»in zülmündən baş götürüb qaçan 300 min nəfərə qədər Kamboca vətəndaşı, - bunların çox böyük hissəsi mənşəcə vyetnamlı idi, - Vyetnamda sığınacaq tapmışdı. Ölkə daxilində və xaricdə olan narazı qüvvələrin təmsilçiləri 1978-ci il dekabrın 2-də Kamboca rayonlarının birində bir araya gəldilər və konqreslərini keçirdilər. Orada qərara alındı ki, Kamboca Vahid Milli Nicat Cəbhəsi yaradılsın. Cəbhənin Mərkəzi Komitəsi seçildi, onun başına isə Pol Pota qarşı qiyam etmiş diviziya komandiri Henq Samrin gətirildi. Beləliklə Vyetnamın əli ilə yaradılmış bu cəbhənin rəhbərliyi Pol Pot rejiminə qarşı mübarizəyə kömək üçün Vyetnama müraciət etdi. Vyetnam da öz növbəsində lazım olan bütün köməkləri verməklə yanaşı Kamboca sərhədləri boyunca 200 min

nəfərlik bir ordu yerləşdirdi.

Bütün bunlar regionda daha böhranlı bir vəziyyət yaranmasının ilkin əlamətləri idi. Kamboca-Vyetnam münasibətlərinin belə gərginləşməsi Vyetnam -ÇXR münasibətlərini pozulmaq dərəcəsinə çatdırdı. Vyetnam Kamboca sərhədlərinə qoşun topladıqda, ÇXR də adekvat addım atdı - öz qoşunlarını Vyetnam sərhədləri boyunca düzdü. Vəziyyət Vyetnamın Sovet İttifaqı ilə az qala hərbi ittifaq mahiyyəti daşıyan «Sülh, Dostluq və Əməkdaşlıq haqqında» 1978-ci il noyabrın 3-də bir müqaviləni imzalaması ilə daha da gərginləşdi. Belə ki müqavilənin 6-cı maddəsində deyilirdi: tərəflərdən biri hücum və ya hücum təhlükəsi ilə qarşılaşarsa, tərəflər lazımı tədbirlər görmək üçün dərhal bir-birilə məsləhətləşəcəklər. Təbiidir ki, bu da o demək idi ki, əgər Vyetnam Çin təcavüzünə məruz qalarsa ona qarşı Sovet İttifaqını çıxara bilərdi. Vyetnam bununla da öz arxasını möhkəmləndirirdi.

Bundan sonra Vyetnam 1978-ci ilin 27 dekabrında tanklar və zirehli döyüş maşınlarının köməyi ilə 120 min nəfərlik hərbi qüvvəni Pol Pot rejiminə qarşı çıxan qüvvələrə kömək adı altında Kambocaya yeritdi. 1975-ci ildən bəri ölkəni zülm və işgəncə metodalrı ilə idarə edən diktatorluq rejimi birləşmiş Vyetnam müxalifət qüvvələrinin hücumlarına davam gətirə bilmədi, bir-birinin ardınca məğlub oldu. 1979-cu ilin 7 yanvarında paytaxt Pnompen tutuldu. Pol Pot öz sadiq qüvvələrilə Tayland sərhədləri yaxınlığında dağlıq və meşəlik bölgələrdə məskən saldı.

Pol Potun komandanlığı altında 30 minlik hərbi dəstələr bundan sonra Henq Samrin rejiminə qarşı partizan müharibələrinə başladı. Bu mübarizədə Pol Potu ÇXR ilə bərabər Tayland da müdafiə edir və dəstəkləyirdi.

Pnompenin tutulduğunun ikinci günü, yəni yanvarın 8-də Henq Samrinin başçılığı altında Kampuçiya Xalq İnqilab Komitəsi yaradıldı. Elə həmin gün Kampuçiya Xalq Respublikasının yaradıldığı elan edildi.

Qeyd etmək lazımdır ki, Kambocanı faktik olaraq Vyetnamın işğal etməsi dünyada çox böyük etiraz və kəskin reaksiya yaratdı. Elə buna görə idi ki, Sovet İttifaqının bütün cəhdlərinə baxmayaraq, Birləşmiş Millətlər Təşkilatında Kambocanı Henq Samrin deyil, Pol Pot rejimi təmsil etməkdə qaldı.

Lakin Vyetnam hərbi qüvvələri də Kambocada qalmaqda

davam edirdi və 10 il müddətində buradan çıxmadı. Vyetnamın bu əməli təkcə beynəlxalq təşkilatların və maraqlı dövlətlərin deyil, eləcə də regionun, demək olar ki, bütün dövlətlərinin qəti etirazına səbəb olmuşdu. Xüsusilə isə ASEAN ölkələri çox ciddi narahatçılıq keçirirdilər və bu barədə dəfələrlə öz fikirlərini açıqca bildirmişdilər.

Nəhayət, beynəlxalq ictimaiyyətin güclü təzyiqi ilə Vyetnam rəhbərliyi geri çəkilməyə məcbur edildi və qoşunları Kambocadan çıxardı. 1989-cu ilin senyabrında sonuncu Vyetnam qüvvələri Kambocanı tərk etdi.

Ancaq Kambocada vəziyyət gərgin olaraq qalmaqda davam edirdi, «Qırmızı kxmerlər», 1970-ci ilə qədər ölkəni idarə etmiş şahzadə Sianukun tərəfdarları, 1970-1975-ci illərdə rəhbərlikdə olmuş qüvvələr müxtəlif istiqamətlərdən vyetnampərəst Xun Sen hökumətinə qarşı mübarizə aparırdılar. Bu müxalifət qüvvələri ABŞ, ÇXR və bir sıra Cənub-Şərqi Asiya ölkələri tərəfindən də müdafiə olunurdu. Vyetnam hərbi qüvvələrinin Kambocadan çıxarılmasından sonra ölkədə hakimiyyət-müxalifət qüvvələri arasında hərbi əməliyyatlar daha da şiddətləndi və genişləndi. İstər müxalifət qüvvələrinin, istərsə də beynəlxalq ictimaiyyətin təzyiqinin gündən-günə artması səbəbindən hökumət başçısı Xun Sen şahzadə Narodom Ranaridx ilə ittifaqa girdi. Onların hər ikisi baş nazir oldu, ancaq Ranaridx birinci baş nazir hesab olunurdu. Yeri gəlmişkən göstərmək lazımdır ki, hələ 1990-cı ildə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün təşəbbüsü ilə münaqişə edən bütün tərəflərin nümayəndələrindən ibarət Ali Milli Şura yaradılmışdı. Şuraya şahzadə Narodom Sianuk rəhbərlik edirdi. Ali Milli Şura BMT, digər beynəlxalq təşkilatlar və dövlətlərlə birbaşa əlaqə saxlayan yeganə orqan idi. Bu şuranın və eyni zamanda müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların apardığı fəaliyyət nəticəsində dörd düşmən tərəf 1991-ci ilin oktyabrında Parisdə BMT-nin bayrağı altında-Təhlükəsizlik Şurasının beş daimi üzvü olan dövlətlərin nümayəndələrinin iştirakı ilə bir araya gəldilər. Burada sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə görə mübarizə aparan tərəflər silahı yerə qoymalı, dinc həyata qayıtmalı və BMT-nin nəzərəti altında 1993-cü ildə keçirilən seçkilərdə iştirak etməli, qazandıqları yerlərə müvafiq olaraq ölkənin idarəsinə qatılmalı idilər.

1991-ci ilin sonlarından nəzərdə tutulan razılaşmaların realizasiyası ilə yanaşı iqtisadi islahatların da keçirilməsinə başlanıldı. İslahatların əsas vəzifəsi ölkədə azad bazar iqtisadiyyatının yaradıl-

ması və inkişafı üçün təməl hazırlamaq idi. Dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsinə, xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasına icazə verildi. «Sosializm quruculuğu» illərində ölkəni tərk etmiş kxmer və çin mənşəli iş adamlarına geri qayıtmaq üçün müraciət edildi. Demək lazımdır ki, Kambocanın iqtisadi həyatında çinlilərin mövqeyi həmişə güclü olmuşdur. Bir sözlə, həmin dövrdə Kambocanın yeni dirçəlişi üçün yollar açılmışdı.

Hesab etmək olardı ki, ölkədə sülh yaranacaqdır. Lakin «Demokratik Kampuçiya-qırmızı kxmerlər» qruplaşması lap əvvəldən müqavilənin şərtlərindən imtina etməyə başladı: onlar nəzarət etdikləri rayonlara beynəlxalq müşahidəçiləri buraxmırdılar, silahları təhvil vermirdilər və s. Təbiidir ki, hadisələrin belə gedişi sülhün yenidən pozulmasına səbəb ola bilərdi və o biri tərəfdən də bu qrupun imkanlarını nəzərə almamaq mümkün deyildi. Çünki, həmin vaxtda «qırmızı kxmerlər» ölkə ərazisinin 20%-nə nəzarət edirdilər ki, burada da bütün əhalinin 15%-i yaşayırdı və s. və i.a.

Odur ki, BMT daha qəti qərar qəbul etdi və 1992-ci ilin yayında «mavi dəbilqəlilər» Kambocaya daxil olurlar. Məqsəd sülhü pozan tərəfə qarşı silahlı cəza tətbiq etmək idi.

Aramsız müharibələrdən, işgəncələrdən və qeyri-sabit həyatdan cana doymuş Kamboca xalqı «mavi dəbilqəlilərə» çox ümidlə baxırdı. Yeri gəlmişkən deyək ki, artıq 1993-cü ildə Kambocada 20 min «mavi dəbilqəli», 31 ölkədən 10 min müşahidəçi və çox sayda müxtəlif təşkilatları təmsil edən adam var idi, BMT-nin müvəqqəti təşkilatı (YUNTAK) fəaliyyət göstərirdi. Onların saxlanılmasına 2 mld dollar vəsait xərclənmişdi.

BMT baş katibi Butros Qali Kambocaya 600 mln dollar məbləğində kömək üçün dövlətlərə müraciət etdi. 32 ölkə nümayəndələrinin Tokioda keçirilən toplantısında istənilən məbləğdən xeyli artıq-880 mln dollar ayrılmasına qərar verildi.

YUNTAK əsasən ölkədə seçkilərin keçirilməsini təşkil etməklə məşğul idi. Seçkilərin 1993-cü il mayın 23-də keçirilməsi planlaşdırılırdı. YUNTAK bundan əlavə insan hüquqlarının pozulmasına qarşı tədbirlər görməli, yarım milyona qədər qaçqının evlərinə qayıtmasına, mühüm infranstrukturların bərpa olunmasına və s. nəzarət etməli, başqa sözlə müvəqqəti hökumətin funksiyalarını yerinə yetirməli idi. BMT-nin bu ölkədəki fəaliyyətinin uğuru «gələcək üçün model» olmalı idi. Bütün bu işlərə isə YUNTAK-ın

başçısı kimi B.Qalinin sabiq müavinlərindən biri mənşəcə yapon olan Akasi rəhbərlik edirdi.

Lakin bütün cəhdlərə baxmayaraq «qırmızı kxmerləri» razı saxlamaq mümkün olmadı, onlara qarşı tətbiq edilən iqtisadi sanksiyalar belə nəticəsiz qaldı. Pol Pot BMT-yə qarşı yeni-yeni tələblər irəli sürür, seçkiləri təxirə salmağı tələb edir, yeni danışıqlar və s. təklif edirdi.

Bütün çətinliklərə baxmayaraq müəyyən edilmiş vaxtda, yəni 1993-cü il mayın 23-ə seçkilər keçirildi. Seçkilərdə ən çox səs toplayan Narodom Ranaridxin başçılıq etdiyi Kamboca Milli Cəbhəsi oldu. Seçkilərdən sonra Xun Sen və N. Ranaridx ittifaqı daha da möhkəmləndi. Lakin Xun Senin mövqeləri hələ çox möhkəm olaraq qalırdı.

1993-cü ilin sentabrında yeni seçilmiş Müəssislər Məclisinin ilk sessiyası işə başladı. Ümumiyyətlə isə həmin sessiya Kamboca tarixində yeni dövrün başlancığını qoydu: konstitusiya qəbul olundu, ölkədə monarxiya rejimi bərpa edildi, Narodom Sianuk kral taxtına əyləşdirildi, iki baş nazirlik sistemi saxlanıldı və s. Xun Sen və şahzadə Ranaridx koalisyon hökumət təşkil etdilər.

Beləliklə də BMT-nin bu ölkədəki fəaliyyəti uğurla başa çatdı. YUNTAK-ın başçısı Akasinin fikrincə bu təcrübə planetin digər münaqişə bölgələri üçün də yararlı ola bilər. BMT hərbi qüvvələri - «mavi dəbilqəlilər» ölkədən çıxdı. Ölkədə dinclik yarandı və bu, müəyyən müddətə qədər davam etdi. Lakin münaqişə tərəflərinin, xüsusilə də «qırmızı kxmerlər»in tamamilə tərksilah edilməməsi ölkədə dincliyi və sabitliyi poza biləcək bir təhlükə olaraq qalırdı. Məhz bu da 1997-ci ildə Kambocada yenidən vətəndaş müharibəsini alovlandırdı. «Qırmızı kxmerlər» fəallaşdılar.

Bununla yanaşı «qırmızı kxmerlər» arasında reallığı dərk etmək ənənəsi də yaranırdı, mübarizənin perspektivsizliyi başa düşülürdü. Bu zəmində, birincisi, Pol Potun tərəfdarları tədricən ondan uzaqlaşırdılar və barışığa meylli olan Khey Samfanın ətrafında cəmləşirdilər. Khey Samfan da elan edirdi ki, o, mübarizəni siyasi yolla aparacaqdır. Hətta şahzadə Ranaridxlə siyasi danışıqlara hazır olduğunu da bildirirdi. Khey Samfan bəyan etdi ki, «qırmızı kxmerlır»in 95%-i silahı yerə qoymağa və hakimiyyəti tanımağa hazırdılar. Lakin bir şərtlə: kommunist Vyetnamın «oyuncağı» olan Xun Sen hakimiyyətdən uzaqlaşdırılsın. O, ölkədə vətəndaş

müharibəsinin qızışdırılmasında Xun Seni və Vyetnamı ittiham edirdi.

«Qırmızı kxmerlər»in bu bəyanatı iki baş nazir arasında ixtilaf yaratdı. Ranaridx danışıqlar aparmağa razı olduğunu və burada bir qəbahət görmədiyini söyləyir, Xun Sen isə hər hansı bir danışıqdan söz ola bilməyəcəyini elan edirdi. Hətta iş o yerə çatdı ki, iki baş nazirin cangüdənləri arasında atışma baş verdi. Buna baxmayaraq baş nazirlər bir araya gələ bildilər. Onlar Pol Pot rejimi dövründə baş vermiş cinayətləri mühakimə etmək üçün dünya birliyini beynəlxalq məhkəmə yaratmağa çağırdılar. Kambocadakı BMT nümayəndəsi bu çağırışı müsbət qarşıladığını bildirdi.

Həmin arada qiyamçıların radiosu belə bir sensasiyalı xəbər yaydı ki, Pol Pot əsir alınıbdır. Bunun ardınca iyulun 6-da şahzadə Ranaridx vəzifəsindən uzaqlaşdırıldı. Xun Sen bunun səbəbini guya şahzadənin «qırmızı kxmerlər»lə ittifaq barədə saziş imzalaması olduğunu bildirdi. Şahzadəni müdafiə edən və ona tabe olan hərbi qüvvələr Xun Sen qüvvələri ilə döyüşlərə başladılar. Xatırlamaq istərdik ki, Xun Sen özü də vaxtilə «qırmızı kxmerlər»dən olmuşdu və 1979-cu ildən Pol Pot ilə əlaqələrini kəsmişdi.

Münaqişəni həll etmək üçün ABŞ vasitəçilik cəhdi göstərsə də Xun Sen bunu qəbul etmədi. Belə olduqda ona təsir etmək üçün bir sıra tədbirlər görüldü. Birincisi, ABŞ bildirdi ki, şahzadə N.Ranaridxin hakimiyyətdən uzaqlaşdırılması qeyri-qanunidir və qəbul oluna bilməz. Bununla yanaşı ABŞ onu da qeyd etdi ki, iyul hadisələri dövlət çevrilişi kimi xarakterizə edilə bilməz. İkinci tədbir isə Tokionun Kambocaya ediləcək iqtisadi yardım proqramını dondurması idi. Qeyd etmək lazımdır ki, bu proqram ABŞ-ın vasitəçiliyi ilə avqust ayında yenidən işə düşdü.

Bu təzyiqlərə və manevrlərə baxmayaraq Xun Sen böhranın nizamlanmasında xarici vasitəçiliyi rədd etdi. 1994-cü ildən ölkənin xarici işlər naziri vəzifəsində çalışan Unq Huot ikinci baş nazir təyin edildi.

Şahzədənin hərbi qüvvələrini məğlub edən Xun Sen dəstələri onun son dayaq məntəqələrini də tutdular. Şahzadə Ranaridx Filippinlərə getməyə qərar verdi. O istəyirdi ki, ASEAN-dan dəstək alsın. Lakin Xun Sen bildirdi ki, şahzadə məhkəmə qarşısında cavab verməlidir.

Həmin dövrdə Pekində müalicədə olan kral hadisələrə münasibətini Xun Senin və Unq Huotun sağlığına badə qaldırmaqla ifadə

etdi.

Kambocada yaranmış siyasi böhranın aradan qaldırılması üçün dünya birliyi və böyük dövlətlər tərəfindən bir sıra cəhdlər göstərildi. ASEAN Kambocanın üzvlüyünü müəyyən müddətə təxirə saldı. Şahzadə Ranaridxin cəhdləri boşa çıxdı. Ölkədə onu dəstəkləyən qüvvələr darmadağın edildi.

Ölkədə vəziyyətin böhranlı olmasına baxmayaraq 1998-ci ildə seçkilər keçirildi. Hətta elan edildi ki, «qırmızı kxmerlər» silahı yerə qoyarlarsa onlar da seçkilərdə iştirak edə bilərlər.

Qeyd etmək lazımdır ki, həmin ilin aprelində Pol Potun ölümü ilə «qırmızı kxmerlər» arasında hökumətə münasibətdə əsaslı dəyişiklər baş verdi. İstər «qırmızı kxmerlər»in, istərsə də şahzadə Ranaridxin qüvvələrinin axırına çıxılması nəticəsində vətəndaş müharibəsi və digər qarşıdurmalara son qoyuldu.

Kambocanın 90-cı illər tarixi üçün ən mühüm hadisələrdən biri də ölkənin tədricən dünya birliyində öz yerini tuta bilməsidir. 1990-cı ildən BMT-də mövcud hakimiyyət təmsil olunur. Böyük dövlətlərdən əvvəlcə Fransa, Yaponiya və İtaliya, sonra isə ABŞ və Böyük Britaniya ilə əlaqələr bərpa edildi. Ənənəvi əlaqələr saxladığı Rusiya Federasiyası, ÇXR, Vyetnam ilə münasibətlər də öz mahiyyəti etibarilə daha normal axara düşdü. Qonşu Tayland, Sinqapur, Tayvan, Cənubi Koreya və s. ilə əlaqələr çoxşaxəli xarakter aldı. Azad bazar iqtisadiyyatına keçərkən ehtiyac duyduğu maliyyə vəsaitləri adı çəkilən böyük dövlətlərin və qonşuların yardımı hesabına təmin edilir. Bunlardan əlavə beynəlxalq maliyyə mərkəzləri, o cümlədən Dünya Bankı və Beynəlxalq Valyuta Fondu da lazım olan müəyyən məbləğlər ayırır. Bunlar imkan verdi ki, Kamboca iqtisadi sahədə islahatlar kursunu davam etdirsin. İstər aqrar, istərsə də sənaye sahələrində əldə edilmiş uğurlar əhalinin yaşayış səviyyəsində müəyyən müsbət dəyişikliklər yaratmışdır

Nəhayət, 1999-cu ilin aprelində Kamboca ASEAN-a üzv seçilmiş, bu təşkilatda birləşən 10-cu dövlət olmuşdur. Təbiidir ki, bu hadisə Kambocanın gələcək siyasi və sosial inkişaf planlarının reallaşmasında mühüm rol oynayacaqdır.

# BİRMA - MYANMA İTTİFAQI[1]

## *Milli istiqlaliyyət uğrunda mübarizə*

Bildiyimiz kimi, II dünya müharibəsi ərəfəsi və dövründə Yaponiya qonşu ölkələri işğal etmişdi. Bunlardan birisi də Birma olmuşdur. 1941-ci ilin 12 dekabrında Birmanın işğalına başlandı. İngiltərə müstəmləkə sistemindən xilas olmağa çalışan yerli millətçi qüvvələrin istəyi və dəstəyi ilə az bir vaxtda, təqribən bir ay müddətində bu iş başa çatdırıldı.

Yaponlar burada öz nəzarəti altında olan bir hökumət yaratdılar və faktik olaraq ölkənin yeni sahiblərinə çevrildilər. Birmanın tam istiqlaliyyətini istəyən və yaponların gəlişinin bu işə kömək edəcəyi ümidində olan qüvvələr yeni işğalçılara ingilislərdən də pis münasibət göstərməyə başlamışdılar. Elə buna görə idi ki, Birmanın istiqlaliyyəti uğrunda mübarizə aparan bütün siyasi qüvvələr 1944-cü ilin avqustunda Antifaşist Xalq Azadlıq Liqası (AXAL) adlı təşkilatda birləşdilər. Təşkilat yapon əsarətindən xilas olmağı və ölkədə demokratik islahatlar keçirməyi özünün başlıca fəaliyyət proqramı elan etdi. AXAL-ın rəhbərliyi hətta Hindistandakı ingilis hərbi komandanlığı ilə əlaqə də yaratdı və onlardan müəyyən yardım ala bildi. AXAL-ın özəyini Aun Sanın rəhbərlik etdiyi Milli Ordu təşkil edirdi. Elə Aun San da AXAL-ın prezidenti seçilmişdi. AXAL az vaxt ərzində xalqın böyük əksəriyyətinin dəstəyini qazana bildi. Artıq 1945-ci ilin 27 martında bu təşkilat silahlı üsyana başladı, Birma silahlı dəstələri ölkədə yapon hərbi qüvvələrinin əzilməsisində fəal iştirak etdilər. 1945-ci ilin may və avqust aylarında AXAL yeni proqram vəzifəsi kimi e'lan edildi ki, ölkədə həqiqi milli hökumət yaradılmalı və Müəssislər Məclisi çağrılmalıdır.

Lakin Yaponiyanın məğlubiyyətindən sonra Birmaya qayıtmış ingilislər AXAL-ın bəyanatlarına əhəmiyyət vermədilər, təşkilatın özünü tanımaq belə istəmədilər. Onlar ölkədə 1935-ci il konstitusiyasında nəzərdə tutulan qubernatorluq rejimini bərpa etdilər. 1945-ci ilin sonlarında qubernatorun yanında icra şurası yaradıldı.

---

[1] 18 iyun 1989-cu ildən ölkənin rəsmi adı Myanma İttifaqıdır. Myanma İttifaqı hazırda yeddi muxtar dövlətdən və yeddi əyalətdən ibarətdir. Muxtar dövlətlər:1)Kaçin, 2) Kaya, 3) Kain, 4) Mon, 5) Çin, 6) Raxin, 7) Şan; Əyalətlər: 1) Saqeynq, 2) Tanintaray, 3) Baqo, 4) Maqvay, 5) Mandalay, 6) Yanqon, 7) İravada.

AXAL-ın nümayəndələri heç oraya yaxın da buraxılmadı. Əksinə, ingilislər tələb edirdilər ki, AXAL-ın tərkibində olan Milli Ordu və digər silahlı dəstələr, o cümlədən partizan dəstələri buraxılsın. AXAL bu tələbi yerinə yetirməli oldu. Hakimiyyət orqanlarının razılığı ilə bu silahlı dəstələrin bir hissəsi rəsmi silahlı qüvvələrin tərkibinə qatıldı.

Bundan sonra AXAL yenidən təşkilatlanma kursu götürdü. Əvvəllər buraxılan silahlı dəstələri əvəz edə biləcək hərbiləşdirilmiş Xalq Könüllülər Təşkilatı yaradıldı. Demək lazımdır ki, məhz bu təşkilat istiqlal mübarizəsi dövründə AXAL-ın döyüşən əsas qüvvəsinə çevrilə bildi. 1946-cı ilin yanvarında AXAL-ın birinci qurultayı çağırıldı. Qurultay yeni tarixi şəraitdə təşkilatın fəaliyyət proqramını qəbul etdi. Proqramda bəyan edilirdi ki, Birma tam istiqlaliyyətə nail olmalıdır və ölkədə demokratik islahatlar keçirilməlidir. Ölkənin müxtəlif yerlərində müxtəlif formalı siyasi aksiyalar keçirilməyə başlandı. Əsas siyasi partiyaların liderləri, ilk öncə isə AXAL-ın prezidenti Birmanın istiqlal qazanması yolunda qətiyyətli və qərarlı olduqlarını, necə olursa olsun, lazım gələrsə güc göstərməklə belə ölkənin istiqlalını əldə edəcəklərini bildirirdilər. Rəsmi hakimiyyət onlara qarşı cəza tədbirlərinə başladı, kütləvi surətdə həbslər keçirildi və s. Lakin bu, istənilən nəticə vermədi və vəziyyət daha da gərginləşdi.

1946-cı ildə ölkəni siyasi tətillər dalğası bürüdü və tətillərdə Birma xalqının bütün sosial təbəqələrinin nümayəndələri: fəhlə, kəndli, qulluqçu və hətta mülki polislər iştirak edirdi. Məsələnin ciddiləşməsi Böyük Britaniyanı düşündürməyə və onu bəzi güzəştlərə getməyə məcbur etdi. İcra Şurasında yerlərin çoxu AXAL-ın nümayəndələrinə verildi. Şura sədrinin müavini general Aun San oldu.

AXAL-ın İcra Şurasında iştirakı bəzi siyasi qüvvələr, əsasən kommunistlər tərəfindən narazılıqla qarşılandı. Buna baxmayaraq, AXAL 1946-ci ilin noyabrında Böyük Britaniyadan tələb etdi ki, 1947-ci ilin yanvarına qədər Birmanın istiqlaliyyəti məsələsi həll olunmalıdır. Bu dəfə Böyük Britaniya yarımçıq güzəştlər siyasətinin perspektivsiz olduğunu dərk etdiyindən daha inamlı və çevik tədbir gördü. 1947-ci ilin yanvarında Londonda ingilis hökuməti ilə general Aun Sanın başçılıq etdiyi Birma nümayəndə heyəti arasında danışıqlar başladı. Tərəflərin imzaladığı sənəddə qeyd olundu ki, 1947-ci ilin aprelində Birmada Müəssislər Məclisinə seçkilər keçirilməli və

Müəssisələr Məclisi Birmanın gələcək statusunu müəyyənləşdirməkdə tam ixtiyar sahibi olmalıdır. Təbiidir ki, bu, istiqlal uğrunda mübarizə illərində əldə edilmiş ən böyük uğur idi.

1947-ci ilin fevralında Müəssislər Məclisi və ölkənin azsaylı millətlərinin təmsilçilərinin iştirakı ilə keçirilən toplantıda da qərara alındı ki, onlar Birmanın bütövlüyünü və bölünməzliyini qeydsiz-şərtsiz qəbul edirlər. Bütün bunlar ölkədə böyük əks-səda doğurdu. AXAL-ın və onun prezidenti general Aun Sanın şöhrətini çox artırdı. Keçirilən seçkilərdə AXAL çox böyük qələbə qazandı.

1947-ci ilin iyulunda AXAL-ın təklifi ilə Müəssislər Məclisinin konstitusiya komissiyası Birmanın tam istiqlaliyyətini nəzərdə tutan yeni konstitusiya layihəsini qəbul etdi. Lakin ingilislər çalışdılar ki, Birma Böyük Britaniya Birliyinin üzvü olaraq qalsın.

Belə bir zamanda 1947-ci ilin 19 iyulunda general Aun Sana qəsd edildi. Onun öldürülməsi başlanan işlərin gedişini pozmadı və sentyabrda Müəssislər Məclisi Birmanın tam müstəqilliyini nəzərdə tutan yeni Konstitusiyanı qəbul etdi. Oktyabrda Londonda müvəqqəti hökumətin baş naziri və AXAL-ın yeni prezidenti U Nunun başçılıq etdiyi nümayəndə hey'əti ilə Böyük Britaniya hökuməti arasında Birmanın istiqlaliyyəti haqqında müqavilə imzalandı.

1948-ci il yanvarın 4-də Birmanın istiqlaliyyəti təntənəli şəkildə elan olundu.

## *Birma istiqlaliyyət illərində*

Qeyd etmək lazımdır ki, Birma istiqlaliyyət qazandıqdan sonra milli dövlətçiliyi möhkəmləndirmək, ictimai inkişafın normal axarı üçün dəyişikliklər etmək və ümumiyyətlə öz inkişaf yolunu seçmək cəhdləri baxımından sosializmin marksist modelini seçən ölkələrdən müəyyən cəhətlərə görə fərqlənmişdir. Bu fərqli cəhət nədən ibarətdir?

Bəlli olduğu kimi o cür ölkələrdə bir qayda olaraq müvafiq partiya və hökumətlərin başında kommunistlər dayanırdılar və müvafiq dəyişikliklər kursunu da məhz onlar həyata keçirirdilər. İrəlidə Şimali Koreya, Vyetnam, ÇXR və s. ölkələrin timsalında bu barədə geniş danışılmışdır. Birmada isə başqa cür olmuşdur. Kommunistlərin Birmada olması, 40-cı illərdən fəallıq göstərməsi, müxtəlif qrup və təşkilatlarda birləşməsi məlum faktlardır. AXAL-ın üzvü olmaq,

ondan ayrılmaq, seçkilərdə iştirak edib müəyyən yerlər qazanmaq və s. ilə yanaşı öz mövcudluğu dövründə kommunistlər və ya onların aparıcı təşkilatı olan Kommunist Partiyası istər istiqlaliyyət illərində, istərsə də istiqlaliyyət qazandıqdan sonra ölkədəki digər siyasi qüvvələrə və hökumətə qarşı əsasən müxalifətçi mövqedə dayanmışdır. İlk Milli hökumət yaradıldıqdan sonra isə ona qarşı mübarizə aparmaq, bu zaman lazım gələndə silaha da əl atmaqdan çəkinməmək Kommunist Partiyasının başlıca fəaliyyət istiqaməti oldu. Halbuki, o, müharibədən sonrakı illərdə AXAL-ın üzvü idi.

Bütün bunları qeyd etməkdə məqsədimiz odur ki, istiqlaliyyət qazandıqdan sonra ölkəyə rəhbərlik edən qeyri-kommunist siyasi qüvvələr «Sosializmin Birma yolu»nu öz inkişaf kursu elan etmiş, bunu həyata keçirmək yolunda cəhdlər göstərmişlər.

Ümumiyyətlə isə, tarixi hadisələrin inkişafı baxımından Birma istiqlaliyyətdən sonra bir sıra mərhələlərdən keçmişdir. Bunlardan birincisi 1948-1958-ci illəri əhatə edir. Həmin dövrdə ölkənin hakimiyyətini AXAL idarə edirdi.

Bu mərhələdə nəzərə çarpan cəhətlər hansılardır? Birincisi, AXAL öz siyasi və sosial tərkibinə görə müxtəlif qüvvələri birləşdirirdi. Bunlar əsasən milli qüvvələr olsa da bir tərəfdən yerli burjuaziyanın, ikinci tərəfdən əcnəbi, əsasən hind mənşəli burjuaziyanın, üçüncü tərəfdən isə yoxsul kütlələrin maraqlarını təmsil edirdilər və onların nümayəndələri idilər. Öz fəaliyyətlərində millətçilik, liberalizm və sosializm dəyərlərini uzlaşdırmağa cəhd göstərirdilər. Məhz bu da istər dövlət hakimiyyətinin, istərsə də inkişaf kursunun xarakter və formasını səciyyələndirirdi. Hakimiyyətin siyasətdə gah sağa, gah sola üz tutması ölkədə vəziyyətin daim qeyri-sabit qalmasına səbəb olurdu. Bunun da bir, bəlkə də ən başlıca səbəbi o idi ki, Birma sosial-iqtisadi baxımdan son dərəcə aşağı səviyyədə idi və sosial qüvvələrdən heç biri ölkəni təkbaşına idarə edə biləcək siyasi iradəyə malik deyildi. Hakim AXAL blokunun təkcə siyasi yox, həm də sosial müxtəlifliyi iqtisadi inkişaf kursununda qeyri-ardıcıllığa və daxili münaqişələrin kəskinləşməsinə gətirib çıxarırdı.

Bu mərhələnin ikinci mühüm cəhəti ondan ibarət olmuşdur ki, AXAL hakimiyyəti bir tərəfdən iqtisadiyyatı bərpa və inkişaf etdirmək uğrunda, o biri tərəfdən onun hakimiyyətinə qarşı çıxan silahlı müxalifətə, xüsusi ilə kommunistlərə qarşı mübarizə aparmalı olmuşdur.

Bu mərhələdə hakimiyyətdə olan AXAL nələri edə bildi?

Əvvələn bir daha qeyd etmək istərdik ki, AXAL və onun tərkibində həlledici qüvvəyə çevrilmiş Birma Sosialist Partiyası xalq arasında böyük nüfuza sahib idi. Bu nüfuz təkcə ona görə yaranmamışdı ki, AXAL və onun prezidenti istiqlal uğrunda hərəkata başçılıq etmiş, istiqlaliyyətə nail olmuşdular. Həm də ona görə idi ki, onlar ölkədə demokratik islahatlar keçirmək, bitərəf xarici siyasət yeritmək, bütün ölkələrlə normal əməkdaşlıq etmək vədlərini vermişdilər, ölkədə «dövlət sosializmi», bəzən sadəcə «sosializm» qurmaq planını bəyan etmişdilər.

Birma 19 aprel 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının üzvü oldu. Qonşu və uzaq dövlətlərlə normal münasibətlər yaratmağa başladı. İlk növbədə Böyük Britaniya ilə əlaqələr genişləndirilirdi. Bu da iki dövlət arasında bağlanmış müqavilənin şərtlərindən irəli gəlirdi. Müqaviləyə görə Böyük Britaniya iqtisadiyyatı və sosial həyatı bərpa etmək və yenidən qurmaq üçün Birmaya maddi yardımlar etməyə söz vermişdi. Lakin ölkədə siyasi və iqtsiadi quruculuq fəaliyyəti ilk günlərdən hakimiyyətə qarşı daha çox silahlı mübarizə ilə müşayət olunmuşdur. İlk olaraq etnik azlıqlardan karenlər üsyan qaldırdılar və Birmadan ayrılmağa cəhd etdilər. Onlar hakimiyyətin «solçu» siyasətindən narazılıqlarını da bildirdilər. 1949-cu ilin sonlarından Çində kommunistlərin hakimiyyətə gəlməsindən sonra çoxlu homindançı hərbi dəstələr Birmaya qaçdılar, onsuz da hər növ silahlı üsyanlarla qarşı-qarşıya duran ölkə üçün yeni bir problemə çevrildilər.

1950-ci ildən ABŞ-ın bu ölkəyə marağı artmağa başlamışdır. ABŞ ölkənin iqtisadi həyatını qaydaya salmaqda Birmaya yaxından və böyük yardımlar etdi. Elə buna görə də AXAL hökuməti yaranmış siyasi çətinliklərin qarşısını ala bildi, silahlı üsyanları yatıra bildi və iqtisadi problemlərin həlli yollarında müəyyən tədbirlər görə bildi.

Ümumiyyətlə 1948-1958-ci illərdə görülmüş iqtisadi tədbirlər bir qayda olaraq II dünya müharibəsi illərində dağılmış təsərrüfat həyatının bərpası məqsədi güdmüşdür. Bununla yanaşı yeni müəssisələr də inşa edilmişdi. Düyü təmizləmə və ağac məhsulları emalı, neft və dağ-mədən sənayesi müəssisələrinin fəaliyyəti bərpa edildi, yeni əyirici-toxucu fabrikaları, sement zavodları, cut və dərman preparatları istehsal edən müəssisələr işə salındı.

İqtisadiyyatda dövlət bölməsinin mövqelərinin artması və

möhkəmlənməsi AXAL hökumətinin əsas kursuna çevrilirdi. Bu bölmə əsasən müstəmləkə dövründən qalmış mülkiyyətin, xaricilərə məxsus bir sıra müəssisələrin milliləşdirməsi və qarışıq dövlət-özəl müəssisələrinin yaradılması hesabına böyüyürdü.

Əvvəlcə 1948-ci ildə, əsasən isə 1953-cü ildə aqrar islahatlara cəhd olundu, iri torpaq mülkiyyətləri (50 akr çəltik sahəsindən artıq) milliləşdirilib icarədar və aztorpaqlı kəndlilər arasında bölüşdürüldü.

Qeyd etmək lazımdır ki, görülən tədbirlər bir tərəfdən ölkənin inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edirdisə, o biri tərəfdən cəmiyyətdə müəyyən narazılıqlar da yaradırdı. Həyata keçirilən tədbirlərdən zərərçəkənlərlə yanaşı maraqları və istəkləri tam tə'min olunmayan insanlardan ibarət narazı qüvvələr meydana gəlirdi. O biri tərəfdən isə istiqlaliyyətinə yenicə qovuşmuş bütün ölkələrdə olduğu kimi yaranmış vəziyyətdən yararlanma, korrupsiya və rüşvətxorluq hallarının artması AXAL-dan, o cümlədən Sosialist partiyasından üz döndərənlərin və ümidsiz olanların sayını artırdı, sollardan ibarət olan leqal müxalifətin fəallaşmasına meydan yaratdı. Təsadüfi deyildir ki, 1956-cı ildə keçirilən parlament seçkilərində müxalifət yerlərin 25%-nə yiyələnə bildi. Hakimiyyətin öz daxilində, eləcə də Sosialist Partiyası daxilində Birmanın inkişaf yolu haqqında fikir ayrılıqları zəmnində narazılıqlar artdı. Bu onunla nəticələndi ki, 1958-ci ildə AXAL və Sosialist Partiyasında parçalanma baş verdi, U Nu başda olmaqla yeni mötədil və mühafizakar xarakterli İttifaq Partiyası yarandı, sağ sosialistlər isə yeni AXAL-da birləşdilər. Bu parçalanma bütün Birmanı sarsıtdı, siyasi ehtiraslar qızışdı, ölkə yeni vətəndaş müharibəsi ilə üzbəüz qaldı. Vəziyyətin gərginliyini dərk edən U Nu hökuməti 1958-ci ilin payızında hakimiyyəti hərbçilərə təslim etdi. Yeri gəlmişkən qeyd edək ki, hərbçilər də həmin dövrdə mülki siyasi qüvvələrin zəifliyindən və faydasız fəallaşmalarından narazılığa başlayırdılar.

Beləliklə, Birmanın tarixində yeni bir mərhələ başlandı və o, 1958-1962-ci illəri əhatə edir, öz mahiyyətinə görə keçid dövrü adlanır. Bu dövrün əvvəlində, yəni 1958-ci ilin sonu - 1960-cı ilin başlanğıcına qədər olan müddətdə hakimiyyəti general Ne Vinin başçılıq etdiyi hökumət idarə etmişdir. Ne Vin hökumətinin diqqət verdiyi əsas məsələ dövlət idarə sistemini qüvvətləndirmək olmuşdur. Bununla yanaşı iqtisadi xarakterli bir sıra tədbirlər də həyata keçirilmişdir.

1958-ci ildə aqrar islahatlar keçirilən zamanı bir sıra kobud səhvlərə yol verildiyi elan edildi və bu proses dayandırıldı. Şan və kay feodalları irsi siyasi hüquq və imtiyazlardan məhrum edildi. Ölkədə siyasi istiqrar yaradıldı və 1960-cı ilin əvvəllində parlamentə seçkilər keçirildi. Elə əslində hərbçilər hakimiyyətə bunun üçün gətirilmişdilər ki, parlament seçkilərinə hazırlığı və onun keçirilməsini təşkil etsinlər. Seçkilərdə U Nunun başçılıq etdiyi İttifaq Partiyası qələbə çaldı. Qərb inkişaf yoluna üstünlük verən sağların birləşdiyi AXAL və Sosialist Partiyası ciddi məğlubiyyətə uğradı.

U Nunun başçılıq etdiyi hökumət yenə də əvvəlki kursu davam etdirdi. Bununla yanaşı dövlət bölməsinin bir qədər məhdudlaşdırılması və özəl təşəbbüsə yer verilməsi cəhdlərini də qeyd etmək lazımdır. Buddizm dövlət dini elan olundu.

U Nu hökuməti hakimiyyətdə çox qala bilmədi. Yenə də sol və sağ siyasi qüvvələr arasında mübarizə qüvvətləndi və bütün 1961-ci il boyu, xüsusilə də 1962-ci ilin əvvəlində son həddə yüksəldi. Separatist meyllər artdı. Bu baxımdan şan feodalları xüsusilə seçilirdilər. Birmanın dövlət bütövlüyü üçün təhlükə yarandı. Siyasi qarşıdurmanın öhdəsindən gəlməyin mümkünsüzlüyünü görən U Nu İttifaq Partiyası rəhbərliyindən çıxdı. Bu, ölkədə vəziyyəti daha da mürəkkəbləşdirdi.

## *1962-ci il çevrilişi və nəticələri*

Ölkənin böhranlı hala düşməsi ona gətirdi ki, hərbçilər yenidən hakimiyyəti öz əllərinə götürdülər. 1962-ci ilin 2 martında dövlət çevrilişi edildi, İttifaq Partiyası hökuməti devrildi, onun üzvləri həbs edildi, parlament buraxıldı və 1947-ci il konstitusiyasının fəaliyyəti dayandırıldı. Hakimiyyət baş komandan general Ne Vinin başçılığı ilə yaradılmış İnqilab Şurasına verildi. Yalnız hərbçilərdən təşkil olunmuş yeni hökumətə də general Ne Vin rəhbərlik edirdi. Bununla da Birmanın tarixində daha bir tarixi mərhələnin əsası qoyuldu.

Bu mərhələnin ən xarakter cəhəti ondan ibarətdir ki, 2 mart 1962-ci il hadisələri bir hökumətin digəri ilə əvəz edilməsi kimi yox, mülki şəxslərin hakimiyyətinin hərbçi şəxslərin hakimiyyəti ilə əvəz olunması kimi dəyərləndirilməlidir. Bu tarixdən etibarən hərbçilər mülki şəxsləri siyasi hakimiyyətdən uzaqlaşdırdılar və elan etdilər ki, siyasi-sosial dəyişikliklər tətbiq etməklə ölkənin inkişafına nail

olacaqlar. Onlar bu kursun mahiyyətini 30 aprel 1962-ci ildə elan etdikləri «Sosializmin Birma yolu» proqramında açıqladılar. Proqramın məğzi ondan ibarət idi ki, 1) parlament demokratiyasından imtina olunur və insanın insan tərəfindən istismarına son qoyulurdu; 2) əsas istehsal vasitələri milliləşdirilməli və yeni cəmiyyətin iqtisadi əsasını dövlət və kooperativ mülkiyyəti təşkil etməlidir; 3) özəl fəaliyyət sahələri olduqca məhdudlaşdırılmalı və fəhlə və kəndlilər yeni sosialist quruluşunun dayağı olmalıdır. Bu isə o demək idi ki, kommunistlərin nəiki hökumətdə təmsil olunmadığı, əksinə silahlı müxalifət təşkil etdiyi Birmada elan edilmiş rəsmi kurs kommunistlərin hakimiyyətdə olduğu ölkələrdəki kimidir. 1962-ci ildən başlanan tarixi mərhələdə məhz bu kurs həyata keçirilmişdir.

Bu baxımdan görülən bir sıra tədbirləri sadəcə sadalamaq istərdik.

1963-cü ildə neft sənayesindəki ingilis kapitalı, bunun ardınca bütün xarici və xüsusi banklar, eləcə də xarici ticarət milliləşdirildi. 1964-cü ildə daxili topdansatış ticarətinə nəzarət dövlətə keçdi. Bir sıra istehalk mallarının satışı üzərində dövlət inhisarı yarandı, bütün xarici və xüsusi kapitala məxsus olan mülkiyyət formasından və həcmindən asılı olmayaraq milliləşdirildi. Bu proses 1972-ci ilə qədər davam etmişdir.

1963-cü ildə yeni vergi sistemi tətbiq olunmağa başladı ki, onun da əsas məqsədi özəl fəaliyyət sahələrinin imkanlarını məhdudlaşdırmaq və sıradan çıxarmaq idi. Bunun nəticəsi idi ki, 1975-ci ildə ölkədəki 493 müəssisədən 411-i dövlət bölməsinə məxsus idi.

Aqrar sahədə ciddi dəyişikliklər edildi. Torpaqsız kəndlilər icarə formasında torpaqlarla təmin edildi. 1965-ci ildən isə icarədar kəndlilər istifadə etdikləri torpaq üçün onun sahibinə vergi verməkdən azad edildi. Kəndlilərə maliyyə və texniki yardımlar verildi.

1970-ci ildə kooperativlər haqqında qanun qəbul edildi. Onlar istər kənd təsərrüfatı, istərsə də sənaye məhsulları istehsalı sahələrini əhatə etməli idi.

Sosial xarakterli bir sıra tədbirlər həyata keçirildi. Orta və ali məktəblərin yenidən təşkili, dövlət tibb sisteminin yaradılması, minimum əmək haqqının müəyyən edilməsi, pulsuz tibbi xidmət, əhalinin əmək və yaşayış şərtlərinin yaxınlaşdırılması sahəsində ciddi səylər göstərildi.

Bütün bu tədbirlər imkan verdi ki, 60-70-ci illərin hüdudların-

da Birmanın iqtisadiyyatında dövlət bölməsi hakim mövqe qazansın və buna uyğun olaraq ölkədə yeni infrastruktur yaransın. Bu da təəccüblü deyildi ki, məhz 60-70-ci illərin hüdudlarında ilk və mühüm problemlər yaranmağa başlamışdır. Onlar da iqtisadi səmərəliliyin səviyyəsinin aşağı düşməsi, iqtisadi artımın sürətlə geriləməsi və s. kimi olduqca həyati əhəmiyyətli sahələri əhatə edirdi. Kənddə və şəhərdə xırda istehsalçıların sıradan çıxarılması bazarın və əmtəə istehsalının tənəzzülünə gətirdi, müvafiq olaraq qara bazarın və xəlvəti iqtisadiyyatın çiçəklənməsinə yol açdı. İnflyasiya yarandı, işsizlik artdı. Qeyd etmək lazımdır ki, bütün bunların hamısı ölkədə arası kəsilməz daxili siyasi mübarizənin və qeyri-sabitliyin mövcudluğu şəraitində baş verirdi. Doğrudur, 1964-cü ildə yaradılmış Birma Sosialist Proqramı Partiyasının liderləri başda Ne Vin olmaqla müxalifət qüvvələri ilə qarşılıqlı münasibətləri nizamlamağa çalışırdılar. Bu hal partiyanın yarandığı ilk vaxtlarda daha nəzərə çarpacaq şəkildə idi. Hələ 1963-cü ildə ümumi əhv e'lan edilmişdi. 1964-cü ildə buraxılmış bütün siyasi partiya liderlərinə təklif olunurdu ki, Birma Sosialist Proqramı Partiyasının sıralarında birləşsinlər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, təkcə siyasi partiya və təşkilatlar deyil, həm də həmkarlar və digər ictimai təşkilatların da fəaliyyəti qadağan edilmişdi.

Yeni yaranmış partiya - Birma Sosialist Proqramı Partiyası ölkədə yeganə və rəhbəredici siyasi qüvvəyə çevrildi. 1971-ci ildə partiyanın I qurultayı çağrılanda 75 min nəfərədək üzv, 260 min nəfərdən çox isə üzvlüyə namizəd onun sıralarında birləşirdi. Qurultayda qəbul olunan qərarlar içərisində 1971-1974-cü illər üçün dörd illik iqtisadi inkişaf üzrə direktivlər və ölkənin yeni konstitusiyasının hazırlanması xüsusi əhəmiyyət daşıyırdı.

Qurultaydan sonra 1972-ci ilin aprelində Ne Vin başda olmaqla bütün partiya və dövlət rəhbərləri ordudan tərxis olundular və mülki şəxslərə çevrildilər.

1973-cü ildə çağrılmış II qurultayda yeni Konstitusiya layihəsi, II dördillik iqtisadi inkişaf planı(1975-1979-cu illər üçün) və iyirmi illik (1974-1994-cü illər üçün) plan qəbul edildi.

Ölkədə yaranmış iqtisadi çətinliklər və narazılıqların qarşısını almaq üçün hökumət bir sıra qanunlar qəbul etdi. 1973-cü ildə verilmiş qanuna görə xüsusi milli kapitalın istehsal, əsasən də emal sənayesində fəaliyyət göstərməsinə icazə verildi. 1977-ci ildə parlament

1994-cü ilə qədər bir sıra istehsal müəssisələrinin milliləşdirilməsi barədə qanun qəbul etdi.

Bu arada baş vermiş ən mühüm hadisələrdən birisi də 1974-cü ildə ölkənin parlamenti tərəfindən yeni konstitusiyanın qəbul olunmasıdır. Konstitusiyaya görə ölkənin yeni adı Birma İttifaqı Sosialist Respublikası (BİSS) oldu.

Konstitusiyaya uyğun olaraq parlamentə-Xalq Məclisinə seçkilər keçirildi. Xalq Məclisinin ilk iclasında İnqilab Şurası dövlət hakimiyyətini ona verdi və öz varlığına son qoydu. Yeni dövlət və hökumət orqanları yaradıldı, Ne Vin ölkənin prezidenti seçildi.

Konstitusiya ölkədə bir partiyalı sistemi təsdiq etdi və Birma Sosialist Proqramı Partiyası dövlətə rəhbərlik edən yeganə siyasi qüvvə oldu.

Birma sosializmi ideyaları konstitusiyanın əsas ruhunu təşkil edirdi. Ümumiyyətlə, hələ ona qədər də sosializmin Birma yolu ideyaları xalq arasında geninə-boluna təbliğ edilirdi və bu ideyalar xalqın adət etdiyi buddizm ehkamları və müddəaları ilə əsaslandırılmış şəkildə verilirdi.

Ancaq hadisələrin sonrakı gedişi göstərdi ki, hakimiyyətin özəl bölmənin və azad bazarın məhdudlaşdırılmasına yönəli siyasətinə buddizm ənənələrinin təbliği ilə haqq qazandırmaq mümkün deyildir. Hakimiyyətin iqtisadi kursunun nəticələri istənilən səviyyədə olmadı, inkişafın artımı qeyri-qənaətbəxş oldu və s. Bütün bunlar ölkədə leqal və gizli narazılığı artırdı. Etnik zəmində separatizm meylləri güclənirdi. Onlar hətta 1975-1976-ci illərdə Federal Milli-Demokratik Cəbhə adlı bir təşkilat da yaratdılar. Mühacirətdə olan müxalifət qüvvələri U Nunun başçılıq etdiyi və Taylandın paytaxtı Banqkokda fəaliyyət göstərən Parlament Demokratiyası partiyasında (PDP ) birləşmişdilər. U Nu 1973-cü ildən Hindistana köçəndən sonra PDP-yə Bo Le Ya rəhbərlik etməyə başladı. Bo Le Ya Birmanın böyük iş adamı idi və milliləşdirmə zamanı bütün var-dövlətindən məhrum edilmişdi.

Hökumət hər cür narazı qüvvələrlə üz-üzə qalmaqda idi. Doğrudur, balaca bir narazılıq hərəkəti və onun iştirakçıları amansız təqiblərə məruz qalırdı. Ancaq sonralar bu da köməyə gələ bilmədi. 1973-1974-cü illərdə düyü çatışmazlığı zəmnində bir sıra yerlərdə qara bazarda qiymətlər sürətlə qalxdı. Bundan şəhər əhalisi daha çox zərər çəkməli oldu. Məhz bu da 1974-cü ilin aprel-may aylarında bir

sıra şəhərlərdə çıxışlara səbəb oldu. Ranqundakı dövlət müəssisələrində çalışanlar tətil etdilər. Tətil hərəkatı az qala bütün ətrafı bürüdü. Tələbə hərəkatları daha güclü idi və sürətlə də genişlənirdi. Sonrakı illərdə də narazılıq xeyli artmışdı. Hökumətin mövqeləri ildən-ilə zəifləyirdi. Ölkə güclü sosial parlayış qarşısında qalmışdı. Bütün bunlar Birmanın 80-ci illər tarixinin məzmunu olmuşdur.

## *1988-ci il çevrilişi və rejimin liberallaşması*

Nəhayət, 1988-ci ildə xalqın son həddə çatmış narazılığı qarşısında hökumət geri çəkilmək zorunda qaldı. Çünki, xalqın çıxışları artıq siyasi xarakter almışdı: arxasında hərbçilər dayanan hakim Birma Sosialist Proqramı Partiyası rejiminə kəskin e'tiraz bildirilir və ölkədə demokratiyanın bərpa olunması tələb edilirdi.

Lakin hökumətin geri çəkilməsindən az keçmədi ki, hərbçilər özlərinə gələ bildilər və 1988-ci ilin 18 sentyabrında çevriliş etdilər. Onlar hakimiyyəti bütünlüklə öz əllərinə aldılar və bildirdilər ki, bu, ölkənin anarxiya və dağılmaqdan qurtarması üçün edilir.

Həmin hadisələrdən sonra Birma tamamilə yeni bir tarixi mərhələyə qədəm qoymuşdur. Deyildiyi kimi, bu mərhələ 1988-ci ildən başlanmışdır və günümüzə qədər davam etməkdədir.

Bu tarixi mərhələnin yeni cəhətləri nədən ibarətdir?

Hərbi çevriliş edərək hakimiyyətə gəlmiş qüvvələr yeni ali icraedici orqan yaratdılar. Bu təşkilat Dövlət Şurası adlanırdı və onun əsas vəzifəsi ölkədə qayda-qanunları bərpa etmək idi. Dövlət Şurası əsasən generallardan və bir də yüksək rütbəli zabitlərdən təşkil olunmuşdu. Onlara general So Maunq başçılıq edirdi.

Dövlət Şurası ilk gündən e'tibarən bildirirdi ki, ölkənin idarə edilməsində yeni prinsiplərə keçiləcəkdir. İqtisadi xarakterli bir sıra islahatlar aparıldı və bunlar ölkədə bazar münasibətlərinin yaranmasına imkan açırdı.

Ən mühüm tədbirlərdən birisi də o oldu ki, ölkədə çoxpartiyalı sistemə əsaslanan parlament demokratiyasının bərpa olunmasına razılıq verildi. Az zaman ərzində ölkədə 230 siyasi partiya və təşkilat yarandı.

Ölkənin adı dəyişdirildi və Myanma İttifaqı adlandırıldı.

Nəhayət, 1990-cı il mayın 27-də parlamentə - Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə əsas müxalifət partiyası Demokratiya Uğrunda Milli Liqa böyük qələbə qazandı. Səslərin 80%-dən çoxunu

toplayan Milli Liqa 322 mandata sahib oldu. Milli Liqaya istiqlal hərəkatının mərhum lideri Aun Sanın qızı Su Ci başçılıq edirdi. Yeri gəlmişkən deyək ki, Su Ci hələ 1989-cü ildə fəal müxalifətçi çıxışlarına görə ev dustağı edilmişdi.

Hərbçilər isə ümid edirdilər ki, seçkilərdə onlarla əməkdaşlıq edən Milli Birlik Partiyası qələbə çalacaqdır. Baş vermiş məğlubiyyətdən çıxmaq üçün hərbçilər belə bir bəyanat verdilər ki, hakimiyyəti yalnız «güclü hökumətə» verəcəklər və bu da o zaman olacaq ki, ölkənin yeni konstitusiyası işlənib hazırlansın, müzakirə edilsin və qəbul olunsun. Bununla da hərbçilər faktik olaraq seçkilərin nəticələrini tanımadılar və hakimiyyəti Su Ciyə və onun tərəfdarlarına verməkdən imtina etdilər, hələ üstəlik Milli Liqanın rəhbərliyini həbsə aldılar. Konstitusiya hazırlayacaq Milli Şura isə 1990-cı ildən başlayaraq fəaliyyət göstərsə də, işini başa vura bilmədi və 1996-cı ildən fəaliyyətini dayandırmışdır.

Seçkilərdən 10 ildən çox vaxt keçməsinə baxmayaraq hərbçilər islahatlar zamanı əldə edilmiş bir sıra uğurları bayraq edib hakimiyyətdə öz yerlərini möhkəmləndirməklə məşğuldular. 1991-ci ilin payızında Su Ciyə Nobel sülh mükafatı verilməsi də təsirsiz qalmışdır.

Müxalifətin digər nümayəndələri də təqib və cəzalara məruz qaldılar. Keçmiş baş nazir U Nu ev dustağı edilmiş, bə'ziləri həbsə alınmış, bəziləri isə deputat mandatından məhrum edilmişlər.

Hərbçilərin bu hərəkətinə cavab olaraq istər ölkənin daxilindəki siyasi qüvvələr, istərsə də beynəlxalq ictimaiyyət kəskin e'tiraz bildirsələr də, ölkəni bu gün də Dövlət Şurası idarə edir.

Qərb dövlətləri faktik olaraq bu hökuməti boykot edir, ona iqtisadi yardım göstərmir və hesab edirlər ki, hərbçilərin hakimiyyəti qeyri-legitimdir və onlar hakimiyyətin mülki hökumətə təhvil verilməsini səbəbsiz olaraq uzadırlar. Ölkədə insan haqları və demokratiya normaları pozulur. Lakin bu tədbirlər də az təsirli oldu. Myanma İttifaqı qonşu ölkələrlə, xüsusilə ÇXR ilə, eləcə də Tayland, Cənubi Koreya, Sinqapur və s. ilə əməkdaşlığını genişləndirir.

Son dövrlərdə Qərbin də «Qalf», «Şell» və s. kimi bir sıra şirkətləri neft və qaz sənayesinə sərmayə qoymağa başlamışlar. Hərbi rejimin keçmiş rəhbəri So Maunq dövründən başlayaraq( onu 1992-ci ildən general Tan Şve əvəz etmişdir - müəl.) Myanmanın siyasi və iqtisadi strukturlarının yaranmasında ASEAN ölkələri, xüsusilə isə

Tayland təcrübəsinə daha çox istinad edilməkdədir.Taylandın təcrübəsi ona görə maraq doğurur ki, orada da siyasi və iqtisadi kursun müəyyənləşdirilməsində hərbçilər əsas rol oynayırlar. Eyni zamanda ölkədə parlament demokratiyasının atributları da vardır.

Yeri gəlmişkən demək lazımdır ki, hərbçilərin rejimi liberallaşdırmaq kursu bir sıra uğurlar qazanmışdır. Artıq iqtisadiyyatın dövlətləşdirilməsi kursundan imtina edilmiş, bazar iqtisadiyyatı prinsiplərinə keçilmişdir. Hökumət açıq qapılar siyasəti yürüdür. Bunun üçün hüquqi-normativ qanunlar qəbul edilmiş, bank-kredit sisteminin, dövlət müəssisələrinin özəlləşdirilməsinin, xarici sərmayənin, xüsusilə də neft-qaz sənayesinə cəlb edilməsinin inkişafı üçün lazım olan tədbirlər həyata keçirilmişdir. Elə bunun nəticəsidir ki, Myanma İttifaqı 1997-ci ildən ASEAN-ın tamhüquqlu üzvü seçilmişdir.

90-cı illərin sonlarında Myanmadakı hərbi rejim öz əvvəlki kursunu davam etdirmişdir.

Cənub-Şərqi Asiya ölkələrinin bəziləri sosialist inkişaf yolu seçdikləri kimi, bir digərləri kapitalist inkişaf yolunu, liberal dəyərlərə əsaslanan cəmiyyət qurmaq yolunu seçdilər. Bunlar İndoneziya, Malayya( Malayziya), Sinqapur, Tayland və Filippinlər idilər. Müharibədən sonrakı dövrdə bu ölkələrin də hər birinin tarixi qaynar və təzadlı hadisələrlə zəngindir. Bununla belə həmin ölkələr üçün bəzi ortaq ənənələr vardır: birincisi, istiqlaliyyətin qazanılması bəzi ölkələrdə, məsələn İndoneziyada, milli-azadlıq hərəkatı və müstəmləkəçilərlə açıq qarşı-qarşıya gəlmək nəticəsində mümkün olmuşdursa, digərlərində, məsələn Filippinlər, Malayya, Sinqapur, hətta Birmanı da bura daxil etmək olar, müstəmləkəçilərlə dinc danışıqlar yolu ilə mümkün olmuşdur. Təbiidir ki, bu halda da müstəmləkəçi dövlətlər artan milli-azadlıq hərəkatının gücü qarşısında geri çəkilmişdi; ikincisi, bu ölkələrdə siyasi müstəqilliyin möhkəmləndirilməsi və qorunub saxlanılması, daxili inkişafda demokratik təməllərin yaradılması və genişləndirilməsi və fəal xarici siyasət yürüdülməsində varislik prinsiplərinə söykənən bir kurs həyata keçirilmişdir; üçüncüsü, bu ölkələr sosialist təmayüllü qonşulardan fərqli olaraq təkcə Qərb dövlətlərinə arxalanıb qalmamış, həm də qonşu və sosialist dövlətləri ilə də normal münasibətlər yaratmaq yolunu da tutmuşdular. Bütün bunlar isə imkan vemişdir ki, həmin ölkələr regionda, tədricən də olsa, müstəqil və azad inkişaf yoluna çıxa bilsinlər. Lakin bu dövlətlərin hər birinin tarixinin fərqli cəhətləri də çoxdur.

# İNDONEZİYA

## *İistiqlaliyyətin əldə edilməsi uğrunda mübarizə*

Mə'lumdur ki, məşhur Pirl Harbur hadisəsindən sonra İndoneziya da Yaponiyaya müharibə elan etdi ( 8 dekabr 1941-ci il). Lakin holland müstəmləkə siyasətinin nəticəsi olaraq İndoneziyada heç bir yerli ordu mövcud olmadığından 1942-ci ilin ilk aylarında ölkə çox asanlıqla Yaponiya tərəfindən tutuldu. Holland müstəmləkə hakimiyyəti təslim oldu.

İndoneziya yapon işğalı altına keçdikdən sonra istiqlal hərəkatının liderləri azadlığa buraxıldılar. Onlardan bəziləri (Sukarno və Məhəmməd Hatta) yaponlarla əməkdaşlığa girərək Yaponiyanın himayəsi altında bir İndoneziya dövləti yaratmağa çalışırdılar. Bəzi qüvvələr isə ( Şahrir və Əmir Şərəfəddin) partizan müharibəsinə başlamış, həm Hollandiya, həm də Yaponiyaya qarşı döyüşürdülər. Ancaq tədqiqatçılar bunu da qeyd edirlər ki, eyni zamanda hər iki qrup arasında gizli əlaqələr də mövcud idi.

1945-ci ilin yazında antifaşist koalisiyanın hücumlarının genişləndiyi şəraitdə Yaponiya ölkədə öz mövqelərini möhkəmlətmək üçün «Konstitusiya hazırlamaq üzrə tədqiqatlar komitəsi» adlı bir təşkilat yaratdı. Sukarno, Hatta və digər liderlər bu komitənin işinə cəlb olundular. 1945-ci ilin 17 avqustunda Yaponiya hökuməti təslim olmasını bəyan edəndən sonra Sukarno həmin komitə adından İndoneziyanın istiqlaliyyətini elan etdi. Müvəqqəti konstitusiya qəbul olundu və konstitusiyaya görə İndoneziyada güclü prezident hakimiyyətinə malik unitar dövlət yaradılırdı. Elan olunmuş «İndoneziya Respublikası»nın prezidenti Sukarno seçildi. Əmir Şərəfəddin isə nazirlər kabinetinə başçı tə'yin olundu. Az sonra yaradılmış yeni kabinetdə onu Şahrir əvəz etmişdir. Beləliklə, faktik olaraq İndoneziya xalqı öz istiqlalına qovuşdu. Bu hadisə İndoneziya xalqının uzun illərdən bəri apardığı mübarizənin şanlı yekunu idi.

II dünya müharibəsinin sonunda gücsüz və imkansız olan Hollandiya buraya hərbi qüvvə göndərə bilmədi. Ona görə yapon ordusunun təslimini qəbul etmək və bu ordunu tərk silah etmək üçün sentyabrın sonlarında ingilis hərbi qüvvələri Yava adasına çıxarıldı. İngilislərin ardınca Hollandiyanın ordu hissələri və müstəmləkə idarə aparatı da ölkədə görünməyə başladı. Təbiidir ki, yeni yaranmış

müstəqil İndoneziya hakimiyyəti keçmiş müstəmləkə ordularının və hakimiyyətinin qayıtmasını qəbul etmədi və ona qarşı mübarizəyə başladı. Kiçik və ara-sıra silahlı toqquşmalar ən sonda böyük və fasiləsiz savaşa çevrildi. İlk vaxtlar təlim görməmiş və yaxşı silahlanmamış İndoneziya hərbi qüvvələrinin hücumlarına müqavimət göstərə bilən holland müstəmləkə hakimiyyəti və ordusu zaman keçdikcə ardı-arası kəsilməyən və artmaqda olan hücumlar qarşısında aciz qaldı. O biri tərəfdən beynəlxalq ictimaiyyət də BMT-nin timsalında İndoneziyada gedən hadisələrə öz kəskin reaksiyasını bildirir və nahaq qan tökülməsinin qarşısını almaq üçün hərbi əməliyyatların dayandırılmasını tələb edirdi. İlk olaraq Böyük Britaniya öz hərbi qüvvələrini 1946-cı ilin noyabrında İndoneziyadan çıxarmağa məcbur oldu. Hollandiya isə hələ bir müddət ölkədə qalmaq üçün düşünüb hazırladığı planları həyata keçirməyə çalışırdı. Plana görə Hollandiya istəyirdi ki, «Hollandiya-İndoneziya birliyi» adı ilə qurum yaradılsın və İndoneziya onun daxilində «İndoneziya Birləşmiş Ştatları» şəklində mövcud olsun. Yeni yaranan bu quruma İndoneziyadan başqa Bruney və onun şərqindəki adalar, eləcə də Yeni Qvineyanın daxil olması nəzərdə tutulurdu. Bundan da məqsəd tək bir İndoneziya respublikası əvəzinə, bir çox zəif, qismən Hollandiyaya sadiq, bəzən də birbaşa satılmış adamlar tərəfindən idarə edilən dövlətlər qurmaq idi. Təbiidir ki, müxtəlif qüvvələrin bu şəkildə bir araya gəlməsi Hollandiyaya imkan verərdi ki, onların arasındakı ziddiyyətlərdən istifadə etsin və burada öz maraqlarını qoruyub saxlaya bilsin.

İngilislərin ölkədən çıxmasından sonra Hollandiya İndoneziya respublikası liderləri ilə yanaşı adalardakı ayrı-ayrı xalqların liderləri ilə də danışıqlara başladı və hətta 1947-ci ilin martında ölkənin istiqlaliyyətini de-fakto tanıdı. Bu barədə ayın 27-də Linqacati adlı yerdə tərəflər arasında müqavilə də imzalandı. Müqavilənin şərtlərinə görə Hollandiya planlaşdırdığı federativ dövlət qurulması şərtini qəbul etdirə bildi. İndoneziya Respublikası həm də əcnəbilərin toxunulmazlıq və mülkiyyət hüquqlarının qorunmasına zəmanət verdi.

Qeyd etmək lazımdır ki, bu müqavilə İndoneziyaya müəyyən qədər rahat nəfəs almaq imkanı verdi. Yaranmış dinclikdən Hollandiya da yararlanmaq istəyirdi. O, ölkədə müstəmləkə hərbi birləşmələrini qüvvətləndirir, buraya əlavə dəstələr gətirirdi. Artıq 1947-ci ilin ortalarında İndoneziyada 120 min nəfərlik bir ordu döyüşə hazır vəziyyətə gətirilmişdi. Nəhayət, Linqacati müqaviləsinin bağlanma-

sından üç ay sonra hərbi əməliyyatlar yenidən başlandı. Hollandların artan təzyiqi nəticəsində İndoneziya bir sıra güzəştlərə getdisə də, ölkə ərazisində qayda-qanun yaratmaq məqsədilə jandarma qüvvələrinin fəaliyyətinə razı olmadı.

1947-ci ilin 20 iyununda Hollandiya «polis əməliyyatı» aparmaq adı ilə təkrar hərbi əməliyyatlara başladıqda bu dəfə İndoneziya ordusunun güclü müqaviməti ilə qarşılaşdı. Vəziyyət gərginləşdiyindən BMT məsələyə qarışdı. Hollandiyanın hərəkətləri kəskin tənqidə məruz qaldı. Ancaq əsaslı heç bir qərar qəbul olunmadı və heç bir dövlət İndoneziyaya yardım etmədi. Yalnız hərbi əməliyyatların dayandırılması haqqında avqustun 1-də qətnamə qəbul edildi. Qətnamə həm də Hollandiyanın qazanmış mövqelərini də qoruyurdu. Ölkəyə Belçika, Avstraliya və ABŞ nümayəndələrindən ibarət «Xeyirxah xidmətlər komissiyası» göndərildi. Komissiyanın vasitəçiliyi ilə tərəflər arasında 1948-ci il yanvarın 17-də Linqacati müqaviləsinin şərtlərini tanıyan yeni saziş imzalandı. Ancaq respublikanın hakimiyyəti altında olan ərazilər xeyli azaldı və yalnız Yavanın mərkəzi hissəsi, bir də Sumatranın bəzi rayonlarından ibarət oldu.

Lakin baş verən bir sıra hadisələr, ən başlıcası millətçi qüvvələrlə kommunistlər arasında sonu qanlı toqquşmalarla nəticələnən qarşıdurma Hollandiya hərbi qüvvələrinin daha bir hücum cəhdinə imkan yaratdı. Bəlli olduğu kimi o dövrdə koalisyon hökumətə solçu sosialist (sonralar hətta kommunist olmuş) Əmir Şərəfəddin başçılıq edirdi. Ölkənin gələcək inkişaf kursunun müəyyənləşməsi və həyata keçirilən tədbirlərin istiqaməti barədə onunla sağ qüvvələr arasında baş verən fikir ayrılığı zəminində Əmir Şərəfəddin istefa verdi. Hökumətə rəhbərlik vitse-prezident Məhəmməd Hattaya tapşırıldı və kabinetdə bir sıra mühüm vəzifələr Maşumi partiyasının nümayəndələrinə keçdi. Yeni hökumət ABŞ-la yaxınlaşmaya əsaslanan qərbpərəst siyasi xətt tutdu. Kommunistlər Əmir Şərəfəddinin istefasını səhv adlandırdılar və bunu hakimiyyətdən könüllü imtina kimi qiymətləndirdilər. Bununla yanaşı onlar güclü bir siyasi qüvvəyə çevrilmək üçün 1948-ci ilin 26 fevralında bütün sol qüvvələri birləşdirən Xalq Demokratik Cəbhəsi (XDC) adlanan bir partiya yaratdılar. Marksist fəhlə və sosialist partiyaları da XDC ilə birləşdi. Bunun ardınca sentyabrın ortalarında orduda sağ və sol qüvvələri müdafiə edən hərbçilər arasında Şərqi Yavada toqquşma baş verdi. Hökumət bunu kommunistlərin hakimiyyəti ələ keçirmək

cəhdi kimi qiymətləndirdi və onlara qarşı hücuma keçdi. Kommunistlərin liderləri, o cümlədən Musso, Əmir Şərəfəddin və s. rəhbərlər ələ keçirildi və güllələndi, digərləri həbsə alındı.

Hollandiya müstəmləkə hakimiyyəti yaranmış vəziyyətdən yararlanmaq istədi. 1948-ci il yanvarın 18-də holland hərbi qüvvələri paytaxta daxil oldu, prezident Sukarno və bir sıra nazir həbs edildi. İndoneziya xalqı buna kəskin reaksiya verdi. Bütün ölkəni geniş partizan müharibəsi bürüdü. BMT məsələyə ciddi müdaxilə etdi, beynəlxalq ictimaiyyət Hollandiyanın bu hərəkətinə güclü təpki göstərdi. Hollandiya hökuməti məcbur edildi ki, İndoneziya liderlərini həbsdən buraxsın və onlarla danışıqlara başlasın.

1949-cu ilin avqustunda Haaqada «dəyirmi masa» konfransı açıldı və burada Hollandiya, İndoneziya respublikası ilə yanaşı müstəmləkəçilərin yaratdığı bir neçə oyuncaq «dövlət»lərin təmsilçiləri də iştirak edirdi. «Xeyirxah xidmətlər komissiyası»nın vasitəçiliyi ilə keçirilən bu konfransın sonunda noyabrın 2-də imzalanan sazişə görə yeddi dövləti birləşdirən İndoneziya Birləşmiş Ştatları adlı yeni suveren dövlətin yaradıldığı elan edildi. İndoneziya Birləşmiş Ştatları Hollandiya və onun Vest-Hind müstəmləkələri ilə birlikdə Holland-İndoneziya İttifaqına daxil olurdu, ölkənin xarici siyasəti və ticarəti, eləcə də müdafiə işləri bu ittifaqın idarəsinə verilirdi. Eyni zamanda İndoneziya Hollandiyaya böyük məbləğdə «borc»unu ödəməli, əcnəbilərin müsadirə edilmiş bütün mülkiyyətləri geri qaytarılmalı və onların ölkə iqtisadiyyatında geniş iştirakı təmin edilməli idi.

Haaqa konfransının bu cür alçaldıcı şərtləri xalqın böyük e'tirazı ilə qarşılandı. Hollandiyanın bütün cəhdlərinə baxmayaraq xalq öz mübarizəsini davam etdirdi. Nəhayət, artan və genişlənən bu xalq mübarizəsinin nəticəsində 1950-ci ilin 17 avqustunda İndoneziya Birləşmiş Ştatları ləğv edildi. Yeni Əsas qanuna görə İndoneziya təkrar unitar dövlət e'lan olundu. Lakin dövlət quruluşunda müəyyən dəyişiklik edildi: güclü prezident hakimiyyətinin müəyyən hissəsi parlamentə və hökumətə verildi.

## *Dövlət quruculuğu sahəsində görülən tədbirlər*

Unitar dövlət olduqdan sonra İndoneziya hökumətinə müsəlman Məşumi partiyasının lideri Nasır başçılıq etdi. Kabinetdə əsas postları Məşumi liderləri və sağ sosialistlər tuturdular. Nasır kabineti də öz sələfinin kursunu davam etdirir, əsasən Qərb yönümlü siyasət yeridirdi. Hökumət Qərb dövlətləri ilə əlaqələri genişləndirir, alınacaq iqtisadi yardımlar hesabına yeni iqtisadi strukturlar yaratmaq istəyirdi. Lakin kommunistlərdən və sol sosialistlərdən ibarət olan müxalifət qüvvələri hər vəchlə bu kursa qarşı çıxır, parlament vasitəsilə hökumətə təzyiqlər göstərirdi. 1951-ci ilin martında Qərbi İriana məsələsinin həllindən Hollandiyanın boyun qaçırması Nasır hökumətinin istefaya getməsinə səbəb oldu. Məşumi partiyasının liderlərindən Sukiman başda olmaqla yeni kabinet yaradıldı.

Kommunistlər və sol sosialistlər daha da fəallaşdılar. Artıq onlar tələb edirdilər ki, «dəyirmi masa» konfransının nəticələri ləğv olunmalıdır, Qərbi İriana respublikanın tərkibinə qatılmalıdır. Kommunistlər və sol sosialistlər bir sıra narazı qüvvələri də öz ətraflarında birləşdirə bildilər və hökumətə qarşı təzyiqləri artırdılar.

İkinci hökumət böhranı 1952-ci ilin fevralında baş verdi. Bunun səbəbi Sukiman hökumətinin ABŞ-la bağladıqı «qarşılıqlı təhlükəsizliyin təmini» haqqında müqavilənin parlamentdə bəyənilməməsi oldu. Sukiman hökuməti istefaya getdi. Eyni zamanda Məşumi partiyasının özü parçalandı və ondan ayrılanlar Nəhdət ül- ülama partiyasını yaratdılar.

Bu dəfəki kabinetə Milli Partiyanın sağ qanadının lideri Viloponun başçılığı ilə əsasən mərkəzçi və sol siyasətçilər gətirildi. Vilopo hökuməti «liberal demokratiya» prinsipləri çərçivəsində İndoneziyanın istiqlaliyyətini möhkəmlətmək sahəsində bir sıra addımlar atdı. Müstəqil xarici siyasət yürütmək kursu götürdü. Hollandlara məxsus bir sıra iri obyektlər milliləşdirdi və ya onlar üzərində dövlət nəzarətini gücləndirdi. İndoneziyadakı holland hərbi missiyasının fəaliyyətinə son qoydu. Lakin hökumətin aqrar siyasətinə qarşı narazılıq onun istefası ilə nəticələndi. 1953-cü ilin yayından yenə də Milli Partiyanın liderlərindən Əli Sastroamicoyo kabinetə başçılıq etdi. Bu hökumət də əvvəlki kursa sadiq qaldı. 1954-1956-cı illərdə Hollandiya ilə müttəfiqlik əlaqələrinə son verildi, rabitə vasitələri, nəqliyyat, kommunal xidmət müəssisələri milliləşdirildi, xarici kapitalın imtiyazları məhdudlaşdırıldı, əcnəbi-

lərə məxsus torpaqların müsadirəsi və kəndlilərə paylanılmasına başlanıldı və s.

Ən mühüm tədbirlərdən birisi o oldu ki, «dəyirmi masa» konfransının qərarları, o cümlədən Hollandiya qarşısındakı maliyə öhdəlikləri qüvvədən düşmüş elan edildi.

Ancaq qeyd etmək lazımdır ki, «liberal demokratiya» kursunun tətbiqi siyasi istiqrarsızlıq üzündən olduqca ciddi çətinliklərlə üzləşirdi. İstər 1955-ci ildə keçirilən ilk parlament seçkiləri, istərsə də yerli hakimiyyət orqanlarına keçirilən seçkilər bu siyasi istiqrarsızlığı aradan qaldıra bilmədi. Xüsusilə 1956-1957-ci illərdə Sumatra və Sulavesi hərbçilərinin qiyamları çox ciddi təhlükələr yaratdı. Əsasən zabitlərin iştirak etdiyi bu qiyamlar sağ qüvvələr tərəfindən dəstəkləndi. Vəziyyət böhranlı hal aldı. Belə olduqda prezident Sukarno 1957-ci ilin əvvəllərində özünün məşhur «yönəldilən demokratiya» kursunu elan etdi. Kursa əsasən yenidən prezident hakimiyyəti qüvvətləndirilməli və ölkədəki bütün siyasi partiyaların, o cümlədən kommunistlərin də daxil olduğu milli birlik hökuməti yaradılmalı idi. Bu kursun əsas prinsipləri 1959-cu ilin 17 avqustunda istiqlal qazanılmasının ildönümündə Sukarnonun elan etdiyi «Siyasi manifestdə» öz əksini tapmışdı. Xalqın rifah halının yaxşılaşdırılması, əhalinin ərzaq və paltarla təmin edilməsi, dövlətin təhlükəsizliyinin möhkəmləndirilməsi, iqtisadiyyatda və siyasi həyatda imperializmə qarşı mübarizə, ədalətli və çiçəklənən cəmiyyət qurmaq kimi populist şüarlar «Siyasi manifest»in məzmununu təşkil edirdi. Avqust inqilabının başa vurulması və ölkədə «İndoneziya sosializmi» qurulması əsas məqsəd elan olunurdu.

Hələ 1959-cu ilin iyulunda Müəssislər Məclisi buraxıldı, qüvvədə olan konstitusiya 1945-ci il konstitusiyası ilə əvəz olundu. Ölkənin idarə edilməsi xeyli mərkəzləşdirildi. İcra orqanlarının qanunverici orqanlardan asılılığı xeyli azaldıldı. Prezident Sukarnonun başçılığı altında yeni hökumət təşkil edildi və burada bütün nüfuzlu partiyaların təmsilçiləri var idi. 1960-cı ildə Sukarnonun rəhbərliyi ilə Milli Cəbhə yaradıldı. Aşağıdakı beş prinsip Milli Cəbhənin fəaliyyət proqramı oldu: 1) 1945-ci il konstitusiyasına qayıtmaq; 2) «İndoneziya sosializmi»; 3) «yönəldilən demokratiya»; 4) «yönəldilən iqtisadiyyat»; 5) İndoneziyanın özünə məxsusluğu.

E'lan olunmuş prinsiplərin həyata keçirilməsi sahəsində bir sıra tədbirlər görüldü. Prezidentin fərmanı ilə parlamentin tərkibində

dəyişiklik edildi. Milli Partiya, Nəhdət ül-ülama, Kommunist partiyası təmsilçiləri ilə yanaşı müxtəlif fəaliyyət sahələrinin, məsələn ordu, həmkarlar ittifaqları, kəndli, qadın, kənclər və s. təşkilatları təmsil edən şəxslər də parlamentə daxil oldu. Məşumi və sağ sosialist partiyaları parlamentə buraxılmadı. Sonra isə onlar qiyamlara dəstək verməkdə və eləcə də imperialist qüvvələrlə şübhəli əlaqələrdə suçlandırıldı və prezidentin fərmanı ilə buraxıldılar. Əcnəbilərə məxsus olan mülkiyyət milliləşdirildi, faydalı qazıntıların axtarılması haqqında verilmiş konsessiyalar ləğv edildi. Təbiidir ki, bütün bu tədbirlərlə ölkənin iqtisadi vəziyyətini nəinki yaxşılaşdırmaq, heç qaldırmaq belə mümkün deyildi, belə də oldu. Çünki, ölkənin maliyə imkanları zəif, əlavə sərmayəsi yox idi, təcrübəli milli kadrlar çatışmırdı və s. və i.a. Bunların nəticəsi olaraq sənaye istehsalı azalır, inflyasiya artırdı. Eyni zamanda isə cəmiyyətdə yeni bir sosial təbəqə yaranırdı ki, tarixi ədəbiyyatda onları bir qayda olaraq bürokratik burjuaziya adlandırırlar. Bunlar da əsasən o insanlar idi ki,-və burada hərbçilər üstünlük təşkil edirdilər, - milliləşdirilmiş müəssisələrin rəhbərliyinə gətirilmişdilər və öz xidməti mövqelərindən şəxsi varlanmaları üçün faydalanırdılar. İndoneziyada onları «kapitalist-bürokrat» və ya «kəbir» adlandırırdılar.

### *Sukarno hökumətinin xarici siyasəti*

İndoneziya istiqlaliyyət qazandıqdan sonra keçən ilk onilliklərdə əsasən müstəmləkə asılılığının qalıqlarından xilas olmağa, daha çox süverenliyə, tərəfsizliyə yönəli siyasi kurs yürütmüşdür. Bu dövrdə o, xarici siyasətdə müstəqil olmağa çalışmışdır.

İndoneziya 1955-ci ildə öz şəhərlərindən birisi olan Banduqda 29 Asiya və Afrika dövlətinin iştirakı ilə keçirilən konfransın çağrılmasının təşəbbüskarlarından birisi olmuşdur.

Ümumiyyətlə Bandunq konfransı II dünya müharibəsindən sonrakı dövrdə millətlər arası siyasətdə yeni bir hadisə kimi dəyərləndirilir. Yeniliyin mahiyyətində nə dayanırdı?

Bəlli olduğu kimi, həmin dövrdə Şərq-sosialist və Qərb-kapitalist dövlətləri blokları var idi. Hər iki blok bütün dunyada nüfuz uğrunda öz aralarında gizli və açıq şəkildə mübarizə aparırdı. Təbiidir ki, həmin mübarizənin obyekti yeni müstəqilliyə qovuşmuş dövlətlər idi. Bu və ya digər blokun təsiri altına düşmək istəməyən dövlətlər

## *1965-ci il dövlət çevrilişi*

Antimalayziya kampaniyası ölkənin iqtisadi və siyasi imkanlarının boş və faydasız yerə sərf olunması ilə nəticələndi, bəzi hallarda sərhəd rayonlarında qanlı toqquşmalara səbəb oldu. Bu kampaniya 1965-ci ildə çıxılmaz bir hala gəldi, Sukarno hökumətinin həyata keçirdiyi tədbirlərin səmərəsizliyini üzə çıxartdı. Ölkənin iqtisadi vəziyyəti getdikcə pisləşməyə doğru getdi, inkişaf proqramlarının həyata keçirilməsi prosesi pozuldu, maddi ehtiyatlar, ilk növbədə alınan xarici kreditlər amansızcasına dağıdıldı. Nəticədə ölkənin iqtisadi vəziyyəti ağırlaşdı, mövcud istehsal imkanlarından istifadə iki dəfədən çox aşağı düşdü, ixrac azaldı, ciddi valyuta çatışmazlığı yarandı. Yaranmış vəziyyət məcbur etdi ki, hökumət xaricdən sənaye avadanlıqları və istehlak məhsulları almağı ixtisar etsin. Pul vahidi rupinin dəyəri get-gedə tamam aşağı düşürdü. 1958-1964-cü illər arasında ilk zəruri əşyaların dəyəri 20 dəfədən çox qalxmışdı, ancaq əmək haqları isə, demək olar ki, öz əvvəlki səviyyəsində qalmışdı. Bütün bunlar xalqın hökumətdən narazılığını artırır, onun yürütdüyü kursa inamı azaldırdı. Bu səbəbdən ölkədə siyasi böhranın yetişməsi və lap yaxın vaxtlarda açıq-aşkar üzə çıxacağı göz qabağında idi. Hadisələrin belə gedişi zəmnində kifayət qədər siyasi güc əldə etmiş iki qüvvənin-İndoneziya Kommunist Partiyası və ordu komandanlığının qarşı-qarşıya gələcəyi daha çox hiss olunurdu. Daha doğrusu, ordu komandanlığı Kommunist Partiyası və onun müttəfiqləri Milli partiyanın sol qanadı, sol radikal Partindo, eləcə də kommunistlərin təsiri altında olan həmkarlar ittifaqları, kəndli ittifaqları, gənclər, qadın, ziyalı təşkilatlarının birləşərək hakimiyyətə yiyələnmək iddiasını bütün aydınlığı ilə dərk etdiyindən əks həmlə ilə bu prosesin qarşısını almağı planlaşdırdı. Başqa sözlə desək, sol qüvvələrə sarsıdıcı zərbə vurub onları zəiflətmək qərarı verdi. Öz növbəsində İKP rəhbərliyi də artıq bu inamda idi ki, hakimiyyətin «həqiqi inqilabçılar»ın əlinə keçməsi zamanı tam yetişmişdir və indi sözdən işə keçmək labüddür.

Belə bir şəraitdə 1965-ci ilin yayında şayə yayıldı ki, İndoneziyada guya hansısa «generallar şurası» var və onlar tərəfindən dövlət çevrilişi hazırlanır. Məhz bu şayə də açıq toqquşmalar üçün bir işarə oldu. Belə ki, bu şayələrə cavab olaraq sentyabrın 30-dan oktyabrın 1-nə keçən gecə prezidentin mühafizə dəstəsindən olan bir

qrup gənc zabitlər dövlət çevrilişinin qarşısını almaq adı ilə bir neçə yüksək rütbəli ordu komandanlarını həbs etdilər, sonra isə onları prezidenti yıxmağa cəhd ittihamı ilə güllələdilər. Eyni zamanda gənc zabitlər elan etdilər ki, hökumət buraxılmışdır və hakimiyyət yeni yaradılmış «İnqilabi Şura»ya keçmişdir.

Gənc zabitlərin «30 senyabr hərəkatı» adı almış bu aksiyası Mao Dze-dun ideyalarının ardıcıl tərəfdarı və idealı dünyanın ən böyük müsəlman ölkəsini Çin inkişaf yoluna çıxarmaq olan İKP rəhbərliyinin bir hissəsi tərəfindən dəstəkləndi. Lakin «30 sentyabr hərəkatı» təşkilatçılarının elə bir xüsusi proqramı yox idi və ümumiyyətlə son məqsəd olaraq nə istədikləri bəlli deyildi. Ona görə də onlar digər siyasi partiyaların və ictimai təşkilatların dəstəyini qazana bilmədilər. Bunun müqabilində quru strateji ehtiyatlar ordusunun komandanı general Suxartonun başçılıq etdiyi hərbi qüvvələr oktyabrın 1-də sübhə yaxın «İnqilabi Şuranın» tərəfinə keçmiş ordu hissələrini çox asanlaqla darmadağın etdi. Çevrilişin təşkilatçıları və iştirakçılarına, xüsusilə də İKP, onun müttəfiqləri olan həmkarlar və digər ictimai təşkilatların liderləri və üzvlərinə qarşı cəza tədbirləri başlandı. Onlardan çoxu həbsə alındı və öldürüldü. İKP MK-nın sədri D.N. Aydit güllələndi. 1966-cı ilin martında isə hakimiyyət orqanları İKP-nin buraxıldığını və ümumiyyətlə ölkədə kommunist ideyalarının təbliğ edilməsinin qadağan olunduğunu elan etdilər.

Sonrakı mərhələdə millətçi hərəkatın sol qanadı də güclü hücuma məruz qaldı. Sukarnonun özünə qarşı kampaniya başlandı. Bu zaman «yönəldilən demokratiya» kursunun xətalarından və mənfi tərəflərindən, prezidentin avtoritar idarəçilik metodunun yaratdığı neqativ cəhətlərdən bacarıqla istifadə olunurdu. Təbiidir ki, belə bir tənqid kampaniyasında sağ qüvvələrin əsas məqsədlərindən biri də öz sosial bazasını daha da gücləndirmək idi: gənclər, xüsusilə də tələbə gənclər onların tərəfinə keçdilər.

Ölkəyə nəzarəti öz əlində cəmləyən hərbçlər Sukarnodan tələb etdilər ki, öz sol görüşlərindən və elan etdiyi «Siyasi manifest»in prinsiplərindən əl çəksin. Lakin Sukarno bunların heç birini etmədi, hətta komunistlərə qarşı yürüdülən siyasəti belə dəstəkləmədi. Bununla yanaşı, xalq arasında olan nüfuzundanda hərbçilərə qarşı mübarizədə istifadə etmədi. Prezident hətta öz tərəfdarlarını sakitləşməyə çağırırdı. Onun bu dövrdəki bütün fəaliyyəti ancaq siya-

si vəziyyətin tənzim ediləcəyi haqqında verdiyi bəyanatlardan ibarət olmuşdur. Hərbçilər isə əksinə, daha da fəallaşırdılar, dövlət aparatında təmizləmə aparmaq adı ilə oraya öz tərəfdarlarını yerləşdirir və ölkə həyatının bütün sahələrində mövqelərini möhkəmləndirirdilər.

Nəhayət, 1966-cı ilin 11 martında prezident Sukarno icraedici hakimiyyət sahəsində səlahiyyətlərinin çox böyük hissəsini general Suxartoya vermək məcburiyyətində qaldı. Sonrakı 1967-ci ildə o, ümumiyyətlə prezident postundan devrildi və general Suxarto prezident vəzifəsinin icraçısı oldu. 1968-ci ildə isə o, artıq İndoneziyanın prezidenti idi və ölkədə «yeni nizam» yaradırdı.

## *İndoneziya Suxartonun hakimiyyəti illərində*

60-cı illərin sonlarından başlayaraq İndoneziyanın həyatında ən xarakter cəhət ondan ibarətdir ki, ordunun bir dövlət tə'sisatı kimi ölkənin istər daxili, istərsə də xarici siyasətində, eləcə də iqtisadiyyatda və ideolgiyada təsiri həlledici olmuşdur. Hətta belə bir rəsmi konsepsiya qəbul olunmuşdu ki, hərbi qüvvələr «ikili funksiya» daşıyırlar və buna uyğun şəkildə ordu cəmiyyətin bütün sahələrində rəhbəredici qüvvədir. Eyni zamanda bəyan edilirdi ki, ağır iqtisadi şəraitdə siyasi qruplaşmalar arasında mübarizədən çəkinilməlidir, bütün səylər məhz iqtisadi inkişafı təmin etməyə yönəlməlidir və İndoneziyada vəziyyətin sabit olması haqqında xarici aləmin inamını qırmamaq lazımdır.

Əsasən hərbçilərdən ibarət olan yeni hökumət haqqında danışılan məqsədlərə çatmaq üçün dövlət aparatında mülki idarəçiliklə bağlı olan bütün vəzifələrə hərbçiləri gətirdi. Nazirliklərdə və vilayətlərin idarə edilməsində ən mühüm vəzifələr hərbçilərin əlində cəmləşdi. Onlar yüzlərlə şirkətlərin, o cümlədən neft və qaz sənayesi, düyü istehsalı və ticarət sahəsində fəaliyyət göstərən ən iri şirkətlərin rəhbər şuralarına daxil edilirdilər.

İqtisadi sahədə hökumət özəl bölmənin inkişafına önəm verən kurs götürdü. Həm də bu zaman nəzərdə tutulurdu ki, bu bölmənin genişləndirilməsi üçün Qərb dövlətlərinin verdiyi kreditlərdən, eləcə də xüsusi kapitalın imkanlarından istifadə olunmalıdır. Bunun üçün hüquqi-normativ baza yaradıldı. 1967-ci ildə xarici sərmayədarların hüquqlarını qoruyan bir sıra qanun qəbul edildi. Nəticədə, artıq 1977-ci ilin ortalarına qədər olan müddətdə ölkəyə

6,6 mld dollar (neftçıxarma sahəsinə qoyulan kapitaldan əlavə) xarici sərmayə qoyuldu. ABŞ və Yaponiyanın iri şirkətləri dağ-mədən sənayesində, meşə məhsulları emalında və müxtəlif infrastukturaların yaranmasında yaxından iştirak edirdilər. İqtisadiyyatda, zəif də olsa, 1969-1977-ci illər planının yerinə yetirilməsində ilkin irəliləmələr özünü göstərməyə başladı.

Həmin dövr üçün xarakter olan bir cəhətə də toxunmaq istərdik: yeni hökumətin həyata keçirdiyi tədbirlər yuxarı hərbi dairələrlə bürokratik burjuaziyanın, yəni kəbirlərin qaynayıb-qarışması ilə müşayət olunurdu. Onların birliyi milli burjuaziyanın digər qruplarının hakimiyyətə yaxın buraxılmasına imkan vermirdi və bununla da sonuncular dövlət yardımlarından, imtiyazlardan, kreditlərdən, əlverişli sifarişlərdən məhrum olunurdular. Bu səbəbdən idi ki, 70-ci illərin əvvəllərində həmin qrupların nümayəndələrindən müflisləşən iş adamlarının sayı 10 min nəfəri ötmüşdü. Hərbi rejimin yürütdüyü bu kurs getdikcə orta təbəqələrdə narazılıq doğururdu.

Qeyd etmək lazımdır ki, ənənəvi olaraq milli burjuaziyanın böyük əksəriyyəti müsəlman siyasi qruplaşmaları və partiyaları ilə bağlı idi. Ümumiyyətlə isə İndoneziyanının həyatında müsəlman təşkilatları həlledici rol oynamış və oynamaqda da qalırdılar. Bu da təsadüfi deyildir. Ölkə əhalisinin 90%-dən çoxu islam dininə etiqad edir. Müsəlman dini liderlərinin başçılıq etdiyi siyasi partiyalar ölkənin istiqlaliyyət qazanmasında mühüm rol oynamışdılar. Təbiidir ki, bu siyasi partiya və qüvvələrin yaranması və qruplaşmasını onların islama etiqadı ilə bağlamaq düzgün olmazdı və burada dini amildən daha çox sosial-iqtisadi və ideoloji amillər həllediciidir. Ona görə də zahirən vahid görünən bu qüvvələr özü də bir bütöv ola bilməzdi və müxtəlif yönümlü küclərdən ibarət idi. Müsəlman gənclər təşkilatları 1965-1967-ci illər antikommunist kampaniyasının fəal iştirakçısı olmuşdular. 70-80-ci illərdə müsəlman liderləri ticarətçilərin və sənayeçilərin maraqlarının müdafiəçisi rolunda çıxış edirdilər. Onlar xarici kapitalın, xüsusilə də yapon və yerli çin kapitalının iqtisadiyyatda güclənməsindən narazılıqlarını bildirirdilər. Müsəlman liderləri hərbçilərin hakimiyyətə tamam yiyələnmələrini, yüksək vezifə sahiblərinin korrupsiyaya qurşanmalarını, qərb həyat tərzinin güclü təsirini, əxlaqi dəyərlərin pozulmasını və s.ni ciddi şəkildə pisləyirdilər.

Müsəlman siyasi qruplaşmaları 1971-ci il parlament seçkilərindən sonra daha da fəallaşdılar. Bu ondan irəli gəldi ki, iqtidaryö-

nümlü qruplaşma-müxtəlif fəaliyyət sahələrini təmsil edən şəxslər parlamentdə 460 mandatdan 236-na sahib oldular. 100 yer seçkilərdə iştirak etmədən hərbçilərə verildi. Nəhdət ül-ülama partiyasına 58, Milli Partiyaya da 20 çatdı.

1973-cü ildə isə Konqress general Suxartonu növbəti müddətdə ölkənin prezidenti seçdi. Ümumiyyətlə isə, seçkilərdə qazandıqları qələbəyə istinad edərək hakim qüvvələr gələcəkdə partiyaların rolunun azalmasına yönəli kurs götürdülər. 1973-cü ildə ölkədə partiya sistemi yenidən quruldu, fəaliyyət göstərən partiyaların sayı üçə endirildi. Bunlar aşağıdakı partiyalar idi: 1) Funksional qrupları, yəni müxtəlif fəaliyyət sahələrini təmsil edən şəxsləri birləşdirən Funksional qruplar təşkilatı (Qolkar) və bu təşkilat bilavasitə hərbi rəhbərliyin mövqelərini müdafiə edirdi; 2) üç millətçi qruplaşmanı və iki xristian təmayüllü qruplaşmanı birləşdirən İndoneziya Demokratik Partiyası (İDP) ; 3) müsəlman siyasi qruplaşmalarını birləşdirən Birlik və İnkişaf partiyası (BİP).

BİP yarandığı gündən ölkə vətəndaşlarına real seçki hüquqları verilməsi, qanunçuluğa əməl edilməsi, sosial-iqtisadi siyasətin əhalinin böyük əksəriyyətinin maraqlarına uyğun şəkildə aparılması tələbləri ilə çıxışlar edirdi.

Vəziyyət 1973-cü ilin sonları 1974-cü ilin əvvəllərində yenidən gərginləşdi. 1974-cü ilin yanvarında Cakartada baş verən kütləvi nümayişləri hökumət silah gücünə zorla yatıra bildi.

Hakimiyyətdən narazılıq sonrakı illərdə də səngimirdi. Hərbçilər hakimiyyəti bütünlüklə öz əllərində saxlamaq, müxalifət hərəkatının hər hansı bir formada təzahür etməsinin qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Çalışılırdı ki, nəyin bahasına olursa-olsun siyasi partiyalar müxalifət ovqatının cəmləşdiyi bir mərkəzə çevrilməsin və bu ovqatı ifadə etmək imkanına sahib olmasınlar. 1977-ci il parlament seçkilərinə kampaniya başlayacağı ərəfədə hökumət dekret verdi ki, seçki qabağı kampaniya dövründə «hökumətin, həmçinin hərbçi və mülki vəzifəli şəxslərin siyasətini qiymətləndirmək, dəyərini aşağı salmaq və ya ona etinasız yanaşmaq qadağandır». Müstəqil baxışları olan və fəal hərəkət etmək qabiliyyətinə malik bir sıra görkəmli siyasi liderlər BİP və İDP rəhbərliyindən uzaqlaşdırıldı. Bütün bunlar imkan verdi ki, növbəti parlament seçkilərində də Qolkar qalib gəlsin. O,231 mandata sahib oldu. BİP 100 yer, İDP isə 29 mandat qazandı.

1982-ci ildə isə hakimiyyət bir qədər irəli getdi və «bütün partiyalar üçün vahid prinsip» konsepsiyasını bəyan etdi. Bu o demək idi ki, hər cür ayrı düşünmə qadağan edilir.

Bütün bunlara baxmayaraq hakimiyyətdən narazılıq daha tez-tez və daha geniş formada özünü göstərirdi. 1982-ci ilin yazında Mərkəzi və Şərqi Yavada mütamadi olaraq həyacanlar və çıxışlar baş vermişdir. Yenə də 1982-ci il seçkiləri ərəfəsində hökumətdən narazılıq zəminində toqquşmalar baş verdi və onlarla adam həlak oldu. 1983-cü və 1984-cü illərdə Cakarta və ölkənin digər şəhərlərində müsəlman liderlərinin təşkil etdiyi bir sıra nümayişlər zamanı hökumət binaları dağıdıldı, çin kapitalına məxsus bank və müəssisələr yandırıldı. Hakimiyyət bu çıxışları «müsəlman ekstremizmi» adlandırırdı və onu yatırmaq üçün ordunun yardımından istifadə etdi. Bununla yanaşı hakimiyyətin antikommunist fəaliyyəti də güclənirdi.

Siyasi müxalifətin fəallaşmasına, hakimiyyətə qarşı təzyiqlərin artırmasına baxmayaraq 1987-ci ildə keçirilən növbəti parlament seçkilərində də Qolkar 299 mandat aldı. 100 yerin də hərbçilərə verildiyi bir şəraitdə hökumətyönlü qüvvələrin çox böyük üstünlüyü təmin olunurdu. BİP cəmisi 63, İDP isə 38 mandat qazandı. Parlamentə tam nəzarət Qolkara məxsus oldu.

İrəlidə göstərmişdik ki, Suxarto hökuməti iqtisadi sahədə elə 1967-ci ildən liberal iqtisadi kursa önəm verdi. «Açıq qapılar» siyasəti elan olundu, ölkəyə xarici kapitalın gəlməsi üçün imkanlar yaradıldı. Təbiidir ki, bunlar ölkənin iqtisadi həyatında bir canlanma yaratmaq məqsədi daşıyırdı. Bu siyasət sonrakı dövrlərdə də davam etdirilirdi. Təkcə bu faktı söyləmək kifayətdir ki, 80-ci illərin birinci yarısında ölkə iqtisadiyyatına qoyulan xarici kapitalın məbləği daxili kapital qoyuluşuna bərabər idi. 1970-1980-ci illərdə bir tərəfdən neft hasilatının artımı, o biri tərəfdən onun satışından əldə edilən gəlirin dəfələrlə yüksəlməsi və ən başlıcası, xarici kapitalın ölkəyə axını nəticəsində iqtisadi artım tempi əvvəlki onilliklə müqaisədə iki dəfədən çox yüksəlmişdi. 90-cı illərin əvvəlində İndoneziya orta səviyyəli inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevrilmişdi. Həm də bu zaman ümumi milli məhsul istehsalının yüksəlişi bir ənənə idi.

Qeyd etmək lazımdır ki, iqtisadi həyatda baş verən müsbət dəyişikliklər ölkə əhalisinin artan ehtiyaclarını ödəməkdən geridə qalırdı. Əhalinin say artımı da kifayət qədər problemlər yaradırdı. Ən başlıcası, işsizlərin sayı nəinki azalır, əksinə aramsız olaraq artırdı.

Statistika məlumatlarına görə 80-ci illərin sonunda 15-35 yaşlı indoneziyalılar tamam və ya qismən işsiz idi. Hakimiyyət orqanları əhalinin məşğulluq problemini həll etmək üçün bir sıra təşəbbüslər göstərirdi. Yavanın torpaqsız və ya az torpaqlı kəndli əhalisinin böyük hissəsi əhalisi az olan adalara köçürülürdü. Yeni müəssisələrin inşası, müvafiq infrastrukturanın yaradılması müəyyən iş yerlərinin açılması demək olsa da, məsələnin həllində köklü dəyişikliklər yaratmadı. Milyonlarla insanın yoxsullaşması prosesinin qarşısını almaq heç cür mümkün olmurdu. Sosial qütbləşmə cəmiyyətin xroniki yarasına çevrilmişdi. Bürokratik burjuaziyanın zənginləşməsi xüsusi nəzərə çarpan bir proses olmuşdu. 80-ci illərdə milli gəlirin 40%-i əhalinin 3%-nin payına düşürdüsə, 40% indoneziyalının payı isə 8%-dən az idi. Ümumiyyətlə, 80-ci illərdə hökumətin sosial rifahın yaxşılaşdırılması sahəsində görülən tədbirləri istənilən nəticələri vermədi, xalqın artmaqda olan narazılığı qarşısında az səmərəli oldu. Sosial bərabərsizlik və bürokratik burjuaziyanın özbaşnalığı cəmiyyətdə daxili münaqişələr üçün münbit zəmin yaradırdı. Müsəlman siyasi müxalifətinin fəallaşması özünü göstərir, bütün sosial bəlalardan xilas olmaq üçün «islam cəmiyyəti və islam dövləti» qurmaq şüarları daha ucadan səsləndirilirdi, konstitusiyaya söykənən demokratiya və siyasi plüralizm normalarına qayıtmaq uğrunda çıxış edən qruplar da siyasi fəallaşma prosesinə qoşulurdular.

Mövcud iqtisadi və sosial-siyasi problemlər İndoneziya rəhbərliyini məcbur edirdi ki, öz fəaliyyət istiqamətlərində müəyyən düzəlişlər aparsın. Bu hal xarici siyasət kursunda özünü daha çox göstərdi.

Ümumiyyətlə, Suxartonun hakimiyyəti dövründə lap ilkin vaxtlardan Qərbə meyl çox qüvvətli olmuşdur. İndoneziya ona çalışırdı ki, özünü «milli və regional dəyanət»in nümunəsi olan bir dövlət kimi aparsın. Suxartonun qənaətinə görə, bu, yalnız Qərb dövlətləri ilə yaxınlaşmaq və əməkdaşlıq zəmnində mümkün ola bilərdi. Odur ki, o, Qərb dövlətləri ilə, o cümlədən ABŞ və Böyük Britaniya ilə Sukarno dövründə pozulmuş münasibətləri bərpa etdi. Eyni zamanda Malayziya ilə mübahisəli məsələlər tənzim olundu, Yaponiya ilə hər cür əlaqələr genişləndi. İlk tədbirlərdən biri də 1966-cı ildə İndoneziyanın BMT üzvlüyünə bərpa edilməsidir.

1967-ci ildə İndoneziya bir regional əməkdaşlıq təşkilatının yaradılması təşəbbüsü irəli sürmüş və bu gün ASEAN adı ilə tanınan

təşkilatın qurulmasında iştirak etmişdir. ASEAN-ın ilk üzvləri İndoneziya ilə yanaşı Malayziya, Sinqapur, Tayland və Filippinlər idi. 1971-ci ildə ASEAN belə bir ideya irəli sürdü ki, Cənub-Şərqi Asiya barış və tərəfsizlik rayonuna çevrilsin. Qeyd edək ki, ASEAN-da həlledici rol oynayan İndoneziya bu təşkilatın hərbi-siyasi xarakter alması cəhdlərinə qarşı olmuşdur. Çünki bir sıra qüvvələr ASEAN-nın 1975-1976-cı illərdə dağılmış SEATO blokunu əvəz etməsi təşəbbüsləri ilə çıxış edirdilər.

İndoneziya başqa ASEAN üzvlərindən fərqli olaraq Hind-Çin ölkələri ilə münasibətlərdə daha düşünülmüş mövqe nümayiş etdirmişdir. O, Vyetnamla siyasi dialoq qura bilmiş və Fransa ilə birlikdə Kamboca məsələsinin həllində vasitəçi rolunu oynamışdır. Məhz onların vasitəçiliyi ilə Kamboca məsələsinin sülh yolu ilə həlli mümkün olmuşdur.

İndoneziyanın xarici siyasət kursunda ən mühüm hadisələrdən birisi də 1990-cı ildə ÇXR ilə 1967-ci ildən kəsilmiş diplomatik münasibətlərin bərpa edilməsi olmuşdur.

İndoneziya öz xarici siyasət kursunda kifayət qədər reallığa və müasir dünya nizamında qəbul olunmuş prinsiplərə əməl etməyə çalışırdı. Lakin bununla yanaşı, istisnaların da olduğunu qeyd etmək lazımdır. Başqa sözlə desək, münaqişəli məsələlərin həllində güc tətbiq etməkdən çəkinən İndoneziya 1975-ci ildə Portuqaliyada Salazar rejiminin iflasından yararlanaraq regiondakı sonuncu portagiz müstəmləkəsi olan Şərqi Timoru istila etdi. Şərqi Timor İndoneziyanın bir əyaləti elan olundu.

İndoneziyanın bu addımı ciddi çətinliklər yaratdı. Çünki BMT Şərqi Timorun istilasını pislədi və dəfələrlə İndoneziyaya müraciət etdi ki. öz hərbi qüvvələrini işğal olunmuş ərazidən çıxarsın. BMT Şərqi Timor əhalisinin öz hüquqlarını tə'yin etmə və müstəqillik haqlarının tanındığını bildirmişdir. Məlum olduğu kimi, bu münaqişə uzun müddət həll edilmədi, Şərqi Timor xalqı istiqlal savaşına başladı və döyüşlərdə hər iki tərəfdən çoxlu sayda havayı itkilər oldu. Nəhayət, münaqişə 1999-cu ilin sonlarında Şərqi Timorun öz istiqlaliyyətinə qovuşması ilə başa çatdı.

## *İndoneziya 90-cı illərdə*

İndoneziyanın istiqlaliyyət qazanmasından 90-cı illərin sonunadək

olan müddətdə ölkənin tarixi iki şəxsin: Sukarno və Hacı Məhəmməd Suxartonun adı ilə bağlıdır. Sukarno indoneziyalılar üçün «istiqlaliyyətin atası» idisə, Suxarto «inkişafın atası» kimi məşhur olmuşdur.

İrəlidə Suxartonun hakimiyyəti dövründə istər siyasi, istərsə də iqtisadi sahədə görülən tədbirlər, əldə olunan uğurlar və uğursuzluqlar, cəmiyyətdə mövcud olan sosial və siyasi durumdan müəyyən qədər bəhs edilmişdi. Bütün görülən tədbirlərin yekunu kimi söyləmək istərdik ki, İndoneziya 90-cı illərə də liberal dəyərlərə söykənən inkişaf kursu ilə daxil oldu: 1) ölkədə güclü neft-qaz sənayesi kompleksi yaranmış, neft satışından əldə edilən gəlirlər hesabına,- xarici kapital da buna əlavə edilməlidir,- sənayenin və müvafiq infrastrukturun qurulmasına nail olunmuşdu; 2) kənd təsərrüfatı sahəsində «yaşıl inqilab» adı ilə tanınan islahatların keçirilməsi, müşahidəçilərin fikrincə, hər şeydən əvvəl icmaların dağıdılması və kəndli təsərrüfatları şəklində yenidən təşkili ölkənin dənli bitkilərə, ilk növbədə, düyüyə olan ehtiyacını ödəməyə bilmişdi; 3) əvvəlki dövrlərə nisbətən, az və tədrici də olsa, həyat səviyyəsi yüksəlirdi.

Tədqiqatçılar bu uğurların formulunu ordunun ikili-hərbi və mülki funksiyası, maliyyə-iqtisadi ekspertlərin güclü rolu, siyasətdən uzaq və itaətkar kütlə və nəhayət, xarici yardım və investisiya amillərinin üzvi şəkildə uzlaşdırılması və birləşdirilməsində görürlər.

Ölkənin idarə edilməsində ordunun rolunun artmasına baxmayaraq, Suxarto hökuməti ehtiyat maliyyə imkanlarını hərbi işlərə yox, iqtisadi inkişafa yönəldirdi. Ordunun sayı hətta təqribən iki dəfə azaldılmışdı.

Təbiidir ki, bu uğurlarla yanaşı uğursuzluqlar da mövcud idi. Onların obyektiv və subyektiv səbəbləri haqqında, az da olsa, irəlidə danışılmış və göstərilmişdir ki, məhz bunların nəticəsində zaman-zaman sosial və siyasi zəmində narazılıqlar açıq şəkildə təzahür etmişdir. Bəlli olduğu kimi, bu narazılıqlar daha çox bir müxalifət mərkəzi kimi dini, daha doğrusu, müsəlman siyasi qruplaşmaları, onların maraqlarının siyasi təmsilçisi olan BİP tərəfindən təşkil və idarə olunurdu.

Lakin zaman keçdikcə, ikinci bir narazılıq mərkəzinin varlığı özünü biruzə verdi. Çox maraqlıdır ki, bu qüvvələr prezident Suxartonun hakimiyyətinin dayağı olan hərbçilər sırasından yaranırdı. Həm də bu, baş verən hadisələrə nəzər salsaq, təkcə kadr dəyəşiklikləri ilə əlaqədar deyildi. Təbiidir ki, həmin zəmində prezident Suxartonun da

adekvat reaksiyası özünü göstərirdi.

90-cı illərdə İndoneziyanın tarixindən danışarkən, onu prezidentlə hərbçilər arasında münasibətlərin get-gedə pozulması, siyasi müxalifətin təzyiqlərinin artması və hakimiyyətin tənəzzülə yön alması şəklində xarakterizə edə bilərik. İlk toqquşma 1991-ci ilin noyabrında baş verdi. Şərqi Timorda müstəqillik tərəfdarlarının nümayişi güllələbarana tutuldu və bu zaman prezident Suxarto hadisəyə münasibətdə əvvəlki dövrlərdən fərqli mövqe tutdu. O, hadisə ilə bağlı ciddi təhqiqat aparılması barədə sərəncam verdi və 1965-ci ildən keçən müddətdə ilk dəfə olaraq bəzi yüksək rütbəli komandirləri səlahiyyət həddini aşdıqlarına görə vəzifələrindən uzaqlaşdırdı, aşağı rütbəlilər isə iki ilədək həbs cəzasına məhkum olundular.

1992-ci ilin martında Hacı Məhəmməd Suxartonun Xalq Məclisi Konqresi tərəfindən növbəti beş ilə prezident seçilməsi Cakartada güclü etiraz nümayişləri ilə qarşılandı. Bütün bunlara baxmayaraq Suxarto özünün güclü və beynəlxalq aləmdə nufuz sahibi olan prezident obrazını qoruyub saxlamaqda idi. 1993-cü ilin sentabrında Cakartada Bağlantısız (bloklara qoşulmayan) ölkələrin dövlət və hökumət başçılarının X konfransı keçirildi. Qeyd etmək lazımdır ki, BMT-dən sonra ən böyük təşkilat olan Bağlantısız ölkələr bloku 108 dövləti daimi üzv və müşahidəçi sifətilə özündə birləşdirir və Cakartada keçirilən bu konfrans «soyuq müharibə»nin qurtarmasından sonra birinci görüş kimi çox əhəmiyyətli idi.

Hələ buna qədər Suxarto BMT Təhlükəsizlik Şurası daimi üzvlərinin sayının 11-ə çatdırılması təklifini irəli sürmüşdü. Onun fikrincə Yaponiya, Almaniya kimi güclü və qüdrətli dövlətlərlə yanaşı əhalisinin sayına görə ikinci və dördüncü yerlərdə dayanan Hindistan və İndoneziyaya, eləcə də Latın Amerikası və Afrikanın - hərəsindən əhalisi çox olan bir ölkəyə Təhlükəsizlik Şurasının daimi üzvləri sırasında yer verilməlidir.

Müsəlman liderlərinin artan nüfuzlarına bir cavab tədbiri kimi,1993-cü ildə hökumət tərəfindən Məkkəyə ölkə tarixində indiyədək görünməyən ən böyük və mütəşəkkil həcc ziyarəti təşkil edildi. 125 minlik zəvvarın səfərinin yüksək səviyyədə keçirilməsinə nəqliyyat və din işləri nazirləri şəxsən nəzarət edirdilər. Yeri gəlmişkən qeyd etmək istərdik ki, 200 milyon civarında İndoneziya əhalisinin 90%-i müsəlmandır. Bununla yanaşı xristian, buddizm və induizmə etiqad edənlər də vardır. Yerli bütlərə etiqad edən ayrı-ayrı

tayfalar da mövcuddur. Ölkədə konfessional zəmində ziddiyyətlərin olmadığını və bu işdə prezident Suxartonun xidmətlərini müşahidəçilər dönə-dönə qeyd etmişlər.

Yerli düyü istehsalçılarının mənafeini qorumaq üçün 1996-cı ildə İndoneziyada keçirilən ASEAN ölkələri konfransında azad ticarət zonalarının yaradılması, kömrük tariflərinin ləğv olunması və ya 5%-ə endirilməsi və s. kimi məsələlərin müzakirəsi zamanı Suxarto hökuməti ən azı 2020-ci ilə qədər kömrük tariflərinə toxunulmamasını istədi. Əks təqdirdə başqa ölkələrdən ucuz düyü idxalı yerli düyü təsərrüfatlarını iflasa uğradardı.

Bu da maraqlıdır ki, 1996-cı ilin iyulunda Asiya və Sakit okean adaları ölkələrinin, Avropa, Amerika, hətta Rusiyanın da qatıldığı 21 dövlətin Cakartada keçirilən III ASEAN forumunda regionda təhlükəsizlik məsələlərinin, regionun nüvə silahı olmayan zonaya çevrilməsi perspektivlərinin müzakirəsində fəal iştirak edən İndoneziya hökuməti məhz elə həmin vaxtda da öz hərbi potensialını gücləndirmək xətti yürütməyə başlamışdı. Həmin arada İndoneziya dövlət nümayəndə heyəti Moskvada Rusiyadan müxtəlif silah növləri və hərbi texnika alınması haqqında danışıqlar aparırdı. Hərbi-hava qüvvələrini möhkəmləndirmək məqsədilə müəyyən sayda Rusiyadan «Miq» və «Su» tipli müasir qırıcı təyyarələr və hərbi yük təyyarələri alındı.

Bununla yanaşı, hakimiyyətə qarşı müxalifət ovqatının güclənməsi təsiri altında ümumiyyətlə ordunu möhkəmləndirmək adı ilə bir sıra tədbirlər görüldü, struktur dəyişiklikləri edildi. Paytaxtda yerləşdirilən ordu hissələrini bir başa prezident idarə edirdi.

İqtisadiyyatın möhkəmləndirilməsi və liberallaşdırılması, ixracın artırılması, ölkədə çalışan xarici şirkətlərin maraqlarının qorunması və ş. məqsədilə 1997-ci ildə yeni iqtisadi islahatlar proqramının həyata keçirilməsinə başlandı. Bu işi həyata keçirmək üçün Beynəlxalq Valyuta Fondu və digər kreditorlar İndoneziyaya 37 mln dollar məbləğində yardım vəd etmişdilər. Lakin 1997-ci ilin ortalarında Taylandın milli valyutasının qiymətdən düşməsi bütün Asiyanı sarsıtdı, regionda pul-maliyyə böhranı baş verdi. İlin sonunadək Asiyanın əksər ölkələrində milli valyutalar 40-100% həcmində dəyərdən düşdülər. 1998-ci il üçün Cənub-Şərqi Asiya ölkələrinin iqtisadi vəziyyətinə dair verilən proqnozlarda bu böhranın davam edəcəyi öz təsdiqini tapdı. Həqiqətən də 1998-ci il yanvarın ilk

həftəsində İndoneziya milli valyutası rupinin məzənnəsi birdən-birə 20% endi.

Məhz bu hadisə İndoneziyada sonrakı proseslərin başlanması oldu. Ölkəni iqtisadi və siyasi böhran ovqatı bürüdü. Hətta rupinin məzənnəsinin düşməsi ilə eyni vaxtda Cakartada belə şaiyə yayıldı ki, hərbi çevriliş baş verə bilər, Suxarto xaricə qaçmışdır və s. Əhali, ən azı paytaxtda, vahimə içərisində yaşayırdı. Bazar-dükanlar bağlanmış, hamı ərzaq ehtiyatı üçün olan-qalan nə varsa, almış və bir xaos içinə qapanmışdı.

İndoneziyanın belə bir böhrana uğraması hətta dünya birliyini, dünya maliyyə mərkəzlərini narahat etməyə bilməzdi. ABŞ prezidenti, Yaponiya və Avstraliyanın baş nazirləri Suxarto ilə telefon əlaqələrinə girdilər, böhrandan çıxmaqda İndoneziyaya yardımçı olacaqlarını vəd etdilər.

ABŞ və Beynəlxalq Valyuta Fondunun nümayəndələri Cakartaya gəldilər. Lakin onların böhrandan çıxmaq üçün iqtisadiyyatın yenidən qurulması, bankların yeniləşdirilməsi və bu sahədə ciddi islahatlar aparılması, maddi yardımların məhdudlaşdırılması və kəskin büdcə qəbul edilməsi kimi təklifləri Cakartanı inandırmadı. 1998-ci il üçün nəzərdə tutulan büdcədə də bu təkliflər öz əksini tapmadı.

Bununla yanaşı İnddoneziyanın böhrandan çıxması üçün digər dövlətlər də səy və təşəbbüslər göstərməkdə davam edirdi. Bu baxımdan Almaniyanın narahatçılığını xüsusi ilə qeyd etmək lazımdır. Çünki artıq həmin dövrdə Tayland, Cənubi Koreya və İndoneziyada baş verən hadisələr Rusiyaya da sirayət etmiş, bundan bir sıra iri şirkətlər və qiymətli kağız sahibləri ciddi zərərə düşmüşdülər. Təbiidir ki, transkontinental ilişgilər dövründə bu böhrandan kənarda qalmaq mümkünsüzdür. Odur ki, alman mütəxəssisləri belə hesab etdilər ki, təkcə dövlət səviyyəsində böhranın qarşısını saxlamaq mümkün deyildir. Onlar elə bir iqtisadi islahatlar planı təklif etdilər ki, regionun kredit və maliyyə bazarlarına daha çox hakim olan özəl bölməni də əhatə etsin.

Yaranmış vəziyyət ölkənin sosial və siyasi həyatında gərginliyi artırdı. Ərzaq məhsullarının qiymətlərinin çox sürətlə qalxması və eyni zamanda şəkər, yağ və s. kimi ən zəruri malların yoxluğu əhali arasında ciddi narazılıqlar doğurdu. Baş verən hadisələrin hakimiyyət orqanlarında çalışanların səriştəsizliyindən və tamahkarlı-

ğından irəli gəldiyini söyləyən müxalifət liderləri prezident Suxartonu istefa verməyə çağırırdılar.

Yeri gəlmişkən, bir maraqlı məqama da diqqəti cəlb etmək istərdik. Bütün Cənub-Şərqi Asiya ölkələrində olduğu kimi, İndoneziyada da topdan və pərakəndə ticarət etnik çinlilərin əlində cəmləşmişdir. Ölkə əhalisinin 3%-ni təşkil edən bu etnik çinlilər, demək olar ki, hamılıqla ticarətlə məşğul olurlar. Böhranlı vəziyyətin yaradılmasında onların da əli olduğu haqqında yayılan söz-söhbətlər etnik zəmində narazılıqları artırırdı.

Deyilənlər onunla nəticələndi ki, narazı xalq küçələrə çıxdı. Paytaxtda nümayişçilər Suxartonun istefasını tələb etdilər. Şəhərə ordu qüvvələri yeridildi. Ölkədə fövqəladə vəziyyətin elan olunacağı haqqında söz-söhbətlər yarandı. Vəziyyət daha da ağırlaşmaqda davam edirdi. Bir-birinin ardınca banklar bağlanır, orta və xırda müəssisələr müflisləşirdi. İşsizlərin sayı sürətlə artırdı.

Xarici investorlar ölkəni tərk edirdilər. Həmin dövrdə Cənub-Şərqi Asiya ölkələrini tərk edən investorların əlində 25 mld dollar kapital var idi. Böhrandan dünyanın ən iri bankları milyardlarla zərər çəkdilər. Təkcə Avropa bankının itkisi 20 mld dollar olmuşdur. Zərərçəkənlər sırasında «Doyçe Bank», «Kredi Lione», «Paribi» və s. kimi iri maliyyə nəhəngləri də var idi.

Vəziyyətin gərginləşməsi silahlı qüvvələrin rəhbərlərini ciddi narahat etməyə başladı. Onlar bu barədə açıq bəyanatlar verir və yerləşdikləri bölgədə hərbi nəzarəti gücləndirirdilər. Cakartada 30 minlik hərbi hissə tam hazır vəziyyətə gətirildi. Rəsmi və hərbi nümayəndələr əhalinin bir yerə toplanmasını qadağan etdilər. Buna baxmayaraq etiraz dalğası daha da genişləndi. Müxtəlif yerlərdə, xüsusilə isə Yavada tələbə çıxışları baş verdi. Onlar istefa tələbi ilə yanaşı islahatlar aparılmasını da irəli sürürdülər.

İndoneziyanı böhrandan çıxarmaq üçün böyük dövlətlər yenə də təşəbbüslər göstərdilər. Yaponiyanın Baş naziri martın ortalarında Cakartaya gəldi ki, Beynəlxalq Valyuta Fondunun şərtlərini qəbul etməyə Suxartonu inandırsın. Çünki, həmin dövrdə BVF İndoneziyanın sərt iqtisadi islahatlar apara bilməsi üçün 40 mld dollar məbləğində vəsait ayırmışdı.

Lakin qarşıdan gələn prezident seçkiləri ərəfəsində islahatların törədəcəyi nəticələrdən xalqın daha da narazı qalacağı qorxusundan Suxarto onun keçirilməsini hər vasitə ilə gecikdirirdi. Məhz

elə buna görə də, silahlı qüvvələrin baş qərargahı keçiriləcək prezident seçkilərində Suxartonun namizədliyinin müdafiə olunması haqqında qərar verdi. Vitse-prezident vəzifəsinə isə texnologiya və tədqiqat işləri naziri Yusif Həbibinin namizədliyi irəli sürüldü. Yusif Həbibi müsəlman siyasi qruplaşmasının maraqlarının təmsilçisi idi. O, həm də 50-ci illərdən Suxarto ilə yaxından dostluğu ilə tanınır. Hərbi dairələrdə belə hesab olunurdu ki, prezident Suxartonun səhhəti ilə bağlı bir hadisə baş verərsə, konstitusiyaya görə onu əvəz edəcək ən layiqli şəxs Həbibi ola bilər.

Bir qədər diqqətlə fikir verilsə, əslində Suxarto-Həbibi hakimiyyəti hərbçilər-müsəlman siyasi qüvvələri ittifaqı demək idi. Bu baxımdan silahlı qüvvələrin baş komandanına məxsus aşağıdakı sözlər maraq doğurur: «Silahlı qüvvələr millətin böyük oğlu Hacı Məhəmməd Suxartoya rəsmi surətdə təklif edir ki, İndoneziyanın prezidenti olsun. Belə çətin vəziyyətdə ikinci şəxs Yusif Həbibi ola bilər. Vitse-prezident vəzifəsini hərbçi və ya mülki şəxsin tutmasının ordu üçün heç bir əhəmiyyəti yoxdur. Başlacası budur ki, Suxarto ilə işləyə bilsin. Həbibi ən yaxşı namizəddir». Nəhayət 1998-ci il martın ikinci yarısında keçirilən seçkilərdə Suxarto prezident, Həbibi isə vitse-prezident seçildi. Xalq Məşvərət Şurası «ölkənin tərəqqisi naminə» Suxartoya əlavə səlahiyyətlər də verdi.

Bəlli olduğu kimi, Suxartonun bu dəfəki prezidentliyi uzun sürmədi. Belə ki o, BVF-dən İndoneziya üçün ayrılmış yardımdan ilk hissəni aldıqdan sonra özünü elə göstərməyə çalışırdı ki, guya islahatlara başlamışdır. Ancaq əlavə etdi ki, islahatlar «BVF üstəgəl» - yəni BVF-nin şərtləri üstəgəl İndoneziyanın xüsusiyyətləri formulu üzrə həyata keçiriləcəkdir.Lakin Suxartonun bu bəyanatı müxalifətin etirazı ilə qarşılandı və ölkədə istiqrar yenidən pozuldu. Kütləvi çıxışlar başladı. Ölkə boyu nümayişlər baş verirdi. Nümayişçilər çinli tacirləri döyür, dükanları dağıdırdılar. Tələbə çıxışları daha radikal xarakterli idi. Prezidentin istefası bütün nümayişlərin əsas tələbinə çevrildi. İş o yerə çatdı ki, indiyə qədər prezidentin istəklərinin icraçısı olan parlament və onun prezidentə sədəqəti ilə tanınan spikeri Xarmuko da «dövlətin birliyi və bütövlüyü naminə» Suxartonu istefa verməyə çağırdı.

Prosesə siyasi qüvvələr, xüsusi ilə kəskin müxalifətçiliyi ilə fərqlənən müsəlman liderlərindən Əmin Rəis qoşuldu. O, qəti tələb irəli sürdü ki, prezident iste'fa versin, hökumət buraxılsın və yenisi ilə

əvəz edilsin, ölkədə radikal islahatlar keçirilsin. Əmin Rəis bildirdi ki, əks təqdirdə milyonlarla tərəfdarlarını küçələrə çıxaracaqdır.

İş o yerə çatdı ki, istefada olan generalların bir qrupu müxalifətin tələblərini müdafiə etdi.

Müxalifət qüvvələrinin artan tələbi və təzyiqi, çoxsaylı manifestasiyalar və qayda-qanunların pozulması, ən başlıcası isə, iqtisadi böhranın dərinləşməsi zəmnində 76 yaşlı general Suxarto prezident postundan əl çəkməyə razı oldu. Beləliklə də 1998-ci ilin mayında onun 32 ildən çox çəkmiş prezidentlik dövrü başa çatdı.

Konstitusiyaya görə prezidentin səlahiyyətləri vitse-prezident Y. Həbibiyə keçdi. Müşahidəçilərin yekdil rəyinə görə Y. Həbibinin hakimiyyətə gəlməsi ilə də yeni bir mərhələ - islahatlar erası başladı. Başqa sözlə desək, bağımsız İndoneziyanın tarixində bu üçüncü islahatlar dövrü ölkənin sonrakı inkişafı üçün dönüş dövrü ola bilər. Bəlli olduğu kimi, buna qədər İndoneziya iki prezidentin hakimiyyəti altında olarkən keyfiyyətcə bir-birindən fərqlənən tarixi dövrləri yaşamışdır. Bunlardan birincisi xarizmatik lider Sukarnonun prezidentliyi dövrüdür ki, o zaman «romantik antiimperializm» hakimiyyətin fəaliyyətində səciyyəvi istiqamətdir. Sonralar tarixçilər bu dövrü «köhnə qaydalar» kimi adlandırdılar. İkinci dövr isə «yeni qaydalar» deyə adlandırılır və bu, 1965-ci ildə Suxarto başda olmaqla hərbçilərin hakimiyyətə gəlməsi ilə başlamışdır. Deyildiyi kimi, ikinci prezident Suxartonun istefası ilə də bu dövr başa çatmış oldu. Həmin illərdə Suxarto hakimiyyəti Qərb yönümlü siyasət yürütmüş, Qərbdən aldığı yardımlar hesabına ölkənin iqtisadi vəziyyətini yaxşılaşdıra bilmişdir. Bununla yanaşı, demokratik azadlıqların məhdudlaşdırılması, 1997-ci ilin maliyyə böhranından çıxa bilməməsi nəticəsində həmin hakimiyyətdən Y.Həbibiyə istər iqtisadi, istərsə də siyasi sahədə ciddi islahatlar keçirilməsinin zərurəti miras qalmış oldu.

Həqiqətən də 1997-1998-ci illərin böhranı İndoneziyanı bir neçə il geriyə atdı. İstehsal tempi çox sürətlə aşağı düşdü. Müqayisə üçün fikir verin: 1997-ci ilin üçüncü rübündə 3,4% olan artım, 1998-ci ilin həmin dövründə mənfi 17,9% idi. Avqustda inflyasiya 50% səviyyəsini ötdü. Adam başına düşən gəlir 1997-ci ildə 1088 dollara bərabər idisə, 1998-ci ildə 610 dollara endi. İşsizlərin sayı 20 mln nəfəri aşdı. Əhalinin 50%-dən çoxu rəsmi yoxsulluq səviyyəsindən aşağıda yaşayırdı. 138 mld dollar məbləğində olan borcların ödənilməsinin çox böyük hissəsi 1998-ci ilin sonlarına düşürdü.

Bütün bunlara görə idi ki, yeni prezident Həbibi öz sələfindən fərqli olaraq BVF və digər maliyə təşkilatları ilə açıq və səmimi əməkdaşlıq yolunu tutdu. Həmin təşkilatların tövsiyəsi ilə aşağıdakı islahatları apardı: 1) İndoneziyanın bank sistemini yenidən qurdu; 2) Yeni özəlləşdirmə kursu qəbul etdi və bir sıra iri dövlət müəssisələrinin satışı təşkil edildi; 3) Bir sıra güzəşt və imtiyazlar ləğv edildi və toplanan vergilərin ümumi həcmi bu hesaba 10% artdı.

1998-ci ildə BVF verəcəyi 40 mld dollarlıq yardımın təqribən 2 mld-nı milli valyutanın kursunun saxlanılması üçün ayırdı. Ümumiyyətlə, 1999-cu ildə ölkə iqtisadiyyatının bərpası və möhkəmləndirilməsi sahəsində əldə olunan uğurlar hökumətə əsas verdi ki, 1999\2000-ci maliyə ilində inkişaf sürətini 1% artırmaq, inflyasiyanı 15-20%-ə endirmək, rupinin kursunu sabitləşdirmək kimi məsələləri planlaşdıra bilsin.

Həbibinin hakimiyyəti həm də onunla xarakter oldu ki, ölkədə ciddi siyasi islahatlar aparıldı. Son otuz ildə ilk dəfə olaraq yeni siyasi təşkilatların yaradılmasına imkan yaradıldı. Halbuki Suxarto dövründə yalnız üç siyasi partiyanın fəaliyyətinə icazə verilmişdi. Siyasi dustaqların çoxu həbsdən buraxıldı, hökumət Şərqi Timora geniş muxtariyyət verilməsinə hazır olduğunu bildirdi. Az vaxtda yüzdən çox partiya və siyasi təşkilat yarandı ki, onlardan da ən nüfuzlusu kimi Milli Vəkalət Partiyası, Milli Dirçəliş Partiyası və Milli Cəbhəni göstərmək olar. Əvvəlcədən mövcud olan Qolkar, Birlik və İnkişaf Partiyası, İndoneziya Demokratik Partiyası kifayət qədər fəallaşdılar.

Ən mühüm hadisələrdən birisi kimi 1998-ci ilin noyabrında Milli Məşvərət Konqresinin növbədən kənar sessiyasının çağrılmasını qeyd etmək lazımdır. Çünki, İndoneziyanın ali qanunverici orqanı olan bu konqres konstitusiyaya görə beş ildə bir dəfə çağrılır, prezidenti seçir və əsas inkişaf istiqamətlərini müəyyən edir. Lakin bu dəfə Konqresin olduqca gərgin siyasi şəraitdə və müxalifət qüvvələrinin güclü təzyiqi altında keçirilən iclasında qərara alındı ki, 1999-cu ilin may-iyun aylarında parlamentə ümumi seçkilər təyin edilsin və1999-cu ilin sonlarına qədər isə Milli Məşvərət Konqresinin iclası çağrılsın. Eyni zamanda nəzərdə tutulurdu ki, parlamentdə hərbçilərin təmsilçilik sayı azaldılsın, prezident isə bundan sonra yalnız iki müddətə seçilə bilər.

Bununla yanaşı, prezident Həbibi ölkədə siyasi istiqrarı təmin

etmək üçün siyasi partiya liderləri ilə danışıqlar apardı, müxalifətin tələbi ilə 69 nəfər yüksək rütbəli hərbçini istefaya göndərdi və ölkənin siyasi həyatında hərbçilərin rolunun azaldılması üçün müvafiq tədbirlər görüləcəyinə razılıq verdi və s. Siyasi partiyaların seçkilərdə iştirak etmək imkanları genişləndirilirdi. Seçkilərdən sonra Milli Məşvərət Koenqresinin tərkibinin müəyyən edilməsində Mərkəzi Seçki komissiyasının rolu artırıldı. 1999-cu ilin yanvarında hərbçilərə əvvəlcə nəzərdə tutulan 25 yer əvəzinə 38 yer ayrıldı.

Nəhayət seçkilər keçirildi və 1999-cu il oktyabrın sonlarında Nəhdət ül-islam partiyasının lideri Əbdurrəhman Vahid prezident Y.Həbibi də daxil olmaqla digər iddiaçıları ötdü və ölkənin yeni - dördüncü prezidenti seçildi. İlk prezident Sukarnonun qızı, Demokratik Partiyanın sədri Mlqavati Sukarnoputri isə vitse-prezident vəzifəsini tutdu.

Beləliklə, İndoneziya XXI əsrə yeni rəhbərliklə daxil oldu. Onun qarşısında duran əsas vəzifə isə budur ki, İndoneziyanı bölgənin inkişaf standartlarına uyğun bir ölkəyə çevirsin.

## ASEAN ÜZVİ OLAN DİGƏR ÖLKƏLƏR

Cənub-Şərqi Asiya ölkələrinin 60-cı illərin ortalarından sonrakı tarixi üçün xarakter cəhət onların vahid bir region çərçivəsində fəaliyyət inteqrasiyasına güclü meyl göstərmələri olmuşdur. Bu inteqrasiya 1967-ci ilin avqustunda Cənub-Şərqi Asiya ölkələri Assosiasiyasının (ASEAN) yaradılması ilə təşkilati forma almışdır: ASEAN-nın ilk üzvləri İndoneziya, Malayziya, Sinqapur, Tayland və Filippinlər idi. 1984-cü ildə Bruney sultanlığı da onlara qoşulmuşdur. Zamanəmizə qədər isə digər ölkələr: Vyetnam, Laos, Kamboca, Birma-Myanma İttifaqı kimi ölkələr də ASEAN üzvləri sırasında yer almaq üçün cəhdlər göstərmiş və üzvlüyə qəbul edilmişlər. Bununla da ASEAN bütün Cənub-Şərqi Asiya ölkələrinin birləşdiyi nüfuzlu bir regional təşkilata çevrilmişdir.

Bəs bu təşkilatın yaradılmasında məqsəd nə olmuşdur və onun fəaliyyəti nələri əhatə edir?

Bəlli olduğu kimi, bu birliyə daxil olan ölkələr əhalinin sayına, dövlət quruluşuna, iqtisadi inkişafın səviyyəsinə və hətta konfessional durumuna görə bir-birindən fərqlənirlər. Lakin onları birləşdirən amillər də vardır. Həmin ölkələr bir coğrafi vəziyyətdədir, sosial-iqtisadi strukturları oxşardır, dilləri qohumdur (tay dilindən başqa), tarixi taleləri yaxındır, millətçilik ideologiyasına önəm verilir və s. Ən başlıcası isə odur ki, onların hamısı beynəlxalq aləmdə öz milli maraqlarını müdafiə etmək əzmindədirlər.

Dövlət və hökumət başçıları səviyyəsində müntəzəm yüksək görüşlər keçirilməsi, burada regionun problemlərinin müzakirə edilməsi arada olan fikir müxtəlifliyinin, eləcə də bir sıra ziddiyyətlərin həll olunması və qaydaya salınmasına imkan yaratmışdır. Bu baxımdan Vyetnam, Laos və Kamboca ilə bağlı bir sıra problemlərin həlli, etnik zəmində ziddiyyətlərin tənzimlənməsi, xüsusilə bütün Cənub-Şərqi Asiya ölkələrinin həyatında mühüm rol oynayan etnik çinlilərlə bağlı ciddi problemlərin qaydaya salınmasını qeyd etmək olar.

Burada haqqında danışacağımız Malayziya, Tayland, Filippinlər, Sinqapur və Bruney kimi Cənub-Şərqi Asiya ölkələri irəlidə haqqında bəhs edilmiş sosialist və ya təmayüllü kurs seçmiş ölkələrdən fərqli olaraq kapitalist inkişaf yolu tutmuşlar, yapon inkişaf modelinə meyllidirlər və bu sahədə yetərincə gözə çarpan uğurları vardır. Siyasi baxımdan liberal dəyərlərə üstünlük verməyə cəhd

göstərirlər, ölkədə prezident və ya konstitusiyalı-monarxiya idarə üsulundan asılı olmayaraq, çoxpartiyalı parlament demokratiyası rejiminə malikdirlər. İqtisadi baxımdan xüsusi mulkiyyətə əsaslanan fəaliyyətin, azad bazarın mövcudluğuna tam təminat yaradırlar, inkişaf etmiş ölkələrin yardımlarından faydalanırlar, xarici investisiyalar üçün qapıları həmişə açıq saxlayırlar.

Bunlardan əlavə onların hamısı üçün, demək olar ki, eyni səviyyədə bir ümumi hal var: bu ölkələrin inkişaf prosesində müəyyən iqtisadi güc sahibi olan etnik çinlilər mühüm rol oynayır.

Məhz bunlara görədir ki, ASEAN-nın yaradılması mümkün olmuşdur. Təşkilatın məqsədləri isə: 1) iqtisadi, sosial və mədəni inkişafı sürətləndirmək; 2) regionda sülhə və istiqrara dəstək vermək; 3) təhsil, elmi-texniki əməkdaşlıq və ixtisas təlimi sahələrində bir-birinə yardım etmək; 4) qarşısına deyilənlərə uyğun vəzifələr qoymuş beynəlxalq və regional təşkilatlarla əlaqələr saxlamaqdır.

ASEAN-nın ali orqanları xarici işlər nazirlərinin illik müşavirəsi və müşavirələr arasında fəaliyyət göstərən daimi komitədir. İşçi orqanları isə katiblik, ərzaq və kənd təsərrüfatı, nəqliyyat və rabitə, ticarət və sənaye, elm və texnika məsələləri üzrə daimi komitələrdir. Vaxt aşırı dövlət və hökumət başçıları səviyyəsində müşavirələr də keçirilir.

ASEAN-nın tarixində ən mühüm hadisələrdən birisi xarici işlər nazirlərinin 1971-ci ildə Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində keçirilən müşavirəsində Cənub-Şərqi Asiyanı «sülh, azadlıq və tərəfsizlik zonası»na çevirmək haqqında konsepsiyanın bəyənilməsi olmuşdur. Faktik olaraq, bu, ASEAN ölkələrinin getdikcə bir-birilə daha da yaxınlaşmasının təzahürü idi. Məhz bundan sonra mümkün oldu ki, Malayziya və İndoneziya, Filippinlər, Tayland arasında mövcud olan sərhəd və ərazi mübahisələri tənzim olunsun, qarşılıqlı viza rejimi, təbii fəlakətlər zamanı qarşılıqlı kömək göstərmək, meteorologiya sahəsində əməkdaşlıq, narkotik maddələr ticarətinə, qaçaqmalçılıq və quldurluğa qarşı birgə mübarizə aparmaq haqqında sazişlər imzalansın.

ASEAN ölkələri öz təbii ehtiyatlarından daha səmərəli istifadə etmək üçün ticarət-iqtisadi və maliyyə sahələrində öz sə'y və cəhdlərini əlaqələndirirlər. Həm də bu zaman diqqəti ona yönəltmək istərdik ki, dünya bazarında satılan kauçukun 80%-i, manila ağac götüklərinin 90%-i, qiymətli ağac növlərinin 75%-i, qalayın 67%-i,

kokos qozunun 65%-i, xurma yağının 60%-i, çox böyük miqdarda neft, nikel, boksitlər və eləcə də düyü, şəkər qamışı və qəhvə kimi kənd təsərrüfatı məhsulları məhz bu ölkələrdə istehsal olunur.

ASEAN ölkələri iqtisadiyyatın inkişafı və xarici əlaqələrin qurulmasında nəzərə çarpacaq tərəqqiyə çatmışlar, daxili milli gəlirin artması və idxal-ixrac əməliyyatlarının genişləndirilməsi baxımından digər region ölkələrindən xeyli irəlidədirlər.

ASEAN ölkələri dünyanın ABŞ, Yaponiya, ümumi bazar ölkələri ilə yanaşı bir sıra beynəlxalq maliyyə mərkəzləri ilə sıx əməkdaşlıq edirlər. Bu əməkdaşlıq imkan vermişdir ki, ASEAN-nın ilk üzvü olan dövlətlər yüksək inkişaf göstəricələrinə malik olsunlar. İstərdik ki, dediklərimizi bu və ya digər ölkənin timsalında əyani göstərək.

# MALAYZİYA FEDERASİYASI

Hazırda təqribən 20 mln nəfərə yaxın əhalisi olan Malayziya Federasiyası Malayya və onunla bir dövlət çərçivəsində birləşən Şimali Kalimantana, Saravak və Sabah ərazilərindən ibarətdir və konstitusiyalı monarxiyadır. Əslində Malayziya monarxiyası daha çox prezidentliyə bənzəyir. Belə ki, Malayziya Federasiyası 13 ştatdan ibarətdir, onlardan 9-u sultanlıqdar. Bu sultanlıqlar nəsli sülalə hakimləri tərəfindən idarə olunur. Monarx onların arasından seçilir və hakimiyyət müddəti beş ildir. Qanunvericilik hakimiyyəti çoxpartiyalı sistem zəminində fəaliyyət göstərən ikipalatlı parlamentə məxsusdur. Parlament hökuməti formalaşdırır. Hökumət çox geniş hüquqlara malik olsa da, parlament qarşısında məsuliyyət daşıyır.

Ölkədə çoxlu etnik qruplar yaşayır. Əhalinin yarısına qədəri malaylardır, 34%-i çin mənşəli, 10%-i Hindistan mənşəli vətəndaşlardır. Bunlardan əlavə bir neçə yerli kiçik xalqlar da vardır ki, onlardan ən böyüyü dayaklardır. Dayaklar Kalimantan adasında məskunlaşmışlar. Bu etnik müxtəliflik mürəkkəb etnokonfessional problemlərin mənbəyidir və həmin zəmində vaxtaşırı toqquşmaların baş verməsi Malayziya Federasiyası tarixinin reallığıdır.

Malayziya Federasiyası indiki dövlət formasını 1963-cü ildə almışdır. Lakin bu tarixə qədər o, bir sıra hadisələr və çətinliklərlə üzləşmiş, onların həlli yolunda xalq ciddi mübarizə sınaqlarından çıxmış, fədakarlıqlar göstərmişdir.

Bəlli olduğu kimi, 1941-ci ilin dekabrında Malakka yarımadasının şərq sahillərinə çıxan yapon hərbi hissələri onlara müqavimət göstərmək istəyən malay, çin, ingilis və avstraliyalılardan ibarət silahlı dəstələri qısa bir zaman ərzində məğlubiyyətə uğratdı. 1942-ci il fevralın ortalarında Malakka tutuldu. Buna qədər isə yaponlar Borneo adasının şimal hissəsini ələ keçirmişdilər. Beləliklə, təqribən 70 gün davam edən döyüşlərin sonunda müasir Malayziya ərazisini təşkil edən torpaqlar yaponların hakimiyyəti altına düşdü. Buradakı yapon hakimiyyəti 1945-ci ilin avqustuna qədər, yəni Yaponiyanın II dünya müharibəsində təslim olması tarixinə qədər davam etdi.

1945-ci ilin sentyabrına kimi hakimiyyət əldən-ələ keçdi. Nəhayət, ingilislər qayıtdılar və Böyük Britaniya idarəçiliyini bərpa etdilər. Lakin həmin dövrdə yerli xalq və siyasi qüvvələr Böyük

Britaniyaya əvvəlki kimi müti münasibət bəsləmirdilər. İngilis ordularının yaponlara məğlub olması onların nüfuzunu olduqca aşağı salmışdı.

Məhz bu səbəbdən Böyük Britaniya hökuməti ölkədə möhkəmlənmək üçün yollar axtarmağa başladı. Malyziyanın siyasi və inzibati quruluşunun yenidən təşkili istiqamətində müəyyən addımlar atıldı. İlk olaraq Saravak və Sabahla bağlı problemlər həll edildi. 1946-cı ilin iyulunda Sabah Böyük Britaniya krallığının müstəmləkəsi statusunu aldı və müstəmləkə idarəsinin hakimiyyəti altına keçdi. Həmin arada Saravak hakimi III Bruk da öz mülklərinin Britaniya krallığı hakimiyyəti altına keçməsinə razı olduğunu bildirdi.

Böyük Britaniya qalan torpaqları da vahid bir idarəçilik altında birləşdirmək və onları özünün birbaşa və dolayısı hakimiyyəti altına almaq üçün Malayya İttifaqı yaradılması planını irəli sürdü. Plana görə, Sinqapur istisna olmaqla bütün üç ərazi bu ittifaqda birləşirdi, buradakı bütün etnik icmalara bərabər hüquqlar vəd edilirdi, sultanlar Böyük Britaniyanın xeyrinə öz süveren hüquqlarından imtina etməli idilər. Bu, narazılıqla qarşılandı, sultanların süveren hüquqlarının qorunması üçün Birləşmiş Malayya Milli Təşkilatı (BMMT) yaradıldı.BMMT sonralar Böyük Britaniya hakimiyyətinə qarşı güclü bir müxalifət qüvvəsinə çevrildi. BMMT-nin yaradılması 1946-cı ildə olmuşdur. Bunun ardınca 1949-cu ildə Malayya Çin Assosiasiyası, 1952-ci ildə isə Malayya Hind Konqresi təşəkkül tapdı. Onlar hamısı bir araya gəlib hakim İttifaq Partiyası (Alyans) yaratdılar. Bir qədər irəliyə gedərək söyləmək istərdik ki, 70-ci illərdə bir sıra xırda siyasi qruplaşmalar da Alyansa daxil oldu və bundan sonra o, Milli Cəbhə adlandırıldı. BMMT Milli Cəbhədə də aparıcı qüvvə olaraq qalmaqda davam edirdi.

Qeyd etmək istərdik ki, Malayziyadakı əsas siyasi partiyalar bir qayda olaraq kommunalist təşkilatlar kimi fəaliyyət göstərirlər, bu və ya digər etnik və dini icmaların mənafelərini müdafiə edirlər.

Antiingilis ovqatın artmasından, müstəmləkə rejiminə qarşı partizan hərəkatının genişlənməsindən çəkinən Böyük Britaniya müstəmləkəçiləri iki ildən sonra Malayya İttifaqının dominion statusuna malik Malayya Federasiyasına çevrilməsi planını irəli sürdülər.

Bu halda yalnız malayyalılar tam vətəndaş hüquqlarına malik olurdular, çinlilər və hindlilər bu hüquqlardan məhrum edilirdilər və sultanların süveren hüquqları saxlanılırdı, lakin ölkə Britaniya krallığı

tərəfindən təyin edilən Ali Komissar tərəfindən idarə olunurdu. Ali Komissar yanında hakimlər şurası yaradılırdı və sultanlar onun üzvu olurdular. Bir sıra siyasi məsələlər üzrə Ali Komissar sultanlarla məsləhətləşmələr aparmalı idi. Nəhayət, 1948-ci ilin 1 fevralında Malayya Federasiyası yaradıldığı elan edildi. Bu hadisə ölkədə bir sıra qüvvələr tərəfindən narazılıqla qarşılandı. Narazı qüvvələrdən ən fəalı kommunistlər idi. Həm də onların çox böyük hissəsi çin kökənli şəxslər idi və onlar Malayya Kommunist Partiyasının sıralarında birləşmişdilər. Malayya Kommunist Partiyası elə ilk gündən federasiyanın yaradılmasına qarşı oldu və açıq mübarizəyə başçılıq etmək təşəbbüsləri göstərdi. Hətta Malayya Xalq Respublikası yaradılması uğrunda kommunistlər silahlı üsyana əl atdılar. Çin Kommunist Partiyasının mübarizə metodlarından istifadə edən Malayya kommunistləri də öz məqsədlərinə çatmaq üçün silahlı mübarizə yolunu tutdular, Azadlıq ordusu yaratdılar. Doğrudur, üsyan yatırıldı və hökumət ölkədə fövqəladə vəziyyət elan etdi. Əsası 1930-cu ildən qoyulan Malayya Kommunist Partiyasının fəaliyyəti qadağan edildi. Buna baxmayaraq MKP-nin tərəfdarları hökumətə qarşı partizan hərəkatını nəinki dayandırmadı, hətta daha da genişləndirdi. Mübarizə 1989-cu ilə qədər sürdü. Lakin bununla partiyanın 40-50-cı illərdə kifayət qədər yüksək olan nüfuzu sonralar faktik olaraq heçə endirildi. 1948-ci ilin iyulunda elan olunan fövqəladə vəziyyət düz on iki ildən sonra ləğv edildi. Bu müddət ərzində ingilis müstəmləkəçilərinə qarşı müxtəlif formalarda, ən azı gizli şəkildə də olsa, mübarizə davam edirdi. Yeri gəlmişkən demək istərdik ki, bu mübarizə xalqın xeyli hissəsi tərəfindən dəstəklənirdi. Böyük Britaniya müstəmləkəçiləri təqribən on illik cəhdlərdən sonra məqsədlərinə nail olacağının mümkünsüzlüyünü dərk etdilər və 1957-ci ilin 31 avqustunda Malayya Federasiyasına istiqlaliyyət verməyə məcbur oldular. Həm də müstəqil Malayya Federasiyası Britaniya birliyinin üzvü olaraq qalırdı.

Həmin dövrdən bugünkü Malayziya Federasiyasının yaradılması istiqamətində bir sıra addımlar atılmışdır. İlk olaraq 1959-cu ildə Sinqapur Federasiyaya daxil oldu. Lakin siyasi liderlər 1961-ci ildə daha geniş bir federasiyanın yaradılması ideyasını irəli sürdülər. Daha doğrusu, Saravak, Sabah və Bruneyin bu federasiyaya birləşdirilməsini təklif etdilər. Bu ideya qonşu dövlətlər tərəfindən, birincisi, Sabahı özünə birləşdirməyə cəhdlər göstərən Filippinlər, ikincisi,

İndoneziya tərəfindən,- İndoneziyanın narazılıqları haqqında irəlidə danışılmışdır və bir daha ona luzum yoxdur, - ciddi etirazla qarşılandı. Bununla yanaşı qeyd etmək istərdik ki, həmin təklif Saravak, Sabah və Bruneydə konstitusiyaya əsaslanan bir siyasi inkişafa gətirdi. 1962-ci ildə Bruney və Sabahda seçkilər keçirildi. Lord Kobboldun başçılıq etdiyi malayya-ingilis birgə komissiyası Sabah və Saravakda oldu və bu qənaətə gəldi ki, həmin ştatın əhalisinin çox böyük hissəsi Malayziyanın yaradılmasının tərəfdarıdır. Lakin Filippinlər və İndoneziyanın qəti etirazlarına görə, 1963-cü ildə Bruneyə BMT xüsusi nümayəndəsi gəldi. BMT nümayəndəsi də malayya-ingilis komissiyasının gəldiyi rəyi təsdiqlədi. Bundan sonra Savarak və Sabah yeni yaradılan federasiyanın tərkibinə girdi və 16 sentyabr 1963-cü ildə Malayziya Federasiyasının yaradılması rəsmi şəkildə elan olundu. Bruney isə federasiyaya girmədi. Beləliklə də, dünyanın siyasi xəritəsində yeni bir dövlət- Malayziya Federasiyası öz yerini tutmuş oldu.

Malayziya müstəqil inkişaf yoluna qədəm qoyduqdan sonra iqtisadiyyatın və ictimai- siyasi həyatın yenidən qurulması sahəsində, irəlidə deyildiyi kimi, kapitalizm yolunu tutdu. Ona önəm verildi ki, özəl fəaliyyətə lazım imkan yaradılsın, işgüzarlığa dəstək verilsin və bazar münasibətləri iqtisadi həyatın aparıcı istiqaməti olsun. Maraqlıdır ki, Malayziya bu kursu tətbiq edərkən üzünü Qərbə yox, Şərqə, ilk növbədə Yaponiyaya və Tayvana çevirmişdi. Sürətlə inkişaf etməkdə olan bu ölkələrin təcrübəsi Malayziyaya çox şey verdi, ölkə yeni istehsal sahələrinə və ən müasir texnologiyaya yiyələndi. İqtisadi inkişaf bir tərəfdən xalqın güzaranını xeyli yaxşılaşdırdısa, o biri tərəfdən cəmiyyətdə müəyyən problemlərin olduğunu üzə çıxardı. Onların da əsasında çox zaman etnik münasibətlər dururdu, daha doğrusu, ölkə əhalisinin əsasını təşkil edən etnik toplumların siyasi və iqtisadi həyatdakı mövqeləri arasında fərqlərin artması dururdu.

Belə ki, ölkə əhalisinin yarıya qədərini təşkil edən malayların çox böyük hissəsi kəndlilərdən ibarət idi, olduqca az hissəsi isə şəhərlərdə yaşayırdı və onlar da bir qayda olaraq dövlət işlərində çalışan qulluqçular idilər.Çünki, konstitusiyaya görə siyasi və inzibati hakimiyyət ən böyük etnik qrup olan malaylara məxsus idi. Ölkənin iqtisadi həyatında əsas mövqelər isə etnik çinlilərin əlində cəmləşmişdi. Çinlilərin 75%-i şəhərlərdə yaşayır və demək olar ki, ölkənin hər bir şəhərinin əksər əhalisi onlardır. İqtisadiyyatın sənaye

bölməsində istər sahibkar, istərsə də fəhlə və qulluqçu kimi çinlilər hakimdirlər. Hindlilər əsasən plantasiya sahibləri və işçiləridir. Bu plantasiyalarda da bir qayda olaraq kauçuk becərilməsi və istehsalı ilə məşğul olurlar. Bununla yanaşı ticarətçilər, eləcə də mühəndis, həkim və digər əqli və intellektual əmək sahibləri arasında hindlilər əksəriyyəti təşkil edirlər. Məlumdur ki, bu növ peşə sahiblərinin yaşayış yeri bir qayda olaraq şəhərlərdir.

Təbiidir ki, ölkənin inkişafının nəticələri daha çox şəhərlərdə özünü göstərdiyindən ondan daha çox yararlanan çinlilər, sonra isə hindlilər idi. Bu isə malaylar arasında narazılıq yaradırdı. İkinci tərəfdən isə iqtisadi baxımdan daha da güclənən çinli və hindlilər mövcud məhdudiyyətlərə görə ölkənin siyasi və inzibati həyatından kənarda qalmalarından razı deyildilər.

Bu iki istiqamətdə artan narazılıqlar 1969-cu ilin mayında daxili siyasi böhrana gətirdi, malay-çinli toqquşmaları ilə nəticələndi.

Baş verən hadisələrin gələcəkdə bir daha təkrar olunmaması məqsədilə malayziya hakimiyyəti məcbur oldu ki, ölkənin iqtisadi, siyasi, ideoloji və qanunvericilik həyatında bir sıra dəyişikliklər etsin. Parlamentin hüquqları bir qədər azaldıldı, siyasi sistemdə dəyişiklik edildi, irəlidə dediyimiz kimi, Milli Cəbhə yaradıldı və oraya hakim partiyalarla yanaşı müxalifət partiyaları da daxil oldu.

1970-ci ildə ölkənin rəsmi ideoloji kursu haqqında bəyanat elan edildi. Rukuneqara-Dövlətin əsasları- adlanan bu bəyanatın başlıca prinsipləri aşağıdakılar idi :cəmiyyətin demokratikləşdirilməsi, milli sərvətlərin bərabərhüquqlu bölüşdürülməsi zəminində sosial ədalət cəmiyyəti yaratmaq, müasir elm və texnikaya əsaslanan mütərəqqi Malayziya qurmaq. Elan edilirdi ki, bu məqsədlərə çatmaq üçün Allaha inanmaq, ali hakimiyyətə və dövlətə sədaqət, konstitusiyaya hörmət, qanunlara ciddi əməl etmək və mənəvi normaları qoruyub saxlamaq kimi prinsiplərə əsaslanmaq lazımdır.

Malayziyanın istiqlaliyyət qazanmasından bəri ölkənin baş naziri olan Tunku Əbdül Rəhman 1970-ci ildə istefa verdi. Yeni baş nazir Əbdül Rəzzaq hökumət koalisiyasını bir qədər genişləndirdi.

Əbdül Rəzzaq hökuməti mövcud ictimai strukturun hərtərəfli təkamülü istiqamətində kompleks tədbirlər görməyə başladı. 1971-ci ildə iyirmi il üçün nəzərdə tutulan Yeni İqtisadi Siyasət planı (YİS) qəbul olundu. Tarixi ədəbiyyatda «bumiputra siyasəti» adı ilə məşhur olan YİS-ə görə etnik icmalar arasındakı siyasi-iqtisadi bərabərsizliyi

aradan qaldırmaq üçün «yoxsulluq ləğv edilməli» və «cəmiyyət yenidən qurulmalı idi». Bu məqsədlə 1990-cı ilə qədər bir sıra konkret işlərin görülməsi planlaşdırılırdı. Birincisi, qərara alındı ki, ümumi səhmdar kapitalın formalaşmasında əsas etnik icmalar aşağıdakı şəkildə iştirak edə bilərlər: malaylar 30%, çinli, hindli və başqa yerli qeyri-malaylar 40%, xaricilər 30%. Halbuki, həmin rəqəmlər 1970-ci ildə müvafiq olaraq 2,4%, 34,3% və 63,3% idi. İkincisi, cəmiyyətin ümumi durumu çinli icmanın səviyyəsinə qaldırılmalıdır. Bu məqsədlə iqtisadiyyatın dövlət bölməsinin yaradılması məqsədə uyğun sayıldı. Nəzərdə tutulurdu ki, bu bölmədə yerli millətin-malayların rolu artırılsın və mövcud özəl müəssisələr qarşısında bir tarazlıq yaransın. Həm də dövlət bölməsi o sahələri əhatə edirdi ki, onlara özəl kapital maraq göstərmirdi. Məsələn, olduqca strateji əhəmiyyəti olan ağır sənaye sahələri yaradılırdı. Dövlət müəssisələrində iş yerlərinin çoxu malaylar üçün ayrılırdı. Bundan da məqsəd o idi ki, ölkənin əsas əhalisi olan, lakin ən çox geri qalmış və yoxsul malayların şəhərlərdə məskunlaşmasına imkan yaradılsın. Onlardan bir qədər varlılarına sənaye sahəsində özəl fəaliyyət üçün hökumət müəyyən imtiyazlar və dəstək verirdi, lazım olan infrastrukturların yaranmasına köməklik göstərirdi. YİS-ə uyğun olaraq imtiyazlar, kreditlər və xüsusi köməklər vasitəsilə malayların şəhər həyatına alışmaları probleminin həlli, əhalisinin böyük əksəriyyəti çinlilər və hindlilər olan şəhərlərdə malayların sayının 50%-dən yuxarı olmasının təmin edilməsi hökumətin siyasətində başlıca yer tutdu.

Qeyd etmək lazımdır ki, bu kursun necə uğurla keçirilməsindən asılı olmayaraq əsas istiqamətləri bəlli idi: Malayziya hakimiyyəti istəyirdi ki, ölkə iqtisadi baxımdan da malaylara məxsus olsun. Deməliyik ki, Malayziyanın «malaylaşdırılması» xəttinin həyata keçirilməsində hökumət ehtiyatlı və ölçülüb-biçilmiş şəkildə fəaliyyət göstərir, ona çalışır ki, qarşı tərəfin,- çinli və hindlilərin,- narazılığı yaranmasın və milli münaqişələr kəskinləşməsin. Belə mötədillik hələki narazılıqlar yaratmamışdır,əksinə etnik icmalar arasında müəyyən yaxınlaşma müşahidə olunur. Malayziya Ümumçin Assosiyası və Malayziya Hind Konqresinin digər malay təşkilatları ilə birlikdə Milli Cəbhədə fəaliyyət göstərməsi buna misal ola bilər. «Malaylaşdırma» kursu ilə bağlı canfəşanlıq göstərilməsinə qarşı hakimiyyət müvafiq cavab tədbirləri görür. Bu baxımdan belə bir mə-

sələni qeyd etmək istərdik.

Bəllidir ki, malayların həyatında islamın rolu böyükdür, islam dövlət dinidir və ona da malayların tam əksəriyyəti etiqad edir. Bundan istifadə edən əsas müxalifət partiyası olan Ümummalayziya İslam Partiyası teokratik dövlət yaratmaq və burada malaylara üstünlük vermək tələbi ilə çıxış etməyə başladıqda hakim-siyasi qüvvələr tərəfindən Birləşmiş Malayya Milli Təşkilatı aparıcı islam partiyası elan olundu. Məqsəd də o idi ki, islam partiyasının nüfuzunun artması imkanları məhdudlaşdırılsın. Eyni zamanda hakim siyasi qüvvələr vahid malayziya milləti yaradılması kursunu da bəyan etdilər.

1976-cı ilin yanvarında baş nazir Əbdül Rəzzaqın ölümündən sonra onun vəzifəsini tutan Dato Hüseyn bin On da öz sələfinin kursunu davam etdirdi. Doğrudur, 1976-1978-ci illərdə kommunistlərin törətdiyi terror aktları ilə ölkədə siyasi istiqrar bir qədər pozuldu. Lakin Malayziya və Tayland sərhədləri boyunca aparılan birgə hərbi əməliyyatlar nəticəsində kommunistlərə sarsıdıcı zərbələr vuruldu, partiyanın fəaliyyəti, demək olar ki, heçə endirildi. Bir qədər irəliyə gedərək qeyd etmək istərdik ki, 1987-ci ildə Tayland hakimiyyət orqanları tərəfindən 700 nəfər kommunist tutulub Malayziyaya verildi. 1989-cu ilin dekabrında isə Tayland tərəfi ilə danışıqlar nəticəsində 1188 nəfər kommunist qiyamçı silahı yerə qoymağa razılaşdı. Malayziya Kommunist Partiyası liderləri Malayziya və Tayland nümayəndələri ilə sülh sazişi imzaladılar.

1981-ci ilin iyulunda Məhatxir Məhəmməd baş nazir oldu. Növbəti ilin aprelində parlamentə seçkilər keçirildi və yerlərin çoxunu Milli Cəbhə qazandı. Yeri gəlmişkən demək istərdik ki, həmin dövrdə MC, Sabah ştatı istisna olmaqla, ölkənin bütün ştatlarında tam hakim siyasi qüvvəyə çevrilmişdi. Ona görə də ştatlarda da keçirilən seçkilərdə bu təşkilatın üzvləri qalib gəlirdilər. Lakin Sabah ştatında isə Birləşmiş Sabah Partiyası yerlərin çoxunu qazanırdı. Ölkədə iqtidar-müxalifət münaqişələrindən kənarda xüsusi bir narahatçılıq doğuran hadisə baş vermirdi. Bu hal təqribən 1987-ci ilin sonlarına qədər davam etdi. Həmin ilin oktyabr-noyabr aylarında yenidən çinlilərlə malaylar arasında silahlı toqquşmalar baş verdi. Doğrudur, hökumət zor gücünə də olsa münaqişələrə son qoya bildi. Lakin yenə həmin illərdə qüvvətlənməkdə olan müsəlman müxalifətinə qarşı görülən tədbirlər o qədər də səmərəli olmurdu. Ən nəhayət, hakim partiya BMMT-nin özündə parçalanma baş verdi. Bunun

səbəbi təşkilatın liderlərindən Tenqu Razalah Həmzə ilə onun sədri M.Məhəmməd arasında sədrlik vəzifəsi uğrunda rəqabət idi. 1989-cu ilin martında Razalah və tərəfdarları İndoneziya İslam Partiyası ilə alyans yaratdılar. May ayında isə Razalahın tərəfdarları bir partiya şəklində təşkilatlandılar və ona BMMT-nin 1946-cı ildə yaradılması şərəfinə Semenqat-46 adı verdilər. Malayziya Demokratik Partiyası və İndoneziya İslam Partiyası Semenqat-46 ilə əməkdaşlığa başladılar. Milli Cəbhənin üzvü olan başqa bir qüvvə də ayrılıb Semenqat 46 ilə birləşdi. Nəhayət, bütün bu müxalifət qüvvələri İctimai Müsəlman Hərəkatı (İMH) adlı koalisiya yaratdılar və tədricən iqtidarpərəst siyasi qüvvələrə qarşı güclü müxalifətə çevrilə bildilər. Hətta Kelentan sultanı açıq şəkildə İMH-ı müdafiə etdi. Bundan narazı qalan BMMT liderləri sultanların siyasi və iqtisadi məsələlərə müdaxilə etməsinə məhdudiyyət qoyulmasını tələb etdilər. Lakin bütün bunlar onunla nəticələndi ki, 1993-cü ilin yanvarında parlamentin qəbul etdiyi qanuna əsasən, sultanların hüquq və imtiyazları doqquz sultanın daxil olduğu məclisin razılığı olmadan heç cür pozula bilməz.

Sonrakı dövrdə hakim partiya BMMT rəhbərliyində ciddi ixtilaflar yarandı. Buna cavab reaksiyası olaraq baş nazir M. Məhəmməd istər öz partiyasındakı müxalifətə, istərsə də digər müxalifət qüvvələrinə qarşı qəti tədbirlər görmək kursu götürdü. 1996-cı ilin oktyabrında Semenqat-46 buraxıldı. 1997-ci ildən BMMT rəhbərliyində davam edən M. Məhəmməd - İbrahim Ənvər ziddiyyətləri, - İ. Ənvər həm də baş nazirin müavini idi, - sonuncuya qarşı məhkəmə prosesinin başlanması və onun 1999-cu ildə 6 il müddətinə həbsə alınması, sonrakı beş ildə dövlət vəzifəsində çalışmaqdan məhrum edilməsi ilə başa çatdı. İ. Ənvərin cəzalandırılması ölkədə narazılıq yaratsa da, hətta bəzi yerlərdə kütləvi nümayişlərə səbəb olsa da, M.Məhəmməd bu narazılığı yatırtdı və öz mövqelərini qoruyub saxlaya bildi.

Bütün bu irili-xırdalı siyasi hadisələrə baxmayaraq haqqında danışdığımız dövrdə ölkə iqtisadi inkişaf baxımından kifayət qədər uğurlar qazanmaqda davam etmişdir. Zəngin neft, qalay və kauçuk kimi milli sərvətlər ölkə iqtisadiyyatındakı tərəqqi və artımın təminatıdır. Malayziya ASEAN ölkələri içərisində istehsalın artım sürətinə görə Sinqapurdan sonra ikinci yerdə durur. 80-ci illərdə iqtisadiyyatın dövlət bölməsində bir sıra istehsal sahələrinin özəl-

ləşdirilməsinə önəm verilməsi inkişaf sürətinin artmasına daha bir təkan oldu. Yeni infrastrukturlar yaradılmasına xüsusi qayğı və diqqət verilməsi iqtisadi siyasətin əsas istiqamətlərindən birisidir. Tayland kimi Malayziyada da əgər 70-80-ci illərdə əmək tutumlu istehsala üstünlük verilirdisə, 90-cı illərdə artıq elm tutumlu istehsal sahələri də yaranmağa başlamışdır. Bu baxımdan M.Məhəmməd hökumətinin xidmətləri xüsusi qeyd olunmalıdır. M.Məhəmməd hökuməti də lap ilk günlərdən «Şərqə üz tutmaq» siyasətinə sadiq qalacağını elan etdi, Yaponiya və Cənubi Koreya inkişaf modelinə uyğun olaraq milli iqtisadiyyatın inkişafı və yeniləşdirilməsinin aşağıdakı əsas istiqamətlərinə üstünlük veriləcəyini bildirdi: 1) Yaponiya, Cənubi Koreya və Avropanın ən məşhur şirkətlərinin Malayziyada yığma müəssisələrini yaratmaqla ölkəyə yüksək texnologiya gətirmək və bununla da yüksək ixtisaslı işçi bazarı yaratmaq; 2) nəqliyyat, xüsusilə aviasiya və telekommunikasiya kimi sahələrdə ən müasir infrastrukturlar yaratmaq; 3) yerli xammala əsaslanan istehsal sahələrinin inkişafına yardım və kömək göstərmək.

Təbiidir ki, bu planların reallaşdırılması üçün ölkənin böyük məbləğdə kapital qoyuluşuna ehtiyacı var idi. Hökumət yenə də xarici investorlara üz tutmalı oldu. Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu və s. beynəlxalq maliyyə mərkəzləri ilə yanaşı ABŞ, Yaponiya, Tayvan, Cənubi Koreya, Sinqapur və s. kimi ölkələr Malayziya iqtisadiyyatına böyük sərmayələr qoydular.90-cı illərdə investor ölkələrin sayı 30-dan çox olmuşdur. İndiyə qədər bu sahədə Yaponiya birinci yerdə gedirdisə, 90-cı illərin ortalarında Tayvan Yaponiyanı ötdü. Üçüncü yerdə isə ABŞ dayanır.

90-cı illərdə Soni, Samsunq, Ayva, Panasonik, Mitsubisi kimi transmilli şirkətlər Malayziyada yığma müəssisələr qurdular. Təkcə bu faktı göstərmək maraqlıdır ki, ilk dəfə olaraq Malayziyada Mitsubisi şirkətinin köməyi ilə tikilən yüngül avtomaşınlar zavodunun istehsal etdiyi «Proton» adlı minik avtomobilləri İndoneziya, Böyük Britaniya, Avstraliya və s. kimi ölkələrə ixrac olunur. Yeni yaradılmış milli avioşirkət hazırda dünyanın on ən nəhəng və ən müasir şirkətlərindən biridir. Hazırda elektrik və elektron cihazları, maşın avadanlıqları kimi yüksək texnoloji məhsullarla yanaşı yüksək texnologiya əsasında hazırlanmış kənd təsərrüfat məhsulları Malayziya ixracatında əsas yer tutmaqdadır. 1991-2000-ci illərdə ümumi milli istehsalın orta hesabla artımı ildə 9,2% olmuşdur.

Doğrudur, 1997-ci ildə Taylandda baş verən maliyyə böhranı başqa qonşu ölkələrdə olduğu kimi Malayziyaya da təsirsiz ötüşmədi. Lakin Malayziya qısa zaman kəsiyində, daha doğrusu, 1998-ci ilin ortalarına qədər müddətdə bu böhranın nəticələrini aradan qaldıra bilmiş və artıq XXI əsrə öz əvvəlki inkişaf kursu və tempi ilə qədəm qoymuşdur.

# SİNQAPUR RESPUBLİKASI

Cənub-Şərqi Asiyanın digər əraziləri kimi Sinqapur da ikinci dünya müharibəsinin gedişində Yaponiya tərəfindən tutulmuşdu. 1942-ci ilin 15 fevralından şəhəri ələ keçirən yaponlar ona Sionan (Cənub şəfəqi) adını[1] verdilər və 3 il yarım müddətində burada qaldılar.

Yaponiyanın təslimindən sonra Sinqapur yenidən əvvəlki işğalçıların - ingilis müstəmləkəçilərinin hakimiyyəti altına keçdi. Lakin indi artıq Cənub-Şərqi Asiyanın digər xalqları kimi Sinqapur əhalisi də yadelli əsarəti altında yaşamaq istəyində deyildi və ingilislərin qayıtması narazılıqlar yaratdı. Bu işdə yaponların regionda təbliğ etdiyi sarı irq millətçiliyi ideyaları yetərincə lazımı rol oynayırdı. O biri tərəfdən qonşu Çində kommunistlərin fəallaşması bu regionda böyük əks-səda doğurdu. Hətta iş o yerə çatdı ki, 1948-ci ildə Malayziya Kommunist Partiyası silah gücünə Malayya və Sinqapurun hakimiyyətinə yiyələnmək istədi. İrəlidə bu haqda danışıldığından bir daha həmin məsələlərin təfsilatına ehtiyac duyulmur. Sadəcə bir daha xatırlatmaq istərdik ki, kommunistlərin cəhdlərinə qarşı əks tədbir kimi ölkədə fövqəladə vəziyyət elan olundu və on iki il davam etdi.

1955-ci ildə Sinqapur müstəqil bir siyasi vahid kimi tanındı və onun idarə edilməsi üçün ilk dəfə olaraq birinci nazir vəzifəsinə Devid Marşal seçildi. 1959-cu ildə isə Sinqapurun özünü idarə sistemi yaradıldı və həmin ilin mayında ölkədə ilk seçkilər keçirildi. Müxalifətçi Xalq Çalışma Partiyasının lideri Li Kuan Yeu Sinqapur respublikasının birinci naziri seçildi.

İrəlidə deyildiyi kimi 1963-cü ildə Malayya ilə birləşən Sinqapur Malayziya fedrasiyasının subyektlərindən biri oldu. Lakin bu birləşmə uzun sürmədi və 1965-ci ilin 9 avqustunda Sinqapur Malayziya Federasiyası tərkibindən çıxdı, müstəqil, demokratik və süveren respublika oldu.

Dekabrın 22-də Yusuf Bin Yuşak Sinqapurun ilk prezidenti

---

[1] Qeyd: Sinqapur sanskrit dilində sinqa-aslan, pura-şəhər -Aslan şəhəri deməkdir.

seçildi. Respublikanın ərazisi Sinqapur adasından və Malakka yarımadasının cənub qurtaracağındakı Sinqapura yaxın olan adalardan ibarətdir.

İstiqlaliyyət qazandıqdan sonra süveren Sinqapur Respublikası bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı fayda prinsiplərinə əsaslanan siyasi və iqtisadi-ticarət əlaqələri qurmaq siyasəti yürütməyə hazır olduğunu bildirdi. Xarici siyasət kursunun ana xəttini isə tərəfsizlik və münaqişələrə girməmək kursu təşkil edirdi. Sinqapur 1965-ci ilin sentyabrında BMT-nin 117-ci üzvü oldu, bir ay sonra Britaniya Millətlər birliyinin 23-cü dövləti oldu. İrəlidə deyildiyi kimi, 1967-ci ilin avqustunda ASEAN-nın təsisçiləri sırasında Sinqapur respublikası da var idi.

Sinqapur respublikasının ilk xarici siyasi addımları bir tərəfdən böyük dövlətlərin dəstəyini qazanmaq məqsədi güdürdüsə, o biri tərəfdən ənənəvi xarici əlaqələrin saxlanılması və inkişaf etdirilməsində dövlətin maraqlı olduğundan irəli gəlirdi. Bu baxımdan o, tərəfsizlik hərəkatına qoşuldu, BMT-nin Asiya və Sakit okean ölkələri üzrə sosial komissiyasının, BMT-nin ticarət və inkişaf konfransının, Parlamentlərarası ittifaqın və digər beynəlxalq təşkilatların üzvü seçildi. Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Bərpa və İnkişaf bankı və s. kimi küclü maliyyə təşkilatları ilə fəal işbirliyi qurdu. ABŞ, Yaponiya və Avropanın iri dövlətləri və eləcə də dünyanın nəhəng transmilli şirkətlərinin etibarlı tərəfdaşına çevrildi. Bütün bunlar və Sinqapur dövlətinin «açıq qapılar» siyasəti az zaman kəsiyində imkan verdi ki, ölkə nəinki regionun, ümumiyyətlə dünyanın ən dinamik və ən çevik inkişaf edən nöqtələrindən birinə çevrilsin. Həm də nəzərə almaq lazımdır ki, Sinqapur faktik olaraq yerli xammal və enerji ehtiyatlarına malik deyildir və maliyyə baxımından da daha çox xarici borclardan və investorlardan asılıdır.

Bəs 70-80-ci illərdə Sinqapurun belə sürətlə inkişafının əsasında nə dayanırdı?

Qeyd etdiyimiz kimi, Sinqapur respublikası da Cənub-Şərqi Asiyanın o ölkələrindəndir ki, inkişaf kursu üçün Yaponiya modelini örnək seçmişdir. Bununla yanaşı Sinqapur respublikası üçün xarakter olan bəzi cəhətləri də göstərmək istərdik:

birincisi, Sinqapurun əlverişli geopolitik mövqeyi onun uğurlarının, belə demək olarsa, start nöqtəsidir;

ikincisi, bütün Cənub-Şərqi Asiya ölkələrində olduğu kimi

ölkə əhalisinin təqribən 75%-ni təşkil edən etnik çinlilərin Böyük Britaniya müstəmləkəçiliyi dövründə əxz etmiş olduqları yüksək işgüzarlıq mədəniyyəti;

üçüncüsü, burada ciddi avtoritar rejimin və dəyişikliklər etmək üçün vaxt məhdudiyyətinin yoxluğu;

dördüncüsü, müstəmləkə əsarəti dövründə ingilislərin Sinqapurda yeritdikləri siyasətin məğzini o təşkil edirdi ki, yerli şərtlər Avropa standartlarına yaxınlaşdırılsın. Bir əsrdən çox müddətdə yürüdülən bu siyasət öz müsbət nəticələrini vermişdi və son on illərdə Sinqapurun qazandıqları uğurlar həmin kursun məhsulu kimi dəyərləndirilə bilər.

Sinqapur hökuməti,-yeri gəlmişkən demək istərdik ki, hökumət prezident tərəfindən təyin edilir və bir palatalı parlament qarşısında məsuliyyət daşıyır,- iqtisadiyyatın idarə olunmasında azad özəl fəaliyyətin dövlət tənzimlənməsi ilə uzlaşdırılmasına xüsusi əhəmiyyət verir.

Bəlli olduğu kimi, Sinqapur iqtisadiyyatının inkişaf istiqamətlərində ənənəvi olaraq onun yerləşdiyi coğrafi mövqe xüsusi rol oynayır. Hələ XIX əsrin əvvəllərindən ingilis müstəmləkəçiləri buranı dünya ticarətində mühüm vasitəçi və ötürücü rolu olan bir məntəqəyə çevirdilər. Bu baxımdan Sinqapurda o sənaye sahələri inkişaf etməyə başlamışdır və bugün də davam etməkdədir ki, dünyanın ən nəhəng limanlarından birinin ehtiyacları təmin olunsun. Bura daxildir: 1) müasir rabitə formalarının ən tez və ən sürətlə yaradılması və tətbiqi; 2) çoxşaxəli bank sisteminin qurulması.

Müstəmləkə dövründə, təbiidir ki, həmin strukturlar Sinqapurda müəyyən qədər yaradılmışdı və dövrün tələblərinə cavab verən səviyyədə idi. Odur ki, elə Sinqapur dövləti «açıq qapılar» siyasəti elan etdiyi ilk gündən transmilli şirkətlər buraya maraq göstərməyə başladılar. Sinqapurda ucuz işçi qüvvəsi, əlverişli dərin su hövzəsinin olması və nəqliyyat imkanlarının bolluğu fəaliyyət şərtlərini asanlaşdıran şərtlər kimi çox cəlbedici amillər idi.

Bütün bunların nəticəsində Sinqapur misli görünməyən bir sürətlə inkişaf etmiş ölkəyə çevrildi. O, neft emalı sahəsində dünyada üçüncü yerdə dayanan bir mərkəz oldu. Qeyd etmək lazımdır ki, xam neft İndoneziya, Malayziya, Bruney və Yaxın Şərq ölkələrindən daxil olur. Sinqapurda neftqayırma avadanlıqları istehsalı önəmli yer tutur. Bununla yanaşı kompüter, dəqiq cihazlar, mürəkkəb tibb avadan-

lıqları istehsalı üzrə ixtisaslaşmış sahələr yaradılmışdır ki, onların da istehsal etdiyi məhsullar bir qayda olaraq ixrac məqsədi daşıyır.

Sinqapur şəhəri dünyanın ən mühüm maliyyə mərkəzlərindən sayılır. Burada ABŞ, Yaponiya və digər inkişaf etmiş Qərb dövlətlərinə, eləcə də ÇXR-ə məxsus banklar fəaliyyət göstərir. Kifayət qədər də yerli banklar vardır. Sinqapur və ASEAN ölkələri bir qayda olaraq öz kapitallarını bu banklarda saxlayır.

Qeyd etmək lazımdır ki, Sinqapurda ölkənin mərkəzi bankı yoxdur. Onun bütün funksiyaları, pul emissiyası istisna olunmuqla, ölkənin maliyyə idarəsi tərəfindən həyata keçirilir. Pul emissiyası funksiyasını isə Sinqapur Baş Valyuta idarəsi icra edir. Ölkə Beynəlxalq Valyuta Fondunun üzvüdür.

Faktik olaraq heç bir xammal və enerji ehtiyatlarının yoxluğu və ölkə iqtisadiyyatının bu baxımdan xarici aləmdən asılılığının getgedə artması ilə əlaqədar olaraq Sinqapur dövləti 90-cı illərdə inkişaf etmiş emal sənayesi ilə yanaşı digər istehsal sahələrinin də yaradılması və inkişaf etdirilməsi kursunu həyata keçirir. Hazırda önəm verilən sahələrdən birisi hasilat sənayesidir. Son dövrlərdə bir sıra tikinti materiallarının- qum, sement, çınqıl və s.nin karyer üsulu ilə əldə edilməsi üçün yeni müəssisələr şəbəkəsi yaradılmışdır. Curonq adlanan ərazidə böyük bir sənaye kompleksi salınmaqdadır ki, bu da üç istiqaməti: yüngül sənaye, ağır sənaye və məxsusi infrastruktur obyektləri tikilməsini özündə birləşdirir.

Görülən tədbirlər imkan vermişdir ki, Sinqapur bu gün «dörd kiçik Asiya əjdəhası» və ya «pələngi» adlandırılan Cənubi Koreya, Tayvan, Honq Qonq kimi ölkələrlə bir sırada dursun. Sinqapur iş adamları ABŞ, Yaponiya, Böyük Britaniya və digər inkişaf etmiş dövlətlərin iqtisadi mərkəzləri ilə üzvi şəkildə inteqrasiyaya nail olmuşlar.

Bir neçə kəlmə də ölkənin xarici siyasət kursu haqqında danışmaq istərdik.

Ümumiyyətlə Sinqapurun xarici siyasətinin xarakteri ölkə iqtisadiyyatının xammal və maliyyə ehtiyaclarının təmin edilməsi şərtləri ilə müəyyənləşdirilir və bu gün də həmin amil güclü olaraq qalmaqdadır. Başqa sözlə desək, Sinqapur o dövlətlərlə daha geniş münasibətlər yaratmışdır ki, onlar ölkəni lazım olan maliyyə və xammal ilə təmin etməkdə maraq göstərirlər. Bu baxımdan ABŞ-la əlaqələr lap öndə gəlir. İki ölkə arasında ən yüksək səviyyədə siyasi

görüşlər və məsləhətləşmələr mövcuddur. Onların arasında möhkəm hərbi əlaqələr də vardır. ABŞ-dan sonra ikinci yerdə Yaponiya durur. Hər iki dövlət siyasi, iqtisadi-texniki və elmi sahələrdə geniş əməkdaşlıq edirlər. Böyük Britaniya, AFR, Fransa, İsveç və digər Avropa dövlətləri, Avropa İqtisadi Birliyi ilə müxtəlif səpkili əlaqələr də Sinqapurun xarici siyasətində mühüm yer tutur.

ASEAN-ın üzvü kimi Sinqapur dövləti bu təşkilatın fəaliyyətində yaxından iştirak edir. O, tərəfsizlik hərəkatının üzvüdür, ASEAN-nın digər üzvləri ilə bir sırada Cənub-Şərqi Asiyanın «sülh, azadlıq və tərəfsizlik» zonasına çevrilməsi uğrunda çalışır. Qonşu dövlətlərlə, Avstraliya və Yeni Zelandiya ilə sıxı münasibətlər saxlayır.

Sinqapur dövləti beynəlxalq aləmdə öz mövqeyinin artırmağa xüsusi önəm verir, xələl gətirə biləcək hər bir münaqişədən çəkinir. Bu baxımdan Sinqapur respublikası və İndoneziya arasındakı bəzi mübahisəli anlar ölkə üçün narahatlıq mənbəyi olaraq qaldığını söyləmək istərdik. 1998-ci ilin mayında İndoneziya prezidenti Suxartonun hakimiyyətdən getməsi və onun yerinə Həbibinin gəlməsindən sonra iki dövlət arasında müəyyən gərginlik yaranmışdı. Bu zaman Sinqapur hakimiyyətinin yürütdüyü təmkinli və ehtiyatlı siyasəti müşahidəçilər ciddi təqdir edirlər.

Ümumiyyətlə bir daha təkrar etmək istərdik ki, Sinqapur respublikası XXI əsrə illərlə formalaşmış və sınaqdan çıxmış bir siyasi və iqtisadi kursu davam etdirmək cəhdləri ilə daxil olmuşdur.

# TAYLAND

Tayland[1] regionun yeganə dövlətidir ki, müstəmləkə həyatını yaşamamışdır. Hətta yaponlar region ölkələrinin işğalına başladıqda o dövrkü Tayland diktatoru Luan Pibul 1942-ci ilin 25 yanvarında İngiltərəyə qarşı müharibə elan etdi. Eyni zamanda yapon ordularının Taylanddan keçərək qonşu ölkələrə girməsinə imkan və şərait yaradıldı. Bunun əvəzində Tayland qonşu ölkələrdən Birmanın şimalına, Kambocanın qərbinə və Malakka dövləti ərazilərinə qoşun çıxarmış, müəyyən yerləri işğal edə bilmişdir. Lakin Yaponiyanın məğlubiyyətindən sonra Tayland müttəfiq dövlətlərin tərəfinə keçmiş və ələ keçirdiyi torpaqları geri qaytarmalı olmuşdur. Böyük Britaniyanın regionda durumunun ağırlığından istifadə edərək onunla kifayət qədər əlverişli şərtlər əsasında bir barış anlaşması imzalamışdı.

Deməк lazımdır ki, onda da, indi də Tayland krallıq üsul-idarəsinə sahib ölkədir. Haqqında bəhs edilən dövrdə ölkənin kralı Ananda idi. O, 1946-cı il 9 iyunda sui-qəsd nəticəsində öldürüldü və on səkkiz yaşlı kiçik qardaşı taxta oturuldu. Lakin ölkəni onun əvəzinə yeni yaradılmış Hamilər Şurası idarə edirdi. Bununla yanaşı dövlətin idarə edilməsində əvvəlcədən mövcud olan Millət Məclisi də həlledici rol oynayırdı. Lakin bu strukturlar dövləti idarə etməkdə kifayət qədər yararlı ola bilmədilər və 1947-ci ilin 9 noyabrında baş verən bir çevriliş nəticəsində Ali Dövlət Şurası yaradıldı. Həmin tarixdən etibarən ölkənin idarə olunması Ali Dövlət Şurasının əlinə keçdi, kralın hakimiyyəti sadəcə simvolik bir qurum kimi saxlanıldı.

1948-ci ilin 20 iyulundan etibarən ölkənin o zamankı Siam adı dəyişdirildi və o, rəsmi olaraq Tayland adlandırıldı.

Ali Dövlət Şurası yaradıldığı gündən ona millətçi qüvvələrin nümayəndəsi Pibunsonrama (1947-1957) başçılıq etmişdir. Məhz Pibunsonrama hökumətinin və ondan sonra Tayland hökumətinə başçılıq etmiş, tarixdə «güclü şəxsiyyət» kimi ad qoymuş marşal Sarita Tanaratanın (1958-1963) fəaliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində irəliyə doğru ciddi dəyişikliklər və inkişaf baş vermişdir.

Belə ki, Tayland hökuməti ikinci dünya müharibəsinin qurtarması ilə ölkənin qapılarını xarici kapitalın üzünə açıdı. Xarici

---

[1] Qeyd: Ölkənin adı 1948-ci ilə qədər Siam idi.

sərmayədarlar, ilk növbədə ABŞ ölkə iqtisadiyyatının bərpa və inkişaf etdirilməsinə xeyli kapital qoydular. Az zaman ərzində nəinki zəif iqtisadiyyat bərpa edildi, həmin dövrdə demək olar ki, başdan-başa aqrar təsərrüfata sahib Taylandda sürətli inkişaf edən sənaye sahələri yaradıldı. Sənaye məhsulları istehsalının ümumi çəkisi kifayət qədər artdı.

Artıq 50-ci illərin əvvəlində çoxşaxəli Tayland-ABŞ münasibətlərinə hərbi əməkdaşlıq da əlavə olundu. Tayland ərazisi qonşu ölkələrə kommunizm ixracının qarşısının alınması yolunda bir sipərə çevrildi. Tayland-ABŞ hərbi əməkdaşlığı həm də Tayland dövlətinin toxunulmazlığının təminatı oldu.

Lakin 70-ci illərə qədər ölkənin daxili siyasi vəziyyətində möhkəm bir istiqrar olmamışdır. Tez-tez baş verən hərbi çevrilişlər və bir-birini əvəz edən hökumət dəyişiklikləri daxili siyasi həyatın xarakter cəhəti idi. Təbiidir ki, bu da Taylandın iqtisadiyyatının normal inkişafı üçün müəyyən əngəllər yaradırdı. Buna baxmayaraq, əsas iqtisadi kurs dəyişməz qalırdı. İqtisadiyyatda dövlət bölməsinin mövqeləri güclü idi. Dövlət özü bu bölmənin inkişafına xüsusi diqqət verməkdə davam edirdi. Bir məsələyə də toxunmaq istərdik: iqtisadiyyatın əsas sahələrinin dövlət bölməsində olması və ona olan dövlət qayğısından yuxarı hərbi-bürokratik dairələr şəxsi faydalanmaq üçün cəhdlər göstərirdilər. Bəzi hallarda bu zəmində böyük dava-dalaşlar da baş verirdi.

İqtisadi inkişafın sürətli və səmərəli gedişinə səbəb olan əngəllər 70-ci illərin sonuna qədər davam etmişdir. Lakin həmin arada baş verən növbəti dövlət çevrilişi ölkənin həyatında bir sıra cəhətlərdən dönüş yaratdı və o cümlədən iqtisadiyyatın idarə olunmasına da yeni istiqamətlər gətirdi. Siyasi sahədə ən böyük hadisə yeni konstitusiyanın qəbul olunması idi. Konstitusiya əsası 1932-ci ildən qoyulmuş konstitusiyalı monarxiya prinsiplərini bərpa etdi, ölkədə çox partiyalı sistem və parlament demokratiyası yaradıldığını bəyan etdi. Bir qədər irəliyə gedərək qeyd etmək istərdik ki, 1991-ci ildə hərbçilərin etdiyi yeni dövlət çevrilişindən sonra bu prinsiplərin ləğv olunmasına cəhdlər göstərilsə də, ancaq ona imkan çatmadı. Çünki, növbəti 1992-ci ildə hərbçilərin yaratmış olduğu hakimiyyətin özü süqut etdi.

Ümumiyyətlə müşahidəçilər belə hesab edirdilər ki, 1973-cü ildən etibarən Taylandda yeni bir sistem yaranmağa başlamışdır.

Onun başlıca istiqamətləri 1977-1979-cu illərdə belə müəyyənləşdirilmişdir: 1) iqtisadiyyatda dövlətin tənzimləyici rol daşıması; 2) ictimai həyatın müəyyən qədər demokratikləşdirilməsi yolu ilə yoxsul təbəqələrin vəziyyətinin yüngülləşdirilməsi. Bu şərtlərin reallaşması üçün Tayland 70-ci illərin sonundan başlayaraq istər daxili-iqtisadi, istərsə də xarici siyasətində müəyyən düzəlişlər etdi. İqtisadi sahədə onu qeyd etmək lazımdır ki, əmək tutumlu ixracat məhsullarının istehsalına xüsusi önəm verildi, bu sahədə çalışan şirkətlərin fəaliyyətinə əlverişli şərait yaradıldı. Yeni sənaye sahələrinin qurulması da bu qəbildən olan tədbirlərdən idi. Ağır sənaye müəssisələrinin inşası, kənd təsərrüfatı məhsulları istehsalının artımı, daxili bazarın imkanlarının və xarici iqtisadi əlaqələrin genişləndirilməsinə yönəli kurs nəticəsində Taylandda müasir iqtisadiyyat yaradıldı. Ölkənin ASEAN üzvlüyünə qəbul olunması bu işlərin uğurla həyata keçirilməsinə lazımı imkanlar və şərait yaratdı. Deyilənlərin təsdiqi üçün aşağıdakı rəqəmləri xatırlatmaq kifayətdir: birincisi, ölkənin sosial strukturu kəskin şəkildə dəyişdi. Əgər 40-cı illərin sonunda əhalinin fəal hissəsinin 85%-i kənd təsərrüfatında çalışırdısa, 80-ci illərin sonunda bu rəqəm 56%-ə enmişdi; ikincisi, son iyirmi il ərzində muzdlu əməklə çalışanların,-bunlar da bir qayda olaraq sənaye və emal müəssisələrində çalışırdılar,- sayı dörd dəfə artdı, ölkə əhalisinin iş qabiliyyəti olan hissəsinin 25%-ni təşkil etdi; üçüncüsü, tay mənşəli iş adamlarının sayı və fəaliyyət sahələri xeyli artdı və tay mənşəli burjuaziyanın Tayland cəmiyyətində rolu xeyli yüksəldi. Bununla yanaşı, ölkənin iqtisadi həyatında yerli çin kapitalının yeri bu gün də üstün olaraq qalır. Kənd təsərrüfatı məhsullarının 80%-ə qədərinin satışı, sənaye müəssisələrinin ümumi gücünün 52%-i, inşaat işlərinin 60%-i məhz yerli çin kapitalının nəzarəti altındadır; dördüncüsü, 1960-cı ildən-1980-ci ilə olan müddətdə adam başına düşən illik gəlir iki dəfə artmışdır. Demək lazımdır ki, sonrakı dövrlərdə, yəni 80-90-cı illərdə adam başına düşən illik gəlir daha sürətlə artmaqda davam etmişdir.

Taylandın müasir dövr iqtsiadiyyatı da əvvəlki inkişaf sürətini saxlamaqla yanaşı həm də onunla xarakterdir ki, kənd təsərrüfatı məhsullarının istehsalı və ixracını, - bu baxımdan kauçuk və düyü kimi ixracat mallarını xüsusilə qeyd etmək lazımdır,- yüksəltməklə yanaşı elm tutumlu bir sıra modern sənaye sahələrinin inkişafına xüsusi önəm verilir. Bunlardan elektrotexnika, elektronika,

neft kimyası və s. qeyd etmək olar.

Ümumiyyətlə bu hal da xarakterdir ki, iqtisadiyyatda əsas ağırlıq özəl kapitalın üzərinə düşür. Bu baxımdan yerli çin kapitalı böyük rol oynayır və irəlidə buna toxunmuşuq.

Xarakter cəhətlərdən birisi odur ki, Tayland dövləti iqtisadi inkişafın təmini üçün lazım olan bütün infrastrukturların yaradılması işini öz üzərinə götürmüşdür.

Bütün bunların nəticəsidir ki, 90-cı illərdə Tayland dünya bazarına hazır paltar, qiymətli daş-qaş, tekstil və elektronika məhsulları ixrac edən bir ölkə kimi tanınmışdır.

Bəlli olduğu kimi, dövlət quruluşuna görə Taylandda konstitusiyalı monarxiya rejimi mövcuddur və irəlidə deyildiyi kimi, ölkənin idarə edilməsində kralın rolu o qədər də böyük deyildir. Qanunvericilik hakimiyyəti iki palatalı parlamentə, icraedici hakimiyyət hökumətə məxsus olsa da ölkənin idarə sisteminin bütün sahələrində ordunun rolu daha güclü olmuşdur. Faktik olaraq 90-cı illərin əvvəllərinə kimi ordu siyasi bir qüvvə olaraq siyasi hadisələrə fəal müdaxilə edir və tez-tez baş verən dövlət çevrilişlərinin təşkilatçısı və iştirakçısı olurdu. Təbiidir ki, bu hal siyasi partiya və təşkilatların, həmkarlar ittifaqları və s. qurumların fəaliyyət imkanları və dairəsini xeyli məhdudlaşdırırdı. Siyasi istiqrarsızlıq sosial-iqtsiadi inkişaf üçün də lazım olan şərtlərdən tam istifadə edilməsinə mane oldurdu. Bu hala qarşı cəmiyyətdə get-gedə güclənən təbii bir etiraz olsa da, onun reallaşması yalnız 90-cı illərin əvvəlində mümkün ola bildi. Belə ki, 1990-cı ilin əvvəlində korrupsiya faktlarının aşkarlanması və ölkədə xalq həyəcanlarının artması nəticəsində bir hökumət böhranı yarandı. Siyasi liderlərin də hökumətə qarşı apardağı etimadsızlıq kampaniyası vəziyyəti daha da gərginləşdirdi. Bir-birini əvəz edən kabinetlərin və eləcə də böhrandan çıxmaq məqsədilə yaradılmış Sülhməramlı Milli Şuranın heç cür çıxış yolu tapa bilməyəcəkləri bəlli olduqda 1991-ci ilin 23 fevralında hərbçilər heç bir qan tökmədən növbəti dövlət çevrilişi etdilər. Silahlı Qüvvələrin baş komandanı general Suntorn Sülhməramlı Milli Şuranın sədri vəzifəsini və təşkilatın inzibati-idarə səlahiyyətlərini öz üzərinə götürdü. Konstitusiyanın fəaliyyəti dayandırıldı. Parlament və hökumət buraxıldı, ölkədə fövqəladə vəziyyət elan olundu. 1991-ci ilin martında müvəqqəti konstitusiya layihəsi krala təqdim edildi. Bundan sonra parlamentə yeni seçkilər keçirilməsinə qərar verildi. Mayda ölkənin çox rayonlarında fövqəladə

vəziyyət ləğv olundu. Siyasi partiyalar yenidən fəaliyyətə başladılar. Seçkilərə hazırlaşmaq üçün siyasi qüvvələr öz güclərini yenidən qurdular və bəzi yeni qruplaşmalar meydana gəldi. Dekabrda yeni konstitusiya qəbul edildi. Nəhayət, 1992-ci ilin 22 martında parlamentə seçkilər keçirildi. Lakin istər parlament seçkilərində yol verilən pozuntulardan və eləcə də yeni hakimiyyətin tərkibindən narazı qüvvələr vəziyyəti gərginləşdirdilər. Nəhayət, iyunda vaxtilə çevriliş zamanı yaradılmış hökumətə başçılıq etmiş tanınmış diplomat və fəal bir siyasətçi olan Anand baş nazir postuna gətirildi. O, tərəfsizlərdən ibarət bir kabinet təşkil etdi.

Anand hökuməti vəziyyəti normallaşdırmaq üçün bir sıra cəsarətli tədbirlər gördü. Bunlardan ən mühümü hərbçilərin ölkənin siyasi və sosial həyatına qarışmasına qadağa qoyulması haqqındakı qərarlar idi. Hətta sosial həyacan və gərginliklər dövründə belə hərbçilərin müdaxiləsinə icazə verilmirdi. Ordu rəhbərliyi yenidən quruldu. Bir sıra generallar istefaya göndərildi. 1992-ci ilin sentyabrında yeni seçkilər keçirildi. Seçkilərdə çox yer götürən Demokratik İnkişaf Partiyası liderinin başçılığı altında koalisyon hökumət yaradıldı.

Qeyd etmək lazımdır ki, həmin dövrdən etibarən ölkənin siyasi həyatındakı mübarizə parlament müstəvisinə keçirildi və bu sahədə müəyyən müsbət nəticələr əldə edildi. 1995-ci ildə parlament ölkənin demokratik yolla inkişafı üçün lazım olan bir sıra məsələlərin konstitusiyada öz əksini tapmasına nail oldu. Senata təyin olunan üzvlərin sayının azaldılması, səsvermə üçün yaş senzinin 18-ə endirilməsi, qadınların hüquq bərabərliyinin təmini, inzibati məhkəmələrin təşkili, senatorların, parlament və hökumət üzvlərinin səlahiyyət hədlərinin müəyyənləşdirilməsi və s. bu qəbildən olan tədbirlər idi.

1995-ci ilin iyulunda keçirilən seçkilərdən sonra təşkil olunan hökumətin əsas diqqət verdiyi məsələ ölkədə maliyyə-kredit sisteminin liberallaşdırılması olmuşdur. Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişafında bu tədbirin böyük rolu vardır. Lakin bununla yanaşı, həmin sahədə keçirilən islahatlar bir sıra neqativ halları aradan qaldırmaqla yanaşı müəyyən əyintilərə də gətirdi.

Ölkənin demokratik inkişafı yolunda atılan addımlardan birisi də 1997-ci ildə yeni konstitusiyanın hazırlanması və qəbul olunmasıdır. Oktyabrda qüvvəyə minən konstitusiyaya görə ilk dəfə olaraq Senata üzvlüyün yalnız seçkilərlə mümkünlüyü e'lan edildi. Parla-

mentin aşağı palatasına majoritar qaydada 400 nəfər, proporsional qaydada 100 nəfər deputat seçilməli idi. Hökumətdə iştirak edən şəxslərin qanunverici orqanlarda təmsil olunmasına yol verilmirdi. Mərkəzi Seçki Komissiyasının təşkili, səslərin hesablanması, məcburi səsvermə, azad mətbuat və s. sahəsində demokratik prinsiplərin təsbit edilməsi də konstitusiyada öz əksini tapmışdır. Məhz bu demokratikləşmə kursunun nəticəsi idi ki, 1997-ci ilin sonlarında aparılan iqtisadi islahatlar prosesinin ləngiməsinə görə ölkədə siyasi və iqtisadi gərginlik lap son həddə çatdıqda belə, ordu bu məsələyə müdaxilə etmədi. Böhranın konstitusiya müddəalarına uyğun həllinə əməl olundu.

Onu da demək lazımdır ki, 1997-ci ilin sonu və 1998-ci ilin əvvəlində baş verən hökumət dəyişikliyi və iqtisadi sahədə bir sıra tədbirlər görülməsinə baxmayaraq Tayland pulu batın dəyərdən düşməsinin qarşısını tezliklə almaq mümkün olmadı. Ölkə müəyyən dövr gərgin günlər yaşamaq zorunda qaldı. Bu hadisə nəinki Taylandı, həm də yaxın və uzaq dövlətləri, ilk növbədə qonşu dövlətləri titrətdi.

Qeyd etmək lazımdır ki, Tayland bu böhrandan yalnız ASEAN-ın, investor dövlətlərin, ilk növbədə isə Beynəlxalq Valyuta Fondunun yardımı və təkliflər planı ilə çıxa bildi.

90-cı illər Tayland üçün təkcə daxili iqtisadi və siyasi inkişaf ənənələrinin sabitləşməsi ilə deyil, həm də onun qonşu ölkələrlə, ilk növbədə Laos və Kamboca ilə mehriban dostluq əlaqələri qurması ənənələrinin güclənməsi və sabit xarakter alması ilə xarakterdir.

Bəlli olduğu kimi, Tayland ASEAN-nın ilk beş təsisçisindən biri olmuşdur. Hələ buna qədər isə o, Cənub-Şərqi Asiyada hər-hansı formada regional birliyə gətirə biləcək müəyyən bir strukturun yaradılmasına edilən cəhdlərin təşəbbüskarlarından idi və regionda kollektiv zəmində əməkdaşlıq ideyasını müdafiə edirdi.

Tayland bütün bunlarla yanaşı öz strateji inkişaf yolunu ilk günlərdən dəqiq müəyyənləşdirmişdi. O, Qərbin liberal-demokratik dünyasına önəm vermiş və Qərb dövlətlərindən ABŞ, Böyük Britaniya və Fransa, Uzaq Şərq ölkələrindən Yeni Zelandiya, Avstraliya, Filippinlər, Pakistan ilə bir sırada 1954-cü ilin 8 senyabrında yaradılmış SEATO-nun üzvü olmuşdür. Təbiidir ki, Qərblə belə yaxınlaşma ona bir sıra siyasi və iqtisadi problemlərini həll etməyə imkan vermişdi. Ancaq regionda ölkələrarası münasibətlərin nizam-

lanması və bəzi problemlərin həll edilməsi məhz ASEAN-nın yaradılmasından sonra xeyli dərəcə asanlaşmış və mümkün olmuşdur. Biz irəlidə 1967-ci ilin avqustunda Banqkokda İndoneziya, Malayziya, Sinqapur, Filippinlər və Taylandın xarici işlər nazirlərinin toplantısında ASEAN-nın yaradıldığı haqqında ətraflı danışmışdıq. Burada isə xüsusi qeyd etmək istərdik ki, ASEAN-nın yaradılması regionda illərlə yığılıb-qalmış problemlərin çözülməsi üçün geniş əməkdaşlıq imkanlarını üzə çıxardı. «ASEAN ruhu» kimi bir terminin yaranması məhz məsələlərin həllində üzv dövlətlərin göstərdiyi dözümlülük, qarşılıqlı anlaşma və hörmət hisslərinə əsaslanır. «ASEAN ruhu» həm də ona əsaslanır ki, qərar səsvermə ilə deyil, konsensus yolu ilə qəbul olunur.

Qeyd etmək lazımdır ki, ASEAN üzvləri olan ölkələr hamı üçün eyni olan məsələləri həll etməklə yanaşı hər birinin regionda önəm verdiyi prinsiplərə də hörmət göstərirlər. Məsələn, Tayland Hind-Çin ölkələrinin hamısı ilə iqtisadi əməkdaşlığa xüsusi maraq göstərir. Ancaq bu ölkələrin hər biri ilə Taylandın münasibətləri müxtəlif zamanlarda fərqli də olmuşdur. Bu baxımdan bir sıra həmsərhəd dövlətlərlə, ilk növbədə Kamboca, Laos və Vyetnamla olan əlaqələrə ötəri nəzər salmaq kifayət edərdi. Kamboca hadisələri Tayland üçün həmsərhəd bir dövlət kimi münaqişəli durum yaratmışdı və bu durum müvafiq məsələlərə yanaşmada ümumilikdə ASEAN ölkələrinin baxışlarına güclü təsir göstərirdi. Bir qədər irəlidə 1992-ci ilə qədər qırmızı kxmer ordularının Taylandın Kamboca ilə sərhəd bölgələrində yerləşməsi və silahlı mübarizəni davam etdirməsi haqqında ətraflı danışdığımızdan həmin hadisələri bir daha təkrar etməyə ehtiyac yoxdur. Qısaca demək istərdik ki, Kamboca probleminin həlli istiqamətində səylər artanda Tayland xeyirxah mövqe nümayiş etdirdi və Kamboca probleminin həllində öz lazımı xidmətlərini və səylərini əsirgəmədi.

Belə bir hal Vyetnamla münasibətlərdə də özünü göstərmişdir. İlk vaxtlar Vyetnama qarşı sərt siyasət nəinki bəzi ASEAN ölkələrində, elə Taylandın daxilində də birmə'nalı qarşılanmırdı. Lakin bu siyasət xeyli vaxt davam etdirildi. Eləcə də Laosla olan münasibətlər də təqribən həmin durumda idi. Lakin zaman keçdi və Tayland istər Vyetnam, istərsə də Laosla münasibətlərdə dialoqa və xeyirxah qonşuluq prinsiplərinə üstünlük verdi, onlarla qarşılıqlı və faydalı iqtisadi əməkdaşlıq qurdu. Bütün bunlar nəticə etibarilə ona

gətirdi ki, Tayland Hind-Çin ölkələri arasında öz liderlik mövqelərini möhkəmlətməyə və genişləndirməyə nail oldu. 1995-ci ildə ASEAN dövlət və hökumət başçılarının Banqkokda keçirilən konfransına Kamboca, Laos və Myanma nümayəndələri də dəvət olundu. Myanma ilə münasibətlərdə yaxşılığa doğru bir dönüş yarandı. Bu baxımdan 1996-cı ilin sonları və 1997-ci ildə Tayland dövlətinin siyasi fəallığını xüsusilə qeyd etmək lazımdır. Myanmaya demokratik inkişaf yolunda edilən kömək, Kambocada barışa nail olmaq, Vyetnamla münasibətlərdə müsbət bir sabitlik yaratmaq Tayland diplomatiyasını Cənub-Şərqi Asiyada həlledici mövqeyə çıxardı.

Nəzərə alsaq ki, Tayland həm də ABŞ başda olmaqla Qərb dövlətləri ilə olan əlaqələrini daha da artırır və o dövlətlər tərəfindən hər cür dəstək alır, onun XXI əsrə regionun qüvvətli dövləti kimi girməsinə heç bir şübhə yeri qalmır.

## FİLİPPİNLƏR

Mə'lumdur ki, Filippinlər də regionun başqa ölkələri kimi ikinci dünya müharibəsi dövründə Yaponiya tərəfindən işğal edildi. Yaponların Filippinlərə qarşı apardığı müharibə 1941-ci ilin 8 dekabrında başladı və 1942-ci ilin 6 mayında sona çatdı. Adalarda ABŞ hərbi qüvvələrinin yerini yaponlar tutdular.

Həmin dövrdə Filippinlər, əgər belə demək mümkündürsə, yarımmüstəmləkə halında idi. Ölkənin bu statusu 1934-cü ildə ABŞ-la razılaşma əsasında müəyyən edilmişdi. Razılaşmaya əsasən Filippinlər ABŞ konstitusiyasına uyğun bir konstitusiya qəbul etməli, on il müddətində ölkədə idarəçilik təsisatları yaratmalı və sonra öz istiqlalına qovuşmalı idi. Bunun əvəzində ABŞ-ın Filippinlərdə hərbi qüvvə və hərbi bazalar saxlamaq hüququ qalırdı. Xatırlatmaq istərdik ki, 1935-ci ildə qəbul edilmiş konstitusiyaya görə Filippinlər respublika e'lan edildi, Milliyyətçilər partiyasının lideri Manuel Kioson prezident seçildi, iki palatalı parlament yaradıldı və s. Prezident M.Kioson müharibəyə qədər bir sıra tədbirlər görə bildi və faktik olaraq ölkəni bağımsızlıq statusuna hazırlaya bildi. Lakin müharibənin başlanması ilə M. Kioson ABŞ-ın təklifi və dəstəyi ilə əsas diqqəti gözlənilən yapon işğalından müdafiəyə yönəltdi, ölkəni qoruya biləcək hərbi hissələr yaratmağa başladı. Bu işdə ona ABŞ generalı Duqlas Mak Artur kömək edirdi. ABŞ filippinlilərdən və amerikalılardan ibarət olacaq bu ordunun köməyilə yaponlara qarşı durmaq istəyirdi. Lakin hərbi əməliyyatlar yaponların üstünlüyü ilə gedirdi. Odur ki, general Mak Arturun komandanlıq etdiyi hərbi qüvvələr geri çəkilməyə məcbur oldu. Filippinlər yaponların əlinə keçdi. Prezident M.Kioson ABŞ-a qaçdı. 1943-cü ilin oktyabrında yaponlar Cuze Laurelin başçılığı ilə yeni hakimiyyət yaratdılar.

Qeyd etmək lazımdır ki, Cənub-Şərqi Asiyanın başqa ölkələrindən fərqli olaraq yaponlar Filippinlərdə ciddi müqavimətlə rastlaşdılar. Birincisi, Filippinlər Kommunist Partiyasının silahlı dəstələri yaponlara qarşı aramsız partizan müharibəsi apardı. İkincisi, ABŞ hərbi qüvvələri də 1944-cü ilin oktyabrından yaponlara qarşı hərbi əməliyyatları bərpa etdilər və artıq 1945-ci ilin fevralında paytaxt Manilanı ələ keçirdilər. İyulun 4-də isə ümumiyyətlə ölkə ABŞ hərbi qüvvələrinin tam nəzarəti altında idi. Milliyyətçi liderlərdən Osmenanın başçılığı ilə hakimiyyəti bərpa etdilər.

Təbiidir ki, müharibə ölkəyə böyük maddi-mənəvi zərər

vurmuş, onu xarabazara çevirmişdi. Hərbi əməliyyatlar zamanı yarım milyondan çox insan həlak olmuşdu. Yaponiyanın ikinci dünya müharibəsində təslim olması yenidən Filippinlərin həyatında ABŞ-ın rolunu artırdı.

Bundan sonra Filippinlərin bağımsız bir dövlət kimi inkişafı dövrü başladı. Bu dövrün lap əvvəlində Filippinlər öz istiqlalına qovuşdu. 1946-cı ilin 23 aprelində keçirilən prezident seçkilərində namizədliyi general Mak Artur tərəfindən dəstəklənən yeni yaranmış Liberal Partiyanın lideri Roksas qalib gəldi. Artıq iyulun 4-də prezident Roksas Filippinlərin bağımsızlığını rəsmi elan etdi. O biri tərəfdən prezident Roksas hakimiyyəti ələ keçirmək istəyən Kommunist Partiyasının təşkil etdiyi partizan hərəkatı ilə üz-üzə qaldı. Müəyyən zaman ərzində Filippinlər də həmin dövrdə İndoneziyanın keçirmiş olduğu həyatı yaşamalı oldu. Başqa sözlə desək, kommunistlərin silah gücünə hakimiyyətə yiyələnmək cəhdlərinə qarşı adekvat cavab verildi. Yenicə istiqlal qazanmış ölkənin xeyli maddi və canlı qüvvə imkanları bu əməliyyatlara cəlb və sərf olundu. Yoxsul kəndlilərin dəstəyini qazanmağa müvafiq olmuş kommunistlər hətta bir sıra əyalətlərdə hakimiyyəti ələ keçirdilər və 50-ci illərin əvvəlinədək hökumət qüvvələrinə kifayət qədər müqavimət göstərdilər. Lakin həmin vaxtdan etibarən vəziyyət rəsmi hakimiyyətin xeyrinə dəyişməyə başladı. Bunun da əsas səbəbi o idi ki, hökumət bir sıra islahatlar keçirmiş,-bunların arasında aqrar islahat xüsusi yer tuturdu,- və ölkə iqtisadiyyatını dirçəldə bilmişdi. İslahatlar kursunun ana xətti «iqtisadiyyatın filippinləşdirilməsi», yəni iqtisadi həyatda yerli xalqın iştirakına üstünlük verilməsi idi. Ümumiyyətlə isə Filippinlər bağımsızlığını qazandığı ilk günlərdən liberal-demokratik dəyərlərə əsaslanan inkişaf kursu qəbul olunmuşdu və bu kursun uğurla həyata keçirilməsində ABŞ tərəfindən ona hər cür maddi , mənəvi yardım və dəstək göstərilirdi. Münasibətləri nizamlamaq üçün iki dövlət arasında müvafiq sazişlər və müqavilələr bağlanmışdı. Filippinlərdə hələ ispan müstəmləkəçiliyi dövründən miras qalmış feodal qalıqlarının aradan qaldırılması və liberal təsərrüfat tərzinin yaradılması prosesində burada yaşayan amerikalılar da bilavasitə iştirak edirdilər. Hətta bu barədə müvafiq sənəd də imzalanmışdı və ona görə Filippinlərdə yaşayan amerikalılar yerli vətəndaşlarla eyni hüquqa malik idilər. Qeyd etmək istərdik ki, Filippinlər və ABŞ arasında əvvəllər mövcud olmuş hərbi əlaqələr

də bərpa edildi. Filippinlərdə hərbi qüvvə və bazalar saxlamaq hüququnu saxlayan ABŞ bir sıra hərbi bazalardan 99 il müddətinə istifadə etmək hüququ da aldı. Bunlar iki dövlət arasında 1947-ci ildə bağlanan müvafiq sənədlər əsasında rəsmiləşdirildi. ABŞ-ın geniş iqtisadi və hərbi yardımları Filippinlərin bir dövlət kimi dirçəlməsinə geniş imkanlar yaratdı. 1948-ci ildən daha da genişlənən silahlı kommunist qiyamlarına qarşı mübarizədə ona güc və imkan verdi. 1948-ci ilin aprelində prezident Roksasın ölümü ilə əlaqədər prezident vəzifəsi onun müavini Elpidio Korinoya keçdi. E.Korino artıq Manilaya yaxınlaşmaqda olan üsyançılara qarşı qəti hərəkətə başladı. Filippinlərin hərbi qüvvələri 1953-cü ildə hərbi üstünlüyü tamamilə öz əllərinə aldılar. Az sonra isə üsyan yatırıldı və ölkənin dinc inkişafı üçün normal şərait bərpa olundu. Kommunist partizan dəstələrinə qarşı mübarizədə xüsusilə fərqlənmiş ölkənin müdafiə naziri R. Maksaysay həmin arada prezident seçildi və o, yaranmış dinclikdən və şəxsi nüfuzundan istifadə edərək bir sıra islahatlar paketini parlamentdə təsdiq etdirə bildi. Lakin onun 1957-ci ilin martında ölümündən istifadə edən müxalif qüvvələr parlamentin üst məclisi Senatda islahatların məhdud səviyyədə aparılması haqqında qərar çıxarılmasına nail oldular. Buna baxmayaraq Filippinlər bir dövlət olaraq liberal-demokratik təmələ söykənən inkişaf kursunu davam etdirməkdə qərarlı idi. İrəlidə də deyildiyi kimi bu sahədə ABŞ-la ciddi yaxınlaşma oldu. Filippinlər əsası 1954-cü ildə Manilada qoyulan SEATO paktının təsisçilərindən və ilk üzvlərindən idi. Xarici siyasət sahəsində uğurlu addımlardan birisi də 1956-cı ildə ölkədəki ABŞ hərbi bazaları üzərində Filippinlər dövlətinin hökm vermək haqqının tanınmasıdır. Demək lazımdır ki, 1957-ci ildə prezident seçilən K.Qarsia da öz sələfinin kursunu davam etdirmişdir. K.Qarsia daha çox iqtisadi problemlərin çözülməsinə önəm verirdi. Həm o, həm də ondan sonra 1961-ci il seçkilrəində qalib gəlmiş Masapaqal ölkənin çökmüş iqtisadiyyatını bərpa etməyin başlıca yolunu təsərrüfat həyatının daha çox liberallaşdırılmasında görürdülər. Hər iki prezident dövründə özəl kapitalın və iş adamlarının fəaliyyətinə daha çox şərait və imkanlar yaradılırdı. Bu işdə ölkə əhalisinin müəyyən hissəsini təşkil edən, ən'ənəvi olaraq ticarət və istehsal sahələrində kifayət qədər rolu və yeri olan yerli etnik çinlilərin – xuatsyaonun - imkanlarından geniş istifadə olunmaqla yanaşı xarici investorlara da xüsusi əhəmiyyət verilirdi. İqtisadiyyatın

sağlamlaşdırılması yolunda maliyyə, sosial və aqrar sahələrdəki bir sıra çətinliklərin və gərginliklərin aradan qaldırılması sahəsində tədbirlər görmək hökumətin başlıca fəaliyyət sahələrindən biri olaraq qalırdı. Belə bir dövrdə qonşu Malayziyanın Kalimantanadakı Sabah əyalətini özünə birləşdirməsi Filippinlərdə ciddi etirazla qarşılandı. Filippinlər hökuməti Sabah əyalətinə olan hüquqlarını qorumaq üçün bir sıra cəhdlər göstərdilər. Hadisələrin təfsilatı haqqında irəlidə danışıldığından, qısaca onu söyləmək istərdik ki, Filippinlərin cəhdləri elə bir uğur gətirmədi. Bəlkə də bunun nəticəsiydi ki, 1965-ci ilin prezident seçkilərində milliyyətçilərin lideri Ferdinand Markos qalib gəldi.

F.Markosun prezident seçilməsi ilə Filippinlər tarixində məhz onun adı ilə bağlı bir dövr olmuşdur. İyirmi ildən (1965-1986-cı illər) artıq bir müddətə davam etmiş bu dövr tarixçilər tərəfindən «demokratiyadan sərt idarəçilik rejiminə keçid» kimi xarakterizə edilir.

F.Markos hakimiyyətə gələrkən Filippinlər bir sıra uğurlara baxmayaraq çoxlu çətinliklərlə üz-üzə idi: işsizlik artır, siyasi qarşıdurmalar genişlənir və şiddətlənir, iqtisadiyyat yönəticilərin rüşvətxorluğu və qaçaqmalçılığı nəticəsində istənilən inkişaf axarına və səviyyəsinə heç cür gələ bilmirdi. Odur ki, F. Markos da fəaliyyətinə ölkədə bazar iqtisadiyyatının daha sürətlə qurulması və formalaşdırılması prosesinə təkan verən müəyyən tədbirlər görməklə başladı. Bu kurs ölkə iqtisadiyyatının 30-40%-nə nəzarət edən ABŞ və Yaponiya tərəfindən dəstəkləndi. Ölkə əhalisinin böyük hissəsinin kəndlilər olduğunu nəzərə alan hökumət «yaşıl inqilab» kimi xarakterizə olunan aqrar islahatlara xüsusi diqqət verməyə başladı. Dövlətin və xarici investorların qüvvəsi ilə kənddə lazımı infrastrukturalar yaradıldı: yollar çəkildi, irriqasiya və suvarma sistemləri inşa edildi, təchizat işləri qaydaya salındı, məhsulun qəbulu məntəqələri təşkil olundu və s. Mühüm tədbirlərdən birisi də kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin inşası idi. Doğrudur, görülən işlər hələ istənilən nəticələrin tam əldə edilməsinə gətirib çıxarmasa da,- hətta bə'zən neqativ hallar, məsələn, kəndlərdən sıxışdırılıb çıxarılan imkansız təbəqələrin yoxsulluq və dilənçiliyinin daha da artması kimi, doğursa da,- ancaq onlar xalq tərəfindən gələcəyi olan bir proses kimi dərk və qəbul edilirdi. İldən-ilə kənd təsərrüfatı məhsullarının ixracatı artır, bu sahədə gəlirlərin çoxalması dönməz xarakter alır, ölkədə çox yüksək səviyyəli rentabelli plantasiya

təsərrüfatları yaranırdı. Bunlar bir tərəfdən ölkə iqtisadiyyatının modernləşdirilməsinin nəticəsi idisə, o biri tərəfdən həm də onun inkişaf sürətinə təkan verirdi. Ən sonda isə aqrar həyatda ənənəvi mülkədarlar oliqarxiyasının hakimiyyəti xeyli dərəcədə məhdudlaşdı, milli işgüzarlıq fəaliyyəti bir inkişaf və artım vüsəti aldı.

Bunlar prezident F.Markosa böyük şöhrət qazandırdı. F.Markos hakimiyyətə gələrkən ABŞ-la bağlanan hərbi müqavilələrə yenidən baxılacağını vəd etmişdi. Lakin hər şey köhnədə olduğu kimi qaldı və 1968-ci ildə Sabah problemi ilə əlaqədar olaraq Malayziya ilə münasibətlərdə yeni bir gərginlik yaranmışdı. 1969-cu il prezident seçkilərində F.Markos qələbə çaldı. Lakin onun ikinci prezidentliyi dövründə sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artmasına baxmayaraq tələbələr və sol qüvvələr açıq şəkildə çıxışlara başladılar. Onlar F.Markos hökumətinin ABŞ-la olan münasibətlərini ölkənin milli maraqlarına uyğun gəlməyən bir hal kimi xarakterizə edir və bu yaxınlığa və əməkdaşlığa qarşı çıxırdılar. Xüsusilə «yaşıl inqilab»ın nəticələrindən yararlanmayan kəndlilərin düşdüyü səfalətli vəziyyətdən kommunistlər istifadə etməyə cəhdlər göstərdilər. Çin Xalq Respublikasının partiya və dövlət dairələri ilə əlaqələr qurmuş Kommunist Partiyası rəhbərləri Yeni Xalq Ordusu adı altında hərbi təşkilat yaratmışdılar. Bu işdə ÇXR partiya və dövlət dairələri Filippin kommunistlərinə hər cür yardım və dəstək verirdi. O biri tərəfdən indiyə qədər Sovet İttifaqının təsiri altında olan və məhz Sovetlər tərəfindən dəstəklənən və silahlandırılan keçmiş partizan dəstələri də hərəkətə gəlir və fəallaşırdılar. Tarixdə huklar adı ilə tanınan bu hərbi birləşmələrin rəhbəri Pedro Turaqın öldürülməsi və onun köməkçilərinin həbsə alınmasından sonra həmin qüvvələr daha da fəallaşdılar. F.Markosun öz ətrafında da narazılar üzə çıxdı. Onun lideri olduğu Milliyyətçilər Partiyası 1971-ci ildə parçalandı. F.Markos tərəfdarlarının müxalifətə qarşı hətta sui-qəsdlərə belə əl atması müxalifətçiləri, xüsusi ilə Liberallar Partiyasını hərəkətə gətirdi. Vəziyyət kəskinləşdiyindən 1972-ci ilin sentyabrında ölkədə sərt idarəçilik rejiminə keçildiyi elan edildi. Bundan sonra hakimiyyət müxalifət qüvvələrinə qarşı kütləvi təqib və cəza kampaniyasına başladı. Arasında Liberallar Partiyası liderlərinin də olduğu çoxlu müxalifətçi həbsə alındı. Siyasi müxalifətin təzyiqlərini özündən yayındırmaq üçün F.Markos prezidentlik üsul-idarəsini parlamentar idarəçilik rejimi ilə əvəz etdi.

Qeyd etmək lazımdır ki, baş verən hadisələr 1973-cü ilin 17 yanvarında F.Markosun növbəti dəfə prezident kürsüsünə yiyələnməsinə mane ola bilmədi. F.Markos rejimi daha da sərtləşdirdi, faktik olaraq konstitusiyaya uyğun olaraq əvvəlki prezident funksiyalarını özündə saxlamaqla baş nazirin səlahiyyətlərini də öz əlinə aldı. Beləliklə o, öz şəxsi hakimiyyətini genişləndirdi və möhkəmləndirdi. Dövlət idarəçiliyi bütünlüklə F. Markosun iradəsinə tabe edildi. İstədiyi hər hansı tədbiri tez-tez keçirilən referendumlar vasitəsilə qəbul etdirir və bununla öz şəxsi iddialarını geniş demokratiya adı ilə pərdələyirdi. F.Markos «yeni cəmiyyət» adlanan bir sıra islahatlar proqramını həyata keçirirdi. Onların arasında torpaq islahatı yenə də əsas yer tuturdu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, yetmişinci illərdə ölkənin iqtisadi inkişafı üçün əsas diqqət daha çox əmək tutumlu təsərrüfat sahələrinin, xüsusilə kənd təsərrüfatı ilə bağlı olan sənaye səhalərinin yaradılmasına verilirdi. Lakin yetmişinci illərin sonlarında isə həm də elm tutumlu müasir sənaye sahələrinin yaradılması kursu götürüldü. Bu iş praktik olaraq əsasən özəl kapitalın hesabına görülürdü. Onun icrasında xarici kapitalın da yeri böyük idi.

70-ci illərdə F.Markos xarici siyasi əlaqələrin genişlənməsinə daha çox diqqət və əhəmiyyət verirdi. Siyasi həyatda bir dinclik yaratmaq üçün daimi qorxu törədən kommunistləri neytrallaşdırmağa çalışırdı. Bu məqsədlə ÇXR və Sovet İttifaqı ilə əlaqələrini yaxşılaşdırdı. 1975-ci ildə Pekinə və 1976-cı ildə Moskvaya etdiyi səfərlər zamanı həmin ölkələrlə normal münasibətlər yaratmağa nail oldu. 1976-cı ildə Xanoya getdi və Vyetnamla münasibətlərini qaydaya saldı. Yaponiya və ABŞ ilə müxtəlif qayəli əlaqələr daha da genişlənir və möhkəmlənirdi. ABŞ ilə yeni ticarət müqaviləsi imzalandı. Ölkədəki ABŞ hərbi bazalarının statusu haqqında 1976-cı ildən başlanan danışıqlar 1979-cu ildə sona çatdı. Bazalarla bağlı Filippinlər dövlətinin hüquqları bir qədər artırıldı. 1977-ci ilin 21 sentyabrında F.Markos bəyan etdi ki, Məsləhət Şurasına seçkilər 1978-ci il ərzində keçiriləcəkdir. Həqiqətən də seçkilər oldu və F.Markosun yaratmış olduğu «Yeni cəmiyyət uğrunda hərəkat» partiyası qələbə çaldı. Qeyd etmək lazımdır ki, müxalifət paytaxt istisna olunmaqla, qalan yerlərdə seçkiləri boykot etdi.

Dövrün ən mühüm hadisələrindən biri 1981-ci ilin 17 yanvarında sərt idarəçilik rejiminin ləğv edilməsidir.

Həmin ilin 16 iyununda F.Markos yeni müddətə prezident

seçildi. Müxalifət bu seçkiləri də boykot etdi. Buna baxmayaraq, ölkədə F.Markosun avtoritar rejimi daha da qüvvətlənirdi. Hətta hakimiyyətin varislik yolu ilə keçəcəyi haqqında söz-söhbətlər siyasi həyatın əsas mövzularından olmuşdu. 1975-ci ildən Manila və ətrafının valisi, eyni zamanda humanitar təşkilatlar üzrə nazir vəzifəsində çalışan prezidentin arvadı İmelda Markos bir çoxları tərəfindən ərinin varisi kimi qəbul və təqdim olunurdu. Prezidentin ətrafında birləşən qruplaşma ölkə həyatının bütün sahələrini öz nəzarətləri altına almış və istədikləri kimi davranırdılar. Müxalifətə, yad fikirliliyə qarşı amansız rəftar edilirdi. Narazı insanlar qəflətən yox olur, açıq-aşkar qətlə yetirilir, istənilən vaxt həbsə atılır, işgəncələrə məruz qalırdılar.

Yaranmış vəziyyətdən isə radikal qüvvələr faydalanırdı. Kommunistlərin Yeni Xalq Ordusu hissələri ölkənin müxtəlif bölgələrində açıq-aşkar hərbi əməliyyatlar keçirir və əməliyyatları ölkənin içərilərinə doğru genişləndirirdilər.

Özlərinin müstəqil dövlətini qurmaq istəyən müsəlman əhalisini təmsil edən Milli Qurtuluş Cəbhəsinin də partizan dəstələri fəallaşmışdılar. Həmin partizan dəstələrində on minlərlə müsəlman istiqlal uğrunda silahlı mübarizə aparırdı. Ümumiyyətlə isə, həmin dövrdə Filippinlərdə paradoksal bir vəziyyət yaranmışdı. Belə ki, sadalanan faktlar göstərir ki, ölkədə bir siyasi və iqtisadi inkişaf prosesi gedirdi. Lakin bununla yanaşı, F.Markosun şəxsi hakimiyyət rejimindən, qanunsuzluğun artmasından, prezidentin yaratmış olduğu «Yeni cəmiyyət uğrunda» partiyası üzvlərinin korrupsiyaya qurşanmasından narazılıq da müvafiq olaraq güclənirdi. Başqa sözlə desək, ölkədəki siyasi balans onun iqtisadi vəziyyəti və inkişafına uyğun idi. Onu da qeyd etmək lazımdır ki, müəyyən dövrdə bu balans yalnız güc tətbiq etməklə, o cümlədən hərbçilərin dəstəyi ilə qorunub saxlanırdı. Ancaq bu güc tətbiqi mövcud narazılığın artmasının qarşısını ala bilmədi və daxili siyasi ziddiyyətlər kəskin olaraq qalırdı. Bunun kulminasiya nöqtəsi isə 1983-cü ilin avqustunda müxalifətin lideri B.Akinonun Manila aeroportunda öldürülməsi oldu.

Bu ölüm hadisəsi bütün ölkəyə yayılmış xalq hərəkatına güclü bir təkan verdi, hökumətə qarşı kütləvi aksiyaların arası kəsilməz oldu. Filippinlər əhalisinin 83%-nin etiqad etdiyi katolik kilsəsi və yüksək rütbəli hərbçilərin bir hissəsi xalqın etiraz reaksiyasına tərəfdar çıxdı. 1984-cü ildə keçirilən seçkilərin nəticələri bir daha təsdiqlədi ki, müxalifət olduqca güclənmiş, rejim isə o dərəcədə zəif-

ləmişdir. Artan etirazlar nəticəsində prezident F.Markos 1985-ci ilin yanvarında növbədən kənar prezident seçkilərinin keçirilməsinə razılıq verdi. Müxalifət qüvvələri həlak olmuş B.Akinonun arvadı Korason Akinonu prezidentliyə müxalifətin vahid namizədi kimi müdafiə etdi. Seçkilərin gedişində iqtidarın qanun pozuntularına yol verdiyi və zor tətbiq etdiyini bir fakt kimi irəli sürən müxalifət səslərin yenidən sayılmasını tələb etdi. Vəziyyət belə bir hala gəldikdə müdafiə naziri və baş qərargah rəisi K.Akinonu dəstəklədilər. Doğrudur, F.Markos əvvəlcə istədi ki, müqavimət göstərsin, lakin ABŞ-ın da K.Akinonu prezident kimi tanıması qarşısında geri çəkildi. Xalqın artan etirazı və qəzəbindən xilas olmağın yolunu ölkədən çıxmaqda gördü və Havay adalarına getdi. F.Markos bir neçə ildən sonra elə Havay adalarında da vəfat etdi.

Beləliklə də F.Markosun xeyli davam etmiş prezidentlik dövrü başa çatdı, Filippinlər dövlətinin yeni prezidenti B.Akinonun qadını Korason Akino oldu. Yeni prezident öz fəaliyyətinə vəd etdiyi bir sıra mütərəqqi tədbirlərin həyata keçirilməsi ilə başladı. Aqrar islahatların aparılması, inflyasiyanın qarşısının alınması, valyuta ehtiyatlarının artırılması, ölkənin idarə edilməsində qanunçuluğun və parlament demokratiyasının bərpa edilməsi üzrə tədbirlər bu qəbildən olan məsələlər idi. 1987-ci ildə ölkənin yeni konstitusiyası qəbul edildi və ölkədə parlament idarəçiliyi sistemi yenidən bərpa olundu. Prezident K.Akinonun qətiyyətli fəaliyyəti nəticəsində iqtisadiyyatın yeni yüksəlişi, təsərrüfat həyatının bütün sahələrinin canlanması özünü göstərirdi. Lakin yeni hakimiyyət ölkədə siyasi istiqrarı qoruyub saxlaya bilmədi. Əksinə, 80-90-cı illərin hüdudlarında qüvvələr balansında daha ağır və mürəkkəb vəziyyət yarandı. K.Akino hökumətinin demokratikləşdirmə kursu həm sağdan-hərbçilər və F.Markosun tərəfdarları, həm də soldan,- xüsusilə maoçu kommunist partiyası tərəfindən ciddi müqavimətlə rastlaşdı. Narazı hərbçilər bir neçə dəfə dövlət çevrilişlərinə cəhdlər göstərdilər. Doğrudur, onların bu cəhdləri prezidentə sadiq qalan hərbi qüvvələr tərəfindən yatırıldı. Lakin hələ F.Markosun dövründən başlanmış və hökumət qüvvələri ilə döyüşlərdə bir sıra uğurlar qazanmış kommunistlərdən ibarət partizan dəstələri müəyyən dövrdə ara verdikləri hərbi əməliyyatlara yenidən, həm də daha fəal şəkildə başladılar. Yeni Xalq Ordusunun dəstələri hakimiyyəti silahlı mübarizə və terror aktları keçirmək yolu ilə devirməyə qalxdılar.

Siyasi istiqrarın pozulmasında üçüncü tərəf kimi çıxış edən qüvvə müsəlman əhalini birləşdirən Milli Qurtuluş Cəbhəsi idi. İrəlidə bir qədər haqqında bəhs etdiyimiz müsəlman azlığı problemi həmişə Filippinlər dövlətinin həyatında mövcud olmuşdur, elə indi də vardır. Bu problemin mahiyyəti də ondan ibarətdir ki, Mindanao adasının cənubunda yaşayan və tarixi ədəbiyyatda daha çox moro adlandırılan müsəlman əhali uzun müddətdir ki, Filippinlərdən ayrılaraq müstəqil bir dövlət qurmaq istəyir və bunun uğrunda mübarizə aparır.

K.Akino hakimiyyətinə qarşı ilk açıq çıxış 1989-cu ilin 1 dekabrında oldu. Prezidenti devirmək məqsədilə hərbçilər qiyam qaldırdı və onun yatırılması zamanı 600-ə yaxın adam həlak oldu.

Bu hadisədən rahatsız olan hakimiyyət dairələri paytaxt Manilaya əlavə hərbi dəstələr gətirdi, ölkədə yenidən sərt idarəçilik rejimi yaradıldı. Prezident K.Akino ölkədə siyasi istiqrarın bərpası üçün əlavə tədbirlər də gördü. O, 1990-cı ildə qarşıdakı on ili Filippinlərdə sülh on illiyi e'lan etdi. İlk addım olaraq ölkədəki bütün müxalif qüvvələrə silahlı toqquşmaları dayandırmaq üçün müraciət etdi. İctimai və dini təşkilatların nümayəndələri ilə görüşlərdə onları yardımçı olmağa çağırdı. Həmin ildə iqtisadiyyatı böhrandan çıxarmaq və əhalinin yoxsullaşmasının qarşısını almaq haqqında hökumət proqramı bəyan edildi. Həmin arada bu gün də regionun yaralı problemlərindən biri olaraq qalan Spartli adaları ətrafında baş verən hadisələrlə əlaqədar ÇXR-ə qarşı mübarizə aparmağın yeganə yolunu region ölkələri ASEAN-nı hərbi bir bloka çevirmək şüarları ilə çıxış etdikdə Filippinlər bu fikrin əleyhinə getdi. Halbuki, həmin problem Filippinlərin də marağına ciddi şəkildə toxunurdu.

K.Akino hökumətinin bütün səy və cəhdlərinə baxmayaraq ona qarşı mübarizə səngimək bilmirdi. Bu baxımdan hərbçilər xüsusi fəallıq göstərirdilər. Orduda gizli təşkilatlar yaradılır, terror aktları törədilir və müxtəlif ittihamlar irəli sürülürdü. 1990-cı ildə müsəlman azlıq- moro isə Mindanaoda «Müstəqil İslam Respublikası» yaradıldığını elan etdi. Lakin 1991-ci ilin ortalarında Pinatubo vulkanının yenidən dəhşətli dərəcədə püskürməsi və eləcə də güclü qasırğa baş verməsi nəticəsində ölkə böyük itkilərə məruz qaldığı zaman silahlı müxalifət qüvvələri mübarizəni müəyyən dövrə qədər, daha doğrusu, fəlakətin törətdiyi dağıntıların aradan qaldırılması dövründə dayandıracaqlarını bildirdilər.

Qeyd etmək lazımdır ki, təbii fəlakətin nəticələri çox ağır idi

və dövlət onu aradan qaldırmaqda aciz qalmışdı. Əlavə maliyyə xərclərinin yaranması dövlətin iqtisadi planlarının həyata keçirilməsi prosesini pozurdu. Bu hal Davao və Sebu əyalətlərində daha çox hiss edilirdi. Buradakı şəhərlərin həyat ahəngi tamam pozulmuş, sənaye müəssisələrinin 40%-i işini dayandırmaq məcburiyyətində qalmışdı. Şəhər nəqliyyatının 90%-i işləmirdi. Tətil hərəkatı artmış və hökumətdən benzin və digər neft məhsullarının qiymətlərinin aşağı salınması tələb edilirdi.

Doğrudur, 1991-ci ildə keçmiş prezident F.Markos və onun ailə üzvlərinə qarşı qaldırılmış cinayət işinin aparılması prosesində onların qeyri-qanuni yollarla əldə etdiyi varidatdan 587 milyon ABŞ dollarını ölkəyə qaytarmaq mümkün oldu. Lakin bu məbləğ duyulan ehtiyacın az bir hissəsini ödəyə bildi.

Böyük və ağır problemlərin həllində əsaslı bir uğur qazanmayan K.Akinonu 1992-ci ilin mayında keçirilən prezident seçkilərində Fidel Ramos əvəz etdi. (1987-ci il konstitusiyasına görə prezidentlik müddəti altı ildir).

K.Akino hökumətində hərbi nazir vəzifəsində çalışan F.Ramos məhz hərbçilərin dəstəyi ilə ölkədə siyasi istiqrarı əsasən bərpa etsə də və Filippinləri regionda inkişaf etmiş sənaye ölkələrinə çevirmək uğrunda fəaliyyətində müəyyən uğurlar qazansa da, bu günə kimi davam edən bir neçə mürəkkəb problemin həllini nəinki başa çatdıra bilməmiş, həm də belə bir vəziyyət ölkənin geo-siyasi kursunda müəyyən düzəlişlər etməyə zərurət yaratmışdır.

Bunlardan birisi yaranma tarixi baxımından respublika ilə həmyaşıd olan müsəlman azlığın-moronun müstəqil olmaq uğrunda silahlı mübarizəsidir. Ümumiyyətlə bu problem bir neçə əsrdir ki, müsəlman-xristian qarşı durması kimi mövcuddur. Lakin Filippinlər öz istiqlalına qovuşandan sonra Mindanao adasında yaşayan müsəlman əhali burada islam dövləti qurmaq ideyasını irəli sürmüş və onun gerçəkləşdirilməsi uğrunda uzun illərdir ki davam edən mübarizədən bu gün də geri durmur. Bu işə hazırda Milli Qurtuluş Cəbhəsi başçılıq və rəhbərlik edir. Müsəlman əhali Mindanao adasını ünün əzəli və əbədi vətəni hesab edir. İrəlidə dediyimiz kimi, adada «Müstəqil İslam Dövləti»nin yaradıldığı da elan edilmişdir. Lakin bu dövlət, təbiidir ki, heç kim tərəfindən tanınmır və rəsmi hakimiyyət də Mindanaonu Filippinlər dövlətinin ayrılmaz tərkib hissəsi sayır. Lakin bununla yanaşı hakimiyyət mövcud faktın varlığı ilə də hesablaşmaq

zorunda qalmışdır və məsələnin həlli yolunda müsəlman liderləri-Milli Qurtuluş Cəbhəsi ilə danışıqlar aparmaqdadır. Hətta 1996-cı ilin avqustunda hökumətlə MQC arasında atəşkəs haqqında razılıq əldə edilmiş və Cakartada prezident Suxartonun da iştirak etdiyi toplantıda bu barədə rəsmi bəyanat verilmişdi. Prezident F.Ramos və MQC-nin lideri Nur Misuari müvafiq müqavilə də imzaladılar.

Lakin bir müddət keçdikdən sonra müqavilənin konkret nəticələrini görməyən MQC onun qüvvədən düşdüyünü elan etdi və 1997-ci ildə hərbi əməliyyatlar yenidən başlandı. Doğrudur, prezident F.Ramos danışıqlara başlamağa hazır olduğunu bildirir və bunun üçün ilk şərt olaraq atəşin kəsilməsini irəli sürürdü. Lakin MQC liderləri rəsmi hakimiyyətlə danışıqlar yolu ilə istiqlaliyyətə sahib olacaqlarına inanmadıqlarından hərbi əməliyyatların davam etdirilməsində qərarlı olduqlarını söyləyirdilər.

Filippinlər dövləti üçün ikinci böyük problem 90-cı illərdə bütün region ölkələrini hərəkətə gətirən «Spartli adaları böhranı»dır. Cənubi Çin dənizi sahillərində yerləşən Spartli adaları sahəsi 100 kv.m-dən çox olan yeddi böyük və yüz kiçik adadan ibarətdir. Xeyli vaxtdır ki, bu adalar Çin, Vyetnam, Tayvan, Malayziya və Filippinlər arasında ziddiyyətlər mənbəyinə çevrilmişdir. Bu adalar quru parçası kimi heç bir əhəmiyyət kəsb etməsə də geo-strateji baxımdan çox önəmlidir: 1) dünya dəniz daşımalarının 25%-i; 2) Yaponiya, Cənubi Koreya və Tayvana neft daşıyan super tankerlərin 90%-i buradan keçir. Bununla yanaşı, adalarda 1 mld 250 min ton neft olduğu da iddia edilir. Məhz buna görədir ki, region ölkələrinin hər birinin bu adalarda marağı vardır və onun realizasiya istiqamətində addım atmağa fürsət axtarırlar. İlk dəfə olaraq 1988-ci ildə ÇXR meteoroloji stansiyalar qurmaq adı altında yeddi adaya yiyələndi. Elə həmin vaxtdan maraqlı dövlətlər arasında gərginlik yarandı. Vyetnamın kəskin etirazı silahlı toqquşmaya gətirdi. İkinci belə hadisə 1991-ci ildə təkrar olundu. ÇXR-in 1992-ci ildə Spartli adalarını öz torpaqları elan etməsi böhranın apogeyi oldu.

ÇXR-in ardınca Tayvan və Vyetnam da hər biri ayrılıqda elan etdi ki, adalar bütünlüklə onlara aiddir. Malayziya və Filippinlər isə sadəcə olaraq ölkə sahillərinə yaxın olan adaların onlara məxsusluğunu bildirdilər. Hazırda Spartli adalarından 13-ü ÇXR öz bayrağını sancmışdır. Malayziya iki, Filippinlər isə səkkiz adaya əsgər yerləşdirmişlər.

«Spartli böhranı» nəticəsində Vyetnamın ASEAN-a üzv olması sürətləndi. ASEAN-nın, irəlidə də dediyimiz kimi, bir hərbi- siyasi bloka çevrilməsinə cəhdlər edildi. Buna nail olmadıqda region ölkələri ABŞ-ın 7-ci donanmasının Cənubi Çin dənizindən çəkilməsinin əleyhinə oldular. Bununla yanaşı region ölkələrindən Malayziya və Filippinlər silahlanma kursuna üz tutdular. Təbiidir ki, Filippinlərin həm bu səbəbdən, həm də müsəlman əhalinin istiqlal savaşına qarşı durmaq baxımından silahlanmaya önəm verməsi onun strateji kursunda bir yenilikdir. Təkcə prezident F. Ramosun vaxtında bu məqsəd üçün 2,5 mld dollar ayrılmışdır.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, Spartli adaları ilə bağlı ÇXR və Filippinlər arasındakı gərginlik 1997-ci ildə kiçik miqyaslı silahlı toqquşmalara gətirdi.

1998-ci ildə keçirilən seçkilərin qalibi, Filippinlərin yeni-13-cü prezidenti Cozef Estrada öz vəzifəsinə ölkənin belə bir durumunda başladı.

C.Estrada Filippinlərin tanınmış siyasətçilərindəndir. Hələ 90-cı illərin əvvələrində senator ikən ölkədə ABŞ hərbi bazalarının ləğvinə çağırırdı,-yeri gəlmişkən, 1992-ci ildə bu bazalar ləğv edildi,- F.Ramosun prezidentliyi dövründə tətbiq olunan liberallaşdırma siyasətinin qəti tərəfdarı kimi çıxış edirdi.

C.Estrada hakimiyyətə gəldikdən sonra da bu kursu ardıcıl surətdə həyata keçirirdi. Daxili probelmlərin dinc vasitələrlə həllinə üstünlük verir, müxalifət qüvvələri ilə, o cümlədən Moro Milli Qurtuluş Cəbhəsi ilə danışıqlar aparırdı. O, «sülh və razılaşma»nı öz fəaliyyət doktrinası elan etmişdi.

Ölkədə «yeni sənayeləşdirmə» əsasında «sağlam iqtisadi vəziyyət» yaradılması üçün lazım olan tədbirləri nəzərdə tutan «Filippinlər-2000» planı qəbul olundu. Bu plana görə telekommunikasiya məhsulları istehsalını sürətləndirmək, atom enerjisi və alternativ enerji mənbələri hasilatını, dağ-mədən sənayesini inkişaf etdirmək və yeni azad iqtisadi zonalar yaratmaq bu gün hakimiyyətin qarşısında duran başlıca vəzifələrdir.

Prezident C.Estrada Filippinlərin bir sıra problemlərinin həllində xarici amillərin də roluna xüsusi diqqət verirdi. Bu baxımdan ASEAN-nın fəaliyyətində Filippinlərin rolunun artmasına çalışılması qeyd olunmalıdır.

Bütün bunlarla yanaşı ölkədə dərin kök salmış bir sıra mənfi

hallar, xüsusilə korrupsiya və rüşvətxorluğun qarşısını almaq mümkün olmadı. Hətta C.Estradanın özü korrupsiyaya qoşulmaqda ittiham edildi. Bu səbəbdən 2001-ci ilin əvvəllərində xalq etiraza qalxdı və güclü nümayişlər baş verdi. C.Estradanın istefası tələb olundu O, heç müqavimət göstərmədən vəzifədən getməyi qərara aldı. 20 yanvar 2001-ci ildən etibarən prezident vəzifəsinin icrası vitse-prezident xanım Q.Arroyaya keçdi.

Ümumiyyətlə deyilənləri belə yekunlaşdırmaq olar ki, iqtisadi inkişaf yolundakı və siyasi həyatdakı bütün çətinliklərə baxmayaraq Filippinlər nəinki böhranlı vəziyyətlərdən çıxmağı bacara bilmişdir, həm də o, hazırda regionun inkişaf etmiş ölkələri səviyyəsinə qalxmaq uğrunda mübarizədə nəzərə çarpacaq uğurlar qazanmaqdadır.

## BRUNEY

Bruney sultanlığı müstəqil bir dövlət olaraq 1984-cü ilin yanvarından mövcuddur. Klimantan adasının şimal hissəsində yerləşən və 310 min nəfər civarında (1997-ci il məlumatına görə) əhalisi olan bu sultanlığın istiqlaliyyət qazanması dövrünə qədər maraqlı bir tarixi olmuşdur. Bu da hər şeydən əvvəl sultanlığın yerləşdiyi ərazinin geo-siyasi mövqeyi və neftlə zəngin olmasından irəli gəlmişdir.

Lap keçmiş zamanlardan Hind-Çin dünyası ilə güclü əlaqələri olan bu ərazi regionda önəmli bir ticarət limanı rolunu oynayırdı. Ölkə 1841-ci ildə ingilislər tərəfindən tutuldu və onların idarəsi altına keçdi. Bruneyə 1906-ci ildən ingilis proektoratlığı statusu verildi. Heç şübhəsiz bu xüsusiləşmə, başqa sözlə, Bruneyin həmin dövrdə regiondakı ölkələrdən fərqli statusa sahib olması 1903-ci ildə ölkədə neft yataqlarının kəşf olunması ilə bağlı idi. Çünki, bu xüsusiləşmə hadisəsi imkan verirdi ki, gələcəkdə hər hansı bir zərurət yaranarsa sultanlığın ərazisinin taleyi bütün Klimantan adasının taleyindən ayrılıqda və fərqli şəkildə həll olunsun.

1929-cu ildən etibarən neft çıxarılmasına başlanılması və ildən-ilə hasilatın artması sultanlıqda bir iqtisadi və siyasi fəallıq yaratdı. Nəticədə 1959-cu ildə ölkə daxili bir muxtariyyət qazandı.

Ölkədəki siyasi qüvvələr bununla kifayətlənmir və ingilislərə qarşı mübarizəni davam etdirirdilər. Təbiidir ki, həmin dövrdə regionda baş verən hadisələr bu məsələdə az təsirsiz deyildi. O biri tərəfdən İndoneziyanın da Bruneyi öz torpaqlarına qatmaq istəyi də yox deyildi. Bu baxımdan şeyx Azaharinin başçılıq etdiyi Xalq Partiyasının gördüyü tədbirlərin İndoneziya tərəfindən dəstəklənməsi təsadüfi sayılmamalıdır. Milli hərəkat get-gedə güclənirdi. 1962-ci ilin dekabrında Xalq Partiyasının başçılığı altında ingilislərə qarşı üsyan başladı. İndoneziyanın da kömək göstərdiyi bu hərəkat az vaxt ərzində yatırılsa da, ancaq ölkənin gələcəyi baxımından onun mühüm rolu oldu. Belə ki, 1963-cü ildə Malayziya Federasiyası yaradılarkən sultan Ömər Əli Seyfəddin ölkənin neft maraqlarını və gəlirlərini qorumaq səbəbindən federasiyaya daxil olmaq təklifindən imtina etdi. Bununla əlaqədar onu da unutmaq lazım deyildir ki, Bruney əhalisinin 40%-dən çoxu malaydır.

Ölkənin hazırki sultanı Hassan əl-Bolkiah 1968-ci ildə atası Ömər Əli Seyfəddinin hakimiyyətdən onun xeyrinə əl çəkməsindən

sonra taxt-taca yiyələnmişdir. Onu da qeyd etmək lazımdır ki, Ömər Əli Seyfəddin ölkənin idarə edilməsində uzun müddət əsas söz sahibi olaraq qalmışdır.

1979-cu ilin əvvəllərində Böyük Britaniya ilə imzalanmış razılaşmaya əsasən Bruney 1984-cü ilin 1 yanvarından öz istiqlalına qovuşduqdan sonra sultan Hassan əl-Bolkiah həm də baş nazir vəzifəsinə yiyələndi. Hazırda isə maliyə və hərbi nazirliklərə də sultan özü rəhbərlik edir.

Onu da qeyd etmək lazımdır ki, Bruney öz dövlət quruluşuna görə mütləq monarxiya yox, konstitusiyalı monarxiyadır. Sultan özü Nazirlər Kabinetini təşkil edir və kabinet də onun qarşısında məsuliyyət daşıyır.

Bruneydə hazırda heç bir seçki keçirilmir. Qanunvericilik hakimiyyəti sayılan bir palatlı Məclisə son seçkilər 1962-ci ilin martında keçirilmişdir. Məclis 1970-ci ildən konstitusiya islahatına uyğun olaraq seçkilər yolu ilə yox, sultanın təyin etdiyi şəxslər hesabına formalaşdırılır.

Qeyd edək ki, Bruneyin ilk konstitusiyası 29 sentyabr 1959-cu ildə qəbul olunmuşdur. Sonrakı dövrdə ona bir sıra dəyişikliklər edilmişdir və bu proses 1984-cü ildə Bruneyin istiqlaliyyət qazanması ilə başa çatmışdır.

Konstitusiyaya görə ölkədə yaşayan bütün xalqlar onlara verilən vətəndaşlıq hüququndan bərabər qaydada faydalana bilirlər. Ancaq islam dininə etiqad edən vətəndaşlar, - islam sultanlıqda dövlət dini sayılır,- bir sıra imtiyazalara malikdirlər. Məsələn, onlar dinlə bağlı ödəmələrdən başqa bütün vergilərdən azaddırlar.

Ölkənin əsas əhalisi malaylardan başqa Bruneydə dayak qəbilələri və etnik çinlilər yaşayır. Onlar əhalinin müvafiq olaraq 30% və 21%-ni təşkil edir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, etnik çinlilərin yalnız yarısı Bruney vətəndaşı kimi tanınır. Çinlilərlə əlaqədar olan bu məhdudiyyət ilk konstitusiya qəbul olunduğu vaxtdan tətbiq edilir. Ümumiyyətlə, etnik çinlilər ölkənin biznes və ticarət həyatında mühüm rol oynayırlar. Yerli burjuaziya və ixtisaslı fəhlələr sırasında onların sayı böyükdür.

İqtisadi həyat bütünlüklə ölkənin əsas sərvəti olan neft hasilatı və satışı üzərində qurulmuşdur. Neft ixracından əldə olunan vəsait dövlət büdcəsinin gəlir hissəsinin 87%-ni təşkil edir.

Bruney pozitiv ticarət balansına malikdir. İxracatı 3 mld

dollar, idxalatı 2 mld dollar məbləğindədir. Ölkənin xarici borcu yoxdur. Milli gəlirin illik artımı 2%-dir, adambaşına düşən gəlir 15800 dollara bərabərdir. İnflyasiya 1998-ci ildə 2,5% olmuşdur. İşsizlik isə 4,8%-ə bərabərdir.

Ölkənin sultanı Hassan əl-Bolkiah dünyanın ən zəngin adamlarındadır. 1996-cı ildə zənginliyinə görə dünyada birinci yerdə dururdu. Hazırda isə üçüncü yeri tutur.

Bruney xarici siyasət sahəsində elə bir xüsusi fəallığa sahib deyildir. İstiqlal qazandığı zamandan ASEAN-ın və bir sıra beynəlxalq təşkilatların daxilində zəngin bir dövlət kimi lazımı qərarların qəbulunda müəyyən rola malikdir.

Bununla yanaşı Bruney ilə qonşu ölkələr arasında müəyyən problemlər də var.

Həmin problemlərdən ən mühüm olanı Malayziyanın Saravak vilayətinə uzanan sahil zonası ilə Bruney ərazisinin iki yerə bölünməsi məsələsidir. Uzun müddətdir ki, o, həll oluna bilmir və hazırda Bruney dövləti həmin ərazini Malayziyadan satın almaq niyyətindədir.

Başqa bir problem də balıq ovu ilə əlaqədar lazımı zonaların məhdudluğudur.

Bütün bunlara baxmayaraq, Bruney mötədil xarici siyasət kursuna sadiqdir və təbii zənginliyi hesabına öz suveren hüquqlarını qoruyub saxlayır.

# HİNDİSTAN

## *İstiqlaliyyətin qazanılması və onu məhkəmlətmək tədbirləri*

II dünya müharibəsindən sonrakı dövrdə Hindistanın tarixində ən böyük hadisə ölkənin istiqlaliyyət qazanması ilə eyni gündə onun iki yerə bölünməsidir: mövcud hüdudlar daxilində Hindistan və Pakistan dövlətləri yarandı.

Qeyd etmək lazımdır ki, bu parçalanma prosesi daxili və xarici amillərlə bağlı bir sıra səbəblər üzündən yaranmışdı və Hindistan cəmiyyəti xeyli vaxt idi ki, həmin prosesin məntiqi bir nəticəsini gözləyirdi. Buna görə də parçalanma baş verdikdə xeyli qanlı-qadalı hadisələrin törəmisinə səbəb olsa da, ona qarşı qəti müqavimət göstərilmədi.

Hadisələrin bu istiqamətdə necə cərəyan etməsini bir-iki cümlə ilə yada salmaq istərdik. Birincisi, hələ II dünya müharibəsinə qədər olan dövrdə ölkənin istiqlaliyyəti uğrunda mübarizə aparan qüvvələr iki yerə bölünmüşdü və bu bölünmənin də əsasında konfessional mənsubiyyət dayanırdı. Hinduslar Milli Konqress partiyasında birləşmişdilər və onların lideri Mahatma Qandi idi. Müsəlmanlar isə Müsəlman Liqasında birləşmişdilər və onların da lideri Məhəmməd Əli Cinnə idi. Xalqın artan mübarizəsi nəticəsində Böyük Britaniya hökumətinin Hindistanın idarəçiliyində yerli xalqın təmsilçiliyi sahəsində etdiyi güzəştlər lap əvvəldən konfessiyaların maraqlarına əsaslanırdı. Bu siyasətin arxasında Böyük Britaniyanın hansı məqsədi güdməsindən asılı olmayaraq həmin dövrdən ölkənin idarəçiliyi konfessiyalar arasında bölüşdürülməyə başlanılmışdı.

İkincisi, bütün Asiyada olduğu kimi, II dünya müharibəsinin gedişi dövründə Hindistan xalqının da istiqlal istəyi və əzmi qətiləşdi. Bəzi siyasi qüvvələr bu istəyi gerçəkləşdirmək üçün Yaponiya ilə əməkdaşlığa belə üstünlük verir, onun regiondakı siyasətini dəstəkləyirdilər. Hətta Hindistan Milli Ordusu adı altında müəyyən hərbi birləşmələr yaponlarla bərabər döyüşlərdə iştirak etmişdi. Vəziyyətin ciddiliyini görən Böyük Britaniya 1942-ci ildə Hindistan üzərindəki nəzarəti bir qədər də azaldaraq ölkədə yerli xalqın nümayəndələrindən ibarət hökumətin yaradılmasının təməlini qoydu. Yalnız müdafiə və xarici siyasət məsələlərini öz əlində saxladı.

Böyük Britaniya həm də elan etdi ki, müharibə qurtardıqdan sonra Hindistana istiqlaliyyət veriləcəkdir.

Lakin bir müddətdən sonra müharibə başa çatsa da istiqlaliyyətin verilməsi vədinin gerçəkləşməsi ləngiyirdi. Məhz bu da bir güclü xarici amil kimi Hindistan xalqının istiqlaliyyət uğrunda mübarizəsinə güclü təkan vermişdi. O biri yandan, ölkənin daxilində mövcud olan ağır sosial-iqtisadi və siyasi vəziyyət də ingilis müstəmləkə rejiminə qarşı aramsız çıxışları qaçılmaz edirdi.

Belə ki, dünya müharibəsi illərində Hindistanda milli özünü dərk prosesinin artması və daha da möhkəmlənməsi zəmnində milliyyətçi qüvvələr yenə də ölkənin ingilis müstəmləkə hakimiyyəti altında qalması ilə razılaşmır, bu hakimiyyəti ölkənin milli inkişafına mane olan başlıca səbəb kimi dəyərləndirir və yaranmış ağır iqtisadi vəziyyətə görə müstəmləkə hakimiyyətini günahlandırdılar. 1945-ci ildə Bombey və Mədrəs əyalətlərində, Heydərabad və Maysur knyazlıqlarında, Mərkəzi Hindistan və Benqalda taxıl qıtlığının yaranması, əhalinin aclıqla üzbəüz qalması, müharibənin qurtarması ilə bir sıra hərbi məhsullar istehsal edən müəssisələrin bağlanması və hərbi əməliyyatlarda iştirak etmiş 2 milyondan çox əsgərin hərbi xidmətdən tərxis edilməsi nəticəsində işsizlərin daha da artması, ərzaq və sənaye məhsullarının azalması zəminində qiymətlərin qalxması və s. hallar ölkədə böhranlı vəziyyət yaratdı. Məşhur bir ifadədə deyildiyi kimi, bu vəziyyətdə ingilislər ölkəni köhnə qayda-qanunlarla idarə edə bilmir, hindlilər də həmin qayda-qanunlarla yaşaya bilmirdilər. Ölkənin ayrı-ayrı əyalətləri və iri şəhərlərində ingilis müstəmləkə hakimiyyətinə qarşı çıxışlar baş verirdi. Yay aylarında Benares, Kəlküttə, Bombey və s. kimi şəhərlərdə ingilis müstəmləkə hakimiyyətinə qarşı açıq narazılıqlar oldu. Oktyabr-noyabrda isə ölkədə mütəşəkkil və geniş xarakter almış bir anti ingilis hərəkat mövcud idi. Həmin arada Böyük Britaniyanın Hind-Çində və İndoneziyada öz mövqelərini bərpa etmək üçün hindli əskərləri həmin regiona göndərmək cəhdləri hadisələrin sürətlənməsinə güclü təkan oldu. Böyük Britaniya hökumətinin bu planı bütün ölkədə dini, sosial və partiya mənsubiyyətindən asılı olmayaraq bütün siyasi qüvvələr tərəfindən narazılıqla qarşılandı. Narazılıq bütün ölkəni bürüdü. Bombey və Kəlküttə dokerləri Hind-Çin ölkələrinə və İndoneziyaya gedən gəmilərə silah və digər yükləri doldurmaqdan imtina etdilər. Hindistanın müxtəlif yerlərində baş verən etiraz nümayişləri və

mitinqlərin sayı-hesabı yox idi. Qeyd etmək lazımdır ki, xalqın bu antimüstəmləkə kampaniyasının başında Hindistan Milli Konqresi və Müsəlman Liqası dururdu. Onların çağrışı ilə 25 oktyabr Cənub-Şərqi Asiya günü elan edildi və bütün ölkə miqyasında etiraz aksiyaları keçirildi.

Antimüstəmləkə hərəkatının güclənməsində xüsusi rol oynayan hadisələrdən birisi də II dünya müharibəsi illərində yaponların tərəfində hərbi əməliyyatlarda iştirak etmiş zabitlərə qarşı məhkəmə işinin aparılması oldu. Hindistan Milli Ordusu adlandırılan bu hərbi birləşmələr xalqın müəyyən hissəsi tərəfindən Böyük Britaniyaya qarşı çıxan patriotik təşkilat kimi dəyərləndirilirdi və indi də ingilis müstəmləkə rejiminin həmin ordu zabitlərini ağır cəzalara məhkum etməsi güclü etiraz kampaniyası ilə qarşılandı. 1945-ci ilin noyabr-1946-ci ilin fevralında aramsız olaraq müxtəlif yerlərdə etiraz çıxışları, tə'tillər, nümayişlər, mitinqlər keçirilirdi. Kəlküttə, Bombey və digər iri şəhərlərdə nümayişçilərlə ordu və polis qüvvələri arasında toqquşmalar baş verdi, çox sayda insan həlak oldu və yaralandı. Etiraz kampaniyasının əhatə dairəsi daha da genişləndi. 1946-cı ilin yanvar-fevral aylarında ingilis-hind hərbi silahlı qüvvələri və donanmasının qulluqçuları da antimüstəmləkə hərəkatına qoşuldular. Bombeydə 30 min nəfər hərbi dənizçinin tətili ölkədə çox böyük əks-səda doğurdu. Dənizçilərin nümayişində «Hindistana qələbə», «Yaşasın inqilab», «Britaniya imperializmi rədd olsun», «Hinduslar və müsəlmanlar qardaşdırlar» şüarları qaldırıldı, Böyük Britaniya və ABŞ bayraqlarının çıxarıb, yerinə Milli Konqresin üç rənkli, Müsəlman liqasının yaşıl və hətta kommunistlərin qırmızı rəngli bayraqlarını sancdılar. 19 fevralda Bombeydə dayanmış «Talvar» hərb gəmisinin başladığı tətilə limanda və 12 sahil bazasındakı dayanan bütün gəmilərin matrosları qoşuldular. Tətil üsyana çevrildi. Komandanlığın köməyə çağırdığı hərbi hissələrdəki hindli əskərlər üsyançılara atəş açmaqdan imtina etdilər. Üsyançılar hərbi kazarmaları ələ keçirməyə başladılar.Vəziyyətin isə kifayət qədər gərginləşdiyini görən komandanlıq ingilis hərbçilərini hadisəyə qatmaq zorunda qaldı. İngilis hərbçiləri dənizçiləri gülləbarana tutdu və donanma komandanı admiral Qodfri üsyançılara təslim olmaq təklif etdi. Üsyançılar isə öz növbəsində komandanlığa qarşı bir sıra tələblər irəli sürdülər: 1) hindli hərbi qulluqçulara yönəli ayrı-seçkiliyin qadağan edilməsi və onların ingilislərlə eyni hüquqlu

olması; 2) ingilis zabitlərin hindlilərlə əvəz olunması; 3) verilən qidanın yaxşılaşdırılması (tətil məhz bu səbəbdən başlanmışdı-müəl.); 4) əsgər ailələrinə verilən təqaüd və yardımların artırılması; 5) tərxis olunan hərbçilərin işlə təmin edilməsi; 6) siyasi məhbusların, o cümlədən Hindistan Milli Ordusunun zabitlərinin azad edilməsi; 7) hind hərbi qüvvələrinin İndoneziyadan çıxarılması.

Bu tələblərin e'lan olunmasından az sonra üsyançılara qoşulanlarının sayı çox sürətlə artdı: limandakı e'malatxanaların işçiləri, dokerlər, radistlər və digər xidmət işçiləri tətilə başladılar. İki gün sonra isə Hindistanın Kəlküttə, Karaçi, Vizaqapatam, Mədrəs və s. kimi iri şəhərlərinin limanlarında üsyançılarla həmrəylik tətilləri və nümayişləri keçirildi. Bombeydə hərbi təyyarəçilər üsyançıları dəstəklədilər, şəhər əhalisi ümumi tətilə başladı. Vəziyyət son dərəcə mürəkkəbləşməyə doğru gedirdi. Qorxuya düşən hakimiyyət qüvvələri polisin köməyi ilə üsyançıları silahlı toqquşmaya təhrik edə bildi və bunu bəhanə gətirərək onlara qarşı hərbi hissələr göndərildi. Bombeydə, Kəlküttədə, Karaçidə, Mədrəsdə və s. yerlərdə polis və hərbi hissələrlə üsyançılar arasında qanlı döyüşlər oldu. Üsyançılar xeyli tələfat verdilər. Hadisələrin bu məcrada inkişafı Hindistan Milli Konqres Partiyası və Müsəlman Liqası liderlərini ciddi narahat etdi. Onlar üsyanın daha böyük tələfatlara səbəb olacağından çəkinərək onun dayandırılmasını istədilər. Beş gün davam etmiş üsyan bu çağırışdan sonra fevralın 23-də dayandırıldı.Milli Konqress və Müsəlman Liqası liderlərinə hakimiyyət orqanlarının üsyançılara toxunmayacağı haqqında verdikləri sözə baxmayaraq xeyli adam həbsə alındı və yüzlərlə dənizçi konslagerlərə göndərildi.

Üsyan yatırıldısa da onun çox böyük əhəmiyyəti oldu. O, ölkədə Böyük Britaniya hakimiyyətinə qarşı etirazın nə qədər güclü olduğunu göstərdi, bu etirazın bildirilməsində xalqın din, milli, sosial və siyasi mənsubiyyətindən asılı olmayaraq yekdilliyini göstərdi və bu zəmində müstəmləkə hakimiyyətinin öz dayaqlarını itirdiyini və xeyli zəiflədiyini göstərdi.

Təsadüfi deyildir ki, bu üsyanın ardınca ölkənin bir sıra şəhərləri və əyalətlərində xalqın müxtəlif sosial təbəqələri öz haqlarına sahib olmaq uğrunda mübarizəyə qalxmışdılar. Bu mübarizə 1945-1947-ci illərdə aramsız olaraq davam etdi. Biz irəlidə Bombey və Kəlküttə şəhərlərində dənizçilərin üsyanı ilə həmrəylik çıxışları haqqında danışmışdıq. Ölkənin digər şəhərlərində də güclü narazı-

lıqlar özünü bu və digər formada göstərirdi. Benqal, Pencəb, Bombey, Maxaraşatra və digər əyalətlərdə kəndlilər icarə haqlarının çoxluğuna qarşı çıxırdılar. Həm də bu çıxışlar getdikcə daha mütəşəkkil forma alır və kəndli ittifaqlarının yaranmasına təkan verirdi. Ümumiyyətlə, tarixçilərin müşahidəsinə görə 1945-1947-ci illərdə Hindistan kəndlilərinin siyasi şüuru da xeyli artmış və kəndli hərəkatı milli-azadlıq hərəkatının tərkib hissələrindən birinə çevrilməyə başlamışdır.

Həmin dövrdə ayrı-ayrı knyazlıqlarda da ciddi gərginliklər özünü göstərirdi. Bu baxımdan Kəşmir, Heydərabad, Travankur knyazlıqlarını xüsusi qeyd etmək lazımdır. Burada gedən proseslər də onunla xarakter idi ki, xalqın bütün təbəqələri yalnız iqtisadi tələblərlə deyil, həm də siyasi tələblərlə çıxış edir, hərəkatın başında isə siyasi təşkilatlar dayanırdı. Kəşmirdəki hərəkatın başında duran Milli Konfrans təşkilatı hətta bu knyazlıqda yaşayan xalqların öz müqəddaratını təyin etmə hüququnu tanımağı, knyazlığın demokratik respublikaya çevrilməsi və mülkədar torpaq sahibliyinin ləğvi tələblərini irəli sürürdü. Ümumiyyətlə, əyalətlərdə baş verən hadisələr göstərdi ki, knyazlıqlar da ölkədə Böyük Britaniya müstəmləkə sisteminin dayaqları olaraq qalmaq niyyətində deyildirlər.

1945-1947-ci illərdə Hindistanda ingilis müstəmləkə sisteminə qarşı baş verən hərəkata bir qədər geniş nəzər salsaq, bu hərəkatda, irəlidə də dediyimiz kimi, ölkə əhalisinin dinindən, milliyətindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün təbəqələri, o cümlədən hərbçilər və hətta dövlət aparatında çalışan yerli məmurlar belə iştirak etmişdir. Müəyyən iqtisadi və sosial tələblər irəli sürməklə başlayan hər bir tətil, mitinq, nümayiş və üsyanlar sonda siyasi tələblərlə çıxış edir, bir şəhər və knyazlıq miqyasından genişlənərək ümumölkə xarakteri alır, xalqın istiqlal arzularını ehtiva edən bir milli mübarizəyə çevrilirdi. Hindistan xalqlarının artmaqda olan bu istiqlal mübarizəsi Böyük Britaniya müstəmləkəçilərini daha çox inandırdı ki, artıq ölkəni köhnə qaydalarla idarə etmək mümkün deyildir. Odur ki, onlar Hindistanda qalma müddətini bir az da uzatmaq məqsədi ilə, istiqlal hərəkatına qarşı amansız mübarizə ilə yanaşı bəzi tədbirlər körmək zorunda qaldılar. Bunlardan birisi, 1945-ci ilin noyabr-1946-cı ilin aprel aylarında mərkəzi və əyalət qanunvericilik məclislərinə keçirilən seçkilər idi. Müsəlman və digər azlıqların maraqlarını qorumaq adı ilə Böyük Britaniya müstəmləkə hakimiy-

yəti seçkilərin konfessional dairələr(kuriyalar) üzrə keçirilməsi sistemini tətbiq etdi. Təbiidir ki, bu da Hindistan Milli Konqres və Müsəlman Liqası arasındakı narazılıqları artırdı. Seçkilərdə hər partiya öz platforması ilə müstəqil iştirak etdi. Hindistan Milli Konqresinin əsas şüarları ölkənin istiqlaliyyəti, bütün vətəndaşların hüquq bərabərliyi, hindus, müsəlman və digər dinlərə etiqad edənlərin birliyi, aqrar islahatın keçirilməsi, sənayenin əsas sahələrinin milliləşdirilməsi, milli məsələnin dil təməlində inzibati vahidlərin yaradılması yolu ilə həll edilməsi idisə də, Müsəlman Liqasının isə əsas şüarı dini icma əlamətinə görə Hindistanın iki dövlətə bölünməsi və müsəlman Pakistan dövlətinin yaradılması idi. Seçkilərdə Milli Konqres və Müsəlman Liqasının hər biri özlərinə məxsus konfessional dairələrdə yerlərin çoxunu qazandılar. Ancaq əyalət məclislərinə seçkilərdə isə Milli Konqres Müsəlman Liqasına nisbətən iki dəfə çox yerə sahib oldu. Bu da əsasən ondan irəli gəlirdi ki, bəzi vilayətlərdə müsəlman əhali Milli Konqresi müdafiə edir və ölkənin iki yerə parçalanmasını istəmirdilər. Seçkilərdən sonra Milli Konqresin tam qalib gəldiyi Bombey, Mədrəs, Birləşmiş Əyalətlər, Mərkəzi Əyalətlər, Bihar, Orissa və Assam kimi iri mərkəzlərdə konqresçilərdən ibarət yerli hökumətlər yaradıldı.

Ümumiyyətlə isə, seçkilər bir daha göstərdi ki, hind xalqı öz taleyinin həllinə xüsusi fəallıqla yanaşır və hindlilərin çox böyük əksəriyyəti ölkənin Böyük Britaniya ağalığından xilas olmasını istəyir. 1946-cı ilin 15 martında Böyük Britaniyanın baş naziri Ettlinin Hindistana dominion hüququnun verilməsinə öz hökumətinin hazır olması haqqında bəyanatı da məhz bu baxımdan irəli gəlmişdi. Hindistana xüsusi bir komissiya da göndərildi ki, ölkəyə dominion hüququ verilməsi üçün konstitusiya islahatları layihəsini hazırlasın. Eyni zamanda vitse-kral Ueyvell təklif etdi ki, Hindistanın müvəqqəti hökuməti təşkil olunsun və oradakı yerlərin 40%-i hinduslara, 40%-i müsəlmanlara və 20%-i isə qalan dini qurumlara verilsin. Lakin bu təklif Milli Konqres tərəfindən qəbul edilmədi. O, hökumətin təşkil olunma prinsiplərinə etiraz edirdi. Belə olduqda müstəmləkə hakimiyyət orqanları bir qədər geri çəkildi, güzəşt olaraq nazir vəzifələrinə namizədlərin Milli Konqres sədri tərəfindən irəli sürülməsi və vitse-kralın həmin namizədlərlə mütləq razı olması prinsipi qəbul edildi. Buna isə Müsəlman Liqası etiraz etdi və 1946-cı ilin avqustunda Cəvahərləl Nehrunun təşkil etdiyi hökumətə girmədi. Müsəlman

Liqası həmin vaxtdan Pakistan dövləti yaradılması uğrunda «bilavasitə mübarizəyə» başladığını bildirdi. Beləliklə də hindus-müsəlman münasibətləri kəskin şəkil aldı. Avqustun 16-da Kəlküttədə hindus-müsəlman toqquşmaları qanlı qırğına çevrildi. Dini zəmində baş verən çaxnaşmalar ölkənin bir sıra rayonlarına yayıldı. Bunların nəticəsində çox sayda adam məhv oldu, çoxlu yaşayış məskənləri və məhəllələr dağıdıldı. Vəziyyət son dərəcə gərginləşdi. İstiqlal hərəkatının M.Qandi, C.Nehru və s. kimi liderləri bu qırğınlara qarşı çıxaraq xalqı sakitləşməyə çağırdılar. O biri tərəfdən Böyük Britaniya hökuməti də məsələni yoluna qoymaq cəhdlərində bulundu və nəhayət, 1947-ci ilin 20 fevralında baş nazir Ettli yeni bir bəyanatla çıxış etdi. Bəyanatda bildirilirdi ki, Böyük Britaniya Hindistanın hakimiyyətini «hindlilərə» verməyə, daha doğrusu, ölkənin dini əlamətə görə iki yerə- Hindistan İttifaqı və Pakistana bölünməsi zəminində onlara dominion hüququ verməyə hazırdır. Bunun ardınca yazda lord Maunbetten Hindistana yeni vitse-kral təyin olundu. O, iyunda «Hindistan hakimiyyətinin təhvil verilməsi» planını e'lan etdi. Plana görə ölkə Hindistan İttifaqı və Pakistana bölünürdü, yeni yaranmış dövlətlər dominion hüququ alırdılar və knyazlıqlara hüquq verilirdi ki, hansı dövlətin tərkibinə daxil olmağı özləri müəyyənləşdirsinlər. Həm Milli Konqress, həm də Müsəlman Liqası bəzi əlavələrlə Maunbetten planı ilə razılaşdılar.

Ölkənin bölüşdürülməsi posesinin gedişində yenidən siyasi münaqişələr və hindus-müsəlman toqquşmaları qızışdı, bir sıra qanlı-qadalı hadisələr, xüsusilə Pəncab və Benqalda, baş verdi, çoxlu köçkünlər ordusu yarandı. Bütün bunlara baxmayaraq, avqustun ortalarında Hindistan hüdudları daxilində iki dominionun yaradılması prosesi başa çatdırıldı. 1947-ci ilin 14 avqustunda əhalisinin əsasən müsəlman olduğu Benqaliya, Pəncab, Sind, Şimal-Qərbi sərhəd vilayətlərinin birləşməsi zəmnində Pakistan dominionunun, 15 avqust isə Hindistan İttifaqı dominionunun yaradıldığı elan olundu. Knyazlıqların çox böyük hissəsi Hindistan İttifaqı tərkibinə qatıldı. Bunların içərisində əhalisinin böyük çoxluğu müsəlman olan Kəşmir də var idi. Bu, Kəşmir müsəlmanlarının ciddi etirazına səbəb oldu və tərəflər arasında silahlı toqquşmalar yaratdı. Doğrudur, Hindistan ordularının daxil olduğu Kəşmir ərazisinin müəyyən hissəsi Pakistan orduları tərəfindən tutulsa da, məsələ həll oldunmamış qaldı. Bu gün də Kəşmir problemi iki qonşu dövlət arasında daimi davam edən

münaqişələr obyektidir. Cunaqad və Heydərabad knyazlıqlarının da Pakistana daxil olmaq arzuları Hindistan ordularının həmin ərazilərə girməsi və oranı işğal etməsi səbəbindən mümkün olmadı. Bu isə ona gətirdi ki, bütünlüklə 1947-ci ildə və 1948-ci ilin əvvəllərində istər Hindistanda, istərsə də Pakistanda hindus-müsəlman toqquşmaları baş verir, indusların Hindistana, müsəlmanların Pakistana qaçması halları çoxalırdı. Doğrudur, hər iki tərəfin liderləri öz ölkələrinin vətəndaşlarına normal şərait yaradacaqlarına söz verirdilər. Lakin bəzi qüvvələr bununla barışmaq istəmirdilər. Bu baxımdan hindus şovinist qüvvələri daha fəallıq göstərirdilər. Məhz onlar da 1948-ci ilin 30 yanvarında yetmiş yaşlı M.Qandini qətlə yetirdilər. Qatil Hindu Mahasabha adlı dini-millətçi təşkilatın üzvü idi.

Bütün bunlara baxmayaraq Hindsitan xalqlarının müstəmləkə əsarətindən xilas olaraq istiqlala qovuşmaları çox böyük tarixi hadisə idi. Bu hadisənin əhəmiyyəti təkcə Hindsitan hüdudlarında Böyük Britaniya müstəmləkə rejiminin aradan qaldırılması ilə məhdudlaşmır.O,ümumiyyətlə regionda müstəmləkə sisteminin birdəfəlik ləğv edilməsinin başlanğıcı oldu, Cənubi və Cənub-Şərqi Asiya xalqlarının ingilis, fransız, holland və amerika müstəmləkə rejiminə qarşı mübarizəsinə təkan verdi və həmin mübarizənin uğurlu sonluğu üçün bir nümunə oldu. Ən başlıcası isə Hindistan iki dövlətə parçalansa da, burada yaşayan xalqlar öz tarixi inkişafında keyfiyyətcə yeni olan bir mərhələyə qədəm qoydular.

Yeri gəlmişkən burada bir məsələyə də toxunmaq istərdik: Böyük Britaniyanın öz müstəmləkələrindən geri çəkilməsinin səbəbi həmin ölkələrdə istiqlal hərəktının artması ilə yanaşı həm də bu dövlətin ikinci dünya müharibəsindən sonra beynəlxalq aləmdə baş verən mühüm keyfiyyət dəyişikliklərinə xüsusi önəm verməsi ilə də bağlıdır. Böyük Britaniya digər Avropa dövlətlərindən fərqli olaraq reallıqlarla hesablaşaraq öz müstəmləkələrindən siyasi baxımdan çıxdı, lakin əvəzində həmin ölkələrlə mövcud olan iqtisadi münasibətləri qoruyub saxladı. Hadisələrin sonrakı inkişafı göstərdi ki, öz müstəmləkə ağalığını bərpa etmək üçün qanlı müharibələr aparmaqdan belə çəkinməyən Fransa, Hollandiya, Portuqaliya və s. kimi ölkələrin zorakılıq kursundan Böyük Britaniyanın mötədil xətti daha uğurlu oldu. 50-80-ci illərdə yürüdülən «Şimal» (Qərbi Avropa və ABŞ) və «Cənub» (keçmiş müstəmləkə və yarımmüstəmləkələr) arası qarşılıqlı və faydalı əməkdaşlıq siyasətinin, o cümlədən Böyük

Britaniya və 50-yə qədər keçmiş müstəmləkə və idarə olunan ərazilər arasındakı münasibətlərin uğurlu və intensiv inkişafı fikrin təsdiqi üçün kifayətdir.

Hindistan müstəqil bir dövlət kimi mövcud olduğu ilk günlərdən Milli Konqres partiyası başda olmaqla ölkənin əsas siyasi qüvvələri gələcək inkişaf yolunun müəyyənləşdirilməsi, daxili və xarici siyasi məsələlərin həlli istiqamətində bir sıra vəzifələrin icrasına başladılar. Bu vəzifələrin ən ümdəsi siyasi istiqlaliyyəti möhkəmləndirmək zərurəti idi. İlk addım olaraq Böyük Britaniyanın buradakı təmsilçisi vitse-kral lord Maunbetten yerli xalqın nümayəndəsi Milli Konqresin liderlərindən Racaqopalaçarya ilə əvəz olundu. 1948-ci ilin fevralında Böyük Britaniya hərbi qüvvələrinin sonuncu hissələri Hindistandan çıxdı. İstiqlaliyyətin ilk aylarında ingilis generalı Okinlek hind ordusunun baş komandanı olaraq qalırdı. Yeri gəlmişkən. general Okinlek «əvəzçiliklə» həm də Pakistan ordusuna komandanlıq edirdi. C.Nehru hökumətinin gördüyü ilk işlərdən birisi ordu komandanlığına hindli hərbçilərin gətirilməsi idi. Bunun ardınca isə dövlət aparatı işçiləri bütünlüklə hindlilərdən ibarət oldu.

1948-ci ilin sonları ölkənin inzibati bölgüsünə yenidən baxılması uğrunda hərəkatın yüksəlməsi ilə xarakterdir. Bu hərəkatın əsas məqsədi o idi ki, inzibati-ərazi vahidləri dil ümumiliyi əsasında yaradılsın. Məsələn, Mədrəs əyalətində yaşayan telequ xalqı tələb edirdi ki, Heydərabad knyazlığındakı Telinqana ərazisi də qatılmaqla onlar üçün Aidxra ştatı təsis edilsin. Travankur və Koçin knyazlıqlarında yaşayan malayali xalqı vahid Kerala ştatında birləşmək istəyirdi. Maratxlar Maxaraştra, qucaratlılar Qucarat əyalətlərinin yaradılması uğrunda mübarizə edirdilər. Bu sahədə 1948-1949-cu illərdə aparılan islahatlar onunla nəticələndi ki, əyalətlərdə mövcud olan xırda knyazlıqlar ləğv edildi və onların ərazisi əyalətin ərazisinə qatıldı. Lakin knyazlar öz xüsusi torpaqlarının mülkiyyətçisi olaraq qalırdı və həm də hökumət tərəfindən lazımı təqaüdlə təmin edilirdilər. Kompakt şəkildə mövcud olan knyazlıqlar isə knyazlıqlar ittifaqı şəklində birləşdirilir, iri knyazlıqlar və əyalətlər isə ştatlara çevrilirdilər. Bu inzibati-ərazi vahidlərinin idarə edilməsi də tənzimləndi. Onların əvvəllər mövcud olan hakimiyyət hüququ mərkəzi hökumətə verildi, bəzi knyazlar qubernator vəzifəsinə təyin olundu. Ancaq bununla yanaşı knyazlıqlarda qanunvericilik məclislərinin də

yaradılması nəzərdə tutulurdu. Bunlar isə imkan verdi ki, Hindistanın bütün ərazisinə nəzarət edə biləcək mərkəzləşdirilmiş hakimiyyət yaradılsın

Süverenliyinin möhkəmləndirilməsi sahəsində görülən ən mühüm tədbirlərdən birisi 1948-1949-cu illərdə yeni konstitusiya layihəsinin hazırlanması və onun müzakirəsində bütün siyasi partiya və qrupların yaxından və fəal iştirakı oldu. Bu layihə müstəmləkə rejimi dövründəki konstitusiyadan köklü şəkildə fərqlənirdi. Layihəyə görə Hindistan süveren demokratik respublika elan olunur, vətəndaşlar öz düşüncələrini açıq şəkildə bildirmək, ittifaqlar, təşkilatlar və cəmiyyətlər yaratmaq, ölkədə sərbəst hərəkət etmək hüququ alırdılar. Ali qanunvericilik orqanı Ümumhindistan parlamenti olurdu. Parlament Xalq Palatası ( Lok sabha) və Ştatlar Sovetindən ( Rac sabha) ibarət idi. Yeni inzibati quruluş tətbiq olunurdu. Xalq Palatasına və Ştatlar Sovetinə seçkilər ümumi, birbaşa və bərabər hüquq əsasında keçirilirdi. Ştatlar Soveti ştatların nümayəndələri və prezidentin siyasətçilər, elm və mədəniyyət xadimləri sırasından təyin etdiyi əlavə 12 nəfərdən təşkil olunurdu. Prezident parlamentin hər iki palatası üzvlərindən və ştatların qanunvericilik məclislərinin üzvlərindən təşkil olunmuş seçki kollegiyasında seçilir və bir sıra mühüm səlahiyyətlərə malik olurdu: o, ali baş komandandır, qanunlar vermək və ya onları ləğv etmək hüququ var, parlamentin sessiyasının vaxtını tə'yin edir, konstitusiyanın fəaliyyətini dayandıra bilir, baş naziri və onun təqdimatı ilə hökuməti təyin edir, ştatların qanunvericilik məclislərinin təqdim etdiyi namizədlər sırasından qubernatorları təyin edir.

Hindistanın yeni konstitusiyası 1950-ci ilin 26 yanvarında qüvvəyə mindi. Bəlli olduğu kimi həmin gün Milli Konqresin əhalini vətəndaş itaətsizliyinə çağırmasının 20-ci ildönümü idi. Yeni konstiutsiyanın qəbulu təkcə Asiyanın yox, ümumiyyətlə dünyanın ən böyük ölkələrindən biri olan Hindistanın siyasi müstəqilliyinə bir tamamlanma xarakteri verirdi.

## *İslahatlar və siyasi kurs (50-ci illər-60-ci illərin birinci yarısı)*

Yeni konstitusiyaya görə dövlətin rəsmi adı Hindistan Respublikası oldu. Qeyd etmək lazımdır ki, Hindistan respublikası tam istiqlala qovuşduqdan sonra da Britaniya Millətlər Birliyinin üzvü

olaraq qalırdı. Başqa sözlə desək, metropoliya ilə öz əvvəlki münasibətlərini qoruyub saxlayırdı.

Konstitusiyanın qəbulundan sonra ölkədə 1951-ci ilin sonu və 1952-ci ilin əvvəllərində həm mərkəzi parlamentə, həm də ştatların qanunvericilik məclislərinə seçkilər keçirildi. Seçkilərdə ölkənin istiqlal qazanmasında liderlik etmiş Hindistan Milli Konqress partiyası qalib gəldi və yerlərin dördə üçünə sahib oldu. Partiyanın lideri C.Nehrunun başçılığı altında hökumət təşkil olundu.

Qeyd etmək lazımdır ki, Hindistan hakimiyyəti əgər həmin dövrə qədər bütün diqqətini əsasən dövlət quruculuğu məsələlərinə yönəltmişdirsə, indi yeni hökumətin qarşısında daha qlobal vəzifələrin həlli dayanırdı. İqtisadi geriliyin, səfalət və yoxsulluğun aradan qaldırılması, ölkə əhalisinin böyük çoxluğunun savadsızlığını, kütləvi işsizliyi ləğv etmək, aqrar və digər sosial problemləri həll etmək, kütləvi xəstəliklərə və ölüm hallarının çoxluğuna qarşı mübarizə etmək, demoqrafik çətinliklərin, milli və dini zəmində mövcud ziddiyyətlərin həlli yollarını tapmaq bu qəbildən olan vəzifələr idi.

C.Nehru hökumətinin ilk ciddi tədbiri aqrar islahat oldu. Yeri gəlmişkən demək lazımdır ki, Milli Konqres partiyası bu problemin həllini həmişə təkid edirdi. Aqrar islahatın əsasında zəmindarlar təbəqəsinin ləğvi dayanırdı. Dövlət və icarədar kəndlilər arasında bir vasitəçi rolu oynayan zəmindarlar vergi toplamaq hüququndan məhrum edildilər və onların mülkiyyətində olan torpaqların bir hissəsi dəyəri ödənilməklə dövlətin sərəncamına keçirdi. İcarədar kəndlilər özlərinin istifadəsində olan əkin sahələrinin dəyərini ödəməklə almaq hüququ qazandılar. Doğrudur, icarədarların çoxu qiymətlərin yüksək olması baxımından verilmiş imkanlardan kifayət qədər yararlana bilmədilər, bəzi hallarda zəmindarlar müxtəlif bəhanələrlə bu işə mane olurdular. Lakin islahat nəticəsində icarədarların sayı xeyli azaldı. Əgər islahata qədər onlar ümumi əkinçilərin 70%-ni təşkil edirdisə, indi bu rəqəm 12-18% arasında idi. Bu ona dəlalət edirdi ki, islahat nəticəsində kəndlilərin çox böyük hissəsi torpaq sahiblərinə çevrilmiş və müstəqil fərdi təsərrüfata malik olmuşlar. Dövlət kənd təsərrüfatı kooperasiyalarının yaradılması və buraya torpaqsız kəndlilərin cəlb olunmasına da xüsusi önəm və dəstək verirdi. Bundan da əsas məqsəd kəndliləri sələmçilərin təsirindən xilas etmək idi. Bu məqsədlə 1952-ci ildən kənddə kooperativlər yaradıldı. Xam və boş torpaqların yararlı hala salınması,

kanallar çəkilməsi, müasir aqrotexniki üsulların tətbiqi, texniki vasitələr və digər lazımı avadanlıqların verilməsini dövlət öz üzərinə götürdü.

Lakin hökumətin aqrar islahatı həyata keçirmək sahəsində gördüyü tədbirlərin genişliyinə baxmayaraq problemin bütünlüklə həll edildiyini söyləmək olmaz. Bu günün özündə belə Hindistanda yoxsul və torpaqsız insanların sayı kifayət qədər çoxdur və onlar kənd təsərrüfatı ilə məşğul olan əhalinin təqribən 35-40%-ni təşkil edirlər. Ancaq keçirilən islahat aqrar həyatda yeni tipli münasibətlərin, başqa sözlə, liberal dəyərlərə və bazar iqtisadiyyatına əsaslanan münasibətlərin yaranması yolundakı ciddi əngəlləri aradan götürməyə imkan verdi.

Ümumiyyətlə C.Nehru hökuməti ölkənin qarşısında duran iqtisadi vəzifələrin həllində özəl və dövlət bölmələrinin birgə mövcudluğuna önəm verirdi. Bu hal, yəni iqtisadiyyatın bərpası və yenidən qurulması dövründə böyük kapital qoyuluşu tələb edən bir sıra istehsal sahələrini yaratmaq işini dövlətin öz üzərinə götürməsi, Şərqin müstəmləkə əsarətindən xilas olan bütün ölkələri üçün xarakterdir. Həmin yolu Hindistan da keçməli olmuşdur. Amma bununla yanaşı özəl bölmənin də fəaliyyətinə qayğı ilə yanaşıldığını görürük.

Mə'lum olduğu kimi, müstəmləkə əsarəti illərində ölkədə kifayət qədər güclü özəl təsərrüfat ukladı yaradılmışdı və burada metropoliya kapitalı ilə yanaşı yerli kapital da iştirak edirdi. Haqqında danışılan dövrdə Tata, Birla, Dalmiya və s. kimi hindlilərə məxsus şirkətlərin ölkənin iqtisadiyyatında güclü rolu var idi. İstiqlaliyyətin qazanılmasından sonra da bu şirkətlər öz əvvəlki nüfuz və rolunu saxlayırdılar. Onu da göstərmək lazımdır ki, həmin şirkətlərin maraqları Milli Konqresin sağ qanadı tərəfindən yetərincə qorunur və dəstəklənirdi. İqtisadi geriliyi aradan qaldırmaq üçün özəl və dövlət bölmələri timsalında ölkənin bütün qüvvə və imkanlarının bir axarda cəmləşdirilməsi, müasir tələblərə cavab verən sənaye yaradılması, elmi-tədqiqat işlərinin inkişafına mühüm diqqət verilməsi C.Nehru hökumətinin əsas fəaliyyət kursuna çevrildi. Hökumət iqtisadi və elmi-texniki tərəqqiyə nail olmaq, inzibati quruluşu yenidən qurmaq, sülhsevər xarici siyasət yürütmək, o cümlədən Asiyada təhlükəsizliyin qorunmasında fəal iştirak etmək yolu ilə Hindistanı istiqrarlı və güclü dövlətə çevirmək istəyirdi. Sadaladığımız bütün bu tədbirlər isə

hökumətin tarixi ədəbiyyatda «Nehru kursu» adı ilə tanınan inkişaf planının tərkib hissələri idi.

Bu planın həyata keçirilməsi yolunda atılan mühüm addımlardan birisi sənaye sahəsində böyük əmək və kapital tələb edən bir sıra proqram və layihələrin, o cümlədən metallurgiya, kimya, energetika, xüsusilə atom energetikası müəssisələrinin tikilməsini dövlətin öz üzərinə götürməsi idi. Bundan öncə isə istiqlaliyyət qazanılana qədər müstəmləkə hakimiyyətinə məxsus olan bir sıra sənaye müəssisələri: dəmir yolları, limanlar, avia xətlərinin bir hissəsi, elektrik stansiyaları, hərbi zavodlar və digər obyektlər artıq dövlət bölməsinin ilkin bazasına çevrilmişdilər. Bu baxımdan 1948-ci ildə Ehtiyat Bankının milliləşdirilməsi və onun zəmnində dövlət bankının yaradılması mühüm bir tədbir idi. Milliləşdirmənin digər obyektlərə də şamil edilməsi nəticəsində,- onların sayı 100-ə çatırdı,-dövlət bölməsində olan müəssisələrin kapital fondu artıq 1950-1951-ci illərdə az qala xüsusi bölmənin kapital fondu səviyyəsinə çatırdı. Onu da qeyd etmək lazımdır ki, dövlət bölməsinin kapital fondunun 90%-ə qədəri dəmir yolları və irriqasiya şəbəkələrinin payına düşürdü.

İstiqlaliyyət qazandıqdan sonra iqtisadiyyatın dövlət bölməsi yaradılması kursuna önəm verən dövlətlər iqtisadi inkişafın tənzimlənməsi yolunu bir qayda olaraq onun planlaşdırılmasında görürlər. Hindistan da bu sistemi tətbiq edən ilk ölkələrdəndir. Hökumət 1951-1956-cı illəri əhatə edən birinci beşillik plan qəbul etmişdir. Planda nəzərdə tutulurdu ki, həmin dövrdə dövlət büdcəsinin müəyyən hissəsi metallurgiya və maşınqayırma müəssisələri, eləcə də irriqasiya və hidrotexniki sistemlər yaradılmasına ayrılsın. Lakin dövlətin bütün cəhdlərinə baxmayaraq birinci beşillik dövründə sənaye sahələrinə qoyulan xüsusi kapitalın həcmi dövlətinkindən xeyli artıq olaraq qalırdı. Buna görə də 1956-1961-ci illər üçün ikinci beşillik plan qəbul edilərkən qərara alındı ki, dəmir yolları və hava xətləri, hərbi istehsal, elektroenergetika, o cümlədən atom energetikası, daş kömür və neft sənayesi, ağır maşınqayırma kimi iqtisadiyyatın mühüm sahələri dövlətə məxsus olmalıdır, metallurgiya, kimya, dəzgahqayırma, avtomobil və dəniz nəqliyyatı kimi sahələrdə isə dövlət müəssisələrinin sayı artırılmalıdır. Sonrakı beşilliklər dövründə də bu ənənə davam etdirilmiş və qüvvələr nisbəti dövlət bölməsinin xeyrinə olaraq dəyişmişdir. Sovet İttifaqının köməyi ilə Bhilaidə, Böyük Britaniya şirkətlərinin köməyi ilə Durqapurda və AFR-in köməyi ilə

Rurkeldə tikilən üç metallurgiya kombinatı, eləcə də 1961-1965-ci illər üçün üçüncü beşillik planda dövlət büdcəsinin 60%-nin dövlət bölməsinə yönəldilməsi məhz həmin kursun nəticəsi idi. Dövlət bölməsinin yaradılmasının əsas maliyyə qaynaqlarına gəldikcə, onlar vergilər, müəssisələrdən gələn gəlirlər, daxili və xarici borclardan ibarət idi.

Bununla yanaşı, Hindistan dövləti xarici və yerli özəl kapitalın da ölkə iqtisadiyyatında fəaliyyət göstərməsinə normal şərait yaradılmasına maraq göstərirdi. Bu da aşağıdakı səbəblərdən: birincisi, milli iqtisadiyyatın istər dövlət, istərsə də özəl bölmələrinin inkişafı üçün əlverişli şərait yaratmaq, ikincisi isə o qədər də gəlirli olmayan yüngül və hasilat sənayesi və ağır sənaye müəssisələrinin yaradılması üçün ehtiyac duyulan xarici investisiyalar əldə etmək istəyindən irəli gəlirdi.

Təbiidir ki, bu planların yerinə yetirilməsi sahəsində dövlətin bütün cəhdlərinin əsasında duran başlıca məqsəd o idi ki, Hindistan siyasi istiqlaliyyətlə yanaşı iqtisadi azadlıq da qazansın, onun bir dövlət olaraq müstəqil yaşamaq imkanları qüvvətlənsin. Qeyd etmək lazımdır ki, planların icrası çox böyük gərgin əmək və maddi ehtiyatların sərfi hesabına başa gəlirdi, bürokratik aparatın şişməsi, bəzi müəssisələrin az səmərəli olması, beşillik planların tam yerinə yetirilməməsi, bir sıra sosial problemlərin həlli üçün vəsaiti çatışmazlığı kimi neqativ halların törətdiyi çətinliklərlə müşayət olunurdu.

Qeyd edək ki, siyasi və iqtisadi islahatlarla yanaşı sosial-mədəni sahələrdə də müəyyən tədbirlər həyata keçirilirdi. Bunlardan qanunvericilik qaydası ilə «toxunulmazlar» adlanan kastalara qarşı olan ayrı-seçkiliyin ləğv edilməsi, qadın və kişilərin hüquq bərabərliyini təsbit edən qanunlar qəbul olunmasını xüsusilə qeyd etmək lazımdır. Mədəni sahədə savadsızlığın ləğvinə yönəlmiş tədbirlər görüldü. Bir sıra ştatlarda pulsuz təhsil sistemi yaradıldı. Ali və orta ixtisaslı kadrların hazırlanması, texniki institutların, elmi-texniki və tibb müəssisələrinin yaradılması istiqamətində bir sıra əməli addımlar atıldı.

Ölkənin ərazi bütövlüyünün tamamlanması məqsədilə portagiz müstəmləkəsi olan Qoa ərazisinin 1961-ci ildə azad edilməsi və Hindistanla birləşməsi dövrün mühüm hadisələrindən sayılmalıdır. Qoa ərazisinin azad edilməsi haqqında Hindistanın dəfələrlə tələbinə Salazar hökumətinin hərbi güc göstərmək cəhdləri 1961-ci ilin 18

dekabrında hind hərbi qüvvələrinin Qoa ərazisinə girməsi və adanın portagizlərdən təmizlənməsi ilə başa çatdı.

İstiqlaliyyətin ilk illərində həyata keçirilən islahatlardan bir qismi də milli münasibətlərin tənzim edilməsi məqsədi güdürdü. Bu baxımdan milli, daha doğrusu dil birliyi zəmnində ştatlar yenidən təşkil olundu. Belə bir istəyin ilk konstitusiya layihəsi hazırlanarkən müxtəlif xalqlar tərəfindən bildirildiyi haqqında irəlidə danışılmışdır. Sadəcə bunu əlavə etmək lazımdır ki, 1950-ci il konstitusiyasında bu məsələ öz tam həllini tapmamış və ştatların ərazisi əsasən ingilis müstəmləkə hakimiyyəti dövründə olduğu kimi saxlanılmışdı. Lakin qeyri-hind dilli xalqlar ştatların hüdudlarının dil birliyi zəmnində müəyyən edilməsi uğrunda mübarizədən geri çəkilmədilər. Onlar hesab edirdilər ki, milli dillər zəmnində yaradılmış ştatlar benqal, pəncab, marath, qucarat, tamil, teluqu, malayali, kannara, oriya kimi sayı on milyonlarla nəfər olan xalqların və eləcə də Hindistanın digər xalqlarının bütövləşməsinə və milli inkişafına real imkanlar yarada bilər. Qeyd etməliyik ki, ayrı-ayrı xalqların bütün sosial təbəqələri bu tələbin yerinə yetirilməsində birgə çıxış edirdilər. Nəhayət, islahat aparıldı, 1953-cü ildə Hindistanın cənubunda ilk milli ştat Andxra Pradeş yaradıldı. 1956-cı ildə isə Mədrəs, Maysur, Kerala milli ştatları yaradıldı və yeni inzibati quruluş 1956-cı ilin 1 oktyabrından qüvvəyə mindi. Sonrakı dövrlərdə də bu quruluşun təkmilləşdirilməsi davam etdirilirdi. Maxaraştra-Qucarat ərazisində yaradılmış iki dilli Bombey ştatı da sonradan 1960-cı ildə iki milli ştata-Maxaraştra və Qucarat ştatlarına bölündü. Bu proses həm də knyazlıqların ləğvini də başa çatdırmış oldu.

Həmin dövrdə həllini gözləyən mühüm məsələlərdən birisi də Hindistanın dövlət dilini müəyyənləşdirmək idi. Bəlli olduğu kimi, müstəmləkə dövründə ingilis dili rəsmi dil hesab olunurdu və bütün rəsmi yazışmalar bu dildə aparılırdı. İstiqlaliyyət qazanıldıqdan sonra isə belə bir müzakirə aparılırdı ki, hind dilinə rəsmi dövlət dili statusu verilsin və tədricən ingilis dilindən imtina edilsin. Hətta 1950-ci il konstitusiyasında belə deyilirdi ki, ingilis dilindən rəsmi dövlət dili kimi 1965-ci ilə qədər istifadə olunacaq, həmin vaxtdan isə hind dilinə keçiləcəkdir. Lakin bu barədə müzakirələr heç bir nəticə vermədi. Cənubi Hindistan xalqları qəti etirazlarını bildirdilər. Elə də rəsmi dil kimi hind dilindən istifadə qeyri-mümkün oldu və ingilis dilinin əvvəlki statusu saxlanıldı.

Hindistan respublikası yarandığı ilk gündən ölkənin liberal iqtisadi inkişaf xətti siyasi-hüquqi həyatda liberal dəyərlərə əsaslanan təməl prinsiplərinin yaranması və fəaliyyəti ilə həmahəng olmuşdur. Tarixçilər bu inkişafın köklərini ölkədə iki yüz ilə qədər sürmüş ingilis müstəmləkə rejimi dövründə klassik ingilis parlament-demokratik sisteminin tətbiqi ilə bağlayırlar və belə söyləyirlər ki, hakimiyyətdə olan siyasi qüvvələrin özləri də məhz həmin ruhda böyümüşdülər. Bu baxımdan idi ki, 1950-ci il konstitusiyası klassik Avropa standartlarına uyğun tərtib olunmuşdu. Ölkədə ali icra hakimiyyəti, qanunvericilik hakimiyyəti və məhkəmə hakimiyyəti istər mərkəzdə, istərsə də yerlərdə kifayət qədər müstəqil idi. Siyasi proseslər, partiyaların fəaliyyəti və seçkilər dövründə onların ayrılıqda və ya koalisiyalar şəklində tam azad mübarizəsi zəmnində tənzimlənir. Seçkilər, bu dövrdə aparılan kampaniyalar ölkənin siyasi həyatının real və olduqca mühüm bir barometridir. Həmin dövrdə əsas seçici kütləsinin mövcud siyasi qüvvələrə rəğbəti müəyyənləşir. Bu siyasi qüvvələr də təqribən aşağıdakı qruplardan ibarətdir: 1) sollar - kommunistlər (1964-cü ildən KP iki müstəqil partiyaya bölünmüşdür); 2) sağlar- dini-kommunalist partiyalar; 3) Mərkəçzi qüvvələr- Milli Konqress partiyası və ona müxalifətdə olan qüvvələr, məsələn Canata parti və digər qruplaşmalardır.

1951-ci ilin sentyabrı -1952-ci ilin əvvəlində keçirilən birinci seçkilərdən başlayaraq sonrakı 1957-ci ilin fevral-mart aylarındakı ikinci, 1962-ci ildəki üçüncü və 1967-ci ildəki dördüncü seçkilərdə bir qayda olaraq Milli Konqress partiyası qalib gəlmişdirsə də onun tədricən mövqelərinin zəiflədiyi də müşahidə olunmuşdur. Bu hal 1967-ci ildə ştatların qanunvericilik məclislərinə seçkilərdə özünü xüsusilə göstərmişdir. Tamiland, Qərbi Benqaliya, Kerala, Orissa, Bihar, Pəncəb, Madxya Pradeş, Racstaxan, Uttar Pradeş kimi doqquz böyük ştatda Milli Konqres təklikdə hökumət təşkil edə bilmədi və koalisiyalara getməyə məcbur oldu. Yeri gəlmişkən demək lazımdır ki, 1964-cü ildə C.Nehrunun ölümündən sonra Milli Konqresin sədrliyinə onun qızı İndira Qandi gətirilmişdi.

İstiqlaliyyətin ilk illərində Hindistanın xarici siyasət kursunun gedişi ümumiyyətlə regiondakı qüvvələrin geosiyasi düzümündən asılı olmuşdur. ÇXR ilə qarşıdurma, Pakistanla münaqişələr və maraqlı böyük dövlətlərin regionda baş verən hadisələrə münasibəti bu məsələdə çox təsirli olmuşdur. Bir zamanlar istiqlaliyyət, tərəf-

sizlik və bloklara qoşulmamaq kimi prinsipləri öz siyasi kursunun əsası elan etmiş Hindistan sonralar Sovet İttifaqı ilə hər cür əməkdaşlığını bir təsir vasitəsinə çevirdi.

Bununla yanaşı deməliyik ki, Hindistan regionda baş verən bir sıra münaqişələrin həll olunması yolunda öz imkalarından əsasən pozitiv mənada istifadə edir. O, 1953-cü ildə Koreya savaşının dayandırılmasında, 1954-cü ildə Hind-Çində böhranın tənzimlənməsində müəyyən rol oynamışdı. Elə həmin dövrdən də Hindistan ilə Çinin Tibet rayonu arasında əlaqələr və ticarət haqqında hind-çin sazişi bağlanmışdır. Ümumiyyətlə ÇXR ilə bağlanan sazişlərdə və müxtəlif xarakterli əlaqələrdə sonralar beynəlxalq aləm tərəfindən bəyənilən dövlətlərarası münasibətlərin əsas prinsiplərinin təməli qoyulmuşdur. Tarixi ədəbiyyatda pənceşila adı ilə tanınan beş prinsip bunlardır: 1) ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət; 2) hücum etməmək; 3) bir-birinin daxili işlərinə qarışmamaq; 4) bərabərlik və qarşılıqlı fayda; 5) dinc yanaşı yaşamaq. Bəlli olduğu kimi bir il sonra, yəni 1955-ci ildə Hindistanın baş naziri C.Nehru və ÇXR-in baş naziri Çjou En layın imzaladıqları Bəyanatda bu prinsiplər iki dövlət arasındakı münasibətlərin təməl prinsipləri elan olunurdu. Lakin 50-ci illərin sonlarından Hindistan və ÇXR arasındakı münasibətlər kifayət qədər korlandı və bunun də səbəbi ərazi mübahisələri idi. 1959-cu ildə ÇXR və Hindistan sərhədləri boyunca başlanan hərbi əməliyyatlar 1962-ci ildə kifayət qədər geniş miqyas almışdı. Təbiidir ki, bu hadisələr Hindistanın daxili siyasi həyatına güclü mənfi təsir göstərməyə bilməzdi.

Xarici siyasətdə mühüm yer tutan hadisələrdən birisi də Hindistanın hərbi bloklara girməkdən çəkinməsi və gənc müstəqil dövlətlərin birliyinə qoşulmağa cəhd göstərməsidir. Bəlli olduğu kimi, Hindstan «Cənub-Şərqi Asiyanın müdafiəsi haqqında» müqaviləyə-SEATO-ya qoşulmadı. O, 1955-ci ilin aprelində Banduqda Asiya və Afrikanın 29 dövlətinin iştirak etdiyi konfransın çağırılmasının təşəbbüskarlarından və iştirakçılarından biri oldu.

Sovet İttifaqı ilə çoxçeşidli əlaqələr yaratmaq və inkişaf etdirmək də "Nehru kursu»nun əsas xətlərindən biri idi. Yeri gəlmişkən demək lazımdır ki, qandizmə və onun sosial bazasına neqativ münasibət göstərən, qandizmi təriqətçiliyin bir növü sayan İ.V.Stalinin ölümündən sonra hind-sovet münasibətlərinin inkişafı geniş axara düşdü.

## *Hindistanın problemlərinin kəskinləşməsi (60-ci illərin ikinci yarısı-70-ci illər)*

Hindistan müstəqillik illərində istər siyasi, istərsə iqtisadi-sosial sahələrdə müəyyən uğurlar qazansa da, lakin kökləri müstəmləkə dövrünə, bəzən də daha əvvəlki tarixi dövrlərlə bağlı olan bir sıra problemlərlə baş-başa qalmaqda davam edirdi. Doğrudur, istiqlal mübarizəsi dövründə, istiqlaliyyətin ilk illərində bu problemlər bir qədər arxa plana keçmiş, xalqın enerjisi Hindistan dövləti uğrunda mübarizəyə yönəldilmişdi. Əsas məqsədə nail olduqdan sonra artıq ayrı-ayrı sosial-siyasi qüvvələrin maraqlarındakı fərqlər get-gedə üzə çıxırdı və tədricən kəskinləşirdi.

Ölkənin bu daxili problemləri içərisində bəlkə də ən başda gələni milli-dini müxtəliflikdir. Daha doğrusu, bu zəmində yaranmış ziddiyyətlərin bəzi hallarda düşmənçilik həddinə çatmasıdır. Doğrudur, 1947-ci ildə ölkənin bölünməsindən sonra müsəlmanların böyük çoxluğu Pakistan dövlətində cəmləşsə də Hindistanda yüz milyon civarında müsəlman qalmışdı. Bundan əlavə, olduqca böyük və nüfuzlu bir sikh icması vardır. Ölkənin müxtəlif rayonlarında hindus-müsəlman toqquşmalarının artması Hindistan həyatının reallığı xarakteri almışdır.

Ümumiyyətlə Hindistan çoxmillətli dövlətdir və əhali 14 dildə danışır, bundan əlavə çoxlu ləhcə və dialektlər də var. Geniş yayılmış hinduizm və islamla yanaşı xristianlıq, sikhizm və digər etiqadlar mövcuddur. Bir sıra ştatlarda dini-kommunalist və hətta separatist qüvvələr yetərincə güclüdür. Ümumiyyətlə isə Hindistanda gedən milli proseslərdə iki ənənə müşahidə olunur. Birinci ənənə ondan ibarətdir ki, müxtəlif millətləri təmsil edən müəyyən qüvvələr obyektiv və subyektiv səbəblər üzündən millətlərarası inteqrasiyaya meyllidirlər, demokratik zəmində siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsinə çalışırlar. Lakin bu ənənənin özü bir sıra hallarda dövlət aparatının daha çox bürokratik-mərkəzləşdirmə siyasətinin törətdiyi əngəllərlə qarşılaşır. Təbiidir ki, daha çox mərkəzləşdirmə siyasəti ştatların və buradakı əhalinin qanuni maraqlarının yetərincə nəzərə alınmaması, onlara etinasız münasibət deməkdir. İkinci ənənənin əsasında fərqlənmə, ayrılma cəhdləri dayanır və o öz mayasını milli və konfessional maraqların getdikcə artmasından və

üstün əhəmiyyət kəsb etməsindən alır. Bəzən elə olur ki, bir məkana və bir millətə məxsus bu iki ənənə sahibləri arasındakı toqquşmaların özü qanlı hadisələrlə müşayət olunur. Bu baxımdan şimal-qərb ştatı Pəncabın acı təcrübəsi ibrətamizdir.

Bəlli olduğu kimi, Pəncab əhalisinin yarıdan çoxu sikhizmə etiqad edir və onlar sikhlər adı ilə tanınırlar. Ümumiyyətlə isə bütün sikhlərin 40%-ə qədəri Pəncabın hüdudlarından kənarda yaşayır. Bu sikhlər kimdir və nə istəyirlər?

Sikhizmin banisi quru adlandırılan Nanak (1469-1539) adlı şəxs olmuşdur. Onun ideyalarının əsasında insanların bərabərliyi, onların arasında mehriban və sülhsevər münasibətlərin zəruriliyi prinsipləri dururdu. Lakin Nanakın bu prinsipləri zaman keçdikcə dəyişdi və daha radikal məcraya yönəldi. Artıq onuncu quru Qovind Sinqh (1665-1708) dövründə sikh icmalarının hərbləşdirilməsi prosesi başa çatdı, icmada hərbi qayda-qanunlar hakim davranış prinsipləri oldu, icma üzvləri tələb olunan hər bir işi danışıqsız yerinə yetirməli idi. Qeyd etmək lazımdır ki, məhz bu keyfiyyətlər zəmnində sikhlər ingilis müstəmləkə işğalı və əsarəti dövründə yadellilərə qarşı amansız və davamlı mübarizə aparmışlar. Onlar bu gün də həmin ənənələrlə fəxr edirlər. Müasir hind ordusunun şəxsi heyətinin 11%-i, zabitlərin isə 22%-i sikhlərin payına düşür. Halbuki sikhlərin ümumi sayı Hindistan əhalisinin tərkibində söylənilən rəqəmlərlə müqayisədə çox kiçikdir.

İstiqlaliyyətin ilk illərində sikhlər siyasi muxtariyyət tələbi ilə çıxış etməyə başladılar. Az sonra isə onlar ümumiyyətlə müstəqil dövlət yaratmaq şüarını irəli sürdülər. Doğrudur, sikhlərin hind cəmiyyətində fəal mövqeyinin bəhrələrindən birisi o olmuşdur ki, onların vətəni Pəncabda iqtisadi həyatın, xüsusilə kənd təsərrüfatının inkişafı sahəsində lap ilk vaxtlardan bir sıra tədbirlər görülmüş, 70-ci illərdə başqa əyalətlərdən əvvəl məhz Pəncabda « yaşıl inqilab»»-kənd təsərrüfatının müasir ağrotexnika, maşınlar və irriqasiya sisteminin tətbiqi əsasında yenidən qurulmasına başlanıldı. On ildən az bir zaman ərzində Pəncabda taxıl istehsalı iki dəfə artdı. Hətta bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, 80-ci illərdə bütün Hindistanda istehsal olunan taxıl məhsullarının yarısı bu ştatın payına düşürdü. «Yaşıl inqilab»ın ən böyük nəticəsi Pəncabın aqrar həyatında kapitalist münasibətlərinin hakim mövqe qazanması oldu. Təbiidir ki, bu proses də bir qayda olaraq özünə məxsus pozitiv

nəticələrlə yanaşı, neqativ cəhətlərdən də xali olmur. Belə bir hal Pəncabda da baş verdi. İri torpaq sahibləri və digər varlı kəndlilər öz iqtisadi mövqelərini nə qədər möhkəmlədə bildilərsə, sosial həyatda bir o qədər qütbləşmə getdi, az torpaqlı və torpaqsız kəndlilərin bir qismi işsizlərə çevrildi. Ştatın əsasən aqrar ölkə olması, buradakı sənaye müəssisələrinin əsasən kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olması, həm də həcmcə və sayının o qədər böyük olmaması işsizlərə çevrilənlərin yeni iş yerləri ilə təmin edilməsinə imkan vermir, yaşayış şərtlərini daha da ağırlaşdırırdı. Məhz bu da sosial ziddiyyətləri gərginləşdirir, bolluq ölkəsində insanların,- təbiidir ki, ilk növbədə sikhlərin,- dözülməz həyat şərtlərində yaşamasının səbəbinin mərkəzi hökumətin siyasətinin nəticəsi olduğu haqqında aparılan təbliğatın tərəfdarlarının sayını artırırdı. Bu sahədə ali və müxtəlif ixtisas təhsillərini başa vurmuş gənclərin iş tapa bilməməsi amili daha mühüm rol oynayırdı. Başqa bir narazılıq da ondan ibarət idi ki, Çandiqarh şəhəri iki ştatın, həm Pəncabın həm də hinddilli Xaryanı ştatının paytaxtı idi. Təbiidir ki, kifayət qədər digər mübahisəli məsələlər də var idi.

Bütün bunlarla, razılaşmayan qüvvələr Pəncabı müstəqil bir dövlətə çevirmək və Xalistan sikh dövləti yaradılması planını irəli sürdülər.

Qeyd etmək lazımdır ki, dini-milli zəmində mübahisələr və münaqişələr ölkənin digər əyalətlərində də müşahidə olunurdu.

Zahirən o qədər kəskin görünməyən, əslində isə olduqca ciddi təhlükəli nəticələrə aparacaq bir problem də ölkədəki demoqrafik vəziyyətlə bağlıdır. Görünməmiş bir sürətlə əhali artımı ölkəni böyük çətinliklər qarşısında qoymuşdur. Səfalət içərisində yaşayanların sayı ildən-ilə çoxalır, kütləvi aclıq Hindistan həyatının xarakterik səciyyəsinə çevrilir. Doğrudur, dövlətin müəyyən iqtisadi tədbirləri görməsi, ilk növbədə, aqrar islahat, «yaşıl inqilab» və ən başlıcası fermer təsərrüfatları yaratmaq kimi tədbirlər kifayət qədər uğurlu oldu. Bir qədər irəlidə Pəncabın timsalında bu barədə danışdıq. Ancaq aclıq probleminin həlli nəinki mümkün olmur, əksinə vəziyyət daha da ağırlaşırdı. Hökumət əlavə tədbir kimi, demoqrafik vəziyyəti tənzimləmək sahəsində bəzi inzibati metodlara əl atmaq cəhdləri göstərdi. Lakin bu cəhdlər də heç bir pozitiv nəticə vermədi. Hətta İ.Qandinin başçılıq etdiyi Milli Konqress partiyasını 1977-ci il seçkilərində məğlubiyyətə gətirdi. Maraqlıdır ki, 1980-ci il

seçkilərindəki qələbədən sonra hakimiyyətə qayıdan İ.Qandi bir daha həmin məsələyə qayıtmadı, heç onu xatırlamaq belə istəmədi.

Başqa bir problem də kastalarla bağlıdır. Doğrudur, irəlidə dediyimiz kimi, dövlət bu problemin həlli yolunda bəzi tədbirlər görmüşdü, bütün vətəndaşların kasta mənsubiyyətindən asılı olmayaraq bərabərliyi elan edilmişdi, aşağı kastaların nümayəndələri üçün ali məktəblərdə müəyyən məxsusi yerlər ayrılmışdı, dövlət təsisatlarında onların iştirakına ciddi fikir verilirdi və s. Lakin nəinki haqqında danışılan dövrdə, hələ çox sonralar da kasta problemi qalmaqda davam edirdi, kastalar faktik olaraq keçmişdə hansı rolu oynayırdısa, elə həmin rollarında qalırdılar. Təbiidir ki, bu da ictimai rəyi daim maraqlandırır, ondan siyasi məqsədlər üçün istifadə hallarını çoxaldırdı. Ancaq burada bir xarakter halı da qeyd etmək lazımdır. Belə ki, irəlidə haqqında danışdığımız dini-milli problemlər ölkədə istiqrarın davamlığını daim təhdid edirsə və bəzən hətta pozursa, kasta quruluşu isə əksinə, münasibətlərin tənzimlənməsində bir istiqrar amili kimi çıxış edir. Tədqiqatçıların müşahidəsinə görə əhalisinin 8-dən 7-sinin ibtidai həyat şərtləri içərisində yaşayan Hindistandakı bu əcaib qeyri-bərabərliyin norma halına düşməsinin və saxlanılmasının mümkünlüyü kasta quruluşunun saxlanılması ilə bağlıdır. Olduqca yoxsul və acından zorla ölməmək səviyyəsində yaşayan böyük çoxluq aşağı kastalara məxsusdur və o, ölkənin ən azı mövcud maddi imkanlarından yararlanmaq iddiasında deyildir, ümumiyyətlə heç bu haqda düşünmək arzusu belə yoxdur. Bütün maddi imkanlardan, iqtisadi və texniki inkişafın yaratmış olduğu şərtlərdən yalnız şəhər və kənd zənginlərinin yararlanmaq haqqının olmasını ənənəvi olaraq təbii sayırlar. Ancaq az zənginlərin yox, çox yoxsulların həyat şərtlərini yaxşılaşdırmaq imkanlarının məhdud olması bir tərəfdən, demoqrafik partlayış isə o biri tərəfdən bu halın hər an dəhşətli fəlakətlə qurtarmayacağına təminat vermir. Bu baxımdan bir maraqlı hadisəni misal gətirmək istərdik.

Bəlli olduğu kimi, aqrar islahatın keçirilməsi dövründə bir sıra əyalətlərdə torpaq sahibləri ona ciddi müqavimət göstərirdilər. Belə bir hal Heydərabad knyazlığında əhalisinin teluqu xalqı olduğu Telinqan rayonunda baş verdikdə kəndlilər torpaq sahiblərinə qarşı açıq üsyana qalxdılar. Üsyan beş milyon əhalinin yaşadığı böyük bir ərazini əhatə etdi. Yoxsul kəndlilər artıq torpaqları onların sahiblərinin əlindən zorla alırdılar, kəndlərin imkanlı əhalisinə qarşı güc

tətbiq edirdilər. Onlar kəndlərdə pəncəyatı adlanan (beş adamdan ibarət) özünü idarə orqanları yaradır, Heydərabad nizamının-valisinin göndərdiyi hərbi hissələrlə vuruşmaq üçün özünü müdafiə dəstələri təşkil edirdilər. Kəndlilərin torpaq uğrunda mübarizəsi az keçmədi ki, milli və dini ayrı-seçkiliyə qarşı etiraz hərəkatına çevrildi. Onlar nizamı ittiham edirdilər ki, o, müsəlman olduğuna görə əyalətin müsəlman əhalisi üçün imtiyazlar yaratmış, teluqu-hinduslar isə təqiblərə məruz qalırlar. Teluqu yoxsulların bu üsyanı yalnız Heydərabada ordu hissələri daxil olduqdan sonra yatırıldı.

Məhz bu daxili siyasi gərginliklər, kasta problemi və dini-milli münaqişələr istiqlaliyyət qazanıldıqdan sonra müxtəlif maraqların daşıyıcıları olan ayrı-ayrı sosial-siyasi qüvvələrin öz məqsədləri uğrunda mübarizəsində istinad etdikləri amillər idi. Sosial-siyasi qüvvələr isə Milli Konqres partiyası, hindus ovqatlı Can Sanqh və Hindu Masabaha partiyalarında, eləcə də kommunist, sosialist, kəndli-fəhlə xalq partiyalarında və digər sol radikal partiya və qruplaşmalarda təmsil olunurdular. Partiyalar və ya siyasi koalisiyalar öz fəaliyyətlərində, xüsusilə isə seçki kampaniyaları dövründə hakim partiyanı-Milli Konqres partiyasını məhz bu problemlərin mövcudluğu, daha çox isə sosial problemlərin həllində hökumətin gücsüzlüyü baxımından tənqidə tutur, öz təbliğatlarını həmin zəmində qururdular.

Qeyd etmək lazımdır ki, elə hakim partiyanın - Milli Konqresin daxilində də bir neçə qruplaşma vardı və onlar partiyada birləşən müxtəlif sosial qüvvələrin maraqlarını, daha çox zaman-zaman toqquşan maraqlarını müdafiə edirdilər. Bəlli olduğu kimi Milli Konqres partiyası sıralarında iri kapitalist və mülkədarların, ziyalıların, şəhərin və kəndin xırda burjuaziyasının, adi insanların da, ali kastaların, aşağı kastaların və hətta «toxunulmazların» təmsilçiləri birləşmişdir. Bu çox qütblülük Milli Konqres partiyasının həm güclü olmasının və ümum milli nüfuzunun mənbəyi idi, həm də onun daxili zəifliyinin, tam bir bütövə çevrilə bilməməsinin mənbəyi idi. İstiqlaliyyət uğrunda mübarizə illərində, eləcə də dövlət quruculuğunun ilk illərində ümumi istək və ümumi maraqlar partiyanın birlik və bütünlüyünü qoruya bilirdi. Burada C.Nehru amili az önəmli deyildi. Onun bir lider kimi siyasi keyfiyyətləri, xalq arasında şöhrəti, imkanlı sosial-siyasi dairələrdə nüfuzu, beynəlxalq aləmdə ciddi bir şəxs kimi tanınması imkan verdi ki, o, partiyadakı bütün qütblərarası münasibətləri tənzimləsin, onların birliyini qoruyub saxlaya bilsin. Məhz

C.Nehrunun 1964-cü ildə ölümündən sonra Milli Konqresin daxilində bir sıra qruplaşmalar hərəkətə gəldilər. Bunların arasında sağ yönümlü qruplaşmalar daha çox fəallıq göstərirdilər. Daxili ziddiyyətlərin artması partiyanın ştatlardakı bir sıra təşkilatlarının parçalanmasına gətirdi. Daxili siyasət məsələlərində fərqli mövqe parçalanmanın əsas səbəbi idi. C.Nehrudan sonrakı dövrdə hökumət əvvəlki kursundan bir qədər geri çəkilmiş, özəl kapitalın fəaliyyət imkanlarını artırmış, xarici kapitala bir sıra imtiyazlar vermiş, iqtisadiyyatın dövlət tərəfindən planlaşdırılmasının miqyaşını daraltmışdı. Bundan narazı qalanlar ştatlarda Benqaliya Konqresi, Kerala Konqresi, Uttar Pradeşdə Bharatiya kranti dal, Orissada Cana Konqres və s. kimi yeni partiyalar yaratmışdılar. Doğrudur, Milli Konqres partiyası hələ güclü və nüfuzlu olaraq qalırdı. C.Nehrunun sağlığı dövründə 1962-ci ildəki parlament seçkilərində partiya öz əvvəlki mövqelərini qoruyub saxlaya bilmişdi. Lakin elə həmin dövrdə 1959-cu ildə Hindistanın siyasi həyatında kifayət qədər təsir imkanlarına malik mühafizəkar Svatantra partiyası yaranmışdı və o, iqtisadiyyatın dövlət bölməsinin və iqtisadi inkişafın planlaşdırılmasının aradan qaldırılması, liberal dəyərlərə və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçilməsi, Qərb dövlətləri ilə yaxınlaşmaya xüsusi önəm verilməsi tərəfdarı kimi çıxış edir, Milli Konqresin rəqibinə çevrilirdi. Artıq 1962-ci il seçkilərində sağlar 32, kommunistlər isə 29 yer qazana bilmişdilər.

C.Nehrunun ölümündən sonra Milli Konqres liderlərinin Svatantra partiyasının proqramı istiqamətində bir sıra tədbirləri həyata keçirməsi bir tərəfdən, 1965-ci ildə Pakistanla münaqişələr və iqtisadi çətinliklərin artması o biri tərəfdən «C.Nehru kursu»na müxalifətdə olan istər partiyadaxili qüvvələri, istərsə də kənar qüvvələri hərəkətə gətirdi.

Bununla təqribən eyni vaxtda kommunist partiyasında da parçalanma baş verdi. Hindistan Kommunist partiyası ilə yanaşı Hindistan (marksist) Kommunist partiyası da mövcud oldu. Marksistlər digər kommunistləri onda ittiham edirdilər ki, onlar Milli Konqres hökumətinin transmilli korporasiyaları ölkə iqtisadiyyatına buraxması kimi olduqca zərərli və hind xalqının maraqlarına zidd siyasəti tənqid etmirlər. Marksistlər özləri isə hökumətin siyasətini qətiyyətlə pisləyirdilər. Bununla yanaşı hökumətin bloklara qoşulmamağa əsaslanan xarici siyasət kursunun mütərəqqi xarakter daşıdığını da

söyləyirdilər.

İqtisadi çətinliklər, qiymətlərin artması, kənddən ucuz işçi qüvvəsinin şəhərlərə axması hesabına işsizlər ordusunun böyüməsi və s. kimi neqativ halların xalqın iqtisadi vəziyyətini daha da ağırlaşdırması nəticəsində sosial ziddiyyətlər gərginləşirdi. Xalqın bütün sosial təbəqələrinin iştirak etdiyi tətillər, nümayişlər və s. etiraz tədbirləri daxili sosial-siyasi həyatın xarakter cəhətinə çevrilirdi.

Belə bir şəraitdə 1967-ci ildə keçirilən seçkilərdə Milli Konqres partiyasının rastlaşdığı uğursuzluqlar haqqında irəlidə danışılmışdır. Partiya ümumiyyətlə qalib gəlsə də, kifayət qədər yer itirmişdi. Sağ partiyalar isə əvvəlki dövrlərlə müqayisədə parlamentdə daha çox yerlərə sahib olmuşdular. Hətta marksist kommunistlərin mandatı artmışdı. Bunlar hakim partiyanın daxilində istər mərkəzdə, istərsə də yerli təşkilatlar səviyyəsində çəkişmələri və münaqişələri qızışdırdı. 1966-cı ildən partiya sədrliyinə gələn İndira Qandi (C.Nehrunun qızı) və tərəfdarları bütün bunlardan xilas olmaq və partiyanın əvvəlki nüfuzunu bərpa etmək məqsədi ilə bir sıra cəhdlər göstərmək zorunda qaldılar. Bunlardan ən mühümü iqtisadi dəyişikliklər proqramı idi. Proqrama görə kiçik istehsal müəssisələrinin fəaliyyətini genişləndirməyə yardım edilməsi, dövlət bölməsinin daha çox istehsal sahələrini əhatə etməsi nəzərdə tutulurdu. Lakin İ.Qandinin bu kursu mərkəzdə və yerlərdə partiya rəhbərliyində böyük nüfuz sahibi olan siyasi xadimlər tərəfindən ciddi və kəskin narazılıqla qarşılandı. Prezident vəzifəsinə namizəd irəli sürülməsi məsələsində isə ehtiraslar qızışdı. İ.Qandi tərəfdarının namizədliyinin keçməsi partiyanın parçalanması ilə nəticələndi. Narazılar Konqres Təşkilatı adı altında yeni partiya yaradıldığını və orada birləşdiklərini elan etdilər. Bu parçalanma faktik olaraq hakim partiyada birləşən siyasi qüvvələrin Hindistanın inkişaf istiqaməti haqqındakı fikir müxtəlifliyinin göstəricisi idi. Başqa sözlə desək, sağ yönümlü və sola meylli qüvvələrin öz mövqelərindən geri çəkilməməsi idi. Elə buna görə də sağ yönümlü qüvvələr Konqres Təşkilatı partiyası rəhbərliyinin, sola meylli qüvvələr isə İ.Qandi kursunun dəstəkçiləri oldular. İ.Qandi hökuməti «C.Nehru kursu»nu davam etdirməkdə qətiyyətli olduğunu bəyan etdi və həmin kursun ruhuna uyğun bir sıra qanunların qəbuluna nail oldu. Həmin qanunlara görə on dörd iri bank, eləcə də pərakəndə ticarət milliləşdirildi, dövlət bölməsinin inkişafı üçün tələb olunan vəsaitin miqdarı artırıldı, inhisarçı şirkətlərin fəaliyyəti-

nə qismən məhdudiyyət qoyuldu, bir sıra ştatlarda kiçik torpaq sahələrinə qoyulan vergilər aşağı salındı, torpaq mülkiyyətinin maksimum həddi azaldıldı. Təbiidir ki, bu tədbirlər tam əksəriyyətinin yoxsullardan ibarət olduğu seçicilərin razılığına səbəb olmaya bilməzdi. Elə bu səbəbdən də 1971-ci ildə vaxtından əvvəl keçirilən seçkilərdə Milli Konqres partiyası yenə də qalib gəldi və 350 mandat qazandı. Sağlar isə əksinə, itkiyə məruz qaldılar və cəmisi 46 yer aldılar. İki Kommunist partiyasının birlikdə tutduqları yerin sayı isə 48 idi.

Qeyd etmək lazımdır ki, İ.Qandi hökuməti seçkilərdən sonra da islahatlar kursunu davam etdirdi. Knyazlara verilən təqaüdlər və imtiyazlar ləğv olundu, xarici və yerli özəl sığorta şirkətləri üzərində dövlət nəzarəti qoyuldu və s. Lakin bunlar həm də neqativ nəticələr də doğururdu. Dövlət aparatı şişir, bürokratiyanın təsir və nüfuz imkanlarının miqyası genişlənir, dövlət bölməsinin səmərəlilik əmsalının aşağı olması getdikcə daha çox üzə çıxırdı.

70-ci illərin ortalarına doğru Hindistanda siyasi mübarizənin artması və gərginləşməsi xarakter hala çevrilirdi. Hindistan Milli Konqresinin daxilində yeni bir qruplaşma meydana gəlmiş və bütün gücünü İ.Qandinin tənqidinə yönəltmişdi. Milli Konqresdən kənarda olan müxalifət qüvvələri ölkədə qarışıqlıqlar təşkil edib İ.Qandinin istefaya getməsini istəyirdilər. Onlar bildirirdilər ki, İ.Qandi seçki kampaniyası dövründə qanunları pozmuşdur. İş hətta məhkəməyə qədər gedib çıxdı.

Vəziyyətin kəskinləşməsindən narahat olmağa başlayan İ.Qandi hökuməti çıxış yolunu 1975-ci ilin iyulunda ölkədə fövqəladə vəziyyət elan etməkdə gördü. Hökumət eyni zamanda 20 bənddən ibarət fəaliyyət proqramı da irəli sürdü. Onun əsas müddəaları bunlar idi: 1) əhalini ərzaq və istehlak malları ilə təmin etmək üçün dövlət sisteminin yaradılması; 2) bütün ştatlarda torpaq mülkiyyətinin maksimum həddi haqqında qanunların yerinə yetirilməsi və artıq torpaqların torpaqsız kəndlilər arasında bölüşdürülməsi; 3) kənd təsərrüfatında çalışan muzdluların minimum əmək haqqının müəyyən edilməsi və ev tikmək üçün pulsuz torpaq sahəsi verilməsi; 4) məcburi əməyin aradan qaldırılması və yoxsulların borclarının ləğv edilməsi yollarının axtarılması; 5) torpaq möhtəkirlərinin qarşısını almaq üçün şəhərlərdə torpaq sahibliyinin məhdudlaşdırılması; 6) iqtisadi cinayətlərin (ərzaq ehtiyatları yaradılması, qaçaqmalçılıq,

vergiləri ödəmədən yayınmaq, möhtəkirlik və s. kimi) qarşısının alınması; 7) fəhlələrin istehsalat məsələlərinin həllinə cəlb edilməsi və s.

Proqram müəlliflərinin fikrinə görə o, əhalinin işsizlikdən, torpaqsızlıqdan və hər cür istismardan narazılığını zəiflətməli idi. Bununla yanaşı, hökumət bir sıra məhdudlaşdırıcı qərarlar da verdi. Tətillər qadağan olundu, fövqaladə rejim dövründə bahalığa görə verilən yardımlar ləğv edildi, vətəndaş hüquqları və mətbuat azadlığının pozulması halları çoxaldı, partiyaların fəaliyyətləri bir sıra hallarda müəyyən çərçivəyə salındı. İ.Qandinin şəxsi hakimiyyətini möhkəmləndirmək istiqamətində cəhdlər və sə'ylər göstərildi. İ.Qandinin oğlu Sancayın davranışlarında müəyyən hədləri saxlamaması, demoqrafik partlayışdan xilas olmaq üçün məcburi cinsəl sterilizasiya aparılması, gecəqondu xarabalıqlarını uçurmaqla səfalət içində boğulan yoxsulların yurdsuz-yuvasız qoyulması və hətta onların zorla şəhər hüdudlarından kənara çıxarılması və s. zorakılıqlar xalqın bütün sosial təbəqələri arasında, xüsusilə də yoxsullar arasında Hindistan Milli Konqresinə olan etimadı və inamı öldürdü. Milli Konqres nüfuzunu itirdi. İ.Qandinin bu siyasətindən narazı olan qüvvələr ondan ayrıldılar və Demokratiya uğrunda Konqres partiyasını yaratdılar. Milli Konqresdən kənarda olan siyasi qüvvələr də Canata parti blokunda birləşdilər. Belə bir şəraitdə 1977-ci ildə keçirilən seçkilərdə Canata parti bloku qələbə çaldı. İstiqlaliyyətdən sonrakı dövrdə ilk dəfə idi ki, Milli Konqres məğlubiyyətə uğradı və ilk dəfə idi ki, müxalifət liderinin - M.Desainin başçılığı altında hökumət təşkil edildi.

Lakin çox keçməmiş məlum oldu ki, qalib blokun antikonqress zəmnində birləşməsi onun digər məsələlərdə də birliyi demək deyildir və buradakı siyasi qrupların hər birisinin özünə məxsus marağı vardır. İlk fikir ayrılığı elə hökumətin təşkili ilə başladı: daxili siyasət məsələlərinin həlli yolu haqqında hər qrup öz fikrini müdafiə edirdi. Dövlətin tənzimləyici funksiyasını aradan qaldıraraq kiçik və orta özəl müəssisələrin fəaliyyətinə geniş imkanlar yaradılacağı haqqında verilən vədlər doğrulmadı. Əksinə, qiymətlərin və inflyasiyanın artması onların fəaliyyət imkanlarını pisləşdirdi. Enerji çatışmazlığı, kommunikasiya və nəqliyyatın işində baş verən dayanmalar və s. vəziyyəti daha ağırlaşdırdı. Ərzaq məhsullarının qiyməti zaman-zaman qalxır, sənaye mallarının bazar qiyməti kənd

təsərrüfatı məhsullarının qiymətindən daha tez yüksəlirdi, istər dövlət, istərsə də özəl bölmədə inkişaf sürəti ləngiyirdi. M.Desai hökumətinin problemləri həll etmək iqtidarında olmamasını hər gün daha çox insan dərk edirdi. Elə buna görə də bu hökumətin ömrü cəmi iki il oldu.

M.Desai hökumətinin ömrünün qısa olması təkcə yuxarıda sadalanan iqtisadi məsələlərlə bağlı deyildi. Müsəlmanlara və aşağı kastaların nümayəndələrinə qarşı edilən zorakılıq hərəkətləri Canata partinin nüfuzuna daha çox zərbə vurdu. Bu baxımdan Canata parti blokunda öz şovinist ovqatı ilə seçilən Bharatiya Cana Sanqh partiyası xüsusilə fərqlənirdi. O, xalqın artan narazılığının qarşısını almağın ən kəsərli yolunu milli və dini münaqişələri qızışdırmaqda görürdü. Bütün bunlar 1980-ci il seçkilərində Canata partinin taleyini əvvəlcədən həll etmiş oldu. Seçki kampniyası dövründə bu vəziyyətdən həm İ.Qandi və həm də onun Milli Konqresdəki tərəfdarları da lazımınca faydalandılar. Onlar xalqa vəd verirdilər ki, zorakılığın qarşısını alacaq, cəmiyyətdə istiqrarı yaradacaq, əhalinin aşağı təbəqələrinin vəziyyətini yaxşılaşdıracaq, iqtisadi sahədə pozitiv dəyişikliklər edəcək, müstəqil xarici siyasət yürüdəcək və Hindistanın beynəlxalq aləmdə rolunun artmasına və istiqlaliyyətin daha da möhkəmləndirilməsinə nail olacaqlar. Bu vədlər seçicilərdə İ.Qandinin başçılıq etdiyi siyasi qüvvələrə, daha doğrusu Hindistan Milli Konqres \İ\ partiyasına yeni rəğbət və inam yaratdı. Bu partiya parlamentin aşağı palatasında yerlərin çoxuna sahib oldu. Həmin ildə doqquz ən iri ştatın qanunvericilik məclisinə keçirilən seçkilərdə də Milli Konqres\İ\ partiyası səkkiz ştatda qalib gəldi. Ümumiyyətlə isə 22 ştatdan 13-də Milli Konqres (İ) partiyası yerlərin çoxuna sahib idi və bu, yuxarı palatada – Ştatlar Şurasında da partiyanın üstün mövqeyə malik olması demək idi.

Burada bir xarakter halı da qeyd etmək istərdik. Hindistanın bütün müstəqilliyi dövründə Qərbi Benqaliya və Keralda yerli hökumətləri bir qayda olaraq ya kommunistlər təşkil etmişlər, ya da onlar hökumətin tərkibində iştirak etmişlər.

## *Hindistan 80-90-cı illərdə*

1980-ci il seçkilərində qalib çıxan Milli Konqres (İ) partiyası İ.Qandinin başçılığı altında yenidən hakimiyyətə sahib oldu. Təbiidir ki, onun qarşısında bir sıra məsələləri təxirə salmadan həll etmək vəzifəsi dayanırdı. İqtisadi müstəqilliyi möhkəmləndirməklə yanaşı sosial münaqişələri bir qədər yumşaltmaq, milli-dini çəkişmələri aradan qaldırmaq, müxtəlif sosial təbəqələr, mərkəzi hakimiyyətlə ştatlar, ümummilli və yerli maraqlar, inteqrasiya məqsədləri və mərkəzdən qaçma qüvvələri arasında mövcud olan ekslikləri tənzim etmək böyük səy və enerji tələb edirdi.

M.Qandi hökuməti bu problemlərin həlli yolunu yenə də C.Nehru kursuna qayıtmaqda, islahatları davam etdirməkdə və qarışıq, yəni özəl və dövlət bölmələrindən ibarət iqtisadi sistemi inkişaf etdirməkdə görürdü və bu istiqamətdə tədbirlər həyata keçirməyə cəhdlər göstərirdi. Aqrar sahədə «yaşıl inqilab» davam etdirilir, daxili və xarici sərmayə hesabına yeni sənaye sahələri və müəssisələr yaradılırdı. Demək lazımdır ki, bu istiqamətdə müəyyən uğurlar da qazanıldı. Xüsusilə ölkənin taxıl ehtiyaclarının ödənilməsi səviyyəsi xeyli yüksəldi. Lakin daxili siyasi vəziyyət gərgin olaraq qalırdı. Hökumətin bu sahədəki cəhdləri nəinki bir səngimə yaratmadı, hətta əks reaksiya verdi. Elə 80-ci illərin əvvəllərindən bir sıra ştatlarda, xüsusilə isə Pəncabda milli və dini zəmində narazılıqlar xeyli artmışdı. Son dərəcə fəallaşın bir sıra sikh təşkilatları, - bunların da başında nüfuzlu «Akali dal» partiyası («Ölməzlər ittifaqı») dayanırdı, - Pəncabın Hindistandan ayrılması və burada müstəqil Xalistan dövlətinin yaradılmasını tələb edirdilər. Amritsar şəhərindəki sikhlərin müqəddəs «Qızıl məbəd»i onların iqamətgahına çevrildi və bura alınmaz bir qala oldu. Mücahidlər məbəddə toplaşır, lazım olan silah-sursat onun anbarlarına yığılırdı. «Qızıl məbəd» siyasi qərarların və gündəlik tədbirlərin qəbul olunduğu bir mərkəz rolu oynayırdı. Burada toplanan qüvvələr təkcə rəsmi dövlət orqanlarına və təsisatlarına qarşı deyil, həm də Pəncab məsələsinin dinc yolla həlli istiqamətində hakimiyyətlə danışıqlara meyl göstərən sikh liderlərinə qarşı mübarizə aparırdılar. Vəziyyət son dərəcə idarəolunmaz halda idi. İ.Qandi hökuməti qəti tədbir görməyə qərar verdi və bu məqsədlə 1984-cü ilin iyununda «Mavi ulduz» kod adı altında bir əməliyyat hazırladı: «Qızıl məbəd»ə qəflətən geniş maqyaslı basqın edildi.

Yüzlərlə insan qətlə yetirildi. Onların arasında sikhlərin liderlərindən Bhindranvale də var idi. «Qızıl məbəd»ə basqın sikhlər tərəfindən çoxsaylı insan qırğınına gətirən bir hadisədən daha çox, müqəddəs məbədin təhqir olunması və murdarlanması kimi qiymətləndirildi. Bu da siyasi hislərlə yanaşı dini hisləri daha da alovlandırmaya bilməzdi. Sikhlərin cavabı 1984-cü ilin 31 oktyabrında baş nazir İ.Qandinin qətlə yetirilməsi oldu. Bu sui-qəsddən sonra isə hindus-sikh qırğınları zəncirvari reaksiya halında bir sıra ştatlara yayıldı. Hinddilli ştatlarda hinduslar sikhlərə qarşı, Dehli və Pəncabda isə əksinə, sikhlər hinduslara qarşı qırğınlar törədir, terror aktları təşkil edirdilər.

Anasından sonra baş nazir olmuş Raciv Qandi bütün gücünü bu qırğınların qarşısını almağa yönəltdi və müəyyən qədər də məqsədinə nail ola bildi. O, Pəncab məsələsinin siyasi yolla çözülməsi kursuna önəm verəcəyini e'lan etdi, hətta 1985-ci ilin iyulunda,- Amritsar hadisələrindən bir il sonra, - «Akali dal» partiyasının lideri S.Lonqoval ilə saziş də imzalaya bildi. Sazişin şərtlərinə görə tərəflər qarşılıqlı güzəştlər zəmnində problemin həll edilməsini mümkün hesab edirdilər. Lakin bu saziş bir mənalı qarşılanmadı. Terror aktları yenə də davam etdirildi. Bir sıra hind siyasi xadimləri, o cümlədən S.Lonqoval da bu terrorların qurbanı oldular. 1986-cı ilin aprelində isə müəyyən sikh siyasi qüvvələri Xalistan dövlətinin yaradıldığını elan etdilər. Məsələnin həlli üçün hökumətlə danışıqlar aparmağa hazır olduqlarını bildirən «Qızıl məbəd»in baş xadimi və sikh məbədlərini idarə edən komitənin katibi 1988-ci ilin iyununda öldürüldülər.

Qeyd etmək lazımdır ki, Xalistan dövləti yaratmaq istəyən siyasi qüvvələrin sərəncamında kifayət sayda silahlı dəstələr vardır. Bu dəstələrin də hər birində minlərlə döyüşçü toplaşmışdır və onlar lazım bilinən bütün tədbirlərin yerinə yetirilməsində fəal iştirak edirlər. Xalistan tərəfdarları maddi baxımdan istər Hindistanın daxilindəki zəngin sikhlər tərəfindən, istərsə də xaricdə yaşayanlar tərəfindən maliyyələşdirilirlər. Müşahidəçilər onların Pakistandan da dəstək aldığı qənaətindədirlər. Bununla yanaşı Ümumhindistan sikh təşkilatı da vardır və bu təşkilatın şöbələri ABŞ, Böyük Britaniya, Kanada və s. kimi ölkələrdə fəaliyyət göstərirlər. İkinci nüfuzlu və güclü təşkilat Sikh gənclər təşkilatlarının beynəlxalq federasiyasıdır. Onun da bir sıra ölkələrdə şöbələri vardır. Bu təşkilatlar Xalistan tərəfdarlarına hər cür yardım göstərirlər. O ki qaldı Xalistan

tərəfdarlarının mübarizə üsullarına, bu, əsasən Pəncabda yaşayan hindli azlığın oradan qovulması və bu zəmində əyalətdə milli-dini təmizləmə aparılması üçün müxtəlif aksiyalardan ibarətdir. Həm də bu aksiyalar zamanı çoxlu insan tələfatı olur. Əgər 1987-ci ildə qətlə yetirilənlərin sayı yüzlərlə hesablanırdısa, bu rəqəm 1988-ci ildə minlərə çatmışdı.

1990-cı ildə Cammu və Kəşmir ştatında da yenidən vəziyyət kəskinləşdi. Bir qədər irəlidə dediyimiz kimi, əhalisinin əsasən müsəlmanlardan ibarət olmasına baxmayaraq ştat Hindistanın tərkibində qalmışdır və Pakistan bu faktla heç zaman razılaşmamışdır. Eyni zamanda Cammu və Kəşmirin özündə də kifayət qədər güclü siyasi qüvvələr vardır ki, onlar da Hindistanın tərkibində olmaq faktını qəbul etmir və ona qarşı çıxırlar. Bu qüvvələrin böyük hissəsi Cammu və Kəşmirin Azadlığı Cəbhəsində birləşmişlər. Bu təşkilatın əsas məqsədi müstəqil Cammu və Kəşmir dövləti yaratmaqdır. Hindistan da öz növbəsində bu ştatın onun tərkibində qalması üçün mümkün olan bütün vasitələrdən istifadə etmişdir. Hələ 1952-ci ildə Hindistan hökuməti və maxaraca (knyaz) arasında bağlanan sazişə görə Kəşmirin Hindistanın tərkibinə girməsi elan olunub, 1956-cı ildə isə ştatın qanunvericilik məclisinin qəbul etdiyi Konstitusiyaya görə «Kəşmir Hindistan İttifaqının tərkib hissəsi» adlandırılıbdır. Nə Pakistan, nə də Cəmmu və Kəşmirin özündə olan çoxlu siyasi qruplar bu aktları tanımırlar və əyalətin Pakistana birləşməsi və ya da müstəqil dövlətə çevrilməsi tələbindən çəkinmirlər. Cammu və Kəşmirin Azadlığı Cəbhəsi isə müstəqil dövlət yaratmaq istiqamətində əməli addımlarını kifayət qədər çoxaltmışdır. Bütün bunların nəticəsində 1987-ci ildə ştatda vəziyyət son dərəcə kəskinləşdi. Terror aktları çoxaldı, istər hindlilər, istərsə də müsəlmanlar arasından qətlə yetirənlərin sayı yüzlərlə idi, insanlar girov götürülür, müxtəlif təyinatlı ev və binalar partladılırdı. Əyalətin istiqlalına nail olmaq üçün silahlı dəstələr təşkil olunur və müəyyən hərbi düşərgələrdə təlim keçən döyüşçülər bu dəstələrə cəlb olunurdular. Vəziyyətin tədricən nəzarətdən çıxdığını görən hökumət ciddi cavab tədbirlərinə əl atdı. Ştatda komendant saatı tətbiq edilməsi, müxalifət təşkilatları və qazetlərin fəaliyyətinin dayandırılması, şübhə doğuran şəxslərin yoxlanılması, evlərin axtarılması, nümayişçilərin atəşə tutulması və s.kimi tədbirlər görülməsinə baxmayaraq, yerli hakimiyyət orqanları vəziyyətə nəzarəti bərpa edə bilmədilər. Mövcud polis qüvvələri

daha da artan e'tirazlar qarşısında aciz qalmışdı. Belə olduqda Srinaqar ştatının paytaxtına hökumət nizami ordu qüvvələri yeritdi. Qanlı faciələr baş verdi. Təbiidir ki, bütün bu hadisələr vilayətin həyatının müxtəlif sahələrinə, xüsusilə isə iqtisadiyyata güclü zərbə vurdu. Əsasən azad sənət və xırda iş adamları olan hindus əhali arasında Kəşmirdən qaçma halları artdı.

Qeyd etmək istərdik ki, Kəşmirdə baş verən hadisələrin təməlində təkcə konfessional münaqişələr dayanmır. Əhali mərkəzi hökumətin əyalətə qarşı yürütdüyü ayrı-seçkilik siyasətindən də narazıdır. Bu siyasətin nəticəsidir ki, əyalət iqtisadi geriliyə məhkum vəziyyətinə düşmüş, kütləvi işsizlik və səfalət baş alıb gedirdi. Dövlət mə'murları korrupsiyaya qurşanmış, hakimiyyət orqanlarının əhaliyə qarşı özbaşınalıq və qəddarlığı tüğyan edirdi. Vəziyyətin daha da ağırlaşması hökumətin və müxtəlif siyasi partiyaların problemə baxışında ciddi dönüş yaratdı. Cəza və təqiblər siyasətindən problemi danışıqlar yolu ilə həll etmək kursuna keçildi. Hətta, hökumətdə Kəşmir problemi üzrə nazir vəzifəsi də təsis edildi. Lakin porblem 1990-cı ildə həll edilməmiş qaldı.

80-ci illərdə Hindistanın başqa ştatlarında da milli və dini zəmində mərkəzdən qaçma xarakterli münaqişələr artmışdı. Bu baxımdan Mizoram, Assam, Tripur və Naqalend rayonlarını xüsusilə qeyd etmək lazımdır. Bombey, Mirut, Dehli və s. yerlərdə hinduslarla müsəlmanlar arasında baş verən toqquşmaların sayı-hesabı yox idi. Hökumət bu problemlərin həllində də danışıqlar yoluna önəm vermək zorunda qaldı. Banqladeşdən Assama köçüb gəlmə problemini qaydaya salmaq üçün hökumət ştatın liderləri ilə müvafiq saziş imzalamağa nail ola bildi. Qərbi Benqaliyada qurkhların Milli Azadlıq Cəbhəsi ilə antihökumət hərəkatın dayandırılması haqqında, Tripur və Mizoramda ayrılmaq uğrunda çıxışların dayandırılması haqqında müxalifət təşkilatlarının liderləri müvafiq sazişlər imzalandı. Lakin bu tədbirlər problemlərin həlli yolunda əsaslı bir nəticəyə gətirmədi, sadəcə onların həlli bir qədər təxirə salındı. Ancaq bu problemlərin cözülməsi Hindistan hökumətinin qarşısında duran və hər an yenidən alovlana bilən bir vəzifə olaraq qalır. Çünki, belə bir fakt inkar oluna bilməz ki, Pəncab, Kəşmir və digər rayonlarda yerli antihökumət və antidövlət hərəkatlar əhalinin çox böyük hissəsi tərəfindən dəstəklənir və rəğbətlə qarşılanır. Bu baxımdan Hindistan İttifaqında ayrı-ayrı etnosların və ya dini icmaların ayrılmaq və müstəqilləşmək

uğrunda mübarizəsinin həlli zaman getdikcə hökumətin vəziyyətini bir qədər də ağırlaşdırdı.

Bir sıra həlli çətin olan problemlərlə üz-üzə qalması ilə yanaşı haqqında danışılan dövrdə Hindistanın sosial-iqtisadi inkişaf sahəsində müəyyən uğurları olmuşdur. Hindistan sənaye məhsulları istehsalının həcminə görə dünyanın irəlidə gedən on ölkəsi sırasına çıxa bilmişdir. Okean gəmiləri, kosmik cihaz və avadanlıqlar, dizel mühərrikləri, mikrokalkulyatorlar və s. kimi bir sıra müasir mürəkkəb məhsul istehsalı texnologiyası mənimsənilmişdir. İnsanların orta yaş həddi müstəmləkə dövrü ilə müqaisədə iki dəfə artmış və 1988-ci ildə 58 yaşa çatmışdır.

Aqrar sahədəki uğurun göstəricisi kimi taxıl istehsalının üç dəfə artmasını qeyd etmək istərdik. Ölkədə güclü elmi-texniki potensial yaradılmışdır. Burada ən mühüm sahələr kosmik və nüvə tədqiqatlarıdır. Savadlıların sayı iki dəfə artmış, tələbələrin sayı isə xeyli çoxalmışdır.

Ancaq inkişaf sosial-iqtisadi həyatın bütün sahələri üçün xarakter deyildi. Əksinə, çoxlu problemlər kəskin olaraq qalırdı. Bunların ən ciddisi daim artan xarici borcdur. 1988-ci ildə ölkənin xarici borcu 40 mld dollara bərabər idi. Bu da ölkənin ixracatından gələn gəlirdən üç dəfə artıqdır. Savadlıların sayı artsa da, əhalinin yarısı oxumağı-yazmağı bacarmır. Aşağı kastaların hüquqsuzluğu, işsizliyin kütləvi olaraq qalması sosial ziddiyyətlərin hər an partlamasının mənbəyidir. Bir tərəfdə əhalinin hər üç nəfərindən birinin yoxsulluq həddindən aşağı səviyyədə yaşaması, o biri tərəfdə iri sənayeçilərin əlində çoxlu müəssisələrin cəmləşməsi, qara bazardan və iqtisadi çətinliklərdən tüfeyli bürokratların yararlanaraq zənginləşməsi ölkə həyatının reallığına çevrilmişdi.

Aqrar məsələnin həlli başa çatdırılmadığından 80-ci illərdə əkin sahələrinin dörddə biri 4% iri təsərrüfat sahiblərinin əlində cəmlənmişdi. Kənd əhalisinin 75%-i də eyni ölçüdə torpaq sahəsinə sahib idi. Əhalinin mütləq çoxluğunun kəndli olduğunu nəzərə alsaq vəziyyətin ağırlığını təsəvvür etmək çətin deyil.

Demoqrafik vəziyyət ciddi çətinliklər yaradırdı. Əhalinin artım sürəti çox yüksək idi. Bu rəqəmlərə fikir verək: 50-ci illərin əvvəlində Hindistanda 400 mln-a yaxın insan yaşayırdısa, 1988-ci ildə onların sayı 810 mln-a çatdı. Doğrudur, 80-ci illərdə əhali artımı bir qədər azalsa da-0,2,1% oldu,- 2000 -ci ildə 1 mld nəfərdən az

olmayacağını bütün müşahidəçilər təsdiq edirlər. Təbiidir ki, bu böyük ölçüdə əlavə ehtiyaclar yaradırdı. Onun öhdəsindən gəlmək dövlət üçün asan deyildi. 70-ci illərdə hökumətin zorakı cinsəl sterializasiya (dölsüzləşdirmə) metodları ilə doğumu məhdudlaşdırmaq cəhdləri əhalinin müxtəlif təbəqələri, xüsusilə isə ölkə xalqının dörd nəfərdən üçünü təşkil edən kəndlilər tərəfindən ciddi narazılıqla qarşılandı. Odur ki, sonrakı illərdə dövlət bu problemin tənzimlənməsində daha çox könüllülük prinsipinə üstünlük verməyə başladı. Bu məqsədlə əhali arasında izahat işləri aparılır, tibbi yardımlar, sanitar-gigiena işlərinə qoyulan vəsait artırılır, erkən nigahdan qaçınmaq təbliğ olunurdu. Təbiidir ki, əhalinin olduqca mühafizəkar ənənələrə sədaqət ruhunda olması səbəbindən haqqında danışdığımız tədbirlər o qədər də səmərəli ola bilmir. Hindus ənənələrlə bağlı ən ağır məşəqqətləri nəinki normal qəbul edir, əksinə onlardan imtinanı özü üçün məşəqqət sayır. Belə bir misalı xatırlamaq yerinə düşərdi. Lap əski zamanlardan sati adlanan adətə görə ər öldükdə arvadı da diri-diri onunla birlikdə yandırırlar və ya ölmüş ərlə birlikdə diri-diri dəfn edirlər. Adətin qadağan edilməsi və bu qayda ilə dul qadınları məhv edənlərə qarşı ağır cəzalar verilməsi haqqında 1987-ci ildə parlamentin qanun çıxarmasına, ştatların böyük nazirlərinə yerlərdə müvafiq qanunların tətbiqinin tövsiyə olunmasına baxmayaraq sati bu gün də vardır.

Ümumiyyətlə etnokonfesional münaqişələrin artması nəticəsində bir sıra ştatlarda böhranlı vəziyyətin yaranması, iqtisadi vəziyyətin ağırlığından əhalinin çox böyük hissəsinin narazılığının kəskinləşməsi, dövlət aparatında korrupsiyaya qurşanma hallarının genişlənməsi hakimiyyəti daxildən sarsıdır, ona olan inamı zəiflədirdi. Rüşvətxorluq və talançılıq tüğyan edirdi. R.Qandinin e'tirafına görə yoxsulların həyat minimumunu tə'min etmək üçün büdcədən ayrılmış vəsaitin yalnız 15%-i təyinatı üzrə xərclənirdi, qalan hissəsi isə dövlət məmurları tərəfindən mənimsənilirdi. Rüşvətxorluqla bağlı ən böyük dava-dalaş 1987-ci ildə orduya artilleriya silahları almaq üçün «Bofors» adlı İsveç şirkəti rəhbərlərindən dövlət məmurlarının böyük məbləğdə rüşvət götürməsi faktının açıqlanması ilə baş verdi. Müxalifətin bu hadisə ilə bağlı bir sıra dövlət adamlarını ittiham etməsi böyük əks-səda verdi. Hindistan Milli Konqres (İ) partiyasının nüfuzu sarsıldı. Beş müxalifət partiyası isə birləşərək Milli Cəbhə yaratdılar.

1989-cu ilin yanvarında Tamilandda yerli qanunvericilik məclisinə keçirilən seçkilərdə Milli Konqres (İ) partiyası böyük məğlubiyyətə uğradı, 234 yerdən cəmisi 25 mandat qazandı. Parlamentin aşağı palatasına keçirilən seçkilərdə də bu ənənə davam etmişdir. 1989-cu ilin sonlarındakı parlament seçkilərində Milli Konqres (İ) partiyası 525 yerdən 193-nə sahib oldu. Doğrudur, bu rəqəm başqa partiyalırın qazandığı yerlərin sayından artıq idi,- məsələn, Milli Cəbhənin 144 mandatı var idi,- lakin o, hökumət təşkil etmək imkanı vermədi. 88 yeri olan Bharatiya Canata parti və hətta onlara əks qütbdə dayanan və birlikdə 44 deputatı olan iki kommunist partiyaları da Milli Cəbhə hökumətini dəstəkləmək qərarında oldular. Milli Cəbhənin lideri V.P.Sinqhin başçılığı ilə hökumət yarandı. Qeyd etmək lazımdır ki, V.P. Sinqh uzun müddət Milli Konqres partiyasının sıralarında siyasi mübarizə aparan tanınmış liderlərdəndir. Hindistanda ən böyük ştatlardan Uttar-Pradeşdə böyük nazir olmuş, hökumətdə müdafiə və maliyyə naziri vəzifələrində çalışmışdır. Lakin 1987-ci ildə Hindistan Milli Konqres (İ) partiyasından çıxmışdır. Həm də bu zaman e'lan etmişdi ki, o, C.Nehru və İ.Qandi ideallarına sadiq olaraq qalacaqdır. V.P.Sinqh vergi ödəməkdən yayınan iri iş adamlarının fırıldaqlarını açmaqda, yüksək vəzifəli dövlət məmurları arasında korrupsiyaya qurşanmaların faş edilməsində ciddi və risqli hərəkətlərinə görə xalq arasında böyük nüfuz və hörmətə sahib idi. Lakin onun başçılıq etdiyi hökumət daha çox bir tərəfdən kommunistlərdən, o biri tərəfdən isə Bharatiya Canata partiya kimi millətçi qüvvə tərəfindən göstəriləcək dəstək və kömərdən asılı idi. Hökumətin fəaliyyət proqramında sayı 100 mln-u keçmiş müsəlmanların maraqlarının, Pəncab və Kəşmir problemlərinin, eləcə də bir sıra sosial-iqtisadi və xarici-siyasi həyatla bağlı məsələlərin həlli əsas yer tuturdu.

Hindistanın xarici siyasətinə gəlincə, onun əsasən qonşularla dinc yanaşı yaşamaq xəttinə üstünlük vermək cəhdlərini qeyd etmək lazımdır. Hindistan dünyada üçüncü blok kimi meydana gələn tərəfsiz dövlətlər hərəkatının ilk gündən nüfuzlu liderlərindən biri olmuşdur.

Bununla yanaşı, irəlidə dediyimiz kimi, Hindistan dövlət müstəqilliyini bərpa etdiyi gündən zəmanəmizədək həlli problem olaraq qalan bir sıra məsələlərlə üz-üzə qalmışdır. Bunlardan birisi kimi Cammu və Kəşmir əyaləti ilə bağlı bəzi cəhətlərə toxunmuşuq. Məhz Cəmmu və Kəşmirlə bağlı olaraq Hindistanın çoxəsrlik ortaq

tarix və mədəniyyətə malik olduğu qonşu Pakistanla münasibətləri hələ də gərgin olaraq qalır. Cəmmu və Kəşmir üstündə iki dövlət arasında 1947-1948-ci, 1965-ci, 1971-ci illərdə hərbi münaqişələr baş vermişdir. Doğrudur, Hindistan 1988-ci ildə Pakistanda hərbi rejimin süqutundan sonra iki dövlət arasında münasibətlərin normal axarına düşəcəyinə ümid bəsləyirdi. Lakin 1990-ci ildə Kəşmirdəki müxalifət qüvvələrinin fəallaşması münasibətləri daha da pisləşdirdi.

Hindistan 80-ci illərdə Cənubi Asiya ölkələrinin regional əməkdaşlığına xüsusi əhəmiyyət vermişdir və bu əməkdaşlığın müəyyən təşkilatı forma almasına da çalışırdı. Bu məqsədlə 1985-ci ildə Dakkada region ölkələrinin iştirakı ilə keçirilən konfransda Cənubi Asiyanın regional əməkdaşlıq təşkilatı (SAARK) yaradılmışdır. SAARK-da Hindistan, Pakistan, Banqladeş, Şri Lanka, Nepal, Butan və Maldiv respublikası birləşmişdir. Təşkilatın əsas məqsədi onun üzvləri arasında iqtisadi və mədəni əməkdaşlığı inkişaf etdirmək və region xalqlarının sosial tərəqqisinə nail olmaq məqsədilə dövlətlər arasında çoxtərəfli münasibətlər qurulması və ümumi səylərin birləşdirilməsidir. Təşkilatın ali orqanı üzv olan dövlətlərin başçıları və baş nazirlərinin illik konfransıdır. SAARK-ın 1988-ci ilin dekabrında İslamabadda keçirilən konfransının gedişində münasibətləri tənzim etmək üçün Hindistan-Pakistan danışıqları da olmuşdur.

Hindistanın xarici siyasətdə önəm verdiyi xətlərdən birisi Sovet İttifaqı ilə geniş münasibətlər qurmaq idi. İki dövlət rəhbərləri arasında qarşılıqlı görüşlər və danışıqlar aparılması 1971-ci ilin 9 avqustunda Dehlidə «Sülh, dostluq və əməkdaşlıq haqqında» müqavilə bağlanması ilə başa çatmışdır. Müqavilənin müddəti 20 il üçün nəzərdə tutulurdu və tərəflərdən biri onun qüvvədən düşdüyünü elan etməzdisə, müddət daha 5 ilə uzanırdı. Müqaviləyə görə tərəflər onlardan birinə qarşı yönəldilmiş hərbi ittifaqlarda iştirak etməmək, öz ölkəsinin ərazisindən qarşı tərəfə qarşı düşmənçilik məqsədilə istifadə olunmasına yol verməmək, tərəflərdən birisi hücum təhlükəsi ilə qarşılaşarsa birgə məsləhətləşmələr aparmaq və müvafiq qərarlar qəbul etmək öhdəliklərini yerinə yetirməli idilər. Bu iki dövlət arasında daha bir mühüm hadisə 1986-cı ilin noyabrında nüvə silahından və zorakılıqdan azad dünya prinsipləri haqqında Dehli bəyanatının imzalanması oldu. Bəyanatda aşağıdakı prinsiplər öz əksini tapmışdı: 1) dinc yanaşı yaşamaq beynəlxalq münasibətlərin universal norması olmalıdır; 2) insan həyatı ən yüksək sərvət kimi

dəyərləndirilməlidir; 3) qeyri-zorakılıq bəşər həyatının əsası olmalıdır; 4) qarşılıqlı anlaşma və etimad qorxu və şübhəni əvəz etməlidir; 5) hər bir dövlətin siyasi və iqtisadi müstəqillik hüququ tanınmalı və hörmət edilməlidir; 6) silahlanmaya sərf olunan ehtiyatlar sosial və iqtisadi inkişafa yönəldilməlidir; 7) şəxsiyyətin hərtərəfli inkişafı üçün bütün şərtlər təmin olunmalıdır; 8) bəşəriyyətin maddi və intellektual imkanları qlobal problemlərin həllinə xidmət etməlidir; 9) «qorxu tarazlığı» yerini ümumi beynəlxalq təhlükəsizlik tutmalıdır; 10) nüvə silahından və zorakılıqdan azad dünya tərksilah istiqamətində konkret və təxirəsalınmaz tədbirlər tələb edir. Təbiidir ki, Dehli Bəyanatı elan etdiyi prinsiplər baxımından dünya reallıqlarına, ictimai quruluşundan asılı olmayaraq bütün dövlətlərarası münasibətlərə yeni bir baxış kimi qiymətləndirilə bilər. Lakin bu prinsiplərin altına öz imzasını qoyan Hindistan Cənubi Asiyada nüvə silahından azad zona yaradılmasını dəstəkləmədi və nüvə silahının yayılmaması haqqında müqaviləyə qoşulmadı. Hindistan belə hesab etdi ki, bu müqavilə nüvə silahına malik olmayan ölkələrə qarşı ayrı-seçkilik yaradır.

90-cı illər Hindistanın tarixində nələrlə xarakterdir?

Daxili siyasi həyata baxsaq Hindistan Milli Konqres (İ) partiyası ilə ona müxalifətdə olan qüvvələrin mübarizəsində bir qayda olaraq konqresçilərin uduzduğunu görə bilərik. Milli Konqres (İ) partiyası 1990-cı ilin fevralında yerli özünüidarə məclislərinə seçkilərdə də növbəti dəfə məğlubiyyətə uğradı.

Lakin bununla yanaşı hökuməti təşkil edən Milli Cəbhə daxilindəki qüvvələr arasında münasibətlərin heç də hər zaman möhkəm olmaması V.P. Sinqh iqtidarının sonunu tezləşdirirdi. Elə bu səbəbdən idi ki, V.P.Sinqh hökuməti 11 aydan sonra 1990-cı ilin 7 noyabrında istefa verdi. Çandra Şekaranın başçılıq etdiyi növbəti hökumət isə cəmisi dörd ay işləyə bildi. O da 1991-ci ilin martında istefaya getdi. Ölkədə yaranmış bu siyasi istiqrarsızlıqdan çıxmaq üçün prezident may ayının üçüncü ongünlüyünə seçkilər təyin etməyə məcbur oldu.

Qeyd etmək lazımdır ki, seçkilərin birinci mərhələsinin başa çatdığı 20 mayda Şri Perambudur şəhərində Hindistan Milli Konres\İ\ partiyasının lideri R.Qandi qızışan siyasi ehtirasların qurbanı oldu. O, terror nəticəsində öldürüldü. Buna baxmayaraq konqresçilər seçkilərdə uğur qazana bildilər və müşahidəçilərin rəyinə görə bu

qələbənin əldə edilməsində R.Qandinin öldürülməsi faktı az rol oynamamışdır. Partiyanın yeni sədri V.P.Narasimha Rao baş nazir oldu və onun başçılıq etdiyi hökumət 1996-cı ilin martına kimi fəaliyyət göstərdi. Qeyd etmək lzımdır ki, parlament seçkilərinin arxasınca 1992-ci ilin iyulunda prezident seçkiləri keçirildi və bu vəzifəni Şankar Dayal Şarma tutdu. Həmin dövrdə istər prezident, istərsə də baş nazir Hindistanın böyük dövlət statusunun hüquqi baxımdan həllinə yönəli siyasət xətti götürmüşdülər. Ümumiyyətlə isə müasir hind siyasi elitasının düşüncəsinə görə böyük dövlət statusuna yiyələnmək üçün Hindistan iki məsələni həll etməlidir. Bunlardan birincisi Hindistanın BMT Təhlükəsizlik Şurasına daim üzv seçilməsi, ikincisi isə ölkənin aparıcı sənaye ölkələrindən birinə çevrilməsidir. Təbiidir ki, ikinci vəzifənin yerinə yetirilməsinə zaman tələb olunur məntiqindən çıxış edən liderlər birinci məsələnin həllini reallaşdırmağa cəhd etdilər. İlk dəfə olaraq 1994-cü ilin oktyabrında BMT Baş Məclisində bu məsələ qaldırıldı və uğursuzluqla başa çatdı.

N.Rao hökuməti iqtisadi sahədə də bir sıra islahatlar keçirməyə cəhd göstərdi. Bu islahatlar əsasən vergi sisteminin və valyuta ehtiyatlarının idarə edilməsinin tənzimlənməsi məqsədlərini güdürdü. Ümumiliklə isə N.Rao hökuməti daxili siyasi həyatda xroniki xarakter almış bir sıra problemlərin həlli istiqamətində elə bir ciddi uğurlar qazana bilmədi. Bu da onun siyasi rəqiblərinin şansını artırmaya bilməzdi. Kommunistlər Qərbi Benqaliyədə yerli hakimiyyətə tam yiyələnə bilmişdilər. Kerala və Tripur ştatlarında da onlar böyük nüfuz sahibi idilər. Ayrı-ayrı ştatlarda Bharatiya Canata Parti güclənirdi. 1992-ci ilin dekabrında hindus-müsəlman toqquşmalarının yenidən alovlanması və genişlənməsi bu işdə az rol oynamamışdır. Bütün bunlar onunla nəticələndi ki, 1996-cı ilin martında keçirilən növbəti parlament seçkilərində Milli Konqres (İ) partiyası yenə də uğursuzluğa düçar oldu. Doğrudur, digər partiyalardan da heç biri lazım olan üstünlüyü qazana bilmədi. Odur ki, parlametdə təmsil olunan on üç partiya, o cümlədən Canata Dal partiyası Birləşmiş Cəbhə təşkil etdilər. Parlamentdə 161 yer qazanan Bharatiya Canata Parti lideri Atala Bnharu Vacpainin müvəqqəti hökuməti öz yerini Birləşmiş Cəbhənin lideri Deve Qaodanın koalisyon hökumətinə verdi. Birləşmiş Cəbhənin müxtəlif qayəli və müxtəlif yönümlü partiyalarından,- burada sağlar da var idi, mərkəzçilər də və sol qüvvələr də,- təşkil olunmuş koalisyon hökuməti də fərqli maraqları bir məcraya gətirə

bilmədiyindən 1997-ci ilin 11 aprelində parlament tərəfindən istefaya göndərildi. Milli Cəbhənin digər bir təmsilçisi İnder Kumar Qucaral yeni hökumət yaratdı.

Bu dövrdə Hindistanın daxili siyasi həyatında belə bir xarakter cəhət özünü daha açıq göstərməyə başlayırdı: koalisyon hökumətlərin tez-tez bir-birini əvəz etməsi zəmnində milliyyətçi Bharatiya Canata partinin nüfuzunun yüksəlməsi, Milli Konqres (İ) partiyasının reabilitasiyası. Başqa sözlə desək, bu iki partiya getdikcə daha çox siyasi həyatın aparıcı qüvvələri kimi dəyərləndirilirdi. Bu baxımdan Bharatiya Canata partiyə münasibətin dəyişilməsini xüsusi qeyd etmək lazımdır. 1996-cı ilin martında Vacpai hökumətinin istefasından sonra səslənən «Milliyyətçilik yaramadı!»- sözlərinin çox tələsik və fikirləşmədən söylənildiyi qısa bir zaman kəsiyində bəlli oldu. 1998-ci il parlament seçkilərində partiya 250 yer qazana bildi. Yeri gəlmişkən bir məsələyə də diqqəti cəlb etmək istərdik. O da bundan ibarətdir ki, milliyyətçi lider obrazına olan ümumi baxış da xeyli dəyişibdir. Bu da hər şeydən əvvəl, hindus milliyyətçilərinin müsəlmanlara olan münasibətlərində mötədil ovqatın yaranması ilə bağlıdır. Milliyyətçilər bu faktdan yan keçə bilməyin mümkünsüzlüyünü daha açıq etiraf etməyə başladılar: Hindistan əhalisinin 80%-i hinduizmə etiqad edirsə, 12%-i müsəlmandır və Hindistan dünyada ən çox müsəlman yaşayan ikinci ölkədir. Hətta seçki kampaniyası dövründə Bharatiya Canata partinin lideri Atala B.Vacpai bildirdi ki, partiya üzvləri arasında müsəlmanlar da vardır və o, hər cür irqi və dini ayrı seçkiliyə qarşıdır. Atala B.Vacpainin müsəlman liderləri ilə davamlı görüşləri normal hal olmuşdur. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, 1998-ci ilin martından baş nazir kimi fəaliyyət göstərən A.B.Vacpai bir sıra məsələlərdə daha radikal xarakter göstərməkdə davam edir. O, nüvə silahı istehsalının sürətləndirməkdə israrlıdır. Həm də bunu qonşu Çin və Pakistana qarşı durmaq zərurəti ilə əsaslandırmağa çalışır. A.B. Vacpai Çini « bir nömrəli düşmən» adlandırır, o, hökumətin iqtisadi siyasətinin əsasında «Hindistanı hindlilər özləri qurmalıdır!» prinsipinin durduğunu xüsusi vurğulayır.

Yeri gəlmişkən bir qədər də 90-cı illərdə Hindistanın iqtisadi həyatından danışmaq istərdik. Bəlli olduğu kimi, uzun müddət «Nehru kursu»na uyğun olaraq planlı iqtisadi inkişafa və əsasən də dövlət bölməsinin genişləndirilməsinə önəm verilməsi təcrübəsinin

yararlı olmadığı getdikcə daha artıq dərk olunurdu. Doğrudur, ilk dəfə 80-ci illərin əvvəllərində bu kursun yararsızlığı İ.Qandini düşündürrdü, 80-ci illərin ortalarında R.Qandi iqtisadi vəziyyəti düzəltmək üçün əməli addımlar atmağa cəhd göstərdi, dövlət bölməsinin üstün mövqeyini qorumaqla onun bazar münasibətlərinə uyğunlaşdırılmasına çalışdı. Lakin ölkə 90-cı illərin əvvəllərində ciddi iqtisadi çətinliklərlə üz-üzə qalmışdı. Səmərəsiz və nəhəng dövlət bölməsi demək olar ki, nəinki heç bir gəlir gətirmir, hətta zərərlə işləyir, özəl bölmənin fəaliyyətinə müxtəlif məhdudiyyətlərin qoyulması onun inkişafını boğur, balans-tədiyyə sistemində böhranlı vəziyyət yaranırdı. Ölkə maliyyəsi iflas həddinə çatdığından xarici investorlar ölkədən gedirdilər. Hindistan öz iqtisadi göstəricilərinə görə təkcə inkişaf etmiş sənaye ölkələrindən deyil, həm də qonşu Asiya ölkələrinin iqtisadi səviyyəsindən aşağıda dururdu. 1991-ci ildə hakimiyyətə gəlmiş Milli Konqres (İ) partiyasının lideri N.Raonun başçılıq etdiyi hökumət yaranmış iqtisadi vəziyyətdən çıxmağın yolunu mövcud iqtisadi kursdan imtina edərək yeni iqtisadi kursa keçməkdə gördü. Yeni iqtisadi siyasət kursu elan edildi. Onun əsas məqsədi iqtisadiyyatın liberallaşdırılması oldu. Dövlət bölməsinin özəlləşdirilməsi və xarici kapitalın ölkəyə gəlməsinə əlverişli imkanlar yaradılması yeni iqtisadi siyasətin başlıca istiqamətləri oldu. Təbiidir ki, illərlə əsas iqtisadi fəaliyyətin dövlət bölməsinə söykəndiyi bir ölkədə bazar münasibətlərinə keçilməsi ciddi narazılıqlar doğurmaya bilməzdi. Lakin N.Rao hökuməti yeni iqtisadi kursun reallaşdırılmasından geri çəkilmədi və bu işdə maliyə naziri M.Sinqh xüsusi rol oynamışdır. Bu da maraqlıdır ki, bir zamanlar M.Sinqh solçu görüşlər və C.Nehrunun «sosializm» konsepsiyasının tərəfdarı kimi məşhur olmuşdur. Bütün beynəlxalq təşkilatlarda və forumlarda zəngin «Şimal» və yoxsul «Cənub» problemlərinə xüsusi önəm vermiş və «Cənubun» maraqlarının qatı müdafiəçisi rolunda çıxış etmişdir. Lakin məhz M.Sinqh 1991-ci ilin iyulunda parlamentdə ölkənin iqtisadi inkişaf kursunda tamam bir dönüş yaratmaq məqsədilə mövcud xətdən imtina etmək təklifini irəli sürdü. Yuxarıda da dediyimiz kimi bu yeni xətt ölkə iqtisadiyyatında liberal dəyərlərə önəm verilməsi idi.

Hindistanda xarici kapitalın ölkəyə gəlməsini qloballaşdırma siyasəti kimi dəyərləndirir və bununla ölkə iqtisadiyyatının dünya təsərrüfatının bir üzvi hissəsinə çevrildiyini nəzərdə tuturlar. Elə

buna görə də hökumət iqtisadi islahatlar proqramını Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Bərpa və İnkişaf Bankının irəli sürdüyü tələblərə uyğun olaraq həyata keçirirdi. Həm də bu islahatlara qarşı çıxanlara qonşu Asiya ölkələrinin təcrübəsi nümunə olaraq göstərilirdi. Bütün çətinliklərə baxmayaraq islahatlar öz müsbət nəticəsini verməyə başladı. Elə ilk ildə ixrac 20% artdı, idxal isə 3% azaldı. Dünya bazarında hindistan məhsullarının rəqabət gücü yüksəldi. 1993-cü ildə ümumi milli istehsal 4% çoxaldı, ölkədə iqtisadi istiqrar yarandı. Bu da milli pul rupinin qiymətdən düşməsinin qarşısını aldı, ölkədə valyuta ehtiyatlarının 6 dəfə artmasına imkan yaratdı. Artıq 1994-cü ildə bu ehtiyatlar on milyard dollara bərabər idi. Əhalinin adambaşına düşən gəliri kifayət qədər yüksəldi. İslahatın ən mühüm nəticələrindən biri kimi ölkədə orta təbəqənin sayca xeyli böyüməsi və cəmiyyətdə rolunun artması oldu. Digər mühüm nəticə kimi qeyd etmək istərdik ki, ölkə əhalisinin 70%-ə qədəri uzun müddət yoxsulluq həddindən belə aşağı səviyyədə yaşayırdısa, bu rəqəm 1997-ci ildə 37%-ə endi. Şəhər əhalisinin savadlılıq səviyyəsi 18%-dən 52,1%-ə yüksəldi. Xırda istehsal müəssisələrinin sayı iki dəfədən çox artdı. Sənayedə çalışan insanların 80%-i məhz xırda müəssisələrin payına düşür. İxracatdan gələn gəlirlərin də 45%-i bu müəssisələrin hesabınadır.

Təbiidir ki, bütün bu işlər xarici kapitalın ölkə iqtisadiyyatına cəlb edilməsi hesabına edilirdi. İslahatların keçirildiyi ilk illərdə ölkəyə gələn kapitalın ümumi həcmi 16 dəfəyədək artmışdı.

Hökumət aqrar sahədə də yaranmış durğunluğun aradan qaldırılması yolunda bir sıra tədbirlər gördü. «Yaşıl inqilab» adı ilə tanınan bu tədbirlər kompleksinin tətbiqi sayəsində kənd təsərrüfat məhsulları istehsalının səviyyəsini qaldırmaq mümkün oldu.

1995-ci ildə rekord məhsul əldə edildi-200 mln tona yaxın taxıl yığıldı. Hindistan nəinki özünü kənd təsərrüfat məhsulları ilə təmin edə bildi, həm də ixrac da etməyə başladı. 1996-cı ildə adam başına düşən gəlir 2400 rupiyə bərabər idi ki, bu rəqəm əvvəlki dövrlərlə müqaisədə xeyli yüksək idi. Ərzaq probleminin həlli ilə yanaşı, kənddə çoxsaylı və nüfuzlu fermerlər təbəqəsi yarandı ki, onlar təkcə iqtisadi həyata yox, həm də siyasi həyata nüfuz etmək gücündədirlər. Bu gün aqrar sahədə zəmindar yox, icradar söz sahibidir, münasibətləri sələmçi və ya kəndxuda yox, fermerlər tənzim edirlər. Aqrar sahənin maliyyələşdirilməsi üçün məxsusi

banklar yaradıldı, kəndli dövlətdən güzəştli kre-ditlər almaq imkanına sahib oldu.

İqtisadiyyatın liberallaşdırılması kursu sonralar da, hətta onu ciddi tənqid edən Bharatiya Canata parti lideri Atala Bihari Vacpai hökuməti dövründə də davamlı olaraq həyata keçirilirdi. A.B.Vacpai hökumətinin bu siyasətə gətirdiyi yenilik «svadeşi» termininə tez-tez müraciət edilməsidir. Bəlli olduğu kimi «svadeşi» termini «öz gücünə arxalanmaq» mənasını daşıyır.

Son illərdə iqtisadi inkişaf kursunda belə bir xəttə üstünlük verdilər ki, ölkə təkcə məhsul istehsalının bolluğu ilə kifayətlənə bilməz. İndi əsas vəzifə bu məhsulların yüksək keyfiyyətli olmasını təmin etməkdir, onların dünya standartları səviyyəsinə qaldırılmasına nail olmaqdır. Yeni əsrin elm, yüksək texnologiya və informasiya əsri olacağını nəzərə alan hökumət məhz bu sahələrin inkişafına xüsusi önəm verir. Hindistanda belə hesab edirlər ki, məhz bu kurs imkan verəcəkdir ki, ölkə XXI əsrin ikinci onilliyində ümumi milli məhsul istehsalının həcminə görə dünyanın inkişaf etmiş beş-altı dövlətindən biri olsun. Bunun üçün ölkə iqtisadiyyatının illik artımı 10-12% olmalıdır. 1998-2000-ci illər üçün nəzərdə tutulan iqtisadi inkişaf planında artımın 6,8% olacağı gözlənilirdi. Qeyd etmək lazımdır ki, bu rəqəm 1951-1991-ci illər arasında orta hesabla 3%-ə yaxın olmuşdur.

Vacpai hökuməti də xarici kapitalı nəzərdə tutulan layihələrin maliyyələşdirilməsində mühüm mənbə hesab edir. Lakin müxtəlif dövrlərdə qonşu Asiya ölkələrində baş verən maliyyə böhranlarının nəticələrindən dərs alan Hindistan transmilli korporasiyalardan birbaşa maliyyə yardımları almağa xüsusi üstünlük verməyi başladı. Təkcə 1999-cu ilin yanvar-mart aylarında alınan investisiyaların həcmi 2,4 mld dollar oldu. Halbuki, əvvəlki ildə alınan bütün investisiyaların cəmisi 3,3 mld dollar məbləğində idi.

Bütün bu deyilənləri belə yekunlaşdırmaq olar ki, Hindistanda iqtisadiyyatın liberallaşdırılması və dünya bazarına daha çox inteqrasiya etməsi kursunun zəruriliyi bütün aydınlığı ilə qəbul olunan məsələdir. Lakin bunu da söyləyirlər ki, bu iş ölkənin şərtləri əsasında davam etdirilməlidir, «qarışıq iqtisadiyyat» modeli və dövlətin tənzimləyici rolunun saxlanılması zəmnində və tədricən həyata keçirilməlidir.

90-cı illərdə Hindistan təkcə iqtisadi siyasət sahəsində deyil,

eyni zamanda xarici siyasətdə də müəyyən dəyişikliklər etməyə cəhdlər göstərmişdir. Başqa sözlə desək, bu dövrdə Hindistan dövlətinin xarici siyasəti daha çevik, daha təşəbbüskar və daha praqmatik xarakter daşımağa meylli olmuşdur. Bu baxımdan 1996-97-ci illər üçün Hindistan xarici işlər nazirliyinin hesabatından aşağıdakı fikirlərə diqqəti cəlb etmək istərdik: «Dünyanın siyasi və iqtisadi düzənində daimi dəyişikliklər keçirildiyi dövrdə təhlükəsizlik sahəsində daimi monitorinq və yaranmış şəraiti Hindistanın həyatı maraqlarının müdafiəsi baxımından qiymətləndirmək lazımdır». Bir qədər sonralar baş verən dünya hadisələrini dəyərləndirən Hindistan prezidenti K.R. Narayanan 1999-cü ilin 15 avqustunda İstiqlaliyyət günü münasibətilə xalqa müraciətində açıq-aşkar şəkildə bildirdi ki, «silahlı qüvvələrin daha da möhkəmləndirilməsi və onun ən müasir silahlarla təchiz edilməsi» zərurətdir.

Hindistanın belə bir kurs götürməsi hansı səbəblərdən irəli gəlir?

Səbəblər içərisində ən başlıcası Hindistanın dövlət müstəqilliyinə nail olduğu tarixdən günümüzə kimi onun öz qonşuları ilə münasibətlərindəki ziddiyyətlərin ölçüyə gəlməz dərəcədə şişməsidir. Cammu və Kəşmir məsələsinə görə Pakistanla dəfələrlə hərbi münaqişələr olmuş və hərbi toqquşmalar dövri olaraq baş verməkdədir. Bundan əlavə iki dövlət arasında Hind çayının suyunu bölüşdürmək və s. kimi mübahisəli məsələlər də vardır.

1990-cı ilin əvvəli Hindistan-Pakistan sərhəddində yeni silahlı toqquşmaların başlanması ilə xarakterdir. Hindistan sərhədçilərinin Cammu və Kəşmir ştatına keçmək istəyən adamlara atəş açması nəticəsində iki dövlət arasında münasibətlər yenidən gərginləşdi. Hindistan Pakistanı Cammu və Kəşmir ştatındakı müxalifət qüvvələrini dəstəkləməkdə və onlara yardım göstərməkdə ittiham etdi. Pakistanın baş naziri B.Bhutto isə rəsmi şəkildə bəyan etdi ki, Cammu və Kəşmir ştatında baş verən proseslərdə onun dövlətinin heç bir iştirakı yoxdur. Lakin bununla yanaşı qeyd etmək istərdik ki, Pakistan ümumiyyətlə Cammu və Kəşmir vilayətinin taleyinə heç vaxt biganə olmamışdır və iki dövlət arasında bütün ziddiyyətlərin başlıca qaynağı olan bu problemin ədalətli həllində maraqlıdır. Yeri gəlmişkən demək lazımdır ki, təkcə Pakistan yox, digər müsəlman ölkələri də həmin mövqedən çıxış edirlər. İran, Səudiyyə Ərəbistanı və bir sıra İslam Ölkələri Konfransı üzvləri rəsmi olaraq dəfələrlə

bildirmişlər ki, Cammu və Kəşmir problemi ədalətli bir şəkildə həll olunmalıdır. Lakin bu istiqamətdə indiyə kimi göstərilən cəhdlər nəticəsiz olaraq qalmaqdadır. 1998-ci ildə Kolomboda Hindistan və Pakistan xarici işlər nazirlərinin bu barədə danışıqları da uğursuzluqla başa çatdı.

Banqladeş prezidenti Mucibir Rəhmanın öldürülməsindən sonra iki dövlət arasındakı münasibətlər xeyli dərəcədə sərin xarakter almışdır. Hindistan-Banqladeş münasibətlərinə neqativ təsir edən digər məsələlər isə Hindistanda Farakka bəndinin tikilməsi ilə yaranmış Qanq çayının suyunu bölüşdürmək üstündə mübahisə, dəniz sərhədlərinin düzgün tə'yin edilməməsi, banqladeşlilərin gizlin olaraq Hindistana köçməsi, qaçaqmalçılıq və s.dir.

Hindistanın qonşu Şri-Lanka ilə ziddiyyətlərinin kökündə isə adanın şimalında hind əsilli tamillərin separatist fəaliyyəti dayanır. Hindistanın Himalay dövlətləri olan Nepal və Butanla da problemləri vardır. Bu da hər şeydən əvvəl Nepal və Butanın Çinə meylli siyasəti ilə bağlıdır.

Təbiidir ki, bütün bunlar və eyni zamanda ÇXR ilə münasibətlərin heç də hər zaman normal olmaması Hindistanı narahat etməyə və düşündürməyə bilməzdi. Odur ki, soyuq müharibənin bitməsi ilə bütün dünyada, eləcə də Cənubi Asiyada siyasi iqlimin kifayət qədər yaxşılaşması Hindistanın da xarici siyasətinə bir yenilik gətirməsinə səbəb oldu. Tarixi ədəbiyyatda bir müddət ölkənin baş naziri olmuş İ.K.Qucaralın adı ilə «Qucaral doktrinası» kimi tanınan kursun e'lan olunması ilə məhz həmin yeni siyasətin əsası qoyulmuş oldu. Bu «doktrina»da əsas önəm verilən cəhət Hindistanın qonşu ölkələrlə münasibətlərini yaxşılaşdırmaq istəyidir. Bu zaman, həm də Hindistan ən azı sözdə elan edirdi ki, o, güzəştlərə getməyə hazırdır və bunun da əvəzində heç nə tələb etmir.

«Qucaral doktrinası»nın reallaşması istiqamətində Hindistan bir sıra mühüm addımlar da atmağa başlamışdır. Bu baxımdan Hind okeanı sahili dövlətlərinin regional əməkdaşlıq təşkilatının yaradılması ideyasının müəlliflərindən və təşəbbüskarlarından olan Cənubi Afrika Respublikası və Avstraliya ilə Hindistanın bir sırada dayanmasını xüsusilə qeyd etmək lazımdır. 1997-ci ildə qurulan bu təşkilatın hazırda 14 üzvü vardır. Ancaq müşahidəçilərin rəyinə görə onların sayı yaxın vaxtlarda arta da bilər. Əgər okeana birbaşa çıxışı olan dövlətlər bu təşkilata daxil olarlarsa üzvlərin sayı 35-ə, birbaşa

çıxışı olmayan, ancaq okean yollarından asılı olan dövlətlər, o cümlədən Mərkəzi Asiyadakı yeni müstəqil dövlətlər də daxil olarsa üzvlərin sayı 52-yə çata bilər. Təşkilatın əhatə etdiyi ərazi qərbdə Atlantik birliyi ölkələrinə, şərqdə isə ASEAN ölkələrinə qədər uzanır. Həm də şərqdə İndoneziya, Malayziya və Sinqapur kimi ölkələrin ikili üzvlüyü zəmnində ASEAN-la birləşməsini də söyləmək olar. Əsas məqsədini iqtisadi əməkdaşlıq elan etmiş bu təşkilatı hətta «əsrin layihəsi» adlandırırlar.

Ümumiyyətlə 90-cı illərdə Hindistan öz xarici siyasətinin daha çox Pakistan, ABŞ, ÇXR və Rusiya ilə münasibətlərin xarakterindən asılı olduğunu daha qabarıq şəkildə bildirməkdədir. Bunu da qeyd etmək lazımdır ki, təkcə Pakistanla yox, adı çəkilən bütün ölkələrlə münasibətlərin xarakterini birbaşa və ya dolayısı ilə müəyyənləşdirən, yeganə olmasa da, başlıca problem Cammu və Kəşmir məsələsidir. Hindistan məsələnin həllini onda görür ki, iki dövlət arasında sərhəd onların nəzarəti altında olan əraziləri ayırsın. Hindistan həm də təklif edir ki, Cammu və Kəşmir məsələsinin həllindən sonra digər problemlər: nüvə təhlükəsizliyi, sərhədlərin müəyyənləşdirilməsi, suların bölüşdürülməsi və s. ikitərəfli müzakirələr qaydası ilə tənzim oluna bilər. Lakin Cammu və Kəşmir məsələsinin həmin qaydada həllini məqbul saymır. Ştatın özündə olan qüvvələrin arzu və planları haqqında irəlidə danışdığımız üçün bir daha ona qayıtmaq istəmirik.

Cammu və Kəşmir problemi Hindistanın ABŞ-la da münasibətlərinin xarakterində başlıca amil olaraq qalmaqdadır. ABŞ-ın Pakistanla yaxın münasibətləri, təbiidir ki, bu dövlətin Cammu və Kəşmir məsələsindəki mövqeyinə də tə'sirsiz qala bilməz. Doğrudur, soyuq müharibə qurtardıqdan sonra ABŞ Hindistan-Pakistan münasibətlərində balanslaşdırılmış mövqe nümayiş etdirir. Lakin Hindistanın nüvə silahı istehsalı sahəsindəki inadkarlığı əsasında ABŞ öz balanslaşdırılmış siyasətinə düzəlişlər etdi və bu da ABŞ-Hindistan münasibətlərində bir soyuqluq yaranmasına səbəb oldu.

Qeyd etmək lazımdır ki, bu vəziyyət xeyli müddət davam etmişdir, Nəhayət, 2000-ci ilin yazında ABŞ prezidenti B.Klintonun Hindistana səfəri zamanı iki dövlət arasındakı mövcud münasibətlərin pozitiv istiqamətdə tənzimlənməsi haqqında yüksək səviyyəli danışıqlar aparılmışdır.

Hindistanın ÇXR ilə münasibətlərə xüsusi önəm verməsinə

gəlincə, o, aşağıdakı şərtlərlə bağlıdır; birincisi, bu iki böyük ölkə birbaşa qonşu və həmsərhəd dövlətdir; ikincisi, son zamanlarda dünya siyasəti və iqtisadiyyatında ÇXR-in bir dövlət kimi çəkisi artmaqdadır və ÇXR-də baş verən iqtisadi yüksəliş onu dünya əhəmiyyətli iqtisadi təsir mərkəzinə çevirə bilər. Bu iki amil 90-cı illərdə iki dövlət arasında münasibətlərdə müəyyən pozitiv dəyişikliklərə gətirdi. Lakin münasibətlərin normallaşması başa çatmamışdır və kifayət qədər məsələlər öz həllini gözləməkdədir. İki dövlət arasında sərhəd məsələsinin qalması, ÇXR-in Pakistanla hərbi əməkdaşlığı, eləcə də hər iki dövlətin öz hərbi gücünü artırmağa və silahlı qüvvələrin modernləşdirilməsi istiqamətində fəaliyyəti və s. ziddiyyətlər mənbəyi olaraq qalmaqdadır.

Hindistanın Rusiya ilə münasibətlərinə gəlincə, belə bir faktı qeyd etmək lazımdır ki, Sovet İttifaqının mövcud olduğu dövrdə bu iki dövlət arasında əlaqələr kifayət qədər yüksək səviyyədə idi. Hindistan-ABŞ, Hindistan-ÇXR münasibətlərindəki müəyyən gərginliklər hind-sovet əməkdaşlığının bütün istiqamətlərdə genişlənməsi və inkişafında həlledici rol oynayırdı. Hindistan-sovet münasibətləri bütün dövrlərdə dostluq xarakterindən də artıq, bəlkə də müttəfiqlik xarakteri daşımışdır. Sovet İttifaqının çöküşündən sonra Hindistan Rusiya Federasiyası ilə münasibətlərini əvvəlki qaydada davam etdirməkdə qərarlı oldu. Çünki, bu iki dövlətin istər qlobal, istərsə də regional səviyyədə olan problemlərə baxışında fərqli cəhətlər yox dərəcəsindədir. Ona görə də həm Hindistan, həm də Rusiya bütün sahələrdə ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirirlər. 1993-cü ilin yanvarında RF prezidenti B.Yeltsinin Dehliyə rəsmi səfəri zamanı iki dövlət arasında imzalanan «Dostluq və əməkdaşlıq haqqında müqavilə» və hökumətlərarası on üç saziş Hindistan-Rusiya münasibətlərinin inkişafında yeni dönüşün əsasını qoydu. Elə həmin ildə Hindistan və Rusiya Federasiyası arasında hərbi əməkdaşlıq haqqında sazişin imzalanması bu baxımdan çox xarakter misaldır. İstər 1994-cü ilin iyun-iyul aylarında baş nazir N.Raonun və istərsə də 1997-ci ilin martında yeni baş nazir X.D.Devenin Moskvaya səfərləri və yüksək səviyyəli görüşləri, bu zaman müxtəlif sahələr üzrə çoxsaylı müqavilə və sazişlərin imzalanması imkan verdi ki, iki dövlət arasındakı münasibətlər öz əvvəlki səviyyəsi və məcrasına çatsın. 1997-ci ilin aprel ayında Hindistanın yeni baş naziri K.Qucaral Rusiya Federasiyası prezidenti B.Yeltsin və baş nazir V.Çernomırdinin təbrikinə

təşəkkür məktubu ilə cavab verdi və onları Dehliyə rəsmi səfərə dəvət etdi. İki ölkə arasında hər cür əlaqələr, xüsusilə silah ticarəti, yəni Hindistanın kütləvi surətdə rus silahları alması sahəsində bir fəallıq yarandı. İş o yerə çatdı ki, Hindistanın rus silahı almasından narahat olan ABŞ prezidenti məsələyə aydınlıq gətirmək üçün Hindistan prezidenti K.R.Narayananı Vaşinqtona dəvət etdi. Lakin K.R. Narayanan onun dəvətini qəbul edib ABŞ-a getmədi.

Qeyd etmək lazımdır ki, 1999-cu ildə RF-nin sabiq baş naziri Y.M.Primakov tərəfindən Hindistan-Rusiya əməkdaşlığına ÇXR-nin da qoşulması ilə «strateji üçbucaq» yaratmaq ideyası irəli sürüldü. İdeyanın da məğzində o dayanırdı ki, Sovet İttifaqının dağılması ilə ABŞ-ın yeganə super dövlət olaraq qalmasına və bir qütblü dünyada onun artan nüfuzuna qarşı dura biləcək güc mərkəzi yaradılsın. Bu məsələdə ÇXR, təbiidir ki, güclü bir dövlət kimi maraqlı ola bilər. Lakin Hindistan-ÇXR münasibətlərinin indiki səviyyəsi bu «strateji üçbucağ»ın tezliklə yaranacağına az ümid verir.

Lakin bu faktdır ki, 2000-ci il oktyabrın əvvəlində Hindistanda rəsmi səfərdə olmuş RF prezidenti V.Putin burada yüksək səviyyədə apardığı danışıqlar, tərəflər arasında iqtisadi-ticarət əlaqələrini genişləndirmək sahəsində bağlanmış müqavilə və sazişlər iki dövlət arasında yaxınlaşmada irəliyə doğru atılmış ciddi addım oldu.

# PAKİSTAN

## *Pakistan dövlətinin yaranması, onu möhkəmləndirmək uğrunda mübarizə və siyasi ixtilafların kəskinləşməsi*

Pakistanın bir dövlət kimi dünyanın siyasi xəritəsində öz yerini tapması 1947-ci ilin 14 avqustunda baş vermişdir. Belə ki, həmin tarixdə Britaniya Hindistanının daha çox müsəlmanlar yaşayan Qərbi Pəncab, Sind, Şimali-Qərb sərhəd vilayəti və Belucistan rayonları Qərbi Pakistan, Şimali Benqaliya isə Şərqi Pakistan adı ilə dominion statuslu bir dövlət halında birləşdirdilər. Yeni yaranan dövlət Pakistan adlandırıldı. Dövlətin ərazisi bir-birindən 1700 km aralı olan Qərbi Pakistan və Şərqi Pakistan kimi iki hissədən ibarət idi. Bir qədər irəli gedərək söyləmək istərdik ki, bu birlik 1971-ci ilə qədər davam etmişdir. Həmin ildə Şərqi Pakistan ayrıldı və Banqladeş Xalq Respublikası adı ilə müstəqil dövlətə çevrildi.

Pakistan dövlətinin yaranması Müsəlman Liqasının uzun illər apardığı mübarizənin nəticəsində mümkün olmuşdur. Elə buna görə idi ki, ölkənin ilk Müəssislər Məclisində (1947-1954-cü illər) həmin partiyanın təmsilçiləri tam üstünlük təşkil etdilər. Müsəlman Liqasının lideri və tarixi ədəbiyyatda «millətin atası» adlanan Əli Cinnə isə Pakistanın ilk general-qubernatoru və Müəssislər Məclisinin sədri oldu. Əli Cinnənin 1948-ci ilin 11 senyabrında ölümündən sonra Müəssisəlr Məclisinin sədri vəzifəsini Əli Xan tutdu, general-qubernator vəzifəsinə isə Xacə Nizaməddin gətirildi.

Qeyd etmək lazımdır ki, Pakistan dövləti yarandığı gündən böyük problemlərlə üzləşməli olmuşdur. Bunlardan birincisi, bəlkə də ən ağırı o idi ki, Hindistanın istiqlaliyyəti aktına uyğun olaraq müsəlmanların çoxluq təşkil etdiyi vilayətlər bir dövlət halında birləşmək haqqına sahib olduğu kimi, knyazlıqlar da Hindistana və ya Pakistana birləşə bilərdilər. İstiqlaliyyət aktının verdiyi bu imkandan istifadə edərək Heydərabad knyazlığı öz müstəqilliyini və Cammu və Kəşmir knyazlığı isə Pakistanla birləşmək istəyini bildirən kimi Hindistan öz ordularını həmin knyazlıqlara yeritdi. Cammu və Kəşmirin istəyini dəstəkləyən Pakistanla Hindistan arasında hərbi əməliyyatlar başladı. Doğrudur, 1949-cu ildə BMT-nin qətnaməsinə uyğun olaraq hərbi əməliyyatlar dayandırıldı və hər iki dövlət öz nəzarətləri altına almış olduqları Cammu və Kəşmir ərazisində qaldılar. Lakin həmin problem bugünə kimi öz həllini tapmamışdır və iki dövlət arasındakı

münasibətlərin xarakterini müəyyənləşdirən başlıca amil olaraq qalmaqda davam edir.

Başqa bir problem Cammu və Kəşmir münaqişəsinin nəticəsi kimi meydana çıxmış qaçqınlar məsələsi idi. Belə ki, Pakistan-Hindistan hərbi münaqişələri hər iki ölkədə müsəlman-hindus qarşıdurmaları, daha doğrusu, toqquşmaları ilə müşayət olunmağa başladı. Bunun nəticəsində 7 mln nəfərə yaxın müsəlman Pakistana, 6 mln hindus isə Hindistana qaçmağa məcbur oldu. Təbiidir ki, bu toqquşmalar və köçmələr heç də qansız-qadasız və ölümsüz-itkisiz ötüşmədi. Hər iki tərəf kifayət qədər insan itikisinə və digər məhrumiyyətlərə məruz qaldı. Günahsız qanlar axıdıldı.

Müstəmləkə dövründən miras qalmış ağır iqtisadi şərtlərin tənzimlənməsi prosesinin ağırlığı yeni yaranmış dövlətin qarşılaşdığı problemləri daha da çətinləşdirirdi. Ölkə iqtisadiyyatının başlıca sahəsi kənd təsərrüfatı idi. Sənaye çox zəif inkişaf etmişdi. Mövcud sənaye müəssisələri isə əsasən xammalın hasil edilməsi və onun e'malı ilə məşğul idi. Bu müəssisələr də bir qayda olaraq xaricilərə, təbiidir ki, daha çox ingilislərə məxsus idi. Ümumiyyətlə isə, ölkə iqtisadiyyatında xarici kapitalın mövqeyi güclü idi. Çay plantasiyalarının çox böyük hissəsi, duz, daş kömür və neft mədənləri xarici kapitalın əlində idi, xarici banklar ölkənin maliyyə sisteminə nəzarəti öz əllərində saxlayırdılar. Əhalinin sosial durumu son dərəcə aşağı idi.

Təbiidir ki, bunların həlli Pakistan hakimiyyətinin qarşısında duran vəzifələr idi. Odur ki, hakimiyyət bütün çətinliklərə baxmayaraq bir sıra tədbirlər gördü. Bunlardan ən mühümü kimi aqrar islahatı göstərmək olar. 1950-1952-ci illərdə aqrar islahat haqqında verilən qanunlara görə iri torpaq sahibliyi məhdudlaşdırılır, artıq torpaqlar dövlət tərəfindən dəyəri ödənilməklə alınır və icəradarlara satılırdı, kəndlilər biyar mükəlləfiyyətindən azad olunurdular. İcarədarlardan alınan torpaq haqqının hədləri xeyli məhdudlaşdırılırdı və s. Aqrar islahat haqqında qanunda nəzərdə tutulmuş tədbirlərin tətbiqi heç də hər yerdə və hər zaman uğurlu olmurdu. Xüsusilə, Qərbi Pakistanda imtiyazlı qüvvələr islahata müqavimət göstərirdilər. Şərqi Pakistanda da vəziyyət istənilən səviyyədə deyildi. Bunlara baxmayaraq aqrar sahədə müəyyən irəliləyişlər özünü göstərdi. Bunu hər şeydən əvvəl, kənd təsərrüfatı məhsullarının illik artım sürətinin yüksəlməsi də təsdiq edirdi. 1952-1954-cü illərdə kəndli iğtişaşları

xeyli səngimişdi. Ancaq vəziyyətin tam yaxşılaşdığını da söyləmək olmazdı. Təsadüfi deyildir ki, artıq 1956-ci ildə kəndlilər öz narazılıqlarını yenidən bildirməyə başlamışdılar. İyul ayında kəndlilərin Lahora kütləvi yürüşü bu baxımdan ciddi hadisə olmuşdur.

Qeyd etmək lazımdır ki, Pakistan hakimiyyəti sənaye sahəsində də bir sıra uğurlu tədbirlər həyata keçirmişdi. Bu da sənaye məhsulları istehsalının artım sürətinin qalxmasına səbəb olmuşdu. Bir sıra sənaye müəssisələri tikilməklə yanaşı yeni istehsal sahələri yaradıldı.Bu baxımdan cut məhsulları istehsalı sahəsini xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə isə sənayenin inkişafı əsasən yüngül sənaye sahələrində daha çox nəzərə çarpırdı.

Sənaye işçilərinin say artımı digər tədbirlər görülməsini zəruri edirdi. Bu baxımdan əmək və əmək haqqına dair bir sıra qanunların qəbul olunması, həmkarlar təşkilatlarının yaranması, işçilərin sosial hüquqlarının qorunmasına yönəli qanunların fəaliyyətə başlaması və s.ni qeyd etmək olar.

Pakistan dövləti tarixinin ilk illərində milli məsələ də kifayət qədər özünü göstərirdi. Hətta bu məsələ get-gedə kəskinləşirdi deyilsə, daha doğru olardı. Ölkənin müxtəlif əyalətlərində: Şərqi Pakistanda, Sinddə, Belucistanda, Şimali-Qərb sərhəd rayonlarında 1948-ci ildən başlayaraq ölkənin inzibati-ərazi quruluşunun milli-dil zəminində yenidən təşkili və əyalətlərin muxtar hüquqlarının artırılması uğrunda hərəkat genişləndi. Həmin əyalətlərin siyasi cəhətdən fəal qüvvələri dövlət aparatında və ölkənin silahlı qüvvələrində daha çox təmsil olunmağa çalışırdılar.

Bunu da qeyd etmək lazımdır ki, hakimiyyətin bir sıra tədbirləri də subyektiv olaraq əyalətlərarası münasibətlərin pisləşməsinə təkan verirdi. Məsələn, Kəraçi, Lahor, Layalpur və s. kimi Pəncab şəhərlərində əvvəlcədən mövcud olan infrastrukturların məhz bu şəhərlərdə sənaye müəssisələrinin yaradılmasına və inkişafına real imkan verməsi, əsasən aqrar istehsal mərkəzləri olan Belucistan, Sind və Şərqi Pakistanın narazılığına səbəb olurdu. Bu narazılıq xüsusilə Şərqi Pakistanda daha geniş miqyas almışdı. Buradakı narazı qüvvələr Şərqi Pakistana daha geniş müxtariyyət verilməsini də tələb kimi irəli sürürdülər. Hakimiyyət Şərqi Pakistandakı bu narazılığa xüsusi diqqət verməli oldu və bir sıra tədbirlər gördü. Bunlardan birisi 1954-cü ildə benqal dilinin urdu dili ilə yanaşı dövlət dili e'lan olunması idi. 1955-ci ildə isə Pəncab, Sind, Belucistan və Şimali-Qərb sərhəd əyalətləri

Qərbi Pakistan adı ilə birləşdirildi və vahid bir əyalət oldu.

Pakistan hakimiyyəti ilk illərdən xarici aləmlə də ciddi əlaqələr yaratmaq kursunu götürmüşdü. Birincisi, dövlət iqtisadi sahədə islahatların keçirilməsi və yaradılması üçün lazım olan maliyyənin çox böyük hissəsini xaricdən almaq məcburiyyəti qarşısında qalmışdı. Əsasən ABŞ və Böyük Britaniyadan daxil olan dövlət yardımları ilə yanaşı iri xarici özəl şirkətlər ölkə iqtisadiyyatına kifayət qədər kapital qoyurdu. Məhz onların sayəsində kənd təsərrüfatını lazım olan texnika və materiallarla təchiz etmək, faydalı qazıntıların axtarılması və kəşf edilməsi işini aparmaq, şosse yolları, hava və dəniz limanlarını modernləşdirmək və inşa etmək, digər infrastrukturlar yaratmaq mümkün olmuşdur. Qeyd etmək lazımdır ki, 50-ci illərin əvvəllərindən ABŞ-la yaxınlaşmaya daha çox üstünlük verilməyə başlandı. Bu da hər şeydən əvvəl Pakistanın qonşu Hindistanla münasibətlərinin xarakterindən irəli gəlmişdi. İki dövlət arasındakı hərbi münaqişələr Pakistan dövlətini öz silahlı qüvvələrini gücləndirmək zərurəti qarşısında qoymuşdu. Pakistan bu işdə həm də müttəfiqlər aramaq, onların köməyi və dəstəyinə arxalanmaq kursu götürmüşdü. Pakistanın 1954-cu ilin mayında ABŞ-la qarşılıqlı təhlükəsizlik təminatı haqqında saziş imzalaması, 1954-cü ilin sentyabrında SEATO və 1955-ci ilin sentyabrında Bağdad paktı kimi hərbi bloklara qoşulması məhz həmin məqsədlə edilmiş hərəkətlər kimi dəyərləndirilə bilər.

Bir qədər haşiyə çıxaraq qeyd etmək istərdik ki, həmin dövrdə ABŞ başda olmaqla Qərb bloku və Sovet İttifaqı başda olmaqla kommunist ölkələrindən ibarət iki güc mərkəzi arasında regionda maraqlar uğrunda mübarizə gedirdi. Vyetnam və Koreya müharibələrindən sonra Qərb ABŞ-ın timsalında regionun Tayland, Laos, Kamboca və Cənubi Vyetnam kimi ölkələrinə hərbi və iqtisadi yardımları artırdı. İkinci tərəfdən isə region ölkələrinin kommunist təhlükəsinə qarşı müqavimət gücünü müəyyən hərbi ittifaqlarda birləşdirmək istiqamətində ciddi addımlar atıldı. 1954-cü ilin 8 senyabrında ABŞ, Böyük Britaniya və Fransa ilə yanaşı Yeni Zelandiya, Avstraliya, Tayland və Pakistanın da qatıldığı Cənub-Şərqi Asiya Müqaviləsi təşkilatının-SEATO-nun qurulması da bu baxımdan olmuşdu. Bununla da Sovet İttifaqı və onun müttəfiqi ÇXR Avropanın Atlantik sahillərindən Sakit okeana qədər uzanan ittifaqlar çevrəsinə alındı. (Bağdad paktından başqa bir yerdə bəhs olunacaq- müəl.)

Yarandığı ilk günlərdən qarşıya çıxan müxtəlif problemlərin

həlli istiqamətində müəyyən uğurlar qazanan Pakistan dövlətinin tutmuş olduğu inkişaf kursu, təbiidir ki, obyektiv və subyektiv səbəblər üzündən heç də ölkədəki mövcud bütün siyasi qüvvələr tərəfindən bir mənalı qarşılanmırdı. Regional, qrup, milli və s. maraqların daşıyıcıları olan müxtəlif siyasi qüvvələr fəallaşır, onlardan hər biri öz maraqlarına daha önəm verirdilər. Bütün bunlar nəticə etibarilə ölkədə siyasi mübarizənin yüksəlməsinə səbəb olurdu. Ayrı-ayrı siyasi və milli qüvvələr ölkənin gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edən konstitusiya lahiyəsinin müddəaları üzərində ciddi müzakirələr aparır və öz fikir və düşüncələrini meydana qoyurdular. Qeyd etmək lazımdır ki, bu məsələnin müzakirəsi zamanı hətta hakim siyasi qüvvələrin öz arasında da fikir ayrılıqlarının mövcud olduğu üzə çıxdı. Hələ 1951-ci ilin oktyabr ayında Liyəqət Əli Xanın öldürülməsindən sonra Müsəlman Liqasının özü iki yerə bölündü. Qərbi Pakistanda Mambotun başçılıq etdiyi Ə.Cinnə tərəfdarları olan Müsəlman liqası və Şərqi Pakistanda H.S. Sührəverdinin başçılığı altında regional muxtariyyət tərəfdarlarını birləşdirən Şərqi Pakistan Avami Müsəlman Liqası yaradıldı. Müsəlman Liqasının parçalanması sonralar da davam edirdi. Bu zəmində yaranan partiyalardan Avami Liqa ( Xalq partiyası), Milli Xalq Partiyası, Respublika Partiyası, Camaat-i-İslami, Nizam-i-islam və s. ölkənin siyasi həyatında müəyyən mövqe və söz sahiblərinə çevrildilər.

1953-cü ilin dekabrında Şərqi Pakistanda separatçı müxalifət qüvvələrinin Birləşmiş Cəbhəsi yaradıldı. Birləşmiş Cəbhə 1954-cü ilin martında əyalətin Qanunvericilik Məclisinə keçirilən seçkilərdə Müsəlman Liqası üzərində parlaq qələbə çaldı və yerlərin böyük çoxluğuna sahib oldu. Burada A.K. Fəzl-ül-Haqqın başçılığı altında Birləşmiş Cəbhənin təmsilçilərindən ibarət hökumət təşkil edildi. Pakistan hakimiyyəti Şərqi Pakistanda öz mövqelərini qorumaq üçün burada fövqəladə vəziyyət elan etdi. 1954-cü ilin 30 mayında Birləşmiş Cəbhə hökuməti buraxılmış elan edildi, bölgədə separatizm ovqatı qızışdıran bir sıra partiya və siyasi təşkilatların fəaliyyəti qadağan edildi. Artıq 1954-cü ilin oktyabrında ölkə parlamenti buraxıldı və Qərbi Pakistanda da fövqəladə vəziyyət rejimi tətbiq olundu.

Nəhayət, 1955-ci ilin iyununda ölkə parlamentinə- Müəssislər Məclisinə yeni seçkilər keçirildi. Təbiidir ki, buna qədər fövqəladə rejim ləğv olunmuşdu. Müsəlman Liqası, əvvəlki nüfuzu zəifləsə də, seçkiləri uda bildi. Müəssislər Məclisi Pakistanın konstitusiyasını

işləyib hazırladı və qəbul etdi. 1956-cı ilin martından qüvvəyə minən konstitusiyaya görə Pakistan islam respublikası elan edilir, general-qubernator prezident olurdu. Qonşu Hindistandan fərqli olaraq Pakistanda prezident idarəçiliyi yaradıldı. Baş nazirin başçılıq etdiyi hökumətin və iki palatalı parlamentin hüquqları bir qədər məhdudlaşdırılırdı. Konstitusiya Pakistanın tam müstəqilliyini təsbit etməklə yanaşı onun Böyük Britaniya Birliyinin üzvü olaraq qaldığını da təsdiqləyirdi. Konstitusiya urdu və benqal dillərinin rəsmi dövlət dili olduğunu bir daha bəyan etdi.

Bunu da qeyd etmək lazımdır ki, hələ 1955-ci ilin avqustunda ölkədə vətəndaş həmrəliyinə nail olmaq məqsədilə Müsəlman Liqası və Birləşmiş Cəbhənin sağ yönümlü liderlərindən ibarət koalisyon hökumət təşkil olunmuşdu. Lakin bu, Birləşmiş Cəbhədəki sol və mərkəzçi yönümlü qüvvələrin ciddi narazılığı ilə qarşılandı. 1956-cı ilin yazında elə Müsəlman Liqasının özü də növbəti parçalanmaya məruz qaldı. Ondan ayrılanlar Respublika Partiyasını qurdular.

Bütün bunlarla yanaşı koalisyon hökumətin ölkə problemlərini həll etmək baxımından fəaliyyəti də istənilən səviyyədə olmadı. Bir sıra iqtisadi və sosial problemlər həll edilməmiş qalır və bu zəmində narazılıqların artmasına səbəb olurdu. 1956-cı ilin sentyabrında yeni koalisyon hökumət yaradıldı. Bu hökumətdə Xalq Liqası və Respublika Partiyasının nümayəndələri təmsil olunurdular və ona H.Ş. Sührəvərdi başçılıq edirdi. Lakin yeni hökumət həlli vacib olan məsələlərin öhdəsindən gələ bilmədi. 1958-ci ilin payızında vəziyyət böhranlı hala gəldi. İstər sosial, istər milli, istərsə də siyasi xarakterli problemlərin yaratmış olduğu böhran, nəhayət, 1958-ci ilin oktyabrında hərbi çevrilişlə nəticələndi. Konstitusiya ləğv edildi, qanunvericilik orqanları və hökumət buraxıldı, bütün partiyaların fəaliyyəti qadağan olundu, ölkədə fəvqəladə vəziyyət elan olundu. Pakistan silahlı qüvvələrinin baş komandanı general M.Əyyub xanın başçılığı altında hərbi idarəçilik rejimi yarandı. General M.Əyyub xan bir prezident kimi hakimiyyətin bütün məsuliyyətini öz üzərinə götürdü. Bununla da Pakistanın tarixində yeni bir dövr başlandı.

## *Pakistan 1959-1971-ci illərdə*

General M.Əyyub xanın başçılıq etdiyi hərbi hakimiyyət ölkədə yaranmış vəziyyəti normal məcraya yönəltmək məqsədilə bir

sıra məsələləri həll etmək istiqamətində əməli addımlar atmağa başladı. Fövqəladə rejimin qaydalarına uyğun olaraq siyasi həyatda müəyyən məhdudiyyətlər tətbiq edilməklə yanaşı, iqtisadi vəziyyətin tənzimlənməsi üçün də konkret tədbilər görüldü. İrəlicədən demək istərdik ki, bu sahədə hərbi hakimiyyətin əsas kursu ölkədə liberal dəyərlərə əsaslanan iqtisadi münasibətlərin inkişafını ləngidən əngəllərin aradan qaldırılması məqsədi daşıyırdı.

İqtisadi sahədə ilk və ən mühüm tədbir 1959-cu ilin yanvarında aqrar islahat haqqında qanunun qəbul edilməsi olmuşdur. Qanuna əsasən cəgirdarlıq sistemi-imtiyazlı torpaq sahibliyi- ləğv olunurdu. Torpaq sahibliyinin ən yüksək həddi Qərbi Pakistanda 500 akr suvarılan, 1000 akr suvarılmayan torpaq həddində müəyyənləşdirilirdi. Artıq torpaqlar əvəzi ödənilməklə alınır və kəndlilərə satılırdı. Kəndlilərə aldığı torpaqların dəyərini ödəmək üçün müəyyən vaxt ayrılırdı. Bundan əlavə dövlət yeni və xam torpaqların yararlı hala salınması və mənimsənilməsi, irriqasiya qurğularının genişləndirilməsi, kreditlərin artırılması, müasir ağrotexniki üsulların tətbiqi və s. nəzərdə tutan başqa tədbirləri də həyata keçirirdi. Təbiidir ki, bütün bunların nəticəsində bir tərəfdən, kənddə kapitalist münasibətlərinin genişlənməsinə real zəmin yaradılırdısa, ikinci tərəfdən kəndlilərin narazılıqlarına kifayət qədər son verilirdi.

«Yeni sənaye siyasəti» və «yeni ticarət siyasəti» kimi tədbirlər kursu milli iqtisadiyyatın inkişafı üçün əlverişli şərtlərin yaradılmasını nəzərdə tuturdu. Özəl kapitalın istehsal dövriyyəsinə daha çox girməsi üçün maksimum imkanlar yaradılır və çoxsaylı imtiyazlar verilirdi. Keçmişdə olduğu kimi, xarici kapitalın ölkəyə gəlməsi, daha münasib şərtlərlə borclar və ya köməklər alınması xəttinə yenə də önəm verilirdi. Özəl bölmədə məşğul olanlara vergi güzəştləri, texniki və maliyyə yardımları göstərilməsi dövlətin iqtisadi kursunda mühüm yer tuturdu. Özəlləşdirmə siyasəti tətbiq olunur və bu zaman özəlləşdirmədə iştirak edən yerli iş adamlarına xüsusi imtiyazlar verilirdi.

M. Əyyub xan hakimiyyətinin ciddi əhəmiyyət verdiyi sahələr sırasında təhsilin təşkili, məhkəmə sisteminin qurulması, ailə-nigah münasibətlərinin keçmişin qalıqlarından azad edilməsi və bütün bunların müasir dövrün tələblərinə uyğunlaşdırılması və s. də var idi.

Qeyd etmək lazımdır ki, hərbi hakimiyyətin həyata keçirdiyi dəyişikliklər nəticəsində Pakistanın iqtisadiyyatı sürətli və çoxşaxəli

inkişaf imkanı qazandı, sənaye məhsulları istehsalı artdı, ağır sənayenin təməlləri yaradıldı, kənd təsərrüfatı məhsulları istehsalında xeyli irəliləyiş əldə edildi. Ümumi məhsul istehsalının orta illik artımı 2 dəfədən çox oldu. Yeni metallurgiya, maşınqayırma zavodları işə düşdü, kimya və neft kimyası müəssisələri yaradıldı. Təhsil müəssisələrinin və təhsil alanların sayı artdı, tibbi xidmətin səviyyəsi yüksəldi.

Həyata keçirilən islahatlar və tədbirlər mövcud olan problemlərin hamısını olmasa da, çoxunu həll etdi. Ölkədə siyasi istiqrar bərpa edildi, həyatın müxtəlif sahələrində normal inkişaf axarı yaradıldı və s. Artıq hərbi rejimin yaratdığı məhdudiyyətlərə ehtiyacın qalmadığına əminlik özünü göstərməyə başlamışdı. Elə bütün bunlara görə idi ki, 1962-ci ilin 8 iyununda hərbi vəziyyət rejimi ləğv edildi və yeni konstitusiya qüvvəyə mindi. Konstitusiyaya görə prezident icraedici hakimiyyətin sahibi olur və istər icra, istərsə də qanunvericilik sahəsində əlavə hüquqlara yiyələnirdi. İki mərhələli seçki sistemi tətbiq edilirdi. Əhali seçicilər kollegiyasını seçir, o da öz növbəsində prezidenti, Milli Məclisi, yeni parlamenti və əyalətlərin qanunvericilik məclisini seçirdi. M. Əyyub xan ölkə prezidenti olaraq qaldı.

Hərbi rejimin ləğvindən sonra ölkənin siyasi həyatında bir canlanma yarandı. 1958-ci ilin oktyabrına kimi mövcud olan siyasi partiyaların fəaliyyətinə icazə verildi. Müsəlman Liqası öz hakim partiya statusunu saxladı. Ona prezident M.Əyyub xan başçılıq edirdi.

Qeyd etmək lazımdır ki, yeni konstitusiyaya görə Pakistanın dövlət quruluşu federal forma alırdısa da unitar dövlət ünsürlərinə də xeyli yer verilirdi. Hər iki hissədən, yəni həm Qərbi Pakistandan, həm də Şərqi Pakistandan bərabər sayda deputat Milli Məclisə seçilirdi. Mərkəzi hökumət, xüsusilə prezident idarəetmədə öz üstün mövqelərini qoruyub saxlayırdı. Yerli idarəetmə orqanlarının fəaliyyət imkanları xeyli daralırdı. Təbiidir ki, mərkəzləşdirilmiş dövlət aparatını möhkəmləndirmək məqsədi ilə edilən bu dəyişikliklər həm siyasi müxalifət qüvvələri, həm müxtəlif sosial qruplar, həm də separatçı qüvvələr tərəfindən ciddi tənqidə məruz qalırdı. Xüsusilə Şərqi Pakistan əhalisi benqallar parlamentdə bərabər sayda təmsil olunmaqdan çox narazılıq bildirirdilər. Onlar sayca Qərbi Pakistan əhalisindən çox olduqlarını vurğulayır, mərkəzi hökumətdə az təmsil olunmalarını, eləcə də iqtisadi həyatda imkanlarının zəif olmasını, ölkə siyasətinə təsir etmək imkanlarının məhdudluğunu tez-tez dilə

gətirirdilər. Bu da maraqlıdır ki, təkcə Şərqi Pakistanda deyil, elə Qərbi Pakistanda da dil mənsubiyyəti zəmnində vilayətlər yaradılması uğrunda separatist meyllər artırdı. Artıq bir qədər sonra 60-cı illərin ikinci yarısında separatçılıq hərəkatı xeyli genişlənmiş və Şərqi Pakistanın ayrılması məsələsi siyasi həyatın müzakirə obyektinə çevrilmişdi.

Ümumiyyətlə isə bunu da qeyd etmək lazımdır ki, 60-cı illərdə dövlətin xarici əlaqələr kursunda da əsaslı dəyişikliklər baş vermişdir. Pakistan Qərbə yönəli birtərəfli xarici siyasət kursundan imtina etdi, istər sosialist, istərsə də üçüncü dünya ölkələri ilə münasibətlərini genişləndirdi. 1967-ci ildə İsrailin ərəb ölkələrinə təcavüzünü pislədi, Vyetnam xalqına öz müqəddaratını təyin etmə haqqı verilməsinə tərəfdar oldu. SEATO və SENTO bloklarında öz fəaliyyətini bir qədər məhdudlaşdırdı.

Pakistan Sovet İttifaqı başda olmaqla bir sıra sosialist ölkələri ilə ticarət sazişləri imzaladı. Türkiyə və İranla geniş əlaqələr şəbəkəsi yaratdı. Qərbi Avropa və Afrika ölkələri, xüsusilə də ərəb ölkələri ilə əlaqələr xeyli inkişaf etdi.

Bütün bunlarla yanaşı Hindistanla münasibətlərdə yaxşılığa doğru heç bir dəyişiklik baş vermədi. Əksinə, Pakistan-Hindistan arasındakı münasibətlərdə yaranan gərginlik hərbi toququşma ilə nəticələndi. 1965-ci ilin yayında iki dövlət arasındakı sərhəd xəttinin cənub-qərb bölməsində hərbi əməliyyatlar yenidən alovlandı. Bu hərbi əməliyyatlar yalnız 30 iyunda tərəflər arasında atəşkəs haqqında saziş imzalandıqdan sonra dayandırıldı. Elə həmin ilin avqust-sentyabr aylarında Kəşmir məsələsi ilə bağlı başqa bir silahlı toqquşma oldu və o, böyüyərək Hindistan- Qərbi Pakistan sərhədlərində iri miqyaslı hərbi əməliyyatlar forması aldı. Doğrudur, sentyabr ayının sonlarında atəş dayandırıldı, ancaq ümumi vəziyyət olduqca gərgin olaraq qalırdı. Nəhayət, 1966-cı ilin yanvarında prezident M.Əyyub xan. və Hindistanın baş naziri L.B.Şastri arasında danışıqlar nəticəsində vəziyyət, müvəqqəti də olsa, normal məcraya salındı.

Lakin həmin dövrdə bir tərəfdən iqtisadi inkişaf öz müsbət nəticələrini göstərməklə yanaşı bir sıra neqativ halların da yaranmasına səbəb olurdu. Bu baxımdan ölkədə inhisarların meydana gəlməsi və inhisarçı burjuaziyanın təşəkkül tapması faktının rəsmi şəkildə etiraf olunması maraq doğuran hadisədir. Ümumiyyətlə bu

etiraf ölkədə çox böyük mənfi əks-səda doğurdu. Qiymətlərin artması, inflyasiyanın böyüməsi, işsizlərin çoxalması və s. hallar ölkədə sosial və siyasi gərginliyi gücləndirirdi.

Bütün bunlar rəsmi təbliğatda özünə geniş yer tapan Pakistanın həm sosializmdən, həm də kapitalizmdən tamamilə fərqli «məxsusi islam yolu» ilə inkişafı haqqındakı ideyaların puça uğradığını təsdiqləyirdi.

Milli zəmində narazılıqlar da artmaqda idi. Bu baxımdan Şərqi Pakistanda gedən proseslər daha çox narahatlıq doğururdu. Orada Xalq Liqasının lideri Şeyx Mucibur Rəhman ölkənin demokratikləşdirilməsi və Şərqi Pakistanın tamamilə muxtar bir əyalətə çevrilməsi proqramı ilə çıxış edirdi. 1968-ci ilin sonları- 1969-cu ilin əvvəllərində ölkədə yeni bir böhranlı şərait yarandı. Bütün ölkə boyu kütləvi e'tiraz aksiyaları keçirilirdi. Cavab tədbirlərinin bir nəticə vermədiyi bəlli olduqda prezident M.Əyyub xan bütün hüquqlarından əl çəkdi və hakimiyyəti ordu rəhbərliyinə verdi. Baş komandan general A.M. Yahya xan prezident oldu, ölkədə hərbi vəziyyət elan edildi, Milli Məclis və əyalətlərin qanunvericilik məclisləri buraxıldı, Konstitusiya qüvvədən düşdü.

Yeni hərbi rejim vəziyyətin kifayət qədər gərgin və qorxulu bir hala gəlməsini nəzərə alaraq bir sıra dəyişikliklər etməli oldu. İlk olaraq Qərbi Pakistan əyaləti dörd vilayətə bölündü. Bunlar Pəncab, Sind, Belucistan və Şimal-Qərbi sərhəd əyaləti idi.

1970-ci ilin dekabrında Pakistan tarixində ilk dəfə olaraq ölkənin parlamenti Milli Məclisə ümumi birbaşa seçkilər keçirildi. Seçkilərdə ölkənin demokratikləşdirilməsi şüarları ilə çıxış edən partiyalar, - Qərbi Pakistanda Zülfüqar Əli Bhuttonun başçılıq etdiyi Xalq Partiyası, Şərqi Pakistanda Mucibur Rəhmanın başçılıq etdiyi Xalq Liqası, - qalib gəldilər. 1967-ci ildə yaranmış və əsas ideya prinsipləri: 1) islam-bizim inancımız; 2) demokratiya bizim idarə formamız; 3) sosializm (təbii ki, islam sosializmi) - bizim iqtisadi sistemimiz; - olan Pakistan Xalq Partiyasının seçki proqramında bankların, sığorta şirkətlərinin və sənayenin mühüm sahələrinin milliləşdirilməsi, iqtisadiyyatda inhisarların və kartellərin hökmranlığına son qoyulması, ölkənin hərbi bloklardan çıxarılması kimi məsələlər öz əksini tapmışdı. Xalq Liqası isə həmin məsələlərlə yanaşı ölkənin konstitusiyasında Şərqi Pakistanın tam regional muxtariyyət hüququnun təsbitini tələb edirdi. Xalq Liqası parlamentdə Şərqi Pakistana ayrılan 162 yer-

dən 160-na yiyələndi. Ümumiyyətlə isə parlamentə 300 deputat seçilmişdi. Şərqi Pakistanda yerli qanunvericilik orqanlarına seçkilərdə də Xalq Liqası çox böyük qələbə qazanmışdı və 300 yerdən 288-ni tuta bilmişdi. Qərbi Pakistanda yerli seçkiləri Xalq Partiyası udmuş, parlamentdə isə 82 mandat qazanmışdı.

Lakin hərbi rejim hakimiyyəti seçkilərdə qalib gəlmiş partiyalara verməkdən imtina etdi. Xalq Liqasının Şərqi Pakistana tam regional muxtariyyət hüququ verilməsi tələbi isə qatı cəza tədbirləri ilə qarşılandı. 1971-ci il martın 25-dən 26-na keçən gecə Xalq Liqasının fəaliyyəti qadağan edildi. Mucibur Rəhman başda olmaqla partiyanın rəhbərliyi tutulub Qərbi Pakistanda məbhəsə salındılar. Şərqi Pakistanın özündə isə kütləvi cəza tədbirləri aparılırdı. Yəhya xan hökumətinin bütün cəhdləri vəziyyəti nəinki düzəldə bilmədi, əksinə daha da gərginləşdirdi. Şərqi Pakistanın tam regional muxtariyyət hüququ tələbini irəli sürən qüvvələr artıq əyalətin tam istiqlaliyyəti şüarı ilə müqavimət hərəkatına başladılar. Şərqi Pakistanın müxtəlif yerlərində silahlı dəstələr yaradılır və onlar hakimiyyət qüvvələrinə qarşı çıxırdılar. Hadisələrin belə bir axara düşməsi 1971-ci il martın 26-da Şərqi Pakistanda müstəqil Banqladeş Xalq Respublikasının yaradılması ilə nəticələndi.

Pakistan hakimiyyəti daha qəti tədbirlərə əl atdı. Vəziyyət son dərəcə gərginləşdi. Kütləvi cəza tədbirlərindən canını qurtarmaq üçün milyonlarla insan qonşu Hindistana qaçır və orada sığınacaq tapırdı. Bu zəmində Pakistan Hindistan münasibətləri yenidən pozuldu və dekabrın əvvəllərində növbəti üçüncü hərbi münaqişə baş verdi. Lakin Şərqi Pakistanda sayca o qədər də çox olmayan hərbi qüvvələr bir tərəfdən çoxsaylı Hindistan hərbi qüvvələri, o biri tərəfdən isə yerli silahlı dəstələrin güclü həmlələrinə davam gətirə bilmədi və dekabrın 16-da təslim olmaq məcburiyyətində qaldı. 17 dekabrda isə Qərbi Pakistan, Cəmmu və Kəşmir sərhədlərində Hindistan orduları ilə aparılan hərbi əməliyyatlar da dayandırıldı. Bu acınacaqlı məğlubiyyətdən sonra 1971-ci ilin 20 dekabrında Yəhya xan hökuməti istefaya getdi və hakimiyyətin Z.Ə.Bhutto başda olmaqla Xalq Partiyasına verildiyini elan etdi.

### *Pakistan 1970-80-ci illərdə*

Bundan sonra istər mərkəzdə, istərsə də vilayətlərdə mülki hakimiyyət yaradıldı və beləliklə də Z.Ə.Bhuttonun başçılıq etdiyi

hökumət fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, Bhutto hökuməti 1977-ci ilə qədər hakimiyyətdə olmuşdur və həmin müddət Pakistanın siyasi təkamül tarixində üçüncü mərhələ kimi xarakterizə olunur.

Z.Ə.Bhutto hökuməti 1972-ci ilin əvvəllərindən başlayaraq vəd etdiyi bir sıra dəyişiklikləri həyata keçirmək üçün cəhdlər etdi. Yanvar ayında 31 iri ağır sənaye müəssisəsi üzərində dövlət nəzarəti yaradıldı və sonralar həmin müəssisələrin çoxu milliləşdirildi. Bir sıra kommersiya bankları, sığorta şirkətləri, pambıq və düyü təmizləmə müəssisələrinin çoxu, bitki yağları istehsalı müəssisələri, gəmiçilik şirkətləri, neft məhsulları ticarəti milliləşdirildi. Ən mühüm tədbirlərdən birisi də 1972-ci ilin martında aqrar islahat haqqında qanunun elan edilməsi oldu. Yeni islahata görə torpaq sahibliyi 150 akr suvarılan və 300 akr suvarılmayan torpaq həddinə endirildi. Artıq torpaqlar əvəzi ödənilmədən alınır və az torpaqlı və torpaqsız kəndlilər arasında pulsuz bölüşdürülürdü. Bundan əlavə hökumət icarədarların hüquqlarının qorunmasının təmini, suvarma sistemlərinin qurulması, kübrə və kənd təsərrüfatı texnikası istehsal edən müəssisələr yaradılmasına yönəli bir sıra qərarlar qəbul etdi. Aqrar islahatla əlaqədar bir qədər irəliyə gedərək qeyd etmək istərdik ki, 1977-ci ildə verilmiş qanuna əsasən maksimum torpaq sahibliyi suvarılan torpaqlar üçün 100 akr (40 ha) müəyyən edilmişdi.

Bunlardan əlavə Z.Ə.Bhutto hökuməti əmək, təhsil, həmkarlar təşkilatlarının hüquqlarının genişləndirilməsi və s. haqqında da qanunlar qəbul etdi. Orta təhsil pulsuz oldu, Pakistanın tərkibində olan ştatların keçmiş knyazları əvvəlki imtiyaz və təqaüdlərindən məhrum edildi. Hökumət hərbi vəziyyət rejimini ləğv etdi, demokratik partiyaların, ictimai təşkilatların açıq fəaliyyət göstərməsinə icazə verdi.

Ən mühüm hadisə isə 1973-cü ilin 14 avqustunda yeni konstitusiyanın qüvvəyə minməsi oldu. Konstitusiyaya uyğun olaraq F.İ.Çoudri ölkənin prezidenti seçildi, Z.Ə.Bhutto isə baş nazir oldu( o, həmin dövrə qədər prezident vəzifəsini yerinə yetirirdi). Konstitusiya eyni zamanda ölkədə federal parlament idarə formasını təsbit edir, vilayətlərin muxtariyyətini genişləndirir və islamı dövlət dini elan edirdi.

Qeyd etmək lazımdır ki, Z.Ə.Bhutto hökuməti xarici siyasət kursuna da bəzi dəyişikliklər gətirdi. Böyük Britaniya birliyindən və SEATO hərbi blokundan çıxdı. 1972-ci ilin yayında Simledə Pakistan

və Hindistan dövlət rəhbərlərinin görüşlərindən sonra iki ölkə arasında münasibətlərin tənzimlənməsində müəyyən irəliləyiş başladı. Bu da hər şeydən əvvəl ondan irəli gəlirdi ki, Simledə Z.Ə.Bhutto və İ.Qandi arasında imzalanmış sazişə görə Kəşmiri Pakistan və Hindistan hissələrinə bölən xətt faktiki olaraq rəsmən tanınırdı. Tərəflər öhdəlik götürürdülər ki, Kəşmir probleminin tənzimlənməsində meydana çıxan bütün məsələləri ikitərəfli qaydada sülh yolu ilə həll edəcəklər.

Buna baxmayaraq Kəşmir probleminin həlli bu günə kimi başa çatmamış qalmaqdadır. Təbiidir ki, indiki status-kvo Hindistanı təmin edir. O, keçmiş Kəşmir knyazlığının üçdə iki hissəsinə nəzarət etməkdədir və öz niyyətindən də geri çəkilmək fikrində deyildir. Bu durum Pakistanı isə qəti təmin etmir və o, əhalisinin böyük çoxluğunun müsəlman olduğu Kəşmirin Hindistanın nəzarəti altında olan hissəsinin azad olunmasını istəyir. Odur ki, Kəşmir problemi həmişə regionda yalnız Pakistan-Hindistan münasibətlərinin deyil, ümumiyyətlə burada marağı olan bütün dövlətlərin münasibətlərində bir çıxış nöqtəsinə çevrilmişdir. 1974-cü ildə Banqladeş Xalq Respublikası Pakistan tərəfindən tanındı. Sovet İttifaqı və digər sosialist ölkələri ilə əlaqələr xeyli genişdləndirildi. VDR, ADR və KXDR ilə diplomatik əlaqələr quruldu. Z.Ə. Bhutto 1972-ci və 1974-cü illərdə Sovet İttifaqını ziyarət etdi və bu zaman iqtisadi və texniki əməkdaşlıq, mal mübadiləsini genişləndirmək, elmi-mədəni sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalandı. Təbiidir ki, Sovet İttifaqı ilə əlaqələri belə genişləndirməklə Z.Ə.Bhutto hökuməti Cənubi Asiya regionunda vəziyyətin normal məcraya gəlməsinə kömək məqsədi güdürdü. Bu baxımdan müəyyən nəticələr də qazanıldığını söyləmək olar. Belə ki, 1973-cü ilin yayında Pakistan-Hindistan danışıqları gedişində Hindistandakı əsirlərin üçtərəfli qaydada qaytarılması haqqında razılıq əldə edildi. Razılaşmaya görə 1971-ci il döyüşlərində əsir düşmüş şəxslər Hindistandan və Banqladeşdən Pakistana, Pakistandakı əsirlər Banqladeşə, eləcə də müvafiq ölkələrdəki Pakistan və Banqladeş vətəndaşları öz vətənlərinə qayıtmaq imkanı qazandılar. Pakistan və Hindistan arasında bütün kommunikasiya növləri bərpa olundu. 1976-cı ildə isə Pakistan və Hindistan arasında 1971-ci ildə kəsilmiş diplomatik münasibətlər bərpa olundu.

Pakistan müsəlman ölkələri ilə də əlaqələrinin inkişafına xüsusi diqqət yetirirdi. 1974-cü ilin fevralında Lahorda müsəlman

dövlətləri və hökumətləri başçılarının II konfransı keçirildi.

Bütün bunlar istər sosial-iqtisadi, istərsə də siyasi sahədə müəyyən pozitiv irəliləyişlərə səbəb oldu və qısa bir zaman kəsiyində Pakistanda normal və dinc həyat yarandı. Lakin həyata keçirilən tədbirlər bütünlüklə ölkədə mövcud olan problemlərin həllini başa çatdıra bilmədi. O biri tərəfdən isə, birincisi, ölkənin özündə 1973-cü və 1977-ci illərdə baş verən çox böyük təbii fəlakətlər, ikincisi, 1974-1975-ci illərdə dünyada istehsal, enerji və valyuta sahələrində baş verən dərin böhran Pakistanın iqtisadi durumunu sarsıtdı. İnflyasiya misilsiz bir sürətlə artdı, qiymətlər bahalaşdı. Adambaşına düşən gəlir xeyli aşağı endi. İslahatların keçirilməsi iri torpaq sahibləri və iş adamlarının güclü müqaviməti ilə qarşılanır və onların narazılığını artırırdı. Bu səbəbdən islahatlar prosesi ləngiyirdi və bu da öz növbəsində islahatlarda maraqlı olan qüvvələrin narazılığına səbəb olurdu. 1974-cü ilin yayında fanatik dindarlar ölkədə icmalararası ziddiyyətləri kəskinləşdirir və toqquşmalar yaradırdılar. Təbiidir ki, bütün bunlar Z.Ə.Bhutto hökumətinin nüfuzunun aşağı düşməsinə, bu zəmində müxalifət qüvvələrinin fəallaşmasına gətirib çıxarmışdı.

Vəziyyətin get-gedə kəskinləşməsinin qarşısının alınması yolunu Z.Ə.Bhutto hökuməti daxili siyasi kursun sərtləşdirilməsində gördü. Bu məqsədlə konstitusiyanın nəzərdə tutduğu hüquq və azadlıqlar məhdudlaşdırıldı, müxalifət qüvvələrinə qarşı təqib və cəza tədbirləri gücləndirildi. 1975-ci ildə ən güclü müxalifət qüvvəsi olan Pakistan Milli Xalq partiyasının fəaliyyəti qadağan olundu və onun liderləri isə həbsə alındı. Hökumətin bu tədbiri əhalinin siyasi cəhətdən fəal təbəqələri tərəfindən ciddi narazılıqla qarşılandı. Ölkənin müxtəlif yerlərində və əhalinin müxtəlif sosial təbəqələri arasında mövcud narazılıq parlament seçkilərinə hazırlıq dövründə kəskin şəkildə özünü göstərməyə başladı.

Parlament seçkiləri 1977-ci ilin martında keçirildi. Seçkilərdə hakim Xalq Partiyası doqquz müxalifət partiyasının birləşdiyi blokla ciddi mübarizə aparmalı oldu. Müxalifətçi blokda sağ dini-icma partiyaları ilə yanaşı qadağan edilmiş Milli Xalq Partiyasının bazasında yaranmış Milli-Demokrat Partiyası da birləşmişdi. Seçkilərdən sonra vəziyyət tamamilə çıxalmaz şəkil aldı. Bu da onunla bağlı idi ki, seçkilərdə hakim Xalq Partiyasının qalib gəlməsi haqqında rəsmi məlumatı müxalifət bloku qəbul etmədi və seçkilərin nəticələrini tanımadığını bildirdi. Pakistan Milli Alyansı adlanan müxalifət

hökuməti seçkilərin nəticələrini saxtalaşdırmaqda ittiham etdi və ona qarşı geniş mübarizə kampaniyasına başladı. Ölkə əhalisinin müxtəlif təbəqələri, xüsusilə şəhərlilər, həm sosial vəziyyəti ağır olanlar, həm də dövlətin tədbirlərindən narazı olanlar etiraz aksiyalarında fəal iştirak edirdi. Ölkədə böhranlı vəziyyət yaranmış, Z.Ə. Bhutto hökumətinin nə güzəşt yolu, nə də zor tətbiq etmə yolu məsələnin həllinə kömək etmir və heç bir müsbət nəticə vermirdi. Siyasi istiqrarın tamam pozulması və iqtisadi çətinliklərin artması prosesi daha da dərinləşdirdi. Məhz bu səbəbdən hərbçilər üçüncü dəfə hakimiyyəti öz əllərinə aldılar. Hərbçilərin növbəti hakimiyyəti ilə Pakistanda siyasi təkamülünün dördüncü mərhələsi başlanmış oldu.

Hakimiyyətin hərbçilərin əlinə keçməsindən sonra 1977-ci ilin 5 iyulunda ölkədə hərbi vəziyyət elan edildi, mərkəzi və yerli qanunvericilik və icra orqanları buraxıldı, konstitusiyanın fəaliyyəti dayandırıldı.

Bundan sonra bütün hakimiyyət ordunun baş qərargah rəisi general M.Ziya ül-Haqqın əlində cəmləndi. Əvvəlcə o, ölkənin baş hərbi inzibatçısı oldu, 1978-ci ilin oktyabrında isə prezident elan edildi. Ölkə Ziya ül-Haqqın verdiyi sərəncam və fərmanlarla idarə edilirdi. Bütün ölkə boyu hərbi tribunallar fəaliyyət göstərir, iğtişaşlar yaratmış və yenə də buna cəhd edənlər cəzalara məruz qalırdı. Keçmiş hökumətin bir sıra üzvləri həbsə alındı. Hətta 1979-cu ilin aprelində baş nazir Z.Ə.Bhutto edam edildi.

Pakistanda «islam cəmiyyəti» qurmaq hərbi rejimin başlıca məqsədinə çevrildi. Bu baxımdan ölkədə dini-siyasi dairələrin və qüvvələrin rolu artdı. Hökumətin yanında Üləmaların məsləhət şurası yaradıldı. Ziya ül-Haqq öz fəaliyyətində bu şuranın rəy və təkliflərinə əsaslanırdı. Ali məhkəmə orqanları islama uyğun gəlməyən hər hansı bir qanunu qüvvədən salmaq hüququna malik idilər. Əvvəllər mövcud olmuş vergilər sırasına islam vergiləri də əlavə olundu.

Bütün bunların edilməsində M.Ziya ül-Haqq hökumətinin məqsədi o idi ki, dini inanclara möhkəm bağlı olan xalqın böyük çoxluğunun etimadına nail ola bilsin. Ancaq bu siyasət həm də neqativ nəticələr doğururdu. Bir tərəfdən idarəçilikdə dünyəvi dəyərlərə üstünlük verən kəmiyyət azlığına baxmayaraq cəmiyyətdə keyfiyyət ağırlığına sahib olan qüvvələr, o biri tərəfdən şiyə və digər təriqətlərin nümayəndələri M.Ziya ül-Haqq rejiminin islamdan, eləcə də islam adına yığılan vəsaitlərdən öz istədikləri kimi istifadə

etməsindən narazı qalırdılar. Həm də bu narazılıqlar getdikcə daha çox açıq şəkildə təzahür edirdi. Odur ki, hökumət 1979-cu ilin noyabrında bütün siyasi partiya və təşkilatların fəaliyyətini, nümayiş, mitinq və tətillər keçirilməsini qadağan etdi, senzuranı gücləndirdi.

M.Ziya ül-Haqq hökuməti dövlətin xarici siyasət kursunda əsas önəmi ABŞ və Qərb dövlətləri ilə əlaqələrə verirdi. Qonşu Əfqanıstana sovet-rus qoşunlarının yeridilməsi və sovet-rus təhlükəsinin ölkə sərhədlərinə yaxınlaşması bu məsələdə başlıca rol oynamışdır. Sovet-rus işğalından qaçan milyonlarla əfqan mühaciri Pakistanda yerləşmişdi. Ümumiyyətlə, Pakistan mühacir əfqan müqavimətinə lazım olan köməyi və dəstəyi vermək zərurəti qarşısında qalmışdı və bu, Pakistanın arzu və istəyindən daha çox zamanın diktəsindən irəli gəlirdi.

1981-ci ildə ABŞ-da R.Reyqanın prezidentliyə gəlməsindən sonra regionda ciddi narahatlıq törədən sovet-rus müdaxiləsinə qarşı cavab tədbirləri görmək baxımından Pakistan-ABŞ əlaqələrində olduqca ciddi bir yaxınlaşma gedirdi. ABŞ Pakistana 3 mld dollar məbləğində kömək göstərdi. Qeyd etmək lazımdır ki, bu kömək sosial-iqtisadi problemlərin həlli ilə yanaşı, həm də ölkənin hərbi potensialının daha da möhkəmləndirilməsinə yönəldilmişdi.

1985-ci ilin fevralında Pakistanda parlamentə və əyalət qanunvericilik məclislərinə seçkilər oldu. Seçkilərin keçirilməsi partiya təmsilçiliyinə əsaslanmırdı. Artıq aprel ayında mülki hökumət təşkil edildi. Qeyd etmək lazımdır ki, bundan sonra da hökumətdə və digər hakimiyyət orqanlarında mülki şəxslərlə yanaşı hərbçilər həlledici vəzifələri öz əllərində saxlayır və əvvəlki mövqelərinin zəifləməsinə imkan vermirdilər. Bu hal 1988-ci ilə qədər, daha doğrusu, avqust ayında prezident M.Ziya ül-Haqqın təyyarə qəzası nəticəsində həlak olması dövrünə qədər davam etdi. Prezident M.Ziya ül-Haqqın faciəli ölümündən dörd ay sonra parlamentə seçkilər keçirildi və qalib gəlmiş Xalq Partiyasının lideri Benəzir Bhutto ( o, Z.Ə.Bhuttonun qızıdır) hökumətə başçılıq etdi. Beləliklə də hərbçilər seçkilərin nəticəsini və yaranmış yeni hökumətin legitimliyini tanıdılar. Onlar belə hesab edirdilər ki, bununla ölkədə yaranmış və güclənməkdə olan narazılıq və gərginlikləri zəiflətmək mümkün olacaqdır. Ancaq istər hərbçilər, istərsə də sağ yönümlü klerikal partiyalar həm inzibati, həm də qanunvericilik hakimiyyətində kifayət qədər nüfuzlu idilər. Yeni prezident Qulam İshaq Xan da onların

dəstəyi ilə seçilmişdi.

Təbiidir ki, belə bir vəziyyət B.Bhutto hökumətinin fəaliyyət azadlığını məhdudlaşdırmaya bilməzdi.

Qeyd etmək lazımdır ki, Benəzir Bhutto atasından fərqli olaraq liberal dəyərlərə söykənən inkişaf kursu götürmüşdü. Onun başçılıq etdiyi partiya dövlət bölməsinin genişləndirilməsi əleyhinə idi. Əksinə, dövlət müəssisələrinin özəlləşdirilməsi və özəl bölmənin fəaliyyət azadlığının təmini hökumətin kursunda əsas yer tuturdu. Bununla yanaşı, hökumət ənənəvi güclü mövqelərə malik olan hərbçilərin də maraqlarına diqqətlə yanaşırdı. Dövlətin idarə edilməsində hərbçilərin imkanlarından yenə geniş istifadə olunurdu. Xüsusi hərbi xidmət orqanları fövqəladə hüquqlara malik idi. Bütün bunlarla B.Bhutto hökuməti mülki və hərbi qüvvələrin birliyinə nail olmaq, bu zəmində ölkənin idarə edilməsində qüvvələr balansını saxlamaq istəyirdi. Lakin daxili və xarici borcların çoxluğu, budcə kəsirinin artması, -bunların yaranmasında böyük hərbi xərclər həlledici rol oynamışdı,- çox qısa zaman kəsiyində ölkənin maliyyə-iqtisadi durumunu mürəkkəbləşdirirdi. Hökumət qarşıda duran vəzifələrin həllində çətinliklərlə qarşılaşır, xalqın həyat səviyyəsini yüksəltmək haqqında verilən vədləri yerinə yetirmək mümkün olmurdu. Hökumətin nüfuzu çox sürətlə düşməkdə davam edirdi. Ən başlıcası isə, Kəşmir problemi ilə əlaqədar olaraq Hindistanla əlaqələrin korlanması daxili vəziyyətdə gərginliyi daha da artırdı. Prezident Qulam İshaq xan yaranmış bu vəziyyətdən istifadə edərək 1990-cı il avqustun əvvəlində parlamenti buraxdı, ölkədə fövqəladə vəziyət elan etdi və B.Bhutto hökumətini istefaya göndərdi. Hökumət səriştəsizlikdə, korrupsiya və digər sui-istifadələrdə ittiham edildi. Əyalətlərdə də Xalq Partiyası üzvlərinin çoxluq təşkil etdiyi yerli hökumətlər buraxıldı. B.Bhutto və onun qırx tərəfdarına (anası Nüsrət Bhutto istisna olmaqla), ölkədən çıxmaq qadağan edildi, onların əməllərinin təhqiqinə başlanıldı. Hökumət və xüsusi xidmət orqanlarında kütləvi təmizlənmə aparıldı. Həbsə alınmaqdan xilas olmaq üçün Xalq Partiyası fəallarının çoxu gizli fəaliyyətə keçdi. Demək lazımdır ki, «prezident( və yaxud konstitusiyalı) çevriliş» prosesində ordu da fəal və yaxından iştirak edirdi. Baş nazir B.Bhuttonun katibliyində axtarışları məhz ordu zabitləri aparmış, onun Kəraçidəki iqamətgahı hərbçilər tərəfindən nəzarətə götürülmüşdü. Eləcə də digər mühüm obyektlər hərbçilərin nəzarəti altında saxla-

nılırdı. Bütün bunlara əsasən, bəzi tarixçilər 1990-cı ilin avqust hadisələrini «yarım hərbi çevriliş» də adlandırırdılar. Lakin hakimiyyət orqanları hər vəchlə sübut etməyə çalışırdılar ki, bu hadisələrdə ordunun iştirakı olmamışdır.

## *Pakistan 90-cı illərdə*

B.Bhutto hökumətinin istefaya göndərilməsindən sonra baş nazir vəzifəsinin icrası Qulam Mustafa Catoya tapşırıldı. O, İslam Demokratik Alyansının liderlərindən idi. Bunun ardınca 1990-cı ilin oktyabrında keçirilən seçkilərdə İslam Demokratik Alyansı parlamendə yerlərin nisbi çoxluğunu qazana bildi, onun lideri Nəvaz Şərif parlamentdə təmsil olunan digər partiyaların da dəstəyi ilə hökuməti formalaşdırdı.

Qeyd etmək lazımdır ki, Mian Məhəmməd Nəvaz Şərif Pakistanın tarixində ilk baş nazir idi ki, istiqlaliyyət illərində yaranmış və möhkəmlənmiş maliyyə-sənaye burjuaziyasının sıralarından çıxmışdı. O bir baş nazir kimi öz fəaliyyətində həmin dövrdə Pakistan cəmiyyətini narahat edən problemlərin həllinə çalışırdı. Bu problemlər isə 1988-1993-cü illər üçün nəzərdə tutulan beşillik planda öz əksini tapdı. Bunlar ölkənin enerji bazasını genişləndirmək, işsizliklə mübarizə, insan ehtiyatlarından səmərəli istifadə, mümkün qədər daha çox elmi-texniki və maliyyə təminatına nail olmaq, daxili və xarici sərmayə qoyuluşuna dəstək vermək, xarici borcların azaldılmasına çalışmaq (müxtəlif məlumatlara görə həmin dövrdə xarici borclar 40-60 mld dollar civarında idi- müəl.), hərbi xərcləri və büdcə kəsirini ixtisar etmək kimi məsələlər idi. Yeri gəlmişkən qeyd etmək istərdik ki, beşillik planda nəzərdə tutulan bu məsələlərin həlli ilə əvvəlki iki il müddətində B.Bhutto hökuməti də məşğul olurdu. Lakin siyasi vəziyyətin gərgin olması baxımından hökumət öz gücünü məsələləri həll etməkdən daha çox, özünü saxlamaq uğrunda mübarizəyə sərf etmişdi. N.Şərif hökuməti isə daha normal siyasi şəraitdə işləyirdi və öz iqtisadi proqramını həyata keçirməyə çalışırdı. Hökumətin iqtisadi proqramında aşağıdakılara önəm verilməsi nəzərdə tutulurdu: liberallaşdırma, dövlət müəssisələrinin və banklarının özəlləşdirilməsi, dövlət torpaqlarının torpaqsız icarədarlar arasında bölüşdürülməsi, iri torpaq sahiblərinin muzdur və icarədar kəndlilərə qarşı özbaşnalıqlarına sədd qoymaq, aqrar sahədə vergi

sistemini tənzimləmək və s.

Bu proqram istiqamətində ilk real tədbirlər 1990-cı ilin dekabrından həyata keçirilməyə başlandı. Yuxarıda sadalanan vəzifələrin həlli sahəsində göstərilən bir sıra əməli sə'y və cəhdlər nəticəsində ümumi milli məhsulun artımı beşilliyin son üç ilində 6% səviyyəsində oldu. Xarici kapital qoyuluşu iki dəfəyədək çoxaldı. Ölkənin valyuta ehtiyatı 1991-ci ildə 1 mld dolları keçmişdi. İqtisadiyyatda dövlət tənzimlənməsindən azad bazar münasibətlərinə keçiddə xeyli irəliləyiş olmuşdu və s.

Daxili həyatda yaranmış bu irəliləyişlə yanaşı Pakistanın xarici siyasətində Hindistanla yaranan münaqişələr zəminində müəyyən gərginliyin yaşandığını qeyd etmək lazımdır. Əgər 1988-1989-cu illərdə bu iki dövlət arasında nisbi bir normallaşma müşahidə olunurdusa da, bu hal 1990-cı ildə korlandı. Dövlətlərarası münasibətlər kəskinləşdi. Bu yenə də Cəmmu və Kəşmir məsələsi ilə bağlı idi. Belə ki, həmin dövrdə Hindistan mərkəzi hökumətinin yürütdüyü ayrı-seçkilik siyasəti nəticəsində ştatda hakim olan iqtisadi gerilik, kütləvi işsizlik və əhalinin səfalətli güzaranına qarşı qalxan etiraz aksiyaları Pakistan tərəfindən dəstəkləndi. Mayda Pakistan-Hindistan sərhədlərində gərginlik zirvəyə çatdı. Hindistan öz ordularını sərhəd boyunca yerləşdirdi və hərbi manevrlərə başladı. Sərhədin digər tərəfinə Pakistan orduları cəmləşdirildi və tam hazırlıq vəziyyətinə gətirildi. Müharibənin başlanması artıq hər an mümkün olan vəziyyətdə idi. Məsələyə böyük dövlətlər, ilk öncə ABŞ güclü reaksiya verdi. Məhz ABŞ dövlət təmsilçilərinin Moskva, Dehli, İslamabad səfərlərinin nəticəsində müharibə alovu söndürüldü. Pakistan öz ordularını sərhəddən çəkdi, Hindistan da hərbi manevrləri dayandırdı və ordularını sərhəddən uzaqlaşdırdı.

Hindistanın güc tətbiq etmək siyasətinə cavab olaraq Pakistanın da nüvə silahı istehsal etmək planları ABŞ tərəfindən ciddi narazılıqla qarşılandı. Nüvə silahı istehsal etməkdə şübhəli bilinən dövlətlərə hərbi və iqtisadi kömək göstərməmək haqqında ABŞ-da qüvvədə olan qanun Pakistana qarşı da tətbiq edildi. Həm də ABŞ Pakistanı demokratik idarəçilik metodundan uzaqlaşmaqda, nüvə silahının yayılmaması haqqında müqaviləyə imza atmamaqda, məsələlərin həllində güc tətbiq etməkdə, hərbçilərin özbaşnalığı və s. kimi qeyri-demokratik hallarda ittihamladı. Artıq sonrakı 1991-1992-ci illərdə Pakistanın öz qonşusu ilə münasibətləri tənzimləmək yolunda

cəhdlər göstərməsinin şahidi oluruq. Eyni zamanda Pakistan dövləti 1991-ci ilin iyununda Cənubi Asiyada nüvə təhlükəsizliyi məsələsi üzrə çoxtərəfli görüşlər keçirilməsi təklifi ilə çıxış etdi.

1990-cı ildə BMT Əfqanıstan probleminin həlli sahəsində müəyyən planlar hazırlarkən Pakistanın siyasətində pozitiv bir mötədillik özünü göstərirdi. Ümumiyyətlə isə, Pakistan 90-cı illərin əvvəlindən belə bir xarici siyasət kursuna üstünlük verməyə başladı ki, istər region, istər müsəlman dünyası, istərsə də beynəlxalq aləmdə öz rolu və mövqeyini artırmaq üçün dünyanın əksər dövlətləri ilə, birinci növbədə aparıcı dövlətlərlə münasibətlərinə pozitiv yeniliklər etsin. Bu baxımdan Pakistan təkcə siyasi nüfuzunun artmasına yox, həm də iqtisadi-hərbi qüdrətinin də artmasına diqqəti artırdı. Artıq 1992-ci ilin fevralında rəsmi olaraq bildirilirdi ki, Pakistan nüvə texnologiyasına yiyələnmişdir və nüvə silahı istehsal etmək üçün lazım olan baza və ehtiyatlara malikdir.

Bütün bunlarla yanaşı N.Şərif hökumətinə qarşı narazı olan qüvvələr də az deyildi. Lakin, onlar hökumətin nüfuzu ilə müqayisədə o qədər qüvvətli deyildi. Hökumət parlament tərəfindən dəstəklənirdi. Hətta 1992-ci il dekabrın sonlarında prezident Qulam İshaq Xan xalqa müraciətində hökumətin daxili və xarici siyasət sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdi. Ancaq 1993-cü ilin yazında Pakistanda olduqca kəskin bir siyasi böhran baş verdi. Bunun səbəbi isə aprelin 18-də prezident tərəfindən hökumətin istefaya göndərilməsi və parlamentin buraxılması oldu. Prezident bu hərəkəti konstitusiyanın 8-ci maddəsi ilə əsaslandırır və hökuməti korrupsiyaya qarşı lazımi mübarizə aparmamaqda, parlamentdə etimadı itirməkdə, vilayətlərin maraqlarına etinasız münasibət bəsləməkdə ittiham edirdi. N.Şərif apellyasiya üçün Ali Məhkəməyə müraciət etdi. Ali Məhkəmə prezidentin hərəkətini konstitusiyaya uyğun saymadı və hökumətin hüquqlarının bərpa edilməsinə qərar verdi. Bu zəmində N.Şərif-Qulam İshaq Xan qarşıdurması yarandı və siyasi istiqrar pozuldu.

Bəs məsələnin kökündə nə dayanırdı ?

Bəlli olduğu kimi həmin dövrdə prezident Qulam İshaq Xan 1993-cü ilin sonlarında keçiriləcək prezident seçkilərində təkrar iştirak etmək istəyirdi. N.Şərif prinsipcə bu fikrin əleyhinə deyildi, hətta müdafiə də edirdi. Ancaq o, belə bir şərt irəli sürürdü ki, prezident seçkilərinə qədər hərbçilərin hakimiyyəti dövründə prezi-

dentə əlavə səlahiyyətlər verilməsi üçün konstitusiyada edilmiş 8-ci düzəliş ləğv olunsun. Yeri gəlmişkən, bir sıra partiya liderləri, o cümlədən B.Bhutto da bu fikirdə idilər. Lakin Qulam İshaq Xan və tərəfdarları bu fikrə qarşı çıxdılar və yuxarıda haqqında danışdığımız insident baş verdi. Məsələnin tənzimlənməsinə hərbçilər qarışdılar, həm də bu zaman əvvəllərdə olduğu kimi dövlət çevrilişi etmək yolunu tutmadılar. Hərbçilərin tələbi ilə mübahisəyə cəlb olunmuş bütün tərəflər-həm prezident, həm də baş nazir istefaya göndərildi, parlament isə buraxıldı. 1993-cü ilin oktyabrında parlamentə və qanunvericilik orqanlarına seçkilər keçirildi və bu dəfə nəticələr Pakistan Xalq Partiyasının xeyrinə oldu. O, 217 yerdən 86-na sahib oldu, öz müttəfiqlərinin iştirakı və əyalətlərdən olan müstəqil deputatların dəstəyi ilə hökuməti formalaşdırdı. Lakin bunu da qeyd etmək lazımdır ki, B.Bhuttonun baş nazir olması məsələsi müttəfiqlər arasında mübahisə doğurduğundan, hökumətin təşkili prosesi xeyli vaxt apardı və 1993-cü ilin sonlarında başa çata bildi. Həm də parlamentdə N.Şərifin başçılıq etdiyi Pakistan Müsəlman Liqası və müttəfiqlərinin timsalında hökumətə qarşı güclü müxalifət formalaşdı. Seçkilərin nəticələri bir baxımdan da maraqlı olmuşdu. Bu da klerikal partiyaların ağır məğlubiyyətə məruz qalması idi. Camaat-e İslam partiyası bir mandat belə qazana bilməmiş, Pakistan İslam Cəbhəsi və Birləşmiş Dini Cəbhə parlamentdə beş yer ala bilmiş, bütün əyalətlərin qanunvericilik orqanlarında isə qazanılan yerlərin sayı heç 10-na da çatmadı. Bu fakt həm də ona görə əlamətdardı ki, həmin dövrdə islam ölkələrində klerikal partiyaların fəallaşması müşahidə olunurdu. Elə Pakistanın özündə də klerikallar ölkədə teokratik rejim yaratmağa çalışır, ölkənin tale yüklü məsələlərinin parlament və hökumət tərəfindən deyil, dini ülemalar tərəfindən çözülməsi ideyalarını irəli sürürdülər.

1993-cü ilin noyabrında isə Pakistan Xalq Partiyasının fəal liderlərindən Faruq Əhməd Leqari prezident seçildi. Ümumiyyətlə 1993-cü il parlament və prezident seçkilərinin nəticələri ölkədə 1988-ci ildən başlayan konstitusiyaya söykənən demokratik rejimin bərpası və möhkəmləndirilməsi prosesində irəliyə doğru bir addım kimi qiymətləndirilirdi.

Qeyd etmək lazımdır ki, B.Bhutto hökumətinin fəaliyyət proqramı öz sələfinin kursundan heç nə ilə fərqlənmirdi. Təsadüfi deyildir ki, Xalq Partiyası elə seçkilərdə də əsasən «rədd olsun

korrupsiyaya uğramış hökumət» və «demokratiya uğrunda» şüarlarından başqa heç bir ideya da irəli sürməmişdi. Odur ki, yenidən baş nazir vəzifəsini tutan Benazir Bhutto daha çox keçmişdə buraxdığı səhvləri düzəltmək və ölkə iqtisadiyyatını dirçəltmək istiqamətində müəyyən işlər gördü. Bu qəbildən ölkəyə xarici investorların daha çox cəlb edilməsi məqsədilə əcnəbilər üçün məhdudiyyətlərin aradan qaldırılması, iqtisadi münasibətlərin yenidən işlənib hazırlanması və s.ni qeyd etmək olar. B.Bhutto 1994-cü ilin yanvarında Ümumdünya İqtisadi Forumunda çıxış edərkən ölkəsində həmin istiqamətdə həyata keçirilən iqtisadi islahatları iştirakçıların diqqətinə çatdırmışdı. Hətta o, ölkəyə investisiya qoyuluşunu genişləndirmək üçün 1994-1995-ci illərdə ABŞ, Almaniya, İngiltərə, Fransa, Yaponiya və bir sıra ərəb ölkələrinə səfərlər də etmişdi. B.Bhuttonun bu səyləri nəticəsiz qalmadı. İqtisadi həyatda müəyyən canlanma özünü göstərdi.

1995-ci ildə ümumi milli məhsul istehsalı artaraq 57 mld dollara, ixrac və idxal isə müvafiq 7,4 mld və 8,9 mld dollara çatdı. İstər aqrar, istərsə də sənaye sahələrində kifayət qədər uğurlar qazanıldı və bu baxımdan məhsul istehsalında çox çeşidliliyinin təmin olunması xüsusilə hiss olunurdu.

Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, iqtisadi artım sürəti heç də əhalinin sosial ehtiyaclarını lazımınca ödəmək səviyyəsində deyildi. O biri tərəfdən yeni iş yerləri yaradılmasına baxmayaraq işsizlik xroniki bir xəstəlik olaraq qalırdı. Belə bir şəraitdə müxalifət B.Bhutto hökumətini korrupsiya və rüşvətxorluqda ittiham edirdi. Ən böyük ittiham isə B.Bhuttonun əri Asəf Əli Zərdarinin rüşvət almasının açıqlanması oldu. Bütün bunlar isə onunla nəticələndi ki, B.Bhutto hökuməti 1996-cı ilin 6 noyabrında istefaya göndərildi. 1997-ci ilin fevralında keçirilən parlament seçkilərində Pakistan Müsəlman Liqası üstünlüyünə nail oldu və N.Şərif yenidən baş nazir vəzifəsini tutdu.

Maraqlıdır ki, 1988-ci ildən başlayaraq həmin ilə kimi hakimiyyət dörd dəfə Pakistan Xalq Partiyasından Pakistan Müsəlman Liqasına və əksinə keçmişdi və hər dəfə də hökumətlərdən heç biri konstitusiyada nəzərdə tutulmuş müddəti tam başa vura bilməmişdir. Hər dəfə də hökumət və parlament prezident fərmanı ilə istefaya göndərilmiş, həmişə də hökumətin korrupsiyaya qurşanması və səriştəsizliyi bəhanə gətirilmişdir. İrəlidə də qeyd edildiyi kimi prezidentlər,- istər Qulam İshaq Xan olsun, istərsə də Faruq xan Leqari,-istefa

fərmanlarını Ziya ül- Həqq zəmanında konstitusiyaya edilmiş 8-ci düzəlişə istinadən imzalayırdılar. Əslində bu əlavə konstitusiyada nəzərdə tutulmuş parlament idarəçiliyinin prezident idarəçiliyi ilə əvəz olunması idi. Ziya ül-Həqqdən sonra formal olaraq konstitusiyada nəzərdə tutulan hakimiyyət forması bərpa olunsa da, lakin prezident öz əvvəlki üstün səlahiyyətlərini saxlayırdı. Nə N.Şərif, nə də B.Bhutto, bu vəziyyətdən narazı olsalar da, əvvəllər onun aradan qaldırılmasına cəhd etməmişdilər. N.Şərif 1997-ci ildə baş nazir postuna yiyələndikdən sonra öz əvvəlki inkişaf kursunu davam etdirməklə yanaşı ölkənin siyasi strukturu sahəsində dəyişikliklər etməkdə daha böyük fəallıq göstərirdi. Hökumətin təşkilindən az keçməmiş prezidentin salahiyyətlərinin qanunvericilik qaydası ilə məhdudlaşdırılmasını nəzərdə tutan konstitusiyaya 13-cü düzəliş tələm-tələsik Milli Məclisin müzakirəsinə verildi və bir günün içində qəbul olundu. 13-cü düzəlişə görə dövlət başçısı parlamenti və hökuməti buraxmaq hüququndan məhrum olunur, baş nazir isə ordu baş qərargah rəisini təyin etmək hüququnu qazanırdı.

Bunun ardınca həmin qayda ilə 14-cü düzəliş qəbul edildi. Düzəliş bir parlament fraksiyasından digərinə keçməyi qadağan edirdi. Bundan əlavə, deputatların müstəqil səs vermək hüququ alınır, onlar fraksiyaların qərarından kənarda heç nə edə bilməzdilər və yeganə hüquqları əl qaldırmaqla qərara «sədaqət»lərini göstərmək idi. Beləliklə baş nazir parlamentə nəzarəti öz əlinə ala bildi, qanunverici və icraedici orqanları öz təsiri altına saldı.

N.Şərif sonda hakimiyyətin üçüncü qolunu da öz nəzarəti altına salmaq planını reallaşdırmağa başladı. Bu zəmində Ali Məhkəmə sədri Sacad Əli şahla onun arasında münaqişə yarandı və bu onunla nəticələndi ki, sədr zorla istefaya göndərildi,onun yerinə baş nazirə yaxın olan şəxs gətirildi. Bu, faktik olaraq üçüncü hakimiyyətin müstəqilliyini itirməsi demək idi.

Maraqlı hadisələrdən biri 1998-ci ilin 29 avqustunda Milli Məclisin hüquq məsələləri üzrə daimi komissiyasında şəriət qanunlarını, yəni Quran və sünnənin göstərişlərini əsas qanun kimi qəbul etməyi, konstitusiyanı kənarda qoymağı nəzərdə tutan qanun layihəsinin qəbul edilməsidir. Qeyd etmək lazımdır ki, bu hadisə müxalifət qüvvələri tərəfindən birmənalı şəkildə rədd edildi, beynəlxalq ictimai rəy isə həmin addımı çox sərt şəkildə pislədi. Baş nazir N.Şərifin bu cəhdi təkcə onun siyasi xəttinə deyil, ümumiyyətlə

Pakistanın inkişaf kursuna bir etimadsızlıq yaratdı. Çünki, Pakistan bütün dünyada Böyük Britaniya hüquq prinsipləri ruhunda ərsəyə yetmiş bir dövlət kimi tanınırdı. Bu ölkədə isə, bəlli olduğu kimi, prezidentin qanuna çevrilməsi çox ciddi hal hesab olunur.

Qeyd etmək lazımdır ki, bir tərəfdən bu, o biri tərəfdən isə hələ 1998-ci ilin mayında Pakistanın nüvə sınaqları keçirməsinə görə ABŞ başda olmaqla bir sıra dost ölkələrin iqtisadi sanksiyalar tətbiq etməsi nəticəsində ölkə iqtisadiyyatının 2 mld dollar civarında yardımlardan məhrum olması, eləcə də həmin dövrdə Şərqi Asiyada baş verən iqtisadi böhran səbəbilə ölkənin ixrac imkanlarının daralması N.Şərif hökumətinin durumunda xeyli gərginlik yaratdı. Doğrudur, 1998-ci il öz iqtisadi göstəriciləri baxımından əvvəlki dövrlə müqaisədə uğurlu il hesab olunurdu. İqtisadi artım, adambaşına düşən gəlir, aqrar və sənaye istehsalı bir neçə faiz yüksəlmişdi. Hökumət əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmək üçün bir-birilə bağlı olan iki problemin həllinin zəruriliyini bildirdi. Bunlardan birincisi ölkədə siyasi istiqrarın və hökumətə etimadın bərpa edilməsi, ikincisi isə iqtisadiyyatın daimi yüksəlişini təmin etmək üçün struktur dəyişikliklərinin həyata keçirilməsi idi. Bu məqsədlə İqtisadi dirçəliş proqramı (burada əsas diqqət vergi hədlərinin dəyişdirilməsi və ixracatın genişləndirilməsinə yönəldilmişdi), kənd təsərrüfatının inkişaf proqramı, maliyyə sahəsində, birinci növbədə bank strukturlarının islahatı və s. sahələr üzrə proqramlar qəbul edildi. Lakin bu proqramların yerinə yetirilməsi müəyyən obyektiv və subyektiv səbəblər üzündən ya ləng gedir, ya da mümkün olmurdu. Xüsusilə, Şərqi Asiyada yaranmış böhranlı vəziyyət Pakistana da güclü təsir göstərdi. Pakistan rupisinin qiyməti xeyli aşağı düşdü. Ölkə böhranla üz-üzə qaldığı bir dövrdə yaranmış vəziyyətdən çıxmaq yollarını aramaq əvəzinə N.Şərif özünü bütün çətinliklərin öhdəsindən gələ biləcək bir dövlət adamı kimi aparır, sərt siyasi addımlar atırdı. Bu baxımdan 1998-ci ilin oktyabrında ölkənin silahlı qüvvələrin baş komandanı general Cahangir Qarамətin vəzifədən uzaqlaşdırılmasını xüsusilə qeyd etmək lazımdır.

Lakin bütün bunlar hökmətin siyasətinə qarşı etirazların qarşısını ala bilmədi. Qiymətlərin, vergilərin və işsizliyin artması zəminində 1998-ci ilin sonlarında hökumətə qarşı çıxışlar adi hala çevrildi. Bu çıxışlarda ölkə əhalisinin (1998-ci ildə əhalinin sayı 140 mln-a çatmışdı-müəl.) müxtəlif sosial təbəqələrinin nümayəndələri iştirak

edirdi. Aqrar sahədə yeni vergilərin tətbiq edilməsi güclü etirazla qarşılandı.

Belə bir şəraitdə Böyük Britaniyada «Observer» qəzetində Nəvaz Şərif haqqında bir sıra materiallar dərc olundu və orada deyilirdi ki, o, Pakistanın ən varlı adamlarından biridir. Ölkədəki sənaye müəssisələrinin 40%-i ona və ailəsinə məxsusdur və onların mülkiyyətində minlərlə akr torpaq sahələri vardır. N.Şərif ailəsinə məxsus varidatın qiyməti 500 mln funt sterliqdən çoxdur və onlar milyardlarla rupini xarici banklara keçiriblər. Bu materiallar çox böyük əks-səda verdi, N.Şərifin əleyhdarları bu faktları yoxlamaq üçün xüsusi komissiya yaradılması və təhqiqatın düzgün aparılması üçün isə həmin müddətdə onun baş nazir vəzifəsindən kənarlaşdırılması tələbi ilə çıxış etməyə başladılar.

Ölkə həyatında daha qorxulu hadisə Pakistanın kiçik vilayətləri Şimal-Qərbi sərhəd əyaləti, Sind və Belucistanda bəzi siyasi qüvvələrin daxili muxtariyyəti genişləndirmək istəklərinin güclənməsi və bu istiqamətdə bir sıra səylər göstərməsi oldu. Bu baxımdan Sinddə məskunlaşan mühacirlərin (onlar urdu dilində danışırlar və müxtəlif vaxtlarda Hindistandan buraya köçmüş müsəlmanlardır-müəl.) öz ştatlarını yaratmaq uğrunda mübarizəsini xüsusilə qeyd etmək lazımdır. Mühacirlərin bu hərəkatına Birləşmiş Milli Hərəkat təşkilatı başçılıq edir. Bu hərəkatın liderləri məqsədə çatmaq üçün bütün etiraz aksiyalarından,- dinc nümayişlərdən tutmuş terror aktlarına qədər,- istifadə edərək Sind vilayətində normal həyatı pozmağa nail olmuşdular. Belucistanın puştu əhalisi də rəsmi dairələr üçün bir narahatlıq mənbəyidir. Puştular da müstəqil bir ştatda birləşmək iddiasındadırlar. Hakimiyyət faktik olaraq bu vilayətlərdə gücsüz bir hala gəlmişdi.

N.Şərif hökuməti bu separatist qüvvələri ordunun köməyi ilə susdurmaq qərarına gəldi. Qeyd etmək lazımdır ki, general Cahangir Qarамətin baş komandan vəzifəsindən uzaqlaşdırılması da məhz bu zəmində baş vermişdir. Çünki, general C.Qarамət silahlı qüvvələrin daxili problemlərin həllinə cəlb olunması əleyhinə idi. Lakin ondan fərqli olaraq yeni baş komandan Pərviz Müşərrəf bu işə həvəslə getdi və az vaxt ərzində bütün Sinddə, o cümlədən vilayətin paytaxtı Karaçidə vəziyyəti normallaşdıra bildi. General P.Müşərrəf bir hərbçi operativliyi və qətiyyəti ilə vilayətdə öz fəaliyyət istiqamətlərini müəyyənləşdirdi və «lazımi tədbirlər» görməyə başladı. Vilayətin

hər yerində hərbi tribunallar yaradıldı. Qanun pozanlara qarşı sərt cəzalar tətbiq olunurdu. Ordu faktik olaraq mülki hakimiyyətin bütün funksiyalarını öz əlinə götürmüşdü. General P.Müşərrəfin Sinddə tam hakimiyyət sahibinə çevrilməsi baş naziri rahatsız etməyə bilməzdi. Xüsusi xidmət orqanları da P.Müşərrəfin gələcəyə yönəli daha böyük iddialarının olması haqqında baş nazirə məlumatlar çatdırırdı. N.Şərif general P.Müşərrəfi tutduğu vəzifədən azad etmək qərarına gəldi. Lakin elə bu qərar da N.Şərifin özünün devrilməsi ilə nəticələndi. 1999-cu ilin noyabrında general P.Müşərrəf başda olmaqla hərbçilər hakimiyyəti öz əllərinə götürdülər və mülki hökumət general P.Müşərrəfin rəhbərlik etdiyi Milli Təhlükəsizlik Şurası ilə əvəz edildi.

Hərbçilərin bu hərəkəti ilə bağlı belə bir cəhəti də qeyd etmək istərdik ki, onlar hökuməti və parlamenti buraxsalar da prezident vəzifəsini saxladılar. R.Tərari prezident seçildi. Lakin prezident də öz fəaliyyətini Milli Təhlükəsizlik Şurası ilə razılaşdırmalıdır.

2000-ci ilin mayında Pakistanın Ali Məhkəməsi baş vermiş hadisələr haqqında öz qərarını verdi. Qərarda bildirilirdi ki, ölkədə baş vermiş hərbi çevriliş qanuna uyğundur və o, mövcud olan qanunsuzluqların, hərc-mərcliyin, separatist tendensiyaların və s. kimi neqativ halların aradan qaldırılması məqsədi daşıyır. Bununla yanaşı Ali Məhkəmənin qərarında o da qeyd edilir ki, ölkədə hərbi idarə rejimi üç il müddətində ola bilər. Bu müddət başa çatana qədər parlamentə və yerli qanunvericilik orqanlarına seçkilər keçirilməli, seçkili orqanların fəaliyyəti bərpa olunmalı və mülki hökumət təşkil edilməlidir.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, Milli Təhlükəsizlik Şurasının rəhbəri kimi P.Müşərrəf bir sıra xarici ölkələrdə olarkən beynəlxalq ictimai rəyin də ölkədə demokratik idarəçiliyin bərpası haqqında təkliflərini müsbət qarşılamışdır. Hazırda hərbi rejim elan etdiyi məqsədlərin həlli istiqamətində öz fəaliyyətini davam etdirməkdədir.

## BANQLADEŞ

Bəlli olduğu kimi, 1947-ci ildə Hindistan subqitəsinin xalqları istiqlaliyyət qazanarkən burada yaranmış iki dövlətdən birisi olan Pakistanın özü də iki hissədən ibarət idi. Pakistanın şərq və qərb adlanan hissələri bir-birindən xeyli aralı olmaqla yanaşı milli tərkib etibarilə də fərqli idi. Əgər Qərbi Pakistanda pəncablılar, puştular, sindhlər və belucilər yaşayırdısa, Şərqi Pakistan əhalisi isə yalnız benqallardan ibarət idi. Ölkənin şərq və qərb hissələri istər iqtisadi, istərsə siyasi baxımdan da eyni vəziyyətdə deyildi. Qərbin torpaq sahibləri, burjua nümayəndələri, hərbçi dairələri ənənəvi olaraq daha güclü idilər və bu gücdən istər iqtisadi, istərsə də siyasi məsələlərin həllində kifayət qədər yararlanırdılar. Yeri gəlmişkən demək lazımdır ki, bu hal yeni yaranmış dövlətin həyatında yeni hal deyildi. Bu ərazi Hindistanın tərkibində olarkən də onun iqtisadi və siyasi elitası həmişə söz və mövqe sahibi olmuş, indi də o ənənəni davam etdirirdi. Təbiidir ki, istiqlaliyyət qazandıqdan sonra Şərqi Pakistan əhalisi,- həm də onu demək lazımdır ki, bu əhali say etibarilə daha çox idi,- dövlətin iqtisadi və siyasi həyatında ən azı bərabər hüquqlara sahib olmaq istəyində idi və mövcud durum onu qane etmirdi. Elə bunun nəticəsi idi ki, daxildən və xaricdən, ilk növbədə Hindistan tərəfindən dəstəklənən siyasi qüvvələr Mucibur Rəhmanın başçılıq etdiyi Xalq Liqası (Avami Liq) partiyasında birləşib ölkənin dövlət quruluşunun demokratikləşdirilməsi və əyalətlərə tam məhəlli muxtariyyət verilməsi tələblərini irəli sürür, bununla da Şərqi Pakistan əhalisi olan benqalların siyasi və iqtisadi həyatda bərabər səviyyədə təmsil olunmasına çalışırdılar. Bəlli olduğu kimi, bu hadisələr ölkənin iki hissəsi arasında qarşıdurma yaranmasına qədər gətirdi. Bu məsələlər ətrafında Pakistanla əlaqədar kifayət qədər danışıldığından qısaca olaraq ona toxunmaq istərdik ki, 1970-ci ilin aprel seçkilərində Xalq Liqası (Avami Liq) Şərqi Pakistan üçün nəzərdə tutulan 162 parlament mandatından (ümumiyyətlə isə ölkə parlamentində 300 yer var idi-müəl.) 160-na sahib oldu. Şərqi Pakistanın yerli qanunvericilik məclisində yerlərin də mütləq əksəriyyətini Xalq Liqası nümayəndələri tutdular. İrəlidə bu hadisənin doğurduğu əks-səda haqqında, general Yahya xanın gördüyü cəza tədbirləri, Xalq Liqasının qadağan edilməsi, hakimiyyətin parlament çoxluğuna verməkdən imtina edilməsi, Şərqi Pakistanın geniş muxtariyyət istəyinin rədd edilməsi və s.

haqqında lazımınca danışılmışdır. Bütün bu hadisələrin sonunda 1971-ci ilin 26 martında Banqladeş Xalq Respublikasının yaradıldığı elan olundu.

Hindistan ordularının da bilavasitə yardım etdiyi «muktu bahini» adlı yerli silahlı dəstələrə müqavimət göstərə bilməyən Pakistan hərbi birləşmələri, nəhayət, 1971-ci il yanvarın 10-da təslim oldu. Düz bir il sonra Mucibur Rəhman Qərbi Pakistanda məhbəsdən azad edildi və Banqladeşə gəldi. Onun gəlişinin ikinci günü Banqladeş Xalq Respublikasının müvəqqəti konstitusiyası elan edildi və ona uyğun olaraq Mucibur Rəhman hökumət təşkil etdi.

Qeyd etmək lazımdır ki, 1971-ci ilin martından öncə Banqladeşdən Pakistan parlamentinə seçilən millət vəkilləri və yerli qanunverici orqanın bütün üzvləri ölkənin Müəssislər Məclisini təşkil etdilər. Prezident isə Əbu Seyyid Çaudhuri seçildi. Hindistan hərbi qüvvələri 1972-ci ilin martında Banqladeşdən çıxarıldı. 1972-ci ilin yanvarında Banqladeş və Hindistan arasında bağlanan müqavilənin şərtlərinə görə qaçqınların ölkəyə qayıtması başlandı. Onu da əlavə etmək lazımdır ki, həmin müqavilə martın 19-da iki ölkə arasında imzalanan «Dostluq, sülh və əməkdaşlıq haqqında müqavilə» ilə tamamlandı. Mucibur Rəhman hökuməti həm də bu yeni dövləti tanıyan bütün dövlətlərə dəstək üçün müraciət etdi. Sovet İttifaqı Hindistandan sonra Banqladeşə maddi və mənəvi yardım göstərən ikinci dövlət oldu. Martın əvvələrində Banqladeş Xalq Respublikasının baş naziri Mucibur Rəhmanın başçılıq etdiyi nümayəndə heyəti Moskvada oldu və iki dövlət arasında münasibətlərin daha da inkişaf etdirilməsi haqqında Bəyanat imzalandı. Bir sıra sənaye obyektlərinin inşasında sovet mütəxəssisləri çalışmağa başladı.

Ümumiyyətlə isə, qısa vaxtda Baqladeş bir çox ölkələr, 1974-cü il Pakistan, 1976-cı ildə isə ÇXR tərəfindən tanındı. Ölkə 1974-cü ildə Birləşmiş Millətlər Təşkilatına qəbul edildi.

Bu da maraqlıdır ki, Mucibur Rəhman hökuməti elə ilk vaxtlardan həmin dövrdə Pakistan hökumətinə başçılıq edən Z.Ə.Bhuttonun siyasi və iqtisadi kursunu Banqladeş şərtlərinə uyğunlaşdırılmış formada təkrar edirdi. O da dövlət siyasətinin əsas prinsiplərinin millətçilik, sosializm, demokratiya və sekulyarizm (yəni dünyəvi xarakterli dövlət) olduğunu bildirir və bu prinsiplərə uyğun fəaliyyət göstərirdi. İlk olaraq iqtisadiyyatda dövlət bölməsinin mövqeyi və rolu artırıldı. İri sənaye müəssisələrinin 85%-i, eləcə də dəmir yolu,

hava və dəniz nəqliyyatı, çay gəmiçilik şirkətləri milliləşdirildi. Milliləşdirilən obyektlər sırasında banklar və sığorta şirkətləri də var idi. Xarici ticarət də dövlət nəzarəti altına keçdi. Dövlət iqtisadiyyatın əsas mövqelərinə yiyələndi. 1973\74 - 1977\78-ci illəri əhatə edən birinci beşillik planın başlıca vəzifələrindən biri dövlət bölməsinin daha da möhkəmləndirilməsi oldu. Dövlət büdcəsinin 88,7%-nin məhz bu məqsədə xərclənməsi nəzərdə tutuldu. Təbiidir ki, özəl kapitalın fəaliyyətinin məhdudlaşdırılması üçün də müvafiq ölçülər götürülməsi planlaşdırıldı. Ancaq bununla yanaşı özəl bölmənin fəaliyyət sahələrinin hələ geniş olaraq qaldığını da söyləmək lazımdır.

Pakistanda olduğu kimi Banqladeşdə də torpaq sahibliyinin son həddi müəyyən edildi. Həm də bu hədd Pakistandan fərqli olaraq burada lap aşağıya - 33 akra endirildi. Artıq qalan torpaqlar yoxsul və torpaqsız kəndlilərə verildi. Az torpaqlı kəndlilərdən alınan vergilər ləğv edildi, kənd təsərrüfatının inkişafı üçün müəyyən maliyyə vəsaiti ayrıldı. İrriqasiya sisteminin qaydaya salınması, geniş aqrotexniki xidmətin təşkili və s. kimi tədbirlər görüldü. Kənddə kooperativlərin yaradılmasına hökumət xüsusi önəm verirdi.

Hökumət müəyyən tədbirlər görməklə əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa cəhdlər edirdi. Qaçqınlara yardımlar verilməsi, səhiyyə və təhsilə qayğı göstərilməsi, savadsızlığın ləğvi kampaniyasına başlanılması və s. bu qəbildən idi.

1972-ci il dekabrın 16-da Banqladeş Xalq Respublikasının konstitusiyası qəbul olundu. Konstitusiyada dövlət siyasətinin əsas prinsipləri öz əksini tapdı. «İnsanın insan tərəfindən istismarından azad, ədalətli cəmiyyət qurulması» başlıca vəzifə elan olunur, hər hansı bir formada kommunalizmin ləğv edildiyi bildirilirdi, dindən siyasi məqsədlər üçün istifadə olunması və dini ayrı-seçkilik qadağan edilirdi. Ölkədə bir palatalı parlament yaradılır və ona hər beş ildən bir seçkilər keçirilməsi nəzərdə tutulurdu. Parlament, çoxluğu təşkil edən partiya liderinin başçılığı altında hökuməti təsdiq etməli və hökumət parlament qarşısında məsuliyyət daşımalı idi. Parlament həmçinin ölkənin prezidentini də seçmək hüququna malik idi.

1973-cü ilin 7 martında ilk parlament seçkiləri keçirildi və 300 mandatın 292-sini qazanan Xalq Liqası- Avami Liq böyük qələbə çaldı. Mucibur Rəhman ayın 16-da yeni hökumət təşkil etdi.

Qeyd etmək lazımdır ki, Mucibur Rəhman hökumətinin istər

ilk tədbirləri, istər konstitusiyanın qəbulu və istərsə də bundan sonrakı həyata keçirilən sol xarakterli tədbirlər Banqladeşin siyasi həyatına bir dinamika gətirdi. Hələ 1971-ci ilin dekabrında Müsəlman Liqası, Cəmaat-i İslami və s. sağ yönümlü partiyaların fəaliyyəti qadağan edilsə də sağ qüvvələr Mucibur Rəhman hökumətinin fəaliyyətini kəskin tənqid edir, onun birtərəfli qaydada Hindistan və Sovet İttifaqı ilə münasibətlərini pisləyirdilər.

Sağ siyasi qüvvələrin leqal fəaliyyət məhdudiyyəti zəmnində solçular daha geniş fəaliyyət imkanlarına yiyələnmişdilər. Kommunist Partiyası da daxil olmaqla bütün solçu siyasi qüvvələr isə Mucibur Rəhman hökumətinin tədbirlərini dəstəkləyirdilər. Hətta onlar 1973-cü ilin payızında Xalq Birliyi Cəbhəsi yaratdılar. Xalq Liqası-Avami Liq, Kommunist Partiyası və Milli Xalq Partiyası bu cəbhədə birləşdilər.

Sağ və sol siyasi qüvvələr arasında münasibətlərin davamlı olaraq gərginləşməsi Banqladeşin siyasi həyatının xarakter cəhəti oldu. Bütün bunlar bir tərəfdən, o biri tərəfdən isə dövri olaraq baş verən təbii fəlakətlər onsuz da iqtisadi vəziyyəti ağır olan ölkənin həyatını daha da dözülməz etdi. 1972-ci ildə misli görünməmiş quraqlıq oldu, sonrakı ildə isə güclü daşqınlar baş verdi. Xaricdən taxıl və digər ərzaq məhsulları alınması ölkənin zəif maliyyə imkanlarını daha da ağırlaşdırdı. İnflyasiya artdı. Müxtəlif neqativ halların səviyyəsi son həddə çatdı. Siyasi vəziyyət son dərəcədə gərginləşdi və çıxılmaz xarakter aldı. Belə olduqda hökumət 1974-cü ilin dekabrında ölkədə fövqəladə vəziyyət e'lan etdi. Hakimiyyət qüvvələri bir qədər də irəli gedərək 1975-ci ilin yanvarında parlament vasitəsilə konstitusiyaya əlavə etməklə ölkənin parlament idarəçiliyini prezident idarəçiliyinə çevirdi. Bundan sonra birbaşa seçkilər yolu ilə beş il müddətinə seçiləcək prezident bütünlüklə dövlət hakimiyyətinə sahib olurdu. Yeni seçkilərə qədər Mucibur Rəhman ölkənin prezidenti elan edildi. Bunu da deyək ki, əvvəlki prezident Əbu Seyyid Çaudhari 1973-cü ilin dekabrında istefa vermişdi.

1975-ci ilin fevralında prezident Mucibur Rəhman vahid bir siyasi partiyanın - Banqladeş Kəndli-Fəhlə Xalq Liqasının (BAKSAL) yaradıldığını elan etdi və qalan siyasi partiyalar buraxıldı.

Prezident Mucibur Rəhmanın bütün cəhdlərinə baxmayaraq vəziyyət get-gedə daha böhranlı xarakter alırdı və bütün bunlar 1975-ci ilin avqustunda hərbçilərin təşkil etdiyi dövlət çevrilişi ilə

nəticələndi. Mucibur Rəhman çevriliş zamanı öldürüldü. Ölkədə hərbi vəziyyət elan olundu, həbslər keçirildi, parlament və BAKSAL buraxıldı. Mövcud iqtidara qarşı müxalifətdə olan siyasi qüvvələrin təmsilçisi K.M.Əhməd prezident oldu. Banqladeş bir islam dövləti halına gətirildi. Müsəlman ölkələri ilə əlaqələrə xüsusi üstünlük verməklə yanaşı ABŞ və qərb ölkələri ilə yaxınlaşma siyasəti aparıldı. Noyabr ayında isə hakimiyyətə rəhbərlik bütünlüklə yeni prezident A.M. Sayem və ordu baş qərargah rəisi general Ziyaur Rəhmanın əlində cəmləndi. Bundan bir il sonra müəyyən şərtlər gözlənilməklə bütün siyasi partiyaların fəaliyyətinə icazə verildi. Əvvəllər mövcud olan siyasi partiyalarla yanaşı sabiq prezident K.M.Əhmədin başçılıq etdiyi və sağ qüvvələri birləşdirən Demokratik Liqa da fəal siyasi həyata qatıldı. 1976-cı ilin noyabrında ölkənin baş hərbi rəhbəri olan Ziyaur Rəhman radikal iqtidar-müxalifət qarşıdurmasını söngitmək üçün bütün siyasi qüvvələrin iştirakı ilə seçkilər keçirilməsinə və prezidentin də ümumxalq referendumu ilə seçilməsinə qərar verdi. 1977-ci ilin əvvəlində yerli idarə orqanlarına seçkilər keçirildi, 30 mayda isə keçirilən referendumun nəticələrinə görə Ziyaur Rəhman prezident oldu. Referendumda iştirak edənlərin 78%-i ona səs vermişdi. Bunu da qeyd etmək istərdik ki, hələ 1977-ci ilin 21 aprelində A.M.Sayem prezident vəzifəsindən istefa vermiş və Ziyaur Rəhmanı öz varisi tə'yin etmişdi. Keçirilən referendum əslində mövcud olan fakta hüquqi əsas vermək məqsədi daşıyırdı.

Ziyaur Rəhman rəsmi prezidentliyə başlayandan sonra ölkədə siyasi istiqrarın davamlı olması istiqamətində cəhdləri və səylərini daha da artırdı. Doğrudur, 1977-ci ilin oktyabrında hərbi-hava qüvvələrinin bir dəstə yüksək rütbəli zabiti Ziyaur Rəhman hakimiyyətini devirməyə cəhd göstərdi. Lakin bu da prezidenti sabitlik yaratmaq və mülki hakimiyyət orqanlarının fəaliyyətini bərpa etmək yolundan döndərə bilmədi. O, 1978-ci ilin aprelində elan etdi ki, iyun ayının 3-də prezident, onun da ardınca parlament seçkiləri keçiriləcəkdir. Prezident seçkiləri vaxtında keçirildi və Ziyaur Rəhman qalib gəldi. Parlament seçkiləri isə ölkədə hərbi vəziyyətin və bəzi cəza tədbirlərini nəzərdə tutan qanunların ləğv edilməyəcəyi təqdirdə müxalifətin boykota əl atacağı təhdidi nəticəsində iki dəfə təxirə salındı və yalnız 1979-cu ilin 18 fevralında baş tutdu. Seçkilərdə Ziyaur Rəhmanın başçılıq etdiyi Banqladeş Milliyətçi Partiyası qalib gəldi. Bundan

sonra hərbi vəziyyət götürüldü, ölkə yenidən mülki hakimiyyətin idarəçiliyi altına keçdi. Yeni hakimiyyət qısa bir zaman kəsiyində iqtisadi sahədə müəyyən uğurlar qazandı. Müşahidəçilər 1980-ci və 1981-ci illərdə nisbi bir iqtisadi inkişafın olduğunu söyləyirlər.

Lakin bu vəziyyət uzun çəkmədi və 1981-ci ilin 30 mayında yeni çevriliş oldu. Çittaqonq şəhərində baş verən toqquşmalar zamanı Ziyaur Rəhman öldürüldü. Müəyyən müddət ərzində hakimiyyət yenidən hərbçilərin əlinə keçdi. Lakin onlar hakimiyyəti bütünlüklə öz əllərində cəmləmək niyyətində olmalıdır. Odur ki, 1981-ci ilin noyabrında prezident seçkiləri oldu və hərbçilərin dəstəyi ilə Banqladeş Milliyyətçi Partiyasının nümayəndəsi Abdus Səttar qalib gəldi. Bunun əvəzində isə hərbçilər tələb edirdilər ki, dövlətin idarə edilməsində onların sözü həlledici olsun. Lakin onların bu tələbinə heç də hər zaman əməl olunmurdu. Buna görə də hərbçilərin hakimiyyətdən narazılığı artdı. Eyni zamanda sosial-iqtisadi durumun ağırlığı zəmnində xalqın hakimiyyətə olan inamı hər gün zəifləyirdi. Bütün bunlar onunla nəticələndi ki, 1982-ci ilin 24 martında baş qərərgah rəisi general Hüseyn Mühəmməd Ərşadın başçılığı altında növbəti dövlət çevrilişi baş verdi. Deməк lazımdır ki, buna qədər general Ərşad dəfələrlə bildirmişdi ki, sosial-iqtisadi durumun ağırlaşacağı təqdirdə ordu hadisələrə biganə qalmayacaqdır. Əbdüs Səttar hökuməti devrildi, konstitusiyanın fəaliyyəti dayandırıldı, bütün siyasi partiyalar qadağan olundu və ölkədə hərbi vəziyyət elan edildi. Martın 27-də Əbulfəzl Mühəmməd Əhsənüddin Çaudhuri prezident vəzifəsinə gətirildi. Əslində isə real hakimiyyət general Ərşada məxsus idi. O, ölkədə yaranmış sosial-iqtisadi gərginliyi aradan qaldırmaq üçün bir sıra tədbirlər gördü: zərərlə işləyən dövlət müəssisələrinin fəaliyyəti dayandırıldı, özəl kapitalın sənaye müəssisələrində fəaliyyətinə icazə verildi, xarici kapitalın ölkəyə gəlməsinə və fəaliyyətinə imkan verən qanunlar qəbul edildi. Maşınqayırma və sellüz-kağız emalı müəssisələrinin, mədən və neft hasilatı sahələrinin qapıları özəl kapitalın üzünə açıldı. Yerli sənayenin qorunması üçün bir sıra xammal növlərinin xarici bazara çıxarılmasına yasaq qoyuldu və s. General Ərşadın bu tədbirləri nə qədər rəğbətlə qarşılanırdısa onun öz şəxsi hakimiyyətini möhkəmlətmək cəhdləri bir o qədər narazılıq doğururdu. Bu baxımdan onun qanunvericilik və məhkəmə hakimiyyətinə nəzarəti əlində saxlamaq planları həmin sahələrin təmsilçiləri və eləcə də tələbələr tərəfindən

keskin etiraz aksiyaları ilə qarşılandı. Hətta Ali Məhkəmə də Ərşadın bu cəhdlərinə qarşı çıxdı. General bu etiraz aksiyalarına cəza və təqiblərlə cavab verdi. Etiraz edənlərin bir qismi məhbəslərə atıldı. Ərşad eyni zamanda öz sosial bazasını möhkəmlətmək və genişləndirmək məqsədi ilə ölkədə islami dəyərlərə daha çox üstünlük vermək kursu götürdü. Hətta o, 1982-ci il 22 dekabrda Quranı və digər dini fənləri daha yaxşı mənimsəmək üçün ibtidai siniflərdən başlayaraq ərəb dilinin məcburi öyrənilməsi, qanunların və konstitusiyanın Quran prinsiplərinə uyğunlaşdırılması, islami biliklərin öyrənilməsi zəmnində ölkədə islamiyyətin gücləndirilməsi və s. haqqında fərmanlar verdi. Lakin tələbələr və onlara dəstək verən siyasi qüvvələr bu tədbirlərə etiraz olaraq nümayişlərə başladılar.

General Ərşad etirazları ciddi cəza və təqiblərlə qarşıladı. Ölkədəki bütün ali məktəblər bağlandı, mətbuat üzərində senzura qoyuldu. Bir sıra siyasi xadimlər, o cümlədən Xalq Liqası-Avami Liqanın lideri Hasenə Vacit ( o, Mucibur Rəhmanın qızıdır), öldürülən prezident Ziyaur Rəhmanın arvadı, Banqladeş Milliyətçi Partiyasının liderlərindən olan Bəyim Xalidə Ziya 1983-cü ilin martında həbsə alındılar.

Lakin general Ərşad cəza və təqiblərə baxmayaraq gənclərin və müxalifətin islamçı təhsil sisteminin tətbiqinə qarşı qərarlı müqaviməti qarşısında geri çəkilmək zorunda qaldı. Eyni zamanda general Ərşad bildirdi ki, ölkədə mülki hakimiyyət strukturları bərpa ediləcəkdir. Vəziyyətin yumşalması məqsədilə qapalı yerlərdə toplantılar keçirilməsi qadağası ləğv edildi, həbsə alınan partiya liderləri və tələbələr azad olundular və s. Bunlar siyasi həyatda müəyyən canlanmaya yol açdı. Siyasi qüvvələr yenidən qruplaşmaq və bloklaşmaq cəhdləri, səyləri və təşəbbüsləri göstərməyə başladılar. Banqladeş Milliyətçi Partiyası parçalandı və ondan ayrılan bir sıra şəxslər yeni qurulan Xalq Partiyasına keçdilər. Xalq Liqası-Avami Liq də iki partiyaya bölündü. On bir sağ yönümlü və islamçı partiya Milliyətçi Cəbhə yaratdılar. İyirmi kiçik partiya isə Xalq Liqası-Avami Liq və Banqladeş Milliyətçi Partiyası ətrafında birləşərək «Demokratiyanın bərpası hərəkatı» alyansını yaratdılar. Alyans siyasi fəaliyyət azadlığını, bütün tutulanların buraxılmasını, mətbuat üzərində senzuranın ləğv edilməsini, hərbi hakimiyyətə son verilməsini, parlament seçkilərinin prezident seçkilərindən əvvəl keçirilməsini və s.ni tələb etməyə başladı. Belə olduqda 1983-cü ilin

dekabrında prezident Çaudhuri öz postundan istefa verdi və iqtidarpərəst qüvvələrin birləşdiyi Xalq Partiyasının (Cana Dal) rəhbəri oldu. Prezident vəzifəsinə isə general Ərşad gətirildi.

Bu hadisədən sonra prezident Ərşad ölkədə mülki hakimiyyət strukturlarının bərpa edilməsinə yönəli siyasət yürütməyə başladı. Lakin bununla yanaşı o, fövqəladə vəziyyət rejimi üçün xarakter olan bəzi normaları tezliklə ləğv etmək fikrində deyildi və hətta lazım gələrdisə istənilən tədbirə əl atmaqdan da çəkinmirdi. Bu baxımdan ali məktəblərin tez-tez bağlanması hallarını xüsusi qeyd etmək istərdik. O biri tərəfdən müxalifət-iqtidar ziddiyyətləri də çox güclü olaraq qalırdı. Müxalifət xüsusi təkid edirdi ki, parlament seçkiləri prezident seçkilərindən əvvəl keçirilsin. Nəhayət, Ərşad qərar verdi ki, seçkilərə qədər onun prezidentliyi referendum yolu ilə təsdiqlənsin. Rəsmi məlumata görə referendumda iştirak edənlərin 95%-i onun prezidentliyi davam etdirməsinə səs verdi. Referendumun keçirildiyi dövrdə 1984-cü ilin mayında müxalifət liderləri Həsənə Vacit və Bəyim Xalidə Ziya həbsə alınmışdılar. Təbiidir ki, bu, ölkədə Ərşad hakimiyyətinə qarşı narazılıq yaratdı. Onu da qeyd etmək lazımdır ki, həmin arada 1985-ci ilin may ayında Qanq çayı deltasında baş verən güclü qasırğa on bir min adamın ölümünə və böyük maddi zərərə səbəb oldu. 1970-ci ildə 200 min adamın ölümü ilə nəticələnən qasırğadan sonra bu ikinci hadisə ölkə üçün böyük fəlakətlər gətirdi. Farakka su dəryaçası sularından istifadə zəmnində Hindistanla münasibətlərdə bir gərginlik yarandı. Məsələ yalnız 1985-ci ilin oktyabr ayında tərəflər arasında bağlanan bir sazişlə nizamlandı.

Prezident Ərşadın yerli hakimiyyətə xüsusi önəm verməsi baxımından məhəlli orqanlara seçkilərin partiya prinsipi əsasında keçirilməsi qərarı isə çox kəskin reaksiya yaratdı. Müxalifətin güclü etirazına baxmayaraq seçkilər keçirildi. Yerlərdə öz tərəfdarlarını hakimiyyətə gətirməyə nail olduqdan sonra prezident Ərşad iqtidarın maraqlarını dəstəkləyən və müdafiə edən şəxsləri birləşdirən Milli Partiyanı qurdu, özü isə partiyanın rəhbəri oldu. Bu proses 1986-cı ilin əvvəlində başa çatdı. Bundan sonra prezident özünün «demokratiyaya keçid» planının növbəti mərhələsinə başlamağa qərar verdi və 1986-cı ilin 7 mayında parlament seçkiləri oldu. Seçkilərin hərbi rejimin saxlanılması şəraitində keçirilməsinə etiraz olaraq müxalifət boykota qərar verdisə də o baş tutmadı. Bəyim Xalidə Ziyanın

başçılıq etdiyi Banqladeş Milliyyətçi Partiyasının ətrafındakı yeddi partiya istisna olunmaqla Alyansın qalan 15 üzvü seçkilərdə iştirak etdi. Seçkilərin nəticələrinə görə iqtidar partiyası yerlərin 50%-dən çoxunu, müxalifət isə üçdə birini qazandı. Qalan yerləri isə müxtəlif partiyalar bölüşdürdülər. Hətta kommunistlər beş yer ala bilmişdilər. Beləliklə də müəyyən güzəştlər və kompromislər etməklə prezident Ərşad barışmaz iqtidar-müxalifət qarşıdurmasını kifayət qədər yumşaltmağa nail oldu. Xalq Liqası-Avami Liq ana müxalifət olaraq qaldı.

Bütün bunlardan sonra 1986-cı ilin avqustunda general Ərşad ordudan və baş qərargah rəisi vəzifəsindən istefa verdi və mülki şəxs kimi 15 oktyabrda keçirilən prezident seçkilərində Milli Partiyanın namizədi sifəti ilə iştirak etdi. İki güclü müxalifət partiyası öz namizədlərini vermədilər. Ərşad 83,6% səs aldı və yeni beş il müddətinə prezident seçildi. 10 noyabrda hərbi vəziyyət ləğv edildi və 1972-ci il konstitusiyası bərpa edildi. Bundan sonra Xalq Liqası-Avami Liq parlametdə boş qalan yerləri tutmaq üçün seçkilərdə iştirak etdi və parlament fəaliyyətinə qoşuldu.

Prezident Ərşad hakimiyyətinin ilk iki ilində öz iqtisadi inkişaf proqramını çox ardıcıllıqla həyata keçirirdi. Bunun müsbət nəticələri kimi son beş-altı ildə ilk dəfə idi ki, ümumi milli məhsul istehsalı 4,5%, sənaye hasilatı 7,8% artdı. Ölkə iqtisadiyyatının müxtəlif sahələrinə xarici kapital qoyuluşuna xüsusi önəm verilməsi prezidentin iqtisadi inkişaf proqramının tərkib hissəsi idi. Bütün iqtisadi uğurlarla yanaşı onu da qeyd etmək lazımdır ki, Ərşadın prezidentliyi dövründə əhalinin ərzaq məhsullarına olan ehtiyacını tam ödəmək mümkün olmurdu. Təbiidir ki, burada əhalinin artım sürəti başlıca amil olaraq qalırdı. Banqladeş hər il xaricdən 2 milyon ton civarında taxıl alırdı. O biri tərəfdən, baş verən təbii fəlakətlər də ölkə iqtisadiyyatına güclü zərbə vururdu. 1988-ci ilin sentyabrında ölkə dağıdıcı sel fəlakəti ilə üz-üzə qaldı. Banqladeş ərazisinin 3\4-nü sel basdı, 30 min insan evsiz-eşiksiz qaldı. Təbiidir ki, bu da onsuz da ağır olan iqtisadi vəziyyəti daha gərginləşdirdi, ölkənin daxili həyatına bir narahatlıq gətirdi.

Həmin arada (daha doğrusu 1985-ci ildə) Ərşad hökumətinin ən böyük uğuru kimi prezidentin Cənubi Asiya ölkələrinin regional əməkdaşlıq təşkilatının(SAARK) yaradılmasında təşəbbüskar kimi fəal və risqli iştirakını xüsusi qeyd etmək lazımdır. Belə ki, aralarında

kifayət qədər ziddiyyətlərin olduğu Hindistan, Pakistan, Banqladeş, Şri-Lanka, Nepal, Butan və Maldivlər kimi ölkələrin bir təşkilatda cəmləşməsi böyük fədakarlıq və incə siyasət tələb edirdi. Prezident Ərşad bu məsələnin həllində mahir bir siyasətçi kimi çıxış edə bildi və beynəlxalq aləmdə etimad göstərilən prezident oldu. Təşkilatın əsas məqsədi üzv olan dövlətlərin inkişafına və əməkdaşlığına kömək göstərməkdir. Lakin bu məqsədin hansı səviyyədə həyata keçirilməsi haqqında dəqiq söz söyləmək hələki çətindir. Ancaq bu bir həqiqətdir ki, belə bir köməyə hamıdan çox Banqladeşin ehtiyacı vardır və o, müəyyən kömək də alır. Bundan əlavə Banqladeşə onda da, indi də inkişaf etmiş ölkələr, xüsusilə neftlə zəngin olan müsəlman dövlətləri yardım göstərirlər. Müsəlman dövlətləri sırasında öz yerini tapmaq istəyin nəticəsi idi ki, 1988-ci ildə islam ölkənin rəsmi dini elan olundu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ümumiyyətlə Ərşad fəal xarici siyasət aparırdı və bir sıra ölkələrdə olmuş, beynəlxalq təkilatların toplantılarında çıxış etmiş, həmişə də rəğbətlə qarşılanmışdı.

Lakin ölkə daxilində müəyyən gərginliyin olması və iqtisadi çətinliklərin yaratmış olduğu rahatsızlıq prezident Ərşadın nüfuzunu sarsıdırdı. Yaranmış vəziyyətin qarşısını almaq üçün prezident yenidən hərbçilərin siyasi həyatda rolunun artırılmasını gündəmə gətirdi. Məhz bu da müxalifətin ona qarşı çıxışlarına bir bəhanə oldu. Bir sıra marksist və islamçı partiyaların ölkədə mövcud olan ağır iqtisadi vəziyyətə qarşı etirazlarını Xalq Liqası-Avami Liq də dəstəklədi. Həmin dövrdə yerli özünü idarə haqqında müzakirəyə çıxarılan qanun layihəsi isə ehtirasları daha da qızışdırdı. Layihədə nəzərdə tutulurdu ki, ölkədəki 64 bələdiyyə şurasındakı inzibati vəzifələr mülki və hərbi şəxslər arasında bölüşdürülməlidir. Məhz bu bənd də ölkədə yeni siyasi qalmaqal yaratdı. Hətta bu qanun layihəsinin ləğv edilməsi belə siyasi böhranı səngitmədi. Prezident parlamenti buraxdı, yeni seçkilər keçirildi, hökumətdə ciddi kadr dəyişiklikləri aparıldı və s. Lakin bütün bunlar da prezident Ərşadın başçılıq etdiyi rejimi xilas edə bilmədi. Bunu da qeyd etmək lazımdır ki, Banqladeşin istiqlaliyyət qazanmasından keçən müddətdə Ərşad yeganə şəxs idi ki, hamıdan çox hakimiyyətdə olmuşdu və məhz onun dövründə ölkənin inkişafı xeyli irəliləmişdi.

Siyasi gərginlik onunla nəticələndi ki, prezident Ərşad 1990-cı ilin 27 noyabrında ölkədə fövqəladə vəziyyət elan etdi. Lakin buna

heç məhəl də qoyulmadı. Ölkəni kütləvi narazılıq dalğası bürümüşdü. Hətta iş o yerə çatdı ki, dekabrın 4-də prezidentin başçılıq etdiyi partiyanın üzvü olan 19 deputat parlamentdən istefa verdi. Ayın 10-da Banqladeş Milliyətçi Partiyası və Xalq Liqasından olan tələbə gənclərin rejimə qarşı nümayiş cəhdləri bütün ölkədə tətil və qiyamların alovlanması ilə nəticələndi. Belə bir böhranlı vəziyyətdə ordunun yüksək zabitlər heyəti ölkəyə nəzarəti öz əllərinə götürməkdə maraqlı olmadıqlarını bəyan etdi. Bunun ardınca prezident Ərşad istefaya getməyə hazırlaşdığını bildirdi. Əsas müxalifət partiyaları onun yerinə Ali Məhkəmə sədri Şəhabuddin Əhmədin namizədliyini irəli sürdü. Qeyd etmək lazımdır ki, Ərşad özü də istefaya getməmişdən əvvəl Ş.Əhmədi vitse-prezident vəzifəsinə təyin etmişdi. Nəhayət prezident Ərşad istefa etdi və həbsə alındı.

1991-ci ilin fevralında yeni parlament seçkiləri keçirildi. Xalidə Ziyanın başçılıq etdiyi Banqladeş Xalq Milliyətçi Partiyası yerlərin nisbi çoxluğunu qazandı və onu dəstəkləyən Cəmaət-i İslami-İslam Partiyası ilə birlikdə mütləq çoxluq təşkil etdi. Partiyanın lideri Xalidə Ziya baş nazir oldu. Bu da maraqlıdır ki, bu seçkilər müşahidəçilər tərəfindən Banqladeşdə keçirilən ilk demokratik seçki kimi xarakterizə olunur. 1991-ci ilin 8 oktyabrında keçirilən prezident seçilərində də Banqladeş Milliyətçi Partiyasının namizədi Əbdürrəhman Bisvas qalib gəldi. Beləliklə də hakimiyyətə yenidən mülki şəxslər gəldilər və, dediyimiz kimi, onun başında Banqladeş Milliyətçi Partiyasının liderləri dururdular.

Yeni hakimiyyət fəaliyyətində ilk olaraq əvvəllər mövcud olmuş parlament idarəçiliyinə keçməklə başladı. 1991-ci ilin 15 oktyabrında bu məqsədlə referendum keçirildi və seçicilər həmin təklifə səs verdilər.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, yeni hakimiyyət ölkədə demokratik prinsiplərin,-təbiidir ki, ölkə şərtləri daxilində,- bərqərar olmasına xüsusi önəm verirdi. Hakimiyyət strukturlarının mülki kadrlarla təmin edilməsi, müəyyən problemlərin parlamentdə müzakirə edilməsi və orada qərarların qəbulu, idarəçilikdə yerli qanunverici və icra orqanlarının rolunun artırılması bu qəbildən olan tədbirlər idi. Lakin ölkədə yaranmış və demokratik təmələ əsaslanan siyasi istiqrar çox az zaman sürdü. Belə ki, 1994-cü ilin mayında səkkiz müxalifət partiyası iqtidarı bir az əvvəl parlamentə keçirilmiş

əlavə seçkilərdə saxtakarlığa yol verməkdə ittiham etdilər və parlamentin fəaliyyətini boykot etməyə başladılar. Onlar təkid edirdilər ki, parlament buraxılsın, müvəqqəti hökumət yaradılsın və bu hökumət parlamentə seçkilər keçirilməsinə nəzarət etsin. Bununla da ölkədə yenidən iqtidar-müxalifət qarşı durması başlandı. Bu da ölkədə iqtidardan narazı qüvvələrin fəallaşmasına imkan verdi. Senyabrın 10-da paytaxtda qanlı hadisələr törədildi və bu zaman 500 adam yaralandı, 200 adam isə tutuldu. Həmin hadisələrə etiraz olaraq oktyabrın ortalarında paytaxt ümumi mitinqlər meydanına çevrildi. Məsələnin həllinə Böyük Britaniya Millətlər Birliyinin vasitəçilik etmək cəhdləri isə noyabrda bütün ölkə miqyasında tətil və nümayişlərlə qarşılandı. Vəziyyətin getdikcə dərinləşdiyini görən baş nazir Xalidə Ziya 1994-cü ilin ortalarında müxalifətin bütün tələblərini,- onun müvəqqəti hökumətə başçılıq etməməsi şərtindən savayı,- qəbul etdiyini bildirdi. Xalidə Ziyanın baş nazir postunu tərk etmək istəməməsinə etiraz olaraq dekabrın 28-də 147 müxalifətçi deputat parlamentdən çıxdıqlarını bildirdilər. Beləliklə də ölkədə konstitusiya böhranı baş verəcəyi təhlükəsi yarandı. Məsələ Ali Məhkəmədə müzakirə edildi və onun dəstəyi ilə 1995-ci il fevralın 23-də parlament istefa vermək istəyən 144 deputatın ərizəsini rədd etdi, yalnız üç nəfərin,-onlardan biri keçmiş prezident general Ərşad idi,- istefasına razılıq verdi. Müxalifət yenidən mitinq və nümayiş kampaniyasına başladı. Doğrudur, həmin arada başlayan Ramazan ayı münasibətilə bu kampaniya bir qədər səngidi.

Sonrakı dövrdə müxalifət konstitusiyanın imkan verdiyi belə bir üsula əl atdı. Belə ki, konstitusiyaya görə 90 dəfə dalbadal parlamentin sessiyalarında iştirak etməyən deputat öz mandatından məhrum edilirdi. Parlamentə yeni seçkilər keçirilməsi üçün isə 160 yerin boşaldılması tələb olunurdu. Müxalifət bu şərtləri 1995-ci ilin ortalarına kimi yerinə yetirdi və bundan sonra Ali Məhkəmə seçkilərin keçirilməsinin zəruri olduğu haqqında qərar verdi. Seçkilərin sentyabrda keçirilməsi nəzərdə tutulurdu. Lakin seçki komissiyası onu dekabra keçirdi. Yaranmış imkandan müxalifət müvəqqəti hökumət yaradılması təbliğatını genişləndirməyə istifadə etdi. Ancaq Xalidə Ziya iqtidarı belə bir halın konstitusiyada nəzərdə tutulmamasına istinad edərək müxalifətin tələbini rədd etdi və bildirdi ki, bunun üçün parlament konstitusiyada düzəliş etməlidir. Düzəlişin qəbulu üçün isə parlament üzvlərinin 200 səsi lazım idi.

Həmin vaxt isə parlamentdə cəmisi 170 deputat qalmışdı. Vəziyyətdən çıxmağın yeganə yolu parlamentin buraxılması idi və bu da noyabrın sonunda baş verdi. 1996-ci il fevralın ortalarında parlamentdə ümumi seçkilərin keçirilməsinə qərar verildi. Müxalifət bu dəfə seçkilərdə saxtakarlıq ediləcəyindən qorxaraq boykot taktikasına keçdi. Fevralın 15-də keçirilən seçki prosesi də haysız-küysüz ötüşmədi. Seçki günü müxtəlif yerlərdə mitinq və nümayişlər oldu, müxalifət iqtidarı saxtakarlıqda ittiham etməyə başladı və s.

Artıq ölkədə «qanunçuluq böhranı»nın yarandığı göz qabağında idi və demokratiyanın anarxiyaya çevrilməsi anı gəldiyini hamı dərk edirdi. Odur ki, 1996-cı il martın 28-də hakimiyyət dairələri ümumi seçkilər keçirilməsinə qədər müvəqqəti hökumət yaradılmasına razılıq verdilər. Konstitusiyaya bu barədə düzəliş edildi və Ali Məhkəmə sədrinin başçılığı ilə müvəqqəti hökumət təşkil edildi, ümumi seçkilərin isə iyunda keçirilməsi qərarlaşdırıldı. Bütün partiyalar seçkilərdə iştirak etməyə razılaşdılar.

Qeyd etmək lazımdır ki, Banqladeşin həyatında bu mühüm tarixi dövrü ölkədə yeni siyasi kamillik və ordunun təmkinlik ovqatının qələbəsi kimi dəyərləndirirlər. Nəhayət, seçkilər vaxtında keçirildi. Seçki prosesinə nəzarət edən beynəlxalq müşahidəçilərin fikrinə görə seçki prosesi «azad və ədalətli» sayıldı. Nəzərə çarpan cəhətlərdən birisi də seçkilərdə əhalinin fəal iştirakı oldu. Seçkilərin nəticələrinə görə səslərin 95%-ni üç əsas partiya qazandı və yerlər aşağıdakı qaydada bölüşdürüldü: Xalq Liqası-Avami Liq 147, Banqladeş Milliyətçi Partiyası 116 və general Ərşadın təsis etdiyi Milli Partiya (o zaman lider Mizanur Rəhman idi) 32 yerə sahib oldular. Seçkilərdən sonra Milli Partiya Xalq Liqası ilə əməkdaşlığa qərar verdi və əvəzində bir nazir (rabitə nazirliyi) postu qazandı.

Bununla da xeyli müddət davam etmiş siyasi çəkişmələrə müəyyən mənada son qoyulmuş oldu. Xalidə Ziyanın başçılıq etdiyi hökumət ölkə əhalisini daha çox narahat edən iqtisadi problemləri həll etmək üçün yaranmış vəziyyətdən səmərəli istifadə etməkdə qərarlı idi. Bunu ölkənin və xalqın ağır və dözülməz iqtisadi durumu tələb edirdi. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, həmin dövrdə İnsani İnkişaf İndeksinə görə Banqladeş 173 ölkə sırasında 146-ci yer tuturdu. Yoxsulluq Banqladeş əhalisinin az qala milli atributlarından birinə çevrilmişdir. Odur ki, hökumət təşkil olunduqdan sonra hələ 1994-cü ildə Dünya Bankı və Beynəlxalq

Valyuta Fondu ilə birlikdə işlənib hazırlanmış dörd illik iqtisadi tənzimlənmə proqramının yerinə yetirilməsi davam etdirildi. Bu öz müsbət nəticələrini verdi. Hökumət iqtisadiyyatın idarə edilməsi, sənayenin inkişafı zəmnində müəyyən iqtisadi istiqrara nail olunması, inflyasiyanın aşağı salınması, ticarətin mütənasib inkişafı sahəsində uğurlu fəaliyyət göstərdi. Bunun nəticəsidir ki, son beş ildə sənaye istehsalının artımı 10%-ə yaxın olmuşdur.

Banqladeş hökumətinin inkişaf kursunda əsas önəm verdiyi məsələlərdən birisi də ölkə iqtisadiyyatına xarici kapitalın qoyulmasıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu istiqamətdə əvvəllər də Banqladeş müəyyən səy və cəhdlər göstərmişdir. Hələ 1989-cu ildə bilavasitə baş nazirə tabe olan İnvestisiya şöbəsi yaradılmışdı. İndi də həmin şöbə ölkədə müəyyən sənaye proqram və lahiyələrinin həyata keçirilməsini sürətləndirmək üçün əlavə hüquqlara sahib olmuşdur və daha fəal çalışır.

Xarici iqtisadi əlaqələr inkişaf etməkdədir. Ölkə əsasən ərzaq məhsulları, yanacaq, maşın və nəqliyyət avadanlıqları idxal edir. İxrac etdiyi mallar isə cut və cut məhsulları, dəniz məhsulları ( balıq, krab, xırda dəniz heyvanları və s.), çay, dəri və dəri mühsulları və s.dən ibarətdir. İdxal məhsulları əsasən ABŞ, Honq Qonq, Yaponiya, Böyük Britaniya, Sinqapur, Hindistan, Fransa kimi ölkələrdən daxil olur. İxrac məhsulları isə ABŞ, İtaliya, Böyük Britaniya, Yaponiya, Almaniya, Belçika və Sinqapur kimi ölkələrə göndərilir.

Banqladeş region ölkələri ilə də əməkdaşlığın inkişafına xüsusi maraq göstərir. 1998-ci ilin 15 yanvarında SAARK-ın nüfuzlu üzvləri Pakistan, Hindistan və Banqladeşin rəhbərlərinin Dakkada bir araya gələrək işgüzar əməkdaşlığın inkişafı problemlərini müzakirə etməsi, regional iqtisadi inteqrasiyanın qaydaya salınmasında real cəhdlərin və tədbirlərin müəyyənləşdirilməsi bu baxımdan çox mühüm rol oynadı. Hər üç dövlətin rəhbərləri qərara aldılar ki, vergi tariflərini əhəmiyyətli dərəcədə azaltmaq, ticarətin liberallaşdırılması məqsədi ilə kəmiyyət kvotalarını və digər məhdudiyyətləri ləğv etmək və 2001-ci ilədək regionda azad ticarət zonası yaradılması üçün lazımı işlər görmək bütün tərəflərin xeyrinə olar. Liderlər diqqəti ona yönəltməyə vacib bildilər ki, bütün Cənubi Asiya ölkələri ilə əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək bir tarixi zərurətdir və bunun başlıca yolu isə bir-birinə qarşılıqlı kapital yardımı etmək, birgə müəssisələr sistemi yaratmaq və onun səmərəli

işləməsi üçün lazım olan bütün tədbirləri görmək, bu müəssisələrin məhsullarından həm ölkələrin daxili ehtiyacları üçün, həm də digər ölkələrə ixrac üçün istifadədə birgə faydalanmaqdır. Liderlər ümumregional nəqliyyat infrastrukturlarının və rabitə-informasiya şəbəkəsinin yaradılmasını da vacib vəzifələrdən saydılar.

Son dövrlərdə Banqladeş iqtisadi inkişafı davam etdirmək üçün Dünya Bankı ilə əməkdaşlığı daha da canlandırmışdır. Hökumət islahatlar kursunun istiqamətlərinin müəyyənləşdirilməsi və maliyyələşdirilməsi sahəsində Dünya Bankının imkanlarından və tövsiyələrindən kifayət qədər yararlandı. Hazırda islahatların keçirilməsinin zəruri olduğu əsas sahələr müəyyənləşdirilmişdir. Bunlar dövlət müəssisələrinin özəlləşdirilməsi prosesini sürətləndirmək, kənd təsərrüfatı sahəsinə qoyulan sərmayə, yardım və kreditlərin təyinatı üzrə xərclənməsini, nəqliyyat və digər kommunikasiya infrastrukturlarının modernləşdirilməsini təmin etmək, dövlət idarəetmə strukturlarında çalışanların sayını tələb olunan həddə endirmək və dövlət idarəetmə orqanları tərəfindən özəl bölmənin işinə mane olan əngəlləri müvafiq qanunlar qəbul etməklə aradan qaldırmaq kimi məsələlərdir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, son parlament seçkilərindən sonra Banqladeşdə demokratik inkişaf kursunun davamlı olacağına bir inam yaranıbdır. Bu baxımdan ölkədə baş verən siyasi proseslərə hərbçilərin neytral münasibət göstərməsi də nəzərə çarpan haldır. Doğrudur, 1999-cu ilin yazında yerli hakimiyyyət orqanlarına seçkilər zamanı siyasi etiraslar xeyli dərəcədə qızışmışdı. Müxalifət partiyaları, xüsusilə də islamçı qüvvələr müxtəlif siyasi aksiyalara əl atdılarsa da seçkilər keçirildi və müşahidəçilərin rə'yinə görə seçkilər ədalətli və doğru olmuşdur. Banqladeş bu gərgin və kəskin siyasi dövrü keçməyi bacardı və belə bir ictimai rəyi möhkəmlədə bildi ki, ölkə XXI əsrə demokratik idealları pozmadan daxil olmaq əzmindədir.

## ŞRİ-LANKA

Ərazisi Hind okeanında Hindistan yarımadasının cənub qurtaracağından şərqə doğru 80 km aralıda yerləşən Seylon adası və onun ətrafındakı bir neçə kiçik adadan ibarət olan Şri-Lanka müstəqil bir siyasi vahid kimi dünya xəritəsində öz yerini 1948-ci ildə müstəmləkə rejimindən xilas olaraq dominion statusunu qazandıqdan sonra tuta bilmişdir. Buna qədər isə, bir qədər geriyə gedərək qeyd etmək lazımdır ki, təqribən dörd əsr yarım müddət ərzində bu ölkə müstəmləkə əsarəti altında olmuşdur. İlk olaraq buraya 1505-ci ildə portagizlər yiyələnmiş, 1658-1815-ci illərdə ölkə hollandların, 1815-1948-ci illərdə isə Böyük Britaniyanın müstəmləkəsi olmuşdur. Ümumiyyətlə isə burada ingilis müstəmləkə rejiminin yaranması ilə ölkə tarixində mühüm bir dövr başlanmışdır. Birincisi, ingilislər burada olduqca mütəşəkkil bir müstəmləkə idarəçiliyi rejimi yaratdılar və bütün idarəçilik işini öz əllərində cəmləşdirdilər. İkincisi, inkişaf etmiş kommunikasiya infrastrukturu yaratdılar. Kənd təsərrüfatının dirçəlişi istiqamətində müəyyən işlər gördülər, ən başlıcası isə, çay istehsalı sahəsinə xüsusi önəm verməyə başladılar. Çay plantasiyalarında çalışmaq üçün Hindistandan tamil kökənli çoxlu işçi gətirdilər. Gələn tamillərin sayı o qədər idi ki, onlar az zaman kəsiyində Seylon əhalisinin mühüm bir hissəsinə çevrilə bildilər. Lakin, seylonlular ingilislərin müstəmləkə rejimini möhkəmləndirmək tədbirlərinə güclü e'tirazlarla cavab verdilər. 1818-ci və 1848-ci illərdə ingilislərə qarşı yerli əhalinin olduqca güclü üsyanları baş verdi. Üçüncüsü, ingilislər qonşu Hindistanda olduğu kimi burada da yaranmaqda olan yerli burjuaziyanın timsalında öz hakimiyyətlərinin dayaqlarını görmək və onları himayə etmək siyasətini tətbiq etməyə başladılar. Milli düşüncədən uzaq yerli burjuaziya nümayəndələri ingilis müstəmləkə rejimi ilə işbirliyinə həvəslə gedir, hətta düşüncə baxımından ingilislərə bənzəməyə xüsusi cəhd göstərirdilər. Onlar yerli xalqın sayılıb seçilən bir sosial və siyasi təbəqəsinə çevrilirdilər. Tarixi ədəbiyyatda «əsmər sahiblər» adı ilə tanınan bu inanılmış təbəqəyə arxalanan ingilislər 1931-ci ildə adanın daxili məsələlərdə müstəqil hüquqa malik olduğunu elan etdilər.

Qeyd etmək lazımdır ki, Seylon əhalisinin bu haqqının tanınmasından sonra gələcəkdə ölkə tarixinə öz damğasını vuracaq siyasi partiyaların və siyasi liderlərin meydana çıxması, mütəşəkkil

forma alması və bir güc mərkəzi kimi ortaya siyasi iradə qoyması imkanları yarandı. D.S. Senanayake, Solomon Bandaranayke kimi siyasi liderlərin təmsil etdiyi qüvvələrin və partiyaların mübarizəsi nəticəsində II dünya müharibəsinin başa çatmasından sonra ölkədə 1947-ci ildə məhz həmin qüvvələrin iştirak etdiyi ilk parlament seçkiləri keçirildi. Həmin parlamentdə qəbul edilmiş ölkənin ilk konstitusiyasına əsasən 4 fevral 1948-ci ildə Seylonun dominion statusu ilə müstəqilliyi elan olundu. O, həm də Böyük Britaniya Millətlər Birliyinin üzvü olaraq qalırdı. Qeyd etmək lazımdır ki, iki ölkə arasında qarşılıqlı müdafiə haqqında müqavilə də mövcuddur. Baxmayaraq ki, həmin müqaviləyə əsasən Böyük Britaniya ölkədə hərbi və dəniz qüvvələri saxlaya bilər, quru qoşunları yerləşdirə bilər və s. Şri-Lanka həmişə tərəfsizliyə əsaslanan xarici siyasət kursu yürütmüşdür.

Ölkənin öz istiqlaliyyətinə qovuşmasından sonra siyasi hakimiyyət növbə ilə gah mötədil ruhlu və qərb yönümlü Birləşmiş Milli Partiyaya, gah da Şri-Lankanın Azadlağı Partiyasına keçirdi. Qeyd etmək lazımdır ki, ilk parlament seçkilərində Birləşmiş Milli Partiya qalib gəldi və 1956-cı ilə qədər partiyanın lideri D.S. Senanayake, oğlu Dadley və qohumu ser Con Kotevala hökumətə növbə ilə başçılıq etdilər. Bu partiya öz siyasi kursunda liberal dəyərlərə və azad sahibkarlığa xüsusi önəm verirdi. Şri-Lankanın tanınmış siyasi liderlərindən S. Bandaranayke Birləşmiş Milli Partiyadan ayrıldı və Şri-Lankanın Azadlığı Partiyasını qurdu. Buddizm, milliyətçilik, demokratik mərkəzçilik və beynəlxalq məsələlərdə siyasi tərəfsizlik bu partiyanın proqramında təməl prinsiplər elan olundu. Məhz bu prinsiplər də 1956-cı il seçkilərində Şri-Lanka Azadlıq Partiyasına qələbə qazandırdı. Bununla yanaşı 1952-ci ildə D.S. Sananayakenin ölümündən sonra Birləşmiş Milli Partiyada baş verən çəkişmələr də həmin qələbənin qazanılmasında az rol oynamamışdır.

Şri-Lanka Azadlıq partiyasının lideri S.Bandaranayke baş nazir oldu. O, ilk gündən etibarən radikal milliyyətçilik kursu götürdü və faktik olaraq yalnız Seylon adasının yerli əhalisinin maraqlarının icraçısına çevrildi. Bu da ölkədə etnik zəmində onsuz da sabit olmayan münasibətlərdə ciddi bir gərginlik yaratdı. Seylon dilinin ingiliscənin yerinə rəsmi dövlət dili elan olunması etnik ziddiyyətləri daha da şiddətləndirdi. Tamillər bu qərara qarşı çıxdılar. S.Bandaranaykenin qatı milliyyətçilik kursuna etirazın nəticəsi idi ki, o, 1959-cu

ildə radikal bir buddist tərəfindən öldürüldü. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, S.Bandaranayke hökuməti beynəlxalq münasibətlərdə tərəfsizlik kursuna sadiq qaldı və ölkədəki ingilis hərbi bazalarının boşaldılmasını nəzərdə tutan qərar qəbul etdi.

S.Bandaranaykenin ölümündən sonra 1960-cı ilin mart ayında keçirilən parlament seçkilərində Birləşmiş Milli Partiya nisbi üstünlük qazandı. Lakin bu üstünlük ona hökumət qurmaq imkanı verə bilmədi. Parlament Birləşmiş Milli Partiya hökumətinə etimad göstərmədi. Bundan sonra iyul ayında yeni parlament seçkiləri keçirildi. Bu seçkilərdə isə Şri-Lanka Azadlıq Partiyası qalib gəldi. Partiyanın lideri Sirimavo Bandaranayke (o, Solomon Bandaraykenin dul qadınıdır) dünyada ilk baş nazir - qadın olaraq hökumətə başçılıq etməyə başladı.

Sirimavo Bandaranayke hökuməti istər iqtisadi, istərsə də siyasi kursunda öz sələflərindən fərqli yol tutdu. İqtisadiyyat üzərində dövlət nəzarətinin güclənmesinə xüsusi önəm verildi, ictimai nəzarət sistemi genişləndirildi. Təbiidir ki, bu da ölkədə mövcud olan müxtəlif iqtisadi güc mərkəzlərinin ciddi etirazı ilə qarşılandı. Xırda-para uğurların qazanılmasına baxmayaraq işsizlik bir sosial bəla olaraq qalırdı. Demoqrafik partlayış bu problemi daha da ağırlaşdırırdı. Belə şəraitdə Birləşmiş Milli Partiya bir müxalifət qüvvəsi kimi hökumətə təzyiqlərini artırdı. 1961-ci ildə seylon dilinin ölkənin rəsmi dövlət dili kimi işlədilməsinə başlanılması ona qarşı tamillərin etirazını yenidən alovlandırdı. Sirimavo Bandaranayke hökuməti istər təhsil, istərsə də tədris sahələrini öz nəzarəti altına almışdı. Xarici siyasətin əsasında ölkənin istiqlaliyyətini qorumaq və daha da möhkəmləndirmək xətti dayanırdı. Xarici ticarət sahəsində də milliləşdirmə xəttinə üstünlük verilirdi. Ümumiyyətlə isə hökumətin liberal siyasətdən get-gedə uzaqlaşaraq milliləşdirmə xətti yürütməsi, istər ticarət, istərsə pul-ödəmə sistemində müəyyən çətinliklər yaradır və ölkəni çıxılmaz sonuclarla üz-üzə qoyurdu. Təsadüfi deyildir ki, həmin illərdə S.Bandaranaykenin yürütdüyü siyasətdən xilas olmaq üçün bir-sıra süi-qəsd və çevriliş cəhdlərinə belə əl atılmışdı. Nəhayət, 1965-ci ilin martında keçirilən seçkilərdə Şri-Lanka Azadlıq Partiyası öz mövqelərini qoruyub saxlaya bilmədi. Yeni hökumət koalisyon əsaslarla yaradıldı və ona başçılıq etmək Birləşmiş Milli Partiyanın lideri Dadley Senanaykeyə həvalə olundu. O, öz sələflərinin kursundan imtina etdi. Qərbin böyük dövlətləri

Dadley Senanayke hökumətinə hər cür yardımlar və kreditlər verməklə onun liberal siyasət kursunu dəstəkləyirdilər. Dadley Senanayke ilk olaraq iqdisadiyyat üzərində dövlət nəzarətini bir sıra sahələrdən qaldırdı, liberal iqtisadi dəyərlərin öz yerini tutmasına əlverişli şərait yaratdı. Milliləşdirilmiş neft şirkətlərinə təzminatlar ödədi və s. Hökumətin ölkədə siyasi istiqrarı saxlamaq istiqamətində gördüyü tədbirlər arasında 1966-cı ildə tamillərin də dilinin milli dil kimi tanınması idi. Bütün bunlar bir tərəfdən müəyyən müsbət nəticələr verirdisə, o biri tərəfdən maraqlı qüvvələrin qəti etirazı və müqaviməti ilə qarşılanırdı. İstər milliyətçi qüvvələr, istərsə də sol qüvvələr hökumətin tədbirlərini kəskin e'irazlarla qarşıladılar. Bu zəmində həmin qüvvələrin koalisiyası da yarandı, Koalisiya Birləşmiş Cəbhə adlanırdı və o, Şri-Lanka Azadlıq Partiyasını, sosialistləri və sovet yönümlü kommunistləri birləşdirirdi. Onun da başında Sirimavo Bandaranayke dayanırdı. 1970-ci ildə keçirilən seçkilərdə məhz bu qüvvələr qələbə çaldılar və Sirimavo Bandaranaykenin başçılığı ilə hökumət qurdular. Bir il sonra 1971-ci ilin aprelində verdiyi vədlərin çoxunu yerinə yetirə bilməyən hökumətin siyasəti daha radikal qüvvələrin tənqidi və müqaviməti ilə qarşılanırdı. Arzu və istəklərinin hökumət tərəfindən reallaşdırılmadığını görən radikal gənclər, xüsusi ilə də maoçu kommunistlər Milli Azadlıq Cəbhəsində (MAC) birləşdilər və hökumətə qarşı ciddi mübarizəyə başladılar. Qeyd etmək lazımdır ki, bu cəbhədə birləşənlərin çox böyük əksəriyyəti mənşə etibarilə kənddən çıxmış buddist gənclər idilər. Vəziyyət son dərəcə gərginləşdi və hətta iş o yerə çatdı ki, MAC-də birləşən radikal qüvvələr 1971-ci ildə dövlət çevrilişi cəhdi etdilər. Doğrudur, seylonluların böyük əksəriyyəti radikalların bu cəhdlərini müdafiə etmədi. Bu da imkan verdi ki, hökumət güc tətbiq edərək bu cəhdlərin qarşısını ala bildi. Toqquşmalar nəticəsində 20 min nəfərdən çox adam öldürüldü və on minlərlə insan isə məbhəslərə atıldı. Ölkədə fövqəladə rejim elan edildi.

Sirimavo Bandaranayke hökuməti böhrandan çıxmaq üçün digər tədbirlər də gördü. Aqrar sənaye sahələrinin milliləşdirilməsi, iqtisadiyyatda dövlət bölməsinin genişləndirilməsi və s. tədbirlərlə hökumət iqtisadi vəziyyəti düzəltmək təşəbbüslərində olsa da, ancaq istənilən nəticələrə çatmaq mümkün olmadı. İqtisadi çətinliklər getdikcə artır, rüşvətxorluq, istehlak mallarının qıtlığı, işsizlik və

s.kimi neqativ hallar vəziyyəti daha da ağırlaşdırırdı. Fövqəladə rejimin uzun sürməsi isə əlavə narazılıqların yaranmasına səbəb olurdu.

Mandatlıq sisteminin ləğvi və Şri-Lankanın parlamentli respublika e'lan edilməsi bu dövrün ən mühüm hadisələrindəndir. Ölkədə çoxpartiyalı sistem təsbit olundu. Bütün bunlar öz hüquqi təsbitini 1972-ci ilin mayında qəbul edilən ikinci konstitusiyada tapmışdır. Konstitusiyaya görə ölkə Şri-Lanka Respublikası adlandırıldı. Dövlətin statusunun dəyişməsi heç də mövcud qurumların da dəyişməsinə gətirmədi. Əksinə, onların səlahiyyətləri daha iki il müddətinə uzaldıldı. Başqa sözlə desək, parlament və digər qurumlar 1977-ci ilə qədər fəaliyyət göstərə bilmək haqqı qazandılar.

Sirimavo Bandaranayke hökuməti öz sələflərindən fərqli olaraq xarici siyasət sahəsində də müəyyən fəallıq göstərdi. Doğrudur, tərəfsizlik xarici siyasətin ana xətti olaraq qalırdı. Lakin bununla yanaşı göstərmək lazımdır ki, Şri-Lanka istiqlaliyyətinə qovuşduqdan keçən müddət ərzində həmişə qonşu Hindistanla müəyyən problemləri olmuşdur. Problemin məğzində Hindistanın bu iki ölkəni bir-birindən ayıran Polk boğazındakı Kaççativa adasına olan iddiası dayanırdı. Nəhayət, 1974-cü ildə adanın bölüşdürülməsi ilə problem həll edildi. Şri-Lanka həm də razılıq verdi ki, hind balıqçıları heç bir sənəd və viza olmadan adaya çıxa bilərlər. Bu haqda 1976-cı ilin 23 martında bağlanan ümumi saziş isə daha geniş məsələləri əhatə edirdi. Onların da çoxu dəniz iqtisadi zonaları ilə bağlı idi. 1976-cı ilin avqustunda Tərəfsiz ölkələrin zirvə toplantısına Sirimavo Bandaranaykenin sədrlik etməsi onun nufuzunu bir qədər qaldırsa da ölkədaxili vəziyyətin ağırlaşması ona qarşı olan etirazların səngiməsinə imkan vermirdi. Birləşmiş Milli Partiyanın başına yeni lider C.R. Cayavardenenin keçməsi ilə bu partiyanın nüfuzunun artmasının qarşısını almaq üçün Sirimavo Bandaranayke 1975-ci ildə öz siyasi və iqtisadi kursunda sərt dönüş etdi. O, əməkdaşlıq etdiyi sol yönümlü partiyalardan aralandı və sağ yönümlü kurs götürdü. Bunlara baxmayaraq onun partiyası 1977-ci il seçkilərini uduzdu, parlamentdə cəmisi 8 yer ala bildi. Halbuki əvvəlki parlamentdə partiyanın 91 yeri var idi. Bunun əksinə Birləşmiş Milli Partiya parlamentdəki 168 yerdən 142-nə yiyələndi. Hətta federalizm və bağımsızlıq tərəfdarı olan milliyyətçi tamillərin iki qurumunun birləşməsindən yaranan Birləşmiş Tamil Azadlıq Cəbhəsi belə Şri-Lanka Azadlıq Partiyasını

ötüb keçmiş, bu partiyanı ana müxalifət olmaq imkanından məhrum edə bilmişdi.

Burada bir məsələyə xüsusi diqət vermək istərdik. O da bundan ibarətdir ki, indiyə kimi əsas partiyaların mübarizəsinin və bir-birini əvəz edən hökumətlərin fəaliyyətinin ana xəttini ölkənin siyasi kursunda və iqtisadi siyasətin əsaslarında baş verən dəyişikliklər təşkil edirdi. Əgər bunlardan biri özəl təşəbbüsə daha əlverişli şərait yaratmaq istəyirdisə, o birisi iqtisadiyyatın dövlət bölməsinin inkişafına önəm verirdi. Həmin dövrdə ilk dəfə idi ki, siyasi qüvvələr ölkənin dövlət quruluşu haqqında da düşünürdülər. Parlament konstitusiyaya düzəliş qəbul etdi və bu düzəlişə görə fransız tipli icraedicilik sisteminə üstünlük verildi. 1978-ci ilin 4 fevralında Birləşmiş Milli Partiyanın lideri C.R. Cayavardene ölkənin prezidenti seçildi. O, baş nazir postunu Ranasinqh Premadasaya həvalə etdi.

Şri-Lanka tarixinin bu illəri ölkədə tamil separatçılarının daha çox fəallaşması ilə xarakterdir. Elə buna görə də, prezident C.R.Cayavardenenin ən önəm verdiyi məsələ tamil separatçılarının artan təzyiqlərinin qarşısını almaq idi. Bu məqsədlə sol yönümlü radikal tamillərin bütün hərəkətləri nəzarət altına alındı. Tamillərin çoxluq təşkil etdiyi Şimal və Şərq əyalətləri birləşdirildi, ciddi atəşkəs rejimi yaradıldı, cinayətlərdə suçlanan partizanlar üçün əfv fərmanı verildi və s. Lakin bunlar lazımı nəticələr vermədi. 1978-ci ilin 16 avqustunda qəbul olunmuş konstitusiyaya görə Böyük Britaniya tipli parlament sistemi prezident-parlament idarəçiliyi ilə əvəz olundu. Prezident hakimiyyəti qüvvətləndirildi. O, baş naziri təyin etmək və ölkəni idarə etmək səlahiyyətlərinə sahib oldu.

Konstitusiyanın minimum dörd il hakimiyyətdə olduqdan sonra prezidentin yeni seçkilər təyin etmək haqqında bəndinə uyğun olaraq C.R.Cayavardene 1982-ci ilin 20 senyabrında altı il müddətinə prezident seçildi. 1983-cü ilin mayında isə 18 dairədə parlamentə seçkilər keçirildi. Yerlərin 14-nü Birləşmiş Milli Partiya, 3-nü Şri-Lanka Azadlıq Partiyası, 1-ni isə Birləşmiş Xalq Cəbhəsi qazandı.

İstər C.R.Cayavardenenin, istərsə də hakim partiyanın nüfuzunun xeyli yüksək olmasına baxmayaraq tamil separatçıları ilə mübarizədə hakimiyyət əsaslı bir uğura yiyələnə bilmirdi. Əksinə, 1983-cü ilin iyulunda şimaldakı Cafna şəhərində 13 nəfər hökumət əskərinin qətlə yetirilməsindən sonra vəziyyət xeyli pisləşdi. Ölkəni anti-tamil çıxışları və nümayişləri bürüdü. Avqustun əvvələrinə qədər

davam edən bu hadisələr zamanı əksəriyyəti tamillər olan 400-dən çox adam öldürüldü. Baş verən bu hadisələri prezident C.R.Cayavardene «sosialist yönümlü hərbçilərin və separatistlərin sui-qəsdi» adlandırdı. O, üç sol yönümlü partiyanın fəaliyyətini dayandırdı və eyni zamanda parlamentdə hər cür separatçı fəaliyyətin qadağan olunmasını və deputatların vahid Şri-Lanka dövlətinə sədaqət andı içməsini nəzərdə tutan konstitusiya düzəlişini qəbul etdirə bildi. Birləşmiş Tamil Azadlıq Cəbhəsindən olan 16 deputat həmin düzəlişə etiraz olaraq parlamentdən çıxdı.

Ümumiyyətlə həmin vaxtda, ondan əvvəlki və sonrakı dövrlərdə də Şri-Lankanın ən böyük problemi ölkədə etnik zəmində ziddiyyətlərin olmasıdır. Ölkə əhalisinin (təqribən 18 mln nəfərdir) 70%-dən çoxu avtoxton sinqallar, 20%-ni isə müxtəlif zamanlarda Hindistandan adaya gələn, bəzi hallarda gətirilən tamillər təşkil edirlər. Əgər əvvəllər tamillər daha çox sinqallarla bərabər hüquqlu olmaları, tamil dilinin rəsmi dairələrdə sinqal dili ilə yanaşı işlədilməsi haqqında tələblər irəli sürür, yaşadıqları Şimal və Şərq əyalətlərinə daha çox muxtariyyət verilməsini tələb edirdilərsə, indi bəzi ekstremist təşkilatlar ölkənin bölüşdürülməsi və müstəqil tamil dövləti yaradılması proqramları ilə çıxış edirdilər. Bunların da başında «Tamil ilam» azadlıq pələngləri təşkilatı dururdu. Bu təşkilatın fəaliyyətinin başlıca forması terror idi. Təbiidir ki, sinqal millətçi qrupları da bu terrorlara adekvat cavablar verirdi. Nəticədə minlərlə adam məhv edilmiş, minlərlə tamil Hindistana qaçmaq zorunda qalmışdı.

Vəziyyətin gərginləşməsindən narahat olan Hindistanın baş naziri İndira Qandi Tamiland ştatı hökumətinin təkidi ilə Şri-Lankaya öz elçisini göndərdi ki, C.R.Cayavardene hökuməti və tamil separatçıları arasında vasitəçilik etsin. Vəziyyətdən çıxmaq üçün bütün partiyaların iştirakı ilə danışıqlar aparılması qərara alındı. Lakin müxalifət partiyaları ona qarşı çıxdılar. Belə olduqda dekabr ayının sonlarında prezident heç bir ilkin şərt olmadan Birləşmiş Tamil Azadlıq Cəbhəsinin nümayəndələrinin dəyirmi stol ətrafında danışıqlarda iştirak etməsinə razılıq verdi. 1984-cü ilin yanvarında başlayan «dostcasına danışıqlar» zamanı tamil nümayəndələri Şimal və Şərq əyalətləri əhatə edəcək regional bir şura yaradılması təklifini irəli sürdülər. Prezident isə təklif edirdi ki, əyalətlərin xüsusi maraqlarını təmsil edən nümayəndələrdən ibarət ölkə parlamenti ilə

yanaşı ikinci qanunvericilik palatası yaradılsın. Lakin Birləşmiş Tamil Azadlıq Cəbhəsi nümayəndələri prezidentin təklifini rədd etdilər və öz təkliflərində təkid etdilər. Onlar deyirdilər; «biz istəyirik ki, regionumuzun idarə edilməsinin muxtar formasına nail olaq və mərkəzdə ikinci palatanın olmasına yox». Prezident isə bildirirdi ki, o, məsələnin bikameranizm təməlində, yəni milli konsensusun məhz onların özünün hesabına yaranması əsasında həllində təkid edəcəkdir.

Danışıqların gedişində tərəfləri razı salan bir nəticə alınmadığından onlardan hər biri məsələnin çözümündə daha radikal yola əl atacaqlarını bəyan etdilər. Bu hal bütün 1985-ci il boyunca müşahidə olunmuşdur. İstər ölkə daxilində, istərsə də xaricdə fəaliyyət göstərən separatçı qruplar tamillərin milli istiqlaliyyətinə nail olmaq üçün birləşir və silahlı inqilabi mübarizəni yeganə yol olaraq seçdiklərini bildirirdilər. Öz növbəsində hökumət qüvvələri də buna sərt cəza tədbirləri ilə cavab verirdi.

Qeyd etmək lazımdır ki, həmin dövrdə anasının öldürülməsindən sonra Hindistanın baş naziri olmuş Raciv Qandi də məsələnin çözülməsinə xüsusi maraq göstərirdi. Anasından fərqli olaraq o, tamilləri müdafiə siyasətindən əl çəkdi. R.Qandi bəyan etdi ki, tamillərin Şri-Lankada hər hansı muxtar bir qurum yaratmaq planına qarşıdır və məsələnin danışıqlar yolu ilə həllinə önəm verir. Bu məqsədlə Şri-Lankanın rəsmi nümayəndələri ilə separatçıların qonşu ölkələrdə bir sıra görüşlərini təşkil etdi. Lakin görüşlər tərəflərin nəticəsiz danışıqlarından başqa bir nəticə vermədi.

Bütün bunlardan sonra hökumət separatçılara qarşı kəskin tədbirlərə əl atdı. 1987-ci ilin fevralında Şimaldakı ordu hissələri separatçılara qarşı hücum əməliyyatlarına başladılar. Üsyançıların nəzarəti altında olan ərazilərin çox böyük hissəsi azad edildi və separatçılara ağır zərbələr endirildi. Vəziyyətin bu cür dəyişməsi nəticəsində yenidən Hindistandakı qüvvələr hökumətə qarşı təzyiq göstərməyə başladılar və Şri-Lankanın Şimal əyalətlərinə humanitar yardım göstərməsini qəti şəkildə tələb etdilər. Hindistan hökuməti hava yolu ilə tələb olunan köməkləri göstərməyi cəhd etdikdə, bu, Şri-Lanka hökumətinin kəskin diplomatik etirazı ilə qarşılandı.

Yaranmış gərginliyi səngitmək üçün hər iki dövlətin rəsmiləri danışıqlar stolu arxasında əyləşməyə məcbur oldular. Yüksək səviyyəli hökumət nümayəndələrinin Dehlidəki danışıqlardan sonra baş nazir Raciv Qandi Şri-Lankanın paytaxtı Kolomboya

gəldi ki, tərəflərin razılaşdığı sazişə imza atsın. İyulun sonunda tərəflərin bağladığı sazişə əsasən Hindistan Şəri-Lankanın şimal əyalətlərində atəşin dayandırılmasına və burada əyalət şurası tərəfindən seçilmiş əyalət hökumətinin qurulmasına yardım etmək üçün həmin əraziyə sülh məramlı qüvvələrini yeridə bilərdi. Sazişə görə həyatın bütün sahələrində tamillərə sinqallarla bərabər hüquqa sahib olmalarına təminat verilirdi. Onlar üçün yaradıcılaq Şimal-Şərq əyalətinə geniş muxtariyyət verilirdi və ümumi əfv elan olunurdu. Saziş imzalanmasından bir neçə gün sonra iyulun 30-da 3 min nəfərlik hind sülh məramlı qüvvələri Şri-Lankanın şimal əyalətlərinə çıxarıldı. Şimal əyalətlərində, xüsusilə Cafna ətrafındakı yerlərdə separatçı partizan qüvvələrinə qarşı hərbi əməliyyatlar aparıldı. Separatçı qüvvələrə güclü sarsıdıcı zərbələr vuruldusa da, onlardan bir qismi daha keçilməz yerlərə çəkilib mübarizəni davam etdirirdilər. O biri tərəfdən hind sülh məramlı qüvvələrinin bir vəzifəsi də tamil separatçılarını tərkisilah etmək idi. Lakin onlar çox məhdud sayda silah müsadirə edə bildilər. Sülh məramlı qüvvələrə qarşı daha kəskin mövqeyi «Tamil İlam Azadlıq pələngləri» qrupları nümayiş etdirirdilər. Az zaman kəsiyində onların sayı 30 min nəfəri keçmişdi. «Tamil pələngləri» atəşin birtərəfli qaydada dayandırılmasına məhəl qoymadılar və 1988-ci ilin əvvəlində yenidən güclü hərbi əməliyyatlara başladılar. Artıq həmin dövrdə sülh məramlı qüvvələrin sayının 70 min nəfərdən çox olduğu bildirilirdi.

Rəsmi mənbələrin məlumatlarına əsasən hərbi əməliyyatlar nəticəsində 1984-1988-ci illərdə 10 mindən çox adam həlak oldu. Onu da qeyd etmək lazımdır ki, ölkənin şimalında separatçılara qarşı əməliyyatlar keçirilərkən cənubda da müəyyən siyasi qüvvələr, xüsusi ilə Milli Azadlıq Cəbhəsində birləşən radikal qüvvələr Şri-Lanka və Hindistan arasında bağlanan sazişə görə tamillərə olduqca geniş hüquqlar verildiyini bəyan edir və 1987-ci ilin ortalarından rəsmi hakimiyyətə qarşı müxtəlif təxribatlar törədirdilər. Bu məqsədlə onlar bir sıra siyasi xadimlərə qarşı sui-qəsd cəhdləri etdilər və hətta prezidenti öldürmək üçün avqustun 18-də parlamentə qumbara da atıldı.

Bunlarla yanaşı hökumət noyabr ayında ölkənin dövlət quruluşunun Hindistanda mövcud olan sistem formasında təşkilini nəzərdə tutan qanunvericilik aktını qəbul etdi. Bu sənədə əsasən ölkədə indiyə qədər mövcud olan 9 əyalətin və onların vali və

seçilmiş şura(o, əyalətin inkişaf məsələləri ilə məşğul olurdu-müəl.) tərəfindən idarə olunması sistemi ölkədə daha çox muxtar şuraların yaradılması və onlara birinci nazirin başçılıq etməsi sisteminə keçməsi ilə əvəz olundu. Həmin sənəd əyalətlərdə yerli seçkili şuraların yaradılmasını Şimal və Şərq əyalətlərinin birləşməsini nəzərdə tuturdu. Hökumətin bu tədbiri müxalifət tərəfindən tənqidlə qarşılandı. Şri-Lanka Azadlıq Partiyası isə hökuməti «ümumi milli xəyanət»də ittiham etdi. 1988-ci ilin aprel və iyun aylarında əyalət şuralarına seçkilər keçirildi. Şri-Lanka Azadlıq Partiyası bu seçkiləri də, ən azı qeyri-tamil ərazilərində, boykot etmək xəttini tutdu. Prezident C.R. Cayavardeninin Şimal və Şərq əyalətlərinin birləşdirilməsi haqqında bəyanat imzalanması istər Şri-Lanka Azadlıq partiyası, istərsə də Birləşmiş Tamil Azadlıq Cəbhəsi tərəfindən etirazla qarşılandı. Onlar əyalət şuralarına növbəti seçkiləri də boykot etməyə qərar verdilər. Buna cavab olaraq hökumət «İlam» Xalq İnqilab Cəbhəsi və «İlam» Milli Demokratik Qurtuluş Cəbhəsinə Şimalın təmsilçiləri kimi, eləcə də yenə «İlam» Xalq İnqilab Cəbhəsi və Şri-Lanka Müsəlman Konqresinə Şərqin təmsilçiləri kimi hər birinə əyalət şuralarında seeçkilərsiz 17 yer ayırdı.

1988-ci il 19 dekabrda ölkənin prezidenti R.Premadasa oldu. O, seçkiləri çox az fərqlə uda bilmişdi. Cəmisi 50,40% səs qazanmışdı. Onun rəqibi S.Bandaranayke 44,94%, Birləşmiş Sosialist Alyansının namizədi O.Abeyqunesekira isə 4,63% səs almışdılar. Prezident Premadasa parlamenti buraxdı və 1989-cu il fevralın 15-nə növbəti seçkilər təyin etdi. Seçkilərdə Birləşmiş Milli Partiya qalib gəldi və 225 mandatdan 125-nə sahib oldu. Şri-Lanka Azadlıq Partiyası isə 67 yer aldı. Qeyd etmək lazımdır ki, ölkədə siyasi və sosial istiqrarın tez-tez pozulduğu, xüsusilə Cənubda baş alıb gedən terror aktlarının (seçki zamanı 1000-dən çox adam öldürülmüşdü) davam etdiyi bir şəraitdə parlament, əyalət şuraları və prezident seçkilərinin baş tutması uğurlu bir hadisə idi.

Prezident keçmiş maliyyə naziri Dinqiri Bandurcetunqu baş nazir təyin etdi. Bunun ardınca isə tamil separatçı partizan dəstələrinə əhv təklif etdi və əvəzində onların zorakılıqdan imtina edərək siyasi proseslərə qoşulması şərtini qoydu. Prezident həm də vəd edirdi ki, parlamentdə onlara daha çox yer ayrılacıqdır. Bu məsələyə münasibətdə separatçılar arasında fikir birliyi olmadı və onlar prezidentin təklifinə silahlı toqquşmaları və terror aktlarını artırmaqla

cavab verdilər. Belə olduqda prezident Premadasa 1987-ci il Nyu Dehli sazişinin qüvvədən düşdüyünü bildirdi və Hindistan qoşunlarının 1989-cu ilin ortalarınadək ölkədən çıxarılmasını xahiş etdi. İki ölkə arasında böhranlı vəziyyət yarandı və bu, sentyabrda onların arasında qoşunların ilin sonunadək ölkədən çıxarılması haqqında müqavilənin bağlanmasınadək davam etdi. Dekabrda Hindistan nümayəndəsi bu müddətin 1990-cı il martın 31-dək uzadılmasını bildirdi. Tamil separatçıları yenidən açıq hərbi əməliyyatlara başladılar.

Qeyd etmək lazımdır ki, bütün bunlar təkcə siyasi həyatı iflic etmir, həm də iqtisadiyyatın inkişafına mane olur, onu bərbad hala salırdı.

Şri-Lankanın iqtisadi həyatında başlıca yer aqrar bölməyə məxsusdur. Əhalinin yarıya qədəri aqrar bölmədə çalışır. Ən çox inkişaf etmiş və geniş yayılmış istehsal sahələri çəltikçilik və çayçılıqdır. İstehsal olunan düyü ölkə əhalisinin ehtiyacını tamamilə ödüyür. Çay isə daha çox ixrac olunur. İxrac məhsulları içərisində kauçuk və hind qozu da mühüm yer tutur. Ölkə ixracının 38%-i bunların payına düşür. Dövlət ixrac məhsullarının istehsalını genişləndirməyə və inkişaf etdirməyə dəstək verir. İrriqasiya və hidrotexniki qurğuların inşasını maliyyələşdirir.

Bununla yanaşı sənayenin zəif inkişafı özünü göstərir. Təbii ehtiyatların yoxluğu bunun əsas səbəbidir. Ağır sənaye yox dərəcəsindədir. Xırda yağ emalı müəssisələri son dövrlərdə genişlənməkdədir. Daha çox inkişaf etmiş sahə paltar istehsalı ilə bağlıdır. Hətta bir sıra paltar növləri ixrac da edilir.

Ümimiyyətlə 80-ci illərin ortalarına qədər Şri-Lankanın müəyyən bir iqtisadi inkişaf yolu ilə getdiyini söyləmək olar. Bunun da əsasında o dayanırdı ki, 70-ci illərdən başlayaraq iqtsiadi siyasət kursunda dövlət bölməsinin inkişafına xüsusi önəm verilməsi ilə yanaşı özəl işgüzarlıq və təşəbbüslər üçün də əlverişli fəaliyyət imkanları yaradılmağa başlanılmışdı. Qeyd etmək lazımdır ki, həmin kurs bu gün də davam etməkdədir. Adam başına düşən ümumi milli məhsul 33 dollara çatmışdı. Hökumət ölkə iqtisadiyyatının region ölkələrinin iqtisadiyyatı ilə inteqrasiyasına nail olmaqla onun harmonik inkişafına təminat yaratmağa çalışırdı. 1982-ci ildə Cavayardane hökuməti Şri-Lankanın Cənub-Şərqi Asiya ölkələri ilə iqtisadi oxşarlığını və mədəni yaxınlığını nəzərə alaraq onun ASEAN-a qəbul

olunmasını xahiş etdi. Lakin bu xahiş coğrafi motivlər zəmnində rədd edildi. Belə olduqda Şri-Lanka 1985-ci ildə Cənubi Asiya Regional Əməkdaşlıq Təşkilatının yaradıcılarından biri oldu və onun işində fəal iştiraka başladı.

Lakin tamil separatçılarının fəallaşması iqtisadi tənəzzülü artırdı və bu müəyyən müddət ərzində ölkə üçün bir bəla oldu.

1990-cı il 31 martda hind hərbi birləşmələrinin ölkədən çıxarılması başa çatdı. Hökumətin tamil separatçılarına qarşı kəskin əks tədbirləri genişləndi. Hələ hind hərbi dəstələrinin çıxmasına qədər Şimal-Şərq əyalət şurasının müstəqil İlam dövlətinin yaradılmasını elan etməsi vəziyyəti son dərəcə gərginləşdirmişdi. Hökumət təklif etdi ki, məsələ danışıqlar yolu ilə həll edilsin. Lakin təklif tamil təşkilatları tərəfindən bir mənalı formada rədd edildi. Bundan sonra bütün cəbhə boyu hərbi əməliyyatlar yenidən alovlandı. Separatçılara güclü zərbələr vuruldu. 1990-cı il 1 iyunda prezident Premadasa Şimal-Şərq şurasının buraxılması və yeni seçkilər keçirilməsi haqqında fərman verdi. «Tamil pələngləri» bunu boykot etdilər və partizan əməliyyatlarına rəvac verdilər. Nəfəs dərmək üçün iki-üç həftəlik atəşkəslər istisna olunmaqla bütün 1991-ci il ərzində hərbi əməliyyatların arası kəsilmədi. Onu da qeyd etmək lazımdır ki, seçkilər nəticəsində hökumətin siyasi mövqeləri xeyli möhkəmləndi. Çünki, şuralarda yerlərin çoxunu onun tərəfdarları qazandı.

1992-ci ilin ortalarından hökumət Şimal separatçılarına qarşı geniş miqyaslı hərbi əməliyyatlara başladı. «Tamil pələngləri» buna terror aktları ilə cavab verdilər. Onlarla yüksək rütbəli zabit öldürüldü, hərbi və mülki obyektlər partladıldı. 1992-ci ilin noyabrında hərbi dəniz donanmasının komandanı və bunun ardınca 1993-cü ilin aprelində müxalifət liderlərindən L.Asalazmudalinin qətlə yetirilməsindən sonra prezident Premadasa istefaya getdi və parlament onun prezidentliyi müddətini başa çatdırmağı baş nazir Vicetunqaya həvalə etdi. Baş nazir vəzifəsinə isə R.Vikremasinqh təyin olundu. Yeni hakimiyyət də separatçılara qarşı mübarizəni davam etdirməkdə qətiyyətli idi. 1993-cü ildə istər şərqdə, istərsə də şimalda Şri-Lanka orduları aramsız hərbi əməliyyatlar apardı. Belə bir vəziyyət 1994-cu ilin avqustunda keçirilən parlament seçkilərinə qədər davam etdi. Həmin seçkilərdə isə Şri-Lanka Azadlıq Partiyası və Şri-Lanka Müsəlman Liqası liderlərinin rəhbərlik etdiyi Xalq Alyansı koalisiyası 225 mandatdan 112-ni qazandı. Kiçik qrupların da dəstək

verdiyi Xalq Alyansının lideri Çandrike Bandaranayke Kumaratunqa (Solomon və Sirimavo Bandaranaykelərin qızı) baş nazir kimi avqustun 19-da and içdi. Deмək lazımdır ki, tamil kökənli deputatların çoxu da yeni hökuməti dəstəkləyirdi. Bunun da müqabilində hökumət tamil separatçıları ilə danışığa başlamaq üçün heç bir şərt qoymadan atəşin dayandırılması vədini vermişdi. Bütün bunlar həm də ona gətirdi ki, noyabrın 12-də keçirilən prezident seçkilərində də Çandarike Bandaranayke Kumaratunqa qalib gəldi. O, baş nazir vəzifəsini anası Sirimavo Bandaranaykeyə tapşırdı. Yeni prezident 12 dekabrda bildirdi ki, hökumətin atəşi dayandırmaq haqqında təklifi «tamil pələngləri» tərəfindən qəbul olunmuşdur, 1995-ci il 3 yanvarda isə Cafnada tərəflər arasında danışıqlar başlandı.

Bundan sonra yeni hakimiyyət iqtisadi problemlərin həlli istiqamətində öz fəaliyyətini xeyli canlandırdı. Ümumiyyətlə Xalq Alyansı hələ seçki kampaniyası dövründə vəd verirdi ki, hakimiyyətə gəldikdən sonra iqtisadiyyatın liberallaşdırılması istiqamətində islahatlar aparacaq, dövlət plantasiyalarının və müəssisələrinin özəlləşdirilməsini təşkil edəcək, birja nəzarətini liberallaşdıracaqdır, ölkənin ehtiyac duyduğu xarici kapitalın fəaliyyətinə təminat yaradacaqdır. Demək lazımdır ki, bazar yönümlü iqtisadi kursa keçilməsinə 1990-cı ildən başlanılmışdı və həmin dövrdən də xarici kapital ölkə iqtisadiyyatına cəlb olunurdu. Yeni hökumət isə bunu daha geniş miqyasda həyata keçirirdi. Artıq 1995-ci il 1 yanvarda prezident Ç.B.Kumaratunqa əsas özəlləşdirmə planını elan etdi və hava xətləri, nəqliyyat, sığorta təsisatları və digər mühüm sahələrin özəlləşdirməsini nəzərdə tuturdu. Proqramın həyata keçirilməsi üçün Dünya Bankı hər cür kömək göstərirdi. Təkcə 1997-ci ildə o, Şri-Lankaya 860 mln dollar məbləğində yardım etdi.

Hökumətin iqtisadi tədbirləri az zaman ərzində öz müsbət nəticələrini göstərdi. Bu baxımdan göstərmək istərdik ki, 1990-1996-ci illər ərzində inflyasiya 11,2% idisə, 1997-ci ildə 7,7% -ə endi. Adam başına düşən ümumi milli məhsul həcminin illik artımı 3,4% oldu. Bu, kənd təsərrüfatı məhsulları üzrə 1,7%, sənaye məhsulları üzrə isə 7%-ə bərabər idi.

Ölkənin xarici iqtisadi əlaqələri genişləndi. İdxal sahəsində Hindistan birinci yerdə dursa da, ixrac sahəsində birincilik ABŞ-a məxsusdur ( 34,1%). Yaponiya, Böyük Britaniya və Almaniya da əsas ticarət tərəfdaşlarıdır.

Şri-Lanka Asiya İnkişaf Bankının və Cənubi Asiya Regional Əməkdaşlıq Təşkilatının təsisçilərindən və üzvlərindən biri kimi həmin təşkilatda birləşən çoxsaylı ölkələrlə çoxşaxəli əməkdaşlıq əlaqələri saxlayır.

Bu uğurlarla yanaşı qeyd etmək lazımdır ki, prezident Ç.B.Kumaratunqanın tamil separatçıları ilə ilk danışıqlar cəhdi də, sonrakı cəhdlər də heç də uğurlu olmamışdır. Lakin Ç.B.Kumaratunqa hakimiyyəti dəfələrlə bəyan etmişdir ki, problemin danışıqlar yolu ilə həlli üçün lazım olan bütün vasitələrdən istifadə olunacaqdır. Bu məqsədlə hələ 1995-ci ilin ortalarında tamillərin də marağına uyğun şəkildə ölkənin inzibati bölgüsü haqqında yeni plan irəli sürüldü. Həmin plana görə ölkədə təkrar 8 əyalət yaradılması nəzərdə tutulurdu və bu əyalətlərdən biri tamil separatçılarının nəzarət etdiyi ərazi idi. Bunun müqabilində prezidnt təklif edirdi ki, separatçılar silahı yerə qoysunlar.

Qeyd etmək lazımdır ki, prezident Kumaratunqanın barışıq cəhdləri Hindistan hökuməti tərəfindən də dəstəklənir və müdafiə olunur. Hələ 1995-ci ilin ortalarından Hindistan hökuməti Şri-Lankanın şimalında dəniz sərhədlərinin qorunması üçün karantin zolağı yaratmışdır. Bunun nəticəsində tamil separtçıları Hindistanın Tamil Nodu ştatındakı bazarlardan aldığı silah və maddi yardımlardan məhrum edilmişdir.

Sonrakı dövrdə də hər iki dövlət problemin həlli yolunda mümkün olan hər şeyi etdilər ki, Şri-Lankada bu qırğınlara son qoyulsun, hər iki ölkədə, xüsusilə Şri-Lankada siyasi istiqrar tam bərqərar olsun. Təbiidir ki, bütün bunlar da iqtisadi inkişaf və mədəni dirçəliş üçün əlverişli şərtlər yaradırdı. İstiqrarın bərqərar olması xarici investorların Şri-Lankaya olan marağının artmasına və ölkə iqtisadiyyatına kapital qoymaq risqinin aradan qalxmasına səbəb olurdu. Elə bunun nəticəsi idi ki, 1997-ci ildə ölkəyə çox böyük məbləğdə xarici sərmayə gəldi. Bu ənənə sonrakı illərdə də davam etmişdir. Elə bu uğurlu siyasətin nəticəsidir ki, 2000-ci ilin sentyabrında keçirilən seçkilərdə hakim Xalq Alyansı koalisiyası yenidən qalib gəldi və ehtimal etmək olar ki, yeni təşkil olunmuş hökumət (baş nazir Sirimavo Bandaranayke seçki günü ürək çatışmazlığından vəfat etmişdir-müəl.) əvvəlki siyasi və iqtisadi kursu davam etdirəcəkdir.

# NEPAL

Nepal krallığı Himalayda Çin və Hindistan arasında yerləşir. Böyük Britaniya müstəmləkəsi olan bu dövlət bağımsızlığını 1923-cü ildə qazanmışdır. Ölkə istər həmin dövrdə, istərsə də II dünya müharibəsinin sonuna qədər hələ 1846-cı ildə ingilislərin köməyi ilə hakimiyyəti ələ keçirmiş Rana feodal ailəsinin nümayəndələri tərəfindən idarə olunurdu. İrsi olaraq baş nazir vəzifəsini tutan həmin şəxslər kralın bütün hüquqlarını da mənimsəmişdilər. Kral hakimiyyəti nominal bir xarakter daşıyırdı. Rəsmi olaraq Maxaracadxiraca-hökmdarların Böyük hökmdarı, bəzən hətta daha təmtəraqlı formada Şri pənç maxaracadxiraca-hökmdarların beş qat Böyük hökmdarı adlandırılan kralların ölkənin idarə olunmasında heç bir iştirakı yox idi. Bu hal Hindistanın istiqlaliyyət qazanması dövrünə qədər davam etmişdir. Elə ki 1947-ci ildə Hindistan müstəqil dövlət statusunu qazandı və bundan sonra qonşu Nepalda olan vəziyyətə nəzarət etməyə başladı. Hindistanın köməyi ilə Nepalda da bir Milli Konqress partiyası yaradıldı. Bundan da məqsəd o idi ki, Nepalda Hindistanda mövcud olan rejimə oxşar bir rejim yaradılsın, bu zəmində iki ölkə arasındakı münasibətlərdə lazımı bir yaxınlıq olsun. O da imkan versin ki, Nepaldakı durum Hindistanın tam nəzarəti altına düşsün. Bu da təsadüfi deyildir. Çünki, iki böyük dövlətin-Çinin və Hindistanın arasında yerləşən Nepalda kimin nüfuzunun üstün olması regionda gedən proseslərə həmin dövlətin müdaxilə imkanlarını xeyli artırır. Həm də nəzərə almaq lazımdır ki, həmin dövrdə bu iki böyük dövlət arasında münasibətlərin özü kifayət qədər narmal deyildi.

Qeyd etmək lazımdır ki, Hindistanın cəhdləri Nepalda bir tərəfdən kral tərəfdarlarını, o biri tərəfdən isə ölkədə demokratik dəyişikliklər tərəfdarlarını hərəkətə gətirdi. Bu da öz növbəsində kral Tribhuvana Bir Bikram və baş nazir arasında onsuz da gərgin olan ziddiyyətləri daha da şiddətləndirdi. Kral Tribhuvana Bir Bikram 1950-ci ilin noyabrında Dehliyə sığınmaq məcburiyyətində qaldı. Kral və demokratiya tərəfdarları açıq çıxışlara başladılar və bütün bunlar silahlı üsyana gətirdi. Üsyan isə onunla nəticələndi ki, 1951-ci ildə Rana nəslinin despotizminə, tarixçilərin ranakratiya adlandırdığı

rejimə son qoyuldu, ölkədə kral hakimiyyəti bərpa olundu, konstitusiyalı idarə sisteminə keçildi. Partiyaların yaradılmasına və fəaliyyətinə icazə verildi.

1955-ci ildə ölkənin kralı Tribhuvanın oğlu Mahendra Bir Bikram oldu. O da atasının kursunu davam etdirdi. Məhz Mahendranın səyləri nəticəsində Nepal krallığı Birləşmiş Millətlər Təşkilatına üzv seçildi. 1959-cu ildə ilk dəfə parlament seçkiləri oldu və seçkilərdə Nepal Milli Konqress partiyası qalib gəldi. Ölkənin parlamentində ilk dəfə olaraq parlamentarizmə önəm verən bir konstitusiya qəbul olundu.

Həmin dövrdən başlayaraq Nepal iki böyük qonşusu Çin və Hindistanla münasibətlərində balans siyasətinə keçdi və xeyli vaxtdır ki, həmin siyasəti həyata keçirməkdə davam edir.

Qeyd etmək istərdik ki, az keçməmiş parlament və kral arasında müəyyən ziddiyyətlər yarandı. Bunun zəmnində isə parlamentin kralın hüquqlarını məhdudlaşdırmaq istiqamətində göstərdiyi cəhdlər dayanırdı. Kral Mahendra bu qənaətə gəldi ki, parlamentar rejim Nepal şərtlərinə yaramır və o, qarşısında duran vəzifələri yerinə yetirə bilmir. Elə bu səbəbdən də kral 1960-cı ildə ordunun köməyi ilə dövlət çevrilişi etdi. Parlament və hökumət buraxıldı, siyasi partiyaların fəaliyyəti qadağan edildi, bir sıra siyasi xadim həbsə alındı. Çoxpartiyalı parlament demokratiyası pənçəyat sistemi ilə əvəz olundu. «Pənçəyat» sözünün hərfi mənası «beşlik» deməkdir. Bu sistem regionda olduqca geniş yayılmışdır və uzun müddətdir ki, bir özünüidarə orqanı kimi yaşamaqdadır. Nepalda tətbiq olunmağa başlayan pənçəyat sistemi kənd, şəhər, rayon və bölgə şuralarından ibarət idi. Onların da başında ümumölkə miqyaslı Milli pənçəyat dayanırdı. Milli pənçəyat 140 deputatdan ibarət idi və bunların 28 nəfəri şəxsən kralın özü tərəfindən təyin olunurdu. Bu sistem öz əksini 1962-ci ildə qəbul olunmuş yeni konstitusiyada da tapmışdır. Yeni konstitusiya həm də kralın hüquqlarının genişləndirilməsini nəzərdə tuturdu. Faktik olaraq, bütün hakimiyyət qanadlarının-qanunverici, icraedici və məhkəmə orqanlarının kralın timsalında öz ifadəsini tapması konstitusiya ilə təsdiqlənirdi. Bundan sonra kral Mahendra ölkənin qarşısında duran bir sıra problemlərin həlli istiqamətində tədbirlər görməyə başladı. 1963-cü ildə aqrar islahat haqqında qanun qəbul edildi. Doğrudur, islahat nəticəsində ölkədə mövcud olan torpaq sahibliyinin əsaslarına toxunulmurdu, yalnız

torpaq mülkiyyətinin son həddi müəyyənləşdirilirdi. Qanuna görə hər adambaşına düşən torpaq sahəsi təqribən 17 ha-dan yuxarı olmamalı idi. Artıq torpaqlar kəndlilərə icarəyə verilirdi və icarədarlardan alınacaq rentanın həcmi məhsulun yarısından (50%-dən) çox ola bilməzdi.

Kralın ilk olaraq aqrar sahəyə önəm verməsi təsadüfi deyildi. Çünki, Nepal geri qalmış aqrar ölkə idi. Burada feodal münasibətləri hakim forma olaraq qalırdı. Kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişaf səviyyəsi çox aşağı idi. Əhalinin 84%-i aqrar sahədə çalışırdı və ölkədə əsas kənd təsərrüfatı bitkiləri olan düyü, qarğıdalı, buğda, darı, şəkər qamışı, kartof, paxlalı bitkilər və cut istehsalı ilə məşğul olurdular. Nepal ərazisinin çox böyük hissəsinin dağlardan ibarət olması nəticəsində əkin üçün yararlı torpaqlar kifayət qədər deyildir. Keçirilən islahat da o məqsəd daşıyırdı ki, mövcud yararlı torpaqlardan daha səmərəli istifadə edilsin və bununla da istehsalın səviyyəsi yüksəlsin. Dövlət icarədar kəndlilərə tam təminatlı istehsalçılar statusu vermişdi. Onların ehtiyac duyduğu maliyyə və texniki köməklər dövlət tərəfindən ödənilirdi.

İqtisadiyyatın sənaye bölməsi də çox zəif idi və əsasən yüngül və ərzaq məhsulları istehsal edən kiçik müəssisələrdən ibarət idi. Dövlət bu sahəyə də diqqət verməyə başladı. Ölkənin ənənəvi kənd təsərrüfatı məhsullarının ilkin və təkrar emalı ilə bağlı olan bəzi müəssisələr inşa edildi. Şəkər zavodu, tütün fabrikası, kənd təsərrüfatı alət və avadanlıqları istehsal edən zavod bu qəbildən idi.

Xarici siyasət sahəsində tərəfsizlik kursu davam etdirilirdi.1961-ci ildə Belqradda keçirilən Bloklara qoşulmamaq hərəkatının zirvə konfransında Nepal dövləti də ən yüksək səviyyədə təmsil olunmuşdu. Qonşu dövlətlərlə münasibətlərin inkişafına xüsusi fikir verilirdi. Bu məqsədlə Nepal dövlət nümayəndə heyətləri bir sıra ölkələrə səfərlər etmişdi. Belə bir səfər 1964-cü ildə SSRİ-yə də oldu.

Kral Mahendra 1972-ci ildə ölümünə qədər iqtisadi və siyasi həyatda bu kursu davam etdirmişdir. Doğrudur, yeni kral Birendra da atasının siyasi kursuna sadiq qaldı. Lakin getdikcə mövcud durumdan narazılıqlar özünü biruzə verirdi. Bu baxımdan pənçəyat sisteminə olan münasibət çox xarakter bir nümunədir. Əgər əvvəllər pənçəyat sisteminin tətbiqi vasitəsilə cəmiyyətə belə bir ideya təlqin olunurdu ki, Qərbin demokratiyası Nepal üçün yararsızdır və uyğun deyildir,

əsrlər boyu yerli ənənələr zəmnində formalaşmış milli təsisatlar daha yaxşı və daha faydalıdır, indi isə pənçəyat sisteminin kifayət qədər səmərəli olmadığı dilə gətirilirdi. Həyata keçirilən tədbirlərin çox da uğurlu olmaması, hakimiyyətin avtoritar xarakteri və məzmunu siyasi opponentlər tərəfindən tənqidə məruz qalır və bu hal get-gedə artırdı. Bu işdə Hindistan yönümlüsü olan Nepal Milli Konqres Partiyasının liderləri və tərəfdarları xüsusi fəallıq göstərməyə başlamışdılar. Ölkə üçün xarakter olan iqtisadi və sosial çətinliklər vəziyyətin kəskiləşməsinə münbit zəmin yaradırdı. Artıq ara-sıra müxtəlif formalı açıq çıxışlar da baş verirdi. Bu etirazın ən güclü göstəricisi isə 1979-cu ildə ölkənin paytaxtı Katmanduda baş verən üsyan oldu. Bunun ardınca isə parlamentar demokratiyanın bərpa olunması uğrunda kütləvi hərəkatlar artıq bütün ölkə boyu yayıdı. Narazı qüvvələr xalqın həyat səviyyəsinin yüksəlməsi, siyasi azadlıqların artırılması və təmin edilməsi şüarlarını irəli sürürdülər. Bütün bunlardan istifadə edərək Nepal Milli Konqres Partiyası və kommunist qruplarının daxil olduğu Birləşmiş Sol Cəbhə siyasi həyatda özlərini yenidən göstərməyə başlayır və narazı qüvvələri öz ətraflarında toplamağa çalışırdılar. Vəziyyətin kifayət qədər kəskinləşmək istiqamətində olduğunu görən kral Birendra siyasi çeviklik göstərdi və güzəştlərə getməyə qərar verdi. Bu baxımdan görülən ilk və olduqca mühüm tədbir 1980-ci ilin mayında çoxpartiyalı sistemə qayıdılması haqqında referendumun keçirilməsi oldu. Qeyd etmək lazımdır ki, referendumda əhalinin çox böyük hissəsi pənçəyat sisteminin saxlanılmasına səs verdi. Belə olduqda kral Birendra Nepal konstitusiyasına bir sıra dəyişikliklər etdi. Həmin dəyişikliklər qanunvericilik orqanı kimi Milli pənçəyatın hüquqlarını artırmağı nəzərdə tuturdu. Milli pənçəyata birbaşa ümumi seçkilər keçirilməsi qərara alındı və ilk dəfə olaraq 1981-ci ilin mayında Milli pənçəyatın tərkibi bu qaydada müəyyənləşdirildi. Kralın yanında Dövlət Şurası yaradıldı. Bu Şura məşvərətçi orqandır və o, dövlətin yüksək vəzifəli şəxslərindən və kralın təyin etdiyi şəxslərdən ibarətdir. Mühüm tədbirlər sırasında siyasi dustaqların əfv edilməsini qeyd etmək lazımdır. Əvvəllər həbsə alınmış siyasi partiya liderləri azadlığa buraxıldılar.

Qeyd etmək istərdik ki, 1982-ci ildən kralın rəsmi adı Birendra Bir Bikram Şah Dev oldu.

Deyilənlərdən aydın oldu ki, kral Birendra Bir Bikram Şah Devin həyata keçirdiyi tədbirlər fəallaşan siyasi qüvvələrin heç də

bütün istəklərinə cavab vermirdi. Bu tədbirlər mövcud rejimin dəyişdirilməsi yox, daha çox onun təkmilləşdirilməsi zəmnində və müəyyən hüdudlar çərçivəsində demokratik prinsiplər yaradılmasına yönəldilmişdi. Məhz buna görə də ölkənin demokratikləşdirilməsi və parlamentar sistemə keçilməsi uğrunda müxalif siyasi qüvvələrin mübarizəsi sonrakı illərdə aramsız olaraq davam etmişdir.

Bununla yanaşı kral Birendra fəal daxili və xarici siyasət yeridirdi və əsas diqqət yetirdiyi problem ölkənin iqtisadi vəziyyətinin və əhalinin sosial durumunun səviyyəsinin az da olsa yaxşılaşdırılması idi. Bu baxımdan 1987-ci ildə Nepal, Banqladeş, Butan, Hindistan, Maldivlər, Pakistan və Şri Lankanın qatıldığı Cənubi Asiya Regional Əməkdaşlıq təşkilatının (SAARK) yaranması ölkə üçün önəmli hadisə oldu. Qeyd etmək lazımdır ki, SAARK-ın işçi orqanı olan katiblik Nepalın paytaxtı Katmanduda yerləşir və orada daimi fəaliyyət göstərir.

Amma çox maraqlıdır ki, məhz həmin dövrdə Nepalın SAARK üzvlərindən biri olan yaxın qonşusu Hindistanla münasibətlərində gərginlik yarandı. İki dövlət arasında tranzit keçişi haqqında sazişin pozulması və müxtəlif iqtisadi-ticarət problemləri üzündən yaranan anlaşılmazlıq son həddinə çatdı. Hindistanın 15 ay müddətində tətbiq etdiyi blokada Nepalın onsuz da zəif olan iqtisadiyyatını çökdürdü.

Nepal kimi bir ölkənin, təbiidir ki, bu cür dözülməz sarsıntılardan qurtulması müşkül bir problemdir və o, həqiqətən də böyük sosial və iqtisadi çətinliklər qarşısında qaldı. Bu azmış kimi ölkə yenidən siyasi müxalifətin təşkil etdiyi kütləvi çıxışlar dalğasına büründü. 1989-cu ilin sonlarında və 1990-cı ilin fevralında hökumətə qarşı açıq çıxışlar baş verdi. Aprel ayındakı etiraz aksiyalarına 200 min nəfərdən çox adam qoşulmuşdu. Hökumətin bu çıxışları yatırmaq cəhdləri, iştirakçılara atəş açılması, müxalifət liderlərinin həbsə alınması gərginliyi son həddə çatdırdı. Katmandunun küçələrində barrikadalar quruldu. Xalq dövlət və hökumət təsisatlarını dağıdırdı. İğtişaşlar ölkənin digər rayonlarına da yayılırdı. Dilemma qarşısında qalan kral Birendra daha böyük güzəştlərə getməyə cəsarət etdi. O, baş naziri vəzifədən uzaqlaşdırdı. İyun ayında Nepal Milli Konqress Partiyasının lideri Bhattaranı həbsdən azad etdi və yeni hökumət qurmağı ona tapşırdı. Bhattaran başçılıq etdiyi partiyanın və Birləşmiş Sol Cəbhə üzvlərinin iştirakı ilə yeni hökuməti formalaşdırdı. 1990-cı

ilin noyabrında ölkənin yeni konstitusiyası təsdiq edildi. Konstitusiyaya görə Nepalda yenidən çoxpartiyalı parlamentar rejimi yaradıldı. Bundan sonra 1990-cı il iyulun 1-dən etibarən Nepal-Hindistan ticarət əlaqələri bərpa olundu. 1991-ci ilin mayında parlamentə seçkilər keçirildi. 1959-cu ildən sonra ilk dəfə idi ki bu azad seçkilərdə parlamentdəki 205 deputat yerinin 110-nu Nepal Milli Konqress partiyası qazandı. Partiyanın baş katibi Qirca Praşad Koirala hökumət təşkil etdi. Davam edən sosial-iqtisadi çətinliklərə, sol qüvvələrin, başlıca olaraq kommunistlərin başçılığı altında aramsız tətil və nümayişlər dalğasının daha da güclənməsinə baxmayaraq 1992-ci ilin mayında yerli orqanlara seçkilərdə də Nepal Milli Konqres Partiyası qalib gəldi.

Müşahidəçilərin fikrinə görə Nepal 90-cı illərin əvvəllərindən Asiyanın ən demokratik dövlətlərindən biri olmaq yolunu tutmuşdur və bu kursu bugün də davam etdirir. Ancaq bu da həqiqətdir ki, son on il ərzində Nepal həm də siyasi istiqrarsızlıq dövrünü yaşayır və bu bəladan hələ xilas ola bilməyibdir. Ölkədə tez-tez hökumət dəyişiklikləri olur, partiyalararası rəqabət son dərəcədə kəskindir, partiyaların öz daxilində daimi parçalanmalar baş verir və s. Həm də bütün bunlar getdikcə Nepal siyasi reallığının xarakter xüsusiyyətinə çevrilməkdədir. Təkcə 1997-ci və 1998-ci illərin hər birində hökumət iki dəfə dəyişmişdir. Son vaxtlarda partiyaların heç biri parlamentdə lazımı üstünlük qazana bilmir, partiyalararası koalisiyalar isə davamlı olmur. Qeyd etmək lazımdır ki, Nepaldakı partiyaların sayı kifayət qədər çox olsa da, əsas iki partiya siyasi həyata ton verir. Bunlardan birisi Nepal Milli Konqress Partiyası, o biri Nepal Kommunist Partiyasıdır\NKP\. Ümumiyyətlə Nepalda kommunist təşkilatları yetərincədir və bəlkə də ölkə bu baxımdan dünyada çox öndə gedir. Burada mötədil cərəyanlardan başlayaraq aşarı solçulara qədər onlarla kommunist təşkilatları vardır. Ən böyük kommunist partiyası son vaxtlara kimi Birləşmiş Marksist-Leninçi partiya (BMLP) adlanırdı. İndi Nepal Kommunist Partiyası (NKP) və Marksist-Leninçi (MLP) partiyalara parçalanmışdır. Bir neçə il bundan əvvəl NKP (BMLP) hətta parlament seçkilərində qalib gəlmiş və hökumətə başçılıq da etmişdir. Lakin onun hakimiyyəti bir neçə ay çəkdi. Nepal Milli Konqres partiyası yenidən hakimiyyəti öz üzərinə götürsə də, onlar da hakimiyyəti təklikdə saxlaya bilmədilər və 1997-ci ilin oktyabrında Milli-Demokratik Partiya (MDP) ilə koalisiya yaratdılar.

MDP mütləqiyyət tərəfdarıdır.

Qeyd etmək lazımdır ki, bu koalisiyanın da ömrü uzun olmadı və o, 1998-ci ilin aprelinə qədər güclü ola bildi. Artıq avqust ayında hökumətin başçısı, Nepal Milli Konqres Partiyasının lideri Q.P. Koirala Marksist-Leninçi partiyadan olan 13 kommunisti də hökumətin tərkibinə gətirdi. Təbiidir ki, bu koalisiya da taktiki məqsədlərdən yaranıbdır və onun uzun ömürlü olmasına da heç bir təminat yoxdur. Ən azı ona görə ki, öz nüfuzu baxımından konqresçilərlə kommunistlər yanaşı gedirlər və həm də partiyalardaxili fraksiyaların yaranması və qopması onların hər ikisi üçün xarakter haldır. Doğrudur, bir sıra liderlər ölkədə siyasi istiqrarın davamlı olması yolunda cəhdlər göstərirlər, çoxpartiyalı parlament demokratiyasına kölgə salan mənfi halların aradan qaldırılmasına çalışırlar. Bu baxımdan deputatların bir fraksiyadan başqasına keçməsinin qadağan edilməsi haqqında qanunun qəbul edilməsi, parlament fraksiyaları yaradılması şərtlərinin çətinləşdirilməsi və s. kimi tədbirləri göstərmək olar. Lakin edilən cəhdlər heç də hər zaman uğurlu olmur. Bunun isə səbəbləri çoxdur. Hər şeydən əvvəl, Nepal iqtisadi cəhətdən ən zəif inkişaf etmiş ölkələrdəndir. Adam başına düşən illik gəlir cəmisi 190 dollardır. O biri tərəfdən Nepalda olduqca qarışıq və mürəkkəb bir ictimai həyat mövcuddur. 22 mln nəfər əhalisi olan ölkədə 30-dan çox xalq yaşayır. Onların hər birinin öz dili, öz mədəniyyəti vardır. Nepal dünyada yeganə hindus krallığı olsa da, burada buddistlər, müsəlmanlar, xristianlar və hətta bütpərəstlər də yaşayır. Kasta sistemi ilə əhali bir-birindən təcrid edilmiş sosial qruplara bölünmüşdür. Hətta dağda yaşayan əhali ilə vadidə yaşayanlar arasında ciddi fərqlər mövcuddur.

Davamlı siyasi istiqrarın yoxluğu, müxtəlif yönümlü maraqların mövcudluğu zəmnində kralın birləşdirici bir fiqur kimi rolu böyükdür və həm də artır. Təbiidir ki, bu məsələdə tarixi ənənə də az rol oynamır. Bu da həqiqətdir ki, kral Birendranın şəxsi keyfiyyətləri cəmiyyətdə onu son söz sahibi etmişdir. Elə buna körə təkcə siyasi qüvvələr yox, həm də sadə vətəndaşlar da kral Birendra Bir Bikram Şax Devi Nepal dövlətinin bütövlüyünün qarantı kimi dəstəkləyirlər. Bu zaman onu da unutmaq olmaz ki, kral həm də dini baxımdan allah Vişnanın mücəssəməsidir.

Lakin bununla yanaşı krala qarşı qatı və barışmaz qüvvələrin də olduğunu qeyd etmək lazımdır. Bu qüvvələr əsasən yerli maoçu

kommunistlərdən ibarətdir. Maoçu kommunistlər 1996-cı ildən mövcud siyasi sistemə qarşı «xalq müharibəsi» elan etmişlər. Maoçuların silahlı qüvvələri ölkənin ucqar əyalətlərində daha destruktiv qüvvələrə çevrilmişdir. Onların iri şəhərlərdə də mövqeləri zəif deyildir. 1998-ci ilin iyulunda məhz həmin qüvvələr paytaxt Katmanduda ümumşəhər tətilini təşkil etdilər. İstər ucqar əyalətlərdə yaşayan yoxsul kəndlilər, istərsə də şəhər yoxsulları arasında maoçuların sosial bərabərlik ideyaları rəğbətlə qarşılanır və bu baxımdan maoçular onların tam dəstəyinə nail olmuşlar. Bir paradoksal cəhətə də diqqət vermək istərdik: Nepal Kommunist və Marksist-Leninçi partiyaları Hindistanı regionda hegemonluq iddialarında ittiham edir və ona inamsızlıq göstərirlərsə, maoçu kommunistlər məhz Hindistandakı müvafiq təşkilatlarla işbirliyi qurmuş və onlardan hər cür yardım və dəstək alırlar. Bu da ondan irəli gəlmişdir ki, əvvəllər onları dəstəkləyən Çin indi xarici maoçulara o qədər də maraq göstərmir. Odur ki, Nepal maoçuları, o cümlədən digər aşırı sol qüvvələr Hindistanda dəstək axtarmaq zorunda qalmışlar.

İrəlidə dediyimiz kimi, ümumiyyətlə Nepal iki dövlətlə - Çin və Hindistanla həmsərhəddir və Nepalın bir dövlət olaraq varlığı onlarla münasibətlərindən asılıdır. Nepalın ətraf dünyaya çıxışı yalnız bu iki ölkənin üzərindən keçməklə mümkündür. Ən azı bu səbəbdən Nepal qonşuları ilə, əvvəl də qeyd etdiyimiz kimi, balanslaşdırılmış münasibətlər qurmaq zorundadır. O, iki qonşudan heç birinin tərəfini üstün tutmamağa yönəli siyasət aparmağa çalışır və bilir ki, kiçik bir əyinti ciddi cəzalanma ilə sonuclanır. Bu baxımdan Hindistan daha əlverişli mövqedədir. Çünki Nepal xarici aləmlə əlaqələrini təkcə quru yollarla deyil, həm də dəniz vasitəsilə Hindistan üzərindən qurur və istənilən zaman onun tərəfindən blokadaya salına bilər. İrəlidə belə bir təcrübənin olduğu haqqında danışmışdıq.

Nepalın xarici ticarətinin də ən böyük hissəsi Hindistanın payına düşür.

Nepalın Çinlə münasibətlərində isə Tibet amili mühüm rol oynayır. O, ÇXR-in muxtar vilayəti olan Tibetlə birbaşa həmsərhəddir. Nepal ərazisində çox sayda Tibetdən olan qaçqınlar yaşayır və onların da böyük əksəriyyəti Hindistanda yerləşən və fəaliyyət göstərən Dalay-Lama hökuməti tərəfdarlarıdır.

Nepal öz dövlət süverenliyini qoruyub möhkəmləndirmək üçün dünyanın digər güclü dövlətləri ilə də dostluq münasibətləri

qurmaqda israrlıdır. Yaponiya, Böyük Britaniya və Almaniya kimi dövlətlər Nepala hər cür yardımlar edir və dəstək verirlər. Nepalın büdcə xərclərinin xeyli hissəsi məhz bu dövlətlərin verdiyi yardımlar və borclar hesabına ödənilir. Yeri gəlmişkən onu da qeyd etmək istərdik ki, Nepalın xarici valyuta əldə etmək mənbələrindən biri də turizmdir. Hər il Nepala yarım milyon nəfərə qədər turist gəlir. Digər valyuta mənbələri xaricə yun xalı ixracından əldə edilən gəlirlərdir və bir də Böyük Britaniya ordularında, eləcə də BMT-nin sülh məramlı hərbi qüvvələri sırasında xidmət edən hərbçilərin-qurkhların ölkəyə göndərdiyi pul baratlarıdır.

Maraqlıdır ki, Nepalın yeganə bir ölkə ilə- yaxın qonşusu Butan krallığı ilə münasibətlərində gərginlik vardır. (Nepal hindus, Butan budda ölkəsidir-müəl.). Gərginliyin də əsasında o dayanır ki, Nepal ərazisində 100 min nəfər civarında Butan qaçqını vardır. Nepal bu qaçqınları siyasi didərgin sayır və onların vətənə qaytarılmasını təkid edir. Butan isə onların çoxunun Nepal immiqrantı olduğu qənaətindədir və vaxtilə gizli yollarla gəlib Butanda məskunlaşdığını iddia edir. Buna görə də həmin qaçqınların Butana qaytarılmasını müxtəlif yollarla gecikdirir.

Nepalın geniş əlaqələr saxladığı ölkələr içərisində bir zaman Sovet İttifaqı da var idi. Sovet İttifaqı burada bir sıra sənaye obyektlərinin inşasında iştirak etmişdir. Bunlardan şəkər zavodu, kənd təsərrüfatı alətləri istehsal edən zavod, hidroelektrostansiya, uşaq xəstəxanası və s.ni göstərmək olar. Çox saylı Nepal gənci sovet ali məktəblərində təhsil almışdır. Lakin Sovet İttifaqının dağılmasından sonra bu əlaqələr yox səviyyəsinə enmişdir. Lakin axır vaxtlarda Nepalın Rusiya Federasiyası ilə əlaqələrində müəyyən canlanma özünü göstərir. Təhsil, turizm sahələrində əməkdaşlıq bərpa olunmaqdadır. Ticarət-iqtisadi əlaqələri qarşılıqlı xarakter almaqdadır. Bu baxımdan Nepal iş adamlarının rus bazarına gəlməsini yeni hal kimi qeyd etmək istərdik.

Ümumiyyətlə Nepal dövlətinin xarici siyasət kursundan danışarkən bir xüsusi hala da diqqət vermək lazımdır. Belə ki, bütün partiyalar öz yönümündən asılı olmayaraq xarici siyasət məsələsində eyni və ya oxşar mövqedən çıxış edirlər. Onlar beynəlxalq və regional məsələlərdə Nepalın müstəqil olmasını istəyir, dünya problemlərinin həllində ölkənin konstruktiv iştirakına çalışır.

Dövlətin idarə edilməsində, iqtisadi və siyasi kursun müəy-

yənləşməsində kral Birendranın xidmətləri böyükdür. O, bütün siyasi qüvvələrin fövqündə dayanır, onları bir araya gətirən və siyasi istiqrarı təmin edən qüvvə kimi çıxış edir. Məhz buna görə də nepallılar ölkəni kralsız təsəvvür etmirlər və belə bir aforizm Nepalda çox geniş yayılmışdır: Himalayı Everestsiz, Nepalı kralsız düşünmək olmaz!.

# ƏFQANISTAN

## *Müharibədən sonrakı dövrdə siyasi və sosial problemlər*

Müharibədən sonrakı dövrdə Əfqanıstanın tarixi bir sıra siyasi və sosial xarakterli ciddi problemlərlə səciyyəvidir. Bunlardan ən başlıcası o idi ki, dövlətin modernləşdirilməsi və iqtisadi geriliyin ləğv edilməsi problemini həll etmək bir ictimai rəy kimi formalaşmaqda davam edirdi. Buna müqabil olaraq cəmiyyətin çox böyük hissəsi də öz inadlı müqavimətini artırmağa cəhd göstərirdi. Onlar daha aşkar dərk edirdilər ki, ölkədəki hər hansı bir yeniləşmə uzun dövrlərdən bəri müxtəlif etnik icmalar, sosial qruplar və tayfa birlikləri arasında təşəkkül tapmış münasibətlər sisteminə böyük zərbə vura bilər. Mövcud münasibətlər isə həmin qüvvələri tamamilə təmin edirdi. Belə ki, formal olaraq monarxiya rejimi var idi, formal olaraq bu rejimin qeyri-məhdud səlahiyyətləri olan təsisatları var idi və s., əslində isə bu rejimin hakimiyyətinin təsir dairəsi paytaxt Kabil və bir neçə şəhərdən o yana çıxmırdı.

Xarakter olan cəhətlərdən birisi də Əfqanıstanda əhalinin çox böyük hissəsinin qəbilə-tayfa münasibətlərinə bağlılığı və bu münasibətlərdən uzaqlaşmağın onlar üçün ciddi bir problem olaraq qalması idi. Ölkə ərazisinin çox böyük hissəsi qəbilə əyanları və başçıları tərəfindən idarə olunurdu və burada real hakimiyyət məhz onlara məxsus idi. Mərkəzi hakimiyyətin bu ərazilərə təsiri ən yaxşı halda nominal məzmun daşıyırdı, əksər hallarda isə ümumiyyətlə onun mövcudluğunun elə bir ciddi mənası yox idi. Qeyd etmək lazımdır ki, bu cür mürəkkəb arxaik sosial-siyasi sistemin saxlanılmasına daim yardımçı olan amillərdən biri əhalinin etnik tərkibinin qarışıq olmasıdır. Altmışıncı illərin sonları üçün olan məlumatlara görə 16 milyonluq ölkə əhalisinin yarısı, yəni 8 milyonu əfqan-puştu idi. Qalan yarısının çoxu türk (özbək, türkmən və s.), 3 mln-a yaxını tacik və digər azlıqların nümayəndələrindən ibarət idi. Puştuların özləri iki böyük qola bölünürlər. Bunlardan birisi fars dilinin təsirinə məruz qalmış dari ləhcəsində danışanlar, o birisi də «təmiz» puştu dilində danışanlardır. Bu zəmində puştuların arasında müəyyən ayrı-seçkilik vardır və o, lazım olanda güclü faktora çevrilə bilir.

Həmin dövrdə Əfqanıstan arxaik yarım-feodal qaydalarının üstünlük təşkil etdiyi aqrar bir ölkə olaraq qalırdı. Əhalinin böyük əksəriyyəti əkinçiliklə məşğul olsa da, müəyyən qəbilə-tayfa birlik-

ləri, yalnız köçəri heyvandarlıqla məşğul olmaqda davam edirdilər. Onların arasında isə daha çox patriarxal qəbilə-tayfa münasibətləri var idi və həm də o münasibətlər kifayət qədər möhkəm olaraq qalırdı.

Bütün bunlarla yanaşı yeniləşmə əleyhdarları içərisində din xadimlərinin də yerini xüsusi qeyd etmək lazımdır. Bu zaman onu da unutmaq olmaz ki, istər həmin, istərsə də sonrakı dövrlərdə din xadimləri Əfqanıstan həyatının, demək olar ki, bütün tərəflərinə güclü təsirə malik olmuşlar.

Lakin qüvvələr nisbətinin necəliyindən asılı olmayaraq Əfqanıstanın müharibədən sonrakı siyasi həyatında yeni sosial qüvvələrin, başqa sözlə desək, yaranmaqda olan kapitalist münasibətlərinin daşıyıcılarının təsiri getdikcə özünü daha çox göstərməkdə idi. Mövcud sosial və siyasi çətinliklərdən narazı olan qüvvələrin önündə isə əfqan ziyalıları və tələbələr gedirdi. Məhz onlar saray əyanlarının zorakalığına, hökumət məmurlarının rüşvətxorluğu və korrupsiyaya qurşanmağına qarşı çıxır, ölkədə demokratik azadlıqların yoxluğuna etiraz edirdilər. Yaranan gərginlik 1946-ci ildə kabinet dəyişikliyinə gətirdi. Yeni hökumətə kralın əmisi şah Mahmud başçı təyin edildi. Həm də bu o zaman idi ki, artıq müharibədən sonra dünyanın iki güc mərkəzi - ABŞ və Sovet İttifaqı arasında nüfuz dairəsinə bölüşdürülməsi uğrunda mübarizə başlanmış və getdikcə qüvvətlənirdi. ABŞ burada nüfuz sahibinə çevrilməyi özünün strateji planlarına uyğun sayırdı. Odur ki, elə ilk vaxtlardan Əfqanıstanla müxtəlif qayəli və səviyyəli əlaqələr yaradırdı. 1946-cı ildə ABŞ-ın «Morrison-Nadsen» şirkəti vasitəsilə bir saziş imzalandı. Sazişə görə şirkət Əfqanıstanın cənubunda geniş irriqasiya şəbəkəsi və yollar inşa etməli idi. Lakin bu layihə nəinki nəzərdə tutulduğu vaxtda (1949-cu ildə) yerinə yetirilmədi, həm də əlavə maliyyələşdirməyə ehtiyac yarandı. Əfqanıstan ABŞ-dan borc istəmək zərurəti qarşısında qaldı. ABŞ 1949-cu və 1954-cü illərdə 40 mln dollara yaxın borc verdi. Sonrakı dövrlərdə Əfqanıstanın qarşılaşdığı iqtisadi çətinliklər onu daha çox borclar almaq zərurəti qarşısında qoyurdu. Nəhayət, 1951-ci və 1953-cü illərdə ABŞ və Əfqanıstan arasında « texniki əməkdaşlıq» haqqında sazişlər imzalandı. O biri tərəfdən iqtisadi çətinliklər sosial və siyasi ziddiyyətləri daha da qüvvətləndirirdi və yaranmış vəziyyətdən çıxmaq haqqında düşünülməyə başlanılmışdı. 1947-ci ildə demokratik əhval-ruhiyyəli ziyalılar və tələbələr «Oyanan

gənclik» adlı bir ictimai-siyasi hərəkat yaratdılar. Hərəkat ölkədə maarifin inkişaf etdirilməsinə, korrupsiyaya qarşı mübarizə aparılmasına çağırır və bir sıra demokratik islahatlar keçirilməsi ideyasını irəli sürürdü. Söz azadlığının təmin edilməsi, toplanmaq, təşkilatlanmaq, azad seçkilər keçirmək hüquqlarının bərqərar olması, siyasi partiyalara leqal fəaliyyət göstərmək imkanı yaradılması, qadınlara bərabər hüquqlar verilməsi və s. bu qəbildən olan tələblər idi. Bu hərəkatın bazasında 1950-ci ilin aprelində Kabil universiteti tələbələrinin ittifaqı yaradıldı (universitet 1946-ci ildə təsis edilmişdi). İttifaq az vaxt ərzində ölkədə siyasi hərəkatın mərkəzinə çevrildi. Heç il yarım keçməmişdi ki, hakimiyyət orqanları bu təşkilatı qadağan etməyə çalışdılar. Təşkilatın bir sıra liderləri həbsə atıldı. Təqib və həbslərə baxmayaraq müxalifət hərəkatı səngimədi. Müxtəlif siyasi qruplaşmalar yaranır və çeşidli fəaliyyət formaları meydana gəlirdi. Bunlardan ən güclü fəaliyyət forması kimi 1951-ci ildə siyasi qruplaşmaların müxtəlif müstəqil qəzetlər ətrafında cəmləşməsini qeyd etmək lazımdır. Lakin bu da uzun sürmədi. Hakimiyyət bir sıra qəzetləri qapatdı. Siyasi mübarizə 1952-ci ildə daha da kəskinləşdi. Bu da həmin il Xalq Məclisinə seçkilərə hazırlıqla bağlı idi. Müxalifət seçkilərin keçirilməsi qaydası ilə razılaşmırdı və ona etiraz edirdi. Bu məqsədlə may ayında Kabildə nümayiş keçirildi. Hökumət yenidən təqibləri və təzyiqləri artırdı. Müxalifət fəallarından bir çoxu həbsə alındı, bir hissəsi ölkədən çıxarıldı və beləliklə də siyasi həyatdan təcrid edildilər. Lakin bununla yanaşı onların göstərmiş olduğu fəaliyyət hədər getmədi, hakimiyyət orqanları müxalifətin tələblərinə tam etinasız qala bilmədi. Ölkədə islahatlar keçirilməsinin zəruriliyi dərk edildi və bu işi həyata keçirmək üçün yeni kabinet təşkil edildi. Kabinetə başçılıq isə kralın əmisi oğlu Məhəmməd Davuda (1908-1978) həvalə edildi. Yeni kabinetin əsas vəzifəsi o idi ki, iqtisadiyyatın müasir bölməsinin inkişafını təmin etmək və ictimai münasibətlərdəki ən arxaik formaların fəaliyyət dairəsini daraltmaq lazımdır. Məhəmməd Davud hökuməti on il ömür sürdü. «İdarə olunan iqtisadiyyat» onun əsas siyasəti idi. Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçirildi: sənayedə və tikintidə dövlət bölməsi möhkəmləndirildi; iri və orta milli işgüzarlığa əlverişli şərait yaradılmasına çalışıldı və nəhayət, qonşu ölkələrlə, o cümlədən Sovet İttifaqı ilə iqtisadi və elmi-texniki əməkdaşlıq genişləndirildi. Xarici ticarət üzərində nəzarətin

güclәndirilmәsi, yeni banklar vә hәmçinin kredit «kooperativlәri» tәsis etmәklә kredit sisteminin genişlәndirilmәsi, dövlәtin iştirakı ilә sәnaye tikinti proqramlarının daha әhatәli tәtbiq edilmәsi vә s. dә bu qәbildәn olan fәaliyyәt sahәlәri idi. Hәmin illәr әrzindә iqtisadiyyat, maarif vә sәhiyyәnin inkişafını nәzәrdә tutan beşillik planlar işlәnib hazırlandı vә hәyata keçirildi. Birinci beşillik (1956-1961-ci illәr) dövründә әsas diqqәt energetika, sәnaye, nәqliyyat, kәnd tәsәrrüfatı, irriqasiya vә hәmçinin maarif vә sәhiyyә xidmәti şәbәkәsini genişlәndirmәyә vә inkişaf etdirmәyә yönәlmişdi. 1959-cu ildә qadınların çadrada gәzmәsinin mәcburi olması lәğv edildi. İkinci beşillik isә 1962-1967-ci illәri әhatә edirdi. Bu dövrdә bir sıra sәnaye müәssisәlәri inşa edildi, banklar vә kredit kooperativlәri tәsis olundu, muzdlu әmәkdәn istifadә dairәsi xeyli genişlәndi, şәhәr әhalisinin sayı kifayәt qәdәr artmış oldu. Şәhәrlәrdә yeni tipli orta tәbәqәlәrin sayca artımı xüsusi bir temp aldı. Dövlәt tәsisatlarında vә özәl tәşkilatlarda çalışan mәmurlar, hәkimlәr, müәllimlәr, mühәndis-texniki işçilәr, hüquqçular şәhәr әhalisinin daha fәal tәbәqәsinә çevrildi.

Ölkә iqtisadiyyatında kapitalist münasibәtlәrinin inkişafı, tәbiidir ki, dövlәt-hüquq tәsisatlarının da modernlәşdirilmәsini zәruri edirdi. Qeyd etmәk lazımdır ki, Mәhәmmәd Davud hökumәtinin bu sahәdәki tәşәbbüs vә cәhdlәri dövlәt apparatında möhkәm mәskәn salmış mühafizәkar qüvvәlәrin güclü müqavimәti ilә qarşılaşırdı. Bu mühafizәkarların da arxasında, bir qayda olaraq, iri torpaq sahiblәri, qәbilә-tayfa әyanları, ticarәt-sәlәmçi kapitalın nümayәndәlәri, müsәlman din xadimlәrinin bir hissәsi, başqa sözlә, әnәnәvi tәsәrrüfat ukladları vә tәsisatlarla bağlı olan vә ondan ayrılmaq istәmәyәn qüvvәlәr dayanırdı.

Hәmin dövrdә daxili çәtinliklәrә ciddi xarici siyasi problemlәr dә әlavә olunmuşdu. Bu baxımdan Әfqanıstan vә Pakistan arasındakı mübahisәli puştu әrazilәri ilә bağlı yaranmış ziddiyyәtlәri xüsusi ilә qeyd etmәk lazımdır. Bәlli olduğu kimi, hәlә XIX әsrdә Әfqanıstana yiyәlәnmәk uğrunda mübarizә dövründә Böyük Britaniya puştuların yaşadığı bir sıra torpaqları Britaniya Hindistanının tәrkibinә qatmışdı. 1947-ci ildә Pakistan dövlәti yarananda hәmin torpaqlar onun әrazisi olaraq qaldı. Әfqanıstanda nüfuz uğrunda böyük dövlәtlәr arasında mübarizә yenidәn başlandıqda vә getdikcә qüvvәtlәndikdә hәmin qüvvәlәr bu mübahisәli әrazi amilinә ön yer

verdilər. Pakistan ərazisində yaşayan puştulara öz hüququnu təyin haqqının verilməsi gündəmə gətirildi.1955-ci ildə münasibətlər xeyli kəskinləşdi. Pakistan bu tələbə sərhədlərini bağlamaq və tranzit qaydası ilə öz ərazisindən keçən əfqan mallarının yolunu kəsməklə cavab verdi. Bununla da Əfqanıstan faktik olaraq iqtisadi blokadaya alındı. Yaranmış vəziyyətdən Sovet İttifaqı bacarıqla istifadə etdi və həmin ildə iki dövlət arasında tranzit ticarəti haqqında saziş imzalandı. Bununla da Sovet İttifaqı ilə münasibətlərdə keyfiyyətcə yeni dövr başlanmış oldu. Qarşı tərəf də adekvat addım atdı : 1956-cı ilin martında elan olundu ki, Pakistanda puştuların yaşadığı ərazilər SEATO blokunun fəaliyyət zonasına daxil edilir.1956-1958-ci illərdə bu problemlə əlaqədar Əfqanistan-Pakistan danışıqları nəticəsiz qaldı. Əfqanıstan bundan sonra üzünü şimal qonşusuna daha çox çevirdi. Bununla da müharibədən sonra ilk dəfə idi ki, Əfqanıstanın ABŞ-la əməkdaşlığa meylli olan xarici siyasətində ciddi bir dəyişiklik baş verirdi, Sovet İttifaqı ilə əlaqələrdə bir canlanma müşahidə olunurdu. Qeyd etmək lazımdır ki, iki qonşu arasında bundan öncə də ciddi sazişlər bağlanmış, müəyyən siyasi məsələlər haqqında razılaşmalar əldə edilmişdi. Belə ki, 1946-cı ildə bağlanan sazişə görə iki dövlət arasında sərhəd məsələsində dəqiqləşdirilmələr aparılmışdı: sərhədlərin Amu-Dərya və Pəncə çaylarının ortalarından keçdiyi razılaşdırılmışdı (əvvəllər sərhəd xətti bu çayların cənub sahili boyunca keçirdi). İki dövlət arasında iqtisadi əlaqələrin bərpasına yönəli tədbirlər görüldü.1950-ci ildə əfqan-sovet ticarət müqaviləsi bağlandı. 1955-ci ildən isə əfqan-sovet münasibətləri daha geniş sahələri əhatə etməyə başladı. 1955-ci ildə tərəflər 1931-ci il müqaviləsinin daha on il müddətinə uzaldılmasına razılaşdılar. Sovetlər maliyyə və texniki yardım etməyə başladılar. Sosialist ölkələri ilə, ilk növbədə Çexoslovakiya, Polşa və s. kimi ölkələrlə iqtisadi əlaqələr yaradıldı. 1956-1961-ci illəri əhatə edən birinci beşillikdə inşası nəzərdə tutulan bir sıra obyektlərin maliyyələşdirilməsində həmin ölkələr yaxından iştirak etdilər. 1962-1967-ci illəri əhatə edən II beşillik dövründə bu əməkdaşlığa üstünlük verildi. Əfqanıstan üçün kadr hazırlığı əsasən Sovet İttifaqı və digər sosialist ölkələri vasitəsilə həyata keçirilirdi.

Vəziyyətin belə istiqamət alması Qərb ölkələrini, təbiidir ki, birinci növbədə ABŞ-ı da düşündürür : kapital ixracı artırılır, verilən borcların faizləri aşağa salınır və s. Lakin bunlar daha əvvəlki effekti vermir. Doğrudur, 1961-ci ildə Əfqanıstan hökuməti mübahisəli puştu

məsələsinə yenidən qayıtdıqda Əfqanıstan-Pakistan münasibətləri bir daha kəskinləşdi. Pakistan yenidən öz ərazisindən keçən tranzit ticarətinə qapını bağlatdı. Bu dəfə yaranmış vəziyyətdən Qərb dövlətləri faydalanmağa çalışdılar ki, regionda öz əvvəlki mövqelərini bərpa etsinlər. Əfqanistanda mövcud hökumətin yürütdüyü siyasət tənqidə məruz qalır, müxtəlif fikir sahibləri arasında mübahisələr son həddə çatır və nəhayət, 1963-cü ilin martında Məhəmməd Davud hökuməti istefaya göndərilir. Başda əvvəlki hökumətdə dağ-mədən işləri və sənaye naziri işləmiş Məhəmməd Yusif olmaqla yeni kabinet təşkil edildi. Bu kabinet əvvəlkinə nisbətən daha radikal dəyişikliklər tərəfdarı olduğunu, sosial-iqtisadi inkişafı sürətləndirəcəyini və ölkənin ictimai-siyasi həyatının fəallaşmasına imkan yaradacığını elan etdi.

M. Yusif hökuməti fəaliyyətinə Əfqanıstan-Pakistan ziddiyyətlərini zəiflətməyə cəhdlər göstərməklə başladı. 1963-cü ilin mayında Tehranda İran şahının vasitəçiliyi ilə iki dövlət rəsmilərinin görüşü baş tutdu. Tərəflər diplomatik münasibətlərin və ticarət-iqtisadi əlaqələrin bərpası haqqında saziş imzaladılar. Təbiidir ki, bu işdə Qərb dövlətləri xüsusi səy göstərmişlər və əsas məqsəd də regionda möhkəmlənmək idi. Lakin Əfqanıstan hökuməti əvvəlki kimi bitərəflik kursunu davam etdirəcəyini söylədi və hətta 1964-cü ildə Qahirədə bloklara qoşulmayan ölkələrin konfransında iştirak etdi. Sovet İttifaqı ilə əvvəlki münasibətləri saxladı və 1931-ci il bitərəflik və bir-birinə hücum etməmək haqqında müqavilənin müddətini daha on il uzatdı.

Hökumət daxili həyatda da bir sıra mühüm tədbirlər həyata keçirdi. Bunlardan əhalinin mülki hüquqlarının genişləndirilməsi məqsədi ilə konstitusiyaya yenidən baxılması qərarını xüsusilə qeyd etmək lazımdır. Həmin qərarın əsas ideyası mövcud dövlət quruluşunda yuxarıdan nəzarəti saxlamaqla onun tədricən daha çox demokratik təməllər əsasında yenidən qurulması idi. Nəhayət, 1964-cü ildə yeni konstitusiya qəbul olundu. Konstitusiya bir daha elan etdi ki, Əfqanıstanın dövlət quruluşu konstitusiyalı monarxiyadır və kral istər icra və qanunverici hakimiyyət sahələrində, istərsə də məhkəmə sistemində ali səlahiyyət sahibidir. Bununla yanaşı dövlət siyasətinə parlamentin təsir göstərməsi imkanları genişləndirildi. Parlamentin aşağı palatasına -Xalq cirgəsinə hüquq verilirdi ki, hökumətə etimad haqqında fikir söyləyə bilsin. Siyasi partiyaların yaradılması və açıq fəaliyyət göstərməsi qanunla təsbit olundu. Parlamentə və yerli

təsisatlara seçkilərin gizli səsvermə ilə aparılması qaydası yaradıldı. Yeni qanun ölkənin tarixində ilk dəfə olaraq seçkilərdə qadınların da iştirakını nəzərdə tuturdu. Bütün bunların nəticəsində ölkənin daxili siyasi həyatında bir canlanma baş verdi. 1965-ci il parlament seçkilərində bir çox partiyalar iştirak etdi, Xalq cirgəsindəki 216 deputat yerini tutmaq üçün 1350 namizəd mübarizə apardı.

Daxili siyasi həyatdakı fəallaşma hakimiyyət qarşısında bir sıra yeni problemlər doğurdu. Müxtəlif siyasi və ictimai təşkilatlar ölkə həyatının hər sahəsində təsir etmək gücünə yiyələnməyə çalışır , nümayiş, mitinq, yürüş və s. kimi müxtəlif formalı tədbirlər keçirirdilər. Əfqanıstanın gələcək inkişaf problemləri, hətta rejimin necəliyi ayrı-ayrı siyasi qruplaşmalar tərəfindən geniş və ciddi şəkildə müzakirə olunurdu. Bir qruplaşma belə hesab edirdi ki, əfqan cəmiyyətinin inkişafı və dəyişilməsi mötədil təkamül rolu ilə getməlidir. Başqa bir qruplaşma Orta Asiyanın sovet respublikalarının nümunəsini daha məqbul sayırdı. Üçüncü bir qruplaşma islam təməlçiliyi prinsiplərinə üstünlük verirdi. Lakin onların hamısı mövcud rejimi ciddi tənqid edir və onun dəyişdirilməsini istəyirdilər. Qısa bir zaman kəsiyində bu siyasi qüvvələr kifayət qədər təsir imkanlarına yiyələnə bildilər. Hətta onların narazılığının nəticəsi kimi Məhəmməd Yusif hökuməti istefaya çıxmaq məcburiyyətində qaldı. 1965-ci ilin oktyabrında yeni hökumət təşkil edildi və Məhəmməd Həşim Mayvandval baş nazir oldu. O, öz siyasətində daha çox orta və aşağı təbəqələrə meyilli olmağa çalışır, sosial bazasını onların hesabına genişləndirmək və möhkəmləndirmək istəyirdi. Bu baxımdan yeni kabinet orta və aşağı təbəqələrin iqtisadi və hüquqi durumunu yaxşılaşdırmaq istiqamətində islahatlar keçirilməsini öz rəsmi kursu elan etdi.

1965-ci ildə təşkil olunmuş parlament isə ölkə tarixində ilk dəfə idi ki, seçkili orqanlarla hökumət arasında münasibətləri və sosial-iqtisadi islahatların keçirilməsini öz fəaliyyət dövründə müzakirələr obyektinə çevirə bilmişdi.

1965-ci il Əfqanıstan tarixində bir də ona görə yadda qalandır ki, həmin ildə yanvarın 1-də Əfqanıstan Xalq-Demokrat Partiyası təsis edildi. Bəlli olduğu kimi ölkənin son dövr tarixində baş verən hadisələr məhz o partiyanın fəaliyyətinin nəticəsidir. Partiya öz sıralarında sol qüvvələri birləşdirirdi. Onlar da əfqan cəmiyyətinin tərəqqisini ölkədə marksizm ideyalarına söykənən rejim yaradıl-

masında görürdülər və SSRİ-dəki sosializm rejimini özləri üçün nümunə hesab edirdilər. Partiyanın baş katibi Nur Məhəmməd Təraki (1917-1979) oldu, onun müavini və katib vəzifəsinə isə Babrək Karməl gətirildi. Partiya 1965-ci il seçkilərində parlamentdə dörd yer götürə bilmişdi. Qeyd etmək lazımdır ki, yarandığı gündən etibarən partiya daxilində milli və ideoloji zəmində ciddi ixtilaflar var idi. Bir-biri ilə rəqabət aparan qüvvələr «Xalq» və «Pərçəm» («Bayraq») adlı iki müstəqil qrupda birləşmişdilər. «Xalq» qrupunda puştu dillilər üstünlük təşkil edirdi. «Pərçəm»də birləşənlər isə əsas fars dilinin əfqan variantında- dari dilində danışanlar idi. Bu qrupların müstəqil fəaliyyəti (1966-1977-ci illər ərzində) on il davam etmişdir.

Qeyd etmək lazımdır ki, həmin dövrdə mötədil təkamül ideyasının tərəfdarları də təşkilatlanmaq istiqamətində təşəbbüs göstərirdilər. Bunlar əsasən hökumət və dövlət hakimiyyəti dairələri ilə bağlı olan qüvvələr idi. Onlar 1966-1967-ci illərdə ölkə əhalisinin bütün təbəqələrinin mənafeyini güdən «universal» bir partiya yaratmaq ideyasını irəli sürmüşdülər. Lakin bəzi fikir ayrılıqları bu ideyanı reallaşdırmağa imkan vermədi. Belə ki, bunlardan bəzisi ümumiyyətlə ölkədə siyasi fəallığın artmasından narahat idi və tərəddüdlər keçirirdi. Başqaları isə mövcud rejimin dəyişdirilməsi ideyasını qəti olaraq yaxına buraxmır və qəbul etmirdilər. Hər şeyin olduğu kimi qalması tərəfdarı idilər. Bütün bu çəkişmələr 1967-ci ilin oktyabrında Mayvandvalın istefaya göndərilməsi ilə sonuclandı. Ümumiyyətlə həmin on illik (1964-1973) dövr üçün xarakter olan cəhətlərdən birisi də tez-tez kabinet dəyişiklikləridir. Həmin müddət ərzində beş dəfə yeni kabinet təşkil olunmuşdur.

Yuxarıda deyilənlərlə yanaşı islam təməlçilərinin birləşmə prosesi də kifayət qədər nəzərə çarpan hadisədir. 1969-cu ildə Kabul universitetinin ilahiyyat fakültəsində «Müsəlman gəncləri» təşkilatı yaradıldı. Sonralar Əfqanıstan tarixində tanınmış şəxslərə çevrilmiş ilahiyyət müəllimi B.Rəbbani, fakültənin tələbəsi A.Səyyaf və mühəndislik fakültəsinin tələbəsi Q.Hikmətyar bu təşkilatın fəal üzvləri idilər. Onlar Ərəb Şərqi ölkələrində və Pakistanda oxuyarkən tanış olduqları «Müsəlman qardaşlar» -«əl-İxvan əl-müslimin» təşkilatının ideyalarını öz fəaliyyət proqramı kimi qəbul etmişdilər. Beləliklə də Əfqanıstanda iki radikal qüvvə təşkilatlanmış forma aldı. Məhz onlar da mötədil təkamülçülərin passiv mövqeyindən kifayət qədər yararlandılar, qısa bir zaman kəsiyindən sonra siyasi həyatda

diqtə etməyə başladılar. Göstərmək lazımdır ki, həmin illərdə bu iki qüvvə arasında da kifayət qədər qarşıdurma var idi. Həm də bu zaman üstünlük bir qayda olaraq islamçıların tərəfində olurdu.

Ümumiyyətlə bu dövrdə Əfqanıstanda cərəyan edən siyasi proseslər nəticəsində daha artıq dərk olunurdu ki, mövcud rejim ölkənin qarşısında duran problemlərin həllində lazımı qabiliyyət göstərə bilmir. Doğrudur, ölkədə müəyyən infrastruktur yaradılmış-şosse yolları, aeroportlar, körpülər və s. inşa edilmiş, bir sıra yeni sənaye sahələri təşəkkül tapmışdı. İqtisadi həyatda, az da olsa, tərəqqi müşahidə olunurdu. Lakin bu tərəqqi ölkənin təsərrüfat həyatının təməl prinsiplərində çox az dəyişiklik yarada bilmişdi. Arxaik təsərrüfat tərzi Əfqanıstan üçün xarakter hal olaraq qalırdı. O biri tərəfdən müxtəlif səbəblər üzündən qiymətlərin artması xroniki prosesə çevrilmişdi. Əhalinin real gəliri get-gedə daha çox azalırdı. Bunların nəticəsi idi ki, istər şəhər əhalisi, istərsə də kənd əhalisi arasında narazılıq artırdı. Tədricən açıq siyasi çıxışlar baş verirdi. Kütləvi mitinqlər, nümayişlər, mübahisələr və tətillər ölkə siyasi həyatının xarakter cəhətinə çevrilirdi. Yerli hakimiyyət orqanlarının özbaşnalığı tənqid olunur, parlamentin mühafizəkar mövqeyi pislənilir və o, hökumətin iqtisadi proqramlarının realizasiyasına mane olan bir qurum kimi xarakterizə olunurdu. Hakimiyyətin yuxarı dairələrində də daxili ixtilafların artması nəzərə çarpırdı. Elə buna görə idi ki, 1964-cü ildən 1973-cü llədək olan on il müddətində beş baş nazir bir-birini əvəz etmişdi. Ölkədəki siyasi böhran tədricən daha da kəskinləşməkdə davam edirdi.

## *Mütləqiyyətin süqutu və respublika rejiminin yaranması*

Yaranmış siyasi böhrandan çıxmaq ölkədəki müxtəlif siyasi qüvvələri dərindən düşündürürdü. İlk növbədə hakim elita daha çox narahatlıq keçirirdi. 70-ci illərin sonlarında olduqca gərginləşmiş siyasi böhran 1971-ci ilin mayında baş nazir Ettemadinin istefasını qaçılmaz etdi. Siyasi stabillik yaratmağın mümkünsüzlüyü bu istefanın əsas səbəbi idi. Bunun ardınca baş nazir M. Şəfiqin kabineti də məsələlərin çözümündə heç bir şey edə bilmədi. Bütün bunlar onunla nəticələndi ki, 1973-cü il 17 iyulda dövlət çevrilişi edildi. Çevrilişin təşkilatçısı bir qrup yüksək rütbəli ordu zabiti idi və onların başında kralın yaxın qohumu və keçmiş baş nazir M.Davud dururdu. Çevriliş

nəticəsində kral Məhəmməd Zahir şah devrildi, mütləqiyyət rejimi ləğv edildi və Əfqanıstan respublika elan olundu. Hakimiyyət çevriliş iştirakçılarının təsis etdiyi kollektiv orqan-Əfqanıstan Mərkəzi Komitəsinin əlinə keçdi. Həmin orqanın qərarına əsasən M.Davud dövlət başçısı və baş nazir təyin edildi. 1964-cü il konstitusiyası qüvvədən düşmüş elan olundu, parlament buraxıldı. M.Davud yeni hökumət təşkil etdi. Qeyd etmək lazımdır ki, çevrilişdə sol radikal qüvvələr və onları təmsil edən təşkilatlar da fəallıq göstərmiş və yaxından iştirak etmişdilər. Məhz elə buna görə idi ki, onlar da istər yeni yaranmış kabinetdə, istərsə də digər hakimiyyət orqanlarında öz təmsilçilərini yerləşdirə bildilər. Bu baxımdan Xalq-Demokrat Partiyası xüsusi fəallıq göstərdilər.

Yeni hakimiyyət e'lan edirdi ki, onun bütün tədbirləri «islamın ruhuna uyğun» olacaqdır. Bu tədbirlər milli iqtisadiyyatı möhkəmlətmək, aqrar islahat aparmaq, ölkə əhalisinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi daşıyacaqdır və xalqın maraqlarına cavab verəcəkdir.

Qeyd edək ki, çevriliş zamanı xaricdə olan kral Məhəmməd Zahir şah da 1973-cü ilin avqustda özünün taxt-tacdan əl çəkdiyini elan etdi.

Lakin az keçmədi ki, yeni hakimiyyətin özü bir sıra çətinliklər qarşısında qalmalı oldu. Bunlardan birisi hökumətdə, zabitlər arasında, ayrı-ayrı nazirliklər və təşkilatların rəhbərləri arasında ölkədə aparılacaq dəyişikliklərin xarakteri və formaları haqqında ciddi mübahisəli və fərqli yanaşma tərzinin olması idi; ikincisi, radikal sol qüvvələr və radikal sağlar arasında mövqe uğrunda mübarizənin kəskinləşməsi və artması idi. Müxtəlif mövqeli və müxtəlif məqsədli bu qüvvələr öz istəklərinə nail olmaq üçün hər cür vasitəyə əl atmaqdan çəkinmirdilər. Xarici havadarlarından maddi və mənəvi dəstək alan bu qüvvələr hökumətə qarşı açıq təzyiq göstərir, sui-qəsdlər təşkil edir, terror aktları həyata keçirirdilər.

Bütün bunlara baxmayaraq M.Davud hökuməti demokratik istiqamətli bir sıra tədbirlər hazırlayıb həyata keçirə bilmişdi. 1974-cü ildə əmək haqqında qanun qəbul edildi. Qanun sosial məsələlərin həllində dövlətin iştirakının genişləndirilməsini nəzərdə tutudu. 1975-ci ildə aqrar islahat qanunu qəbul edildi. 1976-ci ildə ölkənin iqtisadi və sosial inkişafına dair yeddi illik plan qəbul olundu. Planın həyata keçirilməsi əsasən xarici sərmayələr cəlb olunması zəmnində

olmalı idi.

Əfqanıstan xarici siyasət sahəsində bitərəflik və hərbi bloklarda iştirak etməmək kursunu yürüdürdü. Qonşu dövlətlərlə, ilk növbədə Sovet İttifaqı ilə əməkdaşlığa can atırdı. 1975-ci ildə Bitərəflik və qarşılıqlı hücum etməmək haqqında müqavilənin müddəti yenidən on il uzadıldı. 1977-ci ildə iki dövlət arasında iqtisadi əməkdaşlığın inkişafına dair müqavilə imzalandı. Neft ixrac edən islam ölkələri ilə də əməkdaşlığa xüsusi fikir verildi. Bir sıra layihələrin həyata keçirilməsi məhz həmin dövlətlərin verdiyi kömək hesabına mümkün olmuşdu. Bu baxımdan şahlıq İranını xüsusilə qeyd etmək lazımdır. Onun Əfqanıstana vəd etdiyi köməyin həcmi 3 mld dollar məbləğində idi.

Bütün bunlarla yanaşı daxili müxalifətin güclənməsini də qeyd etmək lazımdır. Hətta 1975-ci ildə « Müsəlman gənclər» təşkilatı M.Davud hökumətinə qarşı qiyam da qaldırdı. Doğrudur, qiyam yatırıldı, silahlı müqavimət ocaqları darmadağın edildi, üsyanın və təşkilatın bir sıra rəhbərləri məhv edildi, bir qismi həbsə alınsa da, ancaq xeyli qüvvə xaricə qaça bildi və öz birləşmələrini yaratdılar. Yaranmış təşkilatlar əsasən islam təmayüllü idilər. Bunlardan ikisinin Q.Hikmətyarın yaratdığı Əfqanıstan İslam Partiyası və əsasən B.Rəbbani tərəfdarlarının birləşdiyi Əfqanıstan İslam Cəmiyyətini xüsusi qeyd etmək lazımdır.

1975-ci il hadisələri Pakistanla münasibətləri tənzim etmək üçün M.Davud hökuməti üçün bir bəhanə oldu. Əsasən millətçi ziyalıların birləşdiyi «Əfqan milliyət» təşkilatının üzvləri də hakimiyyətin «puştu məsələsi»ni həll edəcəyinə ümid edirdilər. Lakin bu ümidlər özünü doğrultmadı. Belə ki, 1976-ci ilin yayında Pakistanın baş naziri Z.Bhuttonun Kabilə səfəri zamanı razılığa gəlindi ki, Puştustan məsələsinə dair təbliğat kampaniyası kəsiləcəyi halda Pakistan hökuməti əfqan təməlçilərinə dəstək verməyəcəkdir.

Haqqında danışdığımız tədbirlər nəticəsində ölkənin xarici siyasi mövqeyi kifayət qədər möhkəmləndi, daxildə müəyyən sabitlik yarandı. M.Davud vəziyyətdən rejimi və özünün şəxsi hakimiyyətini qüvvətləndirmək üçün bacarıqla istifadə etdi. 1976-cı ilin payızında elan olundu ki, M.Davudun başçılığı altında Milli İnqilab Partiyası yaradılır və birpartiyalı sistemə keçirilir. 1977-ci ildə isə yeni Konstitusiya qəbul edildi. Doğrudur, burada vətəndaş hüquqları haqqında kifayət qədər maddələr olsa da,əsas diqqət prezident

hakimiyyətinin daha da möhkəmləndirilməsinə yönəldilmişdi. İstər parlamentin timsalında qanunverici hakimiyyətin, istərsə də məhkəmə hakimiyyətinin hüquqları xeyli məhdudlaşdırılırdı. Bir partiyalı sistemə keçilməsi ilə əlaqədar qalan bütün partiyaların fəaliyyəti dayandırıldı. Təbiidir ki, bir sıra qüvvələr, ilk növbədə Əfqanıstan Xalq -Demokrat partiyası başda olmaqla radikal sol təşkilatlar bu duruma ciddi etiraz etdilər və kütləvi tədbirlərə əl atdılar. 1978-ci ilin aprelində Kabildə təşkil olunan güclü nümayiş təkcə solların yox, ümumiyyətlə xalqın narazılığının son dərəcə artmasının göstəricisi idi. Belə ki, M.Davud hökuməti, müəyyən uğurları olsa da, faktik olaraq ölkəni bütövlükdə bürümüş böhranı ləğv edə bilmədi. Əfqanistan dünyanın ən yoxsul ölkələrindən biri olaraq qalırdı. BMT ekspertlərinin hesablamalarına görə həmin dövrdə əhalinin bir nəfərinə düşən illik gəlir 162 dollar idi. Bu göstərici üzrə Əfqanıstan 129 inkişaf etməkdə olan ölkə arasında 108-ci yeri tuturdu. Məhsuldar qüvvələrin səviyyəsi olduqca aşağı idi. Kənddə yarımfeodal münasibətlər hakim idi və kapitalist münasibətlərinin ən aşağı formaları hələ təzə yayılırdı. Elə bunun nəticəsi idi ki, kənd təsərrüfat məhsullarına olan ehtiyacın çox böyük hissəsi idxal hesabına ödənilirdi. İcarə münasibətləri qanunlarla yox, bir qayda olaraq yerli adət və ənənələrlə tənzim olunurdu. Bu da istehsal olunmuş məhsulun yarıya qədərini vergi kimi almağa imkan verirdi. Kəndlilərin 40%-ə yaxını az torpaqlı idi, üçdə birinin isə ümumiyyətlə torpağı yox idi. İki milyon yarım nəfərə qədər insan köçəri və yarımköçəri həyat sürürdü. Ölkənin cənubunda bəluci qəbilələri və eləcə də əfqanlar arasında hələ də feodalizmə qədərki münasibətlər hakim mövqe tuturdu.

Əhalinin siyasi yetkinliyi ümumilikdə çox aşağı səviyyədə idi. Mövcud partiyalar özləri belə kifayət qədər siyasi mübarizə təcrübəsinə malik deyildilər. Elə buna görə idi ki, onlar yenə də çıxış yolunu hərbi çevrilişdə gördülər.

### *Əfqanıstan Demokratik Respublikasının yaranması. Ölkə vətəndaş müharibəsi illərində*

Narazı qüvvələrə qarşı görülən cəza və təqib tədbirləri ölkədə yaranmış fövqəladə böhranlı vəziyyəti daha da mürək-

kəbləşdirdi. Yaranmış vəziyyətdə oxşar və ya yaxın qayəli siyasi qüvvələrin sürətli konsolidasiyası gedirdi. Artıq elə bir an gəlib çatmışdı ki, ya radikal islamçı qüvvələr, ya da radikal sol qüvvələrin hakimiyyətə yiyələnə bilməsi üçün son qərar verilməli idi. Hadisələri qabaqlayan sollar başda Xalq - Demokrat Partiyası olmaqla «Davud diktaturası»na qarşı silahlı qiyama qalxdılar. Orduda XDP tərəfdarı olan zabitlərin rəhbərlik etdiyi hərbi hissələr qiyamın əsas qüvvəsi oldu. Qiyam 1978-ci il 27 apreldə baş verdi. M.Davud devirildi və prezident iqamətgahına hücum edən hərbçilər onu öldürdülər. Hakimiyyət XDP sədri N.M.Tərakinin başçılıq etdiyi və əsasən də onun partiyasının üzvlərinin daxil olduğu İnqilab Şurasının əlinə keçdi. İnqilab Şurasının ilk dekreti ilə Əfqanıstan Demokratik Respublikasının yaradılması elan edildi.

Tarixi ədəbiyyatda « Aprel inqilabı» adı ilə tanınan bu qiyam və dövlət çevrilişi Əfqanıstana nə verdi?

Qeyd etmək lazımdır ki, çevriliş nəticəsində hakimiyyətə elə siyasətçilər gəlmişdilər ki, onlar dövləti necə idarə etmək haqqında normal təsəvvürə belə malik deyildilər, Əfqanıstanın qarşısında duran çətinliklər və problemlərin həlli yollarının mahiyyətini dərk etməkdən çox uzaqda idilər, daha çox inqilabi şüarlar söyləməyə üstünlük verirdilər və özlərinin gücü və imkanlarını real qiymətləndirmək imkanından məhrum idilər.

Doğrudur, N.M.Təraki və onun komandası bir sıra tədbirlərin görülməsini elə hakimiyyətin ilk günlərindən e'lan etmişdilər: kəndlilərin sələmçilərə və torpaq sahiblərinə olan borclarının ləğv edilməsi, iri torpaq sahibliyinin ləğvi və alınmış torpaqların əvəzsiz olaraq ehtiyacı olan kəndlilər arasında bölüşdürülməsini nəzərdə tutan aqrar islahat, həmkarlar təşkilatlarının yaradılması, milli bərabərliyin bəyan edilməsi və s. bu qəbildən idi. Onların həyata keçirilməsi Əfqanıstan Demokratik Respublikası rəhbərliyinin ümumi siyasi xəttinə uyğun olaraq aparılırdı. Faktik olaraq bu kurs da rəhbərliyin əsas hissəsini təşkil edən Xalq-Demokrat Partiyasının strateji proqram məqsədlərinin tətbiqinə - sosialist cəmiyyəti qurulmasına başlanılması demək idi. ƏDR rəhbərliyi qısa zaman ərzində xüsusi mülkiyyəti milliləşdirmək, kəndi kooperativləşdirmək və dövləti dünyəviləşdirmək istəyirdi. Partiya və dövlət liderləri bəyan edirdilər ki, artıq ölkədə proletariat diktaturası bərqərar olmuşdur və Sovet İttifaqının 60 il müddətində keçdiyi yolu Əfqanıstan beş ilə keçəcəkdir. Təbiidir ki,

bu ideyaların müəllifləri, hər şeydən əvvəl, sovet təcrübəsinin sovet xalqlarına nə verdiyini bilmirdilər və o tarixi şərtlər içərisində bilə də bilməzdilər. Onlar heç Əfqanıstan reallıqlarını da sanki görmürdülər, ölkənin olduqca ağır isqtisadi və sosial vəziyyəti, xalqın, xüsusilə kəndlilərin maarif və siyasi şüur səviyyəsinin çox aşağı olması, ənənəvi etnik və klan ənənələrinin ciddi və güclü rolu, siyasi partiyaların azsaylı olması və sosial bazanın kifayət qədər dar olması faktlarına ümumiyyətlə əhəmiyyət vermirdilər.

Elə buna görə də, hər hansı bir tədbirin həyata keçirilməsində kobud əyintilərə yol verilir, əsassız tələsgənlik göstərilir, inzibati və müxtəlif formalı zorakı metodlardan istifadə olunur, hətta həbslər və güllələnməyə çatan cəza tədbirlərinə əl atılırdı.

O biri tərəfdən ƏDR və ƏXDP rəhbərliyində N.M. Təraki və B. Karməl tərəfdarları arasında əvvəlcədən möv-cud olan ixtilaflar indi özünü daha qabarıq göstərirdi. Qarşılıqlı inamsızlıq nəinki iki puştu qruplaşması arasında artır, eyni zamanda digər millətlərin təmsilçilərinə sirayət edirdi. Artıq 1978-ci ilin iyununda B.Karməlin lider olduğu «Pərçəm» qruplaşmasının üzvləri yüksək dövlət və hökumət vəzifələrindən uzaqlaşdırıldı. Bəziləri, o cümlədən B.Karməl xaricə diplomatik işlərə göndərilməklə ölkədən çıxarıldı. Sonra isə ümumiyyətlə B.Karməl tərəfdarlarına qarşı güclü hücuma keçildi. Onların bir qismi «daxili və xarici irtica və imperializmlə» iş birliyində ittiham edildi və məhbəslərə atıldı. Bu cür hallar, ümumiyyətlə isə hər cür zorakılıq və qanunsuzluqlar 1979-cu ildə daha artdı. Bunun da başında həmin dövrdə faktik olaraq real hakimiyyəti bütünlüklə öz əlində toplamış Hafizullah Əmin dururdu. Ətrafdakılar tərəfindən «Aprel inqilabının komandiri» kimi təriflənən H.Əmin həmin dövrdə ƏXDP MK-nın hərbi şöbəsinin müdiri, hərbi nazir, sonra isə baş nazir vəzifələrinə yiyələnmişdi, O, təkcə öz partiyadaşlarına qarşı deyil, həm də ziyalılara, din xadimlərinə, milli burjuaziyanın nümayəndələrinə və yüksək rütbəli zabitlərə qarşı xüsusi qəddarlıqla müşayət olunan təqib və təzyiqləri gücləndirmişdi. Ən sonda Nur Məhəmməd Tərakini hakimiyyətdən saldı və onun fiziki məhvinə də nail oldu. Bu çevrilişdən sonra H.Əmin ƏXDP MK-nın baş katibi və İnqilab Şurasının sədri oldu.

H.Əmin hakimiyyəti ölkənin qarşısında duran problemlərin həllində daha çox mənasız inqilabi xarakterli hay-küyçülüklə məşğul oldu. Ölkədə yaradılmış zorakı rejim əhalinin müxtəlif təbəqələri

arasında narazılığı son dərəcə artırdı. Güclü bir mühacirət axını başlandı. Təkcə iri torpaq sahibləri, varlı tacirlər, tanınmış dövlət adamları deyil, çoxlu sayda sadə kəndlilər və köçəri maldarlar ölkəni tərk etdilər. Yeni rejimin ölkədə görmək istədiyi hər hansı bir tədbirdə mövcud şərtləri nəzərə almaması xalq tərəfindən nəinki rəğbətlə qarşılanmırdı, hətta belə demək mümkündür ki, baykot edilirdi. Təkcə belə bir faktı qeyd etmək istərdik ki, olduqca çox böyük ehtiyac içində yaşayan 340 min kəndliyə aqrar islahata görə verilən torpaq sahəsinə 255 mini yaxın belə durmadı. Çünki onlar torpağın müsadirə edilməsi və əvəzsiz olaraq paylanması təcrübəsini psixoloji olaraq qəbul etmirdilər. Təsədüfi deyildi ki, ƏXDP rəhbərliyi sonda öz aqrar siyasətinin iflasa uğradığını etiraf etmək məcburiyytində qaldı.

Bu rejimin ən böyuk bəlası isə Əfqanıstanda vətəndaş müharibəsinə rəvac verməsi oldu. Belə ki, «27 Aprel inqilabı»ndan az keçmədi ki, Kabildəki bu «allahsız» rejimə qarşı silahlı müqavimət hərəkatı başlandı. İlk olaraq ən güclü hərəkat kimi 1978-ci ilin oktyabrında ölkənin şimal-şərqində Nuristanda açıq silahlı çıxışları göstərmək olar. 1979-cu ilin martında Heratda olduqca güclü başqa bir qiyam baş verdi. Bunun ardınca ölkənin müxtəlif yerlərində, şəhərlərdə və kənd rayonlarında bir-birinin ardınca silahlı çıxışlar xroniki hal aldı. Beləliklə də ölkə uzun müddət davam etmiş bir vətəndaş müharibəsinə cəlb edilmiş oldu. Faktik olaraq Əfqanistanda hakimiyyətsizlik dövrü başlandı. Rəsmi hakimiyyətin təsiri Kabil və bir neçə iri şəhərdən kənara çıxmırdı. Ölkə daha çox qeyri-rəsmi qüvvələrin, rejimə qarşı mübarizə aparan mücahidlərin nəzarəti altında idi. İlk mücahid dəstələri 15-20 nəfərlik qruplar şəklində yaranırdı və əsasən də mühacirət etmiş şəxslərdən ibarət idi. Ümumiyyətlə onların fəaliyyəti xaricdə-Pakistan və İranda olan mərkəzlər tərəfindən əlaqələndirilirdi. 80-ci illərin əvvəlində 180 bu cür mərkəz mövcud idi. Bu mərkəzlərdə mücahidlərə hərbi təlim verilirdi və müəyyən hazırlıqdan sonra onlar rejimə qarşı silahlı mübarizə aparmaq üçün Əfqanıstana göndərilirdi. Burada isə onlar mümkün olan bütün formalarda dövlət qüvvələrinə qarşı vuruşurdular. 8-10 qrup bir dəstə təşkil edirdi, bir neçə dəstə isə «cəbhə» yaradırdı. Bə'zən elə olurdu ki, bir əyalət daxilində bir neçə cəbhə fəaliyyət gəstərirdi. 1979-cu ilin sonlarında isə mücahidlərin ümumi sayı 100 min nəfərə çatırdı.

Vətəndaş müharibəsi genişləndikcə rejimin vəziyyəti kifayət qədər ağırlaşırdı. Artıq onun yıxılması hər an gözlənilirdi. Rejimin vəziyyətinin gərginləşməsi onun hamisi olan rus-sovet imperiyası rəhbərliyini də dərindən rahatsız edirdi. Zoru tarixin mamaçası rolunda görməyə adət etmiş rus-sovet imperiyasının kommunist rəhbərliyi Əfqanıstanda yaratmış olduqları rejimi xilas etmək üçün radikal tədbirlərə əl atmağa qərar verdi. Onların planına görə H. Əmin və tərəfdarları devrilməli və ölkəyə sovet imperiya qoşunları yeridilməli idi. Bu məqsədlə, 1979-cu il 27 dekabrda rus-sovet gizli kəşfiyyatı dövlət çevrilişi etdi, H.Əmin öldürüldü. Həmin vaxt xaricdə diplomatik vəzifə yerinə yetirən Babrək Karməl hakimiyyətə gətirildi.

Rus-sovet rəhbərliyi belə hesab edirdi ki, B.Karməl hakimiyyəti vasitəsilə partiya və dövlət orqanlarında müəyyən dəyişikliklər aparmaqla əhalinin bir sıra təbəqələrini rejimin tərəfinə çəkmək və onları fəal siyasi ictimai həyata cəlb etmək olar. Bu da rejimin sosial bazasını möhkəmləndirməyə imkan verər. Elə bu səbəbdən də B.Karməl hökuməti bu istiqamətdə bir sıra tədbirləri həyata keçirmək təşəbbüsündə oldu. İlk olaraq partiya- dövlət orqanlarının yenidən qurulmasına başlanıldı. Müxtəlif qüvvələrin e'timadını qazanmaq üçün ƏXDP-nin ümumi siyasi xəttinə yenidən baxıldı. Milli Vətən Cəbhəsi yaradılmasına cəhd edildi. «Əfqanıstan Demokratik Respublikasının əsas prinsipləri» e'lan olundu. Bu sənəd respublikanın bir növ yeni konstitusiyası fuknksiyasını daşıyırdı və burada Əfqanıstanın dövlət və ictimai əsaslarının hüquqi baxımdan möhkəmləndirilməsi e'lan olunur, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi, eləcə də islam dini təsisatlarının və din xadimlərinin fəaliyyətinə qoyulan məhdudiyyətlərin götürülməsi bəyan edilirdi. Lakin bu tədbirlərin heç biri istənilən effekti vermədi və faktik olaraq mövcud şəraitin dəyişdirilməsi istiqamətində heç bir rol oynamadı. Çünki yenə də ƏXDP-nin hakim rəhbərlik rolu saxlanılırdı və bu da müxalifət qüvvələri ilə siyasi dialoqa getməyi mümkünsüz edirdi. Ən başlıcası isə yeni hakimiyyət ölkədə sosializm qurmaq ideyalarından nəinki geri çəkilir, əksinə bu sahədə təşəbbüsləri daha da artırırdı. Təbiidir ki, bu da tərəflər arasında qarşıdurmanı kəskinləşdirirdi. Bu səbəbdən də xalq B.Karməl rejimini rus-sovet imperiyasının əmrlərini kor-koranə surətdə yerinə yetirən bir oyuncaq hökumət sayırdı, ona nəinki itaət etməmək, həm

də mümkün olan bütün vasitələrlə bu rejimdən xilas olmaq üçün aparılan mübarizəyə daha geniş miqyasda qoşulurdu.

## *Əfqanıstan məsələsi və beynəlxalq ictimaiyyət*

Rus-sovet qoşunlarının Əfqanıstanı 27 dekabr 1979-cu ildə işğalı ilə sovet imperiyası özünü doqquz ilə qədər sürmüş bir «Əfqanistan bataqlığı»na atmış oldu. Rus-sovet işğalı onun təşkilatçılarının nəzərdə tutduqları niyyətlərin heç birini doğrultmadı. Əksinə, rus-sovet qoşunlarının Əfqanıstana girməsindən sonra B. Karməl hakimiyyətinə qarşı müqavimət hərəkatı daha genişləndi. Əfqan xalğının mübarizəsi kütləvi hal aldı. Əfqanıstan ordusundan əfqan xalqına qarşı istifadə etmək planı iflasa uğradı. Rus-sovet qoşunlarının ölkəyə girdiyi dövrdə sayı 100 min nəfərə çatan Əfqanıstan ordusunda 1980-ci ilin sonlarında cəmi-cümlətanı 25-30 min nəfər qalmışdı. Əsgər və zabitlər ordudan qaçaraq müqavimət hərəkatı iştirakçıları sırasına qoşulurdular. Əfqanıstan ərazisinin çox böyük hissəsinin dağlıqlardan ibarət olması da rus-sovet qoşunlarının hərəkət imkanlarını xeyli daraldırdı. Bunun əksinə, kiçik qüvvələrdən ibarət yerli müqavimətçilər daha çevik hərəkət edir, kifayət qədər üstünlüyə malik olurdular. Təsadüfi deyildir ki, işğalı 50 min nəfərlik qüvvə ilə həyata keçirən rus-sovet hərbi rəhbərliyi sonralar döyüşçülərin sayını 150 minə çatdırdı. Lakin yenə də ağır məğlubiyyətlərdən yaxa qurtarmaq mümkün olmadı. Canlı hərbi qüvvələrin uğursuzluğu səbəbindən rus-sovet hərbi rəhbərliyi üstünlüyü daha çox texnikadan istifadə etmək taktikasına verdi. 1983-cü ildən e'tibarən güclü hava bombardmanları başlandı. Təbiidir ki, dağlıqlarda məskunlaşan müqavimət qüvvələri bombardmanlardan asanlıqla qoruna bilirdilər. Belə olduqda rus-sovet hərbçiləri müqavimət hərəkatı ilə əlaqəsi olduğunda şübhələndikləri bütün yaşayış məskənlərini bombalayır və dinc əhalini vəhşicəsinə məhv edirdilər. Birləşmiş Millətlər Təşkilatının hesabatına görə təkcə 1985-ci ilin yanvar-sentyabr aylarında 32.755 nəfər dinc əhali məhv edilmişdi. Rus-sovet hərbçiləri 1984-cü ildən kimyəvi silahlardan istifadə etməyə başladılar. Hətta bununla da kifayətlənməyib yerli əhalinin gözünü qorxutmaq üçün uşaqların məhvinə fərman verdilər. Yaşayış sahələrinə təyyarələrdən müxtəlif oyuncaqlar şəklində qırğın silahlarını tökürdülər. Bu oyuncaqlardan istifadə edən uşaqlar baş verən partlayışlar

nəticəsində ya məhv olur, ya da əbədi şikəstlərə çevrilirdilər. Bütün bu vəhşiliklər 1985-ci ilin martında M.Qorbaçovun rus-sovet imperiyasının rəhbərliyinə gəlməsi dövrünə qədər davam etdi. Yalnız bundan sonra rus-sovet rəhbərliyi Əfqanıstanda apardığı müharibənin uğurla sona çatacağına inanmamağa başladı. Vəziyyətdən dinc yolla xilas olmaq siyasətinə üz tutuldu. Görülən tədbirlərdən birincisi, kütləvi şəkildə uşaqların və gənclərin təhsil almaq adı altında Rusiyaya gətirilməsidir. Bununla kommunist düşüncəli kadrlar hazırlanması istənilirdi və belə hesab olunurdu ki, onlar gələcəkdə Əfqanıstanın əsas idarəçilərini təşkil edəcəkdir. İkincisi, islam aləmindən istifadəyə də xüsusi önəm verilməsidir. Bununla da xalqın rəğbətinə və dəstəyinə nail olmaq istənilirdi. Bu məqsədlə «Diyanət işləri komitəsi» yaradıldı, bütün məktəblərdə həftədə 3 saat din dərsləri keçilməyə başlanıldı. Bəzi din adamları «İnqilab Şurası»nın üzvlüyünə cəlb olundu. Kabil radiosu həftədə bir saat dini veriliş təşkil etdi. Rus-sovet tərəfdarları olan din adamları məscidlərə yerləşdirildi və s.

Lakin bunlar da rus-sovet imperiyasını «Əfqanıstan bataqlığı»ndan xilas edə bilmədi. Yuxarıda dediyimiz kimi, əfqan xalqı demək olar ki, bütün ölkə boyu rus-sovet işğalına qarşı çıxdı, müqavimət hərəkatı daha da böyüdü və yüksəldi, təşkilatı baxımdan möhkəmləndi.

Bir səciyyəvi cəhəti də qeyd etmək istərdik. Bu da ondan ibarətdir ki, rus-sovet imperializminə qarşı mübarizə aparan əfqan milli qüvvələrinin də hər birinin öz məqsəd və proqramı var idi. Bu da onların müxtəlif təşkilatlarda birləşməsinə, nəticə etibarilə rus-sovet qüvvələrinə qarşı birgə və ya birləşmiş şəkildə mübarizə apara bilməsinə əngəl yaradırdı. Bununla yanaşı belə bir durum həm də ona zəmin yaratmışdı ki, rus-sovet hərbi qüvvələri ölkənin hər yanında bu və ya digər müqavimət təşkilatı ilə savaşmaq zorunda qalırdı.

Müqavimət təşkilatları radikal və ənənəvi müxalifət qüvvələrini birləşdirirdi. Radikallar əsasən aşırı islamçılar idilər və onlar şəhər əhalisinin orta təbəqələrini təmsil edirdilər. Ənənəvi müxalifət isə feodal-monarxist qüvvələrin düşüncələrinin daşıyıcıları idilər.

Bu təşkilatlar içərisində ən güclüsü «Hizb-e İslami- İslam partiyası» idi. Lideri Qülbəddin Hikmətyar olan bu təşkilat sünni müsəlmanları birləşdirirdi və Pakistan tərəfindən dəstəklənirdi.

Başqa bir təşkilat isə «Cəmiyyət-e İslami-İslam Cəmiyyəti»

adlanırdı. Cəmiyyətin lideri Burhanəddin Rəbbani, eləcə də hərbi lideri Əhmədşah Məsud (xalq arasında «Pəncər aslanı» kimi tanınır) milliyyətcə tacikdirlər. Cəmiyyət iki dəfə Hizb-e İslami ilə birləşsə də bu iş uğursuz olmuşdur. Bunlardan başqa bir sıra radikal kiçik təşkilatlar və qruplar vardı.

Ənənəvi müxalifətin güclü təşkilatlarından 1978-ci ildə yaradılmış «Hərəkət-e İnqilab-e İslami-İslam İnqila-bi Hərəkatı» krallıq rejimini müdafiə edirdi və onun başında Məhəmməd Nəbi Məhəmmədi dururdu.

Çağdaş, demokratik və qeyri-kommunist Əfqanıstan ideyasını müdafiə edən başqa bir ənənvi müxalifət təşkilatı «Peyman-e İttihad-e İslami» adlanırdı və onun da başında Pir Seyyid Əhməd Ceylani dayanırdı. Bunlardan əlavə digər təşkilatlar, məsələn «Cəbhə-ye Azadir-e Əfqanıstan» və s. də var idi.

Bu təşkilatlar Əfqanıstanın xaricində, əsasən Pakistanda yaranmış və fəaliyyət göstərirdi. Xeyli müddət ayrı-ayrılıqda fəaliyyət göstərən müxalifət qüvvələri, nəhayət, 1985-ci ildə bir araya gələ bildilər və birləşdilər. Yeni yaranmış birlik «Əfqanistan mücahidlərinin islam ittifaqı» adlanırdı və onun sıralarına dörd aşırı islamçı və üç ənənəvi müxalifət təşkilatı daxil olmuşdu. Həmin təşkilatlarda birləşən qüvvələr isə ümumiyyətlə ölkədən qaçmış şəxslərdən ibarət idi. Onu da qeyd etmək lazımdır ki, rus-sovet işğalının ilk illərindən, xüsusilə də 1980-ci ildən, ölkədən qaçma halları xeyli çoxalmışdı. Artıq 80-ci illərin sonunda qaçqınların sayı 5 mln nəfəri ötüb keçmişdi.

Əfqanıstana rus-sovet qoşunlarının girməsi və burada hərbi əməliyyatlar aparması təkcə əfqan xalqının yox, həm də beynəlxalq ictimaiyyətin kəskin etirazı ilə qarşılandı. Sosialist ölkələrini çıxmaqla, demək olar ki, bütün dünya rus-sovet imperiyasının bu hərəkətinə heç bir dəstək vermədi. 1980-ci ildə ABŞ, onun ardınca Çin Xalq Respublikası, Misir, Səudiyyə Ərəbistanı, İran və s. kimi ölkələr əfqan mücahidlərini dəstəklədiklərini və onlara lazım olan hər cür kömək göstərəcəklərini açıq-aşkar şəkildə bildirdilər. Birləşmiş Millətlər Təşkilatı üzvlərinin böyük əksəriyyəti rus-sovet işğalını pisləyən və ordunun Əfqanıstandan çıxarılmasını tələb edən qətnaməyə səs verdi. BMT-nin müxtəlif ixtisaslaşdırılmış təsisatları əfqan qaçqınlarına kömək etmək üçün ciddi fəaliyyətə başladı. Mahiyyəti etibarilə bu kömək elə müqavimət hərəkatı iştirakçılarına edilirdi.

Dünyanın müxtəlif ölkələrində təsis olunmuş qeyri-hökumət komitə və fondları da əfqan mücahidlərinə hər cür kömək və yardım göstərirdi. Üç ölkə: ABŞ, ÇXR və Pakistan isə rus-sovet hərbi qüvvələrinin Əfqanıstanda məğlub edilməsini öz vəzifələrinə çevirdilər və bu məqsədlə bütün gücləri ilə əfqan mücahidlərinin arxasında dayandılar.

Maraqlıldır ki, rus-sovet imperializminin Əfqanıstanı işğal etməsinə ilk etiraz Çin Xalq Respublikasından gəldi. BMT Təhlükəsizlik Şurasında məsələnin gündəliyə gətirilməsinin təşəbbüskarı da ÇXR oldu. Təbiidir ki, bunun da səbəbi 60-cı illərdən davam edən sovet-çin ziddiyyətləri, eləcə də həmin dövrdə rus-sovet imperiyasının Çinə qonşu olan Hind-Çin ölkələrindəki fəaliyyətindən doğan narahatlıqlar idi.

Rus-sovet qoşunlarının Əfqanıstana girməsinin ikinci günü, yəni 1979-cu il dekabrın 28-də ABŞ prezidenti Karter bu hərəkəti Əfqanıstanın daxili işlərinə «kobud bir müdaxilə» kimi qiymətləndirdi. 1980-ci ilin 5 yanvarındakı çıxışında C.Karter bildirdi ki, «dünya, sadəcə kənardan baxıb, Sovet İttifaqının cəzasız qalmasına razı ola bilməz». Bundan sonra ABŞ sözdən işə keçdi: 1979-cu ilin iyununda Sovet İttifaqı ilə imzalanmış «Salt-II» sazişinin təsdiqlənməsi durduruldu. 1981-ci ilin sentyabrında Pakistanla bir saziş bağlandı. Sazişə görə ABŞ altı il müddətində Pakistana 3,2 mld dollarlıq yardım etməli idi. Pakistana 40 ədəd F-16 təyyarəsi verildi. ABŞ Pakistan ərazisindən əfqan müxalifətinə silah və ərzaq yardımı etməyə başladı.

Təbiidir ki, ABŞ-ın bu cür fəaliyyətinin səbəbi onun strateji maraqları idi. Qeyd etmək lazımdır ki, Avropa İttifaqının timsalında bütün qərb ölkələri də rus-sovet işğalına qarşı çıxış etdilər.

Məhz buna görə də, Əfqanıstan problemi BMT-də uzun müddət müzakirələr mövzusu olmuşdur. BMT dəfələrlə qəbul etdiyi qətnamələrdə Əfqanıstanın ərazi bütövlüyünə, müstəqilliyinə, bitərəfliyinə hörmət edilməsini, xarici qoşunların ölkədən çıxarılmasını, Əfqanıstanın taleyinin həll edilməsinin əfqan xalqının hüququ olmasını nəzərdə tutan bəndlər olmuşdur.

Beynəlxalq ictimaiyyətin Əfqanıstan məsələsinə bu cür yanaşması müxalifət qüvvələrinin müqavimət və mübarizə ruhunu yüksəldir və onların son qələbəyə olan inamını möhkəmləndirirdi.

B.Karməl rejimi də, təbiidir ki, rus-sovet qoşunlarının vasitə-

silə daha qəti tədbilər görmək, «silahlı quldur dəstələrini və gizli əks inqilabi qüvvələri» (yəni müqavimət hərəkatının silahlı qüvvələrini və onlara rəğbət göstərməkdə şübhəli görünən dinc əhalini - müəl.) birdəfəlik darmadağın etmək» qərarında idilər. Heç şübhəsiz ki, bu siyasət ƏXDP liderlərinin elan etdiyi «dinc həyata və əməyə, işıqlı gələcəyə, azadlığa, bərabərliyə və ədalətə dönüş» bəyanatları ilə daban-dabana ziddiyyət təşkil edirdi və xalqa verilən vədlərin boş sözlərdən o yana gedə bilməyəcəyinə inamı daha da artırdı. O biri tərəfdən, Əfqanıstan Demokratik Respublikası rəhbərliyində edilən dəyişikləklər də partiya sıralarında barışıq yarada bilmədi. Bu baxımdan yeganə böyük «nailiyyət» «Pərçəm» və «Xalq» terminlərinin partiya liderlərinin danışığından çıxarılması idi. Hakimiyyətdə B. Karməl və onun tərəfdarlarının möhkəmlənməsi «Xalq» tərəfdarlarının təqib, təzyiq və məhrumiyyətlərinin artması ilə müşayət olunurdu. Bu rəqabət hakim rejimin fəaliyyətini iflic edən amillərdən birinə çevrilirdi.

Bir qədər irəlidə söylənildiyi kimi, Sovet İttifaqının rəhbərliyinə M.Qorbaçovun gəlməsindən sonra Əfqanıstan məsələsinə münasibətdə dəyişiklik özünü göstərir. Təbiidir ki, bu yeni siyasətin köhnə əfqan rəhbərliyi tərəfindən həyata keçirilməsi lazımı effekt verə bilməzdi. Elə buna görə də 1986-cı ildə B.Karməl yeni partiya lideri M.Nəcibullah (hakimiyyətə qədər M.Nəcib adlanırdı -müəl.) ilə əvəz edildi. M.Nəcibullahın ilk tədbiri vətəndaş sülhü konsepsiyasını elan etməsi oldu. Bu konsepsiyaya görə hökumət fəaliyyətində iqtisadi problemlərin həllinə önəm verdiyini elan edir, ƏXDP-nın hakimiyyət inhisarından imtina olunurdu. M.Nəcibullah hökuməti bildirirdi ki, siyasi plüralizmə keçməyə və Əfqanıstan probleminin siyasi yolla tənzimlənməsi, rus-sovet qoşunlarının ölkədən çıxarılması məsələlərinin həlli üçün silahlı müxalifət qüvvələri ilə danışıqlara hazırdır. Bu prinsiplər 1987-ci ildə qəbul olunmuş konstitusiyada və elə həmin ildə təsdiq edilmiş partiyalar haqqında qanunda da öz əksini tapdı.

Lakin müqavimət hərəkatı liderləri edilən təkliflərə müsbət cavab vermədilər və əksinə, hərbi əməliyyatları davam etdirdilər. M.Nəcibullah rejimi bir qədər da geri çəkilmək zorunda qaldı: dövlətin adı dəyişdirildi və Əfqanıstan Respublikası oldu, Milli Vətən Cəbhəsi Barışıq Cəbhəsinə çevrildi, ƏXDP Vətən Partiyası adlandırıldı və s. Bütün bunlar da müqavimət hərəkatı iştirakçılarını yolun-

dan döndərə bilmədi, onların rus-sovet qoşunlarına qarşı apardığı hərbi əməliyyatları qələbə ilə başa çatdırmaq əzminə təsir etmədi.

Beləliklə də Əfqanistanda rus-sovet hərbi birləşmələri ilə aparılan savaş on ilə yaxın davam etdi. Nəhayət, 6 ildən bəri Cenevrədə davam edən beynəlxalq danışıqlar 1988-ci ilin 14 aprelində başa çatdı və saziş imzalandı. Saziş 4 sənəddən ibarət idi. Onlar:

1.Əfqanistanın daxili işlərinə qarışmamaq; 2.Bitərəflik haqqında beynəlxalq öhdəlik; 3.İran və Pakistan ərazisində olan 5 mln qaçqının ölkəyə qaytarılması; 4.Sovet qoşunlarının Əfqanıstandan çıxarılması məsələlərini əhatə edirdi. Saziş 15 maydan etibarən qüvvəyə minirdi. İmzalanan sənədə əsasən rus-sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının şərtləri müəyyənləşdirildi. Bundan sonra da bir il vaxt tələb olundu ki, işğalçı qoşunlar ölkədən çıxarılsın. Bu proses 1989-cu ilin 15 fevralında başa çatdı.

10 ilədək davam edən bu savaş tərəflərə nə verdi?

Müharibənin gedişində bir milyon nəfərdən çox əfqan həlak oldu, yaralı və şikəst olanların sayı hesaba belə gəlmir, Əfqanıstanın iqtisadiyyatı başdan-başa bərbad hala düşdü, ölkə kəskin ərzaq çatışmazlığı problemi qarşısında qalmış oldu.

Rus-sovet hərbi birləşmələri döyüş meydalarında 14 min nəfərə qədər əsgər və zabit itirdi, yaralı və şikəst olanların sayı 50 min nəfəri keçirdi. İtkin düşənlərin sayı bu günə qədər də bəlli deyildir. Hərbi əməliyyatlar sovet büdcəsindən 60 mld rubl (o zamanlar 1 rubl təqribən 60-70 sentə bərəbər idi) məbləğində məsarif aldı. Təbiidir ki, bu da ölkə iqtisadiyyatına güclü mənfi təsir göstərdi. Sovet İttifaqının beynəlxalq nüfuzu xeyli aşağı düşdü. Rus-sovet rəhbərliyinin avantürist qərarı Əfqanıstan xalqının azadlıq uğrunda mübarizəsinin, eləcə də vətəndaş müharibəsinin qarşısını ala bilmədi. Onun yeganə bir nəticəsi sovet inkişaf modeli tərəfdarlarının ömrünün təqribən on iki il müddətinə uzatmaq oldu.

## *Əfqanıstan 90-cı illərdə*

Əfqanıstan rus-sovet işğalından qurtardı. Lakin işğalın yaratmış olduğu fəsadlardan indiyədək qurtarmaq mümkün olmamışdır. Bu baxımdan bütün 90-cı illər ərzində ölkədə siyasi istiqrarın yoxluğunu xüsusi qeyd etmək lazımdır. Buna əngəl olan ən mühüm amil isə milli müqavimət hərəkatı illərində yaranmış çox saylı təşkilatların

bir araya gələ bilməməsidir.

Rus-sovet qoşunlarının ölkədən çıxarılmasından sonra M.Nəcibullah rejimi milli müqavimət qüvvələri ilə mübarizədə aciz qalmışdı. Ölkənin iri şəhərləri bir-birinin ardınca mücahidlər tərəfindən ələ keçirilirdi. Əvvəlcə şimalda Məzari-Şərif, sonra isə Kabil tutuldu. M.Nəcibullah BMT binasında gizlənməklə özünü xilas edə bildi. Nəhayət, 1992-ci ilin aprelində Əfqanistanda on dörd il mövcud olmuş rejimə son qoyuldu, M.Nəcibullah və tərəfdarları hakimiyyətdən əl çəkmək məcburiyyətində qaldılar. Beləliklə də əfqan xalqının mövcud rejimə qarşı apardığı mübarizə qalib gəldi. Əfqanıstan İslam Respublikası elan edildi. Hakimiyyət qaliblərin sərəncamına keçdi. Onlar, daha dəqiq desək, mərkəzi Pakistanda olan yeddi sünni-müsəlman təşkilatı və mərkəzi idarə orqanları İranda olan doqquz şiə-müsəlman təşkilatı - bura həm siyasi, həm də ictimai partiya və təşkilatlar daxil idi,- S. Mücəddidini iki aylığa ölkənin prezidenti seçdilər. S.Mücəddidi milli müqavimət hərəkatı liderlərindən idi və onun mötədil qanadını təmsil edirdi. Q.Hikmətyar baş nazir, Əhmədşah Məsud isə hərbi nazir təyin olundular.

Belə düşünmək olardı ki, bundan sonra qaliblər ölkədə siyasi istiqrara nail olacaq, iqtisadi və sosial sahələrdə yaranmış bütün əngəlləri aradan qaldıracaq, ölkənin inkişaf perspektivləri haqqında düşünəcək, uzun illər ərzində Əfqanıstana vurulmuş yaraların sağaldılmasına çalışacaq, müstəqil, suveren və azad Əfqanıstan dövləti qurmağa cəhd göstərəcəklər. Çox təəssüflər olsun ki, əfqan xalqının bütün ümidləri puça çıxdı. Qələbənin ilk anlarından e'tibarən Əfqanıstan hərbi qarşıdurmalar və vətəndaş müharibələri meydanına çevrildi. Belə ki, baş nazir Q.Hikmətyar prezident S. Mücəddidinin mötədilliyinə ciddi narazılıq göstərir və bu və ya digər məsələdə heç cür razılığa gəlmək istəmirdi. Bu zəmində onların arasında ciddi münaqişə yarandı və baş nazir onun həllini hərbi qüvvə tətbiqində gördü. Beləliklə də tərəflər arasında hərbi münaqişə başladı. Q.Hikmətyarın qüvvələri Kabilə hücüm etdi. Doğrudur, onlar paytaxtı tuta bilmədilər. Lakin bununla, yuxarıda dediyimiz kimi, ölkə yenidən hərbi əməliyyatlar dövrünə girdi. 1992-ci ildən başlayan bu dövr günümüzə qədər davam edir və bu hərbi qarşıdurmaların nə zaman və nə şəkildə başa çatacağı bu gün də kifayət qədər dumanlı və qaranlıq olaraq qalmaqdadır. Heç şübhəsiz ki, bu prosesin çözülməsi üçün kifayət qədər zamana və milli iradəyə ehtiyac vardır.

Çünki, hazırda qarşıdurmalar daha çox etnokonfessional ziddiyyətlər zəmnində gedir. Bu günkü hərbi qarşıdurmanın tərəfləri bir yandan puştulardır, özbəklərdir, taciklərdir, xəzərilərdir və sairdirsə, o biri yandan sünnilərdir və şiələrdir. Üçüncü yandan isə, bu qrupların hər birinin arxasında qonşu və uzaq dövlətlər dayanır, bu dövlətlərin regionda ümumi və xüsusi maraqlı dayanır. Yə'ni vəziyyət kifayət qədər çətin və mürəkkəbdir.

Dediyimiz kimi, bunun başlanğıcı 1992-ci ildən S.Mücəddidi-Q.Hikmətyar münaqişəsi ilə qoyulmuşdur.

S.Mücəddidinin iki aylıq prezidentlik dövrü başa çatdıqdan sonra Əfqanıstan İslam Cəmiyyətinin lideri, tacik B.Rəbbani həmin vəzifəyə seçildi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, mücahidlər həm də öz aralarında belə bir ilkin razılığa gəlmişdilər ki, hər partiyanın lideri növbə ilə altı ay müddətinə prezident postuna seçiləcəkdir.

B.Rəbbani prezident olduqdan dərhal sonra Q.Hikmətyarı hərbi əməliyyatları dayandırmağa və bütün mübahisələri danışıqlar yolu ilə həll etməyə çağırdı. Lakin, Q.Hikmətyar danışıqlardan və baş nazir vəzifəsindən imtina etdi, həmin vəzifəyə öz yaxın adamlarından olan Məhəmməd Fəridin namizədliyini verdi. Bundan sonra tərəflərarası qarşıdurma bir qədər səngidisə də 1993-cü ilin sonlarında vəziyyət yenidən gərginləşdi. Herat əyalətində B.Rəbbani və Q.Hikmətyar orduları arasında hərbi əməliyyatlar başladı. Döyüşlər B.Rəbbani tərəfdarlarının üstünlüyü ilə gedir və Q.Hikmətyarın dəstələri uğursuzluğa düçar olurdu. Qeyd etmək lazımdır ki, həmin dövr Q.Hikmətyarın hərbi birləşmələrinə general İsmailxan komandanlıq edirdi.

Hərbi əməliyyatlarda qazanılan qələbə prezident B. Rəbbaniyə imkan verdi ki, yenidən ölkədə, nisbi də olsa, sakitlik yarada bilsin. Lakin bu uzun sürmədi. Belə ki, hakimiyyətdə möhkəmlənən B.Rəbbaninin artıq onu nəinki tərk etmək, heç əvvəlki müttəfiqləri ilə bölüşdürmək belə düşünmədiyi bəlli oldu. Həmin səbəbdən də mücahidlər arasında qüvvələrin yenidən qruplaşması prosesi başladı. Qeyd edək ki, bu proses etnik mənsubiyyət zəmnində baş verirdi. O vaxtdan da ölkədə ayrı-ayrı qruplaşmalar arasında gedən daxili mübarizə tamamilə etnokonfessional xarakter almış oldu. Ölkə daxilində və xaricində olan qüvvələr B.Rəbbanini hakimiyyəti zorla zəbt etməkdə, ölkədə «çoxluq təşkil edən» puştular üzərində «azlıqda olan» taciklərin hegemonluğunu yaratmaqda, «antipuştu

cəbhəsi» formalaşdırmaqda və s.də ittiham etməyə başladılar. 1993-cü ilin sonlarında B.Rəbbani tərəfdarlarından olan etnik mənşəcə özbək general Ə.RDustum ondan aralandı və Q.Hikmətyarın tərəfinə keçdi. Qışda prezident tərəfdarları və əleyhdarları arasında hərbi əməliyyatlar yenidən başlananda general Ə.R.Dustumun çoxsaylı qoşun hissələri də B.Rəbbaniya qarşı hərbi əməliyyatlara qoşuldu. Qeyd etmək lazımdır ki, bu döyüşlər on altı gün davam etmişdir və 90-cı illərdə, Əfqanıstanda gedən ən ağır müharibə hesab olunur. Doğrudur, B.Rəbbaninin qüvvələri Kabili qoruyub saxlaya bildilər, lakin bütün şimali Əfqanıstan, Qunduz şəhəri istisna olmaqla, general Dustumun qüvvələri tərəfindən tutuldu və onun nəzarəti altına keçdi.

Kabilin qərbində və bir sıra mərkəzi rayonlarda isə hakimiyyətə Əbdül Əli Məzarinin başçılıq etdiyi İslam İttifaqı qruplaşması nəzarət edirdi. Onlar B.Rəbbanini 1992-ildə qəbul edilmiş konstitusiyada şiyəliyi rəsmi din kimi göstərməməkdə suçlandırırdılar. İslam İttifaqı rəhbərliyi Q.Hikmətyara meyl göstərsə də rəsmi olaraq heç bir qruplaşma ilə bağlı deyildi. Elə buna görə də ilk əlverişli şərait yaranan kimi Ə.Ə.Məzarinin qüvvələri hökumət birləşmələri və digər rəqibləri tərəfindən darmadağın edildi, özü isə öldürüldü.

B.Rəbbani Kabildə öz hakimiyyətini bərpa edə bildisə də, lakin artıq 1993-cü ilin sonlarında ölkənin ayrı-ayrı hissələrinə müxtəlif qruplaşmalar nəzarət edirdilər. Ara müharibələrinin səngimək şansı yox dərəcəsində idi. Elə bu zəmində də istər ölkə daxilində, istərsə də xaricdə olan müəyyən milli-siyasi qüvvələr, eləcə də onların arxasında duran yaxın və uzaq dövlətlər problemin çözülməsi sahəsində düşünmək zorunda qalmışdılar və yollar axtarırdılar.

Qeyd edək ki, bu zaman puştu kökənli siyasi qüvvələrin fəallaşması daha çox özünü göstərirdi. Onlar ölkədə siyasi istiqrarın yaradılması yollarından birisi kimi keçmiş kral Məhəmməd Zahir şahın hakimiyyətinin bərpası ideyasını gündəliyə gətirdi. İdeya müəyyən rəğbətlə qarşılandı. Hətta Məhəmməd Zahir şah özü də elan etdi ki, bu ağır gündə heç bir xüsusi imtiyaz istəmədən öz həmvətənlərinə xidmət göstərməyə, Əfqanıstan xalqının böyük hissəsinin istəklərinin həyata keçirilməsinə kömək etməyə hazırdır. M. Zahir şah tərəfdarları bu istiqamətdə əməli işlər görmək üçün bir sıra cəhdlər etdilər, mücahid liderlərlə müxtəlif səviyyələrdə danışıqlar apardılar. İctimai rəyə özlərini «üçüncü» qüvvə kimi

təqdim etməyə başladılar. Onlar 1994-cü ilin sonlarında mücahid liderlərlə razılaşmalar əldə etmək üçün növbəti təşəbbüs göstərdilər. M.Zahir şahın yaxın adamları Məhəmməd Yusif \keçmiş baş nazir\, mərhum Əbdül Sirat \keçmiş ədliyyə naziri\, Əbdül Səməd Həmid \keçmiş baş nazirin müavini\ və Sultan Mahmudun \kralın qohumu və «Ariana» aviaşirkətinin rəhbəri\ daxil olduğu «Məsləhət komissiyası», əsas mücahid qruplaşmalarından «İslam Cəmiyyəti», «İslam Partiyası», «Milli İslam Cəbhəsi» və «Vəhdət»in nümayəndələri ilə görüşdülər. Görüşün əsas məqsədi Əfqanıstanda mövcud olan mübahisəli və gərgin vəziyyətin dinc yolla nizama salınması yollarını müzakirə etmək, bu barədə danışıqlar və fikir mübadiləsi aparmaq idi. Qeyd etmək lazımdır ki, əvvəllərdə olduğu kimi bu görüş də Birləşmiş Millətlər Təşkilatının bayrağı altında, BMT Baş katibinin xüsusi nümayəndəsi Mahmud Mesterinin iştirakı ilə keçirilirdi. 1994-cü ilin sentyabrından 16 oktyabrına kimi davam edən danışıqlar uğursuzluqla nəticələndi.

Lakin məhz həmin arada Əfqanıstanda taliban[1] hərəkatının meydana gəlməsi «üçüncü» qüvvə liderlərinin ümidlərinə yeni bir güc verdi. Hərəkatın yarandığı ilk gündən onlar təbliğ etməyə başladılar ki, talibançılar:

birincisi, «təmiz islamçı» və «əsl milli» qüvvələrdir, məhz onlar Əfqanıstanı mövcud «özbaşınalıq, qəddarlıq və əxlaqsızlıq» dan xilas etmək, ölkədə sülh və əmin-amanlıq yaratmaq kimi nəcib bir missiyanı yerinə yetirə bilərlər. Qazetlərin birində «Talibanlar kimdir və onlar nə istəyirlər» adlı məqalədə açıqca deyilirdi : «Talibanlar xalqdan çıxmışlar, mücahidlərin cinayətlərindən cana doymuş xalq onları dəstəkləyir... Əfqanıstanı onlar xilas edəcəkdir»;

ikincisi, talibanlar siyasi qüvvə yox, sırf hərbi qüvvədir, onlar keçmiş kralın hakimiyyətə gəlməsi yolunu hazırlayan öncül dəstələrdir.

Təbiidir ki, bu fikirlərin nə qədər həqiqət olub-olmadığını söyləmək çətindir.Lakin taliban hərəkatının meydana gəlməsində mühüm rol oynayan iki amil «üçüncü» qüvvə liderlərinə yuxarıdakı

---

[1] Qeyd: «Taliban» sözü «talib-tələbə» sözünün cəm formasıdır. Biz termini orijinalda olduğu kimi saxlayırıq və ona ümumiləşmiş bir siyasi ad kimi yanaşırıq. Bu baxımdan da mətndə «taliban» sözündən toplum bildirən isim kimi istifadə olunur (müəl.)

təbliğatı aparmağa əsas verirdi.

Bəs bu amillər hansılardır?

Bunlardan birincisi o idi ki, talibanlar əsasən cənubi puştu qəbilələrindən çıxmışdılar; ikincisi, onların sıralarında kifayət qədər kralsevər qüvvələrin tərəfdarları var idi. Talibanların rəğbətlə qarşılanmasının əsasında onların etnik mənşəyi, yəni puştu kökənli olması da çox mühüm rol oynayırdı. Hətta Rusiyada məskunlaşmış keçmiş Əfqanıstan Xalq Demokrat-Vətən Partiyasının puştu kökənli liderləri öz partiya ideologiyalarını bir kənara atıb, talibanları müdafiə etməyə başladılar. Onlar da belə bir ideya təbliğ edirdilər ki, talibanlarla milli barışığa çalışan qüvvələrin \yəni vətənçilərin\ birliyi Əfqanıstanı bütün bəlalardan xilas edər, ölkəyə sülh və dinclik gətirər.

Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, yuxarıda söylənilən ideyalar bir arzu və istək olaraq qaldı. Talibanlar ilk andan etibarən öz hakimiyyət strukturlarını yaradır və hakimiyyəti heç kimlə bölüşdürmək haqqında düşünmək belə istəmirdilər. «Taliban» təşkilatının yaranması məsələsinə gəlincə isə, o belə olmuşdur: 1994-cü ilin iyul ayında Əfqanıstanın böyük şəhərlərindən olan Qəndəharda 3 qadın zorlanılmış və sonra da qətlə yetirilmişdir. İslam ölkəsi üçün son dərəcə dəhşətli olan bu hadisə «Taliban» təşkilatının yaranması üçün bir əsas verdi. Belə ki, hadisədən son dərəcə qəzəblənən insanlardan birisi kimi şəhər sakini, rus-sovet işğalçılarına qarşı mübarizədə bir gözünü itirmiş və bir ayağı şikəst olmuş Molla Məhəmməd Ömər bu biabırçılağa və qanlı vəhşətə son qoymaq üçün bir neçə yüz yerli islampərəst tələbə gənci öz ətrafında cəmləşdirdi və sonralar «Taliban» adı ilə məşhurlaşacaq təşkilatın təməlini qoydu. Qeyd edək ki, həmin islamçı tələbə dəstələri hələ 1992-ci ildən yaranmağa başlamışdı və onlar ölkədə gedən siyasi çəkişmələrdə bir hərbi qüvvə kimi fəal iştirak edirdilər. İndi isə onlar ilk dəfə idi ki, bir təşkilat halında birləşir, ayrıca və müstəqil bir qüvvəyə, daha doğrusu, tərəfə çevrilirdilər.

Qəndəhar hadisələri «Taliban» təşkilatının yaranması üçün əslində bir bəhanə olmuşdur. Onun səbəbini isə tamam başqa yerdə axtarmaq lazımdır. İrəlidə demişdik ki, rus-sovet işğalına və sovet əlaltılarının hakimiyyətinə son qoyulduqdan sonra Əfqanıstanda baş verən hadisələrin əsasında daha çox etnokonfessional istəklər dayanır. İndisə konfessional libas saxlanılmaqla etnik qabarma halı

daha önə çıxırdı. Qeyd edək ki, Əfqanıstanda hər etnik icmanın öz təşkilatı vardı: puştular- Əfqanıstanın İslam Partiyası (lideri Q.Hikmətyar), taciklər Əfqanıstan İslam Cəmiyyəti (liderləri B.Rəbbani və Məsudşah), özbəklər- Əfqanıstan İslam Hərəkatı (lideri - Ə.R.Dustum) kimi təşkilatlarda cəmləşmişdilər. Son illərdə ölkədə baş verən proseslər zəmnində daha çox aydın olurdu ki, puştuların arzu və istəklərini Əfqanıstan İslam Partiyası və onun lideri Q.Hikmətyar tezliklə və tamamilə təmin etmək gücündə deyildir. Qısaca desək, puştuların məhz bu reaksiyası onların yeni lider və yeni qüvvələrdən təşkil olunmuş təşkilat axtarışının ən əsas və ən birinci səbəbi oldu. Təbiidir ki, bu məsələdə regionda marağı olan qüvvələrin, dövlətlərin də, ilk növbədə Səudiyyə Ərəbistanı, Pakistan və ABŞ-ın roluda yox deyildir.

Məhz Molla Məhəmməd Ömərin başçılığı və bilavasitə iştirakı ilə ilk fəaliyyətinə Qəndəharda baş verən vəhşi cinayəti törədənləri tapıb və edam etməklə başlayan talibançılar az sonra artıq bütün ölkədə ədaləti təmin etmək, bir-birilə aramsız şəkildə didişən mücahid qrupları arasındakı çəkişmələrə son qoyaraq siyasi istiqrarı bərpa etmək vəzifələrini öz fəaliyyət prinsipləri elan etdilər. Talibançılar vəd verirdilər ki, onlar hakimiyyətə gələcəyi təqdirdə bütün Əfqanıstanda təmiz və həqiqi islam qanunları hökm sürəcəkdir.

Qəndəharda hakimiyyətə yiyələndikdən sonra talibançılar sentyabrdan etibarən qonşu şəhərləri tutmağa başladılar. Qısa zaman ərzində Kalat, Helmənd, Mükür kimi şəhərlər və onların yerləşdiyi əyalətlər, demək olar ki, müqavimət göstərmədən talibançıların hakimiyyəti altına keçdi. Qəznə işğal edildi. Bundan sonra hərbi əməliyyatların istiqaməti Kabilə doğru çevrildi. Paytaxtın müdafiəsini təmin edəcək hərbi bazalar bir-birinin ardınca taliban qüvvələri tərəfindən tutuldu və nəhayət, 1995-ci ilin əvvəllərində onlar Kabilə yaxınlaşdılar. Burada talibançılar mövqelərini möhkəmlədəndən sonra, 1995-ci ilin martında şəhəri tutmaq üçün güclü hücumlara başladılar. Vəziyyət kifayət qədər ciddi şəkil almışdı. Belə bir şəraitdə BMT nümayəndəsi Mahmud Mesteri prezident B.Rəbbaniyə təklif etdi ki, bütün siyasi qüvvələrin təmsil olunduğu Milli Şura yaratsın. Lakin, əvvəllərdə olduğu kimi, bu dəfə də B. Rəbbani hərbi əməliyyatlara üstünlük verdi və döyüşlərə başladı. Beləliklə də Əfqanıstan paytaxtı uzun davam edən döyüşlər meydanına çevrildi.

Həmin dövrün diqqət çəkən hadisələrindən birisi də 1995-ci

ilin avqustunda taliban qüvvələri tərəfindən Rusiyanın İL-76 tipli yük təyyarəsinin yerə endirilməsi oldu. Talibançılar Rusiyanın qarşı tərəfə silah yardımı göstərməsi haqqında məlumat yaydılar. Rusiya təkzib verdi.

1996-cı ilin yayından etibarən talibançıların ətraf əyalətləri və şəhərləri tutması hesabına onların qüvvətlənməsi müşahidə olunmağa başlayır. Bu da öz nəticələrini onda göstərir ki, taliban orduları yenidən Kabilə yaxınlaşdı, şiddətli döyüşlər başladı, Məsudşahın başçılıq etdiyi ordular və B.Hikmətyar hökuməti çıxılmaz vəziyyət qarşısında şəhəri tərk etmək zorunda qaldı. 1996-cı ilin 27 senyabrında Kabil talibançıların əlinə keçdi.

Keçmiş prezident M.Nəcibullah talibançılar tərəfindən ələ keçirildi və edam edildi.

Bununla da talibançılar Əfqanıstanın real siyasi hakimiyyətinin sahibinə çevrildilər. Ölkənin idarə edilməsi üçün 6 nəfərdən ibarət Müvəqqəti Şura yaradıldı, Əfqanıstanın üçdə iki hissəsindən çoxu onların tabeçiliyinə keçdi. Bu ərazidə islam qayda-qanunları, təbiidir ki, talibançıların təfsirində, idarəçiliyin əsasını təşkil etdi. Ən başlıcası isə, Kabilin tutulması və rəsmi hökumətin buranı tərk etməsi ilə indiyə qədər bir-biri ilə aramsız didişmələrdə bulunan qüvvələr arasında münasibətlər yeni məcraya daxil oldu. Bu qüvvələrin qütbləşməsi prosesi baş verdi. Başqa sözlə, Əfqanıstan keyfiyyətcə yeni çəkişmələr mərhələsinə qədəm qoydu ki, bunun da bir tərəfində taliban hərəkatı, o biri tərəfində isə antitaliban qüvvələr dururdu. Antitaliban qüvvələrin birləşməsi və bir araya gəlməsi Kabilin alınmasından sonrakı dövrə təsadüf edir. Belə ki, Kabili tərk etdikdən sonra B.Rəbbani şimalda general Dustum ilə ittifaq yaratdı. Az sonra, 1997-ci ilin iyulunda Q.Hikmətyar rəsmi hökumətin baş naziri təyin oludu, nəhayət ki, Rəbbani-Hikmətyar-Masudşah ittifaqı baş tutdu. Bütün bunların nəticəsində Əfqanıstanda bu gün də davam edən durum yarandı: talibançılar real siyasi hakimiyyətin sahibidirlər, ölkənin 75-80% ərazisi onların nəzarəti altındadır və faktik olaraq beynəlxalq təşkilatlarla, qonşu dövlətlərlə çox cəhətli təmaslardadırlar. Rəsmi hakimiyyət isə prezident B.Rəbbaninin başçılıq etdiyi hökumətə məxsusdur..

Beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən Əfqanıstanın rəsmi təmsilçisi kimi qəbul edilən qüvvə də məhz həmin hökumətdir.

Əfqanıstanda belə bir paradoksal vəziyyətin yaranması lap ilk vaxtlardan beynəlxalq ictimaiyyətin və regionla bağlı olan dövlətlərin narahatlığına səbəb olmuşdur. İlk olaraq məsələnin çözülməsi üçün hələ 1996-cı il 29 oktyabrda Tehranda beynəlxalq konfrans çağırılmışdır. Onun işində İran, Rusiya, Çin, Hindistan, Mərkəzi Asiya dövlətləri iştirak etmişdir. Özbəkistan, Pakistan və Səudiyyə Ərəbistanı dəvət olunmalarına baxmayaraq Tehran konfransına gəlmədilər. Ümumiyyətlə isə konfransın işi nəticəsiz qaldı.

Lap ilk vaxtlardan, Pakistan istisna olmaqla bütün dövlətlər Taliban hakimiyyətinə qarşı idilər. Təbiidir ki, Pakistanla yanaşı talibançıların gizli himayədarları da var idi. Onlar belə hesab edirdilər ki, məhz talibançılar Kabildə möhkəm və dayanıqlı hakimiyyət yarada bilər. Heç şübhəsiz ki, bu məsələdə həmin dövlətlərin strateji maraqlarının təmin edilə biləcək ehtimalı da az rol oynamır.

Digər qonşu dövlətlər isə yaranmış vəziyyətdən o qədər də razı deyillər. Bu baxımdan İranı, Mərkəzi Asiya dövlətlərini və Rusiyanı xüsusi qeyd etmək lazımdır. Rusiya və dörd Mərkəzi Asiya dövləti elan etdilər ki, taliban hərəkatının Əfqanıstan sərhədlərini aşacağı təqdirdə bütün lazımi tədbirlər görəcəklər. İran isə problemin tənzimlənməsi üçün Pakistanla yaxınlaşmağa başladı. 1996-cı ilin sonlarında hər iki dövlətin xarici işlər nazirlərinin imzaladığı birgə bəyanatda beynəlxalq təşkilatlar problemin həllinə kömək etməyə çağırılırdılar.

Talibançıların özlərinin xarici dövlətlərə münasibəti də müvafiq şəkildə idi. İlk dövrlərdən etibarən onlar daha çox ABŞ ilə münasibətlər qurmağa cəhd göstərdilər. Burada həlledici məqam iqtisadi amil idi. Taliban hökuməti ümid edirdi ki, dağılmış iqtisadiyyatı ABŞ-ın iqtisadi yardımı ilə bərpa etmək mümkün ola bilər. ABŞ-a gəlincə, o da taliban hökuməti ilə əlaqələr yaratmağın yollarını araşdırırdı.

Lakin talibançılar və antitaliban koalisiyası arasında hərbi əməliyyatların davam etməsi bütün münasibətlərdə aydınlıq yaranmasına çox ciddi maneə olaraq qalırdı və bu gündə qalmaqdadır. 1996-cı il 13 oktyabrda antitaliban koalisiyası güclü hücumlara başladı. Onlar hətta tərəfləri bir-birindən ayıran Salanq aşırımını ələ keçirə bildilər. Taliban qüvvələri buna 1997-ci ilin yanvarında güclü əks-hücumla cavab verdilər. Uğurlu hərbi əməliyyatlar nəticəsində Salanq aşırımına yaxınlaşdılar. Antitaliban koalisiyası qüvvələri geri

oturuldu. Məsud şahın orduları dağlardakı məşhur Pencər mağaralarında gizlənməyə məcbur oldu. General Dustum isə ölkənin şimalını cənubla birləşdirən yeganə yolu-Salanq aşırımının altındakı tunelin cənub girəcəyindən beş km aralıdakı dağ yolunu partladaraq talibançıların onun nəzarəti altında olan ərazilərə hərəkətinin qarşısını aldı. Qeyd etmək lazımdır ki, bunlar 1997-ci ilin 13 yanvarında- İslamabadda savaş aparan tərəfləri danışıqlar masası arxasına gətirmək cəhdlərinin boşa çıxmasından sonra baş vermişdir. BMT-nin Əfqanıstan üzrə xüsusi missiyasının başçısı N.Hollun bütün cəhdləri savaşan tərəflərin təqsiri üzündən heç cür uğur qazana bilmirdi.

Bununla yanaşı yanvarın sonlarında Aşqabadda BMT-nin forumu çağırıldı və burada Əfqanıstana iqtisadi yardım məsələləri müzakirə edildi. Forumda iştirak edən dövlətlərdən yalnız Türkmənistan Əfqanıstanın «hər iki hökuməti»nə eyni münasibət göstərirdi, qalanlar isə tərəflərdən birini dəstəkləyirdi.

Forumda Əfqanıstanda mövcud olan daxili problemlər də müzakirə obyekti oldu. Bunlardan qadınların hüquqları, təhsil problemləri və s.ni göstərmək olar. Müzakirələrdə ciddi fikir ayrılığı olmasına baxmayaraq Əfqanıstana Beynəlxalq Bank və sponsor dövlətlər tərəfindən yardım edilməsi qərara alındı. Türkiyə, Hindistan, Rusiya və İran əsasən antitaliban koalisiyaya, Avropa Birliyi üzvü olan ölkələr isə taliban hökumətinə yardım etməyi qərarlaşdılar. Dövlətlərin mövcud tərəflərə belə bir münasibəti və bunun BMT prinsiplərinə uyğunsuzluğunun qəbulu faktik olaraq onların hər iki əfqan hökumətini tanıması kimi qiymətləndirilə bilər. Elə bu baxımdan da 1997-ci ilin martında Səudiyyə Ərəbistanı və Pakistanın taliban hökumətini tanıması maraqlı qüvvələrin xüsusi reaksiyasına səbəb olmadı.

Ümumiyyətlə isə 1997-ci ilin yaz aylarından Əfqanıstanda mövcud olan daxili ziddiyyələr və hərbi qarşıdurma prosesində xüsusi bir dinamika müşahidə olunurdu. Tərəflər arasında ara-sıra baş verən hərbi əməliyyatlar hələlik heç kimə əsaslı bir uğur gətirməmişdi.

Sonuncu dəfə 1999-cu ilin avqust ayında aparılan əməliyyatlar, hətta Qəndəharda taliban hökumətinin rəhbəri Molla Məhəmməd Ömərin həyatına edilən sui-qəsd cəhdi heç bir nəticə vermədi. Ölkə ərazisi faktik olaraq döyüşən tərəflər arasında bölüşdürüldü və tərəflərin idarəsi altına keçdi:

1. Prezident tacik B.Rəbbani öz legitim hakimiyyətindən əl

çəkmir və tacik Məsud şahın komandanlığı altında olan hərbi qüvvələr tərəfindən qorunur, taliban hakimiyyətinə qarşı mübarizəni, zəif də olsa, davam etdirirdi. Şimalda taciklərin yaşadığı bir sıra dağ rayonlarına nəzarət edirdi;

2. Özbək general Dustum da şimalda mərkəz Məzari-Şərif olmaqla altı əyalətə nəzarət edirdi. O, 1997-ci ilin sonlarında burada idarəetmə orqanları yaratmış, bununla da faktik olraq həm taliban və həm də B.Rəbbani hakimiyyətini rədd etmişdir. 1999-cu ilin sentyabrında Türkiyənin İstanbul şəhərində «Əfqan-türk kultur dərnəyi»nin açılışı münasibətilə Ə.R.Dustum demişdir ki, Əfqanıstanda yaşayan türklərin milli hüquqları təmin olunana qədər taliban qüvvələrinə qarşı mübarizə davam edəcəkdir və bu mübarizə milli mübarizədir;

3. Ölkənin 75-80% ərazisi puştu talibanların hakimiyyəti altındadır və burada sözün həqiqi mənasında Molla Məhəmməd Ömərin rəhbərliyi altında dövlət hakimiyyəti mövcuddur. Dünya dövlətləri və beynəlxalq təşkilatlar bu hakimiyyəti rəsmi tanımasalar da Əfqanıstanda mövcud olan problemlərin həlli prosesində daha çox talibançıların mövqeləri ilə hesablaşmaq istədiklərini açıq-aşkar nümayiş etdirirlər.

Əfqanıstan, formal olaraq vahid bir dövlət olsa da, faktik olaraq bu gün də parçalanmış haldadır. Parçalanma bununla daha da dərinləşir və dönməz xarakter alır ki, ölkənin cənubunda talibanların hakimiyyəti altında yaşayan qeyri-puştular kütləvi surətdə şimal rayonlarına qaçırlar. Bu da əsasən iki səbəbdəndir: birincisi: monoetnik hakimiyyətə, ikincisi, qatı və bəzən həddini aşan islam qayda-qanunlarına etirazdır. Etnik zəmində formalaşmış iki qüvvə : puştu talibanlar və özbək, tacik, xəzər və s. ni birləşdirən antitalibanlar hələ ki məsələnin nə dinc yolla-danışıqlar yolu ilə, nə də güc tətbiq etməklə- hərb yolu ilə həlli imkanlarından kifayət qədər uzaqdadırlar.

Problemin həllində xüsusi maraqlı olan üçüncü qüvvə isə diasporada olan mühacirlərdir. Onlar da məsələnin həlli yolunu Zahir şah hakimiyyətinin bərpası zəmnində Əfqanıstanın dövlət birliyini saxlamaqda və milli münaqişələrə son qoymağın mümkünlüyündə görürlər. Lakin onların bu istəyi hələ ki ölkə daxilində xüsusi müdafiə tapmadığından bir arzu olaraq qalmaqdadır.

Bunu da qeyd etmək lazımdır ki, 2000-ci ilin may-iyun aylarında Rusiya Federasiyasının rəsmi nümayəndələrinin taliban hökumətini İçkeriya mücahidlərinə yardım etməkdə və Əfqanıstan

ərazisindəki düşərgələrdə İçkeriyada döyüşmək üçün mücahidlər hazırlamaqda ittiham etməsi və hərbi düşərgələri dağıtmaq üçün lazımi tədbirlər görmək planlarını açıqlamasından sonra bu qüvvələr arasında mövcud problemləri sülh və danışıqlar yolu ilə həll etməyə meyl və istək xeyli artmışdı.

Lakin bu dövr uzun çəkmədi, payızda tərəflər yenidən silaha əl atdılar. Şiddətli döyüşlər başladı və talibançılar Məsud şahın komandanlıq etdiyi qüvvələrin əlində olan şəhər və kəndləri bir-birinin ardınca tutaraq rəqiblərini Tacikistan sərhədlərinə sıxışdırdı. Hələ ki hərbi əməliyyatlar davam edir və onun nə zaman bitəcəyini söyləmək çox çətindir.

## KİTABIN İÇİNDƏKİLƏR

GİRİŞ (Rafiq bəy İsmayıl) .................................................. 3-10
YAPONİYA (Rafiq bəy İsmayıl)..........................................11-36
KOREYA (Rafiq bəy İsmayıl)..............................................37-57
ÇİN (Rafiq bəy İsmayıl).....................................................58-115
MONQOLUSTAN (Rafiq bəy İsmayıl)...............................116-129
CƏNUB-ŞƏRQİ ASİYA ÖLKƏLƏRİ (Nərgiz Axundova) .130
VYETNAM (Nərgiz Axundova) ..........................................131-156
LAOS (Nərgiz Axundova) ...................................................157-161
KAMBOCA (Nərgiz Axundova) .........................................162-173
BİRMA-MYANMA İTTİFAQI (Nərgiz Axundova).............174-186
İNDONEZİYA (Nərgiz Axundova).......................................187-212
ASEAN ÜZVÜ OLAN DİGƏR
ÖLKƏLƏR (Nərgiz Axundova) ...........................................213-215
MALAYZİYA FEDERASİYASI (Nərgiz Axundova)...........216-225
SİNQAPUR RESPUBLİKASI (Nərgiz Axundova) ..............226-230
TAYLAND (Nərgiz Axundova) ...........................................231-238
FİLİPİNLƏR (Nərgiz Axundova .........................................239-251
BRUNEY (Nərgiz Axundova) ..............................................252-254
HİNDİSTAN (Rafiq bəy İsmayıl).........................................255-300
PAKİSTAN (Rafiq bəy İsmayıl)...........................................301-326
BANQLADEŞ (Rafiq bəy İsmayıl) .......................................327-341
ŞRİ-LANKA (Rafiq bəy İsmayıl)..........................................342-355
NEPAL.......................................................................................356-365
ƏFQANISTAN (Rafiq bəy İsmayıl).......................................366-398

**Rafig bey Ismail [Ismailov]**
**Nargiz Akhundova**
Contemporary History of Countries of Asia and Africa
(1945-2000)

**Рафиг бей Исмаил [Исмаилов]**
**Наргиз Ахундова**
Современная история стран Азии и Африки
(1945-2000)

**Rafiq İsmayıl oğlu İsmayılov**
**Nərgiz Çingiz qızı Axundova**
Asiya və Afrika ölkələrinin çağdaş tarixi
(1945-2000-ci illər)

| | |
|---|---|
| Nəşriyyatın direktoru | E.A.Əliyev |
| Mətbəənin direktoru | S.O.Mustafayev |
| Texniki redaktoru və kompüter dizaynı | F.Z.Kərimov |

Yığılmağa verilib 26.03.2001. Çapa imzalanıb 29.05..2001.
Formatı 60x90 $^1/_{16}$. Ş.ç.v. 25. Ofset kağızı.
Sifariş № 43. Sayı 500 nüsxə. Qiymətі müqavilə ilə.

*«Çaşıoğlu»* mətbəəsi
Bakı, M.Müşfiq küç. 2a.